QƏZƏNFƏR RƏCƏBLİ

# AZƏRBAYCAN TARÌXÌ

***OÇERKLƏR***

**"Elm və təhsil"**
**Bakı – 2013**



***Bakı Slavyan Universiteti Elmi Şurasının qərarı ilə nəşrə məsləhət görülmüşdür.***

**Elmi redaktor**: **Teymur Bünyadov**
*akademik*

**Rəyçilər:** **Qüdrət İsmayılzadə**
*Azərbaycan Respublikasının Əməkdar müəllimi, BDU Arxeologiya və Etnoqrafiyasının kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

**Anar İskəndərov**
*BDU Mənbəşünaslıq, Tarixşünaslıq və Metodika kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

**Qəzənfər Əjdər oğlu Rəcəbli**.
Azərbaycan tarixi. Bakı, «Elm və təhsil», 2013, 544 səh.

"Azərbaycan tarixi"nin oçerkləri Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Lənkəran Dövlət Universiteti və Bakı Qızlar Universitetində 1974-2012-ci illərdə oxunmuş mühazirələrin icmalları əsasında yazılmışdır. Kitabda Azərbaycan tarixinin ən qədim zamanlardan müasir dövrədək zəngin tarixinin qızıl səhifələri öz əksini tapmışdır. Metodoloji əsasını azərbaycançılıq ideologiyası təşkil edən kitab geniş oxucu kütlələri üçün nəzərdə tutulur. Kitab həmçinin müstəqil Azərbaycan Respublikası ali məktəblərinin tələbələri üçün əlavə dərs vəsaiti kimi tövsiyə oluna bilər.

$\frac{4603000000}{N098 \quad 2013}$ ***qrifli nəşr***

**© «Elm və təhsil», 2013**

## G İ R İ Ş

**Azərbaycan tarixinin öyrənilməsinin əhəmiyyəti.** Müasir ali məktəb cəmiyyət üçün yüksək ixtisaslı kadrlar hazırlamaq kimi mühüm və şərəfli bir vəzifəni həyata keçirir. Onun hazırladığı ali təhsilli mütəxəssislər təhsil illərində nəzəri biliklərə və təcrübi vərdişlərə yiyələnirlər. Bu kompleks vəzifənin öhdəsindən gəlmək üçün Azərbaycan Respublikasının universitet, akademiya və digər ali məktəblərində ixtisas fənləri ilə yanaşı ictimai-siyasi fənlərin öyrənilməsinə də xüsusi əhəmiyyət verilir. Ali məktəblərimizdə tədris edilən ictimai-siyasi fənlərdən birincisi Vətən tarixi – “Azərbaycan tarixi”dir. Universitetlərin tarix fakültələrində və regionşünaslıq istiqamətli bir çox ixtisaslar üzrə bakalavr hazırlığında isə “Azərbaycan tarixi” əsas ixtisas fənlərindən biri sayılır.

“Azərbaycan tarixi”ni öyrənməyin gənclərimiz üçün önəmli borc olduğunu qeyd edən ulu öndərimiz Heydər Əliyev respublika gənclərinin birinci forumunda demişdir ki, gənclərimiz minlərlə elmlərdən birinə mükəmməl yiyələnməklə yanaşı, iki elmi mütləq öyrənməlidirlər. Bu elmlərdən biri ana dili – Azərbaycan dilidir, digəri isə vətən tarixi – Azərbaycan tarixidir.

Azərbaycan tarixini öyrənməyin əhəmiyyətindən bəhs etmədən öncə bilmək lazımdır ki, tarix nədir? “Tarix” ərəb sözüdür, “tədqiqat”, yaxud “hadisələr haqqında hekayət" deməkdir. Tarix insanın həyat və fəaliyyəti ilə bağlı olan





keçmişi və müasir durumu öyrədən elmdir. Tarixi öyrənməklə insan ondan nümunə götürür, tarixi keçmişdə nə səmərəli və mütərəqqi şey varsa onu mənimsəyir ki, yenidən onu yaratmağa əmək sərf etməsin, yalnız onu təkmilləşdirib daha da inkişaf etdirsin. Tarixi öyrənməklə insan eyni zamanda ondan dərs alır, ibrət dərsi götürür ki, əcdadlarının keçmişdə buraxdıqları səhvləri bir daha təkrar etməsin.

Tarixi öyrənməklə insan öz dünya görüşünü genişləndirir, biliyini artırır. Bu mənada tarixin öyrənilməsi elmi-idraki əhəmiyyətə malikdir.

Tarixin öyrənilməsinin həm də ideya-siyasi və tərbiyəvi əhəmiyyəti vardır. Tarixin öyrənilməsinin ideya-siyasi əhəmiyyəti ondan ibarətdir ki, gələcək mütəxəssis, ziyalı şəxs öz hüquqlarını bilməklə yanaşı, cəmiyyət qarşısında öz borcunu və vəzifələrini də dərk edir və həmçinin ölkənin daxili vəziyyətindən, yaxud beynəlxalq hadisələrdən baş çıxarıb onlara düzgün siyasi qiymət verməyi və ən optimal, doğru yolu seçməyi bacarır. Tarix insanlara qüvvələr nisbətini düzgün müəyyənləşdirmək və konkret şəraitdə doğru-düzgün qərar qəbul etmək təcrübəsi verir.

Tarix gənclərə mətin və sayıq olmağı öyrədir. Tarix gənclərdə siyasi sayıqlıq, düşmən hansı cildə girirsə girsin, onu tanımaq bacarığı və ona qarşı barışmazlıq ruhu tərbiyə edir. Tarix öyrədir ki, qəddar düşmənlə münasibətdə humanizm prinsiplərini unutmaq gərəkdir. Çünki düşmən, artıq insan deyil, düşməndir, onu yırtıcı vəhşi heyvanla müqayisə etmək olar. Tarix düşmənə qarşı amansız olmağı öyrədir. Tarix öyrədir ki, əgər düşmən təslim olmazsa, onu məhv etmək lazımdır, əgər sən onu məhv etməsən, o səni məhv edər. Bu tarixi həqiqətin bədii təcəssümü özünü “Kitabi – Dədə Qorqud” dakı bir epizodun “Dədə Qorqud” filmində dəyişdirilmiş variantında tapmışdır. Dastanda Qazan xan düşmən olmuş dayısı Aruzu məğlub edib, öldürməyi qardaşı Qaragünəyə tapşırır. Məşhur sərkərdə Qaragünə dayısı Aruza aman vermir,

bir anda onun başını bədənindən ayırır. Filmdə isə Qazan xan Aruzunun öldürülməsini oğlu Turala həvalə edir. Tural isə Aruza aman verib onu buraxır. Bu fürsətdən istifadə edən Aruz ox ilə Turalı vurub öldürür. Filmin yaradıcıları dastanın bu epizodunu belə dəyişməklə demək istəmişlər ki, düşmənə aman vermək olmaz, əgər sən onu öldürməsən, o səni öldürər.

Tarixi öyrənməklə əcdadlarının təcrübəsindən nümunə götürən müasir gənc onu təhlil etmək və qiymətləndirmək nəticəsində ayrı-ayrı kollektivlərin və bütövlükdə cəmiyyətin idarə olunmasında şüurlu surətdə iştirak etmək vərdişləri qazanır.

Tarixin öyrənilməsinin əhəmiyyəti haqqında məşhur rus mütəfəkkiri N.Çernışevski çox gözəl deyib: "Minlərlə elmlərin hamısını dərindən bilməmək, lakin ziyalı olmaq mümkündür. Tarix elmini isə yalnız əqli cəhətdən zəif inkişaf etmiş adam sevməyə bilər." Tarix hər bir şəxsdə ümumi bəşəri, humanis keyfiyyətləri və vətənpərvərlik hissləri tərbiyə edir. Bu baxımdan "Azərbaycan tarixi" kursunun əhəmiyyəti daha böyükdür.

Azərbaycan dünyanın ən qədim insan məskənlərindən biri olmaqla, dünya sivilizasiyasının qədim ocaqlarından da biridir. Azərbaycan xalqı özünün beşminillik tarixi ərzində dünya dövlət quruculuğu tarixinə 40-dan çox dövlət vermişdir.

Azərbaycanın tarixi ərazisinin şimal sərhədləri Baş Qafqaz sıra dağlarının cənub yamacları boyu, qərb sərhədləri Baş Qafqaz sıra dağlarının Suram dağ silsiləsi, Kiçik Qafqaz dağlarının qərb yamacları və Qotur dağ silsiləsi boyu cənuba doğru uzanır. Onun cənub hüdudlarını Zaqros dağları təşkil edir. Azərbaycan şərqdə Xəzər dənizi ilə və İranın Qəzvin, Zəncan və Həmədan bölgələri ilə hüdudlanır. Azərbaycanın tarixi torpaqlarının ümumi sahəsi 250 min kv.km-dən artıq olmuşdur.

Azərbaycan xalqı qədim zamanlardan özünün yüksək mədəniyyətini yarada bilmişdir. Bu mədəniyyəti həm öz kökü





üzərində yaratmış, inkişaf etdirmiş, həm də digər xalqlardan mütərəqqi cəhətləri mənimsəməklə öz mədəniyyətini zənginləşdirmişdir. Bu mənimsəmə və zənginləşmə qarşılıqlı olmuşdur. Digər xalqlar da öz növbəsində Azərbaycan xalqından onun mütərəqqi cəhətlərini götürməklə öz mədəniyyətlərini inkişaf etdirmişlər. Beləliklə, bu qarşılıqlı təsir nəticəsində bir-birini tamamlayan iki proses getmişdir. Bir tərəfdən milli mədəniyyətlər zənginləşmiş və inkişaf etmişdir. Digər tərəfdən milli mədəniyyətlərdə universal ünsürlər yaranmaqla ümumbəşər mədəniyyəti də inkişaf etmişdir. Azərbaycan tarixini öyrənməklə bu prosesi dərk etməyin özü hər bir şəxsdə humanizm və beynəlmiləlçilik tərbiyə etməklə yanaşı, yüksək vətənpərvərlik duyğuları da tərbiyə edir. Ulu öndərimiz Heydər Əliyev demişdir: "İnsanlar bütün bunları nə qədər çox bilsələr, millətini, xalqını, Vətənini və müstəqil Azərbaycanı da bir o qədər çox sevəcəklər".

**Azərbaycan tarixinin qaynaqları.** Minillikləri əhatə edən Azərbaycan tarixinin ən mötəbər qaynaqlarından biri arxeoloji qazıntılar zamanı əldə edilən tapıntılardır. Paleolitdən tutmuş orta əsrlərə qədər bütün dövrləri əhatə edən zəngin arxeoloji materiallar Azərbaycanın qədim və orta əsrlər tarixini öyrənməyə, bərpa etməyə və dəqiqləşdirməyə imkan verir.

Azərbaycan tarixini öyrənmək üçün epiqrafik abidələrin də qaynaq kimi əhəmiyyəti vardır. Azərbaycan tarixinin qaynaqları sırasında etnoqrafik materiallar da önəmli yer tutur.

Azərbaycan ərazisində baş verən tarixi proseslər qədim və orta əsrlərə aid antik, ərəb – Suriya, fars, erməni, gürcü, rus və qərbi Avropa yazılı qaynaqlarında, habelə yeni və müasir dövrə aid arxiv sənədlərində öz əksini tapmışlar. Əlbəttə bu yazılı qaynaqlara tənqidi, yaradıcı surətdə yanaşmaq tələb olunur. Çünki həmin qaynaqlar məxsus olduqları ölkələrin, dövlətlərin və xalqların maraqlarına xidmət etmişlər. Bu baxımdan erməni qaynaqları tarixi həqiqətləri saxtalaşdırmaları ilə xüsusilə fərqlənirlər. Bunu V əsr erməni mənşəli Bizans

tarixçisi Moisey Xorenatsidən başlayaraq XX əsrə qədər bir çox erməni müəllifləri özləri də etiraf edirlər. XX əsr erməni tarixçisi prof. Qarsoyan erməni müəlliflərinin tarixi saxtalaşdırmalarını qeyd edərək yazırdı ki, biz ermənilər tarixi necə var deyil, necə görmək istəyiriksə, elə də yazırıq.

Eramızın VII əsrinə qədər mövcud olmuş Azərbaycanın bütün yazılı qaynaqları yadellilər tərəfindən – ilk dəfə xristianlığın yayıldığı dövrdə xristian kilsəsi tərəfindən, sonra isə erməni xristian din xadimlərinin çuğulluğu ilə ərəblər tərəfindən məhv edilmişdir. Azərbaycanın yeganə qədim yazılı abidəsi "Kitabi – Dədə Qorqud" isə dastan olduğu üçün tarixi qaynaq kimi Azərbaycanın qədim və erkən orta əsrlər tarixini tam bərpa etməyə imkan vermir.

Azərbaycan tarixşünaslığında qəbul edilmiş yanlış fikrə görə M.Kalankatuklunun "Albaniya tarixi" kitabı Azərbaycanın ən qədim yazılı abidəsi – tarixi qaynağı hesab edilir. Əvvələn "Albaniya tarixi" tarixilik baxımından "Kitabi – Dədə Qorqud"dan sonrakı dövrə aiddir. İkincisi, "Albaniya tarixi" orijinalda bizə gəlib çatmamışdır, ermənicəyə tərcümə variantında XIX əsrdə aşkar edilmişdir. Həm də mətndən aydın olur ki, tərcümə zamanı erməni kilsə xadimləri tərəfindən saxtalaşdırmaya məruz qalmışdır. Odur ki, M.Kalankatuklunun "Alban tarixi" kitabını xalqımızın ən qədim yazılı qaynağı hesab etmək olmaz.

Əslində xalqımızın ən qədim yazılı abidəsi "Kitabi - Dədə Qorqud"dur. "Kitabi - Dədə Qorqud"un VII əsrdə yazıldığı qəbul edilmişdir. Bu tarix dastanın giriş hissəsində Dədə Qorqudun Məhəmməd (s) peyğəmbərin zəmanəsində yaşaması haqqında məlumata əsaslanır. Lakin dastanda bəhs olunan iç oğuzlar və daş oğuzların Assur qaynaqlarında bəhs olunan işquzlar və aşquzlar ilə eyni soylar olmasını nəzərə alsaq, "Kitabi - Dədə Qorqud"un tarixinin daha qədim olması fikrini irəli sürmək olar. Məlumdur ki, qədim yunan qaynaqlarında çar skitləri adı ilə tanınan soyları, rus tarixşünaslığı vasitəsilə bizə





skiflər adı ilə gəlib çıxmışlar. E.ə. VII əsrdə Azərbaycanda öz Oğuz dövlətlərini yaratmış həmin skiflər assur qaynaqlarında işquzlar və aşquzlar adı ilə təqdim edilirlər. Bunlar da "Kitabi - Dədə Qorqud"dakı iç oğuzlar və daş oğuzlara tamamilə uyğundurlar. Deməli, "Kitabi - Dədə Qorqud"da e.ə. VII əsrdə Azərbaycanda yaşamış və Ön Asiyanın ən qüdrətli dövlətlərini belə xərac verməyə məcbur edən oğuzlardan (skiflərdən) bəhs edilir. Bu da təbiidir. Çünki başqa tarixi dövrlərdə, nə Haxa-manişilərin hakimiyyəti dövründə, nə Makedoniyalı Aleksand-rın imperiyasında, nə Atropaten və Alban dövlətlərində oğuzların xanlar xanının belə qüdrətə və nüfuza malik olması haqqında tarixdə heç bir məlumat yoxdur. Bu dövrlərdə və sonralar Azərbaycanda və Albaniyada xristianlığın yayıldığı əsrlərdə oğuzların belə sərbəst yaşamalarından və şan-şöhrətə malik olmalarından bəhs edən dastan yarana bilməzdi. Ona görə də "Kitabi - Dədə Qorqud"un e.ə. VII-VI əsrlərdə yaradılması qənaətinə gəlmək olar.

Onu da qeyd etmək lazımdır ki, 1841-ci ildə yazılmış A.Bakıxanovun "Gülüstani-İrəm" və Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi" əsərləri də XIX əsrdə əl yazması şəklində tarixi qaynaq hesab edilirdilər və ilk dəfə 1926-cı ildə çap olundular.

Azərbaycan tarixinin qaynaqlarına XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan ziyalıları tərəfindən tərtib edilmiş Azərbaycan xanlıqlarının tarixindən bəhs edən səlnamələri də aid etmək olar. Bu qaynaqlar arasında Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal Cavanşir Qarabağlının "Qarabağ tarixi", Əhmədbəy Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi tarixinə dair" səlnamələrini xüsusi qeyd etmək lazımdır. Bu dövrdə yazılmış Yesayi Həsən Cəlalyanın rus dilində olan "Alban ölkəsinin qısa tarixi (1702-1722)" əsəri də Azərbaycan tarixinin qiymətli qaynaqlarındandır. Bu qaynaqlarda XX əsrin əvvəllərinədək

əlyazmaları şəklində qalmışdılar və yalnız Sovet Azərbaycanı dövründə çap edildilər.

**Azərbaycan tarixşünaslığı.** Azərbaycan tarixşünaslığının ilk əsərləri A.Bakıxanovun Azərbaycan tarixinə və etnoqrafiyasına həsr edilmiş tədqiqatları hesab edilir. Bu tədqiqatları XX əsrin ikinci yarısında A.Bakıxanovun rus dilində “Seçilmiş əsərlər”ində çap edilmişdir.

1923-cü ildə Y.Paxomov tərəfindən rus dilində yazılmış “Azərbaycan tarixinin qısa kursu” kitabı nəşr edilir. Yalnız Şimali Azərbaycanın tarixini əhatə edən bu kitab Azərbaycan tarixşünaslığına qiymətli töhfə olsa da, ümumiləşdirici Azərbaycan tarixi əsəri tələblərinə cavab vermirdi. Həmin ildə nəşr edilmiş R.İsmayılovun “Azərbaycan tarixi” kitabı isə elmi faktların dəqiqliyi və mənbələrə əsaslanmaq səviyyəsi baxımından çox nöqsanlıdır.

1925-ci ildə V.Sısoyevin rus dilində “Azərbaycan tarixi” kitabı nəşr edilmişdir. 140 səhifədən ibarət olan bu kitabda Cənubi Azərbaycanda baş verən tarixi hadisələrdən bəhs edən mövzular tarixə tənəzzöh səciyyəsi daşıyır. V.Sısoyevin kitabı nöqsanlarına baxmayaraq, o Azərbaycan tarixinə aid ilk ümumiləşdirici əsər kimi tarixşünaslıq baxımından əhəmiyyətlidir.

Azərbaycan tarixşünaslığı baxımından 1941-ci ildə Azərbaycan dilində nəşr edilmiş “Azərbaycan tarixinin qısa oçerkləri” kitabının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan tarixinə dair Azərbaycan dilində ilk ümumiləşdirici əsər olan bu kitabda həm Şimali, həm də Cənubi Azərbaycanın çoxəsrlik tarixinin əsas səhifələri öz əksini qısaca şəkildə tapmışdır. Bu kitabın nəşrindən sonra Azərbaycan tarixinə dair bir sıra monoqrafiyalar yazılmışdır. Onların arasında professor Z.İbrahimovun 1942-ci ildə nəşr edilmiş “Ərəb işğalçılarına qarşı Azərbaycan xalqının mübarizəsi”, İ.Petruşevskinin 1949-cu ildə Leninqradda rus dilində nəşr edilmiş “XV əsrdə Azərbaycan dövlətləri” və “Azərbaycanda və Ermənistanda XVI-XIX əsrin əvvəllərində feodal münasibətlərinin tarixinə





dair oçerklər”, akademik Ə.Əlizadənin 1956-cı ildə Bakıda rus dilində nəşr edilmiş “XIII-XIV əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi tarixi” adlı monoqrafiyalarının xüsusi elmi əhəmiyyəti vardır.

1956-cı ildə Azərbaycan SSR hökuməti respublikanın tarixçi alimləri qarşısında üç cildlik “Azərbaycan tarixi” əsərinin yaradılması kimi mühüm bir vəzifə qoydu. Bu vəzifə Azərbaycan EA Tarix İnstitutu tərəfindən 1956-1962-ci illərdə həyata keçirildi. Üç cildlik “Azərbaycan tarixi”nin akademik nəşrinin 1-ci cildi rus dilində 1958-ci ildə, Azərbaycan dilində 1959-cu ildə, 2-cild müvafiq olaraq 1960 və 1961-ci illərdə, 3-cü cild isə 1961 və 1962-ci illərdə çapdan çıxmışdır.

Üç cildlik “Azərbaycan tarixi”nin akademik nəşrindən sonra Azərbaycan tarixinin bütün dövrlərini əhatə edən yüzlərlə monoqrafiyalar yazılmışdır. Onların sırasında İ.Əliyevin “Midiya tarixi”, S.Qaşqayın “Mana tarixi”, Z.Yampolskinin “Qədim Albaniya e.ə. III-I əslərdə”, Z.Bünyadovun “Azərbaycan VII-IX əsrlərdə” və “Azərbaycan Atabəylər dövləti”, S.Aşurbəylinin “Şirvanşahlar dövləti” və “Bakı tarixi”, Y.Mahmudovun “Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa dövlətləri ilə qarşılıqlı münasibətləri”, O.Əfəndiyevin “Səfəvilər dövləti”, H.Abdullayevin “Azərbaycan XVIII əsrdə və Rusiya ilə qarşılıqlı münasibətlər”, F.Əliyevin “Azərbaycanda İran əleyhinə çıxışlar və Türkiyə işğalına qarşı mübarizə”, T.Mustafazədənin “Azərbaycan və XVIII əsrin birinci rübündə rus – türk münasibətləri”, C.Mustafayevin “Şimali Azərbaycan xanlıqları və Rusiya (XVIII əsrin sonu - XIX əsrin əvvəlləri)”, N.Mustafayevanın “Cənubi Azərbaycan xanlıqları”, Ə.Sumbatzadənin “Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri”, “Azərbaycan kənd təsərrüfatı XIX əsrin ikinci yarısında” və “Azərbaycan sənayesi XIX əsrin sonu - XX əsrin əvvəllərində”, M.İsmayılovun “Azərbaycan kənd təsərrüfatı XX əsrin əvvəllərində” və “Birinci Rusiya inqilabı illərində

Azərbaycanda kəndli hərəkatı", T.Vəliyevin "İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı", Ə.Quliyevin "Bakı proletariatının şanlı qələbəsi", Z.İbrahimovun "Azərbaycan birinci Rusiya inqilabı illərində" və "Sosialist inqilabın qələbəsi uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi", M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", V.Çıraqzadənin "İstiqlal yollarında", N.Nəsibzadənin "Azərbaycan Demokratik Respublikası", Ş.Tağıyevanın "1920-ci il Təbriz üsyanı", Q.Mədətovun "Azərbaycan Böyük Vətən müharibəsi illərində" və s. əsərlərin Azərbaycan tarixşünaslığının inkişafında xüsusi rolunu qeyd etmək lazımdır.

Azərbaycan tarixşünaslığında 1998-2003-cü illərdə nəşr olunmuş 7 cildlik "Azərbaycan tarixi" kitabı önəmli yer tutur. Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə nəşr olunmuş bu kitab Azərbaycanın tarix elmində çox mühüm elmi əhəmiyyətli hadisədir. Lakin bu nəşrin çox böyük nöqsanları da vardır. Hər şeydən öncə qeyd etmək lazımdır ki, 7 cildlikdə Azərbaycanın Rusiya və İran arasında bölünməsindən sonrakı dövrün Cənubi Azərbaycanla bağlı tarixi öz əksini tapmamışdır. Bu həm elmi səhvdir, həm də bağışlanılmaz siyasi səhvdir. 7 cildliyin nöqsanlarından biri də ondan ibarətdir ki, onun ayrı-ayrı fəsilləri onları yazan müəlliflərin elmi işləridir. Həmin elmi işlər ümumiləşdirici əsər üçün yenidən işlənmədən, elə elmi-tədqiqat işləri formasında kitaba daxil edilmişdir. Onlar bir tərəfdən kitabda disproporsiya yaradır, digər tərəfdən isə onu yazan konkret müəlliflərin şəxsi mülahizələri xarakteri daşıyırlar. 7 cildlikdə vahid redaksiya üslubu yoxdur, bəzi tarixi anlayışlar, dövlət və sülalə adları müxtəlif fəsil və paraqraflarda müxtəlif şəkildə səslənir. Məsələn, gah "Mada", gah da "Midiya", bəzi yerlərdə "Haxamanizilər", bəzi yerlərdə isə "Əhəmənilər", bir yerdə "Azərbaycan Cümhuriyyəti", başqa yerdə "Azərbaycan Xalq Cümhuriyyəti", gah "N.Usubbəyli" gah da "N.Yusifbəyli", yaxud N.Usubbəyov və i.a. 7 cildlikdə erməni qaynaqlarının təsiri alrında bəzi müəlliflər qədim





erməni dili qrabarda olan bir sıra anlayışlar işlətmişlər. Məsələn, "hazaraped", "sparaped" və i.a. II cilddə yazılır ki, guya "hazaraped" III-VII əsrlərdə Albaniyanın ermənilər yaşayan vilayətlərində nümayəndəliklər təşkil etmişdir" (s.55) Halbuki Azərbaycan tarixşünaslığında artıq sübut edilmişdir ki, ermənilər yalnız XII əsrdə Qafqaza gəlmiş və əsasən Gümrü bölgəsində məskunlaşmışlar. Kitabda hətta Alban sərkərdəsi Cavanşir "Alban sparapedi Cavanşir" adlandırılır. Erməni qaynaqları əsasında 7 cildlikdə öz əksini tapmış bütün bu kobud səhvlər, Albaniyanı ermənilərin torpağı adlandıran düşmənlərimizin dəyirmanına su tökməyə bərabərdir. Kitabda azərbaycanlıların Mart (1918-ci il) soyqırımı da azərbaycançılıq elmi metodologiyasına uyğun olmayan şəkildə şərh edilmişdir.

Nəhayət, 7 cildlikdə dəqiq olmayan faktlar vardır. Məsələn, 4-cü cilddə Naxçıvan xanlığı "Cənubi Qafqaz xanlığı", Talış xanlığı "Lənkəran xanlığı", Lənkəran qəzası isə "Talış qəzası" adlandırılır. (s. 37, 49, 127) 5-ci cilddə Səttarxanın şəklinin altında kobud səhvə yol verilərək "Cənubi Azərbaycanda 1917-1922-ci illər milli-azadlıq hərəkatının lideri" yazılmışdır. 7-ci cilddə isə hətta ulu öndərimiz Heydər Əliyev ilə bağlı tarixlər səhv yazılmışdır. Onun Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədrinin müavini təyin edilməsi tarixi 1964-cü il əvəzinə 1965-ci il, sədr təyin edilməsi tarixi isə 1967-ci il əvəzinə yenə də 1965-ci il qeyd olunmuşdur. Kitabda ayrı-ayrı fəsillərdə təkrarlar, üslub və orfoqrafiya xətaları vardır. Məsələn, 7-ci cilddə topçu divizionu "diviziya", tabır "tabor" və s. kimi yazılmışdır və s.

Milli Məclis hələ 1991-ci ilin dekabrında latın qrafikli Azərbaycan əlifbasına keçilməsi haqqında Qanun qəbul etdiyi halda, 1998-2003-cü illərdə nəşr olunmuş 7 cildliyin rus qrafikli əlifba ilə buraxılması, təkcə kobud səhv deyil, həm də xalq qarşısında cinayətdir. Çünki artıq yeni nəslin çoxu rus əlifbasını bilmir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu səhvi düzəltmək məqsədilə rus qrafikli əlifba ilə nəşr olunmuş

əsas kitabların, o cümlədən 7 cildlik "Azərbaycan tarixi" kitabının latın qrafikli Azərbaycan əlifbası ilə təkrar nəşr olunması haqqında sərəncam vermişdir. Yaxşı olardı ki, 7 cildlik "Azərbaycan tarixi" kitabı latın qrafikli əlifba ilə yenidən nəşr olunan zaman elmi baxımdan təzədən işlənsin, nöqsanlar düzəldilsin və ulu öndərimiz Heydər Əliyevi arzu etdiyi kimi 10 cildliyə çevrilsin.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda tarix elmi inkişaf edir. Yüksək səviyyəli araşdırmalar aparılır, yeni-yeni nailiyyətlər əldə edilir. Hazırda Azərbaycan tarixinin elə bir dövrü yoxdur ki, elmi-tədqiqat obyektinə çevrilməsin. Lakin Azərbaycan tarixinin yeni-yeni səhifələri açıldıqca, yeni-yeni problemlər, öyrənilməmiş məsələlər, yeni baxımdan açıqlanmaya ehtiyacı olan hadisələr də meydana çıxır. Bu problemlərin həlli Azərbaycan tarixşünaslığının qarşısında olduqca məsul vəzifələr qoyur.

**Ədəbiyyat**:


1. H.Əliyev. Müstəqilliyimiz əbədidir. Əsərləri 45 cilddə, 1-43-cü cildlər, Bakı, 1997-2013.
2. Azərbaycan tarixi. 7-cilddə, 1-ci cild, Bakı, 1998.
3. Azərbaycan tarixi. Dərslik, 1-ci cild, Bakı, 1994.
4. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
5. A.Bakıxanov. Gülüstani – İrəm. Bakı, 1951.
6. Qarabağnamələr. 2 cilddə, Bakı, 1989-1990.
7. M. Kalankatuklu. Albaniya tarixi. Bakı, 1993.
8. Kitabi – Dədə Qorqud. Bakı, 1962.






# I FƏSİL

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ İBTİDAİ CƏMIYYƏT

**1.1. Azərbaycan ərazisində Daş dövrü.** Azərbaycan ərazisində ibtidai icma quruluşu Daş dövründən başlanır. Arxeoloji baxımdan Daş dövrü özü də üç dövrə bölünür: Paleolit – Qədim Daş dövrü, Mezolit – Orta Daş dövrü və Neolit – Yeni Daş dövrü. Paleolit dövrü də arxeoloqlar tərəfindən üç mərhələyə bölünür: Alt Paleolit, Orta Paleolit və Üst Paleolit.

Azərbaycan ərazisində hələ 12 milyon il əvvəl meymunabənzər insanlar yaşamışlar. Buna sübut 1939-cu ildə Şimali Azərbaycanın qərb bölgəsində Ceyrançöl düzənliyinin mərkəzində Udabno adlanan yerdə meymunabənzər insanın dişlərinin tapılmasıdır. Ölkəmizin ərazisində yaxşı öyrənilmiş Alt Paleolit dövrünə aid ən qədim insan mədəniyyəti izlərindən biri Quruçay mədəniyyəti adlanır. Bu mədəniyyətin isə 1,5 milyon ildən artıq yaşı var.

Quruçay mədəniyyəti insanları əvvəllər açıq düşərgələrdə yaşamışlar. Sonralar iqlim şəraitinin dəyişməsilə bağlı olaraq, onlar Quruçayın yaxınlığındakı Azıx mağarasına köçmüşlər. İnsanların Azıx mağarasına köçmələri təxminən 1,2-1,0 milyon il bundan əvvələ aid edilir.

Quruçay mədəniyyətinin ilkin mərhələsi Afrikada öyrənilmiş Oldubey Paleolit dövrü mədəniyyəti ilə eyni tarixə malikdir. İlkin mərhələnin əmək alətləri adi çay daşından çox kobud hazırlanmışdır. Bu mərhələnin insanları çay daşlarından qəlpələr qoparmağı və onlardan kəsici alətlər kimi istifadə

etməyi bacarmışlar. Bu mərhələdə ibtidai insan sürü icması yaranır. İnsanların sürü icması kiçik qruplarda birləşmiş kollektivlərdən ibarət olmuşdur. İbtidai insan sürü icması Qədim Daş dövrünün böyük bir hissəsini, təxminən 750 minillik dövrü əhatə edir.

Quruçay mədəniyyətinin ikinci inkişaf mərhələsi 700-150 min il bundan əvvəlki dövrü əhatə edir. Bu mərhələdə insanlar süni yolla od əldə etməyi öyrənmişlər. 1960-cı ildə görkəmli arxeoloq Məmmədəli Hüseynov tərəfindən kəşf edilmiş Azıx mağarasında tapılmış ən qədim ocaq qalığı bu mərhələyə aiddir. Həmin ocağın 700 min ilə yaxın yaşı vardır.

Azıx mağarasında 1968-cı ildə prof. M.Hüseynov tərəfindən ibtidai insana məxsus alt çənə sümüyünün tapılması Azərbaycan tarixində yeni səhifə açdı. Qadına məxsus bu çənə sümüyü əsasında Quruçay mədəniyyətinin ikinci mərhələsi insanlarının fiziki tipini bərpa etmək mümkün oldu. Antropoloq alim, prof. Dəmir Hacıyev tərəfindən öyrənilmiş bu insan tipi tapıldığı yerin adı ilə azıxantrop adlandırıldı. Alimlər azıxantrop insan tipini təxminən 400 min il əvvələ aid edirlər. Müasir antripologiya elmində azıxantrop insan tipi qədim insan tipləri sırasında pitekantrop insan tipindən sonra yerləşdirilir; neandertal, sinantrop və heydelberq insan tipləri ondan sonra gəlirlər.

Azıx mağarasında azıxantropa məxsus çənə sümüyü ilə yanaşı kobud əl çapacaqları, sadə quruluşlu daş bıçaq və qaşov kimi qədim əmək alətləri və nəsli kəsilmiş heyvanların sümükləri də tapılmışdır. Mağarada yaşı 350 min ilə yaxın olan tikinti qalığı da aşkar edilmişdir. Azıx mağarasında aşkar edilmiş ocaqdan istifadə etməklə birlikdə, bu yaşayış tikintisi də bəşər tarixinin ən qədim naliyyətlərindən hesab edilirlər.

Orta Paleolit dövründə insanlar Azərbaycan ərazisində Kiçik Qafqaz sıra dağlarının cənub-şərq yamaclarından tutmuş Ceyrançöl düzənliyinə qədər geniş bir əraziyə yayılmışlar. Orta Paleolit dövründə neandertal insan tipi əsasında homo sapiens





(ağıllı adam) insan tipi yaranır. Orta Paleolit Azərbaycanda 100-35 min il əvvəli əhatə edir. Orta Paleolit abidələri ilk dəfə aşkar edilmiş yerin Fransada Le Mustye adı ilə Mustye mədəniyyəti də adlanır. Orta Paleolit abidələri Azərbaycanda Tağlar (Qarabağda, Quruçayın sol sahilində), Daşsalahlı (Qazax rayonunda), Qazma (Şərur rayonunda) və Bızeyir (Lerik rayonunda) mağaralarında aşkar edilmişdi.

Müasir insan tipi isə Üst Paleolitdə meydana gəlmişdi. Üst Paleolit Azərbaycan ərazisində təxminən 35 min il əvvəldən başlamış və e.ə. 12 minilliyə qədər davam etmişdir. Üst Paleolit dövrünə aid maddi mədəniyyət nümunələri Damçılı mağarasında, Yataq və Zar adlı yaşayış yerlərində aşkar edilmişdir. Üst Paleolit dövründə ibtidai insan sürü icması nəsli – qəbilə icması ilə əvəz olunur. Qəbilə icmasında insanlar qan qohumluğu əsasında birləşirlər. Qohumluq əlaqələri ana xətti ilə müəyyən edilirdi. Qəbilə icmasının şərti olaraq “matriarxat” adlandırılması da nəslin ana xətti ilə hesablanmasıyla bağlıdır.

Azərbaycan ərazinsində e.ə. 12-10-cu minilliklərdə Paleolit dövrü Mezolit dövrü ilə əvəz olunur. Mezolit dövründə qədim insanların ən mühüm ixtiralarından biri ox və kamanın (yayın) kəşfidir. Mezolit dövründə insanlar təbiətin hazır məhsullarını mənimsəməkdən, yəni yığıcılıqdan məhsulların bilavasitə istehsalına keçidin əsasını qoyurlar. Mezolit dövründə Azərbaycan ərazisində yaşamış insanların həyat tərzi Qobustan qayaüstü rəsm abidələri əsasında öyrənilmişdir. Arxeoloji tədqiqatlar müəyyən etmişdir ki, burada həyat 12 min il əvvəl başlamışdır. Qobustanda Mezolit dövrü insanlarının məşğuliyyəti ovçuluq, balıqçılıq, yığım və ibtidai maldarlıq olmuşdur. Burada “Firuz”, “Anazağa”, “Öküzlər” və b. düşərgələrdə çaxmaq daşı və çay daşlarından, habelə sümükdən hazırlanmış müxtəlif əmək alətləri tapılmışdır. “Firuz” düşərgəsində Mezolit dövrünün son mərhələsinə aid edilən 11 insan skeleti də aşkar edilmişdir.

E.ə. VIII minilliyin sonunda Azərbaycanda Mezolit dövrünü əvəz edən Neolit dövrü e.ə. VI minilliyin ortalarınadək davam etmişdi. Neolit dövründə əkinçi – maldar qəbilələr təşəkkül tapır və saxsı məmulatı icad olunur. Bu dövrdə yaranan ilk əkinçi məskənlərinin qalıqları Gəncə yaxınlığındakı Gillidağ, Qobustandakı Anazağa, Ovçularzağası və Kənizə düşərgələrindən, Cənubi Azərbaycanda isə Təbriz yaxınlığındakı Yanıqtəpə, Zaqros bölgəsindəki Həsənli və Urmu bölgəsindəki Firuz təpə düşərgələrindən məlumdur.

**1.2. Azərbaycanda Eneolit dövrü, Erkən və Orta Tunc dövrü mədəniyyətləri.** Azərbaycan ərazisində Eneolit yaxud Mis – Daş dövrü e.ə. VI – IV minillikləri əhatə edir. Eneolit abidələrinə Gəncə - Qazax bölgəsində Şomutəpə - Babadərviş və Qarğalar təpəsi, Mil – Qarabağ bölgəsində İlanlıtəpə, Çalağantəpə və Leylatəpə, Muğan bölgəsində Əliköməktəpə, Naxçıvan bölgəsində Kültəpə arxeoloji düşərgələrində, Kür və Araz çayları hövzəsində, Qobustanda, Quba – Xaçmaz və Şəki – Zaqatala bölgələrində, habelə Cənubi Azərbaycanda Urmu gölü hövzəsində və Təbriz yaxınlığındakı Yanıqtəpə, Dolmatəpə və Göytəpə arxeoloji düşərgələrində təsadüf edilmişdir. Azərbaycanda bu dövr abidələri Kültəpə və Şomutəpə arxeoloji mədəniyyəti adı ilə tanınır. Eneolit yaşayış məskənləri oturaq həyat tərzi sürən əkinçi – maldar tayfalara məxsus olmuşdur. Bu dövrdən başlayaraq ovçuluq və balıqçılıq oturaq əkinçi – maldar əhali üçün köməkçi təsərrüfat sahəsinə çevrilir.

Eneolit dövründə daş alətlərin hazırlanması texnologiyası daha da təkmilləşdirilir, duluzçuluq kütləvi istehsal formasına çevrilir. Eneolit dövründə təkmilləşmiş daş alətlərlə yanaşı mis alətlər də meydana çıxır. Misdən istifadə metal işləmə sənətinin inkişafına səbəb olur. Ilk vaxtlar mis külçələrindən soyuq döymə üsulu ilə iynə, biz və bıçaq tiyəsi kimi kiçik əmək alətləri və müxtəlif bəzək əşyaları, o cümlədən muncuqlar hazırlanırdı.





Azərbaycanın Eneolit dövrü abidələri, o cümlədən yaşayış evləri və təsərrüfat tikililəri, təsərrüfatda istifadə edilən avadanlıqlar ilə Ön Asiyanın və Qafqazın qonşu ölkələrinin Eneolit abidələri arasında müəyyən oxşarlıqlar da vardır. Bu da Eneolit dövründə Azərbaycan əhalisinin qonşu ölkələrlə əlaqələrinin olduğunu göstərir.

Azərbaycan ərazisində Tunc dövrü e.ə. IV minilliyin sonu – e.ə. II minilliyi əhatə edir. Bu dövrdə Misin möhkəmliyini artırmaq üçün ona sürmə, qalay, nikel və mərgümüş qatmaqla tunc (bürünc) adlı yeni xəlitə əldə edilir. Əmək alətlərinin tuncdan hazırlanması məhsuldar qüvvələrin inkişafına səbəb olmuşdur.

Tunc dövrü özü də üç dövrə bölünür: Erkən Tunc dövrü, Orta Tunc dövrü və Son Tunc dövrü. Erkən Tunc dövrü e.ə. IV minilliyin sonu – III minilliyi əhatə edir. Bu dövrün abidələri tarixdə Kür – Araz mədəniyyəti adı ilə bəllidir. Kür – Araz mədəniyyəti dövründə Azərbaycanda birinci böyük ictimai əmək bölgüsü baş verir. Maldarlıq inkişaf edir, insanlar böyük heyvan sürüləri saxlayırlar. Qış aylarında mal – qara sürülərini düzənlikdə - qışlaqda saxlayır, yay aylarında isə dağlarda – yaylaqda bəsləyirdilər. Maldarlıq daha çox qayğı tələb etdiyi üçün əhalinin bir qismi yalnız maldarlıqla məşğul olurlar. Bu da bəşər tarixində birinci böyük ictimai əmək bölgüsünə, maldarlığın əkinçilikdən ayrılıb müstəqil əmək məşquliyyəti növünə çevrilməsinə səbəb olur. Təsərrüfatın iki müstəqil sahələri olan əkinçilik və maldarlığın sərbəst inkişafı ilə əlaqədar ayrıca əkinci və maldar soylar təşəkkül tapır.

Orta Tunc dövrü isə Azərbaycanda e.ə. III minilliyin son rübündən başlayır və e.ə. II minilliyin ortalarınadək davam edir. Orta Tunc dövrü Azərbaycanda Qarabağdakı Üzərliktəpə, Göytəpə, Çinartəpə, Qaraköpəktəpə, Ağtəpə, Toxmaqtəpə yaşayış yerləri və Borsunlu kurqanları, Muğandakı Mişarçay və Cəfərxanlı yaşayış yerləri, Naxçıvandakı Kültəpə, Şortəpə və

Nəhərcir yaşayış yerləri, Vayxır və Oğlanqala qalaları və b. arxeoloji abidələri əsasında öyrənilmişdir.

Orta Tunc dövründə yaşayış məntəqələri daha böyük sahəni əhatə etmələri ilə fərqlənirlər. Məsələn, Çinartəpə yaşayış məskəni 7 hektar sahəyə, Üzərliktəpə və Göytəpə yaşayış məskənləri isə 3 hektar sahəyə malikdirlər. Naxçıvanda öyrənilmiş yaşayış məskənləri möhtəşəmliyi ilə fərqlənir və Qədim Şərqin şəhər – dövlətlərini xatırladırladırlar. Deməli, Orta Tunc dövründə Azərbaycanda şəhərlər yaranmışdır. Şəhərlərin yaranması ilə əlaqədar olaraq sənətkarlıq peşəkar sahəyə çevrilir. Yaşayış məskənlərində aşkar edilmiş xüsusi sənətkarlar məhəllələri cəmiyyətdə sənətkarlar təbəqəsinin formalaşması ilə bağlı olmuşdur. Beləliklə, Orta Tunc dövründə ikinci böyük ictimai əmək bölgüsü baş verir, sənətkarlıq əkinçilik və maldarlıqdan ayrılaraq müstəqil əmək məşğuliyyəti sahəsinə çevrilir. Əhalinin təsərrüfat həyatında dulusçuluq, metalişləmə, ağacişləmə, sümükişləmə və s. sənət sahələri müstəqil inkişaf yoluna qədəm qoyurlar.

**1.3. Azərbaycanda Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətləri. İbtidai icma quruluşunun dağılması.** Son Tunc və Erkən Dəmir dövrü Azərbaycanda e.ə. XIV-VIII əsrləri əhatə edir. Bu dövr Şimali Azərbaycanda üç böyük arxeoloji mədəniyyət əsasında öyrənilmişdir: Xocalı – Gədəbəy mədəniyyəti, Talış – Muğan mədəniyyəti və Naxçıvan mədəniyyəti.

Xocalı – Gədəbəy mədəniyyəti e.ə. XIV-VIII əsrlərdə Kiçik Qafqaz dağları və Kür çayının sağ sahili bölgələrində mövcud olmuşdur. Bu mədəniyyətin ilk arxeoloji abidələri XIX əsrdə Xocalı və Gədəbəy yaşayış məskənləri yaxınlığında tədqiq edilmişdir. Xocalı – Gədəbəy mədəniyyəti üçün xarakterik olan abidələr müxtəlif tip qəbirlərdən (daş qutu, torpaq qəbri, kurqan, dairəvi qəbir) və yaşayış yerlərindən ibarətdir. Saysız-hesabsız maddi-mədəniyyət nümunələri içərisində tuncdan baltalar, dəstəyi şəbəkə bəzəkli xəncər və





qılınclar, oxlar, nizə ucları, kəmərlər, quş fiqurları və bəzək əşyaları (tuncdan qolbaq, üzük və sırğalar, əqiq, sümük, şüşə və metaldan muncuq və s.) üstünlük təşkil edirlər. Xocalı – Gədəbəy mədəniyyətinin son mərhələsində formaca tunc əşyalara oxşar qədim əşyalara da rast gəlinir. Xocalı – Gədəbəy mədəniyyəti soyları əkinçilik və maldarlıqla məşğul olmuş, at və dəvə saxlamış, sənətkarlıq məhsulları hazırlamışlar.

Talış – Muğan mədəniyyəti e.ə. XIV – e.ə. VII əsrləri əhatə edir. Bu mədəniyyətin abidələri Talış dağları, Lənkəran düzənliyi və Muğan yaylasının cənubunda yayılmışdı. Bu ərazidə arxeoloji qazıntılar XIX əsrin sonu və XX əsrin başlanğıcında dağlıq hissədə, XX əsrin ikinci yarısında isə bütün ərazidə aparılmışdı. Bu mədəniyyət əsasən qəbr abidələri (kurqan, daş qutu, yerüstü daşdan hörmə “dolmen” qəbrlər və sərdabələr) vasitəsilə öyrənilmişdir. Talış – Muğan mədəniyyətinin fərqləndirici əlamətləri yəhərvari dəstəkli və aypara bəzəkli tunc qılınc və xəncərlər, yastı baltalar, ox və nizə ucları, qiymətli daşlardan və qızıldan bəzək əşyaları, silindrik möhürlər, qara cilalı saxsı qablar və s. ibarətdir. Aşkar edilmiş dəmir alətlər e.ə. II minilliyin sonu – e.ə. I minilliyin əvvəlinə aiddir. Əhali düzənlik hissədə əkinçilik və balıqçılıqla, dağlıq və dağətəyi hissədə maldarlıqla eyni zamanda sənətkarlıq və ovçuluqla məşğul olmuşdur. Metalişləmə sənətkarlığı və dulusçuluq inkişaf etmişdir. Talış – Muğan mədəniyyəti soyları Xocalı – Gədəbəy mədəniyyəti soyları ilə, Abşeron və Quba bölgəsi əhalisilə, Ön Asiyanın mədəniyyət ocaqları ilə sıx əlaqə saxlamışlar.

Naxçıvan mədəniyyəti e.ə. II minillik və I minilliyin əvvəlini əhatə edir. Bu mədəniyyətə aid abidələr ilk dəfə 1865-ci ildə aşkar edilmişdir. XX əsrin 20-30-cu illərində və xüsusilə ikinci yarısında Naxçıvan mədəniyyəti abidələri geniş öyrənilmişdi. Naxçıvan mədəniyyətində monoxron və palixrom boyalı saxsı qablar (küpə, bərni, çaydan və cam) çoxluq təşkil edir. Qəbir abidələrinin tipləri, dəfn mərasimləri və metal

əşyalar baxımından Naxçıvan mədəniyyətinin Xocalı – Gədəbəy mədəniyyəti ilə oxşarlığı vardır. Naxçıvan mədəniyyətinin əhatə etdiyi ərazidə əkinçilik və maldarlıqla yanaşı dulusçuluq, metalişləmə, toxuçuluq və b. sənətkarlıq sahələri də inkişaf etmişdir.

Hələ Erkən Tunc dövrünün axırlarında özünü göstərən Orta Tunc dövründə xeyli dərinləşən əmlak bərabərsizliyi Son Tunc və Erkən Dəmir dövründə daha da güclənir, iri soy birləşmələri yaranır, sosial təbəqələşmə baş verir. Tayfa başçıları varlanır, onlar öz təsərrüfatlarında var-yoxdan çıxmış icma üzvlərini və qulları işlədirlər. İlk qullar müharibələr zamanı əsir düşmüş düşmən soylarının döyüşçülərindən ibarət olurdu.

Beləliklə, sosial təbəqələşmə, soy ittifaqlarının yaranması, hakimiyyətin ayrı-ayrı nüfuzlu şəxslərin əlində cəmləşməsi nəticəsində e.ə. II minilliyin sonlarında Azərbaycanda ibtidai icma quruluşu dağılmağa başlayır, sinifli cəmiyyətin təşəkkülü prosesi baş verir.

### Ədəbiyyat:

1. Azərbaycan tarixi. 7 cilddə, 1-ci cild, s. 54-165.
2. Azərbaycan tarixi. Dərslik, 1-ci cild, s. 19-57.
3. Ə.Cəfərov. Quruçay dərəsində. Bakı, 1991.
4. M.Hüseynov. Azıx mağarası. Bakı, 1981.





# II FƏSİL

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ ƏN QƏDİM DÖVLƏTLƏR

**2.1. Azərbaycan ərazisində qədim soylar.** E.ə. IV minillikdə Mesopotamiya sivilizasiya mərkəzinə məxsus Oveyd (Üveyd), yaxud protosümər arxeoloji mədəniyyətinin ünsürləri Suriya, Anadolu, Türkmənistan və Ön Qafqaz, o cümlədən Azərbaycana da yayılmışdı. Ehtimala görə həmin mədəniyyət Azərbaycana sümər soyları tərəfindən gətirilmişdir.

Qərb oriyentalistlərindən (şərqşünas alimlərindən) Kramer, Lleyd, Çayld, Reklü, Betitski və başqalarının qənaətinə görə tarixdə ilk Sümər dövlətini yaratmış soylar prototürklərin əcdadları olmuşdur və Cənubi Mesopotamiyaya Tibetdən, yaxud Mərkəzi Asiyanın başqa bir ölkəsindən gəlmişlər. Onlar Mesopotamiyaya gəlməmişdən öncə köçəri maldar soyları imişlər.

Son dövrün tədqiqatları müəyyən etmişdir ki, prototürklərin əcdadları olan sümərlər Mesopotamiyaya Mərkəzi Asiyadan deyil, Mesopotamiyadan şimalda yerləşən Zaqros dağlıq ölkəsindən - Cənubi Azərbaycandan gəlmişlər. Rus dilli tarixi ədəbiyyatda onlar e.ə III minilliyin birinci yarısında Cənubi Azərbaycan ərazisində yaşayan “su” soyları kimi təqdim edilirlər. Qədim Mesopotamiya sivilizasiyasını yaratmış sümərlər ilə “su” (“sü”) “soylarının” əlaqəsini görməyən rus tədqiqatçıları “sümər"ləri də “şumer” kimi qeyd etmişlər. Azərbaycan tarixşünaslığındakı “şumer” anlayışı da bizə rus tarixşünaslığından gəlmişdir. Əslində bu “sümər”dir. Həm də sübut edilmişdir ki, qaynaqlarda “sümər” soy adı deyil, “hərbçilər” sosial təbəqəsini

bildirən anlayış kimi işlədilmişdir. "Sü" qədim türk dillərində "qoşun" mənasını verir, "ər" isə "igid", "kişi" mənasında işlədilmişdir. "Sü + ər" qoşun igidləri, əskərlər, hərbiçilər mənasını verir. Türk dillərində sözün ortasında saitlər yanaşı işlədilmir. Alınma sözlərdə və düzəltmə sözlərdə sait səslər yanaşı düşdükdə aralarına diləyatımlı samitlərdən biri əlavə edilir. Türk dillərindəki bu qanunauyğunluqlara əsasən "sü" və "ər" sözlərinin arasına "m" samiti əlavə edilməklə "sümər" (hərbçilər) anlayışı yaranmışdır.

Ehtimal edilir ki, Cənubi Azərbaycanın Zaqros dağlıq bölgəsində yaşayan maldar kuti soylarının "sümər" adlanan hərbçilər sosial təbəqəsi Cənubi Mesopotamiyaya getmiş, bataqlıqdan ibarət olan bu ərazinin mənimsənilməsində iştirak etmişlər. (Geoloqlar müəyyən etmişlər ki, Mesopotamiya e.ə. X minilliyədək su altında qalmış ərazi olmuşdur. Onun səthi dəniz səviyyəsi ilə bərabər olub körfəz təşkil etmişdir. Dəclə, Fərat və Harun çayları Mesopotamiya körfəzinə tökülmüşlər. Dənizin suyu çəkildikdən sonra yaranmış bataqlıq ərazi e.ə. VI minillikdən insanlar tərəfindən mənimsənilməyə başlanıb, əkinçilik üçün yararlı sahələrə çevrilmişdir). Piktoqrafik kitabələrdən məlum olur ki, sümərlər Cənubi Mesopotamiyada Uruk şəhər-dövlətini yaratmışlar. Sonralar isə Uruk şəhər-dövləti Cənubi Mesopotamiyanın digər şəhər-dövlətlərini özlərinə tabe edərək dünyanın ilk dövlətini - Sümər dövlətini yaratmışlar. Böyük şərqşünas alim Samuel Kramer "Tarix Sümərdən başlanır" adlı kitabında dövlətçilik tarixinin Sümər dövləti ilə başlamasını sübut etmişdir. Biz fəxrlə deyə bilərik ki, dünyanın bu ilk dövlətini azərbaycanlıların əcdadları olan protatürk soyları yaratmışlar.

Məlumdur ki, e.ə. IV minilliyin sonu – III minilliyin əvvəllərinə, yəni Eneolit dövrünün sonu və İlk Tunc dövrünə aid edilən Kür-Araz mədəniyyəti Cənubi Qafqazdan tutmuş, Cənubi Azərbaycan, Şərqi Anadolu və Orta Asiyanın cənub – qərbinə kimi böyük bir ərazidə təmsil olunmuşdur. Kür-Araz





mədəniyyəti yayılan ərazidə müxtəlif etnoslar yaşamışlar. Tarixi ədəbiyyatda Kür-Araz mədəniyyətinin bir çox soylarla bərabər hurri soylarına da mənsub olması haqqında fikir vardır. Eyni zamanda alimlər Hind-Avropa dil ailəsinə aid olan xalqların ilk vətəninin Mərkəzi və Ön Asiya olması fikri ilə əlaqədar, onların əcdadlarını da bu mədəniyyəti təmsil edənlər sırasına daxil edirlər. Son illərin tədqiqatları müəyyənləşdirmişdir Kür-Araz mədəniyyəti ərazisində qədim zamanlarda türk dilli soylar da yaşamışlar.

Sümər kitabələrində Cənubi Azərbaycan ərazisində Urmu gölü hövzəsində kuti, lullu və turukki soylarının yaşamaları haqqında məlumat vardır. Bu soyların qədim türk dilli etnoslar olmasına dair tarixi qaynaqlarda kifayət qədər dəlillər mövcuddur. Kutilər və lullubi soyları ilə bağlı ilk məlumatlar e.ə. III minilliyin birini yarısına aiddir.

Qaynaqlarda e.ə I minilliyin başlanğıcında Urmu gölündən cənubda və şərqdə mannalıların yaşamaları qeyd edilir. Azərbaycan tarixşünaslığında belə bir yanlış fikir vardır ki, guya onlar kuti, lullu və turuxki soylarının nəsilləridirlər. Lakin 1994-cü ildə Moskva Dövlət Universitetinin nəşr etdiyi "Etnologiya" dərsliyində xəbər verilir ki, Ərəbistan yarımadası e.ə. II minillikdə, müasir sami dilli xalqların əcdadları tərəfindən məskunlaşdırılan zaman orada manalar və səbailər yaşayırdılar. Sami dilli soyların əcdadları tərəfindən sıxışdırılan manalar və səbailər şimal istiqamətində köç edirlər. Onlar Cənubi Azərbaycan ərazisindən keçən zaman, artıq Kuti və Lullubi dövlətləri süqut etmiş və kiçik hökmdarlıqlara bölünmüşdülər. Tarixdən məlumdur ki, səfərə çıxan, yürüş edən, köç edən soylar daha hazırlıqlı olurlar, keçdikləri ölkələrin pərakəndə soylarından hərbi-siyasi baxımdan güclü olurlar. Görünür manalar Cənubi Azərbaycan ərazisindən keçərkən burada mərkəzləşmiş dövlətin olmamasından istifadə edərək və etnik cəhətdən qohum soyların tez-tez Assur və Urartu təcavüzünə məruz qaldıqlarına görə onları öz ətrafla-

rında birləşdirib mərkəzləşmiş Mana dövlətini yaratmışlar. Ona görə də qaynaqlar Mana əhalisinin etnik tərkibi haqqında məlumat verərkən manalarla bərabər kuti, lullu və turukki soylarının da adlarını çəkirlər. Səbai soyları isə köçlərini davam etdirmiş, Şimali Azərbaycana gəlmiş, Abşeron və Quba bölgələrində etnik cəhətdən qohum soylarla rastlaşmış və bu torpaqlarda məskunlaşmış, yerli soylarla qaynayıb-qarışaraq müasir tat etnosunun etnegenezi prosesində iştirak etmişlər. Onlar Abşeronda, indiki Bakı şəhərinin Bayıl hissəsində dəniz sahilində, hazırda su altında qalmış Səbail şəhərini salmışlar.

E.ə. I minillikdə Cənubi Azərbaycanın Qaradağ bölgəsində kadusilər, Naxçıvan bölgəsində və ona yaxın ərazilərdə mardlar Xəzərin cənub-qərb sahillərində kaspi (kaslar), onlardan cənubda və Cənubi Azərbaycanın cənub-şərq torpaqlarında madalar, Şimali Azərbaycan və Dağıstanın cənubunda albanlar yaşamışlar.

**2.2. Azərbaycan ərazisində erkən dövlət qurumları.** Qədim sümər piktoqrafik yazılarında Azərbaycan ərazisində ilk siyasi qurum Aratta (Arata) dövlətinin adı çəkilir. Aratta ilə bağlı hadisələr e.ə. III minilliyin birinci yarısına aid sümər dastanlarında təsvir olunur və Arattada dövlət qurumlarının olması haqqında təsəvvür yaradır.

Aratta Cənubi Azərbaycan ərazisində təşəkkül tapmış ilk erkən dövlət olmuşdur. Onun ərazisi Urmu gölünün cənub və cənub-şərq hissəsini əhatə edirdi. Aratta dövlətinin cənub sərhədlərini Diyala çayı, cənub-şərq sərhədlərini indiki Zəncan – Qəzvin bölgələri təşkil edirdi. “En – Merkar və En – Sukuşsiranna” dastanında Sümər və Aratta hökmdarları arasındakı məktublaşmadan iki dövlət arasındakı iqtisadi əlaqələr haqqında təsəvvür əldə etmək mümkündür. Arattadan sümərlərin Uruk şəhər - dövlətinə qızıl, gümüş, laciverd, tikinti materialları və maldarlıq məhsulları göndərilir, Urukdan isə Arattaya taxıl və meyvə gətirilirdi.





Aratta - ökəsini “en” rütbəli hökmdar idarə edirdi. O, həm də baş kahin idi. Dastanlarda rast gəldiyimiz “ensi” anlayışı, ehtimal ki, vəliəhd, yaxud vassal hökmdar titulu olmuşdur. Arattada bərəkət və məhəbbət ilahəsi İnannaya ibadət geniş yayılmışdı.

E.ə. III minilliyin ikinci yarısında Sümər dövləti süqut edir, Mesopotamiyanın şimalında yaranmış Akkad dövləti tərəfindən işğal edilir. Bu vaxt artıq Aratta dövləti də yox idi. Urmu gölündən cənubda Lullubi dövləti, cənubi – qərbdə isə Kuti dövləti yaranmışdı.

E.ə. XXIII əsrdə yaranmış Lullubi dövləti Cənubi Azərbaycan ərazisində mövcud olmuş ikinci erkən dövlət qurumu idi. Qaynaqlarda Lullubi hökmdarı Satuninin (e.ə. 2236-2200-ci illər) Akkad hökmdarı Naram – Suyenə qarşı hərbi yürüşündən və məğlubiyyətə uğramasından xəbər verilir. Lullubi hökmdarı İmmaşqun (e.ə. 2200-2170-ci illər) ölkənin xırda hökmdarlıqlarını özünə tabe edib Akkad ilə rəqabət apara bilən güclü dövlət yaradır. Lullubi dövlətinin qüdrəti hökmdar Anubaninin dövründə daha da artır. Bu Diala çayı sahilində Zöhhab şəhəri yaxınlığında Saripul adlanan yerdə aşkar edilmiş “Daş sütun” abidəsindən məlum olur. Lullubi dağlıq ölkəsinin əhalisi Mesopotamiya ilə iqtisadi əlaqə yaratmışdılar. Onlar Mesopotamiyadan taxıl gətirir, oraya isə mal-qara göndərirdilər. “Daş sütun” abidəsindəki yazıların Akkad mixi yazı nümunələri ilə yazılması Lullubinin Akkad ilə mədəni əlaqələri olduğundan xəbər verir. Lullubi dövləti e.ə. II minilliyin əvvəllərində kiçik hökmdarlıqlara parçalanır və süqut edir.

Kuti dövləti hələ Sümər dövləti mövcud olduğu zamanlarda onunla müttəfiq idi və Akkada qarşı çıxırdı. Dastanlardan məlum olurdu ki, Akkad hökmdarı Naram – Suyen sümərlərin dini mərkəzi olan Nippur şəhərinə qoşun göndərib oradakı Enlil məbədini dağıtmaq istədikdə En – Ridavazirin başçılığı altında Kuti qoşunları sümərlərin köməyinə gedirlər və Naram – Suyen məğlub olub geri qayıdır. Nippur şəhərində bu qələbə

munasibətilə En – Ridavazirin şərəfinə mıxi yazılı sütun abidə qoyulmuşdur. Həmin abidədə En – Ridavazir dünyanın dörd səmtinin hökmdarı adlandırılmışdır.

Kuti hökmdarları Akkada tez-tez hərbi yürüşlər edirdilər. Akkad hökmdarı Naram – Suyen Elam hökmdarı Kutik İnşuşinak ilə kutilərə qarşı hərbi müqavilə bağlayır və bir müddət kutilərin hücumunun qarşısını almağa mütəffəq olur. Lakin Naram – Suyenin ölümündən sonra kütilərin Akkada hücumları yenidən başlanır. Akkad hökmdarı Sarkarizarri kutilərin hücumlarına cavab olaraq onlara qarşı yürüş təşkil edir. Bu vaxt Kuti hökmdarı En – Sarlaq (e.ə. 2191-2185) idi. Döyüş Mesopotamiya ərazisində baş verir, kutilər məğlubiyyətə uğrayırlar və En – Sarlaq əsir düşür. En – Sarlaqın varisi En – Yarlaqas (e.ə. 2185-2177) Akkada hücumu qüvvətləndirir. Nəticədə Akkadda hakimiyyət zəifləyir və hərcmərclik başlanır. Bundan istifadə edən Kuti hökmdarı En – Elulumeş (e.ə. 2177-2171) e.ə. 2175-ci ildə Akkadda hücum edir, onu tutub Akkad dövlətinə son qoyur. Kutilər Mesopotamiyada öz dövlət hakimiyyətlərini qurub 100 ilə yaxın hökmdarlıq edirlər. Bu müddətdə Mesopotomiyada Kuti hakimiyyətinə tabe olan sümər hökmdarları "ensi" titulu daşıyırdılar. Sümər hökmdarları Kuti hökmdarlarının şərəfinə yazılı sütun abidələr qoyurdular. Belə abidələrdən Kuti hökmdarı En – Laharabın (e.ə. 2135-2133) şərəfinə Sinpur şəhərində, En – Yarlaqandanın (e.ə. 2120-2113) şərəfinə və En – Siumun şərəfinə Umma şəhərində tərtib edilmiş yazılı sütun abidələr aşkar edilmişdir.

E.ə. III minilliyin sonunda Kuti dövləti süqut edir və kiçik ölkə hökmdarlıqlarına paralanır. Azərbaycan ərazisində mövcud olmuş bu üçüncü dövlətin süqutundan sonra e.ə. I minilliyin əvvəllərinədək mərkəzləşmiş dövlət olmamışdur.

**2.3. Mana və Oğuz (Skif) dövlətləri.** E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində dəmir alətlər və silahlardan istifadə nəticəsində Azərbaycanın qədim əhalisi arasında təbəqələşmə prosesi güclənir. Bu dövrdə ölkənin şimal





bölgələri ilə cənub bölgələri arasında təsərrüfat həyatında böyük fərq olmasa da, sosial inkişaf cəhətdən fərqlər olmuşdur. Şimali Azərbaycanda ibtidai icma quruluşunun dağılması zəif getdiyi halda, Cənubi Azərbaycan ərazisində ibtidai icma quruluşu sürətlə dağılır, sinfi cəmiyyət və ilkin sinfi qurumlar yaranırdı.

E.ə. I minilliyin əvvəllərində Urmu gölü ətrafı bölgələrdə qəbilə - tayfa bölgüsünü ərazi bölgüsü əvəz edir. Mövcud kiçik ərazi vahidləri ilə bərabər, nisbətən iri siyasi qurumlar da yaranır. Assur qaynaqlarında adına hələ e.ə. X əsrin sonunda təsadüf edilən Zamua ölkəsi Urmu gölü ətrafı bölgədə ən iri siyasi birləşmə olmuşdur. E.ə. IX əsrdə burada Zamuanın xeyli hissəsini əhatə edən siyasi birləşmənin başında Daqara soyunun başçısı Nuradad dururdu. Assur hömdarları Zamua ölkəsinə tez-tez basqınlar edirdilər. E.ə. 881-ci ildə Assur hökmdarı Aşşurnasirapal məlumat verir ki, zamualılar ölkəni basqınlardan qorumaq üçün Babite aşırımında (indiki Dərbəndi – Bazian) müdafiə divarları hörmüşlər. Lakin onlar assurların hücumunun qarşısını ala bilmirlər. II Aşşurnasirapal Daqaranın Birutu, Uze və Zaqalaqa qalalarını işğal edərək çoxlu qənimət və əsir ələ keçirib aparır. Assurlar Zamuanın digər ərazilərinə yürüş etdikləri vaxt Nuradad Birutu qalasına qayıdıb müdafiə mövqelərini möhkəmləndirməyə başlayır. Bundan xəbər tutan II Aşşurnasirapal yenidən hücum edib Birutu qalasını alır və yandırır.

Urmu gölü hövzəsində Zanma ölkəsi ilə yanaşı Allabriya, Karalla, Kirruri, Gilzan, Mesi, Zikirtu, Maday, Andiya, Qızılbunda, Ninni, Ulmana, Adaus, Xarmasa, Sanqibuti, Puluadi və b. ölkələrin adı da qaynaqlarda çəkilir. Bu ölkələrə sahib olmaq uğrunda Assur ilə Urartu arasında mübarizə gedirdi. Belə bir şəraitdə Urmu gölü – Zaqros dağlarını əhatə edən ərazidə adları çəkilən ölkələrin siyasi tayfa ittifaqlarının birləşib Azərbaycanın ilk iri mərkəzləşmiş dövlətini yaratmaları üçün əlverişli zəmin yaranmışdı. Belə bir dövlət isə e.ə. 843-cü ilə

aid olan Assur hökdarı III Salmanasarın mixi yazılı kitabəsində ilk dəfə adı çəkilən Mana dövləti oldu.

Qeyd edildiyi kimi manalar e.ə. II minillikdə Ərəbistan yarımadasında yaşayırmışlar. Sami dilli soylar tərəfindən sıxışdırılan manalar şimala doğru köç zamanı Urmu – Zaqros bölgələrində qohum soyların dayağına arxalanaraq onları öz ətraflarında birləşdirib Assur və Urartu təcavüzündən yerli soyların torpaqlarını mühafizə etməyə cəhd göstərirlər.

Mananın ilk hökmdarlarından Udakinin (bəzi qaynaqlarda – Valki) adı tarixdə məlumdur. Assur səlnaməsində hökmdar III Salmanasar e.ə. 829-cu ildə Manaya növbəti qarətçi yürüş etməsi və Udakinin dağlara çəkilməsi xəbər verilir. Assur və Urartu Mana uğrunda rəqabətlərini davam etdirirdilər. E.ə. 807-806-cı illərdə Assur və Urartu Mana torpaqlarında 2 dəfə müharibə etmişlər.

E.ə. VIII əsrin birinci yarısı Assur dövlətinin zəifləməsi, Urartunun isə güclənməsi ilə xarakterizə edilir. Bu dövrdə Urartu Manaya tez-tez basqınlar edir, əhalini qarət edib, malqara sürülərini aparırlar. Mana Urartuya qarşı inamlı müqavimət göstərir və bu mübarizədə mətnləşir, qüvvətlənir, nəhayət VIII əsrin ikinci yarısında güclü dövlətə çevrilir.

Mananın paytaxtı İzirtu şəhəri idi. Mana Urartuya müqavimət göstərmək üçün Assur ilə ittifaqdan istifadə edir. E.ə. 743-cü ildə Assur hökmdarı III Tiqlatpalasar məhz müttəfiqi Mananın köməkliyi ilə Urartu hökmdarı II Sardur üzərində qələbə çalır. Bundan sonra Mana qüdrətli Assur dövlətinin kiçik müttəfiqi – vassalı kimi Urartuya qarşı müharibələrdə iştirak edir və öz torpaqlarını qoruyur.

Mananın tanınmış hökmdarlarından biri İranzu (e.ə. 740-719) olmuşdur. Iranzunun hakimiyyəti dövründə Manada güclü mərkəzi hakimiyyət yaranır. Mərkəzi hakimiyyətin möhkəmləndirilməsi ölkə ərazisindəki kiçik hökmdarların çoxunun xoşuna gəlmirdi. Belə narazı kiçik hökmdarları Urartu dəstəkləyirdi. İranzunun vəfatından sonra onun oğlu Azanın





hakimiyyəti dövründə (e.ə. 718-716) Urartu meyilli qüvvələr Azaya suiqəst təşkil edirlər. Aza öldürülür, yerinə qardaşı Ulusunu qoyulur. Urartupərəst müxalifətə Mananın Zikirtu ölkəsinin hökmdarı Baqdatti başçılıq edirdi. Bu vaqiə ilə əlaqədar Assur hökmdarı II Sarqon e.ə 716-cı ildə Manaya qoşun göndərir. Ulusunu dağlara qaçır. II Sarqon Baqdattini tutdurub dərisini soydurmaqla cəzalandırır. II Sarqon Ulusununu çağırtdırıb bağışlayır və taxtına oturdur. Bundan sonra Ulusunu Assurpərəst siyasət yeridir.

E.ə. VII əsrin əvvəllərində Mana xeyli qüvvətlənir və qonşuluqda yeni yaranmış Oğuz (Skif) dövləti ilə ittifaqa girib Assur dövlətinin asılılığından çıxır.

E.ə. VIII əsrdə skiflər (oğuzlar), kimmer və sak sayları ilə birlikdə Qara dənizin şimal-şərq sahillərində yaşayırdılar. E.ə. VIII əsrin ikinci yarısında öncə sarmalar tərəfindən sıxışdırılan kimmerlər Qafqazdan keçərək Kiçik Asiyaya gedirlər. Onlar Anadoluda məskunlayıb, yerli soylar ilə qaynayıb-qarışır və sonralar buraya köç etmiş Səlcuq – oğuz türkləri ilə birlikdə müasir türk millətinin etnogenezi prosesində iştirak etmişlər.

Onların ardınca sarmatlar tərəfindən sıxışdırılan skif (oğuz) və sak soyları köç edib Ön Asiyaya gəlirlər. Yunan qaynaqlarında çar skifləri adlanan oğuzların bir hissəsi Partatuanın rəhbərliyi altında Urartunun cənubunda Hubuşkiya ölkəsinə yaxın ərazidə, digər hissəsi isə İşpakayanın rəhbərliyi altında Mananın şimal-qərb və qərb torpaqlarında, qismən də Kür-Araz çayları arasında Şimali Azərbaycanın qərb bölgələrində məskunlaşır və e.ə. VII əsrin ortalarında burada Oğuz (Skif) dövlətini yaradırlar.

Mana dövləti Oğuz (Skif) dövləti, kimmer soyları və əvvəllər Mananın tərkibində olub, sonralar Assur dövləti tərəfindən işğal olunmuş Maday ölkəsinin qohum soyları ilə birlikdə Assura qarşı müharibəyə başlayır və Assur hökmdarı Asarxaddonu məğlub edərək Assurun bir sıra şəhərlərini alırlar. E.ə. 655-ci ildə Assur hökmdarı Aşşurbanapal Manadan qisas

alır, onu məğlub edərək Assur şəhərlərini geri alır. Bu məğlubiyyət Manada narazı qüvvələrin hakimiyyətə qarşı çıxışına şərait yaradır. Müxalifət xalqı üsyana qaldırır. Üsyançılar hökmdar Ağşərini öldürür və qəbiləsini qırırlar. Salamat qala bilmiş Ağşərinin oğlu Vəli (Uali) Assur hökmdarına pənah aparır. Assur hökmdarı Aşşurbanapal Manaya qoşun göndərir, üsyanı yatırır və Vəlini Mana taxtına oturdur.

Sonralar Mana – Assur ittifaqı daha da möhkəmlənir. Mana və Assur dövlətləri yeni yaranmış qonşu qüdrətli dövlətlər olan Mada və Babilə qarşı birlikdə müqavimət göstərirlər. Lakin e.ə. 616-cı ildə Mana – Assur ittifaqı Babil tərəfindən məğlubiyyətə uğradılır. Bundan sonra qaynaqlarda Mana dövlətinin adı çəkilmir. Sonuncu dəfə Mananın adı Bibliya kitabı olan İyeremiyada e.ə. 593-cü ilə aid məlumatda Mada fövqəldövlətinə tabe olan Urartu və Oğuz (Skif) dövlətləri ilə yanaşı çəkilir. Deməli, Mana və Oğuz (Skif) dövlətləri e.ə. VI əsrin başlanğıcında öz müstəqilliyini itirirlər.

Mana quldar dövlət olmuşdur. Oğuz (Skif) isə hərbi-demokratiya sistemli dövlət olmuşdur. Oğuz (Skif) dövlətində quldarlıq ictimai-iqdisadi formasiya kimi inkişaf etməmişdir, hələ icma ənənələri davam edir, icma üzvləri arasında sosial bərabərlik hökm sürürdü.

### Ədəbiyyat:

1. Azərbaycan tarixi. 7 cilddə, 1-ci cild, s. 174-225.
2. Azərbaycan tarixi. Dərslik, s. 58-119.
3. S.Qaşqay. Mana dövləti. Bakı, 1993.
4. А.Сумбатзаде. Азербайджанцы – этногенез и происхождение народа. Баку, 1990.





# III FƏSİL

## AZƏRBAYCAN ÖN ASIYANIN FÖVQƏLDÖVLƏTLƏRININ TƏRKIBINDƏ

**3.1. Azərbaycan Mada imperiyasının tərkibində.** Mada soyları manalardan şərqdə və cənub-şərqdə yaşayırdılar. Onların yaşadıqları Maday ölkəsi əvvəllər Manaya tabe olan vilayət idi. Sonralar isə Assur dövləti Madanı tutub özünə tabe etmişdi. Assur hökmdarları Maday ölkəsini qarət edib, əhalini çapıb talayırdılar.

E.ə. 671-ci ildə madalılar Assura qarşı üsyan qaldırdılar. Mada üsyançılarını Mana və Oğuz (Skif) dövlətləri və onların müttəfiqləri kimmerlər dəstəkləyirlər. Üsyançılar və onların müttəfiqləri ilə döyüşdə Assur məğlubiyyətə uğrayır. Assur dövlətinin paytaxtı Ninəviyənin tutulması təhlükəsi qarşısında qalır. Assur tam məğlubiyyətdən qorxub madalılar və oğuzların rəhbəri Partutua ilə danışığa başlayır və böyük məbləğdə pul təklif edir ki, müharibəni dayandırsınlar. Partatua Madaya müstəqillik verilməsi şərtilə hərbi əməliyyatı dayandırmağa razılıq verir. Assur öz paytaxtını işğal təhlükəsindən qorumaq üçün Madanın müstəqilliyini tanımağa məcbur olur. Beləliklə, e.ə. 669-cu ildə Mada müstəqil dövlət olur.

Qədim yunan tarixçisi Heradotun yazdığına görə istiqlaliyyət uğrunda mübarizə ərəfəsində Madada vahid dövlət hakimiyyəti yox idi. Ölkə kiçik hökmdarlıqlardan ibarət idi. Üsyanın gedişində Madanın kiçik hökmdarları ittifaq bağlayıb, düşmənə qarşı birləşirlər. Hərbi ittifaqa Maday hakimi Deyok başçılıq edir. Deyok kiçik ölkələrin hakimlərini öz ətrafında birləşdirib qəbilələrin hərbi-siyasi ittifaqının rəhbərinə çevrilir

və qəbilə başçılarının ümumi yığıncağında Madanın hökmdarı seçilir.

Deyok yunan qaynaqlarında Ekbatana, İran qaynaqlarında isə Həmədan adlanan şəhəri salır, şəhərdə hökmdar sarayı və xəzinə tikdirir, onu dövlətin paytaxtına çevirir və şəhərin ətrafında qala divarları hördürür.

Deyokun oğlu Fraorta (e.ə. 646-625) qonşu ölkələri tutub dövlətin sərhədlərini genişləndirməyə başlayır. Heradotun yazdığına görə Fraortanın tutub Madaya tabe etdiyi ilk ölkə farsların Parsua ölkəsi idi. Bu ölkəni yunanlar Persida adlandırdılar. Persida o vaxt indiki İranın cənubunda okean sahilində yerləşirdi. Onun paytaxtı Pasarqad şəhəri idi. Parsuada Haxamanişilər sülaləsi hakimiyyətə gəldikdən sonra Pasarqaddan cənub-qərbdə yeni paytaxt şəhəri salırlar. Yunan qaynaqlarında bu şəhər Persepol adlanır. Heradotun yazdığına görə bu şəhər yalnız hökmdarın və əyanların saraylarından ibarət olan o vaxtki dünyanın ən gözəl şəhəri imiş.

Fraortanın oğlu Kiaksarın hakimiyyəti dövründə (e.ə. 625-585) Mada geniş işğallara başlayır. İşğallar nəticəsində böyük dövlətə çevrilən Mada ilk dəfə skiflərə (oğuzlara) məğlub olur və Oğuz dövlətinə xərac verməli olur. O dövrdə Oğuz ordusu Ön Asiyada ən güclü ordu idi. Çar skifləri (oğuzlar) Ön Asiyaya ənənəvi qoşun növlərindən əlavə süvari atıcı (süvari ox atanlar) qoşun növü gətirmişdi. Qoşun tipinə, hərbi texnikaya və döyüş taktikasına görə üstünlüyə malik olan oğuzlar Ön Asiyanın bütün qüdrətli dövlətlərini xərac verməyə məcbur etmişdilər.

Kiaksar hərbi islahat keçirir və Mada ordusunu Oğuz ordusu tipində yenidən qurur. 616-cı ildə Assur və Mana dövlətlərinin Babil dövləti tərəfindən məğlubiyyətə uğradılmasından istifadə edən Kiaksar Mananı özünə tabe edir. Sonra isə Kiaksar oğuzların üzərinə yeni yürüş edir. Heratonun yazdığına görə Kiaksar hiylə, aldatma yolu ilə Oğuz ordusunun bir hissəsini qılıncdan keçirir və Oğuz dövlətini məğlubiyyətə





uğradır. Bu qələbə ilə Kiaksar Oğuz dövlətinin Ön Asiyada hökmdarlığına son qoyur.

Madalılara məğlub olduqdan sonra çar skiflər (oğuzlar) şimala doğru hərəkət edərək, Qafqaz dağlarını aşıb Şərqi Avropa düzənliklərində məskunlaşırlar. Şərqi Avropada məskunlaşmış çar skifləri müasir slavyan xalqlarından rusların və ukraynların etnogenezi prosesində fəal iştirak etmişlər.

Təxminən 100 il Ön Asiyada, əsasən Azərbaycanda yaşamış çar skifləri və əsasən Anadoluda yaşamış, onlarla qohum olan kimmerlər yerli əhali ilə qaynayıb- qarışmışdılar. Çar skiflərinin ordusu Ön Asiyanı tərk edib şimala getdikdən sonra da onların müəyyən hissəsi bu ölkələrdə qalır. Azərbaycanda və Anadoluda yerli əhali ilə qaynayıb qarışan skiflər və kimmerlər bu ərazidə yaşayan yeni oğuz türk soyları və sonralar buraya gəlmiş səlcuq oğuzları ilə birlikdə müasir Azərbaycan və türk xalqlarının etnogenezi prosesində fəal iştirak etmişlər.

Kiaksar Oğuz dövlətini məğlub etdikdən sonra Urartunu özünə tabe edir. E.ə. 604-cü ildə isə Assur imperiyasına son qoyulur. Mada və Babil dövlətləri Asssur imperiyasını öz aralarında bölürlər.

E.ə. 590-cı ildə Kiaksar Kiçik Asiyanın qərbində yerləşən Lidiya üzərinə yürüş edir. Lidiya ilə müharibə çox uzun sürür və 5 il davam edir. Müharibə e.ə. 585-ci ilin mayın 28-də sülh ilə başa çatır. Həmin gün Günəşin, tarixdə qeydə alınmış, ilk tam tutulması baş verir. Beş illik müharibə ərzində yorulmuş hər iki tərəf Günəşin tam tutulmasını allahların qəzəbi hesab edərək sülh müqaviləsi bağlayırlar. Sülh müqaviləsi diplomatik nikahla möhkəmləndirlir. Lidiya hökmdarı Aliatta qızını Kiaksarın oğlu Astiqa ərə verir. Müqaviləyə görə Mada ilə Lidiya arasında sərhəd Qalis (Qızıl İrmaq) çayı ilə müəyyənləşdirilir.

Kiaksarın hakimiyyəti dövründə Mada Ön Asiyanın ən qüdrətli fövqəldövlətinə çevrilir. Bütün Cənubi Azərbaycan da

Mada fövqəldövlətinin tərkibində idi. Şimali Azərbaycan torpaqlarından Naxçıvan və İrəvan bölgələri də Mada imperiyasına daxil idilər.

Kiaksarın oğlu Astiaqın hakimiyyəti dövrü (e.ə. 585-550) Mada fövqəldövlətinin çiçəklənməsi və süqutu dövrüdür. Astiaq öz sələflərindən fərqli olaraq işğallar siyasətindən imtina edir. O, iqtisadiyyat, ticarət, sənətkarlıq, elm, təhsil və mədəniyyətin inkişafına fikir verirdi, Astiaq dövlət quruculuğuna xüsusi qayğı göstərir, əyanların və yerli hakimlərin hüquq və səlahiyyətlərini müəyyənləşdirir, onların özbaşınalığına son qoyur, əhalidən toplanan vergiləri nizama salırdı. Hüquqları məhdudlaşdırmış əyanlar və yerli hakimlər Astiaqdan narazı olurlar. Müxalifət qüvvələrinə ordunun sərkərdəsi, Astiaqın özünün qohumu Qarpaq başçılıq edir. O, Madaya tabe olan Parsua hökmdarı Haxamanişilər sülaləsinin nümayəndəsi II Kir ilə gizli əlaqəyə girib, farsları üsyana qaldırır. E.ə. 553-cü ildə başlanan üsyan 550-ci ildə farsların qələbəsi ilə başa çatır. Mada fövqəldövlətində Haxamanişilər sülaləsi hakimiyyət başına gəlir. Azərbaycanlıların əcdadlarının dövləti olan Mada farsların əcdadlarının dövlətinə çevrilir.

Mada quldar fövqəldövlət olmuşdur. Onun sərhədləri şərqdə indiki Əfqanıstandan başlayaraq, qərbdə Qızıl İrmaq çayına və Mesopatamiyayadək, şimalda Ön Qafqazın cənubundan və Orta Asiyanın Amu Dərya və Sır Dərya çaylarından başlayaraq, cənubda Hind okeanına və İran körfəzinə qədər böyük bir ərazini əhatə edirdi.

Madalıların dini inamları atəşpərəstlik idi. Madada zərdüştilik dini də geniş yayılmışdı. Zərdüştilik dininin ehkamları müqəddəs "Avesta" kitabında öz əksini tapmışdı. Zərdlüştiliyin əsas ehkamı dünyada iki qüvvənin – xeyir və şər qüvvələrinin mübarizəsinə əsaslanırdı. "Avesta"da xeyir qüvvələrini allah Hörmüz, şər qüvvələrini isə divlərin allahı Əhriman təmsil edirdi. Zərdlüştilik inamına görə bu mübarizənin sonunda xeyir qüvvələri qalib gəlməli idi.





**3.2. Azərbaycan Haxamanişilər Madası fövqəldövlətinin tərkibində.** Haxamanişilər Madada hakimiyyəti ələ aldıqdan sonra Babili, Misiri, Suriyanı, Lidiyanı, Frakiyanı, Parfiyanı, Soqdianiyanı, Baktriyanı və bir çox kiçik dövlətləri özlərinə tabe edib, o dövrdə dünyanın ən böyük fövqəldövlətini yaratdılar. Haxamanişilər imperiyasının 3 paytaxtı var idi: Ekbatana, Babil və Persepol.

E.ə. V əsrin birinci yarısında bütün Azərbaycan torpaqları Haxamanişilərin imperiyasına qatılmışdı. Imperiya inzibati ərazi bölgələri olan satraplıqlara bölünürdü. Azərbaycan torpaqları X, XI və XIV satraplıqlara daxil idi. Heradotun yazdığına görə Kiçik Mada adlanan X satraplığa keçmiş ilk Mada dövlətinin ərazisindən əlavə bütün Cənubi Azərbaycan və Şimali Azərbaycan torpaqlarının bir hissəsi daxil idi. XI satraplığa kaspi (kaslar), kadusilər, paresiklər, pantimatlar, dareytlərin və alban soylarının yaşadığı Şimali Azərbaycan bölgələri daxil idi. XIV satraplığa, Heradotun məlumatına görə uti, mük və saqartilərin yaşadığı torpaqlar daxil idi. Onun təsvirindən aydın olur ki, XIV satraplıq Kür və Araz çayları ətrafı bölgələrini, o cümlədən indiki Ermənistan ərazisini və Cənubi Azərbaycandan qərbdə olan torpaqları əhatə edirdi. Satraplıqların başında satraplar (yerli hakimlər olan canişinlər) dururdular. Kiçik Mada satrapları atropat (yunanca – "odu qoruyan") adlanırdılar. Çünki onlar eyni zamanda atəşpərəstlərin "atropatı" (baş kahimləri) idilər.

Haxamanişi hökmdarı II Kirin ölümündən sonra onun oğlanları arasında hakimiyyət uğrunda mübarizənin nəticəsində imperiyaya tabe edilmiş xalqların çıxışları baş verir. Bisutun qayalarında Haxamanişi hökmdarı I Daraya aid edilən kitabənin verdiyi məlumata görə hökmdar Kambizin dövründə hakimiyyətə qarşı xalq çıxışlarının genişlənməsindən istifadə edən Qaumat adlı bir Madalı maq (kahin) üsyan edib, hökümdarın Misirdə hərbi səfərdə olduğu müddətdə hakimiyyəti ələ alır. Qaumatın dövlət çevrilişi fars Haxamanişilərin hakimiyyətinə

qarşı Mada narazılığının təzahürü idi. Belə ehtimal edirlər ki, Qaumat madaların hökmdarlığını bərpa etmək niyyətində idi.

Qaumatın ideoloji silahı zərdüştilik təlimi idi. Bu təlimdə geniş xalq kütlələrinin ümüdləri ilə bağlı demokratik və mütərəqqi ideyalar öz əksini tapmışdı. Qaumat öz islahatlarını həyata keçirməyə başlayır və geniş xalq kütlələrinin mənafe və maraqlarına uyğun olaraq, yuxarı təbəqənin, yəni zadəganlar silkinin bir sıra imtiyazlarını ləğv edir, onların əmlaklarını və qullarını əlindən alır. Qaumat imperiyanın bütün ölkələrinə qasidlər göndərərək, əhalinin üç il müddətinə vergilərdən və orduda xidmətdən azad edildiyini bildirdi. Əsilzadələrin öz hakimiyyətlərini geri qaytarmaq cəhdlərinə qarşı amansız mübarizə aparırdı. O, bütün tədbirlərində geniş xalq kütlələrinin fəal dəstəyinə arxalanırdı.

Qaumat, başqa üsyanlardan fərqli olaraq, ayrı-ayrı keçmiş qüdrətli dövlətləri (Elam, Assur, Babil, Mada və b.) bərpa etməyə deyil, Kambizin hakimiyyəti dövründə zəifləmiş "ölkələr şahlığı", yəni Haxamanişilər dövrü Mada fövqəldövlətinin qüdrətli hakimiyyətini bərpa etməyə və möhkəmlətməyə çalışırdı. Lakin bu imperiya parsların (farsların) hakimiyyəti altında deyil, madaların başçılığı altında bərpa edilməli və möhkəmləndirilməli idi. Maq – hökmdar Qaumat bu məqsədinə çatmaq üçün özünü etibarlı adamlarla əhatə etmək niyyətilə iqamətgahını Parsuadan Madaya köçürmüşdü. Farsların hakimiyyətinə qarşı və Madapərəst siyasət yeritdiyinə görə Qaumat öldürüldükdən sonra, onun taleyi üçün farslardan başqa imperiyanın bütün xalqları təəssüflənirdilər. Qaumat e.ə. 522-ci ildə hakimiyyətə qayıtmış Haxamanişilər sülaləsinin nümayəndəsi Dara tərəfindən edam edilmişdir.

Qaumatın öldürülməsindən sonra I Daranın hakimiyyətinə qarşı Madada Fravardizin başçılığı altında yeni güclü üsyan baş verdi. Bir neçə ay davam edən bu üsyan yatırıldıqdan sonra isə Saqartada (Madanın qərb vilayəti) Çissantaxmanın başçılığı altında daha bir güclü üsyan olmuşdur.





I Dara imperiya xalqlarının üsyanlarına, ayrılmaq üçün bütün cəhdlərinə son qoyub dövlət hakimiyyətini möhkəmlətmək məqsədilə bir sıra inzibati, vergi, maliyyə və hərbi xarakterli islahatlar keçirdi.

Madada Haxamanişilər sülaləsinin hakimiyyəti e.ə. IV əsrin sonlarına qədər davam etmişdir. Haxamanişilər dövrünə aid Azərbaycan haqqında məlumat çox azdır. Şimali Azərbaycan soyları haqqında isə yazılı qaynaqlarda, demək olar ki, heç bir məlumat yoxdur. E.ə. VI-V əsrlərə aid arxeoloji materiallar da bir o qədər çox deyil. Həmin materiallar o dövrdə Şimali Azərbaycan əhalisinin təsərrüfat məşğuliyyəti və maddi mədəniyyəti haqqında müəyyən təsəvvür yaradır. Cənubi Azərbaycanda Mada soyları haqqında və Madanın qərbində Saqarta soyları haqqında isə yalnız Heradotun əsərlərində məlumat vardır.

**3.3. Azərbaycan Makedoniyalı Aleksandrın (İskəndərin) imperiyasının tərkibində.** Haxamişilər sülaləsinin son hökmdarları Yunanıstana da hərbi yürüşlər edib, ölkənin ərazisinin bəzi torpaqlarını tutmuş, qarət etmiş, hətta Afinanı yandırmışdılar.

O dövrdə Afina və Sparta dövlətlərinin süqutundan sonra Yunanıstan kiçik hökmdarlıqlara parçalanmışdı. E.ə. IV əsrin 30-cu illərində Balkan yarımadasında qədim Elladanın şimalında Makedoniya hökmdarları qüvvətlənib bütün Yunanıstanı özlərinə tabe edərək panellin ittifaqı yaradırlar. Makedoniya hökmdarı II Filipp bu ittifaqdan təkcə öz hakimiyyətini möhkəmlətmək üçün deyil, eyni zamanda Anatolunu (Şərqi) işğal etmək üçün də istifadə etmək qərarına gəldi. O, Haxanişilərin işğalı zamanı guya ruhları təhqir olunmuş Yunanıstanın Olimp allahlarının qisasını şərqlilərdən almaq üçün yunan ordularını e.ə. 336-cı ildə Kiçik Asiyaya göndərdi. Lakin onun ölümü bu hərbi yürüşü təxirə saldı.

Filippin oğlu Aleksandr (sonralar o, Şərqdə İskəndər adı ilə tanınır) e.ə. 334-cü ildə bu yürüşü davam etdirdi. E.ə. 333-

cü ildə İskəndər Kilikiyanı keçərək Şimali Suriyaya daxil oldu və burada İs döyüşündə Haxamanişi şahı III Daranın ordusunu məğlub etdi. III Dara ordusunun kiçik bir hissəsi ilə tələsik Fərat çayına tərəf qaçdı. Onun ordu xəzinəsi və hətta ailəsi İskəndərin əlinə keçdi.

İs qələbəsindən sonra İskəndər bütün Kiçik Asiyanı tutub Misirə, oradan isə Liviyaya getdi. O, Liviyada qədim misirlilərin və yunanlıların sitayiş etdikləri Amon məbədini ziyarət edir. Guya Amon kahinləri (orakulları) ona xəbər verirlər ki, o, allahın oğludur və bütün Yer kürəsinin hökmdarı olmalıdır. Amon ziyarətindən qayıdan İskəndər şərqə doğru yürüşünü davam etdirdi. III Dara imperiyanın Fərat çayına qədər bütün torpaqlarını və 10 min talant qızıl (1 talant – 40 kq-dır) xərac verməklə barışıq xahiş etdi. Lakin İskəndər onun tamamilə təslim olmasını tələb etdi. E.ə. 331-ci il oktyabrın 1-də Qavqamel (Cancal) adlı düzənlikdə döyüş baş verdi. Bu döyüşdə III Dara ordusunda madalar, baktriyalılar, parslar ilə birlikdə Azərbaycanda yaşayan alban, kas(pi), kadusi, mard, sak, oğuz və qafqazlı ümumi adı altında tanınan soylar da iştirak edirdilər. Qavqamel döyüşündə kaspi döyüşçülərinə Fradat başçılıq edirdi. Döyüşdə Baktriya və sak suvarilərinin qələbəyə yaxın olmalarına baxmayaraq III Dara döyüşün dəhşətindən vahiməyə düşərək qorxub Madaya qaçmışdı. İskəndər onu təqib etməyərək, Ekbatan üzərinə yerimədi. O, Babili və Elamın paytaxtı Suz şəhərlərini tutub, Haxamanişilərin vətəni Parsua üzərinə yeridi. Parsuanın satrapı Ariobarzanın müqavimətinə baxmayaraq Persepol və Pasarqad şəhərlərini ələ keçirdi. Persepolda Haxamanişilər sülaləsinin 120 min talant qızıl və gümüşdən ibarət xəzinəsinə sahib oldu. Şəhər qarət edildikdən sonra yandırıldı. Ehtimala görə 12 min dana gönü üzərində yazılmış “Avesta” da həmin yanğın zamanı məhv olmuşdur. E.ə. 330-cu ildə İskəndər Persepolu tərk edərək Ekbatanaya gəldi. III Dara şərq istiqamətində qaçdı. Xəzər dənizindən cənubda Orta Asiyaya gedən yolda ordu





sərkərdələri ona suiqəsd təşkil etdilər. Baktriya satrapı olan sərkərdə Bess III Daranı öldürdü, başını kəsərək Ekbatana apardı və İskəndərə verdi. İskəndər ona ənam vermək əvəzinə Bessin edam olunmasını əmr etdi və dedi ki, “bu gün dünənki ağasına xəyanət edən şəxs, sabah bu günkü ağasına da xeyanət edə bilər”.

III Daranın öldürülməsi ilə Haxamanişilər sülaləsinin hakimiyyətinə son qoyuldu və İskəndər özünü Haxamanişi sülaləsinin varisi elan etdi. O, tezliklə Haxamanişilərin bütün torpaqlarını əlinə keçirdi. Babil şəhəri İskəndərin imperiyasının paytaxtı oldu. Cənubi Azərbaycanın bütün ərazisi İskəndərin imperiyasına daxil idi. Albaniya və Kaspiana İskəndərin imperiasına daxil deyildilər. Alban hökmdarı xərac verməklə ölkəsinin müstəqilliyini qoruyub saxlaya bilmişdi.

İskəndər dünyanı zəbt etmək niyyətində idi. Lakin o, bütün dünyanı tutmaq arzusunu həyata keçirə bilmədi. Onun hərbi yürüşü Hindistanın qərbində sona çatdı. O, malyariya xəstəliyinə tutuldu və təcili Babilə qayıtdı. İskəndər e.ə. 323-cü ildə 36 yaşında Babil şəhərində vəfat edib.

İskəndər Xəzər dənizi sahillərini tədqiq etmək üçün Patrokl adlı bir sərkərdənin başçılığı altında ekspedisiya göndərmişdi. Həmin vaxta qədər Xəzər dənizi Hirkan dənizi adlanırdı. Heradotun əsərlərində də Hirkan dənizindən bəhs olunur. Patroklın ekpedisiyası dənizə Kaspiana ərazisindən çıxdığı üçün kas soylarının şərəfinə onu Kaspi dənizi adlandırır. Patroklın ekspedisiyasının hesabatı zəmanəmizə qədər gəlib çıxmamışdır. Onun mövcudluğu haqqında Strabonun əsərlərində məlumat vardır. E.ə. I əsrin sonu və eramızın I əsrinin əvvəllərində yaşamış məşhur yunan coğrafiyaşünası Strabon özünün "Coğrafiya" kitabında indiki Xəzər dənizinin adını, Patroklın ekspediyasının hesabatlarına əsasən “Kaspi dənizi” adı ilə vermişdir. “Xəzər dənizi” adını isə sonralar ərəb müəllifləri öz əsərlərində, ehtimal ki, xəzər soylarının adı ilə bağlı olaraq işlətmişlər.

İskəndər tutduğu ölkələrdə özünü işğalçı kimi deyil, qanuni "varis" hökmdar kimi aparır, köhnə idarə üsullarını saxlayır, yunanlar və makedoniyalılarla bərabər yerli zadəganlara da vəzifə verirdi. O, öz döyüşçülərinin yerli əhali ilə yaxınlaşması üçün xüsusi tədbirlər həyata keçirir, onların yerli qızlar ilə evlənməsinə və Şərqdə məskunlaşmalarına şərait yaradırdı. İskəndər süvari qoşunlarının baş sərkərdəsi Perdikkini atəşpərəstlərin atropatı (baş kahini) olan Kiçik Madanın satrapının qızı ilə evləndirmişdi. İskəndər yunan alimlərini, bacarıqlı ustalarını Şərq ölkələrinə aparır, yunan mədəniyyətinin Şərqə yol almasına şərait yaradırdı. Nəticədə qarışıq yunan – şərq mədəniyyəti yaranır. Bu mədəniyyət qədim Elladanın adı ilə bağlı olaraq, "elin mədəniyyəti" adı ilə tarixə düşmüşdür.

### Ədəbiyyat:


1. Azərbaycan tarixi. 7 cilddə, 1-ci cild, s. 226-251.
2. Azərbaycan tarixi. Dərslik, s. 120-130.
3. И.Алиев. История Мидии. Баку, 1960.






# IV FƏSİL

## ATROPATEN DÖVLƏTİ

**4.1. Atropaten dövlətinin yaranması. "Atropaten" dövlət və "Azərbaycan" ölkə adlarının mənşəyi haqqında.** Atropaten dövlətinin adı "atropat" sözündən götürülmüşdür. Hələ e.ə. V-IV əsrlərdə Haxamanişilər Madası imperiyasına daxil olan ölkələrin hakimləri özlərini müstəqil hökmdar kimi aparırdılar. Belə ölkələrin satrapları "şah" adlanırdı. İmperiyaya daxil olan Kiçik Madanın satrapına isə "atropat" deyirdilər. III Artakserksin hakimiyyəti dövründə Kiçik Mada satraplarına "atropat" deyilməsi haqqında qaynaqlarda məlumat vardı. E.ə. 331-ci ildə Qavqamel döyüşündə də Mada qoşunlarının başçısı "atropat" adlanırdı.

"Atropat" yunan sözü olan "atr" [od] (hind-avropa dil ailəsinin İran qrupu xalqlarının dillərində isə "adur", "adər", "atər", "azər" və s.) və "pat" [qoruyan] sözlərindən düzəlmiş və "odu qoruyan" mənasını verir.

Atəşpərəstlərin Kiçik Madanın mərkəzi şəhəri Qazakada yerləşən baş məbədinin ali kahini də "atropat" adlanırdı. Deməli, din başçısı hesab edilən "atropat", həm də Kiçik Madanın satrapı idi. Lakin tarixşünaslıqda Atropat hökmdarının adı kimi, şəxs adı kimi izah edilir. Əlbəttə belə izahın heç bir elmi əsası yoxdur. Onu da qeyd etmək lazımdır ki, 7 cildlik "Azərbaycan tarixi"ndə "atropatın" hökmdar titulu olması haqqında həqiqət əslində etiraf edilir. Kitabda yazılır ki, "... sonralar Atropatenin siyasi quruluşu, ola bilsin müəyyən dərəcədə dəyişir və Atropaten bəlkə də teokratik dövlətə - bir növ Papa dövlətinə (oxşar dövlətə - Q.R.) çevrilir ki, bu da

görünür Mada maqlarının dövlətdə çox böyük rol oynamaları ilə bağlı idi... Biz Atropatın hökmdarlıq illərinin necə keçdiyini... bilmirik, ... hətta Atropatenin bu ilk tacidarının nə vaxt vəfat etdiyini, taxt-tacı kimə miras qoyduğunu da bilmirik. Lakin sonrakı onilliklərin və hətta yüzilliklərin hadisələri göstərir ki, Atrpaten monarxiyası başçısının hökmranlıq etdiyi illər gənc dövlətin möhkəmləndiyi, qüvvətləndiyi bir dövr idi" (1-ci cild, s. 258). Bu iqtibasa onu da əlavə etmək olar ki, Papa dövlətindən öncə ərəb Xilafətində xəlifələr həm də dövlət başçısı idi, daha sonra, Osmanlı imperiyasının müəyyən dövründə sultanlar həm hökmdar, həm də din başçıları idilər. Müasir dövrdə İranda da teokratik hakimiyyət mövcuddur, ali dini şuranın sədri ayatolla həm din başçısıdır, həm də dövlətin başçısı – alı rəhbəridir. 7 cildlik "Azərbaycan tarixi" kitabında atropatlardan birinin adı da qeyd edilir: "... "Avesta" – IV əsrdə (e.ə. IV əsrdə - Q.R.) Atropatendə ali kahin Atropat Mahrspandan tərəfindən kanonlaşdırılmışdır". (1-ci cild, s. 315). Bu yazılardan belə bir məntiqi nəticə çıxarmaq olar ki, Atropat şəxs adı olmamışdır, din və dövlət başçısı titulu, rütbə adı olmuşdur. Lakin çox təəssüf ki, "Azərbaycan tarixi" kimi çox sanballı, möhtəbər kitabda bu nəticə çıxarılmır.

Kiçik Madada dövlət başçısı titulu atropat olduğu üçün dövlət də Atropat Madası, yaxud sadəcə olaraq Atropaten adlanırdı. Tarixdə bunun analoqu çoxdur. Məsələn, dövlət başçısı papa olan Papa dövləti, dövlət başçısı xəlifə olan Xilafət dövləti, dövlətin başçısı yabqu olan Yabqu dövləti, dövlət başçısı elxan adlanan Elxanilər dövləti və i.a.

Məlum olduğu kimi Haxamanişilər sülaləsinin hakimiyyəti dövründə azərbaycanlıların ulu əcdadlarının yaşadıqları torpaqlar X, XI və XIV satraplıqların tərkibinə daxil idi. I Dara zamanında X satraplığa, yaxud Kiçik Mada satraplığına Asarqata adlanan Cənubi Azərbaycan torpaqlarından əlavə parikanların, oğuzların və sakların məskunlaşdıqları torpaqlar da daxil idi. Haxamanişi Madası imperiyasında mərkəzi hakimiyyətin





zəiflədiyi illərdə Kiçik Mada satrupları müstəqil siyasət yeridirdilər. XI və XIV satraplıqların torpaqları da Kiçik Mada Atropatının hakimiyyət dairəsinə daxil idilər. Məhz buna görə də Qavqamel döyüşündə farslara boyun əyməyən kadusilər Haxamanişilər sülaləsinin hakimiyyəti altında deyil, Kiçik Madanın tərkibində olan soy kimi, yaxud madalıların müttəfiqləri kimi iştirak edirdilər.

Polibinin yazdığına görə Mada atropatının hakimiyyəti hələ Haxamanişilər sülaləsinin hökmdarlığı zamanından mövcuddur. Buradan belə bir nəticə çıxartmaq olar ki, Kiçik Mada satraplığının əhalisi din başçısı olan atropatı öz hökmdarları hesab edirdilər və həmin satraplıq hələ müstəqil dövlətə çevrilməmişdən əvvəl "Atropatın padşahlığı" adlandırırmış.

Makedoniyalı Aleksandr Ekbatanın üzərinə yürüş edərkən Kiçik Mada atropatının başçılığı altında madalılar, kadusilər və saklar, III Daranın tərəfini saxlamasalar da ilk vaxtlar işğalçılarla mübarizəyə girmək niyyətində imişlər. Ona görə də İskəndər Haxamanişilər sülaləsini devirdikdən sonra Kiçik Mada atropatı onun hüzuruna gəlib baş əymədi və İskəndər e.ə. 330-cu ildə onu vəzifəsindən götürüb Oksadat adlı bir nəfəri Kiçik Madaya satrap təyin etdi. Lakin Atropat az bir zamanda İskəndər ilə münasibətləri yoluna qoya bildi və e.ə. 328-ci ildə yenidən Kiçik Madanın satrapı vəzifəsinə qaytarıldı. Ola bilsin elə buna əsaslanan Strabon yazır ki, Atropat "bu ölkənin makedoniyalıların hakimiyyəti altına düşməsinə yol vermədi".

Ali kahin – hökmdar Atropat müdriklik göstərərək, Şərqin yeni hökmdarı ilə yaxınlaşmaq və onun tədbirlərində içtirak etməklə istilaçıların Atropaten ərazisinə girməsinə yol vermədi. İskəndərin qoşunları Atropatenin yalnız sərhədlərinə qədər gəlib çatmış və ölkənin daxilinə girməmişdir. İskəndər Azərbaycandan yan keçərək Orta Asiyaya və Hindistana getmişdir. Onun bu səfəri e.ə. 328-ci ilədək davam etmişdir.

E.ə. 324-cü ildə Böyük Madada Bariaks adlı biri özünü Parsua və Madanın şahı elan edərək, Haxamanişilər Madasını bərpa etmək adı altında İskəndərin hakimiyyətinə qarşı çıxdı. Kiçik Mada atroparı üsyanı yatıraraq Bakiaksı əsir tutub İskəndərə verdi. Atropat İskəndərlə satraplığın sərhəddində olan Niseya çölündə görüşür və bir müddət onun yanında qalır.

E.ə. 323-cü ildə Hindistanda İskəndər malyariya xəstəliyinə tutulur və imperiyasının paytaxtı Babilə qayıdaraq vəfat edir. Onun ölümündən sonra imperiyası dağılmağa başlayır. İskəndərin sərkərdələrindən Selevk və Perdikka imperiyanın naibləri adı ilə Şərq ölkələrinin idarə olunmasını əllərinə alırlar. Onlar imperiyanın Şərq ölkələrinin satraplarını və sərkərdələri Babildə müşavirəyə çağırırlar. Müşavirədə əvvəlki satraplar təsdiq edilir, yaxud yeni satraplar təyin edilir və naiblərə sədaqət andı içilir. Kiçik Mada atropatı həmin müşavirəyə çağırılmamışdı. Bu Kiçik Mada atropatının müstəqil hökmdar kimi tanınması ilə əlaqədar idi. E.ə. 321-ci ildə Kiçik Mada atropatının kürəkəni, suvari qoşunların komandanı, naib Perdikkanın döyüşlərdən birində həlak olması ilə əlaqədar Selevk Babildə ikinci and içmə mərasimi çağırır. Bu müşavirəyə də Kiçik Mada atropatı dəvət olunmur. Bu İskəndər imperiyasının varisi Selevki imperiyası tərəfindən də Kiçik Madanın müstəqil dövlət kimi tanınması demək idi. Odur ki, bu tarixdən Kiçik Mada müstəqil dövlət sayılır.

Yeni yaranmış dövlət ilk çağlar rəsmən Mada adlanırdı. Sonralar isə antik qaynaqlarda hökmdar titulu ilə bağlı Atropat Madası, yaxud Atropaten adlanırdı. Atropaten makedon – yunan asılılığından azad olmuş ilk Şərq dövləti idi. Dövlətin paytaxtı Qazaka şəhəri idi. Qazaka şəhəri indiki Miyandob şəhərindən şərqdə Leylan kəndi yaxılığında lokallaşdırılır.

Beləliklə, Mada fövqəldövlətinin süqutundan iki əsrdən bir qədər çox vaxt ötdükdən sonra Azərbaycan ərazisində yenidən müstəqil "milli" dövlət yarandı. Xalqımızın tarixində bu dövlətin taleyüklü, misilsiz əhəmiyyəti olmuşdur. Cənubi





Azərbaycanın ərazisində madalılar ilə qədim soylar kuti, lullu, turukki, mana və başqalarının qaynayıb-qarışması nəticəsində yeni etnos-atropatenlilər etnosu təşəkkül tapır. Bu etnosda mada elementlərinin üstün olmasına baxmayaraq Atropaten dövlətinin ərazisində saqartalar, müklər, utilər, parikanlar, oğuzlar, saklar, kadusilər, dareytlər, pantimaklar, pavsiklər, kaspi, mardlar, matienlər, anariaklar və b. soylar yaşamaqda davam edirdilər.

"Azərbaycan tarixi" kitabında Atropaten dövlət adının sərkərdə Atropatın adından götürülməsi kimi yalnış fikirlə yanaşı, Azərbaycan ölkə adının da guya Atropaten sözünün fonetik dəyişikliyə uğraması nəticəsində yaranması iddia edilir. Müqəddəs "Avesta" kitabında bu ölkənin "Atərəpata", e.ə. I minilliyə aid Elam qaynaqlarında "Atarapata" adlandırılması onun sərkərdə Atropatın adından götürülmədiyini göstərir. Akademik Əlisöhbət Sumbatzadə "Azərbaycan" ölkə adının da atəşpərəstliklə bağlı olduğunu qeyd edir. Lakin "Azərbaycan" sözünün Atropaten dövlət adından deyil, "azər" [od] + "baz" [pərəstiş] + "kan" [yer, məkan, ölkə] sözlərindən düzəldilib "atəşpərəstlər ölkəsi" mənasını verdiyi əsaslandırılır. Sonralar "Azərbazkan" fonetik dəyişikliklərə uğrayaraq ərəblərdə "Adərbaycan", azərbaycanlılarda isə "Azərbaycan" formasını almışdır.

**4.2. Atropaten ellinist dövlətləri sistemində. Atropaten – Parfiya – Roma münasibətləri.** Azərbaycan tarixində mühüm rol oynamış Atropaten dövləti ellin dövlətləri sisteminə daxil idi. İskəndərin istilalarından başlayaraq e.ə. I əsrin 30-cu illərində sonuncu güclü dövlət olan Misirin Roma tərəfindən işğalına qədər yunan – makedoniyalıların Şərqdə ağalıq etdikləri 300 illik bir tarixi dövr ellinizm dövrü adlanır.

Ellinizm dövrü dünya sivilizasiyasının böyük nailiyyət qazandığı illər kimi səciyyələnir. Dünya dövləti yaratmaq xəyalında olan İskəndər beynəlmiləlləşdirmə siyasəti yeridirdi. İskəndər və onun xələflərinin zamanında Şərqdə qədim

şəhərlərin inkişafı ilə yanaşı yeni yunan şəhər və koloniyaları yaranırdı. Ellinizm dövrü iqtisadiyyatın xeyli inkişaf etdiyi, qədim dünyanın əsas dövlətləri arasında iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndiyi bir dövr idi. Şərqə yunan döyüşçüləri ilə birlikdə tacirlər, sənətlarlar və alimlər də gəlirdilər. Onlar özləri ilə Şərq ölkələrinə yunan mədəniyyətinin, dilinin, hüquq qanunları və normalarının, ictimai qaydalarının, xalq adət və ənənələrinin, döyüş texnikası və üsullarının ünsürlərini gətirirdilər. Eyni zamanda Şərq xalqlarının ənənəvi iqtisadiyyatı, təsərrüfat formaları, siyasi və hüquqi təsisatları, mədəniyyət və adət-ənənələrinin yunanlara güclü təsiri olmuşdur. Belə qarşılıqlı təsir və zənginləşmə nəticəsində Şərq ilə Qərbin bir çox mütərəqqi cəhətlərini özündə birləşdirən yeni bir mədəniyyət formalaşır. Bu mədəniyyət tarixdə ellin mədəniyyəti adı ilə tanınır. Ellin mədəniyyəti yunan – makedoniyalıların Şərqdə siyasi hakimiyyətlərinin süqutundan sonra da Ön və Mərkəzi Asiya, həmçinin Qafqaz xalqlarının mədəniyyətlərinin inkişafında mütərəqqi təsirini saxlamışdır.

İskəndərin vəfatından sonra onun varislərinin hakimiyyəti bilavasitə Atropatenə şamil edilməsə də ellin mədəniyyəti burada da yayılmışdı. Atropatendə ellin mədəniyyətinin yayılma vasitəsi birinci növbədə onun Böyük Mada ilə sıx əlaqəsi idi. Ilk naiblər Böyük Madaya sərkərdə Pitonu satrap təyin etmişdilər və bu ölkə yunan – makedoniya ağalığının mərkəzi kimi ellin mədəniyyətinin arealı idi.

Qeyd edildiyi kimi Atropaten hökmdarları yunan – maakedoniyalıların ölkəyə soxulmasının qarşısını almağa səy göstərirdilər. Lakin heç bir şeyə baxmayaraq elleinizm Atropatenə nüfuz edirdi. Atropatendə Seləvki sikkələrindən istifadə edilməsi buna sübutdur.

Məlumdur ki, e.ə. 321-ci ildə İskəndərin sərkərdələrindən biri Seləvkinin Babilə gəlməsilə Ön Asiyada Seləvkilər hakimiyyəti dövrü başlayır. Selcuk və onunla hakimiyyətə şərik olan Perdikka, sonra isə I Antiox İskəndərin imperiyasını bərpa





etməyə cəhd göstərirdilər. Selcuk bütün İran satraplarını özünə tabe edə bilmişdi. Lakin Atropaten hökmdarları özlərinin müstəqilliyini qoruyub saxlaya bilmişdilər.

Selevk və Antioxun bütün cəhdlərinə baxmayaraq e.ə. III əsrin ortalarında Selevkilər dövlətinin süqutu başladı. Baktriya, Soqdiana və Parfiya imperiyanın tabeliyindən çıxdılar.

Orta Asiyanın Xəzər dənizindən Tecən çayına qədər əkinçilik üçün yararlı vadilərində yaşayan parn soy birləşmələri e.ə. 247-ci ildə Arşakın başçılığı altında Parfiyaya yürüş etdilər. Döyüşdə selevki satrapı Andaqor həlak oldu. Arşak hakimiyyəti ələ alıb müstəqil Parfiya dövlətini yaratdı. Arşakilər sülaləsinin hakimiyyəti altında eramızın 226-cı ilinədək mövcud olmuş Parfiya dövləti Mərkəzi və Ön Asiyanın tarixində mühüm rol oynamışdır. Parfiya dövlətinin paytaxtı ilk vaxtlar indiki Aşqabat şəhərinin yaxınlığında yerləşmiş Nisa şəhəri idi. Sonralar Arşakilər bütün İranı və Mesopotamiyanı işğal edərək, paytaxtı Mədain şəhərinə (yunan qaynaqlarında Mədain Ktesifin adlandırılır) köçürdülər.

İskəndərin parçalanmış imperiyasını yenidən bölmək uğrunda mübarizə bütün e.ə. III əsr boyu davam etdi. Diadoxları (yunancada – varisləri) epiqonlar (yunancada – sonradan doğulmuşlar, törəmələr) əvəz etdi. İskəndərin sərkərdələri Ptolomey, Selevk, Antiex və b. Kiçik Asiyada, Suriyada, Finikiyada, Misirdə, Yunanıstanda və Makedoniyada rəqabəti davam etdirirdilər. Selevkilər dövlətində III Antioxun hakimiyyəti dövründə (e.ə. 223-187) Böyük Mada satrapı Molon və onun qardaşı, Parsua satrapı Aleksandr Selevkilərin hakimiyyətinə qarşı üsyan qaldırdılar. III Antiox üsyanı yatırdıqdan sonra Atropaten üzərinə yürüşə başladı. Görünür Atropaten hökmdarı Molonu dəstəkləmişdi. Atropaten Selevkilərə qarşı 10 min süvari və 40 min piyadadan ibarət qoşun çıxarsa da yürüşün qarşını ala bilmədi, Atropaten hökmdarı Selevkilərin ali hakimiyyətini tanımaq şərtilə ölkəni işğal olunmaq təhlükəsindən qurtara bildi.

III Antiox Selevkilərin əlindən çıxmış ölkələrdə hakimiyyətini bərpa etmək məqsədilə e.ə. 212-205-ci illərdə Şərqə böyük yürüşə başladı. Parfiya da məğlub olub Sellvkilərin ali hakimiyyətini tanımağa məcbur oldu. III Antioxun Şərqə böyük yürüşü Selcukilər dövlətinin parçalanması prosesini bir qədər ləngitsə də onun qarşısını tamam ala bilmədi. E.ə. 190-cı ildə Maqnessiya döyüşündə III Antiox romalılara məğlub olduqdan sonra selevkilərin Şərqdə hakimiyyəti xeyli zəiflədi. Bundan istifadə edən Atropaten hökmdarları e.ə. II əsrin 60-cı illərində dövrlərin müstəqilliyini yenidən bərpa edə bildilər. Onunla eyni vaxtda şərqdə Mada və Parfiya, cənubda Parsua və Elam, qərbdə Xurakena və Ermənistan dövlətləri də müstəqillik əldə etdilər. Ermənistanın ilk çarı I Artaşesdən başlayaraq Ermənistan və Atropaten hakim dairələri arasaında qohumluq, nikah əlaqələri vardı. Moisey Xoranatsinin yazdığına görə Ermənistan və Atropat Madası hakim təbəqələri arasında qohumluq əlaqələri e.ə. II əsrin əvvəllərində nəinki adi hal almışdı, hətta Madalı olan Artaşes Ermənistanda hakinmiyyət başına gəlmişdi. Lakin sonralar tədricən Ermənistanın qonşuları ilə qohumluq əlaqələrini nəinki dostluq münasibətləri, bir çox hallarda hətta hərbi toqquşmalar dərəcəsinə çatan açıq düşmənçilik münasibətləri əvəz etdi.

E.ə. II əsrin sonu – I əsrin əvvəllərində Atropatenin tarixi dünyanın o zamanın iki qüdrətli imperiyası olan Parfiya və Roma arasında gedən mübarizə ilə bağlı olmuşdur. Bu dövrdə Atropaten gah Parfiyanın, gah da Romanın müttəfiqi olmuşdur.

E.ə. 66-cı ildə Roma sərkərdəsi Pompey Ermənistana hücum edir, II Tiqranı məğlub edərək, əsir alır və Romaya göndərir. II Tiqran Romanın bütün şərtlərini qəbul edərək onun vassalına çevrilir. Ermənistanı tabe etdikdən sonra Roma əsas düşməni Parfiya ilə qarşı-qarşıya gəlir. Atropaten isə Parfiyanın müttəfiqi idi. Roma ilə Parfiya arasında ilk mühüm döyüş e.ə. 53-cü ildə Şimali Mesopotamiyada Karna şəhəri yaxınlığında baş verir. Bu döyüşdə Atropaten Parfiya tərəfindən iştirak





edirdi. Karna döyüşündə Roma qoşunları məğlub olur. Roma tərəfdən 20 mindən çox döyüşçü, sərkərdələr, o cümlədən Krass və oğlu həlak olurlar. Bu qələbədən sonra Parfiya qoşunları İoniyaya qədər gedib çıxdılar. Lakin Roma triumviri Mark Antoninin dövründə e.ə. 38-ci ildə Roma ordusu Parfiya ordusunu məğlub edib Dəclə çayının sol sahilinə çəkilməyə məcbur etdi.

Misir hökmdarı Kleopatra ilə evlənən Antoni Şərqə doğru İskəndərin yolunu davam etdirib dünya dövləti yaratmaq arzusunda idi. Antoni də özünü ilahi mənşəli bir şəxs elan etmiş, Kleopatradan olan oğlunun adını Aleksandr Helios (Günəş allahı), qızının adını isə Kleopatra Selena (Ay ilahəsi) qoymuşdu və rəsmi məclisdə elan etmişdi ki, Aleksandr Makedonskinin adını daşıyan oğlu yaradacağı dünya dövlətinin hökmdarı olacaqdır.

E.ə. 36-cı ildə Antoninin komandanlığlı altında Roma ordusu Şərqdə böyük yürüşə başladı. Bu vaxt Atropaten hökmdarı Artabazd ilə Parfiyanın yeni hökmdarı IV Fraat arasında nifaq düşmüşdü. Roma təhlükəsi onları bu nifaqa son qoyub yenidən birləşməyə məcbur etdi. IV Fraat Şimali Mesopotamiyaya çox böyük qoşun çəkib gətirdi. Atropaten hökmdarı da 16 minlik süvari ordusu ilə Fərat çayının sol sahilində düşərgə salmış IV Fraatla bir yerdə idi. Antoni Parfiyanın paytaxtı Ktesofon üzərinə hərəkət etməyib şimala yürüş etdi. O, Ermənistan ərazisindən keçib Atropatenə daxil oldu. Plutarxın verdiyi məlumata görə Antoni Xoy – Mərənd istiqamətində hərəkət edib Atropaten hökmdarının qış iqamətgahı Fraaspanı mühasirəyə aldı. Antoninin gözləmədiyi halda Fraaspa uzunmüddətli mühasirəyə hazir idi.

Antoninin ordusunun mühasirə texnikası, mərmi atan maşınları və b. döyüş ləvazımatından ibarət dəstəni daşıyan araba karvanının uzunluğu 10-12 km-dən çox idi. Antoni sərkərdə Oppi Statiannın başçılığı altında 2 legionu həmin karvanı mühafizə etmək üçün qoyub, özü sürətlə irəliləyərək

Fraaspanı mühasirəyə almışdı. Pont hökmdarı Polemonun və ermənilərin qoşunları da döyüş texnikasını daşıyan karvanın mühafizəsi üçün saxlanmışdı. 40-50 minlik suvari ordu ilə Fraaspın mühafizəçilərinin köməyinə gələn Atropaten hökmdarı Artabazd Roma ordusunun bu vəziyyətindən xəbər tutub Statianın dəstəsinə hücum etdi, onları mühasirəyə alıb məhv etdi. Statian və onun 10 min nəfər döyüşçüsü həlak oldu, Polemon əsir düşdü, erməni çarı Artavaz isə öz dəstəsini götürüb aradan çıxa bilmişdi. Döyüş maşınları ələ keçirilib məhv edildi. Antoni köməyə gəlib çıxdıqda, meyidlərdən başqa heç nə tapmadı.

Aryerqardının məhv edilməsinə baxmayaraq Antoni Fraaspın mühasirəsini davam etdirirdi. Antoni ərzaq və yeni hərbi sursat tədarükü üçün mühasirə düşərgəsini tərk edəndə özü ilə 10 legion (hər legionda 10 min döyüşçü olurdu) götürürdü. Parfiya – Atropaten ordusu isə əbəs yerə itgi verməmək üçün romalılar ilə açıq döyüşə girmir, kiçik həmlələr ilə düşməni taqətdən salırdılar. Qış düşəndə Antoni sülh danışığı üçün IV Fraatın yanına elçilər göndərdi, lakin IV Fraat heç bir şərtə razı olmayıb, əgər romalılar mühasirədən əl çəkib geri qayıtsalar, onları təqib etməyəcəyini vəd etdi. Antoni geri çəkilməyə məcbur oldu və beləliklə onun Parfiyaya hərbi yürüşü uğursuzluqla başa çatdı.

Atropaten əhalisinin Fraaspanı qəhramanlıqla müdafiə etməsi və Roma işğalçılarına qarşı fədakarlıqla mübarizə aparması Antoninin Parfiyanı özünə tabe edib "dünya dövləti" yaratmaq planının pozulmasına səbəb oldu. Bu qələbə nəticəsində Atropaten hökmdarı Artabazdın əlinə çox böyük qənimət, o cümlədən Statianın legionlarından alınmış Roma bayraqları keçdi. Pont çarı Palemon da onun əsiri idi. Bu qələbə Artabazdın nifuzunu xeyli artırdı.

Bu qələbədən az sonra Partiyanın Atropateni tutub öz dövlətinə qatmaq planı var idi. Bu plandan xəbər tutan Artabazd əsiri Palemonu İskəndəriyəyə Antoninin yanına





göndərib ona sülh və dostluq təklif edərək, onu Atropatendə görməsinə şad olacağını bildirdi. Antoni Artabazdın təklifini sevinclə qarşıladı və dəvətini qəbul etdi.

Antoni Atropatenin ox və kamalla silahlanmış atıcı süvari ordusuna yüksək qiymət verirdi. Belə qoşun növü Romada yox idi. E.ə. 34-cü ilin yazında Antoni Atropaten ilə birləşib Parfiyaya qarşı hərbi əməliyyata başlamaq üçün Ermənistana hücum etdi. O, Ermənistanı tutub, hökmdar Artavazı, ailəsi ilə birliksə əsir götürdü və xəzinəsini ələ keçirdi. Ermənistan dövləti ləğv edildi və Ermənistan Romaya ilhaq edildi.

Artabazd ilə Antoni Araz çayı kənarında görüşdülər. Bu görüş zamanı Artabazd Statiandan alınmış Roma bayraqlarını Antoniyə qaytardı. Antoni Parfiya ilə müharibəni davam etdirəcəyini bildirdi. Artabazd Antoni ilə ittifaqı möhkəmlətmək məqsədilə qızı İotapanı Antoninin oqlu Aleksandra verəcəyini vəd etdi. İskəndəriyədə Ermənistan üzərində qələbə münasibətilə keçirilən şənlikdə Antoni oğlu Aleksandr Heliosu Mada geyimində camaatın qarşısına çıxartdı, onu təntənəli surətdə Ermənistanın hökmdarı elan etdi və Parfiya üzərində qələbədən sonra böyük Şərq dövlətini ona verəcəyini bildirdi. Sonra isə Aleksandr ilə İotapanın rəsmi nişanlanması mərasimi oldu.

E.ə. 33-cü ildə Antoni Ermənistana gəlib Parfiya üzərinə yürüşə hazırlaşmağa başladı. Lakin digər tərəfdən Oktavianla münasibətlərinin kəskinləşməsi onu Parfiya üzərinə hücumdan çəkindirdi. Qərbə qayıtmağa tələsən Antoni Artabazd ilə görüşüb Parfiyadan müdafiə olunmaq üçün ona qoşun verdi və Oktavianla mübarizədə onu dəstəkləməsini xahiş etdi. Artabazd onu arxayın etdi ki, Antoni lazım gələrsə Atropaten süvarilərinin köməyinə bel bağlaya bilər. Bu danışıqlar zamanı Artabazd Atropatenin sərhədlərini Ermənistan torpaqları hesabına bir qədər genişləndirməyə nail oldu.

Atropaten Roma qoşunlarının köməyi ilə bir müddət Parfiya basqınlarını dəf edə bilir. Lakin Antoni Roma qoşunlarını geri çağırdıqdan sonra Atropaten qoşunları məğlubiyyətə uğra-

yır və hökmdar Artabazd Parfiyaya əsir düşür. Ancaq tezliklə o əsirlikdən qaçır Atropatendə hakimiyyətini bərpa edir. Artabazd e.ə. 31-ci ildə Aksiya döyüşündə Antoniyə kömək üçün süvari qoşun da göndərir. Aksiya döyüşündə Oktavianın Antoni üzərində tam qələbəsindən sonra Kleopatra Artabazdın köməyinə ümid bəsləyərək, vaxtilə əsir kimi Misirə aparılmış erməni hökmdarı Artavazın başını kəsdirib Atropatenə göndərir.

Romada Oktavian – Antoni mübarizəsi Oktavianın qələbəsi ilə başa çatdıqdan sonra, Roma dəstəyindən məhrum olmuş Atropaten yenidən Parfiya hökmranlığı altına düşür.

E.ə. 20-ci ildə Roma ilə Parfiya arasında sülh müqaviləsi imzalanır. Bu müqaviləyə görə Parfiya Romanın Ermənistan üzərində hakimiyyətini tanıyır, əvəzində Roma Parfiyanın Atropaten üzərində hakimiyyətinə razılıq verir. Lakin e.ə. I əsrin sonunda Atropaten yenidən Romanın "dostu" və müttəfiqi olur. Roma hökmdarı Qay Yuli Sezar Ermənistana gəlib Artabazdın oğlu, Atropaten hökmdarı Ariobazdı həm də Ermənistanın hökmdarı təyin edir. Lakin Parfiya tərəfindən qızışdırılan ermənilər eramızın 2-ci ilində üsyan qaldırırlar. Qay Yuli Sezar ikinci dəfə Ermənistana yürüş edir. Artakir qalası yaxınlığındakı döyüşdə Yuli Sezar Parfiya sərkərdəsi Ado tərəfindən ölümcül yaralanır və bir neçə ay sonra həmin yaradan ölür. Yuli Sezarın ölümünə baxmayaraq birləşmiş Roma - Atropaten qoşunları ermənilərin üsyanını yatirda bilirlər. Ariobazd yenidən Ermənistanda hakimiyyətini bərpa edir.

Eramızın 20-ci ilinə yaxın Atropatendə hakimiyyət Parfiyanın Arşakilər sülaləsinin bir qolunun nümayəndəsinin əlinə keçdi. Beləliklə, Atropaten dövləti tarixində Romaya meyl dövrü başa çatdı. Atropaten yenidən Parfiya təsiri altına düşdü və iki əsr onunla bir cəbhədə oldu.

**4.3. Atropatenin təsərrüfatı və mədəniyyəti.** Qədim qaynaqlarda Atropatenin münbit torpaqlarından bəhs olunur və qeyd edilir ki, dağ yamaclarında torpaq bərəkətli, münbit və çox məhsuldardır, çaylar və bulaqlar ilə çox zəngindir. Strabon





xəbər verir ki, Atropatendə üzüm və əncir bitir. Qaynaqlarda bu ölkədə buğda, alma, badam və zeytun yetişdirilməsindən, qurudulmuş və döyülmüş alma unundan kökə, qovurulmuş badam unundan çörək bişirilməsindən, bəzi bitkilərin kökündən şərab çəkilməsindən xəbər verilir. Strabon Atropatendə atlar üçün ən yaxşı yem olan yoncadan bəhs edir və onu "Mada otu" adlandırır. Antik müəlliflərin məlumatına görə Atropaten Madasında silfi, yaxud gecə otu adlanan yabanı yerkökü də yetişirdi. Ondan "Mada şirəsi" deyilən şirə çəkirdilər. Bu şirəni uzun müddət saxlamaq mümkündür. Həmin şirədən ədviyyat və dərman kimi istifadə olunurdu.

Qaynaqlar Atropatendə arıçılıqdan da bəhs edir və arı balından geniş istifadə olunmasından xəbər verirlər. Antik müəlliflərdən Polibi və Ellian Atropatendə maldarlıq təsərrüfatından xəbər verirlər və qeyd edirlər ki, atropatenlilər dəvəçiliklə məşğul olurlar. Onlar atçılıq sahəsində tanınmış xalqdırlar.

Atropatendə balıqçılıqla da məşğul olurdular. Ellian yazır ki, Kaspi ölkəsində çox böyük bir göl vardır və o göldə uzunburun balıqlar yetişir. Onların uzunluğu hətta yeddi qulaca çatır. Kaspilər onları tutur, duzlayır, qurudur və dəvələrə yükləyib satmaq üçün Ekbatana şəhərinə aparırlar. Balıqlara vurmaq üçün çoxlu duz Atropatenin duzxanalarından gətirilirdi. Duzxanalar şor göllərdə düzəldilirdi. Kaspilər uzunburun balığın piyindən məlhəm hazırlayırlar. Çox qatı və tünd iyi olan ballıq yağını dərman kimi içir və dərilərinə sürtürlər. Onlar balıqların içalatını bişirməklə ondan çox keyfiyyətli yapışqan hazırlayırlar. Həmin yapışqan hər şeyi elə bərk yapışdırır ki, hətta on gün suda saxladıqda belə nə boşalır, nə də qopur. Fil sümüyündən əşyalar düzəldən ustalar da bu yapışqandan istifadə edir və çox gözəl keyfiyyətli əşyalar düzəldirlər.

Qədim Roma tarixçisi Appian Atropatendə "Mada yağı" hazırlanmasından xəbər verir. Həmin yağdan həm hərbi işdə, həm də təsərrüfatda istifadə edilirdi. "Mada yağı" gil və metal

çıraqlar üçün yanacaq idi. O, “Mada yağı”nın hazırlanması üsullarından bəhs edərək yazır ki, yağın içərisinə xüsusi bir ot atır və qatlaşmağa qoyurlar. Yağ qatılaşdıqda ona təbii yağa bənzər qatı məhlul qatmaqla daha da qatılaşdırırlar. Bu məhsula yerli dildə “naft” deyilirdi.

Naxçıvan, Mil, Muğan, Talış və b. bölgələrdən tapılmış küp qəbrlərdə aşkar edilmiş keramika məmulatı Atropatendə saxsı qablar istehsalının da yüksək səviyyəsindən xəbər verir.

Atropatendə əkinçilik, maldarlıq və sənətkarlıqla yanaşı ticarət də tərəqqi etmişdi. Atropaten şəhərləri sənətkarlıq mərkəzləri olduqları kimi həm də, ticarət mərkəzləri idilər. Babilistandan və Hindistandan Atropatenə və Kaspianaya gələn ticarət karvanları Atropaten şəhərlərindən keçərək Xəzər dənizi sahili boyunca uzanan yollarla şimala doğru gedirdilər.

Atropatenin mədəniyyəti də yüksək dərəcədə inkişaf etmişdi. Cənubi Azərbaycan ərazisindən tapılmış antik dövrə aid arxeoloji materiallar Atropaten əhalisinin maddi və mənəvi mədəniyyəti haqqında aydın təsəvvür yaradır.

Atropatendə inşaat işləri və memarlıq, şəhərsalma mədəniyyəti yüksək səviyyədə olmuşdur. Antik müəlliflərdən Strabon, Plutarx, Ptolomey, Dion Kassi və b. Atropatendə Fraaspa, Qazaka, Fanaspa, Vera və b. mühüm şəhərlərin olduğundan xəbər verirlər. Tədqiqatçılar Faraspanın müasir Marağa şəhəri yaxınlığında yerləşməsini ehtimal edirlər. Strabonun verdiyi məlumata görə Vera şəhəri ya Qazakanın, yaxud da Faraspanın iç qalası olması təsəvvürü yaranır. Lakin son illərdə aparılmış arxeoloji qazıntılar Vera şəhərinin Marağadan 16 km şimalda Səhəng dağının ətəklərində Zöhhak qala adlı yaşayış məskəni olmasını müəyyənləşdirmişlər. Tədqiqatçılar Vera şəhərinin Atropaten hökmdarlarının yay iqamətgahı olmasını da ehtimal edirlər.

Atropatendə inşaat işlərində gil, əhəng daşı, çay daşı və gips kimi tikinti materiallarından istifadə etmişlər. Divarların hörgüsündə daş ilə yanaşı bişmiş kərpicdən də geniş istifadə





edilmişdir. Məsələn, Zöhhak qalasındakı bir pavilyonun divarları çay daşı ilə birlikdə bişmiş kərpicdən hörülmüşdür. Tikintidə ağac materiallardan çox məhdud istifadə edilmişdir, yalnız dam örtüyünün tirləri və qapı çərçivələri üçün ağacdan istifadə olunmuşdur. Həmin dövrdə daşdan tağlı dam örtüyü geniş yayılmışdı. Cənubi Azərbaycan və İran Kürdüstanı şəhərlərində Kerefti dağlarında nadir memarlıq abidəsi mövcuddur. Kerefti memarlıq kompleksinin qayalığının dibindəki 9 m hündürlükdə olan giriş qapısı vardır. Qapı bir neçə tağlı otaqdan ibarət aşağı mərtəbəyə aparan yola açılır. Otaqların qapılarının yuxarı hissəsində olan oyuqlardan məlum olur ki, ağır asma – sürütmə daş qapılardan istifadə olunmuşdur. Memarlıq üslubuna görə Kerefti yaşayış – memarlıq kompleksini Atropaten tarixinin başlanğıcına, yəni e.ə. IV əsrin sonu – e.ə. III əsrin başlanğıcına aid edirlər.

Atropaten dövlətinin əhatə etdiyi ərazidə arxeoloji axtarışlar zamanı bardaq, kuzə, nimçə, güldan və s. saxsı qablar tapılmışdır. Saxsı qablar qırmızı, qırmızımtıl, açıq qəhvəyi, oxra (sarı - qızılı), boz və qara rəngli boya ilə həndəsi fiqur, zəncir, çiçək və s. şəkillər ilə bəzədilmişdi. Saxsı qablar arasında minalanmış qablar xüsusi yer tutur.

Atropaten ərazisindən ellinizm dövrünə aid Parfiya draxmaları və Roma denarilərindən ibarət sikkələr tapılmışdır.

Atropaten əhalisinin mənəvi mədəniyyətinin əsasını atəşpərəstlik və zərdüştilik dini təşkil edirdi. Atropaten əhalisi oda sitayiş edirdi. Demək olar ki, atəşpərəstliyin mərkəzi Atropaten idi. Təsadüfi deyil ki, atəşpərəstliyin 6 böyük məbədindən 4-ü, o cümlədən baş məbəd – Qazaka məbədi Atropatendə idi. Zərdüştilik qədim dövrdə Ön Asiyanın şərq hissəsinin xalqlarının ideologiyası idi. Zərdüştilik hələ e.ə. VI əsrdə şərqi İranda meydana gəlmiş və sonralar atəşpərəstliyin vətəni sayılan Atropatenə də yayılmışdı. Zərdüştiliyin dini fəlsəfi sistemi üçün dualizm daha çox səciyyəvidir. Zərdüştilikdə iki başlanğıcın Xeyir ilə Şərin, Həqiqət ilə Yalanın, İşıq ilə Zülmətin bir-birinə qarşı qo-

yulmasından istifadə edilmişdi. Xeyir qüvvələrin başında Ahura Mazda (Hörmüz), şər qüvvələrin başında Əhriman dururdu.

Zərdüştilik dininin banisi Zərdüşt olmuşdu. Onu bəşəriyyət tarixində tək allahlılıq ideyasının ilk təbliğatlarından biri hesab edirlər. Zərdüştilik və onunla bağlı olan dini fəlsəfi sistemlər, şübhəsiz, iudaizmə və xristianlığa müəyyən təsir göstərmişdi. İudaizim və xristianlıq zərdüştilikdən bir çox ehkamları, konsepsiyaları mənimsəmişlər. Zərdüştiliyin yunan fəlsəfi fikrinin bir çox nümayəndələrinə böyük təsiri olmuşdur.

Zərdüştilik dininin ehkamları müqəddəs “Avesta”da öz əksini tapmışdı. “Avesta” Ön Asiyanın qədim əhalisinin, o cümlədən Azərbaycan xalqının əcdadlarının müqəddəs saydıqları ədəbi abidələr – kitablardan biridir. Bu kitabda ölkəmizin qədim əhalisinin dini, əxlaqi, ictimai, siyasi və fəlsəfi görüşlərinin bir sıra cəhətləri bədii şəkildə öz əksini tapmışdı. Yunan müəllifi Ktesinin verdiyi məlumata görə “Avesta”nın müəllifi Zərdüşt Mada imperiyasının Raqiana vilayətində mada icmalarından birinin başçısı olan Spitamanın oğludur. Spitama Madanın sonuncu hökmdarı Astiaqın qızı Purusasna ilə evlənir və bu izdivacdan Spitak Spitama dünyaya gəlir. Spitaka sonralar Zaratuştra (Zərdüşt, yunanca isə Zopoastr) deyirlər. Deməli, Zərdüşt Astiaqın qız nəvəsidir.

“Avesta”dan məlum olur ki, Zərdüşt atəşpərəstlərin kahini – “maq” kimi öz mahnıları ilə yeni dini təbliğ edirmiş. Yeni dini təbliğatına görə təqib olunan Zərdüşt qonşu ölkənin hakimi Viştaspın yanına qaçır. Viştasp onun dinini qəbul edir və dinin təbliği üçün şərait yaradır. Tarixdən məlumdur ki, Haxamanişilər sülaləsindən olan Parsua (Persida) hökmdarı I Daranın atasının adı Viştasp olmuşdur.

IX əsrdə yazılmış “Dinkerd” adlı bir kitabda qeyd edilir ki, hökmdar Viştaspın əmri ilə “Avesta” yazıya alınır və Urmu gölü yaxınlığında Şiz şəhərində saxlanılır, onun bir nüsxəsi isə (Persepolda (İstərifarsda) qorunur. İskəndər Persepolu ələ keçirib yandırdığı zaman “Avesta”nın bir nüsxəsi də yanmışdır.





Lakin İskəndər öncə “Avesta”nın bir nüsxəsini Yunanıstana göndərib onu yunan dilinə tərcümə etdirmişdi. Sasani hökmdarı Ərdəşirin dövründə “Avesta”nın dağınıq parçaları möbid Qansar tərəfindən toplanıb bərpa edilmişdir. IX əsrdə yazılmış “Arda Burafnamə” adlı başqa bir kitabda qeyd edilir ki, “Avesta” 12 min inək gönü üzərində qızıl sulu hərflərlə yazılıb Persepolda xəzinədə saxlanılırmış, İskəndər Persepolu yandıranda, o da yanmışdır. Ərəb müəllifi əl-Məsudi yazır ki, İskəndər İstəxrifarsı tutduqdan sonra “Avesta”nın tibbi, fəlsəfi, astroloji və hüquqla bağlı hissələrini yunan dilinə tərcümə etdirmiş, sonra isə kitabı yandırtmışdır. Yandırıldıqdan sonra da “Avesta”nın şifahi şəkildə yaddaşlarda yaşaması Sasanilər dövründə onu yenidən bərpa etməyə imkan vermişdir. Ərəblər isə atəşgahları dağıdarkən, həmin məbədlərdə olan kitabları da, o cümlədən “Avesta”nın nüsxələrini də yandırmışlar. Ərəblərə baş əyməyən atəşpərəst kahinlərin bir çoxu Hindistana qaçmış və orada şifahi şəkildə yaddaşlarda qalanları yenidən yazıya almışlar. “Avesta”nın bizə gəlib çatan hissələri atəşpərəst kahinlərin yaddaşlarından və əldə edilmiş bir sıra qaynaqlardan yazıya köçürülmüşdür.

“Avesta” 21 hissədən ibarət olmuşdur. Onun bizə gəlib çatan variantı isə 4 hissədən ibarətdir: 1) Yasna 2) Yastlar 3) Visprat və 4) Videvdat.

“Yasna” – “ehtiram” , “pərəstiş” , “qurban vermə” mənalarını verir. 72 fəsildən ibarət olan bu hissənin 17 fəslini “Qatlar” bölməsi təşkil edir. “Qatlar” bölməsi himnlər və nəğmələrdən ibarətdir. Bu fəsildə müəllif özünü şair Zaratuştra adlandırır.

"Yastlar" adlanan ikinci hissə 22 himn – duadan ibarətdir. Bu himnlərdə atəşpərəstlərin panteonunun müxtəlif allahları mədh edilir, təriflənir və onlara dua oxunur.

“Visprat” – bütün allahlar, hökmdarlar, hakimlər mənasını verir. Bu hissə 24 fəsildən ibarətdir. Ahura Mazda haqqında məlumat da bu hissədədir. “Ahura” - “tanrı”, “hökmdar”,

"ağa", "cənab" mənalarındadır, "Mazda" isə - "müdrik" mənasını verir. "Ahura Mazda" – "Müdrik tanrı", "Müdrik cənab" mənalarında işlədilir.

"Videvdat" bəzi qaynaqlarda "Vendidat" kimi də oxunur. Bu hissə 22 fəsildən ibarətdir. "Videvdat" qanunlar və göstərişlər külliyyatıdır.

Bunlardan əlavə daha sonralar "Kiçik Avesta" adlı hissə də tərtib edilmişdir. "Kiçik Avesta" gündəlik mərasimlərdə istifadə olunmaq məqsədilə yazılmışdır.

Müqəddəs "Avesta" kitabı insani, humanist görüşlərdən ibarət olub xeyirə məhəbbət, şərə nifrət, əməyə hörmət və çağırış ideyaları ilə zəngindir. "Avesta"da sadəlövh şəkildə olsa da, bəşər tarixinin dialektik inkişaf mərhələləri də öz şərhini tapmışdı.

"Avesta" e.ə. VI əsrdə Mada imperiyasının şərq vilayətlərində Zərdüşt tərəfindən yazılsa da e.ə. IV əsrdə atəşpərəstliyin vətəni sayılan Atropatendə Atropat Mahaspanda tərəfindən kanonlaşdırılmışdır, yəni müqəddəs kitab, dini ehkam kitabına çevrilmişdir. Ona görə də dünyanın qədim yazılı abidələrindən biri olan "Avesta" Azərbaycan xalqının qədim əcdadlarının da müqəddəs kitabı hesab edilir.

### Ədəbiyyat:

1. Azərbaycan tarixi. 7 cilddə, 1-ci cild, s. 252-327
2. Azərbaycan tarixi. Dərslik, s. 131-145, 166-169
3. И.Алиев. Очерки истории Атропатена. Баку, 1988





# V FƏSİL

## ALBAN DÖVLƏTİ

**5.1. Alban dövlətinin yaranması və sərhədləri.** Şimali Azərbaycanı və müasir Dağıstanın Dərbənd bölgəsini əhatə edən ölkə qədimdə Albaniya adlanırdı. Albaniya haqqında ilk məlumat e.ə. IV əsrə aiddir. Roma tarixçisi Arrianın "Anababsis Aleksandrius" ("İskəndərin yürüşü") kitabında e.ə. 331-ci ildə Qavqamel döyüşündə kaspi və saklarla birlikdə albanların da vuruşduğundan xəbər verilir. Yunan coğrafiyaşünası Strabonun "Coğrafiya" kitabında da Albaniyanın adı çəkilir. Srtabon özü Qafqazda olmamışdır. Albaniya haqqında onun materialı Patroklın bizə gəlib çatmayan hesabatlarından götürülmüşdür. Patrokl isə e.ə. IV əsrdə Xəzər dənizinin cənub-şərq sahillərindən başlayaraq dəniz ekspedisiyası təşkil etmiş və Albaniyanı tədqiq etmişdir.

Albaniya qədim türk və sanskrit dillərində "yüksək", "ucalıq", "zirvə", və "dağ" bildirən "alp", "alb", sözündən və "an" cəm şəkilçisindən yaranmış və "Dağlıq ölkə" mənasını verir. (Xalqın adına latın dilindəki "iya" mənsubiyyət şəkilçisi əlavə etməklə ölkə adı alınması universal haldır. Məsələn, "İtal + iya", "İspan + iya" , "Alman + iya" , "Anql + iya", "Şotland + iya" , "Rumun + iya", "Ross + iya", "Türk + iyə", "Çex + iya", "Bolqar + iya", "Slavak + iya" və s.). Müqayisə etmək üçün bilmək lazımdır ki, dağlıq ölkə olan Şotlandiyanın qədim kelt dilində adı da Albaniya olmuşdur. Eyni zamanda Balkanlarda mövcud olan Albaniya dövlətinin adı da "Dağlıq ölkə" mənasındadır.

Qədim Albaniyanın ikinci adı Aran olmuşdur. Belə ki, Şimali Azərbaycan ərazisinin böyük bir hissəsini Kür – Araz ovalığı təşkil edir, xalq isə isti düzənlik əraziyə "aran" deyir. Qədim yunan, Bizans qaynaqlarında da ölkənin adı Aran kimi bəllidir. VI əsrə aid ərəb qaynaqlarında da Albaniya ölkəsi Aran (ərəb transkripsiyası – "Arran") adlandırılır. Bu da təsadüfü deyildir. Çünki ərəb orduları əsasən düzənlik hissələrlə irəliləyirdilər və düzənliklərdə düşərgə salırdılar. Ona görə də onların ilkin təəssüratında Şimali Azərbaycan düzənlikdən ibarət "aran" ölkə olmuşdur. Maraqlı bir cəhətə də diqqət yetirmək lazımdır. Şotlandiyanın düzənlik relyefli bir adası hazırda da "Arran" adlanır. Erməni qaynaqlarında isə "Aran" "Aqvan" kimi işlədilmişdir. Bu da erməni dilində "l" və "r" fonemlərinin "q" foneminə çevrilməsilə bağlıdır.

Albaniya dövlətinin yaranması tarixi dəqiq məlum deyildir. Qaynaqlarda Albaniya haqqında olan məlumatların məntiqi təhlili nəticəsində prof. İlyas Babayev belə qənaətə gəlir ki, Albaniya dövləti e.ə. IV əsrin sonu – III əsrin əvvəllərində yaranmışdır.

Alban dövlətinin ərazisi və sərhədləri barədə müxtəlif fikirlər vardır. Antik müəlliflərə görə Alban dövlətinin ərazisi şərqdə Kaspi dənizindən başlayıb qərbdə İberiyaya qədər bir sahəni əhatə edirdi. Buradan belə bir nəticə çıxarmaq olar ki, indi Gürcüstan ərazində qalan Kaxetiya da Alban dövlətinin ərazisi hesab edilirmiş.

Albaniyanın şimal sərhəddindən bəhs edərkən, rus alimi prof. K.Trever antik dövr müəlliflərinə istinad edərək yazır ki, Albaniyanın şimal sərhədləri dəniz sahili boyunca Soana çayına qədər uzanır. O, Soana çayını müasir Terek çayı ilə eyniləşdirərək belə hesab edir ki, Albaniyanın şimal sərhədləri guya Şimali Qafqaz çöllərinə qədər, yəni qədim Sarmatiyaya qədər uzanırmış. Buradan belə nəticə çıxarılır ki, indiki bütün Dağıstan Albaniya ərazisinə daxil imiş. Lakin prof. Kamal Əliyev antik qaynaqları dərindən təhlil edərək belə qənaətə





gəlir ki, qaynaqlardan heç biri bütün Dağıstanı Albaniyanın tərkibinə daxil etməyə əsas vermir. Onun fikrincə Soana çayını Samur çayı ilə eyniləşdirmək olar. Çünki qaynaqlarda Albaniyanın şimal sərhədlərinin Böyük Qafqaz sıra dağlarının cənub yamacları boyu uzanması haqqında fikir vardır. K.Əliyevin fikirlərini dəstəkləyən akad. Əlisöhbət Sümbatzadə və tarix elmləri doktoru Qiyasəddin Qeybullayev belə nəticə çıxarırlar ki, indiki Dağıstan Respublikasının yalnız Dərbənd bölgəsi Alban dövlətinin tərkibinə daxil olmuşdur.

Alban dövlətinin cənub sərhədləri haqqında fikirlər daha çox ziddiyyətlidir. Bəzi antik dövr müəllifləri yazırlar ki, Albaniyanın cənub sərhədləri Kür çayına qədər uzanırdı, yəni Kür çayının yalnız sol sahil torpaqları Albaniyaya daxil idi. Ancaq Strabon çox aydın yazır ki, Kür çayı Albaniya ərazisindən axırdı. O, Kürün sağ sahili torpaqları Talış, Muğan, Mil və Qarabağı Albaniyaya aid edirdi. Prof. K.Trover Srabonun məlumatına əsaslanaraq yazır ki, qədimdə Kaspiana adlanan Kür çayının sağ sahili mənsəbi Albaniyaya daxil idi. Lakin bəzi qaynaqlar Kaspiananı Albaniya ərazisinə daxil etmirlər. Məsələn, Klavdi Ellian (II əsrin sonu – III əsrin əvvəlləri) Kaspiananı azad icmalıq kimi təsvir edərək yazır ki, kaspi soyları balıqçılıqla məşğul olur, qayıqlarla dənizə çıxır, balıq tutur, onu duzlayır, qurudur və dəvələrlə Ekbatana göndərirdilər. Ellian kaspi soylarının Albaniya ilə əlaqəsi haqqında isə heç bir söz demir. Kaspiananın dəniz sahili düzənliyi cəngəlliklərdən və bataqlıqlardan ibarət olduğu üçün həm Albaniya, həm də Atropaten onu tutub öz dövlətləri ərazisinə qatmağa canfəşanlıq göstərməmişlər. Kaspiana qədim tarixdə çox vaxt azad icmalıq kimi qalmışdır. Bununla belə tarixin müəyyən dövrlərində Kaspiana gah Albaniyanın, gah da Atropatenin nüfuz dairəsində olmuşdur. Təsadüfü deyil ki, Q.Qeybullayevin "Azərbaycanlıların etnogenezinə dair" kitabında kaspi soyları həm Albaniya soyları siyahısına, həm də Atropaten soyları siyahısına daxil etmişdir.

Qarabağ məsələsinə gəlincə, erməni qaynaqlarına əsaslanan K.Trover yazır ki, e.ə. II əsrdə erməni hökmdarı I Artaşes kür çayının sağ sahilini, yəni Qarabağı, Zəngəzuru, Naxçıvanı və İrəvanı tutub Ermənistana birləşdirdi və guya həmin torpaqlar 6 əsr, yəni eramızın 387-ci ilində Ermənistanın Sasani və Roma dövlətləri arasında bölüşdürülüb, siyasi xəritədən silinənədək Ermənistanın tərkibində qaldı. Yalnız bundan sonra Alban hökmdarları Arsax və Utini (Qarabağ və Zəngəzur) geri alıb öz torpaqlarına birləşdirdilər. Çox təəssüf ki, 3 cildlik "Azərbaycan tarixi"nin I cildində də bu yanlış fikir K.Treverə istinadən öz əksini tapmışdır. Halbuki, e.ə. II əsrdən eramızın IV əsrinə qədər olan dövrün hərbi-siyasi tarixdən məlum olur ki, bu 6 əsr ərzində Ermənistan özü gah bir, gah digər dövlətə tabe olmuş, gah da dövlətçiliyini itirmişdir. Məsələn, e.ə. 69-cu ildə Roma sərkərdəsi Lukullun ordusu erməni hökmdarı II Tiqranın ordusunu məğlub edib Ermənistanın paytaxtı Tiqranakerti də ələ keçirdi. Yalnız iki il sonra, e.ə. 67-ci ildə II Tiqran Albaniya və İberiyanın köməkliyi ilə Tiqranakerti geri ala bildi. E.ə. 66-cı ildə Roma sərkərdəsi Pompey yenidən Ermənistanı tutur və II Tiqran təslim olmağa məcbur olur. Pompey İberiyanı da özünə tabe edir və Albaniya üzərinə yürüş edir. Alban hökmdarı Orayz ona ciddi müqavimət göstərə bilmir, məğlub olub e.ə. 66-cı ildə Pompeylə barışıq bağlayaraq, Roma ordusunu keçib Kaspi sahilinə getməsinə razılıq verir. Lakin Romadakı siyasi hadisələr Pompeyi təcili surətdə geri qayıtmağa məcbur edir. E.ə. 37-36-ci illərdə Roma sərkərdəsi Kanidi Krassın ordusu yenidən Ermənistanı tutur.

E.ə. 20-ci ildə Parfiya dövləti Romanın Ermənistan üzərində hakimiyyətini tanıyır, əvəzində isə Roma Parfiyanın Atropaten üzərində hakimiyyətini tanıyır. Eramızın I əsrində Roma sərkərdəsi Antoni ermənilərin Romaya qarşı üsyanını yatırır, Ermənistanın idarə olunmasını, artıq bu vaxt Roma ilə dostluq edən Atropaten hökmdarlarının sərəncamına verir. 34-





cü ildə Parfiya Ermənistanı zəbt edir. Lakin elə həmin il Roma Atropaten, Albaniya və İberiyanın köməkliyilə Ermənistanı Parfiyadan geri alır.

Onu da qeyd etmək lazımdır ki, I əsrin 90-cı illərində Roma ordusu Ermənistandan keçərək Albaniyaya hücum edir. Bu dəfə Roma ordusu Kaspi dənizi sahillərinə çıxa bilir. Bunu Roma imperatoru Domisianın və "XII İldırımsürətli" legionun adının qeyd olunduğu Qobustandakı Böyükdaş qayaüstü yazıları təsdiq edir.

114-cü ildə Parfiya üzərində qələbə çalmış Roma imperatoru Troyan, tarixçi Festin yazdığına görə "Ermənistanı Parfiyadan aldı, onları Böyük Ermənistan tacından məhrum edib onu özünə götürdü, albanlara çar verdi, iberləri, bosporları və kolxları Roma tabeliyinə götürdü." Nəhayət, IV əsrdə Ermənistan dövləti yer üzündən silindi.

Beləliklə, 6 əsrin siyasi tarixi göstərir ki, Arsax və Uti, həmçinin Naxçıvan və İrəvan Ermənistanın tərkibində ola bilməzdi, çünki Ermənistan bu müddətdə dəfələrlə qoltuq altında olmuşdu. Həm də K.Treverin yazdığına inansaq, onda belə qənaətə gəlmək olar ki, həmin torpaqlar öncə Albaniyanın olmuşdur, ermənilər isə onları işğal etmişlər və sonralar geri qaytarmalı olmuşlar. Hətta Allah eləməmiş həmin torpaqlar qədimdə ermənilərin olsaydı da, müasir dövrdə ermənilərin Azərbaycan torpağına iddia etmələrinə hüquqi əsasları yoxdur. İkinci Dünya müharibəsindən sonra müəyyən edilmiş sərhədlər isə beynəlxalq hüquq normalarına görə, Potsdam konfransının qərarlarına görə toxunulmazdır.

**5.2. Albaniya əhalisinin etnik tərkibi.** Albaniya əhalisinin etnik tərkibi haqqında e.ə. I minilliyin ortalarına qədər heç bir məlumat yoxdu. Alban soyları haqqında Heradot və Strabonun əsərlərində olan ilk məlumat e.ə. IV əsrə aiddir. Həmin qaynaqlarda Albaniyada alban soyları ilə bərabər utilərin, sakların, kasların (kaspi) da yaşadıqları xəbər verilir.

Antik qaynaqlarda "albanlar" anlayışı ölkənin bütün əhalisinə şamil edilirdi. Lakin müxtəlif qaynaqlarda, yeri gəldikcə alban etnik birliyinə daxil olan uti, sak, kaspi, mük (muğ), savdey, qarqar, gel, leq və b. ayrı-ayrı soyların da adı çəkilir. Albaniyanın əhalisi etnik cəhətdən müxtəlif olmuşdur. Albaniyada müxtəlif dil ailələrinə məsub soylar - Qafqaz dil ailəsinin şərq, yaxud Dağıstan qrupu, türk dil ailəsi və hind-avropa dil ailəsinin iran qrupuna mənsub soylar yaşamışlar.

Nəzərə almaq lazımdır ki, Azərbaycan tarixşünaslığının çox mötəbər tədqiqat əsərlərində və dərsliklərdə xalqların dil mənsubiyyətləri haqqında məsuliyyətsiz, elmi baxımdan səhv ifadələr və anlayışlar işlədilir. Məsələn, 7 cildlik "Azərbaycan tarixi"nin 1-ci cildində Qafqaz dil ailəsinin şərq qrupu mənasında yanlış olaraq "Şimal-şərq Qafqaz dilləri ailəsi" ifadəsi işlədilir. "Azərbaycan tarixi" (Dərslik, Bakı, 1994) kitabında isə "irandilli" mənasında yanlış "farsdilli", "Dağıstandilli" mənasında yanlış "ləzgidilli" ifadələri işlədilir.

Rus alimi K.Trever guya Strabonun məlumatına əsaslanaraq yazır ki, Albaniyanın əhalisi 26 dildə danışırdı. Akademik Ə.Sumbatzadə isə Strabonun məlumatını belə tərcümə etmişdir: "Qış vaxtı yağan qar dağlıq ölkə olan Albaniyanın sərt qayalarını və dərin dərələrini uzun müddət keçilməz etdiyindən ölkənin kəndləri və bölgələri arasında əlaqələri zəiflədirdi. Bu da əhalinin 26 ləhcədə danışmasına səbəb olmuşdur". Strabonun məlumatını Albaniyanın düzən və dağətəyi bölgələrinə aid etmək mümkün deyildir və "26 ləhcə" anlayışını ölkənin şimal hissəsinə, indiki Dağıstanın cənub bölgələrinə şamil etmək lazımdır. Qafqazda çoxdillilik (çoxləhcəlilik) şəraiti erkən orta əsrlərin qaynaqlarında da qeydə alınmışdır. Albaniyanın mərkəzi hissəsində, Kür çayının sağ və sol sahili ərazilərdə yaşayan əhalinin dil müxtəlifliyi haqqında heç bir söz deyilmir. Buradan belə nəticə çıxarmaq olar ki, qaynaqlarda Alban soyları adı ilə bəlli olan – lpi, cilv, leq və başqalarının dilləri Qafqaz dil ailəsinin Dağıstan qrupuna aid edilə bilər.





Ali məktəblər üçün adı çəkilən "Azərbaycan tarixi" dərsliyində, çox düzgün olaraq, qədim utilər türk dilli soy hesab edilir. Bəzi tədqiqatçılar (S.Yeremyan, K.Treven, F.Məmmədova və b) isə qaynaqlarda adı çəkilən uti soylarını müasir utilərlə eyniləşdirir və onların dillərini "səhvən" şimal-şərq Qafqaz dilləri ailəsinə aid edirlər. Əvvələn, müasir uti dili Qafqaz dil ailəsinin şərq qrupuna deyil, cənub qrupuna aiddir. İkincisi, müasir utilər ehtimal ki, qədim utilərin nəsilləridirlər. Lakin qədim utilər türkdilli soy olmuşlar və sonralar Qafqaz dilli olmuşlar.

E.ə. VIII əsrə aid Urartu mixi yazılarında Göyçə gölü hövzəsində Uduri-Etiani vilayətinin adının çəkilməsi, utilərin hələ o vaxt bu ərazidə yaşamalarını sübut edir. Haxamanişilər sülaləsinin hakimiyyəti dövründə e.ə. VI əsrə aid vergi verənlərin siyahısında utilərin də adının çəkilməsi, onların Azərbaycanın qədim sakinləri olmasını sübut edir. Görünür Azərbaycanın bu qədim sakinlərinin bir hissəsi kuti və digər tük soyları ilə birlikdə sonralar şərqə tərəf köç etmişlər. Daha sonralar isə Qərbi Sibir və Uraldan keçərək Volqaboyuna getmişlər. Ərəb müəllifi ibn Fədlan IX əsrdə Volqaboyunda yaşayan türk soylarından onoqurlar, sarıqurlar, kutiqurlar və b ilə yanaşı, utiqurların, yəni utioğuzların da adını çəkir. Uti adı ilə "oğuz" adının birlikdə işlədilməsi utilərin oğuz türk soylarının qədim əcdadlarından biri olmasına dəlalət edir. Sibirdə Krasnoyarsk vilayətində XVIII əsrdə türk mənşəli udi soyunun yaşaması qeydə alınmışdır. Şimali Azərbaycanın Kür və Araz çayları arasındakı torpaqların böyük bir hissəsinin eramızın əvvəllərində Arsax və Uti adlanmaları M.Kalantuklunun "Albaniya tarixi" kitabından bəllidir. Qarabağın müasir utilərin dilində "Böyük bağ" mənasını verən "Arsax" adlanması da məlumdur. XIX əsrdə Qarabağ məlikliklərinin qədim alban xristian əhalisi də utilər olmuşlar. Utilərin Araz çayından şimalda yerləşən bölgələrə cənubdan gəlmələri haqqında A.Bakıxanovun məlumatı da utilərin Azərbaycanın qədim türkdilli soylarından olmasını

sübut edir. Utilərin Qəbələ və Oğuz rayonlarındakı indiki məskənlərinə gəlmələri XVIII əsrə aiddir. Görünür erməni kilsəsi tərəfindən sıxışdırılan alban kilsəsinin tərəfdarları olan utilər yeni məskənlərində gürcü kilsəsinin təsiri altında olmuşlar. Ona görə də, gürcü kilsə dilinin təsiri altında dilləri dəyişikliyə uğramış, Qafqaz dil ailəsinin cənub qrupunu təşkil edən iber-kartvel dilləri qrupuna aid olan müasir uti dilinə keçmişlər. Mənşəcə uti olan görkəmli dilçi alim, professor Voroşil də müasir utiləri qədim Albaniya soylarından olan utilərin nəsli hesab edərək onların öncə türkdilli soy olduğunu qeyd edirdi. O, udi dilində olan küllü miqdarda türk köklü sözləri təhlil etməklə belə nəticəyə gəlirdi ki, müasir udilər qədim utilərin nəsilləridir, onlar türkdilli soy olmuş, sonralar qafqazdilli soya çevrilmişlər. “Kitabi – Dədə Qorqud” dastanından bizə bəlli olan qədim türk mərasim yeməyi “yəxni”nin müasir udilərin də geniş yayılmış ənənəvi mərasim yeməyi olması kimi bir maraqlı fakt da qədim Albaniya utilərinin türkdilli olmasını təsdiq edir.

Albaniya əhalisinin tərkibində utilər ilə bərabər sak, qarqar, kəngərli, peçeneq, çola, koman, ijmax, tərtər, hun, xəzər, suvar (sabir, silir), mük (muğ), dondar, bayat və b. türk soylarının adları da çəkilir. Albaniya ərazisində yaşayan irandilli soylardan isə qaynaqlarda kaspi, maskut, savdey, mard, mehrani, girdman və gel soyları haqqında məlumat vardır.

Beləliklə, Albaniya əhalisinin tərkibində türkdilli, irandilli və qafqazdilli soylar əsrlər boyu birgə yaşamışlar. Qədim zamanlardan bəri onlar qohumlaşmış, qaynayıb-qarışmış və düşmənə qarşı birgə vuruşmuşlar.

**5.3. Albanların təsərrüfat həyatı və ictimai münasibətləri.** Albaniya əhalisinin təsərrüfat həyatında əkinçilik və maldarlıq əhəmiyyətli yer tuturdu. Albaniya qədim əkinçilik ölkələrindən biri olmuşdur. Burada dəmyə əkinçiliyi ilə yanaşı suvarma əkinçiliyi də geniş yayılmışdı. Strabon xəbər verir ki, Albaniya düzənlikləri çayların suları və başqa su mənbələri





vasitəsilə Babil və Misirdən daha yaxşı suvarılır. Əkinçilikdə torpağı şumlamaq üçün ağac xışdan geniş istifadə olunurdu. Taxılın saxlanması üçün küplərdən və quyulardan istifadə edilirdi. Arxeoloji qazıntılar zamanı Albaniya ərazisindən taxılı üyütmək üçün çoxlu dən daşları və əl dəyirman daşları aşkar edilmişdir. Yaloylutəpə və Xınıslıda tapılmış əl dəyirmanlarının daşlarının diametri və qalınlığı eynidir. O zaman Albaniyada su dəyirmanları da olmuşdur. Albaniyada əkinçiliyin bağçılıq və üzümçülük sahələri də kifayət dərəcədə inkişaf etmişdi. Bağçılığın və üzümçülüyün inkişaf səviyyəsi haqqında IV əsrdə Urnayırın fərmanı ilə meyvələrin ilk barının kilsə üçün ayrılması faktı fikir yürütməyə əsas verir.

Albaniyada maldarlığın inkişafı üçün əlverişli şərait olması haqqında məlumat verən Strabon yazır ki, Albaniya düzənlikləri “daim zəngin otlaq görkəminə malik” idi. İlin qızmar vaxtında mal-qara dağ yüksəkliklərində yerləşən Alp çəmənliklərinə qaldırılır, qışın soyuğunda isə düzənliklərə endirilirdi. Albaniyada qoyun-keçi çox yayılmışdı. Albaniyada atçılıq və dəvəçilik də inkişaf etmişdi. Klavdi Ellian yazır ki, Kaspianada “dəvələr lap çoxdur, ... onların gözəl yunu vardır.” Mal-qara əhalini süd məhsulları, ət, dəri və yun ilə təmin edirdi.

Albaniya əhalisi ovçuluq ilə də məşğul olurdu. Ovçuluq əhalini əlavə azuqə ilə təmin etməklə yanaşı, həm də gənc döyüşçülər üçün hərbi hazırlıq, bir növ tərbiyə məktəbi və mərdlik dərsi idi.

Albaniyada sənətkarlığın dulusçuluq, ağacişləmə, daşişləmə və metalişləmə sahələri inkişaf etmişdi. Dulusçular küp və digər saxsı qablar hazırlayırdılar. Saxsı məmulatı arasında evlərin damını örtmək üçün kirəmitlər xüsusi yer tuturdu. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş tunc, gümüş və qızıl əşyalar alban zərgərlik ustalarının məharəti haqqında fikir söyləməyə əsas verir. Bu sözləri Albaniyanın sümükişləmə sənətkarlığı haqqında da demək olar.

Antik müəlliflərin əsərlərində Albaniyada yun və kətan xanmalı əsasında toxuculuğun inkişafı haqqında kifayət qədər material vardır. Ellian Kaspiana ərazisində toxuculuğun inkişafından bəhs edərək yazır ki, bu ölkədə istehsal olunan "dəvə yunu çox zəifdir, belə ki, yumşaqlıq cəhətdən hətta Milet yunundan da geri qalmır. Bu yundan tikilmiş paltarları... ən varlı kaspilər geyirlər."

Məlumdur ki, Cənubi Azərbaycan ərazisində sinifli cəmiyyət çox erkən dövrlərdən, e.ə. III minillikdən təşəkkül tapmışdı və burada qədim quldarlıq dövlətləri meydana gəlmişdi. Azərbaycanın şimal hissəsində isə hələ e.ə. II-I minilliklərdə artıq mülki bərabərsizlik, sosial təbəqəsinə baş vermişdi. Bu da təbiidir. Çünki Şimali Azərbaycan ərazisi Şərqin ən qüdrətli dövləti olan Haxamanişilər Madası ilə təmasda idi. Aydındır ki, bu fövqəldövlətdə mövcud olan quldarlıq ictimai-iqtisadi münasibətləri Albaniya ölkəsinə təsir etməməyə bilməzdi. Lakin burada sosial təbəqələşmə siniflərinin formalaşmasına gətirib çıxarmamışdı. Odur ki, bir çox tədqiqatçıların mülahizəsinə görə Albaniya quldarlıq mərhələsini yan keçərək birbaşa feodalizmə qədəm qoymuş ölkələrdəndir. Bu fikri onunla əsaslandırırlar ki, Albaniya beynəlxalq ticarət yollarından və Ellin dünyasından kənarda yerləşirdi. Ona görə də burada iqtisadiyyat və ictimai münasibətlər ləng inkişaf edirdi. Belə fikri çox vaxt Strabonun Albaniya haqqında ziddiyyətli məlumatları ilə əsaslandırmağa çalışırlar.

Lakin arxeoloji materiallar Albaniyanın o dövrün tərəqqi səviyyəsinə uyğun inkişaf etmiş iqtisadiyyata malik olduğunu göstərir. Bunu əsas götürən tədqiqatçılar Albaniyada quldarlıq ictimai münasibətlərinin mövcud olması mülahizəsini irəli sürürlər. Ancaq bir şey məlumdur ki, qədim Albaniyada quldarlıq ictimai-iqtisadi funksiyasının əsas sinifləri olan qullar və quldarlar haqqında qaynaqlarda tutarlı məlumat yoxdu. Antik müəlliflər qədim Albaniyanın yüksək təbəqələrinin nümayəndələri haqqında yunan və latın dilində olan anlayışlarla məlu-





mat vermişlər. Bunların hər birinin öz alban ekvivalentinə nə dərəcədə uyğun gəldiyini söyləmək çox çətindi. Məsələn, latın variantında "basilevs" və "reks" varlı, adlı-sanlı adam, hökmdar, sərkərdə, yaxud sadəcə olaraq nüfuzlu şəxsə şamil edilə bilər. Bu baxımdan antik qaynaqlarda məlumat verilən "heradulları" qullar kimi qəbul etmək olmaz. Doğrudur, "heradul" yunan dilində, "müqəddəs qul" deməkdir. Lakin bu anlayış klassik "qul" mənasını vermir. Məbədlərdə heç bir hüququ olmayan işçiləri "herodul" adlandırırdılar.

Qədim Albaniyada mövcud olan sosial təbəqələşməni ibtidai icma cəmiyyətindən xüsusi mülkiyyətə əsaslanan sinfi cəmiyyətə keçid dövrü adlandırmaq olar. Bu dövrün siyasi hakimiyyət forması isə quldarlıq dövlət quruluşu deyil, hərbi demokratiya olmuşdu. Bu dövrdə cəmiyyət sosial təbəqələrə bölünür. Strabonun əsərindən məlum olur ki, qədim Albaniyada ali təbəqə hökmdarlar, hakimlər olmuşlar. Onlardan sonra gələn ikinci sosial təbəqə kahinlər olmuşdur. Üçüncü sosial təbəqə isə hərbçilər hesab edilir. Daha sonra isə sənətkarlar, tacirlər, maldarlar, əkinçilər və heç bir hüququ olmayan məbəd işçiləri - "herodullar" ("müqəddəs qullar") sosial təbəqələri gəlirdi. Antik müəlliflərin əsərlərindən bizə Albaniya "basilevslərindən" yalnız üçünün adı məlumdur: Pompeyin yürüşündən tanınan Oroyz və onun qardaşı Kazis, bir də Kanidi Krass ilə qarşılaşan Lober. Hökmdarlar haqqında olan bu cüzi məlumat belə hesab etməyə imkan verir ki, e.ə. I əsrdə Albaniyada artıq dövlət mövcud olmuşdu və bu dövlət hərbi demokratiyaya əsaslanmışdır.

Albaniya Cənubi Qafqazda feodal ictimai münasibətlərinin çox erkən yarandığı ölkələrdən biridir. Albaniyada quldarlıq şübhəsiz mövcud olmuşdur. Lakin o ictimai-iqtisadi formasiyaya çevrilə bilməmişdir. Albaniyada feodalizm cəmiyyətinin formalaşması prosesi eramızın IV-VII əsrləri ərzində davam etmişdir. Albaniyada feodalizm cəmiyyətinin əsas sinifləri azatlar (feodallar) və şinaklar (azad ictimai kəndlilər) olmuşlar.

Albaniyanın qədim əhalisi astral dinlərə sitayiş edirdi. Strabonun verdiyi məlumata görə Albaniya əhalisi Göyə, Günəşə və Aya ibadət edirdi. Albaniyada məbədlər və məbəd torpaqları var idi. Lakin eramızın II əsrində, Moisey Kalankatuklunun verdiyi məlumata görə Albaniyada xristianlıq yayılmağa başlamışdı.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi. 7 cilddə, 1-ci cild, s. 328-414;
2-ci cild Bakı, 1998, s. 15-83.
2. Azərbaycan tarixi. Dərslik, s. 145-156, 170-211.
3. M.Kalunkatuklu. Albaniya tarixi.
4. F.Məmmədova. Albaniyanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993.





# VI FƏSİL

## AZƏRBAYCANDA XRİSTİANLIĞIN YAYILMASI

**6.1. Azərbaycanda xristianlığın yayılmasının birinci mərhələsi.** Azərbaycan xristian dininin yayıldığı ən qədim ölkələrdən biridir. Azərbaycan, hələ IV əsrdə xristianlığın dövlət dininə çevrilməsindən xeyli öncə, xristian icmalarının yarandığı ölkələrdən sayılır.

Tarixi qaynaqlarda Cənubi Azərbaycan ərazisində eramızın I əsrində xristianlığın yayılmağa başlaması haqqında məlumat vardır. Burada xristianlığı ilk təbliğ edənlər həvarilər (yunanca – apostıllar) olmuşlar. İsus Xristosun, göyə çəkilməsindən iki il sonra Həvarilərdən Pavel Çinə, Foma Parfiyaya və Varfolomey Hindistana gedərkən yolüstü Atropatenə gəlmiş və burada xristianlığın təbliği ilə məşğul olmuşlar. Cənubi Azərbaycanda xristianlığın bilavasitə yayılması isə həvari Faddeyin adı ilə bağlıdır. Atropaten əhalisi arasında xristianlığı yaymaq şərəfi məhz ona həvalə olunmuşdu. Pavel, Foma və Varfolomeyin ardınca həvari Faddey öz şagirdləri ilə birlikdə Atropatenə gələrək indiki Maku bölgəsində xristianlığı yaymaqla məşğul olur. Xristian dininin düşmənləri Faddeyi və onun şagirdlərini təqib edirlər. Həvari Faddey əzabla öldürülür. Şagirdləri onu gizlicə dəfn edib Yerusəlim (Qüds) şəhərinə qayıdırlar. Həvari Faddeyin qəbrinin yeri son vaxtlara qədər məlum deyildi. Onun qəbri XX əsin II yarısında Maku şəhərinin yaxınlığında İran – alman birgə arxeoloji ekspedisiyası tərəfindən aşkar edilmişdir.

Moisey Kalankatuklanın “Albaniya tarixi” kitabında həvari Faddeyn erməni çarı Sanatruk tərəfindən öldürüldüyü xəbər verilir. ( s.18). Əfsuslar olsun ki, “Azərbaycan tarixi”nin yeddicildlik akademik nəşrində də bu yanlış məlumat təkrar olunur. Əslində isə həvari Faddeyin erməni çarı Sanatruk tərəfindən öldürülməsi şübhəlidir. Çünki akademik Ziya Bünyadovun yazdığına görə guya Arşakilər sülaləsindən olan Sanatruk 115-116-cı illərdə hökmdarlıq etmişdir. Numizmatik tədqiqatlar isə tamamilə əks bir faktı təsdiqləyirlər. Arxeoloji qazıntılar zamanı Azərbaycan ərazisində aşkar edilmiş sikkə dəfinələrindəki Parfiya draxmalarından məlum olur ki, Arşakilər sülaləsinin nümayəndəsi kimi təqdim edilən Sanatruk əslində Parfiya hökmdarı olmuşdur və onun hakimiyyət illəri e.ə. 77-70-ci illəri əhatə edir. Deməli, eramızın I əsrində Faddeyi qətlə yetirə bilmədi. “Albaniya tarixi”ndə həvari Faddeyin erməni çarı Sanatruk tərəfindən qətlə yetirilməsi haqqında yanlış məlumat isə, erməni katolikosu Ananiyanın tapşırığı ilə alban dilindən ermənicəyə tərcümə olunan zaman, erməni müəllifləri üçün səciyyəvi olan tarixin saxtalaşdırılması kimi bir fəaliyyətin nəticəsidir.

Göründüyü kimi həvari Faddeyin Azərbaycanda xristian dinini təbliği, İsa peyğəmbərin şagirdlərinin dünyanın müxtəlif yerlərindəki missionerlik fəaliyyətləri ilə eyni vaxtda baş vermişdir. Azərbaycanda xristianlığın təbliğində böyük fasiləyə də yol verilməmişdir. Həvari Fəddayin şagirdi Yelisey, müqəddəs Faddeyin həsəd aparıcı şəhidliyi haqqında Yerusəlimdə söhbət etdikdən sonra İsa peyğəmbərin qardaşı, Yerusəlimin ilk patriarxı, həvari Yakov tərəfindən Şərq ölkəsinə, yəni Albaniyaya yepiskop təyin edilir. (“Yepiskop” – yunan sözü olub “nəzarətçi” mənasını verir). Həvari Faddeyin və onun şagirdi Yeliseyin eyni zaman çərçivəsində, yəni I-II əsrlərdə fəaliyyət göstərmələri Azərbaycanda xristianlığın yayılmasının birinci mərhələsinin fasiləsizliyini sübut edən tarixi faktlar.





Müqəddəs Yakovun təyinatı ilə qismətinə Şərqdə ölkəsində xristianlığı təbliğ etmək düşən Yelisey Yerusəlimdən İrana gedir və oradan cənubi Azərbaycana keçərək Xəzər dənizinin qərb sahilində yerləşən Maskut elinə gəlir. Yelisey xristianlığın təbliğinə Çoladan başlayır. O, başına müxtəlif yerlərdən şagirdlər toplayaraq, onlara İsa peyğəmbər haqqında, onun ilahi keyfiyyətləri və möcüzələri haqqında danışır.

Yelisey Çoladan 3 nəfər şagirdi ilə Kürün sağ sahilində yerləşən Uti vilayətinə gedir və orada xristianlığın təbliği ilə məşğul olur. Lakin Çolada xristian dininin düşmənlərinin hədə-qorxusu nəticəsində Yeliseyin şagirdlərinin bəzi qohumları onların ardınca gəlirlər ki, evlərinə aparsınlar. Geri qayıtmaq istəməyən şagirdlərdən birini qohumları öldürürlər. Bundan qorxan digər iki şagird qohumları ilə birlikdə geri qayıtdılar.

Yelisey Utidən Şəki vilayətinə gedir və müasir Şəki şəhərindən şimalda yerləşən Gisdə (indiki Kiş kəndi) kilsə tikdirir. Gis kilsəsi bütün Şərqdə ilk xristian kilsəsi hesab edilir.

Daha sonra Yelisey Şəkidən Zərqun dərəsini keçib bütpərəstlərin müqəddəs səcdəgahlarının olduğu yerə gedir və orada şəhid olur. Onun cənazəsini Qomenk adlanan bir yerdə xəndəyə atırlar və uzun müddət onun qaxımış cəsədi gizli qalır. Xeyli vaxt keçdikdən sonra müqəddəs Yelisey bir dindar kişinin yuxusuna girir və o, öz yuxusunu adamlara danışır. Adamlar dəstə-dəstə mömün kişinin dediyi yerə yürüyürlər və xəndəyə çatanda yalnız bir yığım sümük görürlər. Bir qədər məyus olsalar da, sümükləri xəndəkdən yığıb bütün gecəni ibadət edirlər. M.Kalankatuklunun yazdığına görə səhərə yaxın bərk zəlzələ olur və ordakıların hamısı yerə yıxılırlar. Bu vaxt sərt külək əsir və murdar sümükləri o tərəfə bu tərəfə səpələyir, həmin yerdə yalnız Yeliseyin sümükləri qalır. Elə bu an Urekan kəndinin Stepanos adlı keşişi sümüklərin içindən kəlləni oğurlayıb ata minir və çapıb aradan çıxır. Camaat onun dalınca yüyürür. Lakin bu vaxt göyün üzünü qapqara bulud alır və adamlar qorxub evlərinə qayıdırlar. Müqəddəs Yeliseyin sümüklərinin hamısını

götürüb Urekan kəndinə aparıb onun kəlləsinin saxlanıldığı yerə qoyurlar. Sonralar Yeliseyin sümükləri oradan Nersmehr kilsəsinə aparılır.

Yelisey Albaniyanın maarifçisi hesab edilir. Xristian ədəbiyyatında və xristian aləmində Yelisey yalnız Faddeyin şagirdi kimi deyil, həm də həvari kimi tanınır və albanların ziyalanmasının ilkin səbəbkarı hesab edilir. Yeliseyin Albaniya yepiskopu vəzifəsinə II əsrdə Yerusəlimin ilk patriarxı Yakov tərəfindən təyin olunması və onun Cənubi Qafqazda ilk xristian kilsəsinin əsasını qoyması Alban kilsəsinə həvari başlanğıcı statusu verir. Kilsənin həvari başlanğıcının əhəmiyyəti, hər şeydən öncə ondadır ki, bu həmin kilsənin daha qədim və ilkin olduğunu, ikincisi isə onun başqa kilsələrin vasitəçiliyi ilə deyil, ilk əsasdan, yəni həvarilərin özləri tərəfindən təsis edildiyini sübut edir.

Albaniyada xristianlığın yayıldığı həvarilik dövrü adlandırılan ilk mərhələdə xristianlıq İberiya, İran, Atropaten və Ermənistana nisbətən daha böyük uğurlar əldə etmişdi. Bunu həm yazılı qaynaqlar, həm də dövrün tədqiqatçıları təsdiq edirlər. Xristianlığın Ermənistana nisbətən Azərbaycanda, o cümlədən Albaniyada daha erkən yayılması M.Kalankatuklunun "Albaniya tarixi" kitabında verilən yunan kilsəsini erməni kilsəsinə yazdığı məktubda belə qeyd edilmişdir: "Erməni katolikosluğunun seçilməsi qaydası isə Albaniya katolikosluq kürsüsünün sərfəsi olmalıdır, çünki Albaniya kürsüsü siz ermənilərin kürsüsündən daha uca və yaşlıdır." Akademik Ziya Bünyadov yazırdı ki, M.Kalankatuklunun "Albaniya tarixi" əsərindəki bu məktuba ilk dəfə X əsrdə Alban katolikosu Hagik (948-962) tərəfindən təsadüf edilmişdir. Hagik eşitmişdir ki, Albaniya Ermənistandan qabaq xristianlığı qəbul etmişdir. Erməni katolikosu Ananiya 958-ci ildən sonra Xaçenə gələndə Hagik "Alban tarixi" kitabından ona oxuyur ki, həvari Faddeydən 266 il sonra müqəddəs Qriqori Ermənistanda xristianlığı yaymışdı. Ananiya demişdi ki, bu kitab səhih deyil, elə etmək lazımdır ki,





albanların xristianlığı qəbul etməsi haqqında orada yazılanları deyil, bizə lazım olan, bizim görmək arzusunda olduğumuz məlumatı həmin "Tarix"dən oxusunlar. Ona görə də həmin məlumat "Albaniya tarixi" kitabından çıxarılmışdır.

Araşdırmalar göstərir ki, ilk çağlar sürətlə yayılan xristianlıq Parfiya imperiyası vaxtında Şərqə böyük uğurlar qazanmışdı. Lakin İranda Sasanilər sülaləsinin hakimiyyəti dövründə xristianlığa qarşı mübarizə siyasəti nəticəsində iki əsrin nəticələri heçə endirildi. Albaniyada etnik müxəlliflik və politeizmin (çoxallahlığın) hökmranlığı monoteist din olan xristianlığın yayılması üçün əlverişli şərait yaratmışdı. Təsadüfü deyil ki, Yelisey xristianlığın təbliğinə Albaniyanın etnik cəhətdən daha çox müxtəlif olan şimal-şərq hissəsindəki Çola bölgəsindən başlamışdı. Lakin Azərbaycanda xristianlığın yayılmasının birinci mərhələsində, yəni I-III əsrlərdə Albaniyada xristianlığın təntənəsindən heç bir söhbət gedə bilməz. Xristian dini ölkədə yalnız IV əsrdə tam qələbə çala bildi.

Albaniyada Yeliseyin adı ilə bağlı Gis kilsəsinin mövcudluğu xristianlığın burada daha erkən yayıldığını təsdiq edən amildir. Odur ki, Albaniyada xristianlığın yayılmasının birinci mərhələsindən bəhs edərkən mütləq Gis kilsəsi haqqında geniş məlumat vermək gərəkdir.

Gis kilsəsi haqqında ilk məlumat verən M.Kalalankatulu yazır ki, "bu yer Şərqin bütün kilsələri və şəhərlərinin başlanğıcıdır və biz şərqlilərə xristianlığın qəbul edilməsi mənbəsidir." Qeyd etmək lazımdır ki, Gis kəndində yerləşən bu qədim kilsə Alban abidələri arasında xüsusi statusa malikdir. Xristianlığın Albaniyada və bütün Qafqazda yayılmağa başlaması tarixi Gis kilsəsinin yaranması tarixi ilə bağlıdır. Gis kilsəsinin həvari Yelisey tərəfindən tikilməsi isə Qafqazda ən qədim kilsə olan Alban kilsəsinin apostol başlanğıcına malik olduğunu, yəni avtokefal kilsə olmasını təsdiq edən maddi sübutdur.

Bir şeyi də qeyd etmək lazımdır ki, müsəlman əhalisinin məskun olduğu bölgədə xristianlığın bu qədim abidəsinin qə-

naətbəxş səviyyədə qorunub saxlanması, Azərbaycan xalqının başqa dinlərə qarşı dözümlülük göstərmək qabiliyyəti kimi humanist keyfiyyətinin və maddi mədəniyyət abidələrinə hörmətlə yanaşmasının parlaq təcəssümüdür. Məhz bu baxımdan ölkəmizin elmi ictimaiyyəti bu qiymətli unikal tarixi abidəni qayğı ilə qoruyub saxladıqlarına görə Kiş kəndinin əhalisinə minnətdar olmalıdır.

Əlbəttə, kilsənin müasir tikilisini çox qədim dövrə aid etmək olmaz. Lakin kilsədə və onun ərazisində arxeoloji qazıntılar zamanı aşkar edilmiş qədim bünövrələr, qəbirlər və əşyalar göstərir ki, kilsə qədimdən ibadətgah yeri olan ərazidə yerləşir və onun ən qədim tikilisi bizim eranın ilk əsrlərinə aiddir.

Memar professor Gülçöhrə Məmmədova elə hesab edir ki, müqəddəs Yeliseyin müasir anlamda kilsə binası tikdirməsinə çətin inanmaq olar. Ehtimal ki, Yelisey həmin yerdə ibadətgah qurub, yaxud o, həmin ərazidəki bütpərəstlərin ibadətgahları olan tikilini kilsə üçün uyğunlaşdırmışdır. Tarixdən məlumdur ki, xristianlığın ilk çağlarında bütpərəstlərin məbədlərindən kilsə məqsədilə istifadə etmişlər.

Bütün orta əsrlər boyu Kiş kəndi Şəki yepiskopluğunun mərkəzi olmuşdu. XVI əsrdə Şəki mahalının Şirvanşahlar nəslindən olan hakimi Həsən bəy gürcü çarlarının basqınlarından qorunmaq üçün Şah İsmayıla müraciət edir və Səfəvilərin himayəsinə keçir. Həsən bəyin vəfatından sonra onun oğlu Dərviş Məhəmməd xan Səfəvilərin hakimiyyətinə tabe olmaqdan imtina edir. Şah Təhmasib özü Şəkiyə gələrək Dərviş Məhəmməd xana itaət etməyi təklif edir. Dərviş Məhəmməd xan rədd cavabı verərək Kiş, Gələsən-görəsən və başqa bir neçə qalanı möhkəmlədib Səfəvi qoşunlarına müqavimət göstərir. Ciddi döyüşlərdən sonra Şah Təhmasib həmin qalaları tutur və dağıdır.

Türkmənçay müqaviləsindən sonra Qafqazda rus qoşunlarının baş komandanı general Paskeviç tərəfindən Cənubi Azərbaycanın Xoy xanlığı ərazisindən Şəkiyə köçürülmüş





ermənilər XIX əsrin 50-60-cı illərində Gis kilsəsini təmir edib öz ibadətgahlarına çevirdilər.

Gis kilsəsinin bədii dəyəri onun erkən orta əsrlərdə yaradılmış "gümbəzli zalı" olan kilsə tiplərinə aid olmasıdır. Kilsənin divarlarının hörgüsü V-VII əsrlərin Yeddikilsə və Mamrux kimi alban abidələrinin divarlarının hörgüsü ilə oxşardır və ehtimal ki, Alban memarlığının ərəb işğalından əvvəlki dövrünə V-VI əsrlərə aiddir. Eyni zamanda böyük divarlarının yuxarı hissələri və kilsənni gümbəzi daha sonrakı dövrlərə aiddir. Bu hissələr Alban memarlığında IX-XI əsrləri əhatə edən "keçid dövrünün" məhsuludurlar. Bu dövrdə Gis kilsəsinin görünüşünün tam formalaşması, memarlıq doktoru, professor G.Məmmədovanın fikrinə görə sütunlu zal kilsələrinin təkamülü və onların gümbəzli zal kilsələrinə çevrilməsinin məhsulu kimi çox böyük bədii – memarlıq dəyəri kəsb edir. Lakin XIX əsrin 50-60-cı illərində ermənilər tərəfindən aparılan təmir zamanı əlavə edilmiş ünsürlər disproporsiya yaradır və kilsənin görünüşünü təhrif edir. Odur ki, Gis kilsəsini restavrasiya edib onun XIX əsrdən əvvəlki görünüşünü bərpa etmək lazımdır.

Hazırda indiki Kiş kəndindəki bu qədim Alban kilsəsi bərpa və təmir olunur. Onun Azərbaycanda xristian dininin tarixi muzeyinə çevrilməsi nəzərdə tutulmuşdur. Təbiətin gözəl guşəsində yerləşən və sağlam iqlimi olan Kiş kəndindəki bütün memarlıq abidələri bərpa edilib Şəki şəhərinin dəyərli turist obyektlərinə çevrilmişlər.

**6.2. Azərbaycanda xristian dininin yayılmasının ikinci mərhələsi və Alban kilsəsinin yaranması.** Azərbaycanda xristianlığın yayılmasının ikinci mərhələsi IV əsrdən başlayır və Alban hökmdarı Urnayrın adı ilə bağlıdır. O, 313-cü ildə xristianlığı qəbul etmiş və albanları yenidən Müqəddəs Ruhun işığı ilə "maarifləndirmişdir." Urnayr Romada olduğu kimi xristianlığı dövlət dininə çevirir. O, gəlirin, taxıl məhsulunun, xırda buynuzlu mal-qaranın və bütün ev heyvanlarının onda

birinin və meyvələrin novbarının kilsə üçün ayrılması barədə fərman verir, kilsə üçün torpaq sahəsi ayırır.

M.Kalankatuklu xəbər verir ki, Urnayr xristianlığı müqəddəs Qriqori vasitəsilə qəbul etmişdir. Bu barədə “Alban tarixi” kitabında bir dini rəvayət də vardır. Rəvayətə görə Qriqori Parfiyanın yeddi məşhur nəslindən biri sayılan Paxlava nəslinə mənsub olan Amakın oğludur. Amak Sasani şahı I Ərdəşirin tapşırığı ilə Ermənistana gedərək Atropatenin Maku vilayətində həvari Faddeyin dəfn edildiyi kənddə dayanmışdır. Qriqorinin anası məhz burada hamilə olmuşdur. Bu əfsanə bir növ həvarilik fəaliyyətinin varis kimi Qriqoriyə keçməsinin simvoluna çevrilmişdir. Əfsanəyə görə Amak Sasani şahı I Ərdəşirin təhriki ilə erməni çarı Xosrovu öldürdükdən sonra qaçarkən Araz çayında boğulmuşdur. Atasının ölümündən sonra Qriqori Yunanistana aparılmış və burada bütün Şərq ölkələrinin xilası üçün qorunub saxlanmışdır. M.Kalankatuklu yazırdi: “Bu əhvalat Uca Allahın əməllərindən idi və pozğun Fironun əlindən qaçmış, səbətin içində Nil çayının sularından xilas olan birinci peyğəmbər Musanın əhvalatına bənzəyirdi. Xilas olan Musa sonralar öz xalqını ağır Misir əsarətindən və işgəncələrindən qurtarmışdı. Bunlara bənzər erməni canilərin qılınclarından xilas olan müqəddəs Qriqori də Allah tərəfindən yunanlar ölkəsində ona görə gizlində saxlanılırdı ki, gələcəkdə Şərq ölkələrini xilas etsin...O, Allah tərəfindən hələ anasının bətnində seçilmişdi, hələ bətndə ikən o, müqəddəs şəhid və həvari kimi adlanmışdı və dünyaya gəldikdən sonra xristianlığı yaymaq üçün Əskinazın nəsillərinin yanına göndərilmişdi.”

Qriqori ellin dövləti olan Kappodokiyanın paytaxtı Qeysəriyyə şəhərində tərbiyə və təhsil almışdı. Xristian ruhunda tərbiyə almış Qriqori həvariyə xas olan cəsarətlə erməni çarı Tridatın hüzuruna gələrək onu İsa peyğəmbərin yoluna dəvət edir. Çar ona müxtəlif işgəncələr verməklə əqidəsindən döndərməyə cəhd göstərir. Lakin çar comərd ərin İsa peyğəmbərə həqiqi inamını sındıra bilmir və onu Artaşad şəhərində ilanla





dolu çox dərin bir quyuya atdırır. Qriqori otuz il orada qalır. Qriqorinin quyuda olduğu vaxtda çar Tridatın əmri ilə öldürülmüş məşhur şəhidlərin – Ripsime, Qayane və onların otuz beş rəfiqəsinin meyitləri də çöllüyə atılmışdı.

Qriqori quyuda olduğu illərdə Allah erməniləri elə günə qoyur ki, bir- birilərinin ətini yeyirlər. Onlar elə dəhşətli qorxuya düşürlər ki, qiyamət gününün gəldiyini zənn edirlər. Yalnız bu zaman Allah yer üzünə mərhəmət mələyini göndərir. Mərhəmət mələyi çar Tridatın bacısı Xosrovduxtun yuxusuna girir və ona deyir ki, bu əziyyətlərdən sizi yalnız müqəddəs Qriqori xilas edə bilər. Odur ki, gedib onu dərin quyudan çıxarın. Xosrovduxt oyanaraq yuxusunu danışdıqda hamı onu dəli hesab edir və deyirlər ki, çoxdan ölüb getmiş adamın sümüklərini tapmaq mümkün olmadığı halda, özünü haradan tapmaq olar? Lakin məleykə ikinci və üçüncü dəfə qızın yuxusuna girdikdən sonra mürtədlər yeni bəlalardan qorxaraq, quyunun yanına gedib Qriqorini səsləyirlər və deyirlər ki, əgər sağsansa cavab ver! Elə həmin anda quyudan səs gəlir ki, sağsalamatam. Adamlar təəccüb və sevinclə Qriqorini yuxarı qaldırıb erməni çarının sarayına aparırlar. Mürtədlər müqəddəs Qriqorinin yanına dəli divanələri, sayıqlayanları, öz ətlərini didənləri, müxtəlif xəstəliklərə tutulanlara və donuza döndərilib qalın qamışlığa qaçmış çar Tridati gətirirlər. Müqəddəs Qriqori diz çöküb, göz yaşları axıdaraq mərhəmətli Allaha yalvarır ki, bədbəxt xalqın günahından keçsin. Allah onun dualarını eşidib xalqı öz cismani xəstəliklərindən sağaldır. Müqəddəs Qriqori şəhid qadınların faciəsini yuxusunda görübmüş və ona görə də soruşur ki, müqəddəs qadınların qaxımış cəhətləri haradadir? Hamı təəccüblə soruşur ki, o , hansı müqəddəslərdən danışır. Axı Ripsime və Qayane ilə birlikdə şəhid olan qadınların faciəsi Qriqorinin dərin quyunun dibində olduğu illərdə baş vermişdi. Qriqori müqəddəs qadınların adlarını çəkəndə hamı onun ilahi vergisinə heç bir şəkk-şübhə etmir və ehtiramla

cəsədlərin atıldığı yeri göstərirlər. O, cəsədləri şəhid olduqları yerdə qurulan kilsəcikdə dəfn etdirir.

Müqəddəs Qriqori patriarx mənsəbini qəbul etmək istəmir. Onda Allahın mələyi onun yanına gəlib deyir: "Etiraz etmə və öz itaətində inad göstərmə, ürəkli ol və Allah tərəfindən sənə verilən ikiqat əbədi şöhrəti qəbul et!" Müqəddəs Qriqori patriarx mənsəbini qəbul edib gürcülər və albanlar ölkələrinə xristianlığı yaymağa gedir. O, Haband vilayətinə gələrək əhalini İsa peyğəmbərin vəsiyyətlərini qorumağa çağırır və həmin vilayətin Amaras şəhərində kilsə binasının təməlini qoyur, onu tikmək üçün usta və fəhlələr cəlb edir.

Müqəddəs Qriqori kimi mənşəcə parfiyalı olan Alban hökmdarı Urnayır onun ilahi möcüzələrindən xəbər tutaraq, yanlış yollardan əl çəkib həqiqi Allah yoluna gəlir. Urnayr öz əyanları və alban qoşunları ilə Ermənistana yollanır, burada 40 gün pəhriz saxlayır və müqəddəs Üç Uqumaya iman gətirir. Hökmdar Urnayr, onun dalınca əyanlar və alban ordusu Fərat çayına girirlər, müqəddəs Qriqori isə onların xaç suyuna çəkilməsi ayinini icra edir. Bu fakt bir daha sübut edir ki, IV əsrdə Ermənistan Qafqazda deyil, Anadoluda mövcud olmuşdur.

Mənşəcə Parfiyanın Arşakilər sülaləsindən olan Alban hökmdarı Urnayr tərəfindən xristianlığın qəbul edilməsi həqiqətdə daxili tələbatdan daha çox siyasi məqsəd daşıyırdı. Urnayr monoteist din olan xristianlığın köməyilə, etnik tərkibcə müxtəlif soylardan ibarət olan ölkəni birləşdirib atəşpərəstliyin güclü olduğu Sasanilər İranına qarşı durmağa çalışırdı. Məlum olduğu kimi, Sasanilərin Cənubi Qafqazın xristian ölkələri Albaniya və İberiya barədə siyasəti sabit olmamışdır. IV əsrin əvvəllərində Şərqi Roma imperiyasında xristianlığın rəsmi qələbəsindən sonra Sasanilərin Albaniya barədə siyasəti bir daha dəyişir. Sasani şahları rəsmi kilsə ilə mübarizə aparan müxtəlif xristian təriqətlərinin tərəfdarlarına kömək edirdilər.

Xristianlığın Azərbaycanda yayılmasının ikinci mərhələsi, şərti olaraq, yunanfil və ya yunanpərəst mərhələ adlanır. Bu





mərhələ Cənubi Qafqaz və Ön Asiya ölkələri üçün ümumi olsa da, bir sıra fərdi xüsusiyyətlərə də malik olmuşdur. Bu fərdi xüsusiyyətlər siyasi səbəblərlə bağlı idi. Başqa sözlə desək, ölkənin Bizans imperiyasından asılılıq dərəcəsi kilsənin də Bizans kilsəsindən asılılığı səviyyəsində özünü göstərirdi. Məlumdur ki, bu asılılıq Bizansa daha yaxın olan Ermənistanda daha çox, İberiyada nisbətən az idi. Azərbaycanın isə heç bir asılılığı yox idi. Ona görə də ellinpərəst maarifçi Qriqori və onun nəvəsi Qrirorisdən sonra da Alban kilsəsi Yerusəlim kilsəsi ilə münasibətlərini davam etdirirdi.

Onu da qeyd etmək lazımdır ki, IV əsrin əvvəllərində Albaniyada hökmdar, saray adamları və feodallar tərəfindən qəbul edilən, dövlət dini səviyyəsinə yüksələn və əhali arasında təbliğ edilən xristianlıq ümumxalq dininə çevrilib hər yerdə yayılmadı. Əhali arasında təbiət qüvvələrinə sitayişlə bağlı olan qədim yerli dinlər və zərdüştiliyə inam hələ də yaşayırdı. Alban Arşaki hökmdarları Urnayr, II Vaçe və III Vaçaqan müxtəlif bütpərəstlik dinlərinə qarşı amansız mübarizə aparırdılar. F. Məmmədovaya görə Aquen məclisində qəbul edilmiş qanunlardan ikisi (11-ci və 12-ci) xristianlığa qədərki dinlərin qalıqlarının təqib olunmasına həsr edilmişdir. "Azərbaycan tarixi"nin yeddicildlik akademik nəşrində də bu fikir təsdiq edilir. Əslində isə Aquen məclisinin qəbul etdiyi dörd qanunda (11, 12, 13 və 14-cü) xristianlıqdan əvvəlki adətlər qadağan edilirdi.

Albaniyada xristianlığın yayılmasında alban yazısının yaranması, alban əlifbasının təkmilləşdirilməsi, məktəblərin təşkil edilməsi, "İncil" və başqa dini ədəbiyyatın siryani və yunan dillərindən alban dillərinə tərcümə edilməsi də mühüm rol oynamışdı.

Arşakilər sülaləsindən olan Alban hökmdarlarının köməkliyi ilə xristianlıq ölkədə yeni feodal cəmiyyətinin ideoloji əsasına çevrilərək, Albaniyanın ictimai-iqtisadi və siyasi həyatında rol oynamağa başlayır. Alban hökmdarları xristian kilsəsinə, xristian ruhanilərinə böyük qayğı göstərir, onlara xüsusi

imtiyazlar verirdilər. Hökmdarlar rühaniləri yüksək mənsəbli əyanlarla bərabər tutmağa çalışırdılar. Hətta saray məhkəməsi ilə yanaşı iki pillədən ibarət kilsə məhkəmələri də yaradılmışdı: birinci pillə keşiş məhkəməsi, ikinci yuxarı pillə isə yepiskop məhkəməsi idi.

Xristianlığın ilk çağlarında alban ruhaniləri iqtisadi və siyasi cəhətdən hələ zəif idilər. Hətta kilsə məsələlərinin həllində belə alban ruhaniləri müstəqil hərəkət edə bilmirdilər. Kilsə qanunları və xristian adət-ənənələri hökmdarların, feodalların iştirakı ilə hazırlanır və qəbul edilirdi. Hökmdar və əyanlar, feodallar dini sənədlərə öz möhürlərini vurduqdan sonra onlar hüququ qüvvəyə minirdi. Alban hökmdarları yepiskopları təyin edir, kilsə qurultaylarını çağırır, məbədlər tikdirir, kilsənin və ruhanilərin səlahiyyətlərinə daxil olan başqa işləri götürdülər. Alban ruhanilərinin bu vəziyyəti bir tərəfdən xalq arasında kilsənin nüfuzunun aşağı olması, kilsənin ideoloji mövqeyinin zəifliyi ilə, digər tərəfdən mərkəzləşdirilmiş qüvvətli dövlətin mövcud olması ilə bağlı idi.

Alban hökmdarı Mömin III Vaçaqanın hakimiyyəti illərində (487-510) Albaniyada xristianlıq genişlənir və möhkəmlənir. III Vaçaqan 26 yanvar 488-ci ildə özünün yaylaq kəndi Ağuyendə Alban xristian dini məclisini çağırır. Dini məclisdə qeyd edildi ki, yepiskoplar, keşişlər, əyanlar və xalq arasında, dini məsələlər, əxlaq normaları, adət və ənənələrlə bağlı çoxlu mübahisələr baş verir. Bu mübahisələrə son qoymaq və əhalinin ailə-məişət məsələlərini nizamlamaq məqsədilə Ağuyen ali dini məclisi 21 bənddən ibarət qərar qəbul edir. Bunlar faktiki olaraq xristian əhalinin məişətini nizamlayan qanunlar idi.

Ağuyen qanunları keşişlərin təyin olunma və tabelik qaydalarını müəyyənləşdirirdi. Hər bir kənd keşişi ildə iki dəfə yepiskopa hörmət göstərib müqəddəs kitablar üzrə ondan dini qaydaları öyrənməli və adəti üzrə ona ildə bir dəfə hədiyyə aparmalı idi. Xalq tərəfindən keşişə gətirilən torpağın





bəhrəsinin miqdarı belə müəyyən edilirdi: varlı adam 4 çərib buğda, 6 çərib arpa və 16 bardaq şirin çaxır; yoxsul varlının verdiyi taxılın yarısı qədər, çaxırdan isə bacardığı qədər. Əkin yeri və bağı olmayanlardan hec bir şey tələb olunmurdu. Kimin təsərrüfatında qoyun vardısa ildə bir qoyun, üç qoyunun yununu və bir parça pendir, atı olan bir dayça, qaramalı olan isə bir buzov verməli idi.

Qanunnamənin 6-cı bəndinə görə monastırdan bir şey oğurlayan rahib mühakimə olunmalı, monastırdan qovulmalı idi və ona ayrılmış torpaq payı kilsənin xeyrinə müsadirə olunmalı idi. Əgər bir xaçpərəst kimisə öldürsəydi, o, yepiskopun yanına gətirilib qanunlar əsasında cəzalandırılmalı idi.

Ağuyen qanunnaməsinin 10-cu bəndi əmi nəvəsi və bibi nəvəsi ilə evlənməyi, qardaşının arvadını almağı qadağan edirdi. 11-ci bənddə deyilirdi: “ Kim öz arvadını səbəbsiz boşayıb ikinci arvadla kəbinsiz yaşayırsa, kim cadugarlara müraciət edirsə, onların və qatillərin əl-qollarını bağlayıb hökmdar divanına gətirməli və işgəncələrdən sonra ölüm cəzasına məhkum etmək lazımdır.” 12-ci bənddə isə deyilirdi: “Əgər bir evdə ölü üçün yas saxlayıb ağlayırlarsa, evin sahibinin ağuçılarla birlikdə əl-qolunu bağlayıb hökmdarların divanına gətirmək və orada onları cəzalandırmaq lazımdır. Ev adamları qoy göz yaşlarını tökməsinlər.” 13-cü və 14-cü bəndlər xristianlığa qədərki bəzi adətlərlə mübarizə məqsədi daşıyırdılar: “ Kim ölmüş heyvanın ətini, qırxgünlük pəhriz zamanı ət yeyirsə və ya bazar günü işləyib kilsəyə getmirsə qoy keşiş onu dindarların qarşısında cəzalandırsın; Kim qırx günlük pəhriz müddəti ərəfəsində çərşənbə və ya cümə günü ət yeyərsə, bir həftə pəhriz saxlamalıdır. Amma əgər kimsə keşişin yanına gəlib pəhriz saxladığını təsdiq edərsə, onda kəndxuda o adamdan bir öküz alıb keşişə verməlidir.”

Ağuyen qanunnaməsinin sonrakı bəndləri keşişlər, yepiskoplar və zadəganlar arasındakı münasibətləri nizamlayırdı. Qanunnaməyə görə zadəganlar yepiskopun xəbəri olmadan öz

mülklərindəki keşişləri nə qova bilərdi, nə də vəzifədən götürə bilərdi. Yepiskoplar da zadəganların razılığı olmadan keşişləri nə təyin edə bilərdilər, nə də vəzifədən götürə bilərdilər.

Ağuyen ali dini məclisi Alban kilsəsinin əsasnaməsini də qəbul etdi və kilsənin iyerarxiya quruluşunu müəyyənləşdirdi. Alban kilsəsinin başçısı ilk çağlar arxiyepiskop adlanırdı. Sonralar bu vəzifə katolikos adlandırıldı. Alban kilsəsinin başçısının iqamətgahı əvvəllər Qəbələ şəhərində yerləşirdi. VI əsrdə isə xəzərlərin Albaniyaya tez-tez baş verən yürüşləri ilə bağlı olaraq Alban kilsəsi başçısının iqamətgahı dövlətin paytaxtı Bərdə şəhərinə köçürülür. Dini mərkəzin Bərdəyə köçürülməsi tarixinin M.Kalankatuklunun verdiyi bir məlumatla dəqiqləşdirmək olar. O, yazır ki, "... xəzərlər Albaniya ölkəsini əsarət altına aldılar. Kilsələr və müqəddəs kitablar yandırıldı. Sonra şahlar şahı Xosrovun padşahlığının iyirminci ... ilində ölkəyə soxulmuş İsa xaçının düşmənlərinin talanları nəticəsində Alban katolikosluğunun taxtı Çola şəhərindən ölkənin paytaxtı olan Bərdə şəhərinə köçürüldü". Məlumdur ki, Sasani şahı I Xosrov Ənuşirəvan 531-579-cu illərdə hökmranlıq etmişdir. Onun hakimiyyətinin iyirminci ili 551-ci il edir. Deməli, Alban kilsəsinin mərkəzinin Bərdəyə köçməsi 551-ci ilə təsadüf edir.

Alban kilsəsi yeparxiyalara bölünürdü. Onların başında yepiskoplar dururdular. Ona görə də yeparxiyalara çox vaxt yepiskopluq da deyilir. V əsin sonunda Alban kilsəsi 8 yepiskopluqdan ibarət idi: Qəbələ, Bərdə, Girdman, Balasakan (Beyləqan), Amaras, Şəki, Lpi və Çola. Sonralar Alban kilsəsinə tabe olan yepiskopluqların sayı 10-a çatdı. Əvvəlki yepiskopluqlara Baharat və Böyük Kolman yepiskopluqları da əlavə olundu. VIII əsrdə isə Alban kilsəsinə artıq 12 yepiskopluq tabe idi. Yepiskoplar katolikos, yaxud arxiyepiskop, yəni baş yepiskop tərəfindən təyin edilirdilər. Kilsə yerarxiyasında yepiskopdan aşağıda keşiş gəlirdi. Keşişlər yepiskop tərəfindən təyin edilir və ona tabe idilər.





IV əsrin sonlarına yaxın Albaniyada artıq özünəməxsus zəruri subardinasiya olan kilsə iyerarxiyası yaranmışdı. Bu isə alban ruhanilərinə imkan verirdi ki, Alban kilsəsinin rəhbərlərini özləri müəyyənləşdirib seçsinlər. Müqəddəs Qriqorisə qədər Alban katolikosları təyinatı Yerusəlimdən alırdılar. Ondan sonra isə 340-cı ildən başlayaraq "əlqoyma" mərasimini Alban yepiskopları özləri icra edirdilər.

Beləliklə, Alban kilsəsi artıq 340-cı ildən aftokefal, yəni müstəqil kilsə olmuşdu. Demək olar ki, ilk başçıları qədim Yerusəlim patriarxlığı tərəfindən təyin edilən Alban kilsəsinin çox erkən aftokefal olması üçün Alban dövlətinin siyasi statusu şərait yaratmışdı.

**6.3. Alban xristian kilsəsinin inkişafı və tənəzzülü.** VI əsrin ikinci yarısında Alban xristian kilsəsi xeyli güclənir. Onun Azərbaycanın ictimai-iqtisadi və siyasi həyatında mövqeyi möhkəmlənir və rolu artır. Bu vaxt Alban kilsəsini başçısı katolikos Abbas idi. O, 44 il (552-596-cı illərdə) Alban kilsəsinə başçılıq etmişdi. Onun dövründən başlayaraq Alban kilsəsinin başçısı hüquqi olaraq arxiepiskop deyil katolikos adlanmağa başladı. Alban kilsəsinin başçısı faktiki olaraq, xeyli əvvəldən bu titula sahib idi. Ali kilsə rütbələri – patriarx, katolikos və arxiyepiskop Albaniyada eyni mənalı terminlər kimi işlənilirdi. Halbuki yunanlarda patriarx, katolikos və arxiyepiskop rütbələrinin hər biri ayrılıqda ali kilsə iyerarxiya rütbələri idilər. Müqəddəs Abbasdan başlayaraq Alban kilsəsinin başçıları rəsmi olaraq "Albaniya, Lpi və Çolanın katolikosu" titulunu daşıyırdılar.

Abbasdan sonra Alban kilsəsinin katolikosu Viro olmuşdur. Lakin o, 603-cü ildə Albaniyada Sasanilərin hakimiyyətinə qarşı baş vermiş üsyanda iştirak etməkdə ittiham olunaraq həbs edilir və əsir kimi İrana aparılır. Viro əsirlikdə olarkən Ktesifonda şah sarayında göz dustağı kimi saxlanılırdı. O, 25 il əsirlikdə qalır. Bu müddətdə Viro sarayda şahzadə vəliəhd Xosrov ilə dostluq edir və onun hörmət və etibarını qazana bilir.

Xosrov şah taxtına çıxdıqdan sonra, 628-ci ildə Viroya Vətənə qayıtmağa icazə verir. Viro Albaniyaya qayıdarkən özü ilə birlikdə Gidman hökmdarı Varaz Qriqor üçün onun bütün Albaniyanın hökmdarı təyin olunması haqqında şah fərmanını gətirir.

Varaz Qriqor hələ 627-ci ildə Ktesifona gedib Viro ilə gizli surətdə görüşmüş və onun tərəfindən xaç suyuna çəkilərək xristianlığı qəbul etmişdi. Görünür onların arasında gizli razılaşma olmuşdu və bu razılaşmaya görə Varaz Qriqorun xristianlığı qəbul etməsi müqabilində Viro onun ölkənin hökmdarı təyin olunmasına kömək edəcəyinə söz veribmiş. Sasanilər xristianlığın düşməni olduqlarına görə Varaz Qriqor xristianlığı qəbul etməsini gizli saxlayırdı. 628-ci ildə Bizans imperatoru İrakli Gürcüstandan Albaniyaya hücum edir. O, Albaniya torpağına daxil olduqda Varaz Qriqor indiki Şəmkir yaxınlığında onu qarşılayır və onlar görüşürlər. Bu görüş zamanı Varaz Qriqor imperator İraklinin əli ilə ikinci dəfə xaç suyuna çəkilir və rəsmi surətdə leqal xristian olur. Mehranilər sülaləsindən olan Varaz Qriqor on il (628-638-ci illər) tarixə Girdman dövləti adı ilə daxil olan Alban dövlətinin hökmdarı olur. Varaz Qriqorun və ondan sonra Girdman hökmdarı olmuş oğlu Cavanşirin Alban xristian kilsəsinin möhkəmləndirilməsində, onun iqtisadi və siyasi qüdrətinin artmasında rolu böyük olmuşdu.

Alban xristian kilsəsinin hüquqi vəziyyəti faktiki olaraq 451-ci ildə Xalkidonda çağırılmış IV Ümumdünya kilsə qurultayında qanuniləşdirildi. Bu vaxt xristian dünyasında Şərq və Qərb kilsələri arasında, monofizitlərlə diofizitlər arasında doqmatik ideya mübarizəsi başlamışdı. Xakidon mübahisələrində Alban kilsəsi fəal iştirak edə bilməmişdi. Çünki bu vaxt Albaniyada zərdüştiliyə qarşı kəskin mübarizə gedirdi və kilsə xadimlərinin başı bərk qarışıq idi.

Alban kilsəsi ilk üç Ümumdünya kilsə qurultaylarının qərarlarını qəbul etmişdi. 325-ci ildə Nikedə keçirilən I





Ümumdünya kilsə qurultayı Arinin küfrlərini mühakimə etmiş, bəzi əlavə düzəlişlərdən sonra xristianlığın rəmzini qəbul etmişdi. Arinin təliminin əksinə olaraq bu rəmz İsanı Allahın oğlu və Allah – Ata ilə eyni mahiyyətli sayırdı. Bu rəmz Alban kilsəsi tərəfindən də qəbul edilmişdi. 381-ci ildə Konstantinopolda çağırılmış II Ümumdünya kilsə qurultayında yalnız Şərq kilsələrinin nümayəndələri iştirak etmişlər. Qurultay Arinin küfrlərini daha da inkişaf etdirən və Müqəddəs Ruhun xəlq edildiyini sübuta çalışan Makedonun küfrlərini mühakimə etdi. Qurultay Müqəddəs Ruhun Allah – Ata və Allah – Oğulla eyni mahiyyətliliyi haqqında Üç Üquma təlimini bir daha təsdiq etdi. Konstantinopol kilsə məclisinə görə Roma patriarxından sonra patriarxlar arasında ikinci yeri Konstantinopol patriarxı tutdu. Bu da daha qədim olan Şərq patriarxlarının narazılığına səbəb oldu. 431-ci ildə Efesdə keçirilən III Ümumdünya kilsə qurultayında Nestorun təlimi – nestorianlıq mühakimə edildi. Antioxiyalı keşiş Nestor 428-ci ildə Konstantinopol patriarxı seçilmişdi. Nestor İsa peyğəmbərdə iki təbiətin - insani və ilahi təbiətin bir-birindən ayrılıqda mövcudluğu haqqında təlimi qəbul edərək, İsus Xrustosun Allah kimi deyil, insan kimi doğulduğunu iddia edirdi. Nestorun təlimini Asiya, Pont və Suriya yepiskopları müdafiə edirdilər. Suriyanın əhalisi Nestorun təlimini vergi əsarətinə qarşı etiraz bayrağına çevirmişdilər. Bizansda təqib olunan Suriya nestorianları Şərqə qaçırdılar. Nestorianlıq Efesdə də dəstəklənirdi. Burada İran xristianlarının məktəbi təşkil olunmuşdu. Bu məktəbdə Azərbaycan xristianlarının uşaqları da oxuyurdular.

Elə bu vaxtlar Bizans kilsəsinin özündə, xüsusilə İskəndəriyyədə nestorianlıq əleyhinə yeni təlim yarandı. Bu monofizit təlimi idi. Sonralar Alban kilsəsi də bu təlimə qoşuldu. 551-ci ildə Alban kilsəsi Bizans kilsəsi ilə əlaqəni kəsib hüquqi cəhətdən avtokefal oldu və diofizit təlimindən imtina edib monofizit təlimini qəbul etdi. Sasani şahları monofizitləri dəstəkləyirdilər. Qafqazda Gürcü kilsəsi isə

özünün əvvəlki mövqeyində - mötədil xalkidonçuluqda qalmaqla davam edirdi. Alban kilsəsi də Gürcü kilsəsi kimi monofizit təliminə həmişə sadiq qalmamışdı. Sasanilər imperiyasının Cənubi Qafqazda siyasi təsirinin zəifləməsi hər iki kilsədə monofizitliyin hegemonluğunun süqutuna səbəb oldu. VI əsrin əvvəllərində və VII əsrdə Cənubi Qafqazda Bizans imperiyasının siyasi təsirinin güclənməsi ilə əlaqədar olaraq, Gürcü kilsəsi kimi Alban kilsəsi də diofizit təliminə qoşuldu.

607-ci ildə Dvin kilsə məclisi Gürcü kilsəsinin Xolkidon təliminə qoşulduğunu və onun rəsmi olaraq Erməni kilsəsi ilə əlaqəni kəsdiyini elan etdi. Doğrudur, bu vaxt Alban kilsəsi rəsmi olaraq xalkidonçuluqdan ayrılsa da bəzi yepiskopluqlar Bizansla əlaqəni kəsməyərək diofizit təliminə etiqadda davam edirdilər. Monofizit təliminə etiqad edən Alban yepiskopluqları isə Erməni kilsəsi ilə əlaqəni kəsməmişdilər. Onlar Erməni katolikosu Abrahamın Alban katolikosluğuna göndərdiyi məktubunun hələ də təsiri altında idilər. Məktubda deyilirdi: "Albanların katolikos taxtı Ermənistandakından qabaq təsis olunub və fikirlərində bənzəyiş var. Biz albanların köməyilə keşişlərin yunanlara verdiyi, qiyamətə qədər etibarlı olan hökmlərinə görə Kurionu lənətləyib rədd etdik. Biz və albanlar gürcülər haqqında aşağıdakı qərarları qəbul etdik: onlarla heç bir təmasda olmamaq – nə ibadətdə, nə yeməkdə, nə içməkdə, nə dostluqda, nə uşaqların tərbiyəsində, ... nə də onlarla qohumluqda. Onlarla yəhudilərlə olduğu kimi yalnız alış-verişdə təmasda olmaq olar."

VIII əsrin əvvəllərində Cənubi Qafqaz ərəblər tərəfindən işğal olunduqdan sonra ərəblərin təzyiqi və Erməni kilsəsinin təsiri altında Alban kilsəsi rəsmi surətdə diofizitliklə əlaqəni kəsir. Çünki Ərəb Xilafəti də xristianlara münasibətdə Sasani imperiyasının siyasətini davam etdirirdi, yəni diofizit təlimini dəstəkləyən Bizans imperiyasının təsirinin güclənməsindən ehtiyat edərək, monofizit təliminin tərəfdarlarını dəstəkləyirdi.





Ərəb Xilafəti öz tabeliyində olan xristian əhalinin və kilsənin fəaliyyətini siyasi məqsədlərlə əlaqələndirməyə və nəzarət altında saxlamağa cəhd göstərirdi. Bu məqsədlə Xilafət bilavasitə erməni ruhanilərinin xidmətindən istifadə edirdi.

705-ci ildə Erməni katolikosu İlya xəlifə Əbdül Malikə (685-705) çuğulluq eləyir ki, alban ruhaniləri Bizansla əlaqəyə girərək Xilafətə qarşı qiyam qaldırmağa hazırlaşırlar, elə buna görə də gizlində diofizit təliminə etiqadı davam etdirirlər. O yazırdı: "Hakimi – mütləq Allahın hökmü ilə bizim ölkə itaətlə Sizin hakimiyyətinizə tabedir. Biz və albanlar vahid İsa dininə etiqad edirik. Bərdə taxtında oturan indiki Alban katolikosu Bizans imperatoru ilə sazişə girib öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun. İndi qoy Sizə məlum olsun və bu məsələni diqqətinizdən kənar etməyiniz, çünki bu bədəfkarlıqda onun bir əyan qadın həmfikri vardır. Böyük hökmdar Siz öz hökmünüzlə əmr buyurun ki, onlar Allaha qarşı işlətdikləri günahlarına görə müstəhəqq olduqları cəzaya çatsınlar." İlyanın bu məktubundan sonra xəlifə Əbdül Malik Alban kilsəsini dağıtmaq məqsədilə Albaniyaya xüsusi ordu göndərdi. Hərbi qüvvə vasitəsilə Alban katolikosluğu Erməni katolikosluğuna tabe edildi. Xristian din aləminin ümumi iyerarxiya qanunlarının ziddinə olaraq, Alban katolikosu bundan sonra "əlqoymanı" Erməni katolikosundan qəbul etməli idi. Bu isə o deməkdi ki, eyni mənsəbə və hüquqa malik olan din xadimlərindən biri digərinə tabe olurdu.

Beləliklə, doqmatik baxımdan yaxın olmalarına baxmayaraq Alban və Erməni kilsələri arasında iyerarxiya mübarizəsi nəticəsində, Xilafətin hərbi-siyasi müdaxiləsi vasitəsilə Alban kilsəsi öz müstəqilliyini itirdi, demək olar ki, faktiki olaraq ləğv edilib Erməni kilsəsinə qatıldı. Bu da ölkədə mədəni-ideoloji assimilyasiyaya gətirib çıxardı: monofizit təliminə etiqad edən albanlar Erməni kilsəsinin təsiri altında "erməniləşdilər"(qriqor-yanlaşdılar), diofizit təliminə etiqad edən albanlar isə Gürcü kilsəsinin təsiri altında gürcüləşdilər.

Alban və Erməni kilsələri arasında yerarxiya mübarizəsi bütün orta əsrlər boyu davam etmişdi. Erməni kilsəsinin zəiflədiyi dövrlərdə, Erməni katolikosluğunda vahid mərkəz olmadığı illərdə (XI, XIII və XV əsrlərdə) Alban katolikosları Erməni katolikosluğunun razılığını almadan alban yepiskopları tərəfindən müstəqil surətdə seçilirdilər.

IX-X əsrlərdə Alban kilsəsinin mərkəzi Xamşi məbədi (Arsax vilayətindəki müqəddəs Yakov kilsəsi) olmuşdur. 1240-cı ildən sonra Qanzasar məbədinin nüfuzu artmağa başlayır. Məbədə Həsən Cəlal nəslinin nümayəndələri başçılıq edirdilər. XIV əsrdən Alban kilsəsinin mərkəzi Qanzasar olur. Alban katolikosunun iqamətgahı Qanzasarda yerləşdiyindən Alban katolikosluğu Qanzasar katolikosluğu adlanmağa başladı.

Rusiya imperiyası Qafqazla bağlı öz xarici siyasətində çox vaxt Türkiyə və İran ermənilərindən istifadə edirdi. Çar hökuməti, Qafqazın işğalından sonra ermənilərin köməyinə arxayın olmaq üçün Erməni katolikosluğuna bir sıra imtiyazlar verdi və erməni ruhaniləri üçün müstəsna dərəcədə əlverişli şərait yaratdı. 1836-cı ildə Rusiya imperiyasının ali dini idarəsi olan Peterburq Sinodunun erməni Qriqoryan kilsəsi haqında qərarı ilə Erməni kilsəsinə bir sıra güzəştlər edildi, o cümlədən Alban katolikosluğu ləğv olundu. Bu vaxtdan başlayaraq keçmiş Alban katolikosluğunun tabeliyində olan qəzalarda ermənilərin Eçmiədzin katolikosluğuna tabe edilən iki yepiskopluq fəaliyyət göstərirdi. Həmin yepiskopluqlardan birinə Şuşa, Vərəndə, Xaçın, Dizak, Berdadzor, Cıraberd, Gülüstan, Lənkəran, Şəki, Qəbələ, Gəncə, Kambecan və Arsax qəza və mahallarının, o birinə Şamaxı, Bakı, Quba, Dərbənd qəzalarının kilsələri daxil edilmişlər. Rus hökumətinin xarici məzhəblər üzrə dini işlər nizamnaməsinə görə 1857-ci ildə Rusiyada 6 erməni – qriqorian yeparxiyası vardı: Həştərxan, Gürcüstan, Qarabağ, Naxçıvan, Şirvan və İrəvan yeparxiyaları. Alban kilsəsi (yaxud yeparxiyası) anlayışı isə, ümumiyyətlə, aradan götürülmüşdü. 1909-1910-cu illərdə Peterburq Sinodu





Eçmiədzin kilsəsinə və İrəvan erməni – qriqoryan konsistoryasına, yəni dini inzibati idarəsinə icazə verdi ki, tabeliyində olan yeparxiyaların köhnə arxiv sənədlərini məhv etsinlər. O zaman köhnəlmiş erməni arxivləri ilə birlikdə Alban xristian kilsəsinin arxivləri də məhv edildi.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi. 7 cilddə, 2-ci cild, s.105 -108.
2. Azərbaycan tarixi. Dərslik, s. 202-208.
3. M.Kalankatuklu. Albaniya tarixi.
4. F.Məmmədova. Albaniyanın siyasi tarixi və tarixi coğrafiyası.
5. Q.Rəcəbli. Azərbaycanın Alban xristian kilsəsi haqqında–BQU-nin "Elmi əsərləri", Bakı, 2011, №1 (10).

# VII FƏSİL

## AZƏRBAYCAN XALQININ İSLAMI QƏBUL ETMƏSİ

**7.1. Azərbaycan Sasanilər imperiyasının tərkibində.** Azərbaycanın, xüsusilə Cənubi Azərbaycanın III-VII əsrlər tarixi, tərkibinə daxil olduğu Sasanilər imperiyası ilə bağlı olmuşdur. Fars mənşəli Sasanilər sülaləsinin əsası 226-cı ildə şahənşah (şahlar şahı) Ərdəşir tərəfindən qoyulmuşdur. Sasanilər imperiyası 226-651-ci illərdə mövcud olmuşdur.

Sasanilər tərəfindən işğal edilmiş Atropaten dövlətinə son qoyulur və Cənubi Azərbaycan Sasanilər dövlətinin vilayətinə çevrilir. IV əsrin sonlarında isə Bizans imperiyasının nüfuz dairəsində olan Qərbi Gürcüstan istisna olmaqla bütün Cənubi Qafqaz, o cümlədən, Şimali Azərbaycan Sasanilərə tabe edilir, İberiya ilə birlikdə Albaniya Sasanilər imperiyasının vassal dövlətlərinə çevrilirlər.

Sasanilərin hakimiyyəti dövründə Azərbaycan Sasani və Bizans imperiyaları arasında rəqabət obyektinə çevrilir. 603-cü ildə başlanan növbəti Sasani – Bizans müharibəsi 628-ci ilədək davam etmişdir. Tərkibində azərbaycanlıların olduğu sasani qoşunları 622-ci ilədək müvəffəqiyyət qazanaraq Yerusəlim və Misir torpaqlarını tutur, hətta Bizansın paytaxtı Konstantinopolu uzun müddət mühasirədə saxlayırlar. 622-ci ildə Sasanilər Şərqdə türk xəqanlığı ilə müharibə etdikləri üçün qərb cəbhəsində zəyifləyirlər. Bizans imperatoru İrakli Sasani şahənşahı II Xosrovun qoşunlarını məğlub edərək Anadoluya daxil olur, Ermənistanı işğal edir və Azərbaycan torpaqlarına girir. Cənubi Azərbaycanın Qazaka, Urmu və b. şəhərlərini





işğal etdikdən sonra Bizans qoşunları Naxşıvanı tutub dağıdırlar. Yalnız 626-cı ildə II Xosrovun Sasani qoşunları hücuma keçərək Azərbaycanı ələ keçirir və bütün Anadolunu tutub Konstantinopola qədər irəliləyirlər.

626-cı ildə Bizansın müttəfiqi olan Xəzər xaqanlığı da Dərbənd keçidi vasitəsilə Cənubi Qafqaza hücum edib Albaniyanın paytaxtı Bərdəni tutdu. Xəzərlər 627-ci ildə Cənubi Azərbaycana da yürüş edib ölkənin bir hissəsini tutdular. 628-ci ildə isə hələ də Cənubi Azərbaycanda olan Bizans imperatoru İrakli Sasani hökmdarı II Xosrovun ölümündən sonra taxta çıxmış şahənşah II Qubad ilə barışıq bağlayıb ölkəni tərk etdi.

Beləliklə, Cənubi Azərbaycanda 628-ci ildə Sasanilər hakimiyyəti bərpa olur. II Xosrov öldürüldükdən sonra taxta çıxmış onun oğlu II Qubad cəmi 6 ay şahlıq edir. II Qubadın ölümündən sonra onun varisləri arasında Sasani taxt-tacı uğrunda kəskin mübarizə gedir. 4 il ərzində on şahənşah dəyişilir. Nəhayət, 632-ci ildə III Yəzdigərd Sasani hökmdarı olur. Onun dövründə Cənubi Azərbaycanı Sasanilərin hakimiyyəti altında olan mərzbanlar (sərhəd qoruyucuları deməkdir) idarə edirdilər. Albaniya isə Xəzər xaqani Cebunun hakimiyyəti altında idi. Onu şad idarə edirdi (Xəzər türklərində xaqanın vəliəhd oğlu, "şad" adlanırdı və o baş sərkərdə hesab olunurdu). Xəzər türk xaqanlığı Albaniyada vaxtlı-vaxtında vergilərin yığılmasıına nəzarət edirdi. 630-632-ci illərdə Xəzər xaqanlığında baş vermiş həyəcanlara baxmayaraq, Albaniya xaqanlığın siyasi təsiri altında qalırdı. Bu dövrdə Albaniyada yerli siyasi hakimiyyət Mehranilər sülaləsinə mənsub idi.

Albaniyada Mehranilər sülaləsinin hakimiyyəti VI əsrin əvvəllərindən başlayır. M.Kalankutuklunun qeyd etdiyi rəvayətə görə, sülalənin banisi hesab edilən Mehran Sasanilər sülaləsi ilə qohum nəsildənmiş. Bizans imperatoru Mavrikinin dəstəyi ilə taxt-tacına qayıtmış şahənşah II Xosrov atası IV Hörmüzdün devrilməsində əli olan adamlara qarşı amansız cəza

tədbirləri görməyə başlayır. Qəsddə iştirak etmiş Mehran, qorxuya düşərək, təxminən 30 min nəfərə yaxın adamları ilə türk xaqanlığına sığınmaq məqsədilə Albaniyaya qaçır. Onun türk xaqanlığına qoşulmasından ehtiyat edən şahənşah II Xosrov əyanların məsləhəti ilə ona məktub göndərir. Məktubda deyilirdi: "Mənim əziz qardaşım, sən məni kinlə tərk etmə. Əgər sən mənim yanımda yaşamaq istəmirsənsə, onda mənim məktubum sənə çatan yerdə ayaqla keçə bildiyin qədər özünə mülk götür." Guya bu məktub dağ ətəyində yerləşən Girdman vilayətində Mehrana çatmış və o, öz adamları ilə birlikdə həmin yerdə məskunlaşmışdır. O, vaxt Girdman 591-ci il İran-Bizans müqaviləsinə əsasən Tiflis və Dvinə qədər Sasanilərin hakimiyyəti altında qalmış Albaniyanın vilayətlərindən biri idi.

Mehranilər sülaləsinin nümayəndələri gah Sasani, gah Bizans, gah da Xəzər xaqanlığı meylli siyasət yeridərək öz hakimiyyətlərini qoruyub saxlaya bilmişdilər. Gürcü qaynaqlarının məlumatına görə imperator İrakli vasitəsilə sonralar xristianlığın diofizit təlimini qəbul etmiş Girdman hökmdarı Varaz Qriqoz Bizans imperiyasının təsiri altına düşür. Bu zaman Xəzər türk xaqanlığı Bizansla ittifaqa girmişdi və Sasanilərə qarşı mübarizə aparırdılar. Hələ Alban katolikası Viro tərəfindən xristianlığın monofizit təlimini qəbul etmiş Varaz Qriqor Sasani şahənşahı II Xosrovun fərmanı ilə Albaniyanın hökmdarı təyin olunmuşdu.

633-cü ildə Xilafət ordusu Sasanilər dövlətinə hücum etdikdə, ərəblərin hücumlarını dəf etmək üçün şahənşah III Yəzdigərd vassal dövlətlərin hökmdarlarından hərbi kömək istəyir. Albaniya hökmdarı Varaz Qriqor öz dörd oğlunun ikincisi olan Cavanşirin sərkərdəliyi altında Albaniya ordusunu Xilafətə qarşı müharibəyə göndərir. Cavanşir Xorasan hakimi sərkərdə Rüstəmin başçılıq etdiyi İran ordusunun tərkibində 634-cü ildən ərəb qoşunlarına qarşı döyüşlərdə iştirak edir. 636-cı ildə Kadisiyya yazıqlığında baş vermiş döyüşdə şücaəti ilə seçilən Cavanşiri baş sərkərdə Rüstəm şahənşah III





Yəzdigərdə istedadlı sərkərdə və cəsur döyüşçü kimi təqdim edir. Şah Cavanşirin qəhrəmanlığını layiqincə qiymətləndirir və dəyərli hədiyyələr verir. 637-ci ildə Xilafət ordusu Sasanilərin paytaxtı Ktesifonu mühasirəyə aldıqda Cavanşir 3 minlik qoşunla onun müdafiəsində iştirak edir. Şəhər 4 ay müqavimət göstərsə, də İran ordusu məğlub olur, şahənşah III Yəzdigərd Cavanşirin köməyilə mühasirədən çıxa bilir və Dəclə çayı sahilindəki qalalardan birində gizlənir. Sasanilərin Xilafətə qarşı uğursuz müharibəsinin son aqibətini görən Cavanşir 639/640-cı ildə Albaniyaya qayıdır.

Varaz Qriqor qəhrəman olduğunu təntənə ilə qarşılayır və hakimiyyətindən imtina edərək hökmdar taxt-tacını Cavanşirə verir. Cavanşir dövlətin paytaxtını Qəbələdən Partava (Bərdəyə) köçürür. Cavanşir 680/681-ci ilədək Albaniyanın hökmdarı olmuşdur. O, sui-qəsd nəticəsində öldürülmüşdür. Cavanşirin sərkərdəlik məharəti və Xilafət ordusuna qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlıq M.Kalankatuklunun "Alban tarixi" kitabında yağlı boyalarla təsvir və tərif edilmişdir.

**7.2. Azərbaycanın Xilafət tərəfindən işğalı.** Sasani ordusunu məğlub etdikdən sonra Xilafət ordusu 639-cu ildə Cənubi Azərbaycana daxil oldu. Cənubi Azərbaycan dinc yolla Xilafətə tabe edilmişdir. Xəlifə Ömərin əmri ilə 639-cu ilin avqustunda başlanmış Mesopotamiyanın işğal prosesində sərkərdə Huzayfa ibn Yəmənin qoşunları Cənubi Azərbaycan torpağına daxil olduqda buranın mərzbam İsfəndiyar çoxlu xərac verərək ölkəni talandan xilas etmişdir. Ərəblərin Azərbaycanı istilası Azərbaycan xalqının İslam dinini qəbul etməsi ilə əlamətdar olmuşdur.

İslam dini VII əsrin əvvəllərində Ərəbistanda yaranmışdır. Bu dinin tərəfdarları "müslüm" (Allaha itaət edən), cəm halında isə "müsəlman" adlanırdı. İslam dinin banisi Məhəmməd (s.) olmuşdur. Məhəmməd (s.) ibn Abdulla, 570/571-ci ildə Hicaz ölkəsinin Məkkə şəhərində anadan olmuşdur. O, Qureyşilər qəbiləsinin Bəni Hasim nəslindəndir. Məhəmməd (s.) 594-cü

ildə varlı dul qadın Xədicə ilə evlənmişdir. 610-cu ildə Məhəmmədə (s.) Allahdan mələk Cəbrayıl vasitəsilə Peyğəmbərlik vəhyi göndərilmişdir. Həmin ildən o, İslam ehkamlarını təbliğ etməyə başlamış və müqəddəs "Quran"ı xalqa çatdırmışdır. Məkkədə güclü müqavimətlə qarşılaşan Məhəmməd (s.) Peyğəmbər 622-ci il iyulun 24-də öz tərəfdarları ilə Mədinə şəhərinə köçməyə (hicr etməyə) məcbur olmuşdur. Mədinədə o, müsəlman icması yaratmış və qısa müddətdə ətrafına çoxlu tərəfdar toplamışdır. İslamın tarixi də 622-ci ildən başlanır. Çünki Mədinəyə köçdükdən sonra Məhəmməd (s.) Peyğəmbər İslam dininin yaranmasını rəsmi elan edir və onun ehkamlarını açıq surətdə təbliğ edir. Məhəmməd (s.) bütpərəstlərin bir sıra hücumlarına məruz qalmışdır. O, "Bədr döyüşü", "Xəndək döyüşü" və s. hücumları dəf etdikdən sonra 630-cu ildə Məkkəyə daxil olmuş, sonra isə öz təlimini Ərəbistanın xeyli hissəsinə yayaraq müsəlman dövləti yaratmışdır. Allahın Rəsulu (nümayəndəsi) olan Məhəmməd (s.) 632-ci ildə Mədinədə vəfat etmişdir. Onun qəbri İslam dünyasının, Kəbədən sonra ikinci müqəddəs yeri, ibadətgahı hesab edilir.

Məhəmməd (s.) Peyğəmbərin vəfatından sonra onun işini silahdaşları davam etdirirlər. Onlar xəlifə (xələf – varis sözündəndir) adlanırlar. Xəlifələr həm İslam dinin, həm də İslam dövlətinin başçısı hesab edildiklərindən ərəblərin bu ilk müsəlman dövləti Xilafət adlanırdı. Rəşidi xəlifələr adlanan ilk dörd xəlifə bilavasitə Məhəmməd (s.) ilə birlikdə İslamın yaradılmasında iştirak edən Əbuləkr (ə.) (632-634), Ömər (ə.) (634-644), Osman (ə.) (644-656) və Əli (ə.) (656-661) olmuşlar.

Xəlifə Ömərin (ə.) dövründə Xilafət öz torpaqlarını genişləndirməyə başlayır. Qaynaqların ziddiyyətli məlumatlarına baxmayaraq, Azərbaycan tarixşünaslığında qəbul edilmiş fikrə görə ərəblərin Azərbaycana real hücumu yalnız 642-ci ildə Nihavənd və Həmədən uğrunda gedən döyüşlərdən sonra başlanır. Nihavənd döyüşündən bir il sonra, yəni 643-cü ildə





Xilafət ordusu Bukayr ibn Abdullanın başçılığı altında Azərbaycan hüdudlarına daxil oldu. Ərdəbildən bir qədər aralı Cərmidan dağı ətəklərində Azərbaycan mərzibanı İsfəndiyarın qoşunu onu qarşıladı. Bir neçə gün davam edən qanlı döyüşdə azərbaycanlılar məğlub oldu, İsfəndiyar əsir düşdü. Cərmidan altındakı döyüşdən sonra Bukayr Xəlifə Ömərin (ə.) əmri ilə sərkərdə Utba ibn Farkadı Xilafətin Azərbaycan üzrə əmri vəzifəsinə təyin edib, Dərbəndin fəthinə hazırlıq görməyə başladı və elə həmin il Dərbəndə yürüş etdi. Bu yürüşün çətinliklərini yaxşı bilən Xəlifə Ömər (ə.) sərkərdələrdən Suraka ibn Əmri, Huzayfa ibn Asidi, Həbib ibn Məsləməni, Əbdürrəhman ibn Rəbiyəni və Salman ibn Rəbiyyəni qoşunları ilə birlikdə Bukayrın köməyinə göndərdi. Onlar Dərbənd yaxınlığında Bukayra çatdılar. Xəlifənin əmri ilə birləşmiş qoşunların komandanı təyin edilmiş Suraka Dərbənd üzərinə hücum edən dəstənin önündə Əbdürrəhman ibn Rəbiyənin qoşununu, sağ və sol cinahlarda Huzayfa və Bukayrın qoşunlarını, arxada isə Salman ibn Rəbiyyənin qoşununu yerləşdirdi. Sasanilərin şimal sərhəd torpaqlarının mərzbanı, Dərbəndin hakimi Şəhriyar öncə Əbdürrahman ilə, sonra isə Suraka ilə görüşüb, Dərbəndi döyüşsüz təslim etdi və Xilafətin hakimiyyətini tanıdı.

Dərbəndin alınması ilə Xilafətin şimal sərhədlərinin təhlükəsizliyini təmin edən Suraka yeni torpaqlar zəbt etmək məqsədilə, xəlifə ilə razılaşmadan, Bukayrı Muğan, Huzayfanı Albaniya, Həbib ibn Məsləməni Tiflis, Salman ibn Rəbiyyəni isə Arran üzərinə göndərdi. Surakanın bu özbaşınalığı Xəlifə Ömərin (ə.) narazılığına səbəb olmuşdu. Çünki həmin ölkələr, onların əhalisi və hərbi qüvvələri hələ yaxşı öyrənilməmişdi. Həqiqətən də, göndərilən ordulardan yalnız Bukayrın dəstəsi müvəffəqiyyət əldə edə bildi, Muğan fəth edildi.

Xəlifə Ömərin (ə) əmri ilə ərəb qoşunları Dərbənddən şimala Xəzər xaqanlığı üzərinə hücum etdilər. Bu vaxt vəfat etmiş Surakanı sərkərdə Əbdürrəhman ibn Rəbiyyə əvəz edirdi.

Xəzərlər üzərinə ilk hücum uğurlu olsa da, sonra Xilafət qoşunları məğlubiyyətə uğradılar və döyüşlərin birində Xilafət ordusunun komandanı Əbdürrəhman ibn Rəbiyyə həlak oldu, ərəb qoşunları geri çəkildi. Ərəblərin Şimali Azərbaycana 643-644-cü illərdə olan birinci yürüşü başa çatdı. Xilafət yalnız Dərbəndədək Xəzər sahili torpaqları tuta bildi.

Xəlifə Osmanın (ə.) dövründə sərkərdə əl-Vahid ibn Ukbanın başçılığı altında Xilafət ordusunun 646-cı ildə hücumu ilə ərəblərin Şimali Azərbaycana yeni yürüşü başladı. Bu ikinci yürüş zamanı sərkərdə Abdulla ibn Şubeydin qoşunları Taylasanı (Talışı) və Muğanı tutdu, sərkərdə Salman ibn Rəbiyyənin qoşunları isə Naxçıvanı və Bərdəni tutdu. O, Şirvanı torpaqlarını da ələ keçirib Dərbənd üzərinə yeridi. Xəzərlər Dərbəndi boşaldıb Bələncər şəhərinə çəkildilər. Salman ibn Rəbiyyə 4 minlik ərəb ordusu ilə Bələncər üzərinə hücuma keçdi. 653-cü ildə Bələncər uğrunda döyüşdə Xilafət qoşunu məğlubiyyətə uğradı və Salman ibn Rəbiyyə öldürüldü.

654-cü ildə Xəlifə Osman (ə.) sərkərdə Həbib ibn Məsləməni yeni qüvvələrlə Qafqaza göndərdi. Qafqaz vilayətlərinin hakimi (canişini) təyin olunmuş Həbib ibn Məsləmə ərəblərin birinci və ikinci yürüşləri zamanı Qafqazda işğal etdikləri bütün yerlərin hakimləri və camaatına qasidlər vasitəsilə xəbər göndərib, onlardan itaət tələb etdi. Az sonda xəlifə Osman (ə.) Həbib ibn Məsləməni geri çağıraraq, Hüzayfa ibn əl-Yəməni Xilafətin Qafqaz vilayətlərinin hakimi təyin etdi. O, Xilafətin Şimal torpaqlarının canişinliyini Dəbildən Bərdəyə köçürür, özü isə Mədinədə qalaraq, Bərdəyə qohumu Sulat ibn Zafini göndərir. Bir il orada hökmdarlıq edən Sulat yerli əhalini özünə tabe edə bildi. Beləliklə, 10 ildən artıq müqavimətdən sonra Azərbaycanın Şimal torpaqları ərəb Xilafətindən asılı vəziyyətə düşdü.

Ərəblər Qafqazda, o cümlədən Azərbaycanın şimal vilayətlərində ilk illər mümkün qədər vergi toplamaqla kifayətlənib, müstəqilliyini qoruyub saxlaya bilmiş ölkələrin daxili





işlərinə qarışmırdılar. Xilafətin hakimiyyətini qəbul etmiş, lakin müstəqilliyini qoruyub saxlaya bilmiş belə yerli hökmdarlardan biri də Alban hökmdarı Cavanşir idi. O, belə vəziyyətdən istifadə edib ərəb istilasının xalq üçün ağır nəticələrini bir qədər azaltmağa cəhd göstərmişdi.

651-ci ildə xəlifə Əlinin (ə.) öldürülməsindən sonra xilafətdə baş verən siyasi çevrilişdən istifadə edərək Cavanşir Albaniyanın nisbi müstəqilliyini bərpa etməyə çalışır. O, 667 və 670-ci illərdə iki dəfə Xilafətin paytaxtı Şam (Dəməşq) şəhərinə gedərək xəlifə Müaviyyə ilə görüşür. Bu səfərlərin nət-icəsində Albaniya rəsmən Xilafətə tabe olan ölkə elan edilir. Lakin Cavanşirin yeritdiyi çevik siyasəti nəticəsində Albaniyanın Xilafət xəzinəsinə verməli olduğu vergilərin üçdə bir hissəsi azaldılır.

Beləliklə, ilk ərəb işğallarından sonra Azərbaycanın dövlət müstəqilliyini itirmiş cənub hissəsi Xilafətin canişinlərinin hakimiyyətinə tabe olur, şimal hissəsi isə siyasi müstəqilliyini saxlamağa cəhd göstərir, yalnız Xilafətə vergi verən vassal dövlətə çevrilir.

Albaniya bir tərəfdən Xilafətin istilaçı müharibələri, digər tərəfdən Bizans imperiyası və Xəzər Xaqanlığı ordularının qarətçi hücumlarının döyüş meydanına çevrilmişdi. Alban hökmdarı, Mehranilər nəslindən olan Cavanşir Xilafət – Bizans ziddiyyətlərindən məharətlə istifadə edərək ölkəsinin dağılmasına və qarət edilməsinə mümkün qədər yol vermirdi.

Xəzər Xaqanlığının qoşunları 662-ci ildə Bələncər yaxınlığında Xilafətin orduları üzərində qələbə çalıb Albaniyaya daxil olduqda, Cavanşir öz ordusu ilə birlikdə Kür çayını keçib onların qarşısına çıxdı. Qaynaqda qeyd edilir ki, Xəzər ordusunu məğlub etdikdən sonra Cavanşir onların başçısına deyir: "Get Çola qapısından gir və bir daha buralara qayıtma". Lakin iki ildən sonra Xaqanlığın qoşunları yenidən Albaniya torpaqlarına girib Araz çayına qədər irəliləyirlər. Cavanşir Xəzər

Xaqanı ilə sülh bağlamağa məcbur olur və xaqanın qızı ilə evlənib bu müqaviləni möhkəmləndirir.

Cavanşirin Albaniyanın siyasi müstəqilliyini qorumaq naminə Xilafətə və Xaqanlığa güzəştə getmək siyasəti bəzi yerli bütpərəst hakimlərin narazılığına səbəb olurdu. Onlar hökmdar Cavanşirə qarşı sui-qəsd hazırlayırlar. 680/681-ci ildə Alban hökmdarı Cavanşir sui-qəsd nəticəsində öldürülür. Cavanşirin ölümü Xəzər Xaqanlığı ilə bağlanmış sülhü təhlükə qarşısında qoyur. Xəzər Xaqanı kürəkəninin intiqamını almaq üçün Albaniyaya qoşun göndərir. Albaniyanın yeni hökmdarı Varaz Tridat çox çətinliklə olsa da Xaqanlıqla sülhü bərpa edib, Xəzər Xaqanlığının qoşunlarının ölkədən çıxarılmasına nail olur.

Xilafət hökmdar Cavanşirin ölümündən sonra tədricən Albaniyanın müstəqilliyini məhdudlaşdırmağa başlayır. 715-ci ildə Albaniya vassal dövlət statusunu itirdi. Albaniyanın hökmdarı öz hakimiyyətini formal olaraq saxlayırdı. Əslində isə ölkə ərəb canişinləri tərəfindən idarə olunurdu. Beləliklə, şimallı – cənublu bütün Azərbaycan ərəblərin hakimiyyəti altına düşdü.

**7.3. Azərbaycan xalqının müsəlmanlığı qəbul etməsi.** Xilafətin işğalına qədər Azərbaycan əhalisi Sasani – Bizans müharibələrindən, xəzərlərin hücumlarından çox əziyyət çəkmişdi. Ona görə də xalq ərəb istilaçılarına gətirdikləri İslam dininin bərabərlik, səadət və əmin-amanlıq vədlərinə inam və ümid bəsləyirdi.

İlk vaxtlar ərəblər vergi və töycüləri toplamaqla kifayətlənib xalqların dini inamlarına toxunmurdular və ölkədə əmin-amanlığı qoruyurdular. Həm də Azərbaycanda Xilafətin topladığı vergi və töycülər Sasanilərin hakimiyyəti dövründəkindən xeyli az idi. Bu da xalqın ərəblərin gətirdiyi yeni dinə rəğbətini və inamını artırırdı.

Ərəbistanda olduğu kimi Azərbaycanda da yalnız bütpərəstlər zorla, yəni qılınc gücünə müsəlmanlaşdırılırdılar. Yerdə





qalan əhalidən isə məbləği öncədən xəbər verilmiş vergidən başqa, heç bir əlavə vergi toplanmırdı. Əhli-Kitab xalqlardan (müsəlmanlardan, xristianlardan və cuhudlardan), həmçinin atəşpərəst azərbaycanlılardan “cizyə” (can vergisi) yığılmırdı.

Azərbaycanda öncə düzən bölgələrin əhalisi İslamı qəbul etmişdir. Çünki ərəblər əsasən düzən bölgələrdə məskunlaşmışlar. Ərəblər dağlıq şəraitə adət etmədiklərindən dağlıq bölgələrə getmir və onların dağlılara təsiri çox az idi. Azərbaycanda İslam dinini çox erkən vaxtlarda qəbul edənlər sırasında yerli feodallar və hakimlər öndə gedirdilər; çünki onlar ərəblərin simasında özlərinin sosial dayaqlarını görürdülər; İslamı qəbul etməklə onlar özlərinin mülklərini və torpaqlarını qorumuş olurdular. Şəhərlərin əhalisi kəndlərin əhalisinə nisbətən müsəlmanlığı daha tez qəbul edirdi. Çünki İslam ticarət və sənətkarlığın inkişafı üçün təminatlı şərait yaradırdı.

Müsəlmanlıq Azərbaycanın cənub torpaqlarında şimal vilayətlərinə nisbətən çox erkən qəbul edilmişdir. Bu da şimal vilayətlərinin əhalisinin etnik baxımdan çox rəngarəng olması ilə bağlı idi. Etnik baxımdan fərqlənən müxtəlif soyların hər birinin öz inam, etiqad, adət-ənənələri var idi. Daxili qayda-qanunların, etiqadların, adət-ənənələrin çox güclü olduğu müxtəlif soylar İslamın qanunlarına çox ehtiyatla yanaşırdılar.

Qaynaqlarda xəlifə Əli (ə.) dövründə ərəblərin kütləvi surətdə Azərbaycana köçürülməsi barədə və onlara yerli əhalini İslama daha fəal dəvət etmək tapşırığı verilməsi barədə məlumat vardır. Məhz, bu dövrdə Azərbaycanın cənub torpaqlarına hakim təyin edilmiş əl-Əşas ibn Qeys Ərdəbil şəhərində cümə məscidi tikdirdi. Bu Azərbaycanda ilk müsəlman məscidi idi. Azərbaycanda ilk müsəlman məscidləri əsasən ərəblərin məskunlaşdıqları şəhərlərdə tikilirdi. Sonralar isə Azərbaycanın hər bir yaşayış məntəqəsində məscidlər tikilməyə başladı. Bu məscidlər yerli əhalinin İslamı qəbul etməsində fəal rol oynayırdılar. Beləliklə, ilk ərəb istilasından keçən təqribən üç

əsr ərzində bütün Azərbaycanda əhalinin əksəriyyəti İslamı qəbul etdi.

Ərəblərin Azərbaycana gəlmələri Xilafət tərəflərindən aparılan işğalçılıq müharibəsinin nəticəsində baş vermişdi. Bu baxımdan Xilafətin istilaları bir tarixi hadisə kimi pislənməlidir. Lakin tarixdə baş verən digər istilalardan fərqli olaraq, Xilafətin Azərbaycanı istilası həm niyyətinə görə, həm də sosial-siyasi nəticələrinə görə çox müsbət, mütərəqqi tarixi hadisə idi.

Xilafət istilalarının niyyəti yeni və ən mütərəqqi din olan İslamı yaymaq idi. Ərəb istilalarının nəticəsi olaraq Azərbaycan xalqı daha mütərəqqi din olan İslamı qəbul etdi, onun dünyada ən kamil sayılan əxlaq normalarına yiyələndi. Bu istila nəticəsində İslam dini bütün Azərbaycanı vahid dövlət tərkibində birləşdirdi. Bu da bir tərəfdən Azərbaycanı böyük müsəlman ölkələri iqtisadi bazarına qoşdu, bu bazar vasitəsilə dünya iqtisadi bazarına çıxardı ki, nəticədə Azərbaycan iqtisadiyyatı daha sürətlə inkişaf etmək imkanına nail oldu. Digər tərəfdən Azərbaycanda çox saylı etnosların və soyların vahid din vasitəsilə qaynayıb-qarışmasına və vahid Azərbaycan xalqının təşəkkülü prosesinin sürətlənməsinə şərait yaratdı.

İslam dinini qəbul etməkdə Azərbaycan xalqı böyük müsəlman mədəniyyətinə qovuşdu. Müsəlman mədəniyyəti isə təxminən min illik bir tarixi dövrdə dünyada mədəni birinciliyi əlində saxlamışdır. Azərbaycan xalqı müsəlman mədəniyyəti dünyasına daxil olmaqla ondan çox şeylər əxz eləmiş, bəhrələnmiş və öz növbəsində onun zənginləşməsində fəal iştirak etmişdir. Müsəlman mədəni dünyasının nümayəndələri olan azərbaycanlılar dünya ədəbiyyatının, incəsənətinin və elminin inkişafına təsir göstərmiş, öz qiymətli töhfələri ilə onu zənginləşdirmiş və ümumbəşəri mədəniyyətin yaradılmasının iştirakçıları olmuşlar.





## Ədəbiyyat:

1. Azərbaycan tarixi. 7 cilddə, 2-ci cild. s.84-236.
2. Azərbaycan tarixi. Dərslik. s. 236-256.
3. Z.M.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı. 1989.
4. N.Vəlixanlı. Ərəb Xilafəti və Azərbaycan. Bakı, 1993.

# VIII FƏSİL

## BABƏKİN BAŞÇILIĞI ALTINDA AZƏRBAYCAN XALQININ AZADLIQ MÜHARİBƏSI

**8.1. Xürrəmilər hərəkatı.** VIII əsrin ortalarında Xilafətdə Əməvilər sülaləsinin ağır vergi siyasəti, məmurların özbaşınalığı, əhalinin hüquqsuzluğu və istismarı, yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması, güclü ərəbləşdirmə və başqa sosial səbəblər Azərbaycanda ümumxalq qəzəbini artırdı. Bu vaxt həm Əməvilər sarayında, həm də Xilafətə tabe olan ölkələrin hakim dairələrində dərin daxili mübarizə gedirdi. Xilafətə qarşı çıxışlar geniş vüsət alaraq ayrı-ayrı ölkələrdə xalq üsyanlarına çevrilirdi. Azərbaycanda Xilafətə qarşı ilk güclü üsyan 748-ci ildə Beyləqanda başladı. 752-ci ilə qədər davam edən bu üsyan Bərdə və Ərdəbilə də yayıldı. Üsyanda əhalinin bütün sosial təbəqələri iştirak edirdi. Üsyana yerli feodallar başçılıq edirdi. Xilafət bu üsyanı çətinliklə yatıra bildi. Lakin xalq kütlələrinin qəzəbi səngiməyib Xilafətə qarşı daha mütəşəkkil xalq hərəkatının yaranmasına səbəb oldu.

Xilafətə qarşı xalq çıxışlarının ən qüdrətlisi Babəkin başçılığı altında azadlıq müharibəsi olmuşdur. Bu müharibə tarixdə xürrəmilər hərəkatı adı ilə tanınan Azərbaycan xalqının ərəb istilasına etiraz çıxışları ilə əlaqədardır. Xilafətə qarşı xalqın geniş hərəkatı olan xürrəmilərin çıxışlarının nə vaxt başlanması tarixi dəqiq deyildir. Orta əsrlər ərəb müəllifi Təbəri isə xürrəmilər hərəkatının başlanmasını 778/779-cu ilə aid edir.

Xürrəmilər hərəkatının adı haqqında da müxtəlif fikirlər vardır. Əksər tədqiqatçılar IX-X əsrlər müəlliflərinin fikirlərinə əsaslanaraq belə hesab edirlər ki, xürrəmilər hərəkatı öz adını





Ərdəbil şəhəri yaxınlığındakı Xürrəm kəndinin adından götürmüşdür. Xürrəm sözünün etimologiyasına gəldikdə isə xalq arasında "şən", "şad" adamlara xürrəm deyilməsi ilə izah etmək olar. Əlbəttə, "xürrəm" sözünün fars dilindəki "xür" ("od") və "Xvar" ("Günəş") sözlərindən əmələ gəldiyini iddiya edənlər də vardır. Xürrəmilər hərəkatının üzərinə kölgə salıb, ona qarşı nifrət yaratmaq məqsədi güdən belə müəlliflər xürrəmilər təlimini atəşpərəstlik ilə əlaqələndirməyə cəhd göstərirlər. Onlar xürrəmilərin halal-haram nə olduğunu bilmədiklərini, yaxın qohumla evləndiklərini və əxlaqi məsələlərdə qeyri-ciddi olduqlarını iddia edirlər.

Xalqın azadlığı uğrunda mübarizə aparan xürrəmilər, azadlıq rəmzi olan qırmızı bayraq altında birləşmişdilər. Onlar insanın insan tərəfindən istismarına qarşı çıxır və sosial bərabərlik təbliğ edirdilər.

Xürrəmilərin tanınmış rəhbərlərindən biri Bəzz qalasının sahibi, kiçik feodal Cavidan olmuşdur. Cavidan ilə digər kiçik feodal Əbu İmran atrasında hərəkata rəhbərlik etmək üstündə mübarizə gedirdi. Qaynaqlardan birində xəbər verilir ki, onlar yaz və yay aylarında daim bir-biri ilə vuruşurdular, yalnız payız və qış aylarında hərə öz qalasına çəkilib təsərrüfat işləri ilə məşğul olmuşlar. Belə vuruşların birində Cavidan və Əbu İmran ağır yaralanır və həlak olurlar. Cavidanı onun köməkçisi və silahdaşı Babək əvəz edib xürrəmi dəstələrini birləşdirir və hərəkatın rəhbəri olur. Bu vaxt onun 18 yaşı vardı.

Qaynaqların verdiyi məlumata görə kiçik feodal Cavidanın böyük qoyun sürüləri vardı. O, qoyunlarını satmaq üçün Zəncam şəhərinə gedərdi. Belə səfərlərdən birində Cavidan Babək ilə tanış olur və onu Bəzz qalasına aparır. İgidliyi və zəkası ilə fərqlənən Babək qısa zamanda hamının rəğbətini qazanır və Cavidanın silahdaşına çevrilir. 816-cı ildə Cavidan həlak olduqdan sonra Babək Cavidanın vəsiyyətinə rəğmən xürrəmilərin başçısı olur. Xürrəmilər hərəkatı 60 ildən çox bir dövrü əhatə edir. Bu dövrün üçdə bir hissəsində

xürrəmilərin mübarizəsinə Babək başçılıq etmişdir. Adı xalqımızın qəhrəmanlıq rəmzinə çevrilmiş Babək zəmanəsinin böyük sərkərdəsi və görkəmli siyasi xadimi olmuşdur.

Babək 798-ci ildə Ərdəbil yaxınlığındakı Bilalaband kəndində anadan olmuşdur. Yağ alveri ilə məşğul olan atası, əslən mədainli olan Abdulla kişi, Babək hələ bir yaşında ikən vəfat etmişdi. Anası Bərumənd dövlətlilərin evində qulluqçuluq etməklə ailəni saxlamış, uşaqlarını böyütmüşdü. Babək böyüdükdə bir neçə il çobanlıq etmişdi. Sonra o, Təbriz şəhərinə gedərək sənəkrar yanında şagird qalmışdı. Daha sonra isə Babək anasının yanına qayıdır. Elə bu vaxt o, Zəncan bazarında Cavidan ilə tanış olur. Qoyunları satdıqdan sonra Babəkgildə gecələyən Cavidan Babəkin cəsur və zəkalı gənc olduğunu görür və anasından icazə alıb onu özü ilə Bəzz qalasına aparır. Beləliklə, Babək xürrəmilərə qoşulur, onların təlimi ilə tanış olur və azadlıq uğrunda mübarizə çevrilir.

**8.2. Babəkin başçılığı altında Azərbaycan xalqının azadlıq müharibəsi.** Babək xürrəmilərin başçısı olanadək, yəni 816-cı ilədək xürrəmilər Xilafət üçün o qədər də təhlükəli qüvvə deyildilər. Onlar yalnız ərəb istilaçılarının ayrı-ayrı nümayəndələrini öldürür, yaxud əmlaklarını əllərindən alıb ölkədən qovurdular. Bu da Xilafəti ciddi narahat etmirdi.

Babək isə xürrəmilərin başçısı olduqdan sonra Xilafətə qarşı üsyan qaldırdı. O, üsyan üçün əlverişli vaxt seçdi. Xilafətdə taxt-tac üstündə Əmin və Məmun qardaşları arasında gedən mübarizə hakimiyyətin başını paytaxtdakı hadisələrlə qatmış, şimal ölkələrindəki hadisələrdən diqqətini yayındırmışdı. Babək belə vəziyyətdən istifadə edib Xilafət hakimiyyətinə qarşı üsyan bayrağı qaldırdı. Xilafət ilk vaxtlar Babək üzərinə xüsusi nizami ordu göndərməyib Azərbaycandakı hərbi hissələrin qüvvələrindən istifadə edirdi. Lakin üsyan getdikcə genişlənir və Xilafət üçün qorxulu bir qüvvəyə çevrilirdi. Xilafətdə taxt-taca yiyələnəndən sonra xəlifə Məmun xürrəmilərin üsyanının Xilafət üçün qorxulu bir təhlükə olduğunu dərk edib





ona ciddi münasibət bəslədi. Xəlifə Məmun 819-cu ildə Babəkə qarşı sərkərdə Yəhya ibn Müəzin başçılığı altında ilk nizami ordu göndərdi. Üsyançılar bu ordunu məğlub etdilər. İlk qələbədən sonra üsyançılar dəfələrlə üzərlərinə göndərilən Xilafət ordularını əzib, sərkərdələrini əsir götürdülər. Beləliklə, Xilafətin hakimiyyətinə qarşı Babəkin başçılığı altında xürrəmilərin qaldırdığı üsyan 20 il davam edən azadlıq müharibəsinə çevrildi.

Azərbaycan və qonşu ölkələrin Xilafət hakimiyyətindən narazı olan kəndliləri hər tərəfdən axışıb Bəzz qalasına gələrək Babəkin bayrağı altında birləşirdilər. Orta əslər ərəb müəllifi Yaqubun yazdığına görə Cənubi Azərbaycan ilə Arran (Albaniya) arasında yerləşən Bəzz qalası üsyançıların mərkəz şəhərinə - paytaxtına çevrilmişdi. 821-822-ci illərdə Babək ordusu ərəblərin bir neçə ordusunu məğlub edərək Arsax, Uti, Beyləqan, Şəki və başqa ölkələri ərəb istilasından azad etdi. Bu ölkələrin xristian əhalisi azadlıq mübarizəsində üsyançılar tərəfindən döyüşlərdə fəal iştirak edirdilər. Üsyançıların müvəffəqiyyətlərini görən yerli hakimlərin bir çoxu da Babəkin bayrağı altına keçirdilər.

Xəlifə 827-ci ildə Babəkə qarşı məşhur sərkərdə Məhəmməd ibn Hüveydin başçılığı altında 150 min nəfərlik böyük bir ordu göndərdi. Məhəmməd Babəkin ordusuna ciddi münasibət bəsləyərək döyüşə iki il hazırlaşdı və 829-cu il iyunun 3-də Həştadsər adlı yerdə xürrəmilərlə həlledici döyüşə girdi. Ərəblər bu döyüşə böyük ümüd bəsləyirdilər. Onlar qələbə çalıb Bəzz qalasını alacaqlarını zənn edirdilər. Lakin onların ümidi boşa çıxdı. Babəkin sərkərdəlik məharəti nəticəsində azadlıq ordusu qələbə çaldı, ərəb ordusu 30 min nəfər itirərək geri çəkilməyə məcbur oldu. Sərkərdə Məhəmməd ibn Hüveyd də həlak oldu. Onun ölümü xəlifə Məmuna ağır təsir göstərdi.

Babək ordusu sürətlə irəliləyərək 830-cu ildə strateji əhəmiyyəti olan Həmədan şəhərini azad etdi. Xilafətin paytaxtını şərq torpaqları ilə birləşdirən yol Həmədandan keçirdi. Ona

görə də Xilafət orduları üzərində Babəkin sayca bu beşinci qələbəsinin böyük əhəmiyyəti vardı.

IX əsrin 30-cu illərinin başlanğıcında xürrəmilər hərəkatı daha da genişlənərək İranın, İsfahan, Fars və Kuhistan vilayətlərini də bürüdü. 15 illik hakimiyyəti dövründə xürrəmilərə qarşı müharibədə daim məğlubiyyətə uğrayan xəlifə Məmunu Babək orduları vahiməyə salmışdı. Babəki Xilafət üçün ən böyük təhükəli düşmən sayan xəlifə Məmun 833-cü ildə vəfat edərkən onu əvəz edən qardaşı xəlifə Mütəssimə vəsiyyətində demişdi: "Xürrəmilərə qarşı müharibəyə qətiyyətli və amansız adam göndər, ona pulla, silahla, atlı və ya piyada qoşunlarla, səbrlə yardım et. Müharibə uzanarsa tərəfdarların və yaxın adamlarınla özün onlara qarşı get." Yeni xəlifə Mütəssim qardaşının vəsiyyətinə əməl edərək Babəkə qarşı müharibəyə ciddi hazırlaşmağa başladı. Xəlifə Mütəssim yaxşı anlayırdı ki, Babək orduları ilə müharibəyə soyuq yanaşmaq Xilafətin öz varlığı üçün təhlükə yarada bilər.

833-cü ildə Cibal vilayətindən gəlmiş yeni silahlı qüvvələr xürrəmilərə qoşularaq Həmədan bölgəsində düşərgə saldılar. Xəlifə Mütəssim sərkərdə İshaq ibn İbrahimin başçılıq etdiyi ordunu onlara qarşı göndərdi. Həmədan yaxınlığında döyüşdə ərəb ordusu qələbə çaldı. Döyüşdə üsyançılardan 60 min nəfər həlak oldu. Məğlubiyyətə uğramış üsyançıların 14 min nəfərdən ibarət qalıqları sərkərdə Nəsr başda olmaqla Bizansa qaçdılar. Qaynaqların məlumatına görə onlar xristianlığı qəbul edərək Bizans qoşunlarının Xilafətə qarşı müharibəsində fəal iştirak etdilər.

Həmədan döyüşündən sonra xəlifə Mütəssim başa düşdü ki, Babək kimi təhlükəli və güclü rəqib üzərində qələbə çalmaq üçün Bizans ilə müharibəni müvəqqəti olaraq dayandırmaq lazımdır. Bizansla aparılan danışıqlar nəticəsində Xilafət Bizans cəbhəsində əldə edilmiş dörd illik sakitlik xəlifə Mütəssimə Xilafətin bütün qüvvələrini Babəkə qarşı müharibə üçün səfərbər etməyə imkan verdi.





Xəlifə Mütəssim Babəkə qarşı uzunmüddətli müharibəyə hazırlaşmağa başladı. O, Xilafətin yeni paytaxtı Samirə ilə Ərdəbil arasındakı, müharibə vaxtı dağıdılmış bütün şəhər və qalaları bərpa etdirdi. Onlarda hərbi hissələr yerləşdirdi və müşahidə qüllələri tikdirdi. Ərdəbil ilə Samirə arasında rabitə sistemi yenidən quruldu. Atlı qasidlər komandanlığın məlumatlarını dörd gün ərzində Xəlifəyə çatdıra bilərdilər. Müharibə tarixində ilk dəfə olaraq Samirə İlə Ərdəbil arasında poçt göyərçinlərindən istifadə edildi. Yalnız uzunmüddətli müharibəyə ciddi hazırlıq tədbirləri başa çatdıqdan sonra 835-ci ildə xəlifə Mütəssim, Misir ilə müharibə zamanı xüsusi fərqlənmiş sərkərdə Afşir Heydər ibn Kavusu Babək üzərinə göndəriləcək bütün orduların baş komandanı təyin etdi.

Ərdəbilə gələn baş komandan öz qərargahını Bəzz qalasına yaxın yerdə dağ ətəyindəki Bərzənd yaşayış məntəqəsində yerləşdirdi. O, qərargah ilə Ərdəbil arasındakı qalaları bərpa etdirib möhkəmləndirdi.

Bu müddət ərzində Babək ordusunun dəstələri fəaliyyətsiz qalmamışdılar. Müaviyyənin başçılıq etdiyi bu dəstələrfən biri ərəb sərkərdəsi Əbu Səid Məhəmmədin ordusuna hücum edərək xeyli döyüşçüsünü əsir götürdü. Öz qüvvələrini yenidən toplayan Əbu Səid Bəzzə tərəf çəkilən Müaviyyənin dəstəsi üzərinə hücum edib onu məğlub etdi. Bu Afsimin nizami ordusunun Babəkin dəstələri üzərində ilk qələbəsi idi. Bu məğlubiyyət öz xüsusi mülahizələri və məqsədləri ilə vaxtılə Babəkə qoşulmuş bəzi yerli hakimlərin ondan uzaqlaşmasına səbəb oldu. Onlardan biri Təbriz hakimi Məhəmməd idi. O, qaynatası Babəkin məğlub olacağından ehtiyat edərək ondan aralandı və hətta Babəkin sərkərdələrindən biri olan İsmanın dəstəsi üzərinə hücum edib onu məğlub etdi. İsmanın özünü isə tutub xəlifənin hüzuruna göndərdi. İsma ona verilən işgəncələrə dözməyərək Babəklə mübarizədə ərəblərə kömək etməyə razılıq verdi. Ərəb müəllifi Təbərinin fikrinə görə bu xəyanət Babəkə vurulan ağır zərbə idi.

Bütün 835-ci il boyu Afşin Bəzz qalası ətrafındakı məntəqələrin möhkəmləndirilməsi işini davam etdirir və vaxtaşırı Babəkin dəstələrinə həmlələr edirdi. Belə döyüşlər gah Afşinin dəstələrinin, gah da Babəkin dəstələrinin qələbəsi ilə başa çatırdı. Doğma yerlərə yaxşı bələd olan xürrəmilər Afşinin qoşunların ərzaq və hərbi sursat gətirən karvanların yolunu kəsərək ərəb ordusunun təchizatı üçün maneələr törədirdilər.

836-cı ildə Həştadsər dağı yaxınlığında yeni böyük döyüş oldu. Ərəb ordusuna Afşinin sərkərdələrindən biri Buğa başçılıq edirdi. O, baş komandanın əmrini gözləmədən hücuma keçdi və ağır məğlubiyyətə düçar oldu, öz canını zorla xilas edə bildi. 836-cı ilin qışında Babəkin ən yaxşı sərkərdələrindən biri Tarxanın öz malikanəsində xəyanət nəticəsində öldürülməsindən sonra babəkilər bir daha qələbə əldə edə bilmədiər.

Afşin Babək və Təbəristan hakimi Məzyəd ilə danışıqlar apardığına görə Bəzz qalası üzərinə həlledici hücumu ləngidirdi. Afşinin Babək və Məzyəd ilə son sövdləşməsi baş tutmadıqda ərəb orduları Bəzz qalasına lap yaxınlaşıb onu mühasirəyə aldılar. Afşin xəlifə ilə razılaşıb Babəkə sülh təklif etdi. Afşin elə hesab edirdi ki, Babək kimi bir sərkərdənin gücündən Bizansla müharibədə istifadə etmək olar. O xəlifənin adından Babəkə böyük vəzifə, imtiyazlar və hədiyyələr təklif etdi. Lakin Afşinin bütün cəhdlərinə baxmayaraq Babək əqidəsindən dönmədi, Vətənin istiqlaliyyətini şəxsi xoşbəxtliyinə qurban vermədi. O, Xilafət ilə sülhü xalqına xəyanət kimi qiymətləndirərək Afşinin təklifini rədd etdi. Babək ilə danışıqlar baş tutmadıqdan sonra Afşin Bəzz qalasına qəti hücum haqqında əmr verdi.

Bəzz qalasına qəti hücum 837-ci ilin avqustun 26-da başladı. Babəkin müttəfiqi Bizans imperatoru Teofil Babəkə kömək etmək məqsədilə 100 min nəfərlik qoşunla arxadan ərəb orduları üzərinə hücum etdi. Lakin Teofilin bu cəhdi Bəzz qalasının müdafiəçilərinə kömək etmədi. Ərəb qoşunları hər tərəfdən qalaya hücum edirdilər. Sərkərdələrdən Cəfər, Əhməd,





Əbu Sübhan və başqalarının orduları hücumda daha çox fərqlənirdilər. Qalanın alınmasında daş atan və yanğın törədən hərb mancanaqlarından da istifadə edilirdi.

Qalaya ilk olaraq türk mənşəli ərəb sərkərdəsi Cəfərin ordusu daxil oldu. Öncə Afşinin sülh təklifini rədd edən Babək yalnız bu zaman Afşinə müraciət edərək özü və ailəsi üçün aman istədi. Afşin, adları qabaqcadan bildirilmiş girovların göndərilməsi şərtilə onun xahişinə razılıq verdi. Lakin həmin məqamda Afşinin istədiyi girovlar döyüş meydanında olduqlarına görə Babəkin onları Afşinə girov kimi göndərmək imkanı yox idi.

Afşin Bəzz qalasının yandırıb yerlə-yeksan edilməsi haqqında sərəncam verdi. Yandirilan Bəzz qalasının alovları böyük məşəli xatırladırdı. Bəzz qalasının alınması döyüşlərində 80 min nəfər xürrəmi öldürülmüş, 7 min nəfər əsir alınmışdı. Əsir alınanlar arasında Babəkin oğulları və onların ailə üzvləri də vardı. Babək özü isə tacir libasınla qaladan çıxaraq Həştadsər dağı ətəyindəki qalın meşəlik və sıx kollarla örtülmüş bataqlıq dərədə gizlənə bilmişdi. Afşin bütün yolların nəzarət altına alınması haqqında sərəncam verdi və Azərbaycanın həm şimal, həm də cənub şəhərlərinə məktub göndərərək, Babəki tutub Xilafətə təhvil verənə böyük mükafat vəd verdi.

Babək bir müddət bataqlıqda qaldıqdan sonra ərzağı qurtardığına görə dərədən çıxıb Albaniyanın Sünik vilayətinə gəlir və bir bulaq başında düşərgə salır. Sünik hakimi Səhl Sumbat bundan xəbər tutub Babəki sarayına dəvət edərək, yazda ona Bizansa getməyə kömək edəcəyini vəd edir. Vaxtilə Babəkin müttəfiqi olmuş Səhl gizlicə Afşinə xəbər göndərib Babəkin onun sarayında olduğunu bildirir. Babək və qardaşı Abdulla Afşinin göndərdiyi sərkərdə Əbu Sac Dibdad tərəfindən tutulub 837-ci il sentyabrın 15-də Bərzənd şəhərinə gətirilir. Afşin Babəki Samirəyə yola salmazdan qabaq öncə onun bir xahişini yerinə yetirir, dağılmış və yerlə-yeksan edilmiş Bəzz qalasını ona göstərir. Babək 838-ci il yanvarın 4-də (bəzi qaynaqlara

görə yanvarın 29-da, bəzilərinə görə isə martın 14-də) Samirəyə gətirilir və elə həmin gün edam edilir. Qaynaqların yazdığına görə Babək şahlara layiq paltarda edam meydanına gətirilir və sorğu-sualdan sonra onun başı kəsilib Xorasana göndərilir ki, Məzyədə ibrət olsun.

**8.3. Xürrəmilər hərəkatının tarixi əhəmiyyəti.** Babəkin başçılığı altında Azərbaycan xalqının ərəb işğalçılarına qarşı apardığı azadlıq müharibəsi məğlubiyyətə uğrasa da, onun böyük tarixi əhəmiyyəti vardır. Hər şeydən öncə bu azadlıq müharibəsi ərəb Xilafətini kökündən laxlatdı, imperiyanın parçalanmasının əsasını qoydu.

Babəkin xürrəmi orduları IX əsrin sonunadək Xilafətə qarşı çevrilmiş bütün çıxışlarda fəal iştirak etdilər. 838/839-cu ildə Təbəristanda Məzyədin başçılıq etdiyi üsyan baş verdi. Məzyəd hələ 825/826-cı ildə xəlifə Məmun tərəfindən Təbəristana hakim təyin edilmişdi. Ərəb müəlliflərinin kafir adlandırdıqları Məzyəd də Babəki şüarlarla çıxış edir, Xilafət hakimiyyətinə qarşı mübarizə aparırdı. Məzyədin üsyanı 840-cı ildə Xorasan hakimi Abdulla tərəfindən yatırıldı.

838/839-cu ildə sərkərdə Afşinin qohumu, onun öz yerinə hakim təyin etdiyi Minkicəvr ərəb hakimiyyətinə qarşı üsyan qaldırdı. Minkicəvrin məqsədi Xilafətdən ayrılıb öz hakimiyyətini qurmaq idi. 840-cı ildə sərkərdə Buğa ibn Kəbirin komandanlığı ilə Xilafət ordusu tərəfindən məğlub edilən Minkicəvr tutulub Samirəyə göndərildi. (Mingəçevir şəhəri toponiminin yaranması Minkicəvrin adı ilə bağlıdır)

Babəkin başçılığı altında Azərbaycan xalqının illərlə davam edən azadlıq müharibəsi məğlubiyyətə uğrasa da Xilafətə külli miqdarda maddi və çox böyük mənəvi ziyan vurdu. Müharibədə Xilafətin yarım milyondan çox döyüşçüsü həlak oldu, onlarla görkəmli sərkərdəsi əsir düşdü. Bu azadlıq müharibəsi Azərbaycan xalqının şüurunda və əməllərində əsrlərlə yaşadı.

Xürrəmilərə, üsyançılara və onların rəhbəri Babəkə nifrət bəsləmələrinə baxmayaraq, ərəb tarixçiləri özləri də azadlıq





müharibəsinin əzəmətini və təsirini etiraf etmişlər. Bir ərəb qaynağında deyilir ki, Babək öz zəmanəsinin qəhrəmanı və Xilafəti dəhşətə gətirən bir igid idi. Digər ərəb müəllifi Müqəddəsi yazır ki, Babəkin üzərində çalınan qələbə İslam dünyasının ən böyük qələbəsi idi. Onun əsir alındığı gün müsəlmanların bayram günü idi.

Babəkin başçılığı altında Azərbaycan xalqının azadlıq müharibəsi məğlub olsa da, o xalqın azadlıq ruhunu qıra bilmədi. Babək hərəkatı xalqın azadlıq uğrunda, müstəqillik uğrunda mübarizə əzmini daha da artırdı və onu inqilabi ruhda tərbiyə etdi. XX əsrdə Cənubi Azərbaycanda xalqın üç dəfə azadlıq uğrunda müharibəyə qalxması, 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaradılması və nəhayət XX əsrin sonunda öz dövlət müstəqilliyini bərpa edib Azərbaycan Respublikasını yaratması Babək hərəkatının ən parlaq tarixi əhəmiyyətidir.

### Ədəbiyyat:

1. Azərbaycan tarixi. 7 cilddə, 2-ci cild, s. 236-272.
2. Azərbaycan tarixi. Dərslik, s.172-171, 256-272.
3. Z. Bünyadov. Azərbaycan VII-IX əsrlərdə.
4. N.Vəlixanlı Ərəb Xilafəti və Azərbaycan.
5. İ.Cəbrayılov. Azərbaycan tarixi. s. 100-114.

# IX FƏSİL

## IX-XI ƏSRLƏRDƏ AZƏRBAYCANIN MÜSTƏQİL FEODAL DÖVLƏTLƏRİ

**9.1. Şirvanşahlar dövləti.** Babəkin başçılığı altında Azərbaycan xalqının 20 illik azadlıq müharibəsi məğlubiyyətə uğrasa da Xifatətə böyük zərbə vurdu, imperiyanı kökündən laxlatdı. IX əsrin sonu - X əsrin əvvəllərində Xilafətin istila etdiyi ölkələrdə separatçılıq hərəkatı başladı. İmperiyanın ucqarlarında, Xilafətdə mərkəzi hakimiyyətin zəifləməsindən, imperiyanın üzləşdiyi çətinliklərdən və idarəçiliyin boş buraxılmasından istifadə edən bir çox ölkələrdə, o cümlədən Azərbaycanda yerli hakimlər müstəqil olmağa can atırdılar. Həmin ölkələrin hakimləri ilk vaxtlar Xilafət xəzinəsinə göndərdikləri vergilərin miqdarını azaltdılar, sonra isə vergilərin göndərilməsini tamamilə dayandırdılar. Xilafət belə hakimlərə qarı əvvəllər nizami qoşunlar göndərirdisə, sonralar müvəffəqiyyətsiziyə uğradığından öz zəifliyini dərk edib, həmin ölkələrdə Xəlifənin adına xütbə oxunması ilə kifayətlənməyə məcbur oldu.

Mərkəzi hakimiyyətdən ayrılmağa cəhd göstərən Azərbaycan torpaqlarında IX-XI əsrlərdə Şirvanşahlar (Məzyədilər sülaləsi – 861-1027; Kəsranilər sülaləsi – 1067-1382), Sacilər (889-942), Salarilər (942-981), Rəvvadilər (981-1065) və Səddadilər (971-1075) yarandı. Onlardan Şirvanşahlar və Səddadilər Şimali Azərbaycanda, Sacilər, Salarilər və Rəvvadilər Cənubi Azərbaycanda yaranmışdı. Cənubi Azərbaycan ərazisində yaranmış dövlətlər müxtəlif dövrlərdə müvafiq olaraq bir-birini əvəz etmişlər.





Erkən orta əsrlərdə Azərbaycan ərazisində yaranmış müstəqil feodal dövlətlərdən biri "Şirvanahlar dövləti" adlanmışdır. Hələ qədim Alban dövləti Sasanilər tərəfindən ləğv edildikdən sonra Alban torpaqlarının böyük bir hissəsi Şirvan adlanırdı. "Şirvan" coğrafi yer adıdır, toponimdir. Bəzi müəlliflər bu coğrafi yer adının etimologiyasını Sasani hökmdarı Xosrov Ənuşirəvanın adı ilə bağlayırlar. Lakin bunun heç bir elmi əsası yoxdur. "Şirvan" toponimi iki hissədən ibarətdir. Toponimik nominasiya olan "şir" süd, şirə mənasını verir. "Van" isə toponomik formantdır. "Van" toponomik formantı Naxçıvan, İrəvan, Mimcivan, Qəmərvan, Gürcüvan, Ərkivan, Ərcivan Vilıvan və başqa onlarla Azərbaycan toponomində də işlədilir və "yer" mənasını verir. Onun Ənuşirəvanın adının son hecası "van" ilə heç bir əlaqəsi yoxdur. "Şir" və "van" sözlərindən yaranmış Şirvan coğrafi yer adı "Varlı yer", "Bərəkətli torpaq" mənasını verir. Ərəb müəllifi əl-Təbərinin verdiyi məlumata görə Arranın (aranın) xalq arasında Şirvan adlanması Xilafətdə bəlli imiş. Belə ki, Xilafət tərəfindən Azərbaycanın işğalı ərəfəsində Hacı Xəlifə Dərbənd hakimi Şəhribarı " Şirvan hökmdarı" adlandırırdı.

Sasani imperiyasının tərkibində olan ölkələrin iri torpaq sahiblərini – feodalları "şah" adlandırırdılar. Bu da onların müəyyən dərəcədə müstəqil olmaları ilə bağlı idi. Odur ki, Şirvan torpağında müstəqil feodal dövləti yarandıqda onu Şirvanşahlar dövləti adlandırırlar.

Şirvanşahlar dövlətinin yaradıcısı Heysəm ibn Xalid Şirvanın birinci məliki Yezid ibn Məzyədin nəvəsi idi. Ona görə də Azərbaycanda yaranmış Şirvanşahlar dövlətinin ilk hökmdarlar sülaləsi Məzyədilər adlanır. Yezid ibn Məzyəd ərəb mənşəli Şeybani qəbiləsindən olub Xilafətdə bir sıra hərbi və inzibati vəzifələrdə olmuşdur.

Heysəm ibn Xalid Azərbaycanda Xəlifənin valisi işləmişdir. O, vəzifəsindən istifadə edib çoxlu var-dövlət toplamışdı. Xilafətdə mərkəzi hakimiyyətin zəifləməsindən

istifadə edib özünü müstəqil hökmdar kimi aparan Heysən ibn Xalid 861-ci ildə özünü Şirvanşahlar dövlətinin ilk şahı elan etdi.

İlk vaxtlar Şirvanşahlar dövlətinin sərhədləri şimalda Samur çayı və Dərbənd, cənubda Kür çayı, qərbdə indiki Göyçay və Şəki, şərqdə isə Xəzər dənizi idi. Lakin dövlətin sərhədləri sabit deyildi. Müəyyən dövrlərdə Dərbənd, Şəki, Bərdə və Beyləqan da Şirvanşahlar dövlətinin tərkibində olmuşdur. IX əsrin sonlarında Şirvanşahlar dövləti özü də öncə Sacilər dövlətinə, sonra isə Salarilər dövlətinə tabe edilir, vassal dövlətinə çevrilir.

Şirvanşahlar dövlətinin paytaxtı Məzyədilər sülaləsinin hakimiyyəti dövründə Yezidiyyə adlanırdı. Ona görə də Məzyədilər sülaləsinə eyni zamanda Yezidilər sülaləsi də deyilir. Məzyədilər sülaləsindən olan sonuncu Şirvanşah Yəzid 37 il hökmdar olmuş və 1027-ci ildə vəfat etmişdir.

Şirvanşah Yəzidin ailəsində hakimiyyətə sahib olmaq istəyən qardaşlar və oğullar arasında daima ixtilatlar, çıxışlar olurdu. Sonuncu çıxış Yəzidə qarşı oğlu Ənuşirəvanın uğursuz qiyamı olmuşdu. Bu saray çəkişmələri Şirvanda ictimai çıxışlara da səbəb olur, dövlət hakimiyyətini zəiflədirdi. Dərbənd hakimləri ilə aramsız müharibələr də Yezidiyyələrin (Məzyədilərin) şahlıq hakimiyyətini zəiflətdirdi. Nəticədə 1027-ci ildə Məzyədilər sülaləsinin şahlığı kəsildi.

Məzyədilər özlərinin ərəb mənşəyini danmağa və mənşələrini İran hökmdarları nəsli ilə bağlamağa səy göstərdilər. Tədqiqatçı V.Minorskinin qeyd etdiyi kimi "Sasani dövrü niskili Şeybani nəslindən olan soy kökü haqqındakı xatirələrdən daha cəlbedici oldu". Bu meyl şirvanşahların qədim hökmdarlar nəslindən olan bir qadınla izdivacı ilə əlaqələndirilərək Məzyədilər sülaləsinin iranlılaşması prosesinin başlanmasına gətirib çıxardı.

Şirvanşah Yəzidin övladlarının adları da Məzyədlərin qədim İran hökmdarlar nəsli ilə bağlılığını nümayiş etdirməli





idi. Belə övladlardan biri Mənuçöhür idi. Mənuçöhrün hakimiyyəti dövrü dərbəndlilərlə mübarizə dövrü olmuşdur. Məzyədilər bu vaxt hələ şah titulu daşımırdılar.

Şirvan hakimi Mənuçöhür ilə 1027-ci ildən başlanan yeni Kəsranlər sülaləsi 1382-ci ilə qədər hakimiyyətdə olmudur. Bu sülalənin 23 nümayəndəsinin adı tarixdə məlumdur. Kəsranilər sülaləsinin 6-cı nümayəndəsi Fəribürz olmuşdur. Fəribürz 15 il Şirvanın hakimi olmuş Kəsrani Saların oğludur. O, 1063-cü ildə atası Saların vəfatından sonra Şirvanın hakimi olmuşdur. Fəribürz, Şəddadi hökmdarları və Dərbənd əmirləri ilə bir sıra feodal müharibələrində məğlub olub ağır təzminat verməyə məcbur olmuşdu. O, 1067-ci ilin sonunda İraq Türk Səlcuq Sultanı Alp Arslan Arana və Şirvana gələndə Şəddadi hökmdarı Fəzlim təcrübəsindən istifadə edərək qiymətli hədiyyələrlə onun yanına getdi və öz xidmətini təklif edib Sultanın himayəsi üçün təminat aldı və özünü şah elan etdi. Beləliklə, 1067-ci ildə Şirvanşahlar dövlətinin ikinci mərhələsi, Kəsranilər mərhələsi başlandı. Bu mərhələ arada fasilə olmaqla 1382-ci ilə qədər, Dərbəndlilər sülaləsinin hökmdar olduğu üçüncü mərhələyə qədər davam etmişdi.

Fəribürzun hakimiyyəti dövrü Şirvanşahlar dövlətinin çiçəkləndiyi və sərhədlərinin genişləndirildiyi dövr olmuşdu. Fəribürz Aran, Beyləqan, Muğan və Dərbənd torpaqlarını nəzarəti altına alır.

I Fəribürzdən sonra onun oğlu II Mənuçöhür, sonra isə digər oğlu I Əfridun Şirvanşah olmuşdur. I Əfridunun hökmdarlığı dövründə Şirvanşahlar dövlətinin tarixində monqolların yürüşünə qədər davam edən yeni səhifə açılır.Şirvanşah tituluna Gürcüstanın məliki titulu da əlavə edilir. Şirvanşah I Əfridun Gürcüstan çarı IV Davidin qızı Tamarı oğlu vəliəhd III Məmuçöhürə alır. Buna baxmyaraq IV Davud 111-ci ildə Şirvana qoşun göndərir. O, 1120-ci ildə də Şirvana iki dəfə hücum edərək Qəbələni, Lahıcı və Kürdivanı qarət edir. Şirvanşah III Məmuçöhrün hakimiyyəti dövründə

Türk Səlcuq Sultanı Mahmud Şirvanda olur. Lakin Sultan Mahmud Şirvandan gedən kimi IV David Şirvana yeni yürüşlər edir. 1123-cü ildə Gülüstan qalasını, 1224-cü ildə Şabran, Şamaxı, Qələybuğurd və digər şəhərləri tutur, onlarda öz əsgərlərindən ibarət qarnizonlar qoyaraq Gürcüstana qayıdır. Şamaxı yalnız IV Davidin ölümündən sonra Şirvanşah III Məmuçöhürə qaytarılır. IV Davidin oğlu Demetrinin çarlığı dövründə 30 il ərzində Şirvanşahlar ilə Gürcüstan arasında normal münasibətlər olmuşdur. III Məmuçöhrün dövründə Şamaxi və Şirvanşahlar dövlətinin digər şəhərləri bərpa edilir. Onun hakimiyyəti ilərində (1120-1159) Bakının qala divarları hörülür.

III Məmuçöhrün oğlu Şirvanah I Axsitan Atabəylər dövlətinin Sultanı Qızıl Arslanın mövqeyinin qeyri-müəyyənliyindən istifadə edərək, 1186-cı ildə Azəbaycana hücum edir, lakin məğlub olaraq geri çəkilir və Bakını Şirvanşahlar dövlətinin ikinci paytaxt edir.

XIII əsrin 60 cı illərində monqol işğalı ilə bağlı olaraq dövlətin tarixində yenidən fasilə yaranır. 1260-cı ildə Hülaku xan tərəfindən Şirvanşahlıq ləğv edilir və Şirvanın idarəsi monqol xanlarının əlinə keçir.

**9.2. Sacilər dövləti.** IX əsrdə Xilafətdə mərkəzi hakimiyyətin zəiflədiyi, mərkəzdən qaçma prosesinin qüvvətlədiyi bir şəraitdə yaranmış müstəqil feodal dövlətlərdən biri də Sacilər dövləti olmuşdur. Sacilər dövləti Cənubi Azərbaycan ərazisində yaranmışdı, paytaxtı isə Ərdəbil şəhəri idi. Bu dövləti yaradan Sacilər sülaləsinin banisi Əbu Sac Dibdad hesab edilir. Əbu Sac Dibdad mənşəcə türk olan adlı-sanlı ərəb sərkərdəsi idi. Xilafət ordusunun sərkərdələrindən biri kimi Əbu Sac Dibdad müxtəlif vaxtlarda imperiyanın əyalət hakimlərindən biri olmuşdur. Səhl Sumbat Babəkin onun sarayında olması xəbərini baş komandan Afşinə xəbər verəndə azadlıq mübarizənin tutulması üçün sərkərdə Əbu Sac Dibdad göndərilmişdi. O, Babəki tutaraq





Bərzəndə Afşinin düşrgəsinə gətirib baş sərkərdəyə təhvil vermişdi.

Əbu Sac Dibdadın varisləri oğlanları Məhəmməd və Yusif olmuşlar. Onlar da əyalət hakimləri olmuşlar. Məhəmməd və Yusif Xilafətdə Abbasilərin hakimiyyətinə qarşı baş vermiş üsyanların yatırılmasında fəal iştirakları ilə seçilirdilər. Xidmətləri ilə Xəlifənin rəğbətini qazanmış Məhəmməd 889-cu ildə Azərbaycanın hakimi təyin olundu. O, Ərdəbilə gəldikdən dərhal sonra özünü müstəqil hökmdar elan etdi. Məhəmməd Xəlifəyə tabe olmaqdan boyun qaçırdı. Lakin o, Xilafət ilə birdən-birə əlaqəni kəsə bilmədi. Məhəmməd Xəlifə ilə tez-tez razılaşmalı olurdu.

Marağa hakimi Məhəmmədə itayətsizlik göstərdi. Məhəmməd Marağaya qoşun göndərib şəhəri tutdu və öz hakimiyyətinə tabe etdi. Məhəmməd Naxçıvanı keçərək Cənubi Qafqaza gəldi. O, Sünik və Arsaxı tutaraq Gürcüstana getdi. Tiflisi və digər gürcü şəhərlərini ələ keçirdi. Bu qələbələr Məhəmmədin şöhrətini artırdı. Elə həmin il Məhəmməd Azərbaycanda yayılmış taun xəstəliyindən vəfat etdi. Hakimiyyətə onun oğlu Dibdad keçdi. Lakin əmisi Yusif onu devirərək özü Xilafətin Azərbaycan hakimi oldu. Xəlifənin mərhəməti müqavilində Yusif Xilafət xəzinəsinə vergiləri göndərməli idi. Ona görə də Yusif Ərdəbildə hakimiyyəti ələ keçirən kimi Xilafətdən ayrılmağa cəhd göstərdi. O, 912-ci ildə Xilafət xəzinəsinə illik 120 min dinarı göndərməkdən qəti imtina etdi. Bu isə Xilafətlə müharibəyə səbəb oldu. 918-ci ildə Yusif 7 minlik qoşunu ilə Xilafətin 20 min nəfərlik ordusunu məğlubiyyətə uğratdı. 949-cu ildə Yusifin üstünə sərkərdə Munisin komandası altında ikinci dəfə qoşun göndərildi. Xilafətin ordusu bu dəfə də məğlubiyyətə duçar oldu. Munis elə həmin il daha böyük bir ordu ilə hücuma keçib iyulun 16-da Ərdəbil yaxınlığında Yusifi məğlub edib əsir götürdü. Yusif 3 il Xilafətin zindanında saxlandı. Bu müddətdə Sacilər Xilafətə qarşı mübarizəni dayandırmadılar. Xəlifə yaxın adamlarının

məsləhəti ilə bəzi mülahizələri nəzərə alaraq, Yusifi zindandan çıxartdı və bütün Azərbaycana hakim təyin etdi. O, bu dəfə Xilafət xəzinəsinə ildə 500 min dinar vergi ödəməli idi.

Bu hadisələrdən sonra Xilafətə qarşı üsyanlar baş verdi. Qərimətlərin xəlifəyə qarşı üsyanı daha təhlükəli idi. Xəlifə qərimətlərə qarşı göndərdiyi orduya bacarıqlı sərkərdə Yusifi baş komandan təyin etdi. 927-ci il dekabrın 27-də Kufə şəhəri yaxınlığında Xilafət ordusu ilə üsyançılar arasında baş verən döyüşdə sərkərdə Yusif yaralandı, əsir düşdü və öldürüldü.

Bacarıqlı sərkərdə olan Yusif həm də çevik siyasəti idi. Sacilər sülaləsinin nümayəndələri arasında ən nüfuzlu hökmdar olan Yusif Sacilər dövlətini 24 il idarə etmişdi. Onun dövründə Sacilər dövləti istiqlaliyyət qazandı, Azərbaycanda mərkəzləşdirilmiş dövlət yarandı. Son nəticədə ölkədə təsərüfat həyatı canlandı, şəhərlərdə sənətkarlığın, ticarətin və mədəniyyətin inkişafına əlverişli zəmin yarandı. Onun maliyyə və vergi siyasəti ölkənin iqtisadiyyatının dirçəlməsinə, əhalinin artmasına təkan verdi.

Yusifin ölümündən sonra hakimiyyət əldən-ələ keçdi, Azərbaycan yenidən müharibələr meydanına çevrildi. Nəhayət hakimiyyətdə Sacilər sülaləsini Salarilər sülaləsi əvəz etdi.

**9.3. Salarilər dövləti.** X əsr Azərbaycanın siyasi tarixində mövcud müstəqil feodal dövlətlərin möhkəmlənməsi və yenilərinin yaranması dövrü olub. Azərbaycanda hakimlik edən sülalələr müsəlmanların mənəvi siyasi başçısı ərəb xəlifələrinə zahiri tabeliklərini saxlayır, lakin bir çox hallarda, Yusif Sac kimi, siyasi hakimiyyəti də ələ keçirirdilər.

Sacilər sülaləsini əvəz edən Salarilər sülaləsi mənşəcə Deyləmdən idilər. Salarilərin ilk nümayəndəsi Deyləm hakimi Mərzban ibn Məhəmməd ibn Müsafir olmuşdur. Mərzban Azərbaycana gəlməmişdən öncə hələ Deyləmdə olarkən, qardaşı Vəhsudah ilə birlikdə atasına qarşı çıxaraq, vilayətin əsas qalaları Tarom və Şümiranı ələ keçirmişdi. 942-ci ildə Mərzban Sacilərin son nümayəndəsi Deysəmin maliyyə işləri üzrə vəziri





Əli ibn Cəfərin təhriki ilə Azərbaycana hücum edir. Döyüş zamanı Deysəmin əskərlərinin bir qismi, əsasən deyləmlilər və kürdlər Mərzbanın tərəfinə keçirlər və Deysəm məğlub olur.

Deysəmin ordusunu darmarağın edən Mərzban Azərbaycanda hakimiyyəti ələ keçirir. Ərdəbili tutmaqla Azərbaycanın tam hüquqlu hökmdarına çevrilən Mərzban ibn Məhəmməd Salarilər sülaləsinin hakimiyyətinin əsasını qoyur. Onun hakimiyyət başında olduğu illər Salarilər dövlətinin çiçəklənməsi dövrü kimi səciyyələndirilir. Salarilərin bu dövrdəki dövlət sərhədləri Sacilər dövlətinin ən yüksək inkişaf dövrü hüdudları ilə üst-üstə düşürdü. Beləliklə, Salarilər dövlətinin ərazisi şimallı-cənublu bütün Azərbaycanı əhatə edərək, şimalda Dərbəndə çatdı. Salarilər dövlətinin də paytaxtı Ərdəbil şəhəri idi.

Mərzbanın hakimiyyətinin başlanğıcında Salarilər dövlətinin şimal torpaqları rusların basqısına məruz qaldı. 944-cü ildə ruslar Xəzər dənizindən Kür çayının mənsəbi ilə gəmilərlə hərəkət edərək Bərdəyə qədər gəlib çatdılar. Mərzban 5 min nəfərlik qoşunla  qənşərimə çaöda, lakin məğlub oldu. Ruslar Bərdə şəhərinin alıb qarət etdilər və əhaliyə divan tutdular. Mərziban 30 min nəfərlik qoşunla yenidən  hərəkət edərək Bərdəni mühasirəyə aldı. Ruslar ciddi müqavimət göstərdilər və şəhəri tərk etmədilər. Elə bu zaman Azərbaycanın cənub torpaqları Mosul əmirinin qoşunlarının hücumlarına məruz qaldı. Mərzban qoşununun bir hissəsini Bərdənin mühasirəsində saxladı. Qoşunun qalan hissəsi ilə cənuba Mosul əmirinin qoşunlarının çatdığı Salmas şəhərinə doğru hərəkət etdi. Tərəflər arasında döyüş baş verdi. Lakin yağmağa başlayan qar bədəvi ərəblərdən təşkil edilmiş Mosul qoşunlarının geri çəkilməsinə səbəb oldu. Məhz bu vaxt Bağdad üzərinə hücum etmək qərarına gəlmiş Mosul əmiri öz sərkərdələrini tabeliklərində olan qoşunla geri çağırdı. Bu zaman rus qoşununda başlanan kəskin epidemiya və Salari qoşunlarının aramsız həmlələri rusları Bərdənin tərk etməyə məcbur etdi. Onlar qarət etdikləri qəniməti gəmilərinə yükləyib Xəzərə çıxdılar və öz ölkələrinə tərəf

üzdülər. Bərdəni mühasirəyə almış Salari qoşunları o qədər zəif idi ki, rusların çıxıb getməsinə mane ola bilmədilər. Mərzban ibn Məhəmməd Bərdəyə qayıdanda ruslar artıq Bərdə və onun ətrafını tərk etmişdilər.

Mərzban ibn Məhəmməd dövlətinin cənub-şərq sərhədlərini möhkəmlətmək məqsədilə İsfahan və Həmədan üzərinə yürüş edir. Lakin 949-cu ildə Qəzvin şəhəi yaxınlığındakı döyüşdə Həmədan və İsfahanın hakimi Ruknəddin tərəfindən məğlubiyyətə uğradılır. Mərzban özü və sərkərdələri əsir alınıb Samiran qalasına göndərilirlər.

Ərdəbildə hakimiyyəti Mərzbanın atası Məhəmməd ibn Müsafir ələ alır. Lakin Məhəmməd həddən artıq özbaşınalıq etdiyinə görə qoşun üsyan qaldırır, onu həbs edir.

Mərzban üzərində qələbə çalmış Ruknəddin öz sərkərdələrindən Məhəmməd ibn Əbdurrəzzaqı Azərbaycana hakim təyin edir.

Hadisələrin belə inkişafından narahat olan Mərzbanın qardaşı Vəhsudan Məhəmməd ibn Əbdurrəzzağa qarşı çıxmaq üçün hələ də Tavron qalasında yaşayan sacilərin devrilmiş hökmdarı Deysəmi Azərbaycana dəvət edir. Vəhsudanın təklifi ilə geri qayıdan Deysən Sac Varsana gəlir. O, bütün xəzinəsini vəziri ibn Mahmuda etibar edib onu Muğana göndərir ki, hadisələrin nəticəsini gözləsin, özü isə Məhəmməd ibn Əbdürrəzaq ilə müharibəyə hazırlaşır. Ibn Mahmud xəyanət yolu seçərək Ərdəbilə gəlir və Məhəmməd ibn Əbdürrəzaqın tərəfinə keçir. Bu hadisə Deysəm ilə Məhəmməd ibn Əbdürrəzzaqın arasındakı döyüşün taleyini ikincinin xeyrinə həll edir. Nəticədə Azərbaycan iki yerə bölünür. Məhəmməd ibn Əbdürrəzzaq Ərdəbildə hakim qalır, Deysəm Sac isə yenidən hakimyyətə qayıdır və Varsamda hakim olur.

953-cü ildə hələ də Samiranda saxlanan Mərzban ibn Məhəmməd həbsdən qaça bilir. O, Ərdəbilə gələrək Azərbaycanda öz hakimiyyətini bərpa edir. 957-ci ildə Salari hökmdarı Mərzban ibn Məhəmməd vəfat edir. Mərzbanın





vəfatından sonra onun oğlanları ilə qardaşı Vəhsudan arasında taxt-tac üstündə mübarizə kəskinləşir.

X əsrin 70-ci illərində saray çəkişmələri və feodalların müstəqilik uğrunda mübarizəsi ona gətirib çıxartdı ki, hələ əsrin 50-ci illərində Salarilərə 50 min dinar vergi verən Əbdülheycə ibn Rəvvad, artıq 981-ci ildə Salari hökmdarı İbrahimə qarşı mübarizəyə başladı. Salarilərin əlində qalan az-çox torpaqlar 983-cü ildən sonra Qoxtan vilayətinin əmiri Əbu Dulət tərəfindən tutuldu. Nəhayət 988-ci ildə Rəvvadi hakimi Əbdülheycə bu torpaqları Əbu Dulətdən alaraq, Rəvvadilər dövlətinə qatdı.

Beləliklə, Salatilər dövləti süqut etdi. Təqribən 40 il mövcud olmuş bu dövlət Sacilər dövləti kimi Azərbaycan tarixində özünə layiq yer tutur.

**9.4. Rəvvadilər dövləti.** Azərbaycanın orta əsrlər müstəqil feodal dövlətlərindən biri də Rəvvadilər dövləti olmuşdur. Əslində Rəvvadilər dövləti yeni dövlət deyil, Sacilər və Salarilər dövlətinin davamıdır. Sadəcə olaraq hakimiyyətdə sülalələr dəyişmişdir; Sacilər sülaləsini Salarilər sülaləsi, onu da Rəvvadilər sülaləsi əvəz etmişdir. Rəvvadilər sülaləsinin hakimiyyəti 981-ci ildən 1065-ci ilə qədər davam etmişdir. Rəvvadilər dövlətinin paytaxtı Təbriz şəhəri olmuşdur.

Rəvvadilər sülaləsinin əcdadları ərəb mənşəli olub ilk dəfə Azərbaycana VIII əsrin sonlarında Yəməndən gəlmişlər. O vaxt Azərbaycan canişini olan Yəzid ibn Xaqin xəlifənin sərəncamı ilə Yəməndən köçüb gəlmiş bəzd qəbiləsinin nümayəndəsi Rəvvad ibn əl-Məsnanı qohum-əqrəbası ilə birlikdə Təbriz kəndində məskunlaşdırılmış və Təbrizdən Bəzdə qədər olan bütün torpaqları ona vermişdi. Rəvvadın oğlanlarından əl-Vəcnə, Məhəmməd, Yəhya və Əbülhecaycənin adları tarixdə məlumdur. Rəvvaddan sonra onun mülklərini əl-Vəcnə idarə etmişdir. O, Təbrizi abadlaşdırmış, onun qala hasarını tikdirmiş və onu şəhərə çevirmişdir.

Xəlifə Harun ər-Rəşidin dövründə əl-Vəcnə Marağanı da Rəvvadilərin mülkünə qatmışdı. Sonra Rəvvadilər Xilafətdən ayrılmağa cəhd etsələr də, canişin bunun qarşısını ala bilmişdi. Əl-Vəcnədən sonra Təbriz şəhərinin hakimi onun qardaşı Məhəmməd olmuşdur. Əl-Yaqubi 813-cü ilə aid bir məlumatda xürrəmilər hərəkatının təsiri altında separatçılıq hərəkatından bəhs edərkən, Xilafətdən, demək olar ki, ayrılmış və nisbi müstəqillik əldə etmiş hakimlər sırasında Məhəmməd ibn Rəvvadın da adını çəkir. Xürrəmilər hərəkatı genişləndikcə yerli feodalların, hakimlərin və sərkərdələrin müstəqilliyə can atmaq meylləri də güclənirdi. Lakin xürrəmilər hərəkatının güclənməsi və nəticədə qələbə çalmaq imkanları onları təşvişə salır. Onlar bu hərəkatın qarşısını alacaq qüvvəni xəlifənin simasında görürlər. Beləki, 820-ci ildə xəlifənin yeni canişini İsa ibn Məhəmməd Azərbaycana gəldikdə bütün yerli hakimlər, o cümlədən Məhəmməd ibn Rəvvad onun iqamətgahına gəlirlər.

Məhəmməddən sonra Təbrizin hakimi onun qardaşı Yəhya olur. 850-ci ildə yerli hakimlərin separatçılıq meyli ilə bağlı olaraq Bağdada aparılanlar arasında Yəhya ibn Rəvvad da olmuşdu. Lakin xəlifə onu zindana saldırmamış, sərbəst buraxmışdı. O vaxtdan sonra uzun müddət Rəvvadilər bölgənin siyasi həyatından kənar edilmişdilər. Buna baxmayaraq, onlar öz mülklərini əldə saxlaya bilmişdilər və başqa vilayətlərin hakimləri kimi Sacilərə, sonralar isə Salarilərə vergi verirdilər. Qaynaqlarda Əhər və Varzanın sahibi Əbdülheycə ibn Rəvvadın Salari hökmdarı İbrahimə 50 min dinar vergi ödəməsi haqqında məlumat vardır. Salari hökmdarı Mərzbanın əsir alındığı vaxtlar, Salarilərin hakimiyyətinin zəifləməsindən istifadə edən Hüseyn ibn Məhəmməd 957-ci ildə Təbrizi və onun ətrafını geri qaytara bildi. X əsrin 70-ci illərinin sonlarına yaxın Hüseynin oğlu Əbdülheycə Salari hökmdarı İbrahim ilə müharibədə qalib gəldi və İbrahimi zindana saldırdı. O, Aranın cənub torpaqlarını da öz mülklərinə qatdı.





981-ci ildə Əbdülheycə ibn Məhəmməd Ərdəbili tutur və Rəvvadilər dövlətinin əsasını qoyur. Onun hakimiyyət illəri Rəvvadilər dövlətinin yüksəlişi və ərazilərinin genişləşdirilməsi dövrü kimi səciyyələnir. 988-ci ildə Əbdülheycə ibn Məhəmməd vəfat edir. Onu əvəz edən oğlu Məmlan atasının xarici siyasətini müvəffəqiyyətlə davam etdirir. Məmlan 30 ilə yaxın Rəvvadilər dövlətinin başında durmuşdur.

Məmlandan sonra Rəvvadilər dövlətinin hökmdarı onun oğlu Bəhsudan olur. Bəhsudanın hökmdarlığı haqqında təkcə tarixi qaynaqlarda deyil, dövrün tanınmış şairi Qətran Təbrizinin qəsidələrində də maraqlı məlumat vardır.

XI əsrin 20-ci illərində Azərbaycana oğuz türklərinin yeni axını olmuşdur. Tarixçi Rəşidəddinin “Oğuznamə” kitabında deyilir ki, oğuz türklərinin bu dövrdə Azərbaycana axını təkcə cənub və şərqdən İran vasitəsilə deyil, şimaldan Dərbənd keçidi vasitəsilə də güclənmişdi. 1028-ci ildə Sultan Mahmud Qəznəviyə qarşı çıxmış oğuz türklərindən 2 min ailə məğlubiyyətdən sonra qərbə doğru hərəkət etmişdilər. Rəvvadi hökmdarı Vəhsudan onları dostcasına qarşılamış, onlara sığınacaq vermişdi. Vəhsudan onlara torpaq da paylamışdı. Vəhsudan oğuz suvarilərindən Bizansa qarşı müharibələrdə və feodalların özbaşınalığının qarşısını almaqda istifadə etmək niyyətində idi. Vəhsudan ilk dəfə XI əsrin 30-cu illərində Azərbaycanda görünən Səlcuq oğuz türklərindən də bu məqsədlə istifadə edirdi.

XI əsrin 40-cı illərində Rəvvadilər dövlətinin ərazisi təqribən bütün Cənubi Azərbaycanı əhatə edirdi. Xarici siyasi vəziyyətin bu dövrdə gərginləşməsi hökmdar Vəhsudanı qonşu dövlətlərlə dostluq münasibətləri yaratmağa sövq edirdi. Vəhsudanın Gəncəyə səfəri də bu niyyətlə bağlı idi. Rəvvadilər və Şəddadilər dövlətlərinin hökmdarları arasında bağlanan müqavilə Şəddadilər dövləti tərəfindən şimaldan olan təhlükəni aradan qaldırmışdı. Qətran Təbrizinin qəsidələrində bu görüş şərh edilir və hər iki hökmdarın sülhməramlı sazişi mədh edilir.

Əlbəttə, Vəhsudan yalnız güclü dövlətlərlə münasibətdə sülhpərvər siyasət yeridirdi. Zəif hakimlər və hökmdarlara münasibətdə, lazım gəldikdə güc də tətbiq edirdi. Beləki, Rəvvadilərin ali hakimiyyətini tanımaqdan boyun qaçıran Muğan əmirinin üstünə oğlu Məmlan Rəvvadinin başçılığı ilə qoşun göndərdi və Muğan əmiri Rəvvadilər sülaləsinin hakimiyyətini tanımalı oldu. Bu döyüşdə iştirak etmiş şair, Qətran Təbrizi ona xüsusi qəsidə həsr etmişdir.

1054-cü ildə Sultan Toğrulun başçılığı altında səlcuq oğuz türkləri qərbə doğru yürüşləri zamanı Təbrizə yaxınlaşdıqda, onların qarşısında gücsüzlüyünü dərk edən hökmdar Vəhsudan Səlcuq Türk sultanlığının hakimmiyyətini tanıdı. Sultan Toğrul Rəvvadi hökmdarı Vəhsudanın taxt- tacına toxunmadı. Rəvvadilər dövləti vassal dövlətə çevrildi və sultana qiymətli hədiyyələr verdi, vergi ödəməli oldu.

1058-ci ildə hökmdar Vəhsudan vəfat etdikdən sonra da Sultan Toğrul Rəvvadilər sülaləsinin hakimiyyətinə toxunmadı, onun oğlu II Məmlanı onun yerinə təyin etdi. 1060-cı ildə II Məmlan görünür müstəqil olmaq fikrinə düşüb vergi verməyi dayandırdı. Sultan Toğrul ikinci dəfə Təbrizi mühasirəyə aldı və onu 4 ay mühasirədə saxladı. II Məmlan Sultan Toğrulun adına yenidən xütbə oxunmasına sərəncam verdi və vergi ödəməkdə davam etdi.

1065-ci ildə Azərbaycanın Xoy və Salmas şəhərlərində səlcuq oğuz türklərinin hakimiyyətinə qarşı üsyan qaldırılır. Səlcuq Türk Sultanı Alp Arslan üsyanı yatırır. II Məmlan hakimiyyətdən kənar edilir, Rəvvadilər dövləti ləğv edilib sultanlığın bir vilayətinə çevrilir. Təbriz şəhərinə səlcuq əmirlərindən biri hakim təyin edilir. Beləliklə, təqribən bir əsr davam edən Rəvvadilər sülaləsinin hakimiyyətinə son qoyulur.

**9.5. Şəddadilər dövləti.** X əsrin ortalarından XII əsrin sonlarınadək Cənubi Qafqazın Gəncə, Aran, Naxçıvan, Dvin və Ani əmirliklərində hakimiyyət başında Şəddadilər sülaləsi durmuşdur. Sülalənin banisi kürd mənşəli Məhəmməd ibn





Şaddad, Salari hökmdarı Mərzban ibn Məhəmmədin 951-ci ildə həbs olunmasından sonra yaranmış siyasi durumdan istifadə edərək, Mərzbanın tabeliyində olan Dvini ələ keçirir. 954-cü ildə Mərzban həbsxanadan qaçır və dəyləmli süvarilərdən ibarət qoşunla Dvin üzərinə yeriyir. Məhəmməd ibn Şəddadın qoşununda olan dəyləmlilər Mərzbanın tərəfinə keçirlər. Nəticədə Məhəmməd məğlub olur və Mərzban Salari öz şəhərini geri ala bilir. 955-ci ildə Məhəmməd Şəddadi vəfat edir.

Məhəmmədin kiçik oğlu Fəzl böyüdükdən sonra Salarilərə xidmət etməyə başlayır və Salari hakimi Əli əl-Fazinin idarə etdiyi Gəncəyə gəlir. Bu zaman Gəncə tez-tez müxtəlif soyların basqınlarına məruz qalırdı. Fəzl Əli əl-Fazinin tapşırığı ilə basqınçıları Gəncədən qovub çıxarır. Bu Fəzlə olan inamı artırır. Fəzl 969-cu ildən Gəncədə yaşamağa başlayır. Fəzl şəhər rəisinin məsləhəti ilə böyük qardaşı Ləşkəriyə xəbər göndərib onu da Gəncəyə dəvət edir. Ləşkəri qardaşının, gəlib Gəncənin hakimi olmaq haqqında, təklifinə razılıq verir. Öncədən Fəzl ilə razılaşmış şəhər rəisi Yusif Gəncənin Salari hakimini həbs edərək, şəhərin darvazalarını Ləşkərinin üzünə açdırır.

Beləliklə, 971-ci ildə Ləşkəri ibn Məhəmməd Şəddadi Gəncənin hakimi olaraq, sülalənin hakimiyyətinin əsasını qoyur, Şəddadilər dövləti yaranır. Dövlətin paytaxtı Gəncə şəhəri olur. Nəslin böyüyü kimi Ləşkəri Gəncənin ilk Şəddadi hakimi olsa da, hakimiyyətdə həlledici rolu Fəzl oynamışdır.

Salari hökmdarı İbrahim Gəncədə Şəddadilərin mərkəzi hakimiyyətdən ayrılaraq müstəqil olmaları haqqında xəbəri alan kimi, Gəncə üzərinə qoşun çəkir və şəhəri mühasirəyə alır. Lakin Ləşkəriyə qalib gələ bilmir və onunla müqavilə bağlayaraq Şəddadilər sülaləsinin Gəncədə hakimiyyətini tanımalı olur. Bundan sonra Naxçıvan, Dvin, Bərdə, Şəki və b. şəhərlər də tutulub Şəddadilər sülaləsinin hakimiyyətinə tabe edilir.

Ləşkəri 978-ci ildə vəfat edir. Lakin Ləşkəridən sonra hakimiyyət onun qardaşı Fəzlin deyil, Məhəmməd ibn Şəddadın ortancıl oğlu Mərzban ibn Məhəmmədin əlinə keçir. Mərzbanın bacarıqsızlığı və düzgün siyasət yeridə bilməməsi nəticəsində Şəddadilər dövləti bir sıra vilayətləri itirməli olur. 982-ci ildə Şivanşah Məhəmməd ibn Əhməd Bərdəni tutaraq, Musa ibn Əlini Bərədəyə hakim təyin edir. Lakin Musa ibn Əlinin Şirvanşahlara tabeliyi çox çəkmir. Musa ibn Əli Bərdəni müstəqil hakim kimi idarə etməyə başlayır.

Fəzl Şəddadi 985-ci ildə ov zamanı fürsətdən istifadə edərək qardaşı Mərzbanı öldürür, sonra isə onun oğlu Şirvanı həbs etdirir və hakimiyyəti ələ alır. Fəzl Şəddadilər dövlətinin sərhədlərini genişləndirmək məqsədilə Şirvanşahlar üzərinə və Gürcüstana dəfələrlə hücum edir. Bərdə, Beyləqan, Xaçın, Sünik, Gorus və b. vilayətləri yenidən Şəddadilər dövlətinin ərazisinə qatır. 1030-cu ildə Fəzl hərbi yürüşdən qayıdarkən Gəncə yaxınlığında xəzərlərin qəfil hücumuna məruz qalır. Xəzərlərlə döyüşdə çoxlu canlı qüvvə itirir və qazandığı qənimətdən əl çəkməli olur.

Fəzl 985-ci ildən 1031-ci ilədək təqribən 47 il Şəddadilər dövlətinin hökmdarı olmuşdur. Onun düzgün daxili siyasəti və dövlətin ərazilərini genişləndirməyə yönəldilmiş xarici siyasəti nəticəsində Şəddadilər dövləti Cənubi Qafqazda ən qüdrətli və nüfuzlu dövlətlərdən birinə çevrilir.

Fəzldən sonra Şəddadilər dövlətinin hökmdarı olmuş onun oğlu Musa 1031-ci ildə Bakıya hücum etmiş ruslara qarşı müharibədə qələbə çalaraq onları Bakıdan qovmuşdur. Musanın hakimiyyəti cəmi 2 il davam etmişdir. 1033-cü ildə onun oğlu Əbülhəsən Əli Ləşkəri atasına qarşı qəsd təşkil edərək onu öldürmüş və hakimiyyəti ələ keçirmişdir. II Ləşkəri Şirvanşahlar ilə qohum olmuş, Rəvvadilərlə dostluq etmişdir. II Ləşkərinin gürcü və ermənilərə qarşı apardığı uğurlu müharibələr şair Qətran Təbrizinin qəsidələrində öz əksini tapmışdır. Şair qəsidələrində "Aranşah" adlandırdığı II





Ləşkərinin qələbəsi ilə başa çatan bu döyüşləri bədii boylarla təsvir etmişdir.

1046-cı ildə Səlcuq Türk Sultanı Toğrulun qoşunları sərkərdə Qutlamışın başçılığı ilə Gəncəyə hücum edirlər. II Ləşkəri şəhərin müdafiəsini təşkil edir, müdafiə istehkamlarını möhkəmləndirir. Qutlamış Gəncəni ay yarım ərzində mühasirədə saxlasa da, şəhəri ala bilmir.

II Ləşkərinin vəfatından sonra 1049-cu ildə Gəncədə hakimiyyəti Dvin hakimi Şavur Şəddadi ələ alır. Hələ Dvində fəal xarici siyasət yeridən Şavur Gəncədə də Şəddadi hökmdarı kimi xarici siyasətini gücləndirir. 1051-ci ildə Səlcuq türklərinin Gürcüstana hücum etməsindən istifadə edən Şavur Tiflis əmirləri Cəfərilərin Kür çayı boyunda yerləşən qalalarını ələ keçirməyə cəhd edir. 1053-cü ildə Şavur oğlu Əbunəsr İskəndəri Dvinə hakim təyin edir və şəhərin möhkəmləndirilməsini ona tapşırır.

Şavurun hökmdarlığı Cənubi Qafqazın Səlcuq Türk Sultanlığı tərəfindən işğal olunması dövrünə təsadüf edir. Səlcuqilər Cənubi Qafqaz ölkələrinin çoxunu özlərindən vassal asılılığında olan dövlətlərin mülkiyyətinə verirlər. Şəddadilərin vassal dövləti halına düşməsinə Şavurun daima Bizans imperatorluğu ilə apardığı müharibələr əsas olmuşdu. 1054-cü ildə Rəvvadi hökmdarı Vəhsudanı tabe edən Səlcuq Türk Sultanı Toğrul Gəncəyə gələndə Şəddadi hökmdarı Şavur da sultanın hakimiyyətini qəbul edib onun vassalına çevrildi. Şəddadilər Səlcuqilərə, Bizansa qarşı müharibədə iştirak etmək üçün böyük qoşun dəstələri verirlər. Bundan sonra Şəddadilər dövləti Səlcuq Türk Sultanlığının müttəfiqə çevrilir.

Sultan Toğruldan sonra 1063-cü ildə İraq Türk Səlcuq Sultanı olmuş Alp Arslan vassal asılılığında olan hökmdarlar üzərindəki təsirini möhkəmlətmək üçün dərhal Cənubi Qafqaza hərbi yürüş etdi. Sultan Alp Arslan Cənubi Qafqazın müsəlman dövlətləri Şəddadilərin, Şirvanşahların və Cəfərilərin möhkəmlənməsinə xüsusi diqqət yetirirdi. Səlcuq türklərinin

sərkərdəsi Sautəkinin qoşunları Xəzər sahili boyu hərəkət edərək Dərbəndə də gedirlər. Sonra Sautəkin bütün Azərbaycandan keçərək Naxçıvana və oradan da Gürcüstana gedir. Sautəkin hər yerdə yerli vassal hökmdarları təsdiq edir, Şəddadilərin hökmdarı Şavuru isə Səlcuq sultanının Qafqaz atabəyi, yəni canişini təyin edir.

Bu hadisələrdən az sonra 1065-ci ildə gürcü - alan qoşunları Azərbaycana soxuldular. Ölkənin şəhər və kəndlərini qarət edən gürcü - alan qoşunları Gəncəyə yaxınlaşdılar. Artıq qocalmış Şavur şəhərdən çıxıb düşmənlərlə vuruşmadı, qalaya çəkilib onu möhkəmləndirdi. Gürcü – alan qoşunları Gəncəni bir müddət mühasirədə saxladıqdan sonra mühasirəni ləğv edib ölkənin daxilinə doğru hücumlarını davam etdirdilər. Onlar Bərdə şəhərini də 3 gün mühasirədə saxlasalar da ala bilmədilər. Gürcü – alan qoşunları yolları üstündə olan şəhər və kəndləri qarət edib yandıra-yandıra cənuba doğru hərəkət edərək Araz çayı boyuna çatdılar, sonra isə çoxlu əsir və zəngin qənimətlə geri qayıtdılar. Onların çıxıb getmələri Səlcuqilərlə qarşılaşmaq təhlükəsi ilə bağlı idi. Doğrudan da Alp Arslan bundan sonra iki dəfə Qazqaza yürüş edib mütəffiqi Şəddadiləri dəstəklədi. 1067-ci ildə Şəddadi hökmdarı Şavur vəfat etdi. Onun yerinə oğlu II Fəzl keçdi.

1068-ci ildə Gürcüstana yürüş edən Alp Arslan gürcü hökmdarı IV Baqratı və Cəfərilər sülaləsindən olan Tiflis əmirini sultanın hakimiyyəti altına aldı. Alp Arslan mütəffiqi olmuş Şavurun varisi II Fəzli Tiflis və Rustavmim atabəbi təyin etdi.

1068-ci ildə II Fəzl Gürcüstana hücum etdi və Msxeti yaxınlığında məğlubiyyətə düçar olaraq qoşunlarının qalıqları ilə birlikdə Kaxetiyaya qaçdı. Lakin II Fəzlə sığınacaq vermiş Kaxetiya hökmdarı onu IV Baqrata təslim etdi. Yalnız Alp Arslanın tələbi ilə IV Baqrat II Fəzli azad etdi.

II Fəzl 1070-ci ildə Şirvanşahlar ərazisinə hücum edərək Dərbəndi tutur. Bir neçə döyüşdən sonra Şirvanşah Fəribürz ilə





II Fəzl arasında sülh müqaviləsi bağlanır. II Fəzl öz xarici siyasətində dövlətin sərhədlərini genişləndirmək xəttini davam etdirərək, 1072-ci ildə Səlcuq hökmdarına hədiyyə kimi verdiyi zər naxışlı qiymətli parçalar müqavilində Ani şəhərinin də Şəddadilər dövlətinin torpaqlarına qatılmasına nail oldu. II Fəzlin kişik qardaşı Ani əmirliyinin hakimi təyin edildi. Bütün XI əsr boyu Cənubi Qafqazın siyasi həyatında fəal rol oynamış Şəddadilər dövləti Bizans imperatorluğu, Rəvvadilər, Şirvanşahlar və Gürcüstan hökmdarlıqları ilə qarşı – qarşıya durmuş, Səlcuq oğuz türklərinin Qafqazda yeganə mütəffiqi kimi onların Cənubi Qafqazı işğal etmələri üçün şərait yaratmışdı. Elə buna görə də Səlcuq hökmdarları Şəddadilərə qonşu dövlətlər hesabına öz sərhədlərini genişləndirməyə mane olmur, lazım gələndə onu dəstəkləyirdilər.

1073-cü ildə II Fəzlin oğlu Fəzlun atasına qarşı çıxır və hakimiyyəti ələ keçirir. Lakin onun hökmdarlığı uzun sürmür. 1075-ci ildə öz təbəələri sırasında güclü, qüvvətli və nüfuzlu hökmdarın olmasını istəməyən Səlcuq sultanları Şəddadilər dövlətini ləğv etmək qərarına gəldilər. Bu məqsədlə Sultan Məlikşah əmiri Sautəkini böyük bir ordu ilə Qafqaza, o cümlədən Arana göndərdi. Əmir Sautəkin İraq Türk Səlcuq Sultanlığının Qafqaz üzrə canişini təyin edildi. Şəddadi hökmdarı Fəzlun müqavimət göstərməyə cəhd etsə də, nəhayət, hakimiyyəti əmir Sautəkinə təhvil verməyə məcbur oldu. Beləliklə, 1075-ci ildə Şəddadilər sülaləsinin hökümdarlığına son qoyuldu, Şəddadilər dövləti süqut etdi.

Sonda qeyd edilməlidir ki, IX-XI əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətləri Azərbaycan tarixində əhəmiyyətli rol oynamışlar. Bu müstəqil feodal dövlətləri tarixin müəyyən dövründə Azərbaycanın müxtəlif bölgələrini vahid mərkəzləşmiş dövlətlər daxilində birləşdirməklə əhalinin təsərrüfat həyatının canlanması, iqtisadi və ticarət əlaqələrinin inkişafı və mədəniyyətin yüksəlməsi üçün şərait yaratmışlar.

Erkən orta əsrin sonlarında yaranmış bu feodal dövlətləri türk dövlətçilik ənənələlərini yaşatmış və gələcək nəsillərə nümunə ola bilən yeni Azərbaycan dövlətçilik ənənələrini formalaşdırmışlar.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi. Dərslik, s. 273-289.
2. M.Şərifli. IX əsrin ikinci yarısı - XI əsrdə Azərbaycanın feodal dövlətləri. Bakı, 1978.
3. İ.Cəbrayılov. Azərbaycan tarixi. s.118-120.





# X FƏSİL

## AZƏRBAYCAN ATABƏYLƏR DÖVLƏTİ

**10.1. Səlcuq oğuz türkləri və onların Azərbaycana gəlmələri.** Qədim türklər zəngin mədəniyyətə malik xalqlardan biri olmuşlar. Qədim türklər haqqında ilk məlumata e.ə. 2000-ci ilə aid Çin qaynaqlarında rast gəlmək olar. Həmin qaynaqlarda göstərilir ki, e.ə. 2000-ci ildə Mərkəzi Asiyada, Sayan – Altay dağlarından şimal-qərb bölgələrində və Yenisey çayı boyu bölgələrdə yaşayırdılar. Onlar e.ə. 1500-cü ildə Sayan bölgəsindən Altay və Tanrı dalğaları bölgəsinə keçir, oradan qərbdə Ural dağlarına, Ural çayına və Xəzər dənizinə, cənubi-şərqdə Balxaş gölünə və ondan şimal-şərqdə yerləşən böyük çöllük bölgələri əhatə edən geniş bir əraziyə yayılırlar. Qədim türklər hunlar adı ilə e.ə. 1101-ci ildə Türküstanda məskunlaşırlar. E.ə. VII əsrdə hunlar 3 istiqamətdə köç edirlər: başqırdların əcdadları olan soylar Ural dağlarının cənub ətəklərində, yakutların əcdadları olan soylar Qərbi Sibirə, hunların böyük kütləsi isə Altayda Ordos bölgəsində məskunlaşırlar. E.ə. IV-III əsrlərdə çox böyük bir əraziyə yayılmış türklərin İrtış çayından Xəzərə qədər olan geniş ərazidə məskunlaşan hissəsinə Qərb hunları, Mərkəzi Asiyada və Çinin Şimalında məskunlaşan hissəsinə isə Şərq hunları deyirdilər.

İlk böyük Hun imperiyasını Şərq hunları yaratmışlar. Bu imperiyanı e.ə. III əsrin sonlarında indiki Monqolustanın qərb hissəsində və Çinin şimal-qərbində yerləşən Ordos bölgəsində Tuman xanın oğlu Mete yaratmışdır. Bu imperiya e.ə. 174-cü ildə kiçik dövlətlərə parçalanır.

Hunların bir hissəsi eramızın I əsrinin sonu - II əsrinin əvvəllərində Xəzər dənizi ilə Aral dənizi arasındakı torpaqlardan Ural çayının cənubuna və sonra İtil (Volqa) çayı boyuna keçərək 374-cü ildə yeni bir qüdrətli dövlət yaradırlar. Bu dövləti Hun imperiyası xaqanlarının nəslindən olan Balamir yaradır. Balamir böyük ordu təşkil edib qərb istiqamətində hərbi yürüşə başlayır. Onlar öncə alanları sıxışdırıb, onları Şimali Qafqaza köçməyə məcbur etmişlər. Sonra onlar Qara dənizin şimalındakı böyük düzəngahlarda məskunlaşmış german soylarından qotlarla üz-üzə gəlmirlər. O vaxt Don çayı ilə Dnepr çayı arasındakı ərazidə ostqotlar (şərqi qotlar), onlardan qərbdə vestqotlar (qərbi qotlar), onlardan da qərbdə Dunay çayı boyu bölgələrdə isə german soylarından olan vandallar məskunlaşmışdılar. Balamir qotları və vandalları özünə tabe edib Roma sərhədlərinə çatır. O, Bizans və Roma imperiyalarının torpaqlarının bir hissəsini də ələ keçirir.

Balamirin sərkərdələrindən Barsık və Kursıkın başçılığı altında iki hun ordusu Don çayı hövzəsindən cənuba hərəkət edərək Gürcüstandan keçib Anadoluya, oradan da Suriyaya gedir və sonra Azərbaycandan keçməklə geriyə Volqaboyuna qayıdırlar.

400-cü ildə Balamirin vəfatından sonra Ulduz xan xaqan oldu. O, Bizans imperiyasını özündən asılı dövlət halına salır. Bizans hunlara ildə 10 min talant xərac verməli idi. Ulduz xandan sonra Qaradon, ondan sonra isə Muncuq xaqan olur. Muncuqun qardaşı Ruanın hakimiyyəti dövründə dövlət Avropa Hun imperiyası adlanırdı. 434-cü ildə Ruanın vəfatından sonra Muncuqun oğlu Atilla Avropa Hun imperiyasının xaqanı olur.

Atillanın hakimiyyəti dövründə Avropa Hun imperiyası ən yüksək inkişaf mərhələsinə çatır. O, mərkəzləşmiş dövlət aparatı yaratmışdı. Atillanın dövründə Bizans imperatoru illik xərac verməkdən imtina edir. Atilla böyük bir ordu ilə Bizans üzərinə yeriyir. Qorxuya düşən imperator ondan sülh xahiş edir





və bu dəfə illik xəracı ikiqat ödəməyə məcbur olur. Atilla sonra Roma imperiyasını xərac ödəməyə məcbur edir. Atilla Burqundiya kralı Hundikarı da məğlub edərək bütün indiki Almaniyanı özünə tabe edir. Franklar, qodlar və onlarla Avropa xalqları da Atillanın hakimiyyətini tanıyırlar. Roma sərkərdəsi Aetius xərac ödəməkdə davam etsə də gizlicə Atillaya qarşı müharibəyə hazırlaşırdı. Atilla bundan xəbər tutub Roma üzərinə yeriyir və 451-ci il iyunun 20-də Aetiusun ordusunu darmadağın edir. 452-ci ildə Roma papası özü onun hüzuruna gəlib sülh istəyir və Atillanın Roma üzərində hakimiyyətini tanıyır.

Beləliklə, Atillanın hakimiyyəti dövründə Hun imperiyasının sərhədləri şərqdə, Balxaş gölündən başlayaraq, qərbdə şimal dənizi və İspaniyaya qədər böyük bir ərazini əhatə edirdi. Atilla Roma üzərinə qalibiyyətli yürüşdən sonra İrana hərbi yürüşə hazırlaşırdı. Lakin 453-cü ildə onun qəflətən ölümü bu yürüşə imkan vermədi.

Atillanın ölümündən sonra Avropa Hun imperiyası zəiflədi və süqut etdi. Hun soylarından olan xəzərlər, sabirlər (suvarlar), haylandurlar və başqaları Şimali Qafqaza gəlir, ağ hunlar isə Orta Asiyaya gedirlər. IV-VII əsrlərdə xəzərlərin bir hissəsi Azərbaycana gəlib burada məskunlaşırlar. Hun soylarının Azərbaycana axını IX əsrə qədər davam edir. IV əsrdə Orta Asiyada isə ağ hunlar İranın şimalı ilə həmsərhəd torpaqlarda Ağ Hun imperiyası yaradır və bir müddət İranı da öz təsir dairəsinə salırlar.

Hun soylarından göy türklər adı ilə tanınan “doqquz oğuzlar” VI-VII əsrlərdə Orxon-Yenisey bölgəsində Birinci Göytürk xaqanlığı, sonra isə İkinci Göytürk xaqanlığı adlı, biri digərini əvəz edən, iki imperiya (Bumin xaqan və İtləris xaqanının yaratdıqları xaqanlıqlar) yaratmışlar. İkinci Göytürk xaqanlığının süqutundan sonra oğuzlar qərbə tərəf hərəkət edib Türküstanda qüdrətli Qaraxanilər dövlətlərini yaradırlar.

IX əsrdə Türkmənistan ərazisində mövcud olan Qərbi və Şərqi Qaraxanilər dövlətləri ilə yanaşı Yabqu dövləti adlı bir oğuz dövləti də vardı. Yabqu dövləti doqquz oğuz türklərindən olan 24 oğuz boyunu birləşdirirdi. Dövlətdə hökmdar vəzifəsi "yabqu" adlanırdı. Hakimiyyətdə ikinci vəzifə qoşunun sərkərdəsi olan "sübaşı" ("sü" – qoşun və "başçı" sözlərindəndir) hesab edilirdi. Bir qayda olaraq yabqu vəzifəsini "bayat" boyunun bəyi, sübaşı vəzifəsini "kınık" boyunun bəyi tuturdu.

Yabqu dövlətində görkəmli sübaşılarından biri Dokak bəy olmuşdur. Tarixdə Əltunqa adı ilə məşhur olan Dakak bəyin vəfatından sonra onun oğlu Səlcuq bəy sübaşı olur. Səlcuqun yabqu ilə arası dəyir, münasibətləri gərginləşir. Səlcuq öz kınık boyunu götürüb Aral dənizindən cənubda yerləşən bir bölgəyə gedir. O vaxt Türküstanda ən qüdrətli dövlət olan Qaraxanilərin xaqanı onlara məskunlaşmaq üçün torpaq verir. Həmin dövrdə Buxara və Səmərqənd şəhərlərinin əhalisi artıq müsəlman idi. Səlcuq onlar vasitəsilə İslam dininin ehkamları ilə tanış olur və İslamın mahiyyətini dərk edib, mütərəqqiliyini görür. Səlcuq İslamı qəbul edir və onun fəal təbliğatçılarından birinə çevrilir. Bu onun hörmətini artırır və qısa müddətdə bölgədə tanınmış siyasi xadimə çevrilir. Yabqunun adamları növbəti dəfə vergi toplamağa gələndə Səlcuq onları qovur və deyir: "Mən kafirlərə vergi verməram." Bundan sonra Səlcuq müstəqil hökmdar olur və özünü "yabqu" adlandırır. Beləliklə, Səlcuq dövləti yaranır. Qaraxanilər hökmdarı bu dövləti tanıyır.

Səlcuqun 4 oğlu vardı. Mikayıl, Arslan, Yusif və Musa. Böyük oğlu Mikayıl hələ 998-ci ildə döyüşlərdən birində həlak olmuşdu. Səlcuq 1009-cu ildə 100 yaşında vəfat etdikdən sonra onun oğlanları növbə ilə yabqu taxtına otururlar. Kiçik oğlu Musa dörd il hökmdar olduqdan sonra qardaşı Mikayılın oğlanları Çağrı və Toğrulun xeyrinə yabqu vəzifəsindən imtina edir. Çağrı və Toğrul yabqu taxtına otururlar.





Səlcuq vəfat edəndə Çağrı və Toğrulun 17-21 yaşları var idi. Səlcuq hələ sağ ikən nəvələrinin tərbiyəsi ilə məşğul olurdu. O, nəvəsi Çağrı bəyi cəsur döyüşçü və yaxşı sərkərdə kimi, nəvəsi Toğrulu isə ağıllı və müdrik dövlət başçısı kimi yetişdirmişdi. Çağrı və Toğrul birlikdə dövləti idarə edir və öz qabiliyyətləri ilə bütün Türküstanda şöhrət qazanırlar. Onların şöhrətinin artması Qaraxani hökmdarını narahat edir. Çağrı səfərdə olduğu zaman Qaraxanilərin hökmdarı Toğrul bəyə böhtan atdırıb onu həbs edir. Bundan xəbər tutan Çağrı bəy qoşunla Qaraxani sarayına hücum edir, qələbə çalıb qardaşını azad edir.

Bu hadisədən sonra Çağrı və Toğrul qardaşları Qaraxanilərin torpaqlarında qala bilməzdilər. Onlar soydaşları ilə birlikdə öz ölkələrinə qayıdırlar. Burada isə yabqu onların mülklərini müsadirə etmişdi və qardaşları ölkəyə buraxmadı. Qardaşlar dəstək üçün türklərin ən böyük hökmdarı Sultan Mahmud Qəznəviyə müraciət etdilər. lakin Sultan Mahmud Qaraxanı xaqanlarının və yabqunun tərəfini saxladı.

Vəziyyət belə gərgin hal aldıqda Çağrı və Toğrul Ön Asiyaya köçməyi qərara aldılar. Öncə Çağrı bəy 2 min nəfərlik süvari dəstə ilə Ön Asiyaya, o cümlədən, Azərbaycana kəşfiyyat səfəri etdi və qayıdıb qardaşına bildirdi ki, səfər etdiyi ölkələr maldarlıqla məşğul olmaq üçün, qoyun sürüləri və at ilxıları saxlamaq üçün çox yaxşı, əlverişli yerlərdir. Qardaşlar ağsaqqallar ilə məsləhətləşib qərbə doğru köç etməyi qərara aldılar.

1040-cı ildə səlcuq oğuzlarının qərbə doğru köçü başladı. Səlcuq oğuzları İranın şimal bölgələrində olarkən xəbər tutdular ki, Qaznəzi hökmdarı Sultan Mahmud Hindistanda hərbi səfərdədir və paytaxtı Nişapur şəhərinin müdafiəsi möhkəm deyildir. Çağrı bəy Nisapur şəhərini hücumla aldı və Qəznəvilərin xəzinəsini ələ keçirdi. Sultan Mahmud Nişapurun səlcuqlar tərəfindən alınması xəbərini eşidib Hindistan səfərini yarımçıq qoydu və geri qayıtdı. Çağrı bəy Sultan Mahmud ilə döyüşmək qərarına gəldi. O, Sultan Mahmudun 100 min

nəfərlik ordusunun gəlib çıxmasını gözləmədən ona qarşı hərəkət etdi. Böyük ordu hələ hərbi yürüş qaydası ilə Hindistandan İrana doğru hərəkət edən zaman Çağrı bəy kiçik dəstələrlə cinahlardan ona həmlələr edib taqətdən saldı. Nəhayət, 1040-cı il mayın 20 də Mərv şəhəri yaxınlığında Dandanakan adlı yerdə baş döyüş oldu. Çağrı bəyin sərkərdəlik məharəti nəticəsində səlcuqların 20 min nəfərlik süvari ordusu qəznəvilərin yaxşı təlim görmüş nizami ordusunu məğlub etdi, Sultan Mehman öldürüldü.

Dandanakan döyüşündən bir gün sonra Mərv şəhərinin kənarındakı meydanda səlcuq oğuz türklərinin bəyləri, sərkərdələri və ağsaqqalları qurultaya toplaşdılar. Qurultayda Türk Səlcuq Sultanlığının yaradılması elan olundu. Çağrı bəyin təklifi ilə qardaşı Toğrul bəy sultan taxtına oturduldu. Toğrul bəy sultan taxtına oturduqdan sonra səlcuq oğuz türkləri qərbə doğru yürüşlərini davam etdirdilər.

Sultan Toğrulun türk ordusu bütün İranı tutub 1054-cü ildə Azərbaycana daxil oldu. Azərbaycanda Rəvvadilərin hökmdarı Vəhsudan Vəhsırdan müqavimət göstərməyib Sultan Toğrulun hakimiyyətini tanıdı. 17 yanvar 1055-ci ildə Sultan Toğrulun türk ordusu Xilafətin paytaxtı Bağdada daxil oldu. Abbasi xəlifələr sultan Toğrulun ali hakimiyyətini tanıdılar. Xilafət ilə Türk Səlcuq Sultanlığı arasında bağlanan müqaviləyə əsasən Xilafət və Türk Səlcuq Sultanlığı vahid dövlət halında birləşdilər. Yeni fövqəldövlət İraq Türk Səlcuq Sultanlığı adlandı. Sultanlıqda ali dini hakimiyyət xəlifələrə, ali dövlət hakimiyyəti isə sultanlara məxsus idi. Beləliklə, səlcuq oğuzları tərəfindən tutulmuş Azərbaycan da İraq Türk Səlcuq Sultanlığının tərkibinə qatıldı.

**10.2. Azərbaycan İraq Türk Səlcuq Sultanlığının tərkibində.** Sultan Toğrulun vəfatından sonra varisləri Alparslar və Məlikşahın hərbi yürüşləri nəticəsində bütün Cənubi Qafqaz, Kiçik Asiya və Suriya da İraq Türk Səlcuq Sultanlığının tərkibinə qatıldı. Səlcuq oğuzlarının ən böyük qə-





ləbələrindən biri 1071-ci ildə Malazgird yaxınlığında Bizans ordusu üzərində olmuşdur. Bu qələbənin nəticəsində səlcuqların hakimiyyəti şərqdə Orta Asiyanın Qaşqar bölgəsindən qərbdə Aralıq dənizinə qədər, şimalda Qafqazdan cənubda Yəmənə qədər böyük bir ərazini əhatə edirdi. Səlcuqların imperiyasının tərkibinə daxil olan dövlətlərin hökmdarları sultanların vassallarına çevrilirdilər.

Məlikşah və onun məşhur vəziri Nizamimülkün vəfatından sonra imperiyanın əsas ərazisində böyük sultan taxt-tacı üstündə mübarizə başlandı. Məlikşahın böyük oğlu Börküyarığa qarşı onun kiçik qardaşı, Azərbaycanın hakimi Məhəmməd Təpər çıxış etdi. Onu Xorasanın hakimi, Məhəmməd Təpərin anabir qardaşı Səncər və bir sıra əmirlər müdafiə edirdilər. Lakin Sultan Börküyarıq 1101-ci ildə Həmədan yaxınlığındakı döyüşdə onları məğlub etdi. Xəlifə əl-Müstəzirin vasitəçiliyi ilə sultanlıq qardaşlar arasında bölüşdürüldü. Məhəmməd Təpər Azərbaycan, Cəzirə və Diyarbəkirin məliki (hakimi), Səncər – Xorasanın məliki oldu, Börküyarıq isə sultan elan olundu.

Bir qədər sonra M.Təpər yenə də qoşun toplayıb Börküyarığa qarşı çıxdı və bu dəfə də Xoy yaxınlığında məğlub oldu. Lakin ən nəhayət Börküyarıq 1104-cü ildə Məhəmməd Təpərin Azərbaycan, Qafqaz və Suriya üzərində sultanlığını təsdiq etdi. 1104-cü ildə sultan Börküyarıq öldü və bütün imperiyanın sultanı Məhəmməd Təpər oldu. Qərbi İran, Azərbaycan və İraqı o bilavasitə özü idarə edirdi. Xorasanı isə canişin kimi Səncər idarə edirdi. 1118-ci ildə Məhəmməd Təpərin ölümündən sonra taxt-tac üstündə mübarizə yenidən qızışdı.

Məhəmməd Təpər ölümündən hələ bir qədər əvvəl oğlu Mahmudu vəliəhd təyin etdi. Əmirlər Mahmuda and içdilər, xəlifə əl-Müstəzir Mahmudun sultan hüququnu tanıdı, Bağdadda onun adına xütbə oxunmağa başladı.

Mahmud hakimiyyətinin bütün illərində qardaşları Toğrul, Məsud, Səncərşah ilə taxt-tac üstündə mübarizə etməli

olmuşdur. Lakin o özü üçün əsas rəqib əmisi sultan Səncəri hesab edirdi. Çünki ənənəyə görə səlcuqlardan yaşca ən böyüyü ali sultan olmalı idi.

Məhəmməd Təpərin Mahmudu özünə vəliəhd təyin etməsinə baxmayaraq, Xorasan mərkəz olmaqla İraqdan şərq torpaqlara sahib olan Səncər sultan Mahmudun öz üzərində hakimiyyətini tanımadı. Mahmud Səncərə qarşı qoşun göndərdi. 1119-cu ildə Savə yaxınlığındakı döyüşdə Səncər qalib gəldi. Mahmud Səncərin ali hakimiyyətini tanıdı. Səncər də öz növbəsində Mahmudu özünə vəliəhd təyin etdi və əmr etdi ki, xütbə oxunarkən "ali sultan və sultanlar sultanı" Səncərdən sonra "böyük sultan və sultanlar ağası" Mahmudun adı çəkilsin. Bu barədə Səncər xəlifəyə məlumat verdi və 1120-ci ildən xütbələrdə hər iki sultanın adı çəkilməyə başladı. Sultan Mahmud iqta kimi Xorasandan Anadolu və Suriyaya qədər bütün torpaqların – Həmədən, İsfəhan, Cibal, Kirman, Fars, Xuzistan, Azərbaycan, İraq, Cəzirə, Diyar – Müdar, Diyar – Rəbiyə, Şam və Rumun sahibi oldu.

Sultan Mahmudun ölümündən sonra Səncər onun qardaşı II Toğrulu özünə vəliəhd etdi. Mahmudun oğlu Davud II Toğrula qarşı çıxış etdi. Davudu Mahmudun qardaşı Gəncə əmiri Məsud müdafiə etdi. O, Davudun qəyyumu Azərbaycan atabəyi Ağ - Sunqura xəbər göndərdi ki, II Toğrul ilə özünə görə mübarizə aparmır, ona gürcülərdən aldığı torpaqlar bəs edər, o Davuda kömək etmək istəyir. Davud və Ağ – Sunqur Azərbaycan və Arandan qoşun toplayıb Həmədan üzərinə yeridilər. Vahan kəndi yaxınlığındakı döyüşdə Davudun türk əskərlərinin bir hissəsi II Toğrula tərəf keçdi və Davud öz atabəyi Ağ – Sunqur ilə birlikdə Bağdada qaçdı. Məsud da bura gəldi. 1133-cü ildə xəlifə onlara fəxri libas hədiyyə etməklə adlarını xütbədə çəkdi. Xəlifə, Məsud və Davud birlikdə saziş bağlayıb II Toğrul tərəfindən tutulmuş Azərbaycan üzərinə ordu göndərdilər. II Toğrul məğlub oldu və Reyə qaçdı. Məsud II Toğrulu təqib edərək Rey, İsfahan və Fars bölgələrinə





gedərkən xəbər tutdu ki, Davud ona qarşı üsyan qaldırıb və təcili Azərbaycana qayıtdı. Davud qaçıb Ruincək qalasında gizləndi. Bu vəziyyətdən istifadə edən II Toğrul hücuma keçib Qəzvin yaxınlığında qələbə çaldı. Məsud məğlub olub yenə də Bağdada qaçdı. Xəlifə Məsud üçün yeni ordunu təchiz edəndə xəbər gəldi ki, II Toğrul ölüb. Məsud tez Həmədana gəldi, ordu ona and içdi və o İraq, Qərbi İran və Azərbaycana sahib olub sultan elan olundu.

II Toğrulun ölümünə qədər xəlifə əl-Müstərşid səlcuq hökmdarlarını və şahzadələrini bir-biri ilə vuruşdurmaqla müsəlman aləminin təkcə dini başçısı deyil, həm də dünyəvi başçısı mövqeyini bərpa etmək niyyətində idi. Məsud ilə Xəlifə əl-Mestərşid II Toğrulun ölümünə qədər bir-birilə gizli rəqabət aparırdılarsa, sonra onların gizli mübarizəsi açıq silahlı toqquşmaya çevrildi. Xəlifə bir sıra türk hərbi sərkərdələrini öz tərəfinə çəkməyə başladı. Sultan Məsud xəlifə tərəfinə keçmiş əmirlərin başına ağıl qoymaq üçün onlara məktublar yazır. Məsudun əmirlərə məktubları xəlifənin nökərləri tərəfindən ələ keçirilir. Xəlifə əl-Müstərşid Bağdadda xütbələrdə Sultan Məsudun adını çəkməyi dayandırır və 1135-ci il mayın 24-də sultan Məsuda qarşı müharibəyə başlayır.

Müharibədə xəlifə məğlub oldu. Sultan Məsud əsir alınmış əl-Müstərşidi Həmədana gətirdi. Burada bağlanmış müqaviləyə görə əl-Müstərşid Sultan Mahmudun adına xütbə oxunmasına təminat verdi və heç bir zaman qoşun toplayıb Bağdadı tərk etməməyini öhdəsinə götürdü. Məsud ali sultan Səncərə müraciət edib Xəlifənin gələcək taleyi barədə sərəncam verməyi xahiş etdi. Sultan Səncər ona Xəlifəni bağışlamağı və bütün ləyaqəti ilə Bağdada qaytarmağı məsləhət gördü. Lakin əl-Müstərşid Bağdada yola düşməyə hazırlaşarkən bir dəstə ismaililər Xəlifənin çadırına girib onu öldürürlər. Sultan Məsud əl-Müstərşidin oğlu əl-Rəşidin əleyhinə olsa da, o əl-Müstərşidin vaxtında vəliəhd təyin edildiyindən onun xəlifə seçilməsinə razılıq verdi.

Əl-Rəşid Səlcuqilərdən narazı olan bütün qüvvələri öz başına toplayıb onlara iqta paylayırdı. Bununla İraq daxili məsələlərdə müstəqil olduğunu nümayiş endirirdi. O, Bağdadda üçlər ittifaqı (Xəlifə, Davud və Mosul hakimi Zəngi) təşkil edib İraq sultanlığının mərkəzi hakimiyyətinə qarşı hərbi əməliyyata başladı. Bu müharibədə əl-Rəşid məğlub olub Suriyaya qaçdı. Məsud Bağdadda bütün qazı və üləmaları yığıb əl-Müstərişidin öz xətti ilə yazdığı iltizamnaməni oxudu. Müftilər əl-Rəşidin devrilməsini təsdiq etdilər və əl-Müktəfini Xəlifə seçdilər.

Sultan Məsud Xilafətdə mövqeyini möhkəmlətdikdən sonra əmirlərin hüquq və müstəqilliyini məhdudlaşdırmağa başladı. Bu ideyanı ona vəziri Kamaləddin Məhəmməd əl-Xəzin aşılamışdı. Məsud bu siyasəti bir qədər yerinə yetirə bilir, lakin əmirlərin ciddi müqavimətinə rast gəlir. Sultan Məsudun siyasətindən narazı olanların başında Azərbaycan atabəyi Qara Sunqur dururdu. Sultan taxtına göz tikən şahzadələr Səncərşah və Davud da Qara Sunqur ilə bir idilər. Qara Sunqurun əmirlər arasında nüfuzu böyük idi. Bunu nəzərə alaraq vəzir əl-Xəzin Sultana Qara Suquru aradan qaldırmağı tövsiyə edir. Qara Sunqur da öz növbəsində 1139-cu ilin iyun ayında 20 minlik qoşunla Həmədan üzərinə yeriyir və Sultana ultimatum göndərir. Sultan əl-Xəzini öldürtdürür və başını Qara Sunqura göndərir. Qara Sunqurun vəziri İzzətəlmülk Tahir Sultan Məsudun vəziri olur və onu uzun müddət müstəqillikdən məhrum edir. Qara Suqurun təkidi ilə Sultan Məsud şahzadə Davudu vəliəhd təyin edir, lakin o, ismaililər tərəfindən öldürülür. Qara Sungur Sultan Məsudun nüfuzunun tamamilə aşağı düşməsindən istifadə edərək Fars vilayətinə hücum edir, Farsı tutub şahzadə Səncərşaha verir. Lakin o, Azərbaycana qayıdan kimi Farsın əvvəlki hakimi Boz Apa qayıdır Səncarşahın qüvvələrini məğlub edir, özünü isə əsir alıb İsfiddej qalasına salır. Onun sonrakı taleyi haqqında heç bir məlumat yoxdur. Beləliklə, Sultan Məsudun taxtına namizədin hər ikisi aradan götürülür. Atabəy Qara Sunqur yenidən Fars





üzərinə yerimək istəyir. Lakin Azərbaycanda, xüsusilə Gəncədə baş verən güclü zəlzələ buna mane olur. Atəbəyin ailəsi Gəncədə həlak olur. Qara Sunqur 1141-ci ildə Gəncə şəhərinin bərpası zamanı xəstələnir və vəfat edir.

1146-cı ildə Azərbaycan və Aranın hakimi əmir Cəlili, Farsın hakimi əmir Boz Apa və Reyin hakimi Abbas Sultan Məsuda qarşı çıxış edirlər. Sultanın əmir həcibi Fəxrəddin Toğan – Yürek də onlara qoşulur. Onlar qoşunla Həmədana gəlib sultanlıqda hakimiyyəti ələ alırlar, Sultan Məsudu öz əllərində oyuncağa çevirirlər. Azərbaycan Fəxrəddin Toğan-Yürekin iqtasına verilir. Sultan Məsudun vəziri Xass bəy saraydan uzaqlaşdırılır.

Sultan Məsud Fəxrəddindən xilas olmaq üçün onu gürcülərin üzərinə göndərir. Gəncədən bütün qoşunları Şəmkirə yola salan Fəzrəddin tək qalır. Onu güdən Xass bəy arxadan yaxınlaşıb Fəxrəddini öldürür. Fəxrəddini öldürdükdən sonra Xass bəy Azərbaycan və Arana sahib olur.

Fəxrəddindən bir neçə gün sonra Sultanın əmri ilə əmir Abbas da öldürülür. Fəxrəddinin və Abbasının Sultanın əmri ilə öldürülməsindən xəbər tutan Boz Apa öz qoşununu İsfahana göndərir. Şəhəri tutub şahzadə Məhəmmədi sultan elan edir və Həmədan üzərinə yeriyir. 1147-ci ildə Məsudun təcili çağırdığı Xass bəylə döyüşdə qələbə çalmaq şansı olan Baz – Apanın atı qəflətən büdrəyir və o atdan yıxılan kimi başını kəsirlər.

1152-ci ildə Sultan Məsud Həmədanda vəfat edir. Sultan taxtına onun qardaşı Mahmudun oğlu Məlikşah çıxır. Xass bəy qoşunu ilə gəlib yeni Sultana and içirlər.

Yeni Sultan Məlikşah müstəqillik göstərmək istəyəndə vəzir Xass bəy bütün hakimiyyəti ələ alıb Sultan Məlikşahı həbs edir və 1153-cü ildə onun qardaşı Məhəmmədi Sultan elan edir. Yeni Sultan Xass bəyin təhlükəli adam olmasını nəzərə alaraq hakimiyyətinin üçüncü günü onu edam etdirir. Sultan Məhəmməd nüfuzlu əmirləri öz tərəfinə çəkmək üçün Xass bəyin başını atabəy Şəmsəddin Eldəgizə və Marağa

hakimi Nüsrətdin ibn Ağ-Sunqura göndərir. Nüsrətdin cavabında bildirir ki, ona inanmır, çünki sultan onlarla da belə rəftar edə bilər. Atabəy Eldəgəz Aranda qalır və Sultanın işlərinə qarışmır, hadisələrin sonrakı inkişafını gözləyir. Bu vaxt onun rezidensiyası Naxçıvan idi.

Sultanın güclü əmirlərin nəzarətindən çıxması yenidən saray çəkişmələrini gücləndirdi. Taxt-tac uğrunda mübarizəni Xəlifə əl-Müktəfi qızışdırırdı. Bu vaxt artıq İraqda iqta mülkiyyətinə Xəlifə nəzarət edirdi. Xəlifənin bu özbaşınalığını Sultana xəbər versələr də, o, heç bir şey edə bilmirdi, çünki zəif idi. Hətta Xəlifə onun üçün xütbə də oxumurdu. Xəlifənin müttəfiqi şahzadə Süleymanşah idi. O, Sultan Səncərin sarayında yaşayırdı. Xəlifə xütbələrdə onun adını Sultan Səncər ilə yanaşı çəkirdi. Sultan Səncər Xarəzm oğuzları tərəfindən məğlub edilib əsir alındıqdan sonra, Süleymanşah Bağdada getdi. Xəlifə onu təntənə ilə qəbul etdi və 1156-cı ildə ona atası Məhəmməd Təpərin Şahənşah al-Müəzzəm Qiyas əd-Dünya və əd- Din ləqəbini verdi.

Xəlifə Süleymanşaha 3 minlik süvari ordu verdi və onu Sultan Məhəmmədin üzərinə yürüşə göndərdi. Süleymanşah Xuzistana şahzadə Məlikşahın yanına çapar göndərib öz yanına çağırdı və onu vəliəhd təyin etdi. Sultan Məhəmməddən narazı olan əmirlər Şəmsəddin Eldəgəz, Nüsrəddin Arslanapa, Alınquş Günxur, Fəxrəddin Zəngi və başqaları Süleymanşaha qoşulub Həmədan üzərinə hərəkət etdilər. Sultan Məhəmməd Həmədanı tərk edib kiçik bir dəstə ilə İsfahana getdi. Müttəfiqlər Həmədəna daxil oldular. Süleymanşah sultan taxtına oturdu. Lakin tezliklə dövlət işlərini atıb, günlərini eyş-işrət içində keçirməyə başladı.

Süleymanşahın müttəfiqləri olan əmirlər Saltanin onların ümidlərini doğrultmadığını dərk edərək bir-bir sarayı tərk etdilər. Ağ Sunqurun oğlu Nüsrəddin Arslanapa Marağaya, Şəmsəddin Eldəgəz Azərbaycana qayıtdı.





Şəmsəddinin Azərbaycanda olmadığı dövrdə bir neçə yerli hakim arasında toqquşma olmuşdu. Şəmsəddinin ən təhlükəli düşməni Xass bəyin əmisi oğlu əmir Rəvvadi idi. Əmir Rəvvadi hələ Sultan Məsud tərəfindən Gəncə və Aranın hakimi təyin olunmuşdu. Şəmsəddinin başı qarışıq olduğu üçün müəyyən müddət ona dəymirdi. Şəmsəddinin Azərbaycanda olmamasından istifadə edən Rəvvadi soyğunçuluq və quldurluqla məşğul olmağa başlamışdı. Gəncə əhalisi Şəmsəddinin yanına nümayəndə göndərib onları Rəvvadidən xilas etməyi xahiş etdikdə, o ordu ilə Gəncəyə gəldi və Rəvvadini ölkədən qovdu.

Sultan Məhəmməd müttəfiqlərin Süleymanşahı tərk etdiklərini eşidən kimi kömək üçün Mosul atabəyi Qütbəddin ibn Zəngiyə müraciət etdi. O, da öz növbəsində Zeynəddinəli Kiçik başda olmaqla böyük qoşun göndərdi. 1156-cı ildə Sultan Məhəmədin ordusu Süleymanşahın ordusunu məğlub etdi. Zeynəddinəli onu Mosul qalasına saldı və o, 1159-cu ilə qədər orada qaldı.

Süleymanşaha kömək etmiş atabəy Şəmsəddin Sultan Məhəmməd tərəfindən bağışlandı, lakin Şəmsəddin oğlu Nüsrəddin Məhəmmədi girov kimi sultan sarayına gömdərməli oldu.

Süleymanşahı məğlub etdikdən sonra Sultan Məhəmməd Xəlifə əl-Müktəfiyə məktub göndərib onun adına xütbə oxunmasını tələb etdi. Xəlifə onun tələbinə cavab vermədikdə Sultan Məhəmməd Mosul atabəyinin qoşunları ilə birlikdə Bağdad üzərinə yeridi və 1157-ci il martın 4-də Bağdadı mühasirəyə aldı. Martın 17-də çox kəskin döyüş oldu. Xəlifənin donanması Sultanın ordusuna böyük tələfat verdi. Bağdadın ciddi müqavimətinə baxmayaraq Sultan qalib gəlmək ərəfəsində idi, Bağdad təslim olmağa hazırlaşırdı, şəhərin ehtiyatı tükənmişdi. Lakin gözlənilməz xəbər Sultan Məhəmmədi Bağdadın mühasirəsini buraxıb Həmədana qayıtmağa məcbur etdi.

Xəlifənin vəziri Aynəddin ibn Xubeyra Bağdadın mühasirəsinin ilk günündən atabəy Şəmsəddinlə yazışaraq ona Həmədana hərbi yürüş etməyi təklif edirdi, əvəzində isə Şəmsəddinin oğulluğu şahzadə Arslanşahı sultan taxtına oturtmağı vəd edirdi. Sultan Məhəmmədin düşmənləri – onun əmisi oğlu Məlikşahın, Toğrulun oğlu, Şəmsəddinin oğulluğu şahzadə Arslanşahın (onun anası Şəmsəddinin arvadı olmuşdu) və atabəy Şəmsəddinin qoşunları Həmədanı tuturlar.

Sultan Məhəmməd Həmədan üzərinə gələrkən, Şəmsəddin də onun üzərinə yeridi. Rey yaxınlığındakı döyüşdə Şəmsəddin məğlub oldu. Sultan Məhəmməd Həmədana daxil oldu. Sonra Sultan Məhəmmədin və Rey hakimi İnancın orduları Naxçıvan üzərinə yeridilər. Şəmsəddinin və Bağdaddan köməyə gələn Süleymanşahın orduları məğlub oldular. Sultan Məhəmməd Naxçıvana daxil oldu və bütün Aranı tutdu. Şəmsəddin bağışlanmasını xahiş etdi. Sultan Məhəmməd onu bu dəfə də bağışladı və Aranın hakimi təyin etdi. Azərbaycanın hakimi isə Marağanın hakimi Ağsunqurun oğlu Arslanapa təyin edildi.

1159-cu ilin dekabrında Sultan Məhəmməd xəstələnib vəfat etdi. Süleymanşah Sultan oldu. O , Şəmsəddinin gücünü bildiyi üçün onun oğulluğu Arslanşahı vəliəhd təyin etdi. İsfahanda olan şahzadə Məlikşah əmisi Sultan Süleymanşaha and içməkdən imtina etdi. O, qoşun düzəldib xəlifəyə xəbər göndərdi ki, Süleymanşahın adına xütbə oxunmağı dayandırsın, əks təqdirdə Bağdad üzərinə yürüşlə hədələdi. Xəlifənin vəziri Aynəddin ibn Xubeyra Məlikşahla danışığa girib ona bir kəniz bağışladı. 1160-cı ilin martında həmin kəniz Məlikşaha zəhər verib öldürdü.

1160-cı il martın 10-da Xəlifə əl-Müktəfi dəfat etdi və onun oğlu əl-Müstəncid Xəlifə oldu. O, Süleymanşaha məktub göndərib Sultanın hakimiyyəti altında olan ölkələrdə atasının vaxtındakı kimi onun adına xütbə oxunmasını tələb etdi. Süleymanşah bu tələbi qəbul etdi və Bağdada 2 qazi göndərdi, onlar Sultanın İraqda canişinləri olmalı idilər. Lakin əl-Müstən-





cid onları qəbul etmədi. Bununla da Bağdadın Səlcuqilərdən asılı olmayıb müstəqil siyasət yeritdiyini nümayiş etdirdi.

Sultan Süleymanşah əvvəlki kimi dövlət işləri ilə məşğul olmurdu, sərxoşluq edirdi. Odur ki, 1160-cı ilin oktyabrında əmirlər onu həbs edib Həmədan qalasına salır və orada boğdurub öldürdülər.

**10.3. Eldəgəzlərin Atabəylər dövləti.** Süleymanşahı devirən əmirlər koalisiyasının başında Şərafəddin Müvəffəq Qurd – Bazu dururdu. O, Şəmsəddin Eldəgəz ilə yaxın dost idi. Onlar birlikdə Sultan Məsudun məmlükləri olmuşdular.

Şərafəddin Müvəffəq başda olmaqla əmirlər koalisiyası Şəmsəddin Eldəgəzə müraciət etdilər ki, oğurluğu Arslanşahı Həmədana gətirsin və İraq sultanlığı taxtına oturtsun. 1160-cı ilin noyabrında Şəmsəddin şahzadə Arslanşahla birlikdə 20 minlik ordu ilə Həmədana gəldi. Burada onları Rey hakimi İnancdan başqa dövlətin bütün əmirləri və əyanları qarşıladılar. Təntənəli mərasimdən sonra Arslanşah sultan taxtına oturdu. Şəmsəddin böyük atabəy, onun oğlu, sultanın anabir qardaşı (Möminəxatunun oğlanları) Nüsrətdin Cahan Pəhləvan sultanın əmir-xəcibi, onların qardaşı Müzəffərəddin Osman Qızıl Arslan sultan qoşunlarının ali baş sərkərdəsi oldu. Şəmsəddin özünün bütün əməllərini yüksək dövlət vəzifələrinə təyin etdi.

Arslanşah sultan taxtına oturduqdan sonra Şəmsəddin Eldəgəz Bağdada səfirlik göndərib tələb etdi ki, Sultanın adına xütbə oxunsun. Lakin xəlifə bundan imtina etdi. O, səlcuqilər arasında nifaq salmaq üçün Reyə, Marağaya, Farsa, Quma, Ərdəbilə, Qəzvinə məktublar göndərib, yerli hakimləri Sultan Arslanşaha və böyük atabəy Şəmsəddinə qarşı çıxmağa təhrik edirdi. Onlardan bəziləri buna getdilər. Lakin Şəmsəddin Eldəgəz müqavimət göstərənləri silah gücünə özünə tabe etdi. Bütün ölkədə sultan Arslanşahdan sonra böyük atabəy Şəmsəddinin adına xütbə oxunurdu. Şəmsəddin Eldəgəzin dövründə Gürcü çarı III Georgi tez- tez Azərbaycana hücum

edir, Gəncəni, Anini, Dvini qarət edib qayıdırdı. Şəmsəddin Eldəgəz Gürcüstana qoşun göndərib onu vassal asılılığına saldı.

Beləliklə, Şəmsəddin Eldəgəzin fəaliyyəti nəticəsində İraq sultanlığında mərkəzi dövlət hakimiyyəti möhkəmləndi. Şəmsəddin Eldəgəz özünə Qafqaz dağlarından İran körfəzinə qədər böyük bir ərazini tabe edə bildi. O, Azərbaycan, Aran, Şirvan, Cibal, Həmədan, Gilan, Mazandaran, İsfahan, Rey, Mosul, Kirman, Fars, Xuzıstan, Xilat, Marağa və s. torpaqların sahibi idi. Arslanşah nominal hökmdar idi. O, yalnız rəsmi sultan vəzifələrini yerinə yetirirdi. Dövlətin taktik başçısı isə böyük atabəy Şəmsəddin Eldəgəz idi.

1157-ci ildə böyük atabəy Şəmsəddin Eldəgəzin arvadı, Sultan Arslanşahın anası Möminə xatun vəfat etdi. O, Naxçıvanda dəfn edildi. Şəmsəddin Eldəgəz onun qəbri üzərində məqbərə (türbə) tikdirməyə başladı. Lakin məqbərənin tikintisi onun oğlu Cahan Pəhləvan dövründə 1186-cı ilin aprelində başa çatdırıldı. Məqbərəni məşhur memar Əcəmi ibn Əbubəkr tikmişdir.

Möminəxatundan bir ay sonra Şəmsəddin Eldəgəz vəfat etdi. Atasının vəfatı xəbəri Cahan Pəhləvana çatan kimi o, Həmədandan Naxçıvana yola düşdü. Burada dövlətin xəzinəsini və taxt-tacın əmlakını nəzarəti altına götürdü. O, bütün qoşunu toplayıb qardaşının ona münasibətinin necə olacağını gözləməyə başladı.

İraqın Şəmsəddin Eldəgəzdən narazı olan əmirləri Cahan Pəhləvanın paytaxtda olmamasından istifadə edərək Sultan Arslanşahı Azərbaycana yürüş edib ona sahib olmağa, sonra isə Bağdada yürüş edib xəlifəni sultan hakimiyyətini tanımağa razı salmağa təhrik etdilər. Arslanşah atabəy Şəmsəddinin düşməni olan əmirlərlə böyük bir ordunun başında Azərbaycana yürüşə başladı. Zəncanda o, xəstələndi və Həmədana qayıtdı. Arslanşah təcili olaraq Cahan Pəhləvanı yanına dəvət etdi, onunla barışıb dövlətin idarə olunmasını ona verdi və atalığından təxminən bir ay sonra vəfat etdi.





Məhəmməd Cahan Pəhləvan Aslansahın 7 yaşlı oğlu III Toğrulu sultan taxtına oturtdu və özü onun atabəyi oldu. Atabəy Cahan Pəhləvan dövründə sultan taxtı üçün ən təhlükəli adam Xuzistanın hakimi Aytoqdı Şimlə idi. Vaxtilə Şimləyə qoşunla Şəmsəddin Eldəgəz kömək edərdi, çünki onun simasında xəlifəni istilaçılıq cəhdlərindən çəkindirə bilən güclü bir vassallını görürdü.

Şimlə atabəy Məhəmmədin Azərbaycanda olmasından istifadə edib xəlifənin hakimiyyəti altında olan Nihəbənd şəhərinə hücum etdi. Şəhərin əhalisi kömək üçün atabəy Məhəmmədə müraciət etdi. Atabəyin qoşunu kömək üçün gecikdi. Şimlə hiyləyə əl atıb, qardaşı oğlunun ordusunu köməyə gələn atabəy Məhəmmədin qoşunu kimi qələmə verib, şəhərə girdi, şəhərin qazısını və rəisini tutub öldürtdü, şəhəri talan edib getdi. Sonra Şimlə Azərbaycan atabəylərinin vassalı olan əfşar türkmənlərinə basqın etdi. Atabəy Məhəmməd köməyə qoşun göndərdi. Döyüşdə yaralanan Şimlə, oğlu və qardaşı oğlu ilə birlikdə əsir düşdü və o, bir gündən sonra əsirlikdə öldü.

Sultan taxtına göz tikənlərdən biri III Toğrulun əmisi şahzadə Məhəmməd idi. Şahzadə Məhəmməd İsfahana gəlib burada Sultan III Toğrula qarşı kiçik bir ordu yığa bildi. Atabəy Məhəmməd Həmədandan İsfahana qədər olan məsafəni 5 günə qət edib onun ordusunu məğlub etdi. Şahzadə Məhəmməd Şiraza qaçdı, burada Farsın atabəyi Zəngi onu tutub atabəy Məhəmməd Cahan Pəhləvana təslim etdi. O, da onu Sarcahan qəsrinə saldı.

Sultan taxtına ciddi namizəd olan şahzadə Məhəmmədi aradan götürdükdən sonra Məhəmməd Cahan Pəhləvan az yaşlı Sultan III Toğrulun adından dövləti sərbəst idarə etməyə başladı. Atabəy Məhəmmədin fəaliyyəti nəticəsində Sultan III Toğrul qayğısız həyat sürürdü. Atabəy Məhəmmədin inzibatçılıq qabiliyyəti, tələbkarlığı və şərtliyi sayəsində dövlət idarəsinin bütün bölmələrində möhkəm qayda-qanun yarandı. On il ərzində dövlətə xaricdən heç bir basqın olmadı.

Atabəy Məhəmməd ilə Xarəzmşah Tekiş arasında dostluq münasibəti yarandı. O, Xəlifə əl-Məsud və onun oğlu Xəlifə əl-Nasir ilə normal münasibət yaratmışdı. Atabəy Məhəmməd ruhani başçısına ehtiram bəsləməklə, özünün Bağdaddan asılı olmayan müstəqil siyasətini yeridirdi.

Məhəmməd Cahan Pəhləvanın mühüm müvəffəqiyyətlərindən biri də Təbrizin öz mülkiyyətlərinə qatılmasıdır. 1175-ci ildə şəhərin qazısı Sədrəddin ilə bağlanan müqaviləyə görə atabəy Məhəmməd Təbrizə sahib oldu və onu iqta kimi qardaşına verdi.

1186-cı ildə atabəy Məhəmməd Cahan Pəhləvan qəflətən xəstələndi və vəfat etdi. Məhəmməd Cahan Pəhləvanın 4 oğlu və bir neçə qızı vardı. Rey vilayətinin hakimi İnancın qızı İnanc xatundan iki oğlu vardı – Qutluq İnanc Mahmud və Əmir Əmran Ömər. Türk qızı Qutayba xatundan Əbubəkir adlı oğlu vardı. Oğlu Özbəyin anası kəniz idi. Zahidə xatundan olan qızı Cəlaliyə sonralar Naxçıvan şəhərinin və vilayətinin sahibi olur.

Atabəy Məhəmməd Azərbaycan və Aranın idarəsini Əbubəkirə verib, onun tərbiyəsini qardaşı Müzəffərəddin Qızıl Arslana tapşırmışdı. Rey, İsfahan və şərqi İraqın qalan hissələrini Qutluq İnanc Mahmuda və Əmir Əmran Ömərə, Həmədanı isə Özbəyə vermişdi. Ölüm qabağı o, uşaqlarına vəsiyyət edir ki, əmiləri Qızıl Arslana tabe olsunlar, sultan III Toğrula xidmət göstərsinlər. O, həmçinin vəsiyyət etdi ki, uşaqları Sultanın tabeliyindən çıxmasınlar, onu müdafiə etsinlər, köməksiz qoymasınlar, onunla əlaqəni kəsməsinlər və xəlifənin tabeliyindən çıxmaqdan çəkinsinlər, onun xeyirxah əmrlərini yerinə yetirməkdən imtina etməsinlər.

Atabəy Məhəmmədin vəfatından sonra İnanc xatun və onun tərəfdarları çox məşvərətdən sonra qərara gəldilər ki, III Toğrulun yanına gedib Qızıl Arslanı böyük atabəy təyin etməyə razı salsınlar. Sultan III Toğrul Qızıl Arslanın ordu ilə hücum edərsə sultan taxtına II Toğrulun oğlu Məhəmmədi, yaxud





şahzadə Səncəri oturda biləcəyini nəzərə alıb onu həmin vəzifəyə təyin etməsi haqqında fərman verdi.

Qızıl Arslan Həmədana gəldi. Onlar görüşdülər. Bu görüş zamanı III Toğrulun məmlükü Qaragözün Qızıl Arslanı öldürmək imkanı vardı. Sultan işarəsi ilə buna icazə vermədi. Sonra Qızıl Arslan bu qəsd cəhdindən xəbər tutub Qaragözün gözlərini çıxartdırdı.

Qızıl Arslan həm də qoşunların ali baş komandanı vəzifəsində qaldı. Ordu onun tərəfində idi. Ona görə də Qızıl Arslanın mövqeyi möhkəmləndi. III Toğrulun isə mövqeyi möhkəm deyildi. Qızıl Arslanın mövqeyinin möhkəmlənməsindən İnanc xatun razı deyildi. Öz oğlanları Qutluq İnanc Mahmud və Əmir Əmran Ömərin yüksəlməsini arzu edən İnanc xatun Əbubəkirin öz əmisi ilə eyni səviyyəyə yüksəlməsi və onun oğlanlarından yuxarıda durması ilə barışa bilmirdi. O, ərinin keçmiş məmlükləri, qoşun sərkərdələri əmir Cəmaləddin Ayapa və əmir Seyfəddin Rus ilə gizli əlaqəyə girdi. Onlar III Toğrulun tərəfinə keçdilər. Ayapa və Rus III Toğruldan iltizamnamə aldılar ki, sultanlığın baş atabəyi vəzifəsinə Qutluq inancı təyin edəcəkdi.

III Toğrul müttəfiqlərinin qoşunları ilə birlikdə 1187/1188-ci ilin martında Həmədan üzərinə yeridi. Şəhərin yaxınlığında Qızıl Arslanın ordusu onlarla qarşılaşdı. Döyüş bir neçə gün davam etdi, Qızıl Arslanın ordusu geri çəkildi. Bir müddət sonra Cəmaləddin Ayapa ilə Seyfəddin Rus arasında komandanlıq üstündə münaqişə yarandı. Ayapa sultanın yanında Rusu ləkələdi və Rus öldürüldü. Lakin III Toğrul yaxşı bilirdi ki, əmirlər Qızıl Arslana xəyanət etdikləri kimi, bəd ayaqda ona da xəyanət edə bilərlər. Odur ki, o, Ayapaya Qızıl Arslan üzərinə hücum etməyi əmir etdi. Ayapa əmiri yerin yetirməkdən imtina etdi və öldürüldü. Bundan sonra Sultanın əmri ilə Qızıl Arslanla əlaqəsi olanların hamısı, o cümlədən, sultanın vəziri İzzəddin, Həmədanın rəisi Fəxrəddin, əmir Siracəddin Kaymaz, əmir Bəyrəddin Qaragöz və başqaları

öldürüldülər. Bundan sonra III Toğrulun bütün tərəfdarları onu tərk etdilər.

Qızıl Arslan Xəlifə ən-Nasirə məktub yazıb məmlük oğlu məmlük olduğunu və bütün müsəlmanların əmrinin şərafətli adını qorumaq üçün həmişə çalışdığını bildirdi. Sonra o, III Toğrula qarşı qoşun göndərməyi ondan xahiş etdi. Ən-Nasir 1188-ci ilin martında vəziri Cəmaləddin Übeydulla ibn Yunis başda olmaqla III Toğrulun üstünə qoşun göndərdi. III Toğrul Həmədandan çıxıb şəhərin yaxınlığında Xəlifənin ordusu ilə döyüşə girdi. Qızıl Arslanın ordusu gecikdiyindən Xəlifənin ordusu ilə birləşə bilmədi. Toğrul qələbə çaldı və Xəlifənin vəziri Cəmaləddini əsir aldı, lakin sonra buraxdı. III Toğrulun qalib gəlməsinə səbəb əmir Mahmud ibn Parçam əl-Yivayinin öz türkmən və kürd dəstələri ilə birlikdə sultanın tərəfinə keçməsi idi.

1188-ci ilin dekabrında xəlifə ən-Nasir əmir Mücahidəd-din Xalis əl-Xass başda olmaqla yeni ordu göndərdi. Xəlifənin ordusunun yaxınlaşmasını eşidən III Toğrul Həmədanı tərk edib İsfahana çəkildi. Xəlifənin ordusu Həmədanı tutdu. Qızıl Arslan da bura gəldi. Əmir Mücahidəddin onu hökmdara məx-sus ləyaqətlə qəbul etdi və xəlifənin onu öz canişini təyin etməsi haqqında fərmanını ona verdi. Bağdadda Qızıl Arslanın adına bir hökmdar kimi xütbə oxundu. Xəlifənin ordusu Qızıl Arslanın sərəncamına verildi və o, Həmədanda sultan taxtında oturduldu. Qızıl Arslanın Azərbaycanda olmamasından istifadə edən III Toğrul Azərbaycana soxuldu. Ona əmir İzzəddin Həsən ibn Qıpçaq da qoşuldu. O, Uşnu, Urmu, Xoy və Salmas şəhərlərini tutdu və qarət etdi.

1190-cı ilin oktyabrında III Toğrul Qızıl Arslan üzərinə hücuma keçdi. Qızıl Arslan döyüşə girməmişdən öncə qardaşı oğlanları Qutluq İnanc və Əmir Əmran ilə barışdı. Onlar Həmədana əmilərinin qulluğuna gəldilər. Qızıl Arslan onların anası, öz qardaşının dul arvadı İnanc xatunla evləndi. Sonra o, qardaşı oğlu Əbubəkri ordunun sərkərdəsi təyin etdi və döyüşə





girdi. İzzəddin Həsən və III Toğrul məğlub olub döyüş meydanından qaçdılar. III Toğrul yenidən Həmədan üzərinə hücum etdi və məğlub olub əsir alındı. Qızıl Arslanın əmri ilə III Toğrulun ayaqlarına qandal vuruldu və Naxçıvan yaxınlığındakı Qəhrəm qalasına salındı.

Qızıl Arslan Gürcüstan yürüşündən qayıdarkən həbsxanada olan şahzadə Səncəri özü ilə Həmədana gətirdi. Qızıl Arslan onu sultan taxtına oturtmaq istəyirdi. Lakin xəlifə ən-Nasir məsləhət gördü ki, o, özü sultan taxtına otursun. Onda Qızıl Arslan şahzadə Səncəri yenidən qalaya saldırdı və sultan taxtına oturdu. Sonra Qızıl Arslan İsfahana yürüş etdi və əleyhdarlarını darmadağın edib Həmədana qayıtdı. Beləliklə, İraq sultanlığının şəriksiz Sultanı oldu. Onun hakimiyyəti Azərbaycan, Aran, Həmədan, İsfahan və Reyi əhatə edirdi. Vassal kim ona Fars və Xuzistan hökmdarları da tabe idilər.

Lakin hakimiyyətin ən yüksək zirvəsinə qalxsa da Qızıl Arslan onu möhkəmlətmək üçün bütün imkanlardan istifadə etmədi. Sarayda özbaşınalıq hökm sürürdü. Qızıl Arslanın vax-tının çoxu nökər və kənizlərin cəmiyyətində keçirdi. Onu nadir halda ayıq görmək olardı.

İnanc xatun və ətrafındakılar ondan qorxmağa başlamışdılar. Qızıl Arslan da onlara şübhə ilə yanaşırdı. İnanc xatun etibar etdiyi bir neçə əmiri yanına çağırıb dedi ki, sultan bizi aradan götürməmişdən biz onu aradan götürməliyik. 1191-ci ildə Qızıl Arslana sui-qəsd təşkil edildi. O, sərxoş vəziyyətdə yatağında öldürüldü. Qızıl Arslan öldürülən kimi Cahan Pəhləvanın dul arvadlarından biri Qutayba xatun onun barmağından sultan üzüyünü çıxarıb oğlu Əbubəkirə verib dedi: Azərbaycan və Arana get, orada bütün hakimiyyəti ələ al. Əbubəkir Naxçıvanın Əlincə qalasına gəldi. Burada babası Şəmsəddin Eldəgəzin vaxtından bəzi Azərbaycan Atabəyliyinə tabe torpaqların bütün vergiləri toplanıb qalmışdı. Qala özü isə Cahan Pəhləvanın digər dul arvadı Zahidə xatunun sərəncamında idi. Əbubəkr qalanı və xəzinəni ələ keçirdi.

Bütün yerli hakimlər onun hakimiyyətini qəbul etdilər. Həmədanda hakimiyyəti Qutluq İnanc və Əmir Əmran ələ keçirdilər. İnanc xatun isə Reydə qaldı.

Beləliklə, dövlət Cahan Pəhləvanın oğlanları arasında bölüşdürüldü. Bu vaxt Cahan Pəhləvanın görkəmli silahdaşlarından biri olan onun məmlükü əmir Mahmud Anasoğlu III Toğrula qəsd edilə biləcəyini nəzərə alaraq qala rəisi ilə razılaşıb onu azad etdilər. O, Həmədana hücum edib onu aldı. Qutluq İnanc Reye qaçdı. Burada Xarəzmşah Tekişə xəbər göndərdi ki, III Toğrul həbsdən çıxıb İran İraqını tutub. O, Xarəzmşahdan III Toğrula qarşı kömək istədi. Tekiş vəziyyətdən istifadə edib öz qoşunlarını İraqı tutmağa göndərdi. Onun ordusu Reyi tutub ölkədə özbaşınalığa başladı. Qutluq İnanc və anası qorxuya düşüb Sərcahan qalasında gizləndilər.

Tekiş xəbər tutdu ki, qardaşı Sultanşah ona qarşı üsyan qaldırıb. O, Rey və Təbərəkdə əmir Tamğaçın başçılığı altında qarnizon qoyub getdi. III Toğrul bundan istifadə edib 1193-cü ildə xarəzmlilərin qarnizonlarına hücum etdi, Rey və Təbərəki aldı.

İnanc xatun III Toğrula məktub yazıb bildirdi ki, o, həmişə III Toğrula meyli etmişdir və onun düşmənlərinin düşməni olmuşdur. Əgər onu qəbul etsə, onun kənizi olar və ona xidmət edər. O, yazırdı ki, Həmədana gəlib özündə olan xəzinə və pulları III Toğrula verəcəkdir. III Toğrul İnanc xatunla evlənməyə razı oldu. Evləndikdən bir az sonra III Toğrula xəbər verdilər ki, İnanc xatun onu zəhərləmək istəyir. III Toğrul İnanc xatunun zəhər qatdığı içkini onun özünə içdirdi. İnanc xatun zəhəri içib, həyatı tərk etdi. Qutluq İnanc Təbrizə qaçdı və qardaşı Əmir Əmiran ilə birlikdə Təbrizi ələ keçirib Naxçıvan üzərinə hücum etdilər, lakin Əbubəkr tərəfindən məğlub edildilər. Əmir Əmiran Şirvana qaçdı, Qutluq İnanc isə Zəncanda gizləndi, sonra isə Xarəzmşahın yanına getdi.





III Toğrul bəzən xəlifənin hakimiyyəti altında olan torpaqlara da hücum edirdi. Odur ki, xəlifə Xarəzmşahla əlbir olub III Toğrula qarşı mübarizəyə başladılar. Reydə Qutluq İnancın komandası altında olan Xarəzmşahın qoşunları ilə döyüşdə III Toğrul gözündən oxla yaralandı və Qutluq İnanc tərəfindən tutulub başı kəsildi, Xarəzmşah Tekişə göndərildi; Tekiş də onu Bağdada xəlifəyə göndərdi. İraq taxtının sonuncu sultanı belə öldürüldü.

Şirvanşah I Axsitan Əmir Əmiranı ləyaqətlə qarşıladı. Qızını ona ərə verdi və onun üçün qoşun düzəldib Əbubəkirə qarşı vuruşmaq üçün gürcü ordusu ilə birləşməyə göndərdi. Çariça Tamara Əbubəkir ilə müharibə üçün Əmir Əmiran şəxsində müttəfiq tapıb Aran və Azərbaycan üzərinə qoşun göndərdi. Əbubəkir Şəmkir yaxınlığındakı döyüşdə məğlub oldu. O, Beyləqana geri çəkildi, oradan isə Naxçıvana getdi.

Gürcülər David Soslanın komandası altında Gəncəni ala bilmədilər. Onda Əmir Əmiran hiyləyə əl atdı, gürcülərə dedi ki, siz Gəncədən uzaqlaşın, məni gəncəlilər şəhərə buraxarlar və siz vaxtlı-vaxtında xəracınızı alarsız. Gürcülər bir neçə hərbi sərkərdənin Əmir Əmiranla Gəncəyə girməsi şərti ilə razılaşdılar. Gəncəlilər Əmir Əmiranı şəhərə buraxdılar. Gürcü qoşunları getdikdən sonra Əmir Əmiran şəhərin müsəlman əhalisini sıxışdırır, xristianlara üstünlük verirdi. Odur ki, şəhər əhalisi onu zəhərləyib öldürdülər, Əbubəkiri Gəncəyə dəvət etdilər.

Müttəfiqlərinin ölümü xəbərini alan gürcülər Gəncəyə hücum etdilər. Əbubəkr Naxçıvana geri çəkildi. Gürcülər onu təqib etməyə başladılar. Onlar Dvini aldıqdan sonra Əbubəkr gürcülərin ölkənin gürcülərinə girəcəklərindən ehtiyat edib Naxçıvandan Təbrizə getdi. Bu vaxt Xarəzmşah Tekiş Əbubəkrə məktub göndərib xəbər verdi ki, Həmədanı tərk edir və İran İraqının idarəsini ona vermək istəyir. Əbubəkr cavabında bildirdi ki, hazırda o gürcülərlə müharibə vəziyyətindədir və

Həmədana gəlmək imkanı yoxdur, öz yerinə qardaşı Özbəyi göndərir. 1210-cu ildə Əbubəkr öldü.

1221-ci ildə Xarəzmin süqutundan sonra monqol qoşunları Cəbə və Sübüqüteyin başçılığı altında Təbrizə yaxınlaşdılar. Özbək onları şəhərə buraxdı. Monqollar Təbrizdən sonra Muğan və Arana gəldilər.

Xarəzmşah Cəlaləddin monqolların ardınca Azərbaycana gəldi və 1225-ci ildə Təbrizi aldı. Özbək Gəncəyə qaçdı. Cəlaləddin Gürcüstana yürüş etdi. Tiflis üzərinə yürüşdən öncə o Beyləqan, Gəncə, Şəmkir şəhərlərini tutdu. Özbək Əlincə qalasında gizləndi. Bir neçə gündən sonra orada xəstələnib vəfat etdi. Beləliklə, 1225-ci ildə Eldəgəzlər hakimiyyətinin sonuncu nümayəndəsi Özbəyin ölümü ilə Azərbaycan Atabəylər dövləti süqut etdi.

### Ədəbiyyat:


1. Azərbaycan tarixi. 7 cilddə, 2-ci cild, s. 359-424.
2. Azərbaycan tarixi. Dərslik, s. 289-324.
3. İ.Cəbrayılov. Azərbaycan tarixi. s. 127-151.
4. Z.Bünyadov. Azərbaycan Atabəylər dövləti. Bakı, 1985.
5. Rəfiq Özdək. Türkün qızıl kitabı. 2- ci kitab. Bakı, 1993.
6. L.Qumilyov. Qədim türklər. Bakı, 1993.






# XI FƏSİL

## AZƏRBAYCAN XIII-XV ƏSRLƏRDƏ

**11.1. Monqolların və Cəlaləddinin Azərbaycana yürüşləri və Azərbaycan Atabəylər dövlətinin süqutu.** XIII əsrin başlanğıcında Mərkəzi Asiyada Çingiz xanın başçılığı altında çox güclü bir dövlət yaranmışdı. Çingiz xan 1206-1215-ci illərdə Tanqut dövlətini və Pekinə qədər Çini işğal etdikdən sonra qərbə tərəf yürüşə başladı. O, 1218-ci ildə Xarəzm dövlətinin sərhədinə çatdı, lakin Xarəzm üzərinə dərhal hücum etmədi.

Çingiz xan bir müddət Xarəzmlə ticarət edib Xarəzmşahlar dövlətinin gücünü öyrənməklə məşğul oldu. Kəşfiyyat işləri başa çatdıqdan sonra müharibəyə başlamaq üçün bəhanə axtardı. Bu məqsədlə Xarəzmin Otrar şəhərində monqol tacirlərinin qarət olunması təşkil edildi. Bunu bəhanə edən Çingiz xan 1219-cu ildə Xarəzmşahlar dövləti üzərinə hərbi yürüşə başlayaraq Otrar, Ürgənc, Buxara və Səmərqənd şəhərlərini tutdu.

Xarəzmşah Məhəmməd İrana qaçdı. Çingiz xan kəşfiyyat məqsədilə qərb istiqamətində sərkərdələr Cəbə, Şübüqütey (Subutay) və Toqaqarının başçılığı altında üç tümən ordu göndərdi. (Hər tüməndə 10 min nəfər döyüşçü olurdu). Monqol orduları Məhəmməd şahı təqib etməyərək qərbə istiqamət aldılar. Onların məqsədi Ön Asiya, Qafqaz və Şərqi Avropanı öyrənib Volqa boyu ilə geri qayıtmaq və kəşfiyyatın nəticələri haqqında Çingiz xana məlumat vermək idi.

Xarəzmşah Məhəmməd Bəlx şəhərinə çatdıqda, artıq monqol süvariləri onu ötüb keçərək Nişapura çatmışdılar. Məhəmməd şah Qəzvin şəhərinə getdi və sonra Xəzər dənizinin

cənub sahilinə yaxın adalardan birinə gedib gizləndi. O, 1220-ci ildə orada öldü və Xarəzmşahlar taxtına oğlu Cəlaləddin keçdi.

Monqol orduları İranın Səbzəvar şəhərinə çatanda sərkərdə Toqaqarın qızdırma (malyariya) xəstəliyindən öldü, onun ordusu Cəbə və Sübüqütey arasında bölüşdürüldü. Monqol atlıları İranı talan edib 1220-ci ilin payızında Azərbaycan torpaqlarına daxil oldular. Monqol orduları Təbrizə yaxınlaşanda Atabəylər dövlətinin sultanı Özbək müqavimət göstərməyib, şəhəri tərk edərək qaçdı. Monqollar Təbriz əhalisindən çoxlu xərac alıb qışlamaq üçün Muğana gəldilər.

1221-ci ildə monqollar Gürcüstana getdilər, sonra isə yenidən Təbrizə qayıtdılar. Təbriz şəhərinin darğası Şəmsəddin Tuğrayi bu dəfə də xərac verməklə əhalini qarət olunmaqdan xilas etdi. Həmin ilin martın 4-də monqol orduları Marağa şəhərini döyüşlə aldılar. Şəhər əhalisi müqavimət göstərdiyi üçün tamamilə qılıncdan keçirilirdi. Monqollar Marağanı qarət edib dağıtdıqdan sonra, Ərdəbil və Sarab şəhərlərini tutub qarət etdilər. Avqust ayında isə Beyləqan şəhəri monqollar tərəfindən tutuldu. Şəhər əhalisi müqavimət göstərdiyi üçün Marağa kimi Beyləqan şəhəri də yerlə - yeksan edildi. Sonra monqol orduları Gəncə üzərinə yürüş etdilər. Gəncə əhalisi xərac verməklə canını qurtardı. Monqollar Kür çayı sahilində qışlayıb, 1222-ci ilin yazında Şamaxı şəhərini döyüşlə alıb, əhalisini qırdılar. Monqol qoşunları Dərbəndə yaxınlaşanda Dərbənd hakimi Şirvanşah I Gəstaşibin qardaşı Rəşid xərac verməklə şəhəri talan olunmaqdan qurtardı. Monqollar Dərbənd şəhərinə girmədilər. Onlar Rəşiddən 10 nəfər bələdçi alıb Qafqaz sıra dağlarının aşırımını keçərək Şimali Qafqaza getdilər və orada alanların, qıpçaqların və onların köməyinə gəlmiş rus knyazlarının qoşunlarını darmadağın etdilər. Sonra isə monqol orduları Xəzər dənizinin şimalından keçərək Orta Asiyaya qayıtdılar.





Monqollar keçib getdikdən sonra, 1225-ci ildə Xarəzmşah Cəlaləddin Azərbaycana gəldi. Özbək bu dəfə də qorxub qaçdı. Təbriz şəhəri darğa Şəmsəddin Tuğrayinin başçılığı altında müqavimət göstərsə də Cəlaləddin şəhəri tuta bildi. Cəlaləddin özünü Azərbaycanın sultanı elan etdi. Naxçıvana qaçmış sultan Özbəyin arvadı Mehrican xatun Cəlaləddinə ərə gəlməklə uşaqlarının varislik hüququnu təmin etdi. Cəlaləddin Marağa və Xoy şəhərlərini də aldı və monqollar tərəfindən dağıdılmış Marağanı bərpa etdirdi. Bununla o, özünü yerli əhaliyə xeyirxah kimi göstərməyə çalışırdı.

Cəlaləddin Gəncəni də ələ keçirdi. Şirvanşahlar dövləti isə ondan vassal asılılığına düşdü. Sultan Cəlaləddinin hakimiyyəti, Şirvanşahlar dövləti istisna olmaqla, bütün Azərbaycanı, o cümlədən indiki Ermənistanı və Gürcüstanın bir hissəsini əhatə edirdi. Dövlətin paytaxtı Təbriz şəhəri idi. Sultanın ikinci iqamətgahı Gəncə şəhərində idi. Cəlaləddin Gürcüstanın idarə olunmasını qardaşı Qiyasəddinə tapşırmışdı, Azərbaycanı isə vəziri Şərəf əl-Mülk ilə birlikdə özü idarə edirdi.

Sultan Cəlaləddin qarətçilikdə monqollardan geri qalmırdı. Onun zülmünə qarşı Təbrizdə 1227-ci ildə Şəmsəddin Tuğrayinin başçılığı altında üsyan qalxdı. Üsyan yatırıldı və Şəmsəddin edam edildi. 1231-ci ildə Gəncədə üsyan baş verdi. Üsyana sənətkar Bəndər başçılıq edirdi. Üsyançılar şəhər hakimini öldürüb hakimiyyəti ələ aldılar. Cəlaləddin özü Gəncə üzərinə yeridi. Bəndərin üsyançı dəstələri şəhərdən çıxıb Cəlaləddinin ordusu ilə döyüşə girdilər. Lakin yaxşı silahlanmış və təlim görmüş orduya ciddi müqavimət göstərə bilmədilər. Üsyan yatırıldı. Cəlaləddin üsyan iştirakçılarına amansız divan tutdu.

1231-ci ildə monqolların Azərbaycana ikinci yürüşü başladı. Cəlaləddin Azərbaycanı tərk edib Kürdüstana getdi və Diyarbəkr yaxınlığında təsadüfi ölümlə, bir çobanın dəyənəyilə ömrünü başa vurdu.

Monqollar 1235-ci ilə qədər Cənubi Azərbaycanı tutub, Şimali Azərbaycana gəldilər və 1239-cu ilədək Gəncə, Şamaxı

və Dərbəndi tutub Azərbaycanın işğal olunmasını başa çatdırdılar.

**11.2. Azərbaycan Elxanilər dövlətinin tərkibində.** 1254-cü ildə Çingiz xanın nəvəsi böyük Monqol xaqanı Müngə xaqanının qardaşı Hülaku xan başda olmaqla 12 tümən (120 min nəfərlik) monqol ordusu Orta Asiyadan İran ərazisini keçməklə qərbə tərəf yürüşə başladı və Azərbaycanı tutdu. Hülaku xan 1258-ci ildə xəlifə əl- Möhtəsinin ordusunu məğlub edib Bağdadı tutdu. Abbasilər sülaləsindən olan sonuncu xəlifə əl-Möhtəsim edam edildi, Abbasilər sülaləsinin 508 il davam edən hakimiyyətinə son qoyuldu.

Hülaku xan bütün Azərbaycan da daxil olmaqla böyük bir dövlət yaratdı. Hülaku dövləti Orta Asiyadan Aralıq dənizinə qədər, Dərbənddən İran körfəzinə qədər böyük bir ərazini əhatə edirdi. Hülaku dövlətinin paytaxtı öncə Marağa, sonra isə Təbriz olmuşdur. Hüvaku dövləti ilə Şərqi Avropada mövcud olan qüdrətli Qızıl Orda dövləti arasında daim mübarizə gedirdi. Azərbaycan bu iki monqol sülaləsinin mübarizəsinin döyüş meydanına çevrilmişdi. Qızıl Ordanın Azərbaycana beş dəfə yürüşü nəticəsində ölkəmizin təsərrüfat həyatı acınacaqlı hala salınmışdı.

Hülakular dövlətində hökmdar titulu "elxan" adlanırdı. Ona görə də monqolların Azərbaycanda yaratdıqları dövlət tarixdə Elxanilər adı ilə tanınır. Elxanilər dövlətində Hülakular sülaləsi dövləti idarə etmək üçün divan yaratmışdı. Monqollar ağır vergilərlə əhalini, demək olar ki, qarət edirdilər. onlar əhalidən "xərac" - torpaq vergisi, "qopçur" – can vergisi, "tağar" – qoşun xərci, "ixracat" – monqol əyanları üçün toplanan vergi, "rüsum" – elxanın arvadları üçün toplanan vergi, "tamğa" – tacir və sənətkarlardan toplanan vergi, "bac" – daxili ticarət üçün vergi (bu vergi şəhər darvazalarının yanında, körpülərdə gömrükxana işçiləri tərəfindən başqa şəhərlərə satmaq üçün mallardan tutulurdu), "avaris" – müxtəlif təyinatlı təcili xərcləri ödəmək məqsədilə dövlət və feodallar tərəfindən





toplanan vergi və s. 40-dan çox adda vergi toplamaqla ölkənin təsərrüfat həyatını müflisləşmə səviyyəsinə çatdırmışdılar. Vergi siyasəti ilə bağlı olaraq 1254-cü ildə 10 yaşdan 60 yaşa qədər bütün kişilərin siyahıya alınması keçirilmişdi.

Azərbaycan xalqı monqolların vergi siyasətinə qarşı müxtəlif formalarda etirazını bildirirdi. Belə etiraz formalarından biri kəndlilərin və sənətkarların kütləvi surətdə öz yurd-yuvalarını tərk edib dağlara qaçmaları idi. XIII əsrin ikinci yarısında monqolların zülmünə qarşı üsyanlar da baş vermişdi. Üsyanlar Şirvan və Təbriz bölgələrində daha geniş vüsət almışdı. Tarixçi Rəşidəddinin məlumatına görə hətta Abaqa xan Arana ova getdiyi zaman üsyançılar ona hücum etmişdilər. Yalnız Qazan xanın üsyançılara qarşı amansız tədbirləri nəticəsində 1301-ci ildə bütün üsyanlar yatırıldı.

Monqolların ağır vergi siyasətinə etiraz hərəkatının nəticəsində xəzinəyə daxil olan vəsait azalmışdı. Hülaku hökmdarı Qazan xan (1295-1304) xəzinənin gəlirlərinin azalmasının qarşısını almaq məqsədilə 1303-cü ildə torpaq sahibkarlığı, kəndlilərin vəziyyəti, vergi siyasəti, ölçü və çəki sistemləri, pul və islam dini ilə bağlı bir sıra islahatlar keçirdi.

Torpaq sahibkarlığı islahatı divan torpaqlarının iqta hüququ əsasında sərkərdələrə və əskərlərə əkin sahəsi kimi paylanması ilə səciyyələnirdi. İqta sahibləri dövlətə vergi vermir, yalnız "xass" adlanan özəl mülklər idarəsinə müəyyən qədər taxıl verirdilər.

Kəndlilərin vəziyyəti ilə bağlı Qazan xanın verdiyi fərmana görə son 30 il ərzində öz yurd-yuvalarını qoyub qaçmış kəndlilər geri qayıtmalı idilər. Fərmana əməl etməyənləri ağır cəza gözləyirdi. Qazan xanın bu fərmanı Azərbaycanda təhkimçilik hüququnun tətbiqi barədə ilk cəhd idi. Lakin bu fərmanla Qazan xanın Azərbaycanda təhkimçilik sistemi yaratmaq cəhdi baş tutmadı. Fərman rəsmən ləğv edilməsə də, faktiki olaraq həyata keçirilmədi, necə deyərlər "öz əcəli ilə öldü". Bütün İslam ölkələrində olduğu kimi Azərbaycanda da

təhkimçilik hüququnu tətbiq etmək mümkün olmadı. Qeyd etmək lazımdır ki, İslam dininə görə bütün insanlar bərabərdirlər, deməli şəxsən azaddırlar. Kəndlilərin feodaldan asılılığı istifadə etdikləri torpaqla bağlı idi, yəni əslində iqtisadi asılılıq idi. Ona görə də İslam dininin hakim olduğu bütün ölkələrdə, o cümlədən Azərbaycanda heç vaxt təhkimçilik hüququ olmamışdır.

Qazan xanın vergi islahatına görə vergilərin toplanmasının icarəyə verilməsi məhdudlaşdırıldı. Vergilərin miqdarı və toplanması müddətləri tənzimləndi. Qazan xanın islahatları ilə ölçü və çəki sistemləri nizama salındı, ölkə üzrə eyni ölçü və çəki vahidləri qəbul edildi. Ölkədə vahid rabitə sistemi yaradıldı. Bütün əsas yollarda hər 3 fərsəxdən bir (fərsəx 21 km-ə bərabərdir) "yam"lar - rabitə dayanacaqları yaradıldı və karvansaralar tikildi. Dövlət sənədləri, məktublar və baratlar bir yamdan digərinə ötürülməklə ünvanına çatdırıldı.

İnzibati-ərazi bölgüsü islahatına görə Elxanilər dövləti vilayətlərə, vilayətlər isə tümənlərə bölünürdü. Azərbaycan vilayəti 9 tümənə bölünmüşdü. Tümənlər hərbi və inzibati-ərazi vahidləri idilər.

Qazan xanın islahatları sırasında din ilə bağlı islahatlar xüsusi əhəmiyyətə malik idi. Qazan xanın özü İslamı qəbul etdi. İslam Elxanilər dövlətinin dövlət dininə çevrildi. Qazan xandan başlayaraq Elxanilər dövləti, monqol sülalələrinin hakimiyyətdə olduğu digər dövlətlərdən fərqli olaraq, İslam dəyərlərinə hörmət edən dövlət oldu.

Elxanilər dövlətində monqol sülalələrinin nümayəndəli arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Hakimiyyət tez-tez bir əldən başqa ələ keçirdi. XIV əsrin ortalarında Elxanilər dövlətində vəzir Şeyx Həsən Çobani və onun qardaşı Məlik Əşrəf Azərbaycan Elxaniləri adından dövləti idarə edirdilər. Onlar faktiki olaraq Hülaku sülaləsindən olan elxanları hakimiyyətdən uzaqlaşdırıb Çobanilər dövlətini yaratmışdılar. Ona görə də Qızıl Orda xanı Canıbəy





Azərbaycana yürüş edərək ölkəni tutdu və 1357-ci Çobani əmiri Məlik Əşrəfi edam etdirdi.

Canıbəy getdikdən sonra Cəlairi əmiri Şeyx Uveys 1358-ci ildə Cəlairilər dövlətinin əsasını qoydu. Onun 1359-cu ildə Təbrizi tutub özünü sultan elan etməsi ilə Hülakular dövlətinə son qoyuldu. Azərbaycanda Elxanilər dövlətini Cəlairilər sülaləsinin hakimiyyəti əvəz etdi. Sultan Əhmədin hakimiyyəti dövründə Muğan və Aran da Cəlairilər dövlətinə qatıldı.

**11.3. Şirvanşahlar (Dərbəndilər) dövləti.** Azərbaycanın şimal torpaqlarında Elxanilərin hakimiyyəti şərti xarakter daşıyırdı. Bu dövrdə Kəsranilər sülaləsindən olan Şirvanşah Huşəngin siyasətindən əhali çox narazı idi. 1382-ci ildə Şirvanın kiçik feodalları üsyan qaldırıb Huşəngi öldürdülər. Üsyançılar hakimiyyətə Məzyədilər sülaləsindən olan və vaxtı ilə Dərbənd hakimi olmuş İbrahimi gətirdilər. I İbrahim adı ilə Şirvanşahlar dövlətinin taxtına oturdulan yeni hökmdar çox ağıllı adam idi. Onun xalq arasında böyük nüfuzu və hörməti var idi. I İbrahimin dövründə Şirvanşahlar dövləti xeyli gücləndi.

I İbrahimin hakimiyyəti dövründə, 1386-cı ildə Qızıl Orda xanı Toxtamış Azərbaycana hücum etdi. Lakin Əmir Teymurun Azərbaycan üzərinə yürüşə başlaması haqqında xəbər tutan kimi Toxtamış xan tutduğu yerləri qarət edərək, böyük qənimət ilə geri qayıtdı. Əmir Teymur Təbrizi tutduqdan sonra Şirvanşah I İbrahim qiymətli hədiyyələrlə Teymurləngin hüzuruna getdi və onun hakimiyyətini qəbul etdi. Əmir Teymur Şirvandan əlavə Qəbələ və Dərbəndin idarə olunmasını da I İbrahimə tapşırdı. Beləliklə, Qəbələ və Dərbənd də Şirvanşahlar dövlətinin tərkibinə qatıldı.

Əmir Teymur Gürcüstanı və indiki Ermənistan ərazisini tutduqdan sonra Naxçıvana gəldi. O, Naxçıvanı tutdu, lakin Əlincə qalasını ala bilmədi. Əlincə qalası 4 il mühasirədə qaldıqdan sonra təslim oldu. Bu dövrdə yalnız Qarabağ və Talışın əlçatmaz dağlıq əraziləri Əmir Teymurun hakimiyyətindən kənarda qalıb öz müstəqilliklərini saxlaya bilmişdilər. Bir qədər

sonra Əmir Teymura arxalanan Şirvanşah I İbrahim Qarabağı da tutaraq öz dövlətinə qatdı.

1405-ci ildə Əmir Teymurun vəfatından sonra, onun varislərinin hakimiyyəti dövründə Şirvanşah I İbrahimin əl-qolu açıldı. O, bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirmək siyasəti yeritdi, lakin buna nail ola bilmədi.

I İbrahimdən sonra Şirvanşahlar taxtına onun oğlu I Xəlilüllah oturdu. I Xəlilüllah Qarabağda düşərgə salmış Əmir Teymurun nəvəsi Şahruxun yanına getdi. O, Şahrux ilə qohumluq əlaqəsi yaratmaqla teymurilərin dəstəyinə nail oldu. Bu isə Qaraqoyunlu hökmdarı İskəndərin xoşuna gəlmədi. Qaraqoyunlu İskəndər şah 1434 və 1437-ci illərdə iki dəfə Şirvana hücum edib Şamaxı şəhərini xarabazara çevirdi. 1460-cı ildə Ərdəbil hakimi Şeyx Cüneyd Şirvana hücum etdikdə isə Şirvanşah I Xəlilüllah Qaraqoyunlu Cavanşahla birləşib Samur çayının sol sahilində Qıpçaq kəndi yaxınlığında baş verən döyüşdə Ərdəbil hakiminin 10 min nəfərlik qoşununu məğlub etdi, Şeyx Cüneyd isə öldürüldü.

1465-ci ildə I Xəlilüllahın ölümündən sonra Şirvanşah taxtına onun oğlu Fərrux Yasar oturdu. O, hakimiyyətinin ilk illərində ata və babasının Əmir Teymur və onun nəsli ilə yaxın əlaqə saxlamaq ənənəsini pozaraq, daha qüdrətli dövlət olan Ağqoyunlu dövləti ilə yaxınlaşdı. O, öz bacısını Ağqoyunlu Yaqub şaha ərə verməklə onlarla qohumlaşdı. Lakin Ağqoyunluların müttəfiqi və qohumları Ərdəbil hakimi Şeyx Cüneydin oğlu Şeyx Heydər də Dağıstana hərbi yürüş zamanı Şamaxıya hücum etdi. Yaqub şah qaynı Fərrux Yasarın köməyinə qoşun göndərib Şeyx Heydəri məğlub etdi. Döyüşdə Şeyx Heydər yaralanıb öldü. Beləliklə, Şirvanşahlar dövlətinin müstəqilliyi qorunub saxlandı.

**11.4. Qaraqoyunlu dövləti.** XIII əsrdə monqollarla birlikdə Azərbaycana oğuz türk soylarından qaraqoyunlular da gəlmişdilər. Qaraqoyunlu soyları öz adını daşıdıqları bayrağın rəmzindən almışdılar. Qaraqoyunlu soyları Cənubi Azərbaycanın qərb hissəsində və indiki Türkiyənin şərq torpaqlarında məskunlaşmışdılar. Qaraqoyunlu soy ittifaqının başçısı Bayram Xoca idi. 1380-ci ildə onun vəfatından sonra Qaraqoyunluların başçısı Qara Məhəmməd olur. O, Van gölü ətrafındakı torpaqları öz hakimiyyəti altında birləşdirib kiçik hökmdarlıq yaradır. Onun ölümündən sonra qaraqoyunluların hakimi oğlu Qara Yusif olur. Qara Yusif torpaqlarını Əmir Teymurun hücumlarından qorumaq üçün Təbrizi özünə paytaxt etmiş Cəlairilər dövləti ilə ittifaq bağlayır. 1392-ci ildə müttəfiqlərin qoşunu Əmir Teymurun ordusu ilə döyüşdə məğlubiyyətə uğrayır. Qara Yusif Kürdistandan cənuba tərəf çəkilməli olur. 1394-cü ildə Bağdad yaxınlığında Qara Yusif və onun müttəfiqi Əhməd Cəlairi ikinci dəfə Əmir Teymur tərəfindən məğlubiyyətə uğradılır. Onlar Əmir Teymura qarşı yeni ittifaq bağlamaq üçün Misirə gedirlər. Lakin Misir sultanı nəinki onların ittifaq təklifini qəbul etmir, hətta Əmir Teymurun qəzəbindən qorxaraq onları həbs etdirib zindana saldırır. Onlar yalnız 1405-ci ildə Əmir Teymurun vəfatından sonra zindandan çıxdılar.





Zindandan çıxdıqdan sonra Sultan Əhməd Cəlairi öncə Bağdadı sonra isə Təbrizi tutub öz hakimiyyətini bərpa etdi. Qara Yusif isə Kürdüstandan şimalda yerləşən öz torpaqlarını geri ala bildi. Tezliklə teymurilərdən olan Əbubəkr Sultan Əhmədi məğlub edib Təbrizi tutdu. Sultan Əhməd qaçaraq canını qurtara bildi. Qara Yusif onun köməyinə gəldi, 1408-ci il aprelin 21-də Təbriz yaxınlığındakı döyü°də Əbubəkrin ordusunu məğlubiyyətə uğratdı. Döyüşdə Azərbaycanın hökmdarı təyin olunmuş Əmir Teymurun oğlu Miran şah da öldürüldü. Sultan Əhməd Təbrizə qayıdıb yenə də Cənubi Azərbaycanda hakimiyyətini bərpa etdi.

Qara Yusifin dəstəyi ilə hakimiyyətini bərpa etmiş Sultan Əhməd qaraqoyunluların güclənməsindən qorxuya düşərək, onlara qarşı düşmənçiliyə başladı. Sultan Əhmədin dönüklüyündən xəbər tutan Qara Yusif Təbriz üzərinə yeriyərək 1410-cu il avqustun 30 da Təbriz yaxınlığındakı döyüşdə Sultan

Əhməd üzərində qələbə çalıb Təbrizi aldı, öz dövlətinin paytaxtı etdi və Qaraqoyunlu dövlətini yaratdı.

Şirvanşah I İbrahim oğlu Keyumərsin başçılığı altında Qara Yusifin üzərinə qoşun göndərdi. Qara Yusif Şirvanşah qoşunları üzərində qələbə çalıb Keyumərsi əsir aldı. Şah I İbrahim Şəki və Kaxetiya hökmdarları ilə Qara Yusifə qarşı ittifaq bağladı. Qara Yusif güclü süvari qoşunla Kür çayı sahilinə gəldi və 1412-ci il noyabrın 6-da həlledici döyüşdə müttəfiqlər üzərində parlaq qələbə çalıb şah I İbrahim ilə birlikdə Kaxetiya çarını və Şəki hökmdarını da əsir aldı. Şah I İbrahim can bahası ödəməklə azad edildi. Şirvanşahlar dövləti Qaraqoyunlu dövlətindən asılı vəziyyətə düşdü.

Qara Yusifin vəfatından sonra Qaraqoyunlu hökmdarı onun oğlu Qara İskəndər, daha sonra Cahanşah oldu. Qara İskəndər Şirvanşah I Xəlilüllah və Orta Asiya ilə İranı özünə tabe edə bilmiş Əmir Şahrux ilə uzun sürən müharibələr etməli oldu. İskəndərin ölümündən sonra Şahrux Cahanşahı özündən asılı vəziyyətə sala bilmişdi. Bu asılılıq Şahruxun sarayına hər il hədiyyələr göndərməklə məhdudlaşırdı. 1435-ci ildə Şahruxun ölümündən sonra Cahan şah müstəqilliyini bərpa edə bildi.

**11.5. Ağqoyunlu dövləti.** Qaraqoyunlu dövlətindən qərbdə Diyarbəkir, Mərdin və ətraf torpaqlarda oğuz türk soylarından ağqoyunlu soyları yaşayırdılar. Ağqoyunlu soy ittifaqının bayrağında ağ qoç rəmzi vardı. Ağqoyunlu sülaləsinin baniləri olan Bayandurlar sülaləsinin nümayəndələri Bizans və Trabzon yunan sarayları ilə qohumluq əlaqələrilə bağllı idilər.

XV əsrin 60-cı illərində daxili çəkişmələr nəticəsində Qaraqoyunlu dövləti xeyli zəifləmişdi. Xalq kütlələrinin maddi vəziyyəti ağırlaşmışdı, ölkədə narazılıq artmışdı. Bundan da ağqoyunlular istifadə edərək Azərbaycanda hakimiyyəti ələ keçirmək fəaliyyətinə başladılar. Ağqoyunlu sülaləsi Əmir Teymur və teymurilər ilə sıx əlaqə saxlayırdı. Bu əlaqələr Şahruxun hakimiyyəti illərində daha da möhkəmlənmişdi. Teymuri Şahrux ağqoyunlulardan qaraqoyunluları öz





tabeliyində saxlamaq üçün istifadə edirdi. Ağqoyunlu hökmdarı Qara Osman Yuluq (1394-1494) qaraqoyunlular Təbriz yaxınlığında teymurilərlə qarşı-qarşıya gələn zaman arxadan qaraqoyunlular üzərinə hücum edib Ərzincan və Sivasi ələ keçirməklə teymurilərə kömək etmişdi.

Ağqoyunlu sülaləsinin görkəmli nümayəndəsi istedadlı sərkərdə və dövlət xadimi Uzun Həsən (1453-1478) olmuşdur. 1453-cü ildə hakimiyyət başına gələn Uzun Həsən qaraqoyunlu qoşunlarını məğlub edib tarixi Ermənistanı və Kürdüstanı tutur. Qərbdə torpaqlarını itirən Qaraqoyunlu Cahanşah şərqə tərəf torpaqlarını genişləndirərək İranın Xəzər sahili torpaqlarını tutur. 1459-cu ildə Cahan şah teymurilərlə hərbi ittifaq bağlayıb ağqoyunluları ənənəvi müttəfiqlərindən ayırmağa nail olur.

Ağqoyunluların güclənməsi qaraqoyunlularla bərabər Osmanlı türklərini də narahat edirdi. Bu dövrdə Osmanlı Sultanı II Mehmet Fateh geniş işğallara başlamış, 1453-cü ildə Bizansın paytaxtı Konstantinopolu tutmuşdu.

Şərqdən Cahanşahın, qərbdən isə II Mehmetin istilaları ağqoyunluların vəziyyətini mürəkkəbləşdirirdi. Uzun Həsən qaraqoyunluların daxili çəkişmələrindən istifadə edərək öncə onların üzərinə hücuma başladı. Onların arasında həlledici döyüş 1467-ci ildə Muş düzündə baş verdi. Bu döyüşdə qaraqoyunlu ordusu darmadağın edildi və qaraqoyunlu dövlətinin mövcudluğuna son qoyuldu. Onun torpaqları ağqoyunluların əlinə keçdi.

Cahanşahın varisləri Qaraqoyunlu dövlətini bərpa etməyə cəhd göstərdilər. Onlar Xorasan hakimi Teymuri Əbu Səidlə ağqoyunlulara qarşı ittifaq bağladılar. Əbu Səid böyük qoşunla ağqoyunlular üzərinə hərəkət edərək Xəzərin cənub-qərbində Mahmudavar kəndi ilə Qızılağac kəndi arasında düşərgə saldı. O, Şirvanşah Fərrux Yasarın ona qoşulacağına ümid bəsləyirdi. Lakin Fərrux Yasar ona qoşulmadı, Uzun Həsənlə ittifaqa girdi. Ərdəbil hakimi Şeyx Cüneyd də ağqoyunlulara qoşuldu. Əbu Səid çox gözlədi, Qaraqoyunlu qoşunları da gəlib onunla

birləşmədilər. Bundan istifadə edən, Uzun Həsən və onun müttəfiqləri Əbu Səidin ordusunu mühasirəyə alıb darmadağın etdilər. Əbu Səid əsir alındı və öldürüldü.

Uzun Həsən 1468-ci ildə Təbrizə daxil olub Ağqoyunlu dövlətinin yaradılmasını elan etdi. Azərbaycanın yeni dövləti olan Ağqoyunlu dövlətinin ərazisi Şirvan dövləti və Ərdəbil şeyxlərinin torpaqları istisna olmaqla, bütün Azərbaycanı, o cümlədən Cənubi Azərbaycanı, Naxçıvanı, İrəvanı, Qarabağı, Gəncəni və Talışı, habelə Şərqi Türkiyəni, Gürcüstanı, və indiki İranın mərkəzi hissəsini və şimalını əhatə edirdi. Ağqoyunlu dövlətinin paytaxtı Təbriz şəhəri idi.

Görkəmli dövlət xadimi Uzun Həsənin daxili siyasətinin əsasını yaratdığı dövlətin bütövlüyünü qorumaq təşkil edirdi. O, yerli feodal hakimləri öz ətrafında birləşdirməyə çalışır, ruhanilərlə sıx əlaqə saxlayır, İslam dinindən geniş xalq kütlələrini itaətdə saxlamaq üçün məharətlə istifadə edirdi.

Uzun Həsən xarici siyasətində qonşu ölkələrlə və Avropa dövlətləri ilə diplomatik münasibətlər yaratmağa xüsusi fikir verirdi. Bu işdə ona anası Sara xatun fəal kömək edirdi. Sara xatunu Azərbaycanın ilk diplomat qadını hesab etmək olar. Ağqoyunlu döblətinin Avropanın xristian dünyası ilə əlaqələri Trabzon yunan dövlətindən başlayır. Ağqoyunlu hökmdarı Uzun Həsən sülalə qohumları Trabzon sarayı vasitəsi ilə Qərb dövlətlərilə diplomatik əlaqələr yaratmışdı. Osmanlı sultanı II Mehmet 1453-cü ildə Konstantinopolu tutduqdan sonra Qərb dövlətlərinin ağqoyunlularla əlaqələri genişləndirməkdə marağı artmışdı. Osmanlı imperiyasına qarşı səlib yürüşü təşkil etməyi irəli sürən Roma papaları II Kaliket (1455-1458), II Piy (1458-1464) və II Pavel (1464-1471) Osmanlı imperiyasına qarşı mübarizə üçün onun bütün düşmənlərindən istifadə etməyə çalışırdılar. Bu məqsədlə ilk növbədə Ağqoyunlu sarayı ilə danışıqlar aparılırdı.

Ağqoyunlu-Roma papası-Trabzon ittifaqına gürcü knyazları da qoşulmaq istədilər. Gürcüstanın nümayəndələri 1458- ci





ildə Romaya getdilər, lakin Romanın zəifliyini və qətiyyətsizliyini görüb geri qayıtdılar. Osmanlı sulatı isə daha qəti hərəkət etdi, 1461-ci ildə hücüm edib Trabzonu tutdu.

Ağqoyunlu sarayı köhnə müttəfiqi Trabzonu itirdikdən sonra Qərbi Avropa ilə əlaqələrini daha da genişləndirməyə başladı. Ağqoyunluların ən geniş əlaqələri osmanlıların əsas düşmənləri olan Venesiya ilə idi. Uzun Həsən Roma papası və Venesiyadan əlavə Kipr krallığı və səlibçilərin Rodos ada dövləti ilə də Osmanlı sultanlığına qarşı danışıqlar aparırdı.

Uzun Həsən 1464-1469-cu illərdə şərqdə bir çox dövlətləri özünə tabe edib qüdrətli imperiya yaratdıqdan sonra, Osmanlı sultanlığının başının Avropada müharibələrə qarışmasından istifadə edərək, ona qarşı müharibəyə hazırlaşmağa başladı. Uzun Həsən müharibəyə hazırlıq ərəfəsində Avropa ilə münasibətləri nəzərə alaraq, yerli xristian əhaliyə dövlət qayğısını artırdı. Xristian əhali ilə münasibətlərdə Uzun Həsənin arvadı, Trabzon şahzadəsi Despina xatun fəal rol oynayırdı. Uzun Həsən Ərdəbil şeyxləri olan Səfəvilər ilə də ittifaqı möhkəmlətmək üçün şiə təriqətinin təqib olunmasını qadağan etdi. O, bacısı Xədicə bəyimi Şeyx Cüneydə ərə verməklə Səfəvilər ilə qohumluq münasibətləri yaratdı. Sonra isə qızı Martuzə bəyimi Şeyx Cünetdin oğlu Şeyx Heydərə ərə verməklə bu qohumluğu təzələdi (Martuzə bəyim Səfəvilər sarayında Aləmşah xanım adını daşıyırdı).

Uzun Həsən Avropa müttəfiqləri ilə razılığa gəlib 1472-ci ilin yazısında Osmanlı sultanlığına qarşı müharibəyə başladı. Ömər bəyin başçılığı altında Ağqoyunlu ordusu Bitlisdən hücuma başlayıb avqust ayında Toqqat şəhərini aldı. Ağqoyunlu dövləti tərəfindən müharibədə Qaraman şahzadələri Pir Əhməd və Qasım bəy, həmçinin Anadolunun bir sıra keçmiş kiçik dövlətlərinin hökmdarları da iştirak edirdilər. Mirzə

Yusif xanın başçılığı altında ağqoyunluların ikinci ordusu hücumu davam etdirərək Qeysəriyə, Ağsaray və Ağsəhəri tutub Qaraman ərazisinə daxil oldular.

Osmanlı Sulatını II Mehmet şahzadə Mustafanın başçılıq etdiyi orduya geri çəkilmə əmri verdi. Ağqoyunlu ordusu Qaraman dövlətini tutduqdan sonda Aralıq dənizi sahilinə çıxdı. Müttəfiqlərlə razılaşmaya əsasən Ağqoyunlu ordusu burada sahilə çıxdıqda Venesiya şəhər dövləti Geniya gəmiləri ilə ona odlu silah və topçu mütəxəssislərdən ibarət kömək göndərilməli idi. Lakin özgə əli ilə Osmanlı imperiyasını zəiflətmək istəyən Qərb dövlətləri ağqoyunlulara heç bir kömək göstərmədilər. Sultan II Mehmetin əmri ilə şahzadə Mustafanın 60 min nəfərlik ordusu hücuma keçib Mirzə Yusif xanın ordusu üzərində qələbə çaldı və Qaramanı geri aldı. Ağqoyunlu ordusunun qalıqları geri qayıtdı. Sultan II Mehmet Şah Uzun Həsənə xəbər göndərdi ki, 1473-cü ildə onun üzərinə yürüş edəcəkdir.

1472-1473-cü ilin qışında hər iki tərəf ciddi surətdə müharibəyə hazırlaşdı. 1473-cü ilin iyul ayında ağqoyunlu ordusu Osmanlı ordusunun hücumunu gözləmədən hücuma keçdi. Uzun Həsən Qərb müttəfiqlərindən kömək almaq ümidilə yenə də Aralıq dənizi sahillərinə çıxmağa can atırdı. Sultan II Mehmet isə onu Anadolunun şərqində qarşılamağı qərara aldı. 1473-cü il avqustun 1-də Fərat çayı sahilində Malatyadan bir qədər aralı iki böyük ordu arasında qanlı döyüş baş verdi. Uzun Həsən hərbi sərkərdəlik məharəti sayəsində qalib gəldi, Osmanlı ordusuna topdan istifadə etmək imkanı vermədi.

Sultan II Mehmet tələsik İstanbula tərəf geri çəkilməyə başladı. O, qorxurdu ki, Qərbdəki düşmənləri bu məğlubiyyətdən xəbər tutub, hücum edərək İstanbulu geri alarlar. Uzun Həsənin ordusu II Mehmetin ordusunu təqib edir, lakin açıq yerdə yeni döyüşə girmirdi. Çünki osmanlıların toplarla yaxşı silahlanmış yeniçəri ordusu açıq meydanda daha





güclü idi. Ərzincanla Ərzurum arasında Ucaqızlı dərəsində ağqoyunlular osmanlı ordusunu mühasirəyə alıb hücum etdilər. Sultan II Mehmet sərkədəlik məharəti göstərib mühasirəni yara bildi və orduusunu Tərcan vadisində Otluqbeli adlı təpəliyə çıxara bildi. Burada açıq yerdə avqustun 11-də şiddətli döyüş getdi. Ağqoyunlu ordusu üstünlüyü ələ alıb qələbə çalmaq məqamında ikən II Mehmet yeniçərlərin topçu dəstəsini döyüşə buraxdı. Toplar döyüşün taleyini həll etdi. Ağqoyunlu ordusu məğlub oldu. Otluqbeli döyüşü ilə 1472-1473-cü illər Ağqoyun - Osmanlı müharibəsi qurtardı. Hər iki tərəf öz əvvəlki mövqelərinə qayıtdı və heç bir sərhəd dəyişikliyi baş vermədi.

Uzun Həsən və onun oğlu Yaqub şahın vəfatından sonra Ağqoyunlu dövləti zəiflədi. 1499-cu ildə Ağqoyunlu dövləti iki hissəyə parçalandı. Şah Əlvənt Mirzənin Ağqoyunlu dövlətinə Azərbaycan torpaqları, Murad şahın Ağqoyunlu dövlətinə isə Əcəm İraqı (İran) və Ərəb İraqı (Bağdad) daxil idi.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi. 7 cilddə, 3-cü cild, Bakı, 1999, s. 14-107.
2. Azərbaycan tarixi. Dərslik, s. 322-391.
3. A.Ализаде. Социально-экономическая и политическая история Азербайджана в XIII – XIV вв. Баку., 1956.
4. С.Ашурбейли. Государство Ширваншахов (VI - XVI). Баку, 1983.
5. C.İbrahimov. Qaraqoyunlu dövləti. Bakı, 1948.
6. Y.Mahmudov. Azərbaycan diplomatiyası. Bakı, 1996.
7. Я. Махмудов. Взаимоотношения государства Аккоюнлу и Сефевидов с европейскими странами во второй половине XV - начале XVII вв., Баку, 1991.

# XII FƏSİL

## AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ

**12.1. Səfəvilərin Ərdəbil hakimiyyəti.** Azərbaycanşünaslıq ideologiyası baxımından Azərbaycanın dövlətçilik tarixində Səfəvilər dövlətinin xüsusi yeri vardır. Şimallı-cənublu, şərqli-qərbli bütöv Azərbaycanı birləşdirən Səfəvilər dövləti xalqımızın ən böyük və qüdrətli milli dövləti olmuşdur.

Səfəvilər dövlətini yaratmış sülalənin banisi Şeyx Səfiəddin İshaq olmuşdur. Səfəvilər sülaləsinin etnik mənşəyi haqqında müxtəlif fikirlər vardır. Görkəmli şərqşünas alim akademik V.Bartold tarixi qaynaqlar əsasında Şeyx Səfiəddinin türk mənşəli olması fikrini söyləmişdir. Digər rus alimi professor İ.Petruşevski də Səfəvilərin türk mənşəli olması fikrini dəstəkləmişdir.

Dərviş Təvəkkül ibn İsmayıl ibn Bəzzadın XIV əsrin ikinci yarısında tərtib edilmiş "səffat və əs-səfa", ("saflığın saflığı") əsərində Səfəvilərin əcdadlarının ərəb mənşəli seyidlər nəslindən, yəni Məhəmməd Peyğəmbərin nəslindən olmaları haqqında məlumat vardır. Tədqiqatçılar, o cümlədən İran tarixçisi Əhməd Kəsrəvi Təbrizi belə bir fikirdədirlər ki, dərviş Təvəkkülün əsərinin əlyazması müxtəlif dəyişikliklərə uğramış, saxtalaşdırılmışdır və Səfəvilərin nəsil şəcərəsini sonralar Səfəvi tarixçiləri uydurub onun əsərinin mətninə daxil etmişlər. Ə.Kəsrəvi şeyx Səfiəddinin ərəb mənşəli olmadığını sübut etdikdən sonra onun türk mənşəli olmasına da şübhə edir və kürd mənşəli olması ehtimalını irəli sürür. Digər İran tarixçiləri S.Rəhimzadə və N.Şeybani Ə.Kəsrəvinin dəlillərinin zəifliyinə əhəmiyyət verməyərək, onun ehtimalını gerçəklik kimi qələmə





verirlər. Bu konsepsiyada İran müəllifləri istisnalıq təşkil etmirlər, Türkiyə müəllifi Zəki Vəlidi Toqan da Səfəvilərin mənşəyinə həsr olunmuş məqaləsində onların kürd mənşəli olmalarını əsaslandırmağa cəhd göstərir. Zəki Toqan belə ehtimal edir ki, Şeyx Səfiəddinin əcdadları və onun mənəvi hamisi olan Şeyx Zahidin əcdadları Rəvvadilərin hərbi yürüşləri zamanı Diyarbəkirdən Gilana və Ərdəbilə gəlmişlər. Sonralar, XIV əsrin əvvəlinə qədər Ərdəbil kürd şeyxinin nəsli tədricən türkləşmişdir. Lakin Səfəvilər sülaləsinin əzəldən kürd mənşəli olması haqqında ehtimal mötəbər mənbələrin məlumatlarına əsaslanmır.

"Səffat əs-Səfa"da Şeyx Səfinin "piri - türk" ("türkün piri") adlandırılması isə Səfəvilərin İran dilli etnosa mənsub olması fikrini sübut etməyə çalışanları maraqlandırmır. Bu baxımdan Şeyx Səfiəddinin fars əyaləti olan Şirazda öz müridləri ilə söhbətlərindən bəhs edən hekayədə ona dəfələrlə türk kimi müraciət olunması çox səciyyəvidir. Beləliklə, Şeyx Səfiyyəddinin türk etnosuna mənsub olması haqqında akademik V.Bartoldun fikri gerçəkliyə daha çox uyğundur və tarixdə heç bir şübhə doğura bilməz. Əlbəttə, sırf "təmizqanlı" millət olmadığı kimi, tarixdə "təmizqanlı" sülalələr də yoxdur. Şeyx Səfiəddini mənşəcə talış hesab edilən məşhur Azərbaycan filosofu Şeyx Zahid ilə qohumlaşması, Şeyx Cüneydin Ağqoyunlu şahı Uzun Həsənin bacısı ilə, Şeyx Heydərin isə şah Uzun Həsənin qızı ilə evlənməsi, Ağqoyunlu hökmdarlarının, bir ənənə olaraq, yunan mənşəli Trabzon imperator sarayının şahzadə qızları ilə evlənmələri nəticəsində Səfəvilər sülaləsinin nümayəndələri də müxtəlif etnosların qarışması prosesində daha da sağlam olmuş və kamilləşmişdir.

Səfəvilər sülaləsi Azərbaycan və İran tarixində uzun və şərəfli yer tutur. Bu sülalənin nümayəndələri 1736-cı ilə qədər 400 ildən çox, öncə Ərdəbil şeyxi – hökmdarı, sonra isə səfəvilər dövlətinin hökmdarları kimi hakimiyyətdə olmuşlar.

Səfəvilər sülaləsinin şəcərəsi 18 nümayəndə ilə təmsil olunmuşdur:

1. Şeyx Səfiəddin İshaq (1252-1334);
2. Şeyx Sədrəddin Musa (1334-1392);
3. Şeyx Xacə Əli (1392-1427);
4. Şeyx İbrahim (1427-1447);
5. Şeyx Cüneyt (1447-1460);
6. Şeyx Heydər (1460-1488);
7. Şeyx Sulatanəli (1488-1494);
8. Şeyx – Şah I İsmayıl (1494-1524);
9. Şah I Təhmasib (1524-1576);
10. Şah II İsmayıl (1576-1578);
11. Şah Məhəmməd Xırdabəndə (1578-1587);
12. Şah I Abbas (1587-1629);
13. Şah Səfi (1629-1642);
14. Şah II Abbas (1642-1666);
15. Şah Süleyman (1666-1694);
16. Şah Hüseyn (1694-1722);
17. Şah II Təhmasib (1722-1732);
18. Şah III Abbas (1732-1736);

Sülalənin banisi Şeyx Səfiəddin ictimai-siyasi fəaliyyətinə "Səfəviyyə" adlı dini orden yaratmaqla başlamışdır. Səfəviyyə ordeninin ideoloji əsası öncə İslam dininin sünni təriqəti olmuşdur. Şeyx Səfiəddin İshaq ilahiyyat elmlərini Şirazda Rüknəddin Reyzavi və Əmir Abdulladan öyrənmişdir. Əmir Abdullanın məsləhəti ilə Şeyx Səfiəddin Talışa gəlir və burada XIII əsrin görkəmli Azərbaycan alimi Şeyx Zahid Gilani ilə görüşür. Filosof Şeyx Zahidin məqbərəsi Lənkəran şəhərinin Şıxakəran kənd qəbristanlığındadır. Şeyx Zahidi özünə mürşid seçən Şeyx Səfiəddin, onun qızı ilə evlənir və öz dini ordeninin ideoloji əsası kimi İslam dininin şiyəlik təriqətini seçir. O, şiəliyi Azərbaycan, İran, İraq və qismən də Orta Asiyada təbliğ etməklə qısa müddətdə böyük nüfuz qazanır və Ərdəbili Səfəviyə ordeninin mərkəzinə çevirir.





Səfəviyyə ordeni xalqın ədalətli şah haqqında arzularına əsaslanaraq, şəriət qanunları ilə nəzərdə tutulmayan hədsiz vergilərə qarşı çıxır, XV əsrin ortalarına qədər xalqın antifeodal hərəkatına başçılıq edirdi. Bu dövrə qədər Ərdəbil şeyxləri kimi tanınan Səfəvilərin hakimiyyəti dini hakimiyyət olmuşdur. Şeyx Cüneyddən başlayaraq Səfəvilər həm də dünyəvi hakimiyyət uğrunda mübarizə aparırlar.

Qaraqoyunlu hökmdarı Cahanşah Şeyx Cüneydin nüfuzunun artmasından və qüvvətlənməsindən ehtiyat edərək ondan öz dövlətinin ərazisini tərk etməyi tələb edir. Şüyx Cüneyd başına topladığı 20 min nəfərlik süvari ilə 1447-1453-cü illərdə Şərqi Türkiyədə, Ərəbistanda və Diyarbəkrdə gəzib dolanır. Qaraqoyunlular ilə mübarizə edən Ağqoyunlu hökmdarı Uzun Həsən Şeyx Cüneydin hərbi qüvvəsindən istifadə etmək məqsədilə onu öz düşərgəsinə dəvət edir. Şeyx Cüneyd buna həvəslə razı olur. O, Ağqoyunlu şahı Uzun Həsənin bacısı Xədicə bəyimlə evlənir və Ərdəbilə qayıdır. Bu vaxt Ərdəbilin hakimi Şeyx İbrahimin oğlu Şeyx Cəfər idi. O, sünni təriqətinə qayil idi. Şeyx Cəfər Şeyx Cüneydi Ərdəbilə buraxmır. Lakin Uzun Həsən Ərədəbilə gəlib onu şəhərin hakimliyindən kənar edir və şeyx Cüneydi 1459- cu ildə Ərdəbilin hakimi təyin edir.

Şeyx Cüneyd 1459-cu ildə Ağqoyunlu müttəfiqlərinin dəstəyinə arxalanaraq, "kafir" çərkəzləri müsəlman etmək adı altında Dağıstana hərbi yürüş edir və xeyli qənimət ələ keçirərək qışlamaq üçün Qarabağa qayıdır. Şeyx Cüneydin bu yürüşündən narahat olan Şirvanşah I Xəlilullah ona xəbər göndərir ki, bu yerlərə bir daha gəlməsin. Şeyx Cüneyd bu xəbərdarlığa əhəmiyyət vermir və 1460-cı ildə yenə də Şirvanşahlar dövlətinin ərazisindən keçərək Dağıstana yürüş edir. Şirvanşah I Xəlilullah Qaraqoyunlulardan kömək alıb Səfəvilərə qarşı müharibəyə başlayır. 1460-cı il martın 3-də Samur çayı sahilində baş verən döyüşdə Səfəvi qoşunları məğlub olur və döyüdə Şeyx Cüneyd həlak olur, onun müridləri isə Ərdəbilə qayıdırlar.

Şeyx Cüneydin siyasətini Şeyx Heydər davam etdirdi. O, dayısı Uzun Həsən qızı Martuza bəyimlə, yaxud Marta ilə evlənli. (Sonra Martuzənin adı dəyişdirildi və Aləmşah xanım adlandırıldı). Beləliklə, Səfəvilər Ağqoyunlu sarayı ilə ittifaqı daha da möhkəmlətdilər. Digər tərəfdən 1478-ci ildə Uzun Həsənin vəfatından sonra onun oğlu Yaqub şah Şirvanşah Fərrux Yasarın bacısı ilə evləndiyindən, bu qohumluq əlaqələri daha da genişləndi. Bu qohumluq əlaqələrindən istifadə edən Şeyx Heydər 1483-cü ildə Şirvanşah torpağından sərbəst keçərək Dağıstana yürüş etdi. Həmin yürüş nəticəsində çoxlu qənimət əldə etmiş Şeyx Heydər 1894-cü ildə onu ikinci dəfə təkrar etdi. Dağıstana hərbi səfərlər nəticəsində əldə etdiyi vəsait Şeyx Heydərə Səfəvi ordusunu yenidən qurub möhkəmlətməyə imkan verdi.

Səfəvi ordusunun döyüşçüləri başlarına, 12 şiə imamının şərəfinə 12 qızılı- qırmızı zolaqlı parçadan hazırlanmış çalma qoyurdular. Məhz buna görə Səfəvi ordusu "Qızılbaş" ordusu, döyüşçüləri isə "qızılbaşlar" adlandırıldı. Beləliklə, Şeyx Heydər ordunun geyimi ilə şiəlik təbliğatını bir qədər də genişləndirdi.

Şeyx Heydər arvadı Aləmşah xanımı Qum şəhərinə qardaşı Yaqub şahın yanına göndərərək, qaynının razılığını alandan sonra 1488-ci ildə Dağıstana üçüncü dəfə yürüş etdi. O, bu dəfə Şirvan torpağından keçərkən, Şirvanşahlar dövlətinin paytaxtı Şamaxı şəhərinin müdafiəsinin zəif olduğunu bilib şəhərə hücum etdi. Qəflətən yaxalanan şah Fərrux Yasar qaçıb Gülüstan qalasında gizləndi. Ağqoyunlu hökmdarı Yaqub şah Şeyx Heydərin bu hərəkətini özünə qarşı hörmətsizlik sayaraq, qaynı Fərrux Yasarın köməyinə yaxşı təlim görmüş 4 min süvaridən ibarət nizami qoşun göndərdi. Dərbəndi mühasirə etmiş Şeyx Heydər Ağqoyunlu ordusunun Fərrux Yasarın köməyinə gəlməsindən xəbər tutub, mühasirədən əl çəkdi və geriyə Tabasarana qayıtdı. Birləşmiş Ağqoyunlu və Şirvanşah orduları ilə Səfəvilərin "Qızılbaş" ordusu arasında bir neçə gün





döyüş getdi və nəticədə "qızılbaşlar" məğlub oldular. Son döyüşdə Şeyx Heydər həlak oldu. Onu Həzrə kəndində dəfn etdilər.

Bu hadisədən sonra Yaqub şah Şeyx Heydərin oğlanları Sultanəli, İbrahim və İsmayılı anaları ilə birlikdə həbs edib Şiraz şəhəri yaxınlığındakı İstəxri – Fars qalasında zindana saldırdı. Şeyx Heydərin əmlakı müsadirə edildi.

1490-cı ildə Yaqub şah anası Şahxatunun dərman əvəzinə səhvən verdiyi zəhəri içməklə vəfat etdi. Hakimiyyətə onun oğlu Baysunqur keçdi. O, da Şahxatunun xahişinə baxmayaraq, bibisini və bibisi oğlanlarını zindandan azadlığa buraxmadı. Lakin 2 il sonra, 1492-ci ildə Baysunqur əmisi oğlu Rüstəm tərəfindən taxtdan devrildi. Rüstəm özünü şah elan etdi və Şeyx Heydərin ailəsini zindandan azad edərək, onun böyük oğlu Sultanəlini Ərdəbilə hakim təyin etdi.

Hakimiyyətdən devrilmiş Baysunqur Şamaxıya dayısı Fərrux Yasarın yanına qaçdı. Şirvanşah Fərrux Yasar 1493-cü ildə Ağqoyunlu şahı Rüstəmə qarşı müharibəyə başladı. Rüstəm şahın Şirvanşah ordusuna qarşı göndərdiyi qoşuna Sultanəli başçılıq edirdi. Fərrux Yasarın qoşunları Bərdə yaxınlığındakı döyüşdə məğlub edildi, döyüşdə Baysunqur da həlak oldu. Bərdə döyüşündə Ağqoyunlu ordusu tərəfindən "qızılbaş" dəstələri xüsusilə fərqlənmişdilər. Qələbədə Sultanəlinin sərkərdəlik məharəti də az rol oynamamışdı. Odur ki, qalib ordu Təbruzə qayıdan zaman şəhər əhalisi Sultanəlini şahlara layiq təntənə ilə qarşıladı. Sultanəlinin şöhrətinin artmasından narahat olan Rüstəm şah Şeyx Heydərin oğlanlarını aradan götürməyi qərara aldı. O, İbrahim və İsmayılın tərbiyəsi ilə özünün şəxsən məşğul olmaq istəyi adı ilə onları Təbrizə şah sarayına gətirtdi. Onun tapşırığı ilə Şeyx Sultanəlinin qardaşları böhtanlanıb edam edilməli idilər. Sarayda Səfəvilərə rəğbət bəsləyən bir nəfər şahın niyyətindən xəbər tutub bunu Şeyx Sultanəliyə çatdırdı. Şeyx Sultanəli bir dəstə yaxın adamları ilə birlikdə gizlicə Təbrizə gəlib qardaşlarını saraydan qaçırır.

Sarayda şeyx Sultanəlinin qardaşlarının qaçırıldığından xəbər tutulduqda, Rüstəm şah onların tutulması üçün 5 min nəfərlik atlı göndərir. Sultanəli təqib olunduğunu bildiyinə görə heç yerdə dayanmadan özünü tez Ərdəbilə yetirir. Şeyx Sultanəli müridləri yığıb qardaşı İsmayılı varis təyin etdiyini bildirir və ailəsinin etibarlı yerdə gizlədilməsi üçün tapşırıqlar verir. Özü isə şah qoşununu müəyyən qədər yubatmaq üçün 700 atlı ilə onlara qarşı döyüşə gedir. Qeyri bərabər döyüşdə Şeyx Sultanəli və onun "qızılbaşları" qəhrəmancasına həlak olurlar.

Ərdəbil şeyxinin müridləri İbrahim və İsmayılı etibarlı yerdə gizlədir, sonra isə gizli yol ilə Gilan vilayətinin Biyəpiş mahalına göndərirlər. Mahal hakimi Mirzə Əli Şeyx İsmayıl və onu müşayiət edən 80 müridi Lahicanda yerləşdirdi. Mirzə Əli öz fəxri qonağına böyük hörmət göstərərək onun tərbiyəsi üçün əlindən gələni etdi. Ərəb-fars dilləri və Qurani-Kərimi öyrətmək üçün müəllim kimi görkəmli ilahiyyat alimi Şəmsəddin Lahıci dəvət olundu. İsmayıl və onun qardaşı üçün yaxşı tərbiyəçilər ayrıldı. Tərbiyəçilərdən Hüseyn bəy Lələ, Dədə bəy Talış, İlyas bəy Xınıslı və Xadim bəy Xülafə Şeyx İsmayılın tərbiyəsi ilə məşğul olub onu bacarıqlı döyüşçü, görkəmli sərkərdə və gələcək dövlət xadimi kimi hazırladılar.

**12.2. Azərbaycan Səfəvilər dövlətinin yaranması və genişlənməsi.** 1497-ci ildə Rüstəm şah öldükdən sonra Ağqoyunlu dövləti parçalandı. Murad şah İraqi-Ərəb, İraqi-Əcən, Fars və Kirmanın hökmdarı oldu. Cənubi Azərbaycan, Qarabağ, Naxçıvan və indiki Ermənistandan ibarət olan digər Ağqoyunlu dövlətinin şahı isə 1498-ci ildən Əlvənd oldu. Səfəvilərə düşmən olan şah Əlvənd Ərdəbilə Əli bəy adlı birini hakim təyin etdi. 1498-ci ildə 12 yaşlı Şeyx İsmayıl ətrafına topladığı 300 nəfər mürid ilə Ərdəbilə qayıtmaq istədi. Lakin Əli bəy onları şəhərə buraxmadı. Şeyx İsmayıl öz müridləri ilə qayıdıb Talışa gəldi. Talış hakimi Məhəmməd onları indiki Astara rayonunun Ərçivan kəndində yerləşdirdi. Onlar bir il burada qaldılar. Şirvanşah Fərrux Yasar Məhəmmədə 1000





tümən qızıl pul təklif etdi ki, Şeyx İsmayılı tutub ona versin. Məhəmməd bu təklifi rədd edərək bildirdi ki, qonaq "Allah qonağı" hesab edilər. Ona görə də qonağı qorumaq hər bir müsəlmanın müqəddəs borcudur. Şah Əlvəndin isə göndərdiyi cəza dəstəsinin başçısı Qasım bəy Şeyx İsmayılın təslim olunmasını tələb etdikdə, "Qurana" əl basıb and içdilər ki, onun ayaqları Talış torpağında yoxdur. Belə ki, Şeyx İsmayılı iri bir zənbilə qoyub sıx yarpaqlı bir ağacdan asmışdılar. Ona görə də sonralar, həmin ağacın olduğu kənd Şahağac kəndi adlandırıldı.

Şeyx İsmayılın dəstəsi 1499-1500-cü ilin qışını Talış və Muğanda keçirdi. Bu vaxt onun dəstəsində artıq 1500 nəfər mürid və "qızılbaş" döyüşçüsü vardı. Yaxın müridlərin və əmirlərin məsləhəti ilə Şeyx İsmayıl 1500-cü ildə Qarabağa, oradan Gəncə, Göyçə, İrəvan, Şoragöl, Mingöl, Kağızman, Pərcan, Sarıqaya və nəhayət Ərzincana getdi. Burada onun bayrağı altında şamlı, rumlu, ustaclı, təkəli, zülqədər, əfşar, qacar, varsaq soylarından, həmçinin Talış və Qaradağ sufilərindən ibarət 7 mindən çox "qızılbaş" qazısı birləşmişdi. Buradan o, Ərdəbilə gəldi.

Şeyx İsmayıl Azərbaycanın bütün torpaqlarını birləşdirib vahid Azərbaycan dövləti yaratmağı qarşısına məqsəd qoymuşdu. Azərbaycanın vahid dövlət halında birləşdirilməsi tarixi zərurət idi. Feodal pərakəndəliyi ölkənin ayrı-ayrı bölgələri arasında sabit təsərrüfat əlaqələrinin yaranmasına və məhsuldar qüvvələrin inkişafına mane olurdu. Əhalinin vəziyyəti ağırlaşmış, ölkədə mədəni həyat tənəzzül etmişdi. Feodal pərakəndəliyi ticarətin inkişafına mane olurdu. Tacirlər saysız-hesabsız feodal sərhədlərini keçərkən gömrük vergiləri ödəməli idilər. Odur ki, tacirlər də güclü mərkəzləşmiş dövlətin olmasını arzu edirdilər. Orta və xırda torpaq sahibləri də iri feodalların özbaşınalığından əziyyət çəkirdilər. Onlara da mərkəzləşmiş və güclü dövlət lazım idi. Əkinçilərin, maldarların və sənətkarların narazılıqları ölkədə tez-tez üsyanlar baş verməsilə nəticələnirdi. Üsyançılar çox vaxt dini bayraq altında çıxış edirdilər. Nəhayət,

xarici hücumlardan qorunmaq ehtiyacı da güclü mərkəzləşmiş hakimiyyətin yaranmasını tələb edirdi. Bütün bunlar Şeyx İsmayıla Azərbaycanı vahid dövlət halında birləşdirməyə şans verirdi.

Vahid Azərbaycan uğrunda mübarizədə Şeyx İsmayılın üç əsas düşməni var idi: Şirvanşah Fərrux Yasar, Ağqoyunlu şahı Əlvənd və Ağqoyunlu şahı Murad. Qaynaqların məlumatına görə Ərdəbilə gəlməmişdən öncə Şeyx İsmayılın Ərzincanda keçirdiyi müşavirədə vahid Azərbaycan dövləti yaratmaq məqsədilə ilk zərbəni Səfəvilərin sülalə düşməni olan Şirvanşah Fərrux Yasara endirmək qərara alınmışdı.

1500-cü ilin payızında 14 yaşlı Şeyx İsmayıl Şirvanşahlar dövləti üzərinə hücuma keçdi. Şah Fərrux Yasar Şamaxını tərk edərək, qoşun toplamaq üçün Qəbələyə çəkildi. Şamaxı şəhərinin əhalisi də qorxuya düşüb dağlara qaçmışdı. Şeyx İsmayıl Qulu adlı elçisi vasitəsilə şamaxılılara xəbər göndərdi ki, evlərinə qayıtsınlar, heç kəsə toxunulmayacaqdır. Əhali şəhərə qayıtdı. “Qızılbaş” ordusu iki gün Şamaxı şəhərində qaldı.

Şeyx İsmayıl xəbər tutdu ki, şah Fərrux Yasar böyük bir qoşun toplayıb Gülüstan və Qəleybuğurd qalaları arasındakı meşədə düşərgə salmışdır. Tarixçilərdən İskəndər Münşi, Həsən Rumlu və Xantemirin yazdıqlarına görə Fərrux Yasarın ordusunda 20 min süvari və 6 min piyada vardı. “Qızılbaş” ordusu isə 7 min süvaridən ibarət idi. Oktyabr ayının 20-də Çabanı adlı yerdə qanlı döyüş baş verdi və Şirvanşah ordusu məğlub oldu. Şah Fərrux Yasar qaçmaq istədikdə öldürüldü.

Şeyx İsmayıl qışı Muğanda keçirmək üçün Mahmud-avar kəndinə gəldi. 1501- ci ilin yazında “Qızılbaş” ordusu Məhəmməd bəy Ustaclı və İlyas bəy Xınıslının başçılığı altında Şirvanşahların ikinci igamətgahı və xəzinəsi yerləşən Bakı üzərinə hücum etdi. Onlar Bakı qalasının təslim olmasını tələb etdilər. Bakı qalasının hakimi Fərrux Yasarın oğlu Qazı bəy qardaşı Bəhram bəy ilə birlikdə dağlarda Səfəvilərə qarşı





müqaviməti davam etdirmək məqsədilə Qəleybuğurd qalasına çəkilmişdilər. Bakının müdafiəsinə Qazı bəyin arvadı Bibixanım başçılıq edirdi. O, şəhərin təslim edilməsi təklifini qəti surətdə rədd etdi. Həsən bəy Rumlunun yazdığına görə Bibixanım qalanın təslim edilməsi təklifini gətirən Səfəvi elçisinin edam olunmasını əmr etdi. Bakının darğası Əbülfət bəy onu bu addımdan çəkindirməyə cəhd göstərdikdə Bibixanım onun da edam olunmasını əmr etdi. Şeyx İsmayıl Bakı qalasına hücuma rəhbərlik etmək üçün özü bura gəldi. “Qızılbaşlar” çətinliklə də olsa, qala divarlarının altından lağım ataraq Bakıya daxil oldular. Şəhər ağsaqqallarından 70 nəfər əllərində müqəddəs “Quran” Şeyx İsmayıldan aman istədilər. Şeyx İsmayıl yalnız 1000 tümən qan bahası alıb şəhər əhalisini bağışladı. Şeyx İsmayıl Şirvanşahların xəzinəsini ələ keçirdi və Şirvanşahlar dövlətini asılı vəziyyətə salan müqavilə bağladı.

Şeyx İsmayılın növbəti hədəfi Ağqoyunlu şahı Əlvənd oldu. Şeyx İsmayıl Kür çayını keçərkən onun üzərindən körpü saldırdı. Şah Əlvənd “qızılbaşları” qabaqlayıb onlara qəflətən zərbə endirmək üçün sərkərdə Qaraca Mahmudun başçılığı altında qoşun göndərdi. Lakin Cavad kəndi yaxınlığında “qızılbaşlara” qəflətən hücum edən Ağqoyunlu ordusu məğlubiyyətə düçar oldu və sərkərdə Qaraca Mahmud öldürüldü. Şah Əlvənd “qızılbaşların” üzərinə sərkərdə Osman bəyin başçılığı altımda ikinci ordu göndərdi. Bu ordu da Naxçıvan yaxınlığında sərkərdə Piri Halvaçı oğlunun başçılıq etdiyi “qızılbaş” ordusu tərəfindən məğlub edildi, sərkərdə Osman isə əsir alınıb öldürüldü.

Şah Əlvənd Şərur düzündə düşərgə salmış Səfəvi ordusuna qarşı 30 min nəfərlik yeni qoşun göndərdi. Lakin Ağqoyunlu ordusunun döyüşçüləri vahimə içində idilər. Onlar “qızılbaşların” hücuma keçməsindən xəbər tutan kimi cəbhəni qoyub vahimə içində qaçırdılar. Vahiməyə düşmüş döyüşçülər qaçmasın deyə, şahın əmri ilə dəvələri zəncirlə bir-birinə bağlayaraq qoşunun ətrafına üç tərəfdən çəpər çəkildi. Şahın bu

tədbiri də kömək etmədi. Ağqoyunlu ordusu 8 min döyüşçüsünü itirərək məğlub oldu. Şah Əlvənd ordunun qalıqları ilə Ərzincana qaçdı.

Şərur qələbəsindən dərhal sonra, 1501-ci ilin payızında Şeyx İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi, adına xütbə oxutduraraq sikkə kəsdirdi. Beləliklə, Səfəvilər dövləti yarandı. Səfəvilər dövləti ilk vaxtlar Azərbaycanın Şirvan, Qarabağ, Naxçıvan, Talış, Muğan və Qızıl Üzən çayına qədər Cənubi Azərbaycan torpaqlarını əhatə edirdi.

Lakin siyasi vəziyyət Şah İsmayılın qarşısında daha geniş vəzifələr qoydu. Səfəvi ordusu Şərur döyüşündən sonra Ərzincana qaçmış Əlvəndi təqib edərək Sarıqaya adlı yerdə yenidən məğlubiyyətə uğratdı. Əlvənd Bağdada qaçdı və sonra Diyarbəkrə gedərək, 1504-cü ildə orada vəfat etdi.

Şah İsmayıl 1503-cü ilin payızında Qənbər ağa adlı bir müridini Əlvəndin qardaşı Murad şahın yanına göndərib itaət etməsini tələb etdi. Məktubda Səfəvilərlə Ağroyunluların qohumluq əlaqələrini xatırladan Şah İsmayıl Muradın onun hakimiyyətini tanıdığı təqdirdə İraqi-Əcəmin bir hissəsini ona təklif edirdi. Murad məktuba mənfi cavab verdi və Qum hakimi Asılmaz ilə ittifaqa girib Həmədanda 70 min nəfərlik böyük qoşun topladı. Belə olduqda Şah İsmayıl 12 min nəfərlik süvari ordu ilə Qızıl Üzən çayını keçərək Həmədana doğru irəlilədi. 1503-cü il iyunun 21-də Həmədan yaxınlığındakı Almabulağı adlı yerdə Şah İsmayılın ordusu ilə Murad şahın ordusu arasında döyüş baş verdi. Sayca üstün olmasına baxmayaraq Ağqoyunlu ordusu məğlub oldu, Fars və İraqi-Əcəmin böyük bir hissəsi Səfəvi dövlətinə qatıldı. Ağqoyunlu dövlətinə son qoyuldu. Murad Şiraza qaçdı. Şah İsmayıl özünü babası Uzun Həsənin qanuni varisi hesab edir və dövlətini Ağqoyunlu sərhədləri daxilində bərpa etməyə çalışırdı. O, 1503-cü ildə Şirazı, İsfahanı, Kaşanı və Qumu tutdu. Şah İsmayıl 1504-cü ildə Yəzdi ələ keçirdi, sonra qərbə doğru hərəkət edərək 1506-





1507- ci illərdə Suriyə sərhədlərinə çıxdı və Uzun Həsənin vətəni Diyarbəkri ələ keçirdi. 1508-ci ildə isə Bağdadla birlikdə bütün İraqi-Ərəbi tutdu. Şah İsmayıl 1510-cu ildə Xorasan istisna olmaqla bütün müasir İranı Səfəvilər dövlətinə qatdı. Bu istilaları ilə Şah İsmayıl mərkəzləşdirilmiş böyük Azərbaycan Səfəvilər dövlətini yaratdı.

Şah İsmayıl böyük fateh idi. K.Marksın dediyi kimi o, 14 ildə 14 ölkəni tutdu. Şah İsmayılın istilaçılıq siyasəti iki əsas rəqiblə qarşı-qarşıya gəldi: onlardan biri şərqdə - güclü özbək hökmdarı Məhəmməd Şeybani, digəri qərbdə əzəmətli Osmanlı imperiyası idi.

Hələ 1508-ci ildə Məhəmməd xan Şeybani Xorasana hücum etdikdə Xorasan hakimi Hüseyn Baykal şah İsmayıldan kömək istəmişdi. O vaxt Şah İsmayıl Kiçik Asiyada müharibə etdiyi üçün ona kömək edə bilmədi. Şeybani Məhəmməd xan Xorasanı tutub Şah İsmayıla hədələyici məktub göndərmişdi. Məktubda deyilirdi: “Yaxşı olar ki, sən də babaların kimi dərvişlik edəsən. Yoxsa İrana və Azərbaycan sərhədlərinə qoşun çəkərəm, Hicaza qədər bütün ərazini tutaram.” Şah İsmayıl ona belə bir cavab məktubu yazmışdı. “Məsləhətlərin üçün çox sağ ol. Mən həqiqətən dərvişliyi çox sevirəm. Allah qoysa yaxın vaxtlarda öz "qızılbaşlarımla” birlikdə İmam Rzanın qəbrini ziyarət etmək üçün Xorasanın Məşhəd şəhərinə gələcəyəm. Söhbətimizi orada davam etdirərik.”

Lakin Şah İsmayılın Xorasana yürüşü bir qədər ləngidi. O, kiçik Asiyadan sonra, 1509-cu ildə Şirvana gəlməli oldu. Səfəvilərin vassalı olan Şiranşah Fərrux Yasarın oğlu Şeyxşah Şah İsmayıla tabe olmaqdan imtina etmişdi. Şah İsmayıl öncə Bakıya gəldi və burada mehribanlıqla qarşılandı. Sonra Şamaxı şəhərini tutub Dərbəndə getdi. Dərbənd şəhəri də Şamaxı kimi müqavimət göstərdi. Səfəvi ordusu qala divarları altından 12 yerdən lağım atıb şəhərə daxil oldu. Şirvanın şəhərləri tutulduqdan sonra Şah İsmayıl sərkərdəsi Lələ bəyi Şirvana hakim təyin edib. 1510-cu ilin qışında Təbrizə qayıtdı.

1510-cu ilin sonunda Şah İsmayıl Şeybani Məhəmməd xana qarşı yürüşə başladı. Səfəvi qoşunları hələ Xorasanda olarkən Şeybani Məhəmməd xan paytaxtı Herat şəhərini tərk edib, qoşun toplamaq üçün Mərv şəhərinə getdi. Şah İsmayıl yaxşı möhkəmləndirilmiş Mərv qalasına hücum etmədi, şəhərin 10 km.- liyindəki Mahmudi kəndində düşərgə saldı. Şah İsmayıl hərbi taktika işlədərək 1510-cu il dekabrın 2- də Şeybani Məhəmməd xanı Mərv şəhəri yaxınlığındakı düzəngahda döyüşə cəlb edə bildi. Mərv döyüşündə Şah İsmayıl qalib gəldi, Şeybani Məhəmməd xan öldürüldü.

Mərv qələbəsi nəticəsində Şah İsmayıl Xorasan vilayətindən əlavə Mərv, Herat və Bəlx şəhərlərini əhatə edən Şeybanilər dövlətinin ərazisinin bir hissəsini tutub Amu-Dərya çayına çatdı. İndi Səfəvilər dövlətinin sərhədləri şərqdə Amu-Dərya çayından qərbdə Fərat çayına qədər, cənubda İran körfəzindən şimalda Dərbənd şəhərinə qədər böyük bir ərazini əhatə edirdi.

Şah İsmayıl yaxşı başa düşürdü ki, Səfəvilər dövləti tez-gec qərbdə Osmanlı imperiyası ilə toqquşacaqdır. Şah İsmayıl Osmanlı sultanlığı ilə müharibədən çəkinirdi. Onu bu müharibədən çəkindirən türk ordusunda topların olması idi. O vaxt türk topları bütün Avropanı qorxudurdu. Səfəvi ordusunda isə heç bir odlu silah yox idi. Şah İsmayıl hələ 1505-ci ildən Venetsiya və digər Avropa dövlətləri ilə Osmanlı imperiyasına qarşı ittifaq bağlamaq üçün danışıqlar aparırdı. Bu danışıqlarda əsas məqsəd odlu silah əldə etmək idi. Lakin Səfəvilər odlu silah əldə edə bilməmişdilər.

Osmanlı sultanlığında da Səfəvilər dövlətinə qarşı müharibəyə ciddi hazırlıq gedirdi. Lakin Sultan II İldırım Bəyazid tərəddüd edirdi. Onun tərəddüdündən cana doyan hərbiçilər sultanın oğlu Səlim Yavuzu başdan çıxarıb, onun razılığını aldıqdan sonra 1512-ci ildə dövlət çevrilişi etdilər. II İldırım Bəyazidi taxtdan salıb, Səlim Yavuzu I Sultan Səlim adı ilə Osmanlı taxtına oturtdular.





Sultan Səlim dərhal bir neçə Avropa dövləti ilə Səfəvilərə qarşı ittifaq bağladı. O, gələcək müharibə zamanı Şərqi Anadoluda yaşayan şiələrin arxadan təhlükə yarada biləcəyindən ehtiyat edərək, 7 yaşından 70 yaşına qədər şiə təriqətinə etiqad edən bütün kişiləri siyahıya aldırdı və bu siyahı əsasında 40 min nəfər təşkil edən kişi cinsindən olan şiələr bir gecə ərzində öldürüldülər, ailələri isə imperiyanın Avropa qitəsində olan torpaqlarına köçürüldülər.

Sultan Səlim 1514-cü ildə təxribat məqsədilə Şah İsmayıla 4 təhqir edici məktub göndərdi. Bu məktubların məzmunu Şeybani Məhəmməd xanın məktubları ruhunda idi. Şah İsmayıl məktubların üçünə cavab vermədi. Sultan Səlim 4-cü məktubu ilə Şah İsmayıla bir nimdaş dərviş libası, bir təsbeh, bir çəlik (əsa) və qoz ağacından hazırlanmış və dərvişlərin pul yığmaq üçün istifadə etdikləri piyalə göndərir. Şah İsmayıl 4-cü məktuba cavab yazır və məktubla birlikdə Sultan Səlimə bir kiçik mücrü dolu tiryək göndərir. Məktubda yazılmışdı: "Başa düşürəm, sən də ölmək istəyirsən İnşallah arzunu ürəyində qoymaram. O ki, qaldı sənin Azərbaycana sahib olmağına, arzuna bu tiryəkdən çəkdikdən sonra, ağlın dumanlanıb, gözlərin yaşla dolanda çatarsan".

Bu məktub müharibəyə başlamaq üçün bəhanə oldu. Sultan Səlimin vəzirləri onu bu müharibədən çəkindirməyə çalışsalar da bu mümkün olmadı. Osmanlılar və Səfəvilər arasında müharibə başlandı. Osmanlı ordusunda 100 min döyüşçü və topçu dəstəsi var idi. Səfəvi ordusunda isə cəmi 20 min süvari döyüşçü vardı. Səfəvi sərkərdəsi Məhəmməd Ustaclı Şah İsmayıla məsləhət gördü ki, Osmanlı ordusu sayca çox olduğu və toplarla silahlandığı üçün hələ yolda yürüş formasında hərəkət etdiyi zaman kiçik dəstələrlə cinahlardan qəflətən hücümlar etməklə taqətdən salmaq və ordu vahimə içində olduqdan sonra baş döyüş vermək lazımdır. (Bu hərbi taktikadan hələ 474 il əvvəl məşhur səlcuq oğuz sərkərdəsi Çağrı bəy Qəznəvi Sultan Mahmudun ordusunu məğlub

edərkən istifadə etmişdi.) Şah İsmayıl yaxşı bilirdi ki, məğlub olacaq. Odur ki, o, ordunun ruh yüksəkliyini saxlamaq üçün, qələbələri Allahın adı ilə bağlandığı kimi, baş verəcək məğlubiyyəti də Allahın "istəyi"lə bağlamaq məqsədilə bu təklifi rədd edərək demişdi: "Mən karvan soyan quldur deyiləm. Qoy Allah necə bilir, elə də olsun."

1514-cü il avqustun 23-də Maku şəhəri yaxınlığında Çaldıran düzündə Səfəvi və Osmanlı qoşunları arasında böyük döyüş baş verdi. Döyüşün əvvəlində Səfəvi döyüşçüləri üstünlüyə malik idilər. Lakin döyüşün taleyini Osmanlı topları həll etdi. Qolundan və çinindən yaralanan Şah İsmayıl ordunun qalıqları ilə geri çəkilib Bağdad tərəflərə getdi.

Sultan Səlim döyüş meydanını gəzərkən öldürülmüş döyüşçülər arasında kişi paltarı geymiş çoxlu qadın meyitinə də rast gəldi. O, qadınlarının meyitlərini hörmətlə, müsəlman qaydası ilə dəfn etdirdi. Çaldıran döyüşündən sonra tutulmuş çoxlu əsirlər arasında Şah İsmayılın hərəmxanasından Bəhruzə xanım və Taclı xanım adlı iki qadın da vardı. Onlar Şah İsmayılın sevimli hərəmləri olmuşdular. Sultan Səlim Şah İsmayıla mənəvi zərbə vurmaq üçün Bəhruzə xanımı vaxtilə Şah İsmayıla həcvlər yazmış, sonra isə İstanbulda sığınacaq tapmış şair Cəfər Çələbiyə bağışladı. Taclı xanımı isə öz hərəmxanasına götürmək istədi, lakin o, tabe olmaq istəmədiyi üçün zindana atıldı.

Sultan Səlim Xoy, Mərənd və b. Azərbaycan şəhərlərini tutub Təbrizə daxil oldu. Hər yerdə Osmanlı ordusu nifrətlə qarşılanırdı. Təbriz əhalisi mülki itaətsizlik göstərdi. Bütün evlərin və həyətlərin qapıları bağlandı. Osmanlı ordusunun şəhərdə olduğu müddətdə şəhər əhalisindən heç kəs küçəyə çıxmadı, Təbriz ölü şəhərə çevrilmişdi. Sultan Səlim ciddi müqavimətə rast gəldiyi üçün Təbrizdə cəmi 9 gün qaldı və geri qayıtmaq əmri verdi. Təbrizi tərk edərkən Sultan Səlim demişdi ki, Azərbaycanı hərbi güc ilə tutmaq olar, lakin əcnəbilər zorla





onu idarə edə bilməzlər. Təbrizdən çıxan Sultan Səlim heç yerdə dayanmadan bir başa İstanbula qayıtdı.

Çaldıran döyüşü Şah İsmayılın birinci və sonuncu məğlubiyyəti oldu. O, 1515- 1516-cı illərdə 2 dəfə böyük elçilik göndərib Sultan Səlim ilə sülh bağlamaq istədi. Lakin Sultan Səlimin sərəncamı ilə elçiləri İstanbulda heç sultan sarayına belə buraxılmadılar. Odur ki, Şah İsmayıl Venetsiya, Macarıstan, Polşa, Almaniya, hətta İspaniya və Rusiya ilə danışıqlar aparıb odlu silah almağa cəhd göstərərək, Osmanlı sultanlığına qarşı müharibəyə hazırlaşmalı oldu. Bu dövlətlər ona silah satmağı vəd etsələr də öz vədlərinə əməl etmirdilər. Beləliklə, Şah İsmayılın sağlığında Səfəvi dövlətinin ordusu odlu silahla silahlana bilmədi.

Şah İsmayılın hakimiyyəti dövründə bütün Cənubi Qafqaz Səfəvilərin vassal asılılığında idi. Şah İsmayılın göndərdiyi sərkərdə Div Sultan Rumlunun başçılığı altında "qızılbaşlar" gürcü feodal hökmdarları arasında ziddiyyətlərin həll edilməsində əsas rol oynayırdılar. Bir qaynağın məlumatına görə 1519-cu ildə Təbrizdə Şah İsmayılın qış sarayında Cənubi Qafqazın feodal hökmdarlarından Şirvanşah Şeyxşahın, Şəki hakimi Həsən bəyin, Kaxetiya çarı Levanın (Ləvənd xanın) və Mesxetiya çarı IV Kvarkvarenin yerli Azərbaycan hakimlərindən rəşdli Müzəffər Sultan, gilanlı Xanəhməd və b. ilə birlikdə şahın hüzurundakı xalça üzərində oturmaları, onların Şah İsmayıla tabe olduqlarını sübut edir. Digər qaynağa görə 1521-ci ildə Gürcüstan feodal hökmdarları Ləvənd xan, Kvarkvare və David bəy Div Sultan ilə Naxçıvanda qışlayan Şah İsmayılın yanına gəlib Səfəvilərə hər il bac və xərac verməyi öhdələrinə götürürlər.

**12.3. Səfəvi – Osmanlı müharibələri. Azərbaycan Səfəvilər dövlətinin zəifləməsi və tənəzzülü.** Şah İsmayıl 1524-cü ildə 38 yaşında vəfat etdi. Onun oğlu şah I Təhmasibin hakimiyyətinin əvvəllərində ölkədə əyanların müstəqillik meylləri gücləndi. Məsələn, 1536-cı ildə Şirvanşah olmuş

Şahruxun fəaliyyətsizliyindən istifadə edən Şirvan əyanları əslində özləri hakimiyyəti idarə edirdilər. Bu da xalqın narazılığına səbəb olurdu. Şah I Təhmasib həmin əyanların müstəqillik meyllərini qırmaq məqsədilə 1538-ci ildə qardaşı Əlqas Mirzənin başçılığı ilə Şirvana 20 min nəfərlik süvari qoşun göndərdi. Əlqas Mirzə 4 aylıq mühasirədən sonra Şamaxı şəhərini ala bildi və Şirvanşah Şahruxu tutub Təbrizə göndərdi. Şirvanşahlar dövləti ləğv edildi və Səfəvilər dövlətinin əyalətlərindən birinə çevrildi. Şah I Təhmasib qardaşı Əlqas Mirzəni Şirvana bəylərbəyi təyin etdi. O, 1546-cı ildə Bakını da tutdu. Lakin Əlqas Mirzə müstəqil hökmdar olmaq məqsədilə 1547-ci ildə qardaşına qarşı qiyam qaldırdı və məğlubiyyətə uğrayıb Osmanlı imperiyasına qaçdı. Şah I Təhmasib Abdulla xanı Şirvana bəylərbəyi təyin etdi. O, 1551-ci ildə Şəkinin Səfəvilər dövlətinə tabe olmasına nail oldu.

XVI əsrin 30-cu illərində Osmanlı türklərinin hücumu ilə bir əsrdən çox davam edən Səfəvi – Osmanlı müharibələri başlandı. Öncə Ülamə bəyin başçılığı altında türk soylarından ibarət olan köçərilər. Anadoludan hücuma keçərək Təbrizi tutmağa cəhd göstərdilər, lakin məğlub olub geri qayıtmağa məcbur oldular. 1533-cü ildə isə 80 minlik Osmanlı ordusu Şah I Təhmasibin Xorasan tərəfdə özbəklərə qarşı müharibədə olmasından istifadə edərək Səfəvilər dövlətinin sərhədini keçib Təbrizi tutdu, lakin paytaxt əhalisinin kəskin müqavimətinə rast gəlib geri qayıtmağa məcbur oldu. 1534-cü ildə Osmanlı ordusu yenidən Azərbaycana hücum etdi. Bu dəfə Səfəvi ordusu Osmanlı ordusunu əzib Azərbaycandan qovdu.

15 illik fasilədən sonra, 1548-1549-cu illərdə Osmanlı qoşunlarının Azərbaycana yeni yürüşü oldu. Bu yürüşə Şah I Təhmasibin qardaşı Əlqas Mirzə başçılıq edirdi. Səfəvi ordusu Həmədan yaxınlığında Əlqas Mirzənin türk ordusunu məğlub etdi və Əlqas Mirzəni əsir alıb qardaşının yanına gətirdilər. Şah I Təhmasib xəyanət etmiş qardaşını, ömrünün axırınadək əzab çəksin deyə, Qəh-Qəhə qalasında zindana saldırdı.





1552-ci ildə Sultan Süleyman Ərzurum hakimi İskəndər paşanın başçılığı ilə Azərbaycana qoşun göndərdi. İskəndər paşa Xoy və İrəvanı tutub taladı. 1553-cü ildə isə Sultan Süleyman özü Azərbaycana hücum edib Naxçıvanı ələ keçirdi və qarət edib Ərzuruma çəkildi.

1554-cü ildə Sənan paşanın başçılığı ilə Osmanlı ordusu Azərbaycana soxuldu. Bu yürüşdə Krım xanı da iştirak edirdi. Osmanlı ordusu Səfəvi ordusu tərəfindən darmadağın edildi. Sultan Süleyman vəziri Mahmud paşa vasitəsilə sülh bağlamağı təklif etdi. 1555-ci il mayın 29-da Səfəvilər dövləti ilə Osmanlı sultanlığı arasında Amasiya sülhü bağlandı. Amasiya sülh müqaviləsinə görə tarixi Ermənistan və Gürcüstanın qərb hissəsi Osmanlı imperiyasına verildi, şərqi Gürcüstan isə Səfəvilər dövlətində qaldı. Amasiya sülhü ilə Səfəvi – Osmanlı müharibələrinin birinci mərhələsi başa çatdı.

1555-ci ildə Şah I Təhmasib paytaxtı Osmanlı sərhədindən uzaqlaşdırmaq məqsədilə Təbriz şəhərindən Qəzvin şəhərinə köçürtdü. Amasiya sülhündən sonraki fasilə zamanı Azərbaycanda təsərrüfat və mədəniyyətin inkişafı üçün müəyyən qədər şərait yarandı. Lakin 1576-cı ildə Şah I Təhmasibin vəfatından sonra hakimiyyət uğrunda onun oğlanları arasında mübarizə başladı. Nəhayət, II İsmayıl qalib gəldi. Ancaq Şah II İsmayılın hakimiyyəti uzun sürmədi. 1578-ci ildə onun qardaşı kor Məhəmməd Xüdabəndə Şah II İsmayılı öldürdü və hakimiyyəti ələ keçirdi. Məhəmməd Xüdabəndənin hakimiyyəti dövrü Səfəvi sülaləsinin hakimiyyətinin ən uğursuz dövrü oldu. Bu barədə A.Bakıxanov belə yazıb: "Kor Məhəmməd Xüdabəndə iradəcə zəif adam idi. O, ifrat dərəcədə ənam paylayırdı. Məhz ona görə də dövlətin bünövrəsinə rəxnə düşdü."

Şah Məhəmməd Xüdabəndənin hakimiyyəti dövründə Səfəvilər dövləti xeyli zəiflədi. Əmirlərin özbaşınalığı gücləndi, onların arasında daxili mübarizə başladı. Ölkədə yaranmış vəziyyətdən istifadə edərək 1578-ci il avqustun 9-da Mustafa Lələ paşanın başçılığı altında 100 min nəfərlik Osmanlı ordusu

Azərbaycana hücum etdi. Bununla da Səfəvi – Osmanlı müharibələrinin ikinci mərhələsi başlandı.

Müharibəyə başlamazdan öncə Osmanlı dövləti Azərbaycana və Şimali Qafqaza sünni missionerləri göndərərək dini təbliğat aparır və sünni təriqətini yayırdı. Osmanlı Sultanı III Murad Şirvanşahların nümayəndələrinə Şirvanşahlar dövlətinin müstəqilliyini bərpa edəcəyini vəd verirdi.

Osmanlı ordusu Gürcüstanı tutub Qanıx çayı yaxınlığında Səfəvi ordusu ilə qarşılaşdı. 50 min nəfərlik Səfəvi ordusu Osmanlı ordusunun hücumunun qarşısını ala bildi. Lakin ilk döyüşdən sonra Səfəvi əmirləri arasında baş verən çəkişmələr ordunu növbəti döyüşlər üçün təşkil etməyə imkan vermədi. Mustafa Lələ paşa Şəkini, Dərbəndi və Gəncəni tutub, Ərzuruma çəkildi. O, Azərbaycandan özü ilə 60 min nəfər əsir apardı.

Azərbaycanda Osman paşanın qoşunları və Krım xanının qardaşı Adil Gərayın qoşunları qaldılar. 1078-ci il noyabrın 20-də Ağsu çayı yaxınlığında baş verən döyüşdə Səfəvi ordusuna Şah Məhəmməd Xüdabəndənin oğlu Həmzə Mirzə başçılıq edirdi. Bu döyüşdə düşmən ordusu məğlub oldu. Adil Gəray döyüşdə öldürüldü, Osman paşa isə Dağıstana qaçdı.

1581-ci ildə Krım xanı Məhəmməd Gəray Dərbəndə gəldi və Osman paşanın qüvvələri ilə birləşdi. Onlar 2 dəfə Kür çayı sahillərinə hücum etdilər, əhalini qarət edib Dərbəndə qayıtdılar. Osman paşa Dərbəndə getsə də Osmanlı ordusunun hissələri Azərbaycanda qalmaqda davam edirdi. Bakı şəhəri də onların əlində idi. Səfəvi ordusu Bakı qalasını 18 gün mühasirədə saxlasa da ala bilmədi. Ərzağı tükənmiş ordu aclığa davam gətirməyib geri qayıtdı. Dəfələrlə qarət olunmuş Azərbaycanda aclıq baş verdiyinə görə əhali ordunu ərzaqla təmin edə bilmədi.

Səfəvilər 1586-cı ildə Rusiya ilə ittifaq yaratmağa çalışdılar. Onlar Dərbənd, Bakı və Şamaxı şəhərlərini Rusiyaya





güzəştə getməklə ondan hərbi kömək istədilər. Lakin Rusiya o vaxt buna razı olmadı.

1587-ci ildə Səfəvilər taxtına Şah I Abbas oturdu. O, 1590-cı il martın 21-də İstanbulda sülh müqaviləsi bağladı. İstanbul sülhünün şərtlərinə görə Ərdəbil və Talış istisna olmaqla bütün Azərbaycan və Gürcüstan Osmanlı sultanlığında qaldı.

Azərbaycanda Osmanlı hökmranlığı dövrü başlandı. Ölkədə Osmanlı üsul-idarəsi yaradıldı. Azərbaycan inzibati cəhətdən paşalıqlara və sancaqlara bölündü. Paşalıqları idarə edən Osmanlı paşaları əhalini qarət edirdilər. Qaynaqların məlumatına görə Marağada Cəfər paşa əhalidən bir ildə 15 ulağ yükü qızıl toplamışdı. Nəticədə əhali o qədər haldan düşmüşdü ki, sonrakı il paşa heç bir şey toplaya bilmədi.

Şah I Abbas 1598-ci ildə Səfəvilər dövlətinin paytaxtını Qəzvindən İranın daxili bölgələrinə - İsfahan şəhərinə köçürdü. Paytaxtın fars torpağına köçürülməsi sarayda və dövlət aparatında fars əyanlarının təsirinin artmasına, fars təmayülünün güclənməsinə səbəb oldu.

Şah I Abbas mərkəzi hakimiyyətin gücləndirilməsində marağı olan feodal qruplarının, tacirlərin və sənətkar təbəqələrinin dəstəyinə arxalanaraq hərbi-köçəri “qızılbaş” əmirlərinin müqavimətini qıra bildi. O, güclü nizami ordu yaratdı. Ordu odlu silahlarla təchiz edildi və birbaşa mərkəzi hakimiyyətə tabe edildi. Nizami ordunun döyüşçülərinin sayı 110 min nəfərə çatırdı. “Qızılbaş” süvari dəstələri də yenidən təşkil olundu. 44 min nəfərlik “qulamlar” dəstəsi (şah qvardiyası) yaradıldı.

Şah I Abbas fəal xarici siyasət yeritməyə başladı. O, 1599-cu il iyulun 29-da Şeybaniləri məğlub edib Xorasanı yenidən Səfəvilər dövlətinə birləşdirdi. Osmanlı imperiyası ilə Almaniya arasında müharibə getməsindən istifadə edərək, Şah I Abbas 1602-ci ildə Osmanlı sultanlığına qarşı müharibəyə başladı. 1603-cü il sentyabrın 14-də Səfəvi ordusu hücuma keçib,

oktyabrın 29-da Təbrizi azad etdi. Təbrizin alınmasında üsyan etmiş şəhər əhalisinin orduya böyük dəstəyi oldu. Təbrizi azad etdikdən sonra 120 min nəfərlik Səfəvi ordusu geri çəkilən Osmanlı ordusunu təqib etməyə başladı. Səfəvi ordusu üsyan etmiş əhalinin dəstəyi ilə Xoy, Salmas, Marağa, Culfa, Ordubad, Cavanşir və b. yaşayış məntəqələrini azad etdi. 1603-cü il noyabrın 26- da Naxçıvan, 1604-cü ildə İrəvan və Qars azad edildi. 1605-ci ildə Səfəvi ordusu Urmu və Van gölləri ətrafındakı ərazidə Osmanlı ordusu üzərində mühüm qələbələr çaldı. 1605-ci il noyabrın 7-də Sufiyan yaxınlığındakı döyüşdə Cəlaloğlu Sənan paşanın başçılıq etdiyi 100 min nəfərlik Osmanlı ordusu darmadağın edildi.

Osmanlı dövlətinin məğlub olması təhlükəsi yaranmışdı. Bu da Avropa dövlətlərini çox narahat edirdi. Çünki Avropa dövlətləri Səfəvilər dövlətinə Osmanlı sultanlığını Avropanın mərkəzinə doğru irəliləməkdən çəkindirən bir qüvvə kimi baxdıqları halda, Osmanlı sultanlığına Səfəvilərin həddən artıq güclənib dünya dövlətinə çevrilməsinin qarşısını ala bilən qüvvə kimi baxırdılar. Odur ki, Almaniya Osmanlı imperiyası ilə təcili sülh bağlayaraq, Səfəvilər dövlətini Osmanlı imperiyası ilə müharibə meydanında tək qoydu. Osmanlı ordusunun komandanlığı Avropa cəbhəsində olan hərbi hissələrini Anadoluya keçirmək imkanını əldə etdi. Amma bu Osmanlı ordusunun durumunu bir qədər yaxşılaşdırsa da onu məğlubiyyətdən xilas edə bilmədi.

Sufiyan yaxınlığındakı qələbəsindən sonra Şah I Abbas osmanlılara öz qoşunlarını bərpa etməyə imkan vermədi, hücumu davam etdirərək 1605-1607-ci illərdə Gəncə, Şamaxı, Bakı, Dərbənd, Lori, Tiflis və Dumanisini azad etdi. Bütün Azərbaycanı azad etdikdən sonra Şah I Abbas Osmanlı sultanına sülh təklif etdi. Qərbdə və şərqdə apardığı uzun sürən müharibələrdə zəifləmiş Osmanlı dövləti üçün sülh bağlamaqdan başqa çıxış yolu yox idi. 1612-ci il oktyabrın 17-də İstanbulda Səfəvi – Osmanlı sülh müqaviləsi imzalandı. Bu





müqavilə ilə Səfəvilər dövlətinin sərhədləri 1555-ci il Amasiya sülh müqaviləsi ilə müəyyən edilən hüdudlarda bərpa edildi.

Səfəvilər dövləti Şah I Abbasdan sonra onun varisləri dövründə xeyli zəiflədi. Dövlətin belə durumu xüsusilə Şah Hüseynin dövründə daha da ağırlaşdı. Şah Hüseynin dəbdəbəli həyat sürməsi dövləti müflisləşdirmişdi. İş o yerə çatmışdı ki, eyş-işrət məclisləri düzəltmək və əyanlara hədiyyələr vermək üçün saraydakı qızıl-gümüş əşyalar da götürülüb xərclənmişdi. Paytaxtda və əyalətlərdə əmirlər və iri feodallar Şah Hüseynlə, demək olar ki, hesablaşmırdılar.

Dövlətin acınacaqlı durumu öz torpaqlarını cənuba tərəf genişləndirmək planı olan Rusiyanın da diqqətini cəlb edirdi. Rusiyanın Səfəvilər sarayındakı səfiri Volınski gizli məktubla imperator I Pyotra yazırdı: “İndi buranın elə hökmdarı var ki, o, təbəələri üzərində deyil, təbəələri onun üzərində hakimlik edir. Şah zahirən suverendirsə də, onun hakimiyyətinin ancaq adı var. Hakimlər meyvəni özlərinə götürür, yarpağını isə dövlətə verirlər.” Səfir başqa bir məktubunda yazırdı: “Səfəvilər dövlətinin taxıl anbarı olan Azərbaycanda 7 ildir ki, tarlalar əkilmir. Güclü aclıq hökm sürür. Biz Təbrizdə olarkən, küçələrdə yüzlərlə dilənçiyə rast gəldik.”

Beləliklə, XVIII əsrin əvvəllərində Səfəvilər dövləti dərin iqtisadi və siyasi tənəzzül dövrü keçirirdi. İki əsrdən çox yaşı olan Səfəvilər dövlətinin tənəzzülü dövründə Azərbaycan Osmanlı və Rusiya imperiyalarının rəqabət meydanına çevrildi. Səfəvilər dövlətinin tənəzzülü dövrünü ölməkdə olan bir nəhəngin can verməsinə bənzətmək olar. Rusiya və Osmanlı imperiyaları kimi yırtıcılar can verən nəhəngin ətrafında durub onun ölməsini gözləyirdilər ki, cəsədini parçalayıb öz aralarında bölüşdürsünlər.

Azərbaycan Səfəvilər dövlətinin yaranması və inkişafı ölkəmizin tarixində xüsusi əhəmiyyəti olan hadisələrdən biri idi. Səfəvilər dövlətinin meydana gəlməsi sadəcə sülalə dəyişikliyi deyildi, Ön Asiyada, o cümlədən Azərbaycanda

feodal münasibətlərinin inkişafının yeni mərhələsinin nəticəsi idi. 200 ildən çox mövcud olmuş Səfəvilər dövlətinin tərkibinə Azərbaycanın şimal və cənub torpaqlarının siyasi baxımdan birləşməsi Vətənimizin feodalizm dövrü tarixində mühüm mərhələ hesab edilir.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi. 7 cilddə, 3-cü cild, s.182-200
2. Azərbaycan tarixi. Dərslik,1 - ci cild, s.382 - 499
3. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
4. Ş. Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlərdə). Bakı, 1994
5.C. İbrahimov. Səfəvilərin Ərdəbil hakimiyyətinə dair. Bakı, 1958
6. Y. Mahmudov. Azərbaycan diplomatiyası. Bakı, 1996
7. Я.Махмудов. Взаимоотношения государства Аккоюунлу и Сефевидов с европейскими странами во второй половине XV - начале - XVII вв.





# XIII FƏSİL

## AZƏRBAYCAN XANLIQLARI

**13.1. Səfəvilər dövlətinin süqutu və Azərbaycan ərazisində xanlıqlar adlı kiçik feodal dövlətlərin yaranması.** XVII əsrin sonu və XVIII əsrlərin başlanğıcında Səfəvilər dövlətində siyasi durum çox mürəkkəb, beynəlxalq vəziyyəti isə qeyri müəyyən idi. Şimaldan Rusiya imperiyası, qərbdən isə Osmanlı imperiyası Azərbaycana göz dikmişdilər.

Rusiya imperatoru I Pyotr hələ 1700-cü ildən Qafqazda vəziyyətlə və Səfəvilər dövlətinin iqtisadi-siyasi durumu ilə maraqlanırdı. 1721-ci ildə Şimal müharibəsini qələbə ilə başa çatdırdıqdan sonra I Pyotr Xəzər sahillərinə hərbi yürüşə başlamaq imkanı əldə etdi. Ciddi hazırlıqdan sonra rus ordusu 1722-ci il iyulun 18-də Həştərxandan çıxıb cənuba doğru hərbi yürüşə başladı. I Pyotr özü Dərbəndə qədər gəldi, rus qoşunları isə Quba və Bakıya daxil oldular.

Səfəvi şahı II Təhmasib xüsusi nümayəndəsi İsmayıl bəyi geniş səlahiyyətə Peterburqa göndərərək sülh istədi. İsmayıl bəyə tam səlahiyyət verilmiş və tapşırılmışdı ki, nəyin bahasına olursa olsun Rusiya ilə sülh müqaviləsi bağlasın. 1723-cü il sentyabrın 12-də Peterburqda Səfəvilər dövləti ilə Rusiya dövləti arasında sülh müqaviləsi bağlandı. İsmayıl bəyin imzaladığı bu müqaviləyə görə Xəzər dənizinin qərb sahili boyu Azərbaycan torpaqları Rəşt şəhərinə qədər Rusiyaya keçirdi və rus tacirləri Azərbaycanda əlverişli şərtlərlə ticarət etmək hüququ qazandılar. Bu müqavilə Osmanlı dövləti tərəfindən narazılıqla qarşılandı. Azərbaycanda marağı olan Osmanlı dövləti Səfəvilərdən Peterburq müqaviləsini ləğv etməyi tələb etdi.

Səfəvilər dövlətinin özündə də bu müqavilə narazılıqla qarşılandı. Şah II Təhmasib həmin müqaviləni imzalamaqdan imtina etdi. Rusiya isə bildirdi ki, şahın Peterburq müqaviləsini imzalamasına ehtiyac da yoxdur, çünki şahın tam səlahiyyətli nümayəndəsi İsmayıl bəy şah II Təhmasibin xüsusi vəkalətnaməsi əsasında onu imzalamışdır və müqavilə qüvvədə qalır.

Vəziyyət belə olduqda Osmanlı dövləti İngiltərənin təhriki ilə Səfəvilərə qarşı fəal hərbi əməliyyata başladı. 1723-1725-ci illərin hərbi əməliyyatları nəticəsində Osmanlı dövləti bütün Azərbaycanı, o cümlədən, indiki Ermənistanı və Azərbaycanın ruslar tərəfindən tutulmuş Xəzər sahili vilayətləri istisna olmaqla bütün şimal torpaqlarını və Gürcüstanı tutdu.

Səfəvilər dövlətinin tamamilə darmadağın edilməsi qorxusu iri feodalları və əmirləri öz aralarındakı ziddiyyətləri bir kənara qoyaraq ölkənin istiqlaliyyəti naminə birləşməyə məcbur etdi. Bu işin təşkilatçısı və rəhbəri türk əfşar soylarından olan sərkərdə Nadir Qulu xan idi. O, 1726-cı ildə Şah II Təhmasibin qulluğuna gəldi. Şah onu bütün Səfəvi ordusunun baş sərkərdəsi təyin etdi. O, Osmanlı ordularını məğlub edərək Azərbaycandan çıxartdı. Əmirlər arasında böyük nüfuzu artmış Nadir Qulu xan 1732-ci ildə Şah II Təhmasibi 4 aylıq oğlu şahzadə Abbasın xeyrinə taxt-tacdan əl çəkməyə məcbur etdi. Şahzadə Abbas III Şah Abbas adı ilə taxta oturduldu. Nadir Qulu xan isə onun qəyyumu oldu və dövləti tam müstəqil idarə etməyə başladı.

Nadir rus qoşunlarının Azərbaycandan çıxarılmasını tələb etdi. 1732-ci ildə Rusiya ilə bağlanmış Rəşt müqaviləsinə əsasən rus qoşunları Kür çayından cənubda yerləşən Azərbaycan torpaqlarından çıxarıldı. 1735-ci il Gəncə müqaviləsinə əsasən isə Dərbənd də daxil olmaqla Azərbaycanın bütün şimal torpaqları Səfəvilər dövlətinə qaytarıldı.

1736-cı ilin başlanğıcında 3 yaşlı Şah III Abbas qəflətən vəfat etdi. Fevralın 26-da Kür və Araz çaylarının qovuşduğu yerdə çağırılmış ümumdövlət müşavirəsində Nadir Qulu xan





Nadir şah adı ilə hökmdar elan olundu. Beləliklə, Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu. Səfəvilər dövləti süqut etdi.

Nadir şah qüdrətli hökmdar olmuşdur. Onun dövləti İran dövləti adlansa da hakimiyyət türk soylarının nümayəndələrinin əlində idi. Nadir şahın ilk tədbirlərindən biri ölkədə inzibati ərazi islahatı olmuşdur. Hələ şah I Abbas dövründə Azərbaycan ərazisi dörd bəylərbəyliyə bölünmüşdü: Təbriz, Çuxur-Səd, Şirvan və Qarabağ bəylərbəylikləri. Nadir şah onları birləşdirib «Azərbaycan» adlı vahid bəylərbəylik yaratdı. Beləliklə, «Azərbaycan» adı ilk dəfə olaraq şimallı-cənublu bütün Azərbaycana şamil edildi. Bu vaxtadək isə Azərbaycan dedikdə yalnız Cənubi Azərbaycan nəzərdə tutulurdu. Hazırda dövlətimizin Azərbaycan Respublikası adlanması üçün xalqımız ilk növbədə Nadir şaha borcludur.

Qeyd edilməlidir ki, hələ Səfəvilər dövründə bəylərbəyliklər şah tərəfindən təyin edilən hakimlər tərəfindən idarə olunurdular. Azərbaycan bəylərbəylikləri isə 20 ölkəyə bölünmüşdü: 1) Urmu, 2) Marağa, 3) Soyuqbulaq, 4) Xoy və Salmas, 5) Maku, 6) Qaradağ, 7) Ərdəbil, 8) Naxçıvan, 9) Talış, 10) Bərguşad, 11) Qazax, 12) Şəmşəddil, 13) İyirmi dörd, yaxud Bərdə, 14) Şəki, 15) Otuziki, 16) İlisu, yaxud Saxur, 17) Ərəş, 18) Baku, 19) Quba və 20) Dərbənd. Ölkələr irsi hakimlər tərəfindən idarə olunurdular. Bu ölkələr sonralar xanlıqlar kimi kiçik feodal dövlətlərinin yaranması üçün əsas oldu.

Nadir şah 11 il ölkəni idarə etdi. Onun ölümündən sonra ölkədə feodal pərakəndəliyi gücləndi. Bu dövrdə Azərbaycanda gözü olan həm Türkiyə, həm də Rusiya ölkənin daxili işlərinə fəal qarışmaq imkanları yox idi. Osmanlı dövləti Rusiya ilə apardığı müharibələr nəticəsində xeyli zəifləmişdi. Rusiya isə Qərbi Avropada baş verən inqilabi hadisələrlə əlaqədar olaraq özünün Şərq siyasətini hələlik birinci plandan çıxartmışdı.

Beləliklə, mərkəzi dövlət hakimiyyətinin zəif olması və feodal pərakəndəliyinin artması kimi daxili şərtlərlə yanaşı,

xarici siyasi vəziyyət də Azərbaycanda yerli feodal hakimlərinin müstəqil olub Azərbaycan xanlıqlarını yaratmaq üçün tarixi şərait yaranmışdı. Azərbaycanda ilk xanlıqların meydana çıxması XVII əsrin sonlarına təsadüf edir. O vaxt Şəki, Talış və Qubada faktik olaraq xanlıq hakimiyyəti mövcud idi. XVIII əsrin ortalarında Azərbaycanda yeni müstəqil və yarım asılı xanlıqlar yarandı. Onların sayı Şimali Azərbaycanda 12, Cənubi Azərbaycanda 7 olmaqla 19 xanlıq mövcud olmuşdur: 1) Bakı, 2) Qarabağ, 3) Quba, 4) Dərbənd, 5) İrəvan, 6)Gəncə, 7) Naxçıvan, 8) Cavad, 9) Salyan, 10) Talış, 11) Şamaxı, 12) Şəki, 13) Ərdəbil, 14) Qaradağ, 15) Marağa, 16) Maku, 17) Təbriz, 18) Urmu və 19) Xoy.

Bu kiçik feodal dövlətləri ilə yanaşı Şimali Azərbaycanda Qazax, Qəbələ, Qutqaşın. Ərəş, Ilisu və Şəmşədil sultanlıqları da mövcud olmuşdur. Ilisu sultanlığından şimalda azad Car-Balakən camaatlığı (icması) da vardı. Dağlıq Qarabağda isə Xəmsə məlikləri adı ilə 5 məliklik (Dizaq, Çilabert, Talış, Xaçın və Vərəndə) vardı.

Sultanlıqlar və məlikliklər xanlıqlardan asılı idilər. Məsələn, Qəbələ, Qutqaşın, Ərəş və Ilisu sultanları Şəki xanlığından, Qazax və Şəmşədil sultanlıqları Gəncə xanlığından, Xəmsə məlikləri isə Qarabağ xanlığından vassal asılılığında idilər.

Azərbaycan xanlıqlarını əsasən yerli feodallar idarə edirdilər. Onlardan bir qismi Nadir şahın təyin etdiyi keçmiş yerli hakimlər idilər, bir qismi isə xanlıqda hakimiyyəti hərbi yolla ələ almışdılar. Məsələn, Bakıda Nadir şaha qulluq edən yerli feodal Mirzə Məhəmmədin oğlu Dərgahqulu özünü xan elan etdi. Dərbənddə isə 1747-ci ildə Nadir şahın öldürüldüyü xəbərini alan kimi onun canişinlərindən narazı olan xalq yerli feodal Məhəmmədhəsəni xan elan etdilər. Şaması xanlığında Nadir şahın dövründə ərzaq vergisi toplamaqla məşğul olan Hacı Məhəmmədəli hakimiyyəti ələ alır. XVIII əsrin ikinci yarısında Şirvanın Xançobanı düzündə köçəri xançobanı soyunun başçısı Əskər bəy ağalıq edirdi. 1765-ci ildə onun oğlanları Ağası xan





və Məhəmmədsəyad xan Ağsu yaxınlığındakı Yeni Şamaxı şəhərini ələ keçirib Hacı Məhəmmədəli xanı öldürdülər və Şirvanda hakimiyyəti ələ keçirdilər.

Azərbaycan xanlıqlarının yaranması haqqında A.Bakıxanov yazır ki, Nadir şahın vəfatından sonra bu vaxta qədər şahdan asılı olan keçmiş irsi hakimlər müstəqil hökmdarlara çevrildilər. Şəki, Şirvan və Qarabağda isə bu mərtəbəyə hətta ali mənşəyə malik olmayıb, lakin güclü nüfuza malik olan şəxslər də çatdılar.

Beləliklə, uzun fasilədən sonra Azərbaycanda yenidən müstəqil dövlət qurumları yarandı. Azərbaycan xanlıqlarının yaranması Azərbaycan dövlətçiliyinin bərpası kimi tarixi əhəmiyyətə malikdir. Xanlıqlar dövründə Azərbaycan, kiçik feodal dövlətlərə bölünsə də, Cənubi Azərbaycan xanlıqları istisna olmaqla, yenidən istiqlaliyyət əldə edib xaricilərin hökmranlığından azad oldu. Cənubi Azərbaycan xanlıqları əslində yarımasılı vəziyyətdə idilər.

Azərbaycanın cənubunda xanlıqlar arasında mübarizə rəqiblərinə qalib gəlib, Iran taxtını bərpa etmək bayrağı altında aparılırdı. Nadir şahın ölümündən sonra Məşhəd xanları onun yaxın qohumu Əliqulu xanı taxta çıxartdılar. Əliqulu xan Adil şah adı ilə 1 il hakimiyyətdə olmuşdur. O, taxtdan salındıqdan sonra saray çevrilişləri və ara müharibələri dövrü başlandı. İran dövləti bir-birilə daima düşmənçilik edən xırda feodal hökmdarlıqlara parçalandı. Nadir şahın oğlu Şahruh Xorasan xanı oldu. Astrabad və sonra Mazandaranda Qacar tayfa başçılarından olan Məhəmməd Həsən xanın, Cənubi Azərbaycanın əksər torpaqlarında isə Nadir şahın qoşun başçısı, əfqan gilzayi tayfasından olan Azad xanın hakimiyyəti quruldu. Lakin 1756-1759-cu illərdə Məhəmməd Həsən xan Qacar Azad xana qarşı çıxdı. Onun qoşunları Azad xanın qoşunlarını məğlub edib, onun iqamətgahı yerləşən Urmu şəhərini aldılar. Məhəmməd Həsən xan Cənnibi Azərbaycanın digər ölkələrini də ələ keçirib oğlu Ağa Məhəmməd xan Qacarı Təbrizə hakim təyin etdi.

İranın Gilan vilayətində Hidayət xan, İsfahan vilayətində isə bəxtiyarlar tayfasının başçısı Əlimərdan xan və zəndlər tayfasının başçısı Kərim xan özlərini hakim elan etmişdilər. 1753-cü ildə Kərim xan Zənd Əlimərdan xanı öldürüb İranın cənubunu özünə tabe etdi. Sonra o, qacarlarla mübarizəyə başladı. 1758-ci ildə bu mübarizə Məhəmməd Həsən xan Qacarın öldürülməsi ilə qurtardı. 1760-cı ilə yaxın Kərim xan Zənd öz hakimiyyətini İranın xeyli hissəsinə yaya bildi.

Məhəmməd Həsən xanın ölümündən sonra Urmu və Təbrizi ələ keçirmiş Fətəli xan Əfşar Cənubi Azərbaycan torpaqlarını özünə tabe etməyə cəhd göstərdi. Lakin o, Kərim xan Zəndə məğlub oldu. Kərim xan Zənd öz hakimiyyətini Təbriz, Marağa, Xoy və Salmasa da yaydı. Sonra o, 9 aylıq mühasirə nəticəsində Urmunu da tutub 1779-cu ilə qədər, yəni ölümünə qədər Cənubi Azərbaycan xanlıqlarının hamısını özünə tabe etdi.

Qaradağ xanlığının paytaxtı Əhər şəhəri olmuşdur. Onun xanı Mustafa xan bəzən Xoy və Ərdəbil xanlarından asılı olmudur. Ərdəbil xanlığının ərazisi o qədər də böyük olmamışdır. Ərdəbildə şahsevər tayfalarından olan Nəcəf xan hökmdar olmuşdur. Marağa xanlığına Əhməd xan başçılıq etmişdir. Təbriz xanlığı bir müddət Gilanın xanı Hidayət xan tərəfindən idarə edilmişdir. Urmu, Salmas, Xoy Meşkin və Cənubi Azərbaycanın digər bölgələri Azərbaycanın və İranın nüfuzlu hakimlərindən asılı olan yerli feodal xanlar tərəfindən idarə olunmuşlar.

**13.2. Şimali Azərbaycanın əsas xanlıqları.** Şimali Azərbaycanda ilk yaranmış xanlıqlardan biri Talış xanlığı olmuşdur. Talış xanlığının iqtisadi və siyasi qüdrətinin möhkəmləndirilməsi Seyid Abbas xanın oğlu Cəmaləddinin adı ilə bağlıdır. Seyid Abbas xan Nadir şahın fərmanı ilə Talışın nəsli hakimi təyin edilmişdi. 1747-ci ildə Seyid Abbasın vəfatından sonra onun oğlu Cəmaləddin Qara xan adı ilə Talışın xanı olur.





Qara xan Talışın siyasi və iqtisadi qüdrətini möhkəmlətmək məqsədilə daimi qoşun təşkil edir. O zaman Talışda torpaq sahələrinin əksəriyyəti xan nəslindən olmayan yerli feodalların əlində idi. Qara xan həmin feodalların iqtisadi və siyasi qüdrətini qırmaq üçün onunla hesablaşmaq istəməyənlərin torpaqların müsadirə etdi. O, Talısın mərkəzini Astara yaxınlığındakı Şindan qalasından Lənkəran şəhərinə köçürərək 1747-ci ildə Lənkəranı Talış xanlığının paytaxtı elan etdi. Şəhərdə geniş abadlıq işləri apararaq onun ticarət və mədəniyyət mərkəzlərindən birinə çevrilməsi üçün şərait yaratdı.

Qara xan xarici siyasətdə Rusiyaya meyl göstərirdi. Bunun səbəbi onun Gilan xanı Hidayət xanla mübarizədə dayaq axtarması idi. 1768-ci ildə Qara xanın Xəzər dənizində ağalıq edən rus donanmasının komandanlığı ilə yaxınlığından narahat olan Hidayət xan 12 min nəfərlik qoşunla Talışa hücum edir. Şindan qalasına çəkilən Qara xan, bir müddət müqavimət göstərsə də, təslim olmağa məcbur olur. Hidayət xan çoxlu xərac alıb geri qayıdır. Gilan təcavüzünə qarşı mübarizə üçün yardım almaq məqsədilə Qara xan qardaşı Kərbəlayı Sultanı kiçik silahlı dəstə ilə qubalı Fətəli xanın xidmətə göndərir. Beləliklə, Talış xanlığı Quba xanlığından asılı vəziyyətə düşür. Yalnız Fətəli xanın vəfatından sonra Qara xan müstəqil siyasət yeritməyə başladı.

1786-cı ildə Qara xanın vəfatından sonra onun oğlu Mirmustafa xan olur (1786-1814). 1795-ci ildə Ağa Məhəmməd xan Qacarın hücumu ərəfəsində Mirmustafa xan Rusiyaya meyl göstərən Azərbaycan xanlarına məktub yazaraq Qacara qarşı birgə mübarizə aparmağa hazır olduğunu bildirirdi. Ağa Məhəmməd xan Talışa hücuma keçərkən Mirmustafa xan müqavimətin mənasız olduğunu dərk edib Sarı adasına çəkilir. Qacarın qoşunları Lənkərandan getdikdən sonra Mirmustafa xan 1795-ci ilin sentyabrında öz nümayəndəsi Zaman bəyi Şimali Qafqaza, rus qoşunlarının komandanı general Qudoviçin yanına göndərir. Həmin ilin oktyabrında isə Mirmustafa xan öz

nümayəndəsi Kərbəlayı Əsədulla bəyi Peterburqa göndərdi. 1796-cı il martın 12-də Kərbəlayı Əsədulla bəy Mirmustafa xanın Talış xanlığının Rusiyanın himayəsinə qəbul edilməsi haqqında məktubunu imperatriça II Yekaterinaya təqdim edir.

1800-cü ildə Talış xanlığı Rusiyanın himayəsinə qəbul edilir. 1802-ci il fevralın 26-da Qeorgievskidə Şərqi Gürcüstanın və Şimali Qafqazın Rusiya tabeliyinə keçməsi haqqında müqavilənin imzalanması mərasimində Talış xanı Mirmustafa xan da iştirak edir və həmin müqaviləni imzalayır. Rus imperatoru Mirmustafa xana general-mayor hərbi rütbəsi verir. 1814-cü ildə Mirmustafa xan vərəm xəstəliyindən vəfat etdikdən sonra onun oğlu Mirhəsən xan hakimiyyətə keçir, 1826-cı ildə isə Talış xanlığı ləğv edilir.

Azərbaycanın ilk xanlıqlarından biri də Quba xanlığı olmuşdur. Quba xanlığı da yarımasılı bir hökmdarlıq kimi XVII əsrin sonlarından mövcud olmuşdur. O vaxt onun tərkibinə Salyan da daxil idi.

Qubada xan adı ilə yerli sülalənin nümayəndələri irsi hakimiyyətə malik idilər. İlk Quba xanı Hüseyn xan olmuşdur. Tarixə yalnız onun vəfatı tarixi – 1689-cu il məlumdur.

1721-1722-ci illərdə Qubada hakimiyyət müvəqqəti olaraq Qazıkumıklı Surxay xan və Müskür mollası Hacı Davud tərəfindən ələ keçirilir. Türkiyənin dəstəklədiyi Hacı Davud Qubanın Nügədi, Rustov, Xinalıq və başqa yaşayış yerlərini ələ keçirmişdi.

Rusiya imperatoru I Pyotrun ilk yürüşləri nəticəsində Quba xanlığı Rusiyanın tabeliyinə keçdi. Bu vaxtdan başlayaraq Quba xanlığının taleyinin həllində Rusiya fəal iştirak etməyə başlayır.

Butkovun məlumatına görə 1726-cı ildə Rusiya tərəfindən Hüseynəli xan Quba xanı təyin edilir. 1727-ci ildə Müskür, Şabran, Rustov, Beşbarmaq, Niyazabad və Xudat Rusiyanın tabeliyinə keçdilər. Rustovda rus qarnizonu yerləşdirildi və qala tikildi.





Tədqiqatçı İ.Berezin elə hesab edir ki, Hüseynəli xan Nadir şah tərəfindən bu vəzifəyə təyin edilmişdir. Ancaq P.Butkov kimi, tədqiqatçı Qnclin və məşhur Azərbaycan tarixçisi A.Bakıxanov Hüseynəli xanın I Pyotr tərəfindən xan vəzifəsinə təsdiq edilməsini qeyd edirdilər. Bu mənbələrdən belə çıxır ki, Hüseynəli xan 1726-cı ildə deyil, 1722-ci ildə Quba xanı təsdiq edilmişdir. Çünki mənbələrdə göstərilir ki, I Pyotr Dərbənddə olarkən Hüseynəli xanı Qubaya xan təyin etdi. O, Əfrasiyab və Fərəməzi Hüseynəli xana köməkçilər – naib və nazir təyin etdi. Xanın təyin edilməsi haqqında fərmanda deyilirdi ki, o, tələb olunduqda öz təbəələri ilə birlikdə müharibəyə getməli idi. Məlumdur ki, I Pyotr 1722-ci ildə Dərbənddə olmuşdur. Bu sənəddən məlum olur ki, Quba xanlığı Rusiya imperiyasından vassal asılılığında olmuşdur.

Qarabağ xanlığının əsasını birləşmiş Azərbaycan (türk) və kürd soyları – otuzikilər və həmçinin Qarabağın düzənlik hissəsində məskunlaşmış cavanşir və kəbirli soyları təşkil etmişlər. Cavanşir və kəbirli soyları yerli elatlar idilər. İskəndər Münşinin məlumatına görə Otuziki XVI əsrdən ölkə hesab edilirdi və cavanşir qəbiləsinin başçısı onun irsi hakimi olurdu. Mirzə Camal Cavanşirin «Qarabağ tarixi» əsərində göstərilir ki, cavanşir qəbiləsi qızılbaş və ya əfşar soylarının qollarından biri olmamışdır. Onlar bəhmənli soylarının qollarından törəmişlər. Nadir şah dövründə cavanşir, otuziki və kəbirli soyları zorla Xorasan vilayətinə köçürülmüş, onun ölümündən sonra isə Qarabağa qayıtmışlar.

Qarabağ xanlığının yaranmasının başlıca qüvvəsi Pənah xanın başçılığı altında cavanşir elatlarının feodal əyanları olmuşdur. Pənah xan Sarıcallı oymağından olan cavanşir soyunun feodal əyanlarına məxsus olmuşdur. O, otuzikilər soybirləşməsinin rəhbəri, Cavanşir və Qazaxda 20 min ailənin əmiri olmuşdur. O, bir müddət Nadir şahin yanında xidmət etmiş, lakin öz həyatı üçün təhlükə hiss etdiyindən bir qrup yaxın adamı ilə birlikdə öncə Xorasana getmiş, sonra isə 1738-

ci ildə Qarabağa qaçmışdır. Burada o, Nadir şah hakimiyyətinə qarşı mübarizə aparan üsyançı dəstələrinə rəhbərlik edir. Pənah xan çox varlı və nüfuzlu şəxs olmuşdur. A.Bakıxanovun yazdığına görə o, igid, işgüzar adam olmuşdur, savadsız olsa da təbii istedada malik olmuş, şəxsi münasibətlərdə sadə olmuşdur.

Pənah xanın Xorasandan qaçmasından xəbər tutan Nadir şah, onu yolda ələ keçirmək üçün ardınca çaparlar göndərdi. Lakin Pənah xan bir müddət Qarabağın dağlarında və Qəbələ mahalında gəzib, dolaşdı. Mirzə Camal Cavanşir yazır ki, Nadir şahın vəfatından sonra Pənah xan üzə çıxdı. Vaxtilə şah tərəfindən Xorasana köçürülmüş Cavanşir eli oradan köçüb Qarabağa qayıtdı. Pənah xan onları qarşıladı. Hər kəs öz əvvəlki yurduna gedib rahatlandı. Pənah xan özünə qoşun düzəldib, Bayat qalasını özünə mərkəz seçdi.

Pənah xan Qarabağ məlikliklərini özünə tabe etmək istədi. Qarabağ məlikləri Pənah xanın hakimiyyətinin möhkəmlənməsindən narahat olub Şəki və Şamaxı xanlarını ona qarşı mübarizə aparmağa təhrik etdilər. Pənah xanın adamlarından çoxlu zərər çəkən Şamaxı və Şəki xanları ittifaq bağlayıb, Pənah xanı aradan qaldırmaq üçün böyük qoşunla Bayat qalasına hücum edərək onu mühasirə etdilər, lakin onu ala bilməyib geri qayıtmalı oldular.

Adil şah tərəfindən Azərbaycana sərdar təyin edilmiş Əmiraslan xan Pənah xanın Qarabağda olan şöhrətini eşitdikdən sonra ona hədiyyə olaraq at, qılınc və xələt göndərərək, onu Adil şaha itaət etməyə dəvət etdi. Pənah xan onun elçilərinə layiq olan hörmət və mehribanlıq göstərdi. Çünki belə bir güclü əmrlə düşmənçilik və müharibə etmək vaxtı deyildi. Pənah xan Adil şahın dövlətinə itaət etməyə hazır olduğunu və ona xidmət edəcəyini bildirib, sədaqət əlaməti olaraq elçilərlə birlikdə ellərin adlı-sanlı kəndxudalarından bir neçə nəfərini hədiyyələrlə Təbrizə Əmiraslan xanın yanına göndərdi. Əmiraslan xan bu barədə Adil şaha xəbər verdi.





1748-ci ildə Adil şah Pənah xana xan adı verilməsi və Qarabağa hakim təyin edilməsi haqqında fərman göndərdi. Az sonra Pənah xan Adil şahın öldürüldüyünü eşidib özünü tamamilə müstəqil elan etdi.

Pənah xan 1752-ci ildə Şahbulağın üstündə Tərnəküt adlı yerdə yeni bir qala tikdirdi. Sonra o, Xəmsə məliklərini özünə tabe etmək fikrinə düşdü. Öncə Vərəndə məliyi Şahnəzər bəy ona itaətə gəldi. Vərəndə məliklərinin əsilləri Göyçə mahalından olub. Məlik Şahnəzər əmisi Məlik Hüsünü öldürüb məlik taxtına oturmuşdu. Xəmsə məlikləri bu hadisəni eşitdikdə «sən nə üçün itaəti vacib olan əminə ağ olmusan» deyə birləşərək onu cəzalandırmağa gedirlər. Məlik Şahnəzər Pənah xanın hakimiyyətini tanımaqla özünü onlardan qoruyur. O, Vərəndə ərazisində indiki Şuşa şəhərinin yerini Pənah xana tərif edir. Şəhərin bina olunacağı yerdə axar su və bulaq yox idi. Yoxlamaq üçün bir neçə quyu qazdırdılar. O, quyulardan su çıxandan sonra hicri tarixlə 1170-ci ildə, miladi tarixlə 1756/1957-ci ildə Şuşa şəhərinin binası qoyuldu. Əhməd bəy Cavanşir isə Şuşanın təməlinin qoyulmasını 1754-cü ildə hesab edir. Şahbulağın şakinləri və bir neçə kəndin əhalisi köçürülüb buraya gətirildi. Şəhər əvvəllər Pənahabad, sonra isə qonşuluqda yerləşən Şişəkəndin adı ilə Şuşa adlandırıldı.

Vərəndənin ardınca Xaçın məlikliyi tabe edildi. Onların məliyi Həsən Cəlalyan idi. O, məliklik mənsəbindən məhrum olduqdan sonra, bir müddət bu mahalın müstəqil məliyi olmamışdır. Sonralar Xınzırıstanlı Məlik Mirzə xan bu mahala məlik təyin edilir. Sonra növbə ilə onun oğlu Məlik Allahverdi və nəvəsi Məlik Qəhrəman bu şərəfə nail olurlar. Dizag, Çiləbörd və Talış (Gülüstan) məlikləri bir neçə il Pənah xana müqavimət göstərirlər. Dizagın məliyi Məlik Yeqan idi. O, Loridən gəlmiş və şahın fərmanı ilə burada məlik olmuşdu. Çiləbördin məliyi Məlik Allahqulu idi. Onların iqamətgahı Cermux qalası idi. Məlik Allahqulu Nadir şahla Osmanlı sərkərdəsi Körpülü oğlu Abdulla paşa arasında olan

müharibədə fərqləndiyinə görə Nadir şah ona sultan titulu vermişdi.

Talış məliyi Məlik Usubun əsli, Mirzə Adıgözəlbəyin yazdığına görə, Şirvandan gəlmədi. Məlik Usub bir müddət Talış kəndində sakin olmuş, sonra isə Gülüstan qalasını zəbt edib öz iqamətgahına çevirir. Bu vaxtdan həmin məliklik Gülüstan məlikliyi adlanır.

Ağoğlanda yaşayan sultan Allahqulu Pənah xanla görüşə gəldiyi vaxt, Mirzə Adıgözəlbəyin yazdığına görə. Naxçıvan hakimi Heydərqulu xan ona qonaq idi. O, Pənah xana məsləhət görür ki, belə şan-şöhrətin sahibi sənə itaət etməz, onun başını vurdur. Pənah xan bu məsləhətə qulaq asıb onu öldürür. Allahqulunun qardaşı Məlik Hatəm Çiləbördün məliyi olur. O, Talış məliyi Məlik Usubla birləşib Cermux qalasına çəkildilər və 4 il Pənah xanla vuruşdular. Nəhayət, məğlub oldular. Məlik Usub öz elatı və təbəələri ilə birlikdə Gəncə tərəfə gedib Şəmkir mahalında məskən saldı.

Sonralar Pənah xan Bərgüşad, Meqri, Tatef, Sisyan, Zəngəzur, Qafan, Göyçə mahallarını da zəbt etdi.

Cənubi Azərbaycanda hökmranlıq edən Fətəli xan Qarabağa hücum edib ələ keçirə bilmədi. O, Pənah xanın oğlu İbrahimi girov götürməklə Pənah xanı öz vassalı elan etdi və geri qayıtdı. Pənah xan Kərim xan Zənd ilə ittifaqa girib Fətəli xanı məğlub etdilər və özünü də əsir aldılar. Kərim xan Zənd Pənah xanı təcrübəli bir məsləhətçi adı ilə yanında saxladı, onun böyük oğlu İbrahim xanı da Şiraza çağırdı, Qarabağa isə Pənah xanın kiçik oğlu Mehrəli xanı hakim təyin etdi. (1766)

1768-ci ildə İbrahim xan Şuşaya qayıdır. Bundan 2 ay sonra müəmmalı şəkildə vəfat edən Pənah xanın cənazəsi Şuşaya gətirildi. Ibrahim xanla Mehrəli xan arasında hakimiyyət üstündə mübarizə başlandı. Bu mübarizədə İbrahim xan qohumu Umay xanla birləşib qalib gəldi. Mehrəli xan Kərim xan Zəndin fərmanı ilə xan təyin olunduğundan ona pənah apardı. Kərim xan bundan bir qədər sonra vəfat etdi.





Mehrəli xan qubalı Fətəli xana qoşuldu. Fətəli xan Gəncəni, Mehrəli xan isə Qarabağın aran hissəsini tutub Şuşa üzərinə yürüşə hazırlaşdıqları zaman, 1779-cu ildə Mehrəli xanı, vaxtilə Fətəli xan tərəfindən Şamaxıdan qovulmuş Ağası xan öldürdü.

Beləliklə, İbrahim xan müstəqil xan oldu. O, qubalı Fətəli xanın ölümündən sonra Gəncə, Şamaxı, Şəki və Gilan xanlıqlarını da özünə tabe edərək xeyli qüvvətləndi.

1795-ci ildə İranda hakimiyyəti ələ almış Ağaməhəmməd şah Qacar Qarabağa hücum etdisə də Şuşa qalasını ala bilmədi. 1798-ci ilin yazında o, yenidən Qarabağ üzərinə yeridi. İbrahim xan Şuşanı tərk edərək öz ailəsi ilə birlikdə Car-Balakən mahalına qaçdı. Ağaməhəmməd şah Qacar Şuşaya döyüşsüz daxil oldu. Bir həftə Şuşada edamlar davam etdi. Nəhayət, 7-ci gün Ağaməhəmməd şah Qacar şahın sərkərdəsi Sadıq xan Şəqqaqinin və onun qohumu Mehrəli xanın oğlu Məhəmməd bəyin razılığı ilə, şahin pis - xidmətləri Səfərəli bəy və Abbas bəy tərəfindən, öz yataq otağında öldürüldü. Ertəsi gün Məhəmməd bəy saraya gəlib hakimiyyəti ələ aldı və dəhşət içərisində qalan İran qoşunlarını sıxışdıraraq Araza qədər qovdu.

Məhəmməd bəy Qarabağ xanlığını idarə etməyə başladı. Gəncə xan Cavad xan və Şuşanın bir çox adlı-sanlı bəyləri Məhəmməd bəyi İbrahim xanın Qarabağda qalan oğullarını mötəbər adamların əli ilə öldürməyi və İbrahim xanı bütün ailəsi ilə birlikdə Car-Balakən mahalında qurmaq üçün Cavad xanla əlbir olmağa təhrik edirdilər.

Ağaməhəmməd şahın qardaşı oğlu Fətəli xanla müharibədə Sadıq xanın məğlub olması və Fətəli xanın İran taxtına sahib olması xəbəri alındıqdan sonra Məhəmməd bəy bu təkliklərə cavab olaraq elan etdi ki, gec-tez güclü qonşu dövlətlərdən birinə tabe olması lazım gələn bu məmləkətdə xanlıq etibarsız olduğundan, o, heç bir zaman özünün 70 yaşlı əmisini və əmisi oğlanlarını öldürməyə və ya ölkədən qovmağa

razı olmaz. O, öz əmisinin yanına hədiyyə və sursatla elçilər göndərib, ona heç bir şaiyəyə inanmamağı və öz xanlığına qayıtmağı təklif etdi. Lakin İbrahim xan Məhəmməd bəyin paxıllığını çəkən saray adamlarının təsiri altında ona inanmadı və Fətəli şahın vədini almadan Qarabağa qayıtmaqdan imtina etdi.

Payızda Fətəli şahdan belə bir əmr aldı ki, İbrahim xan öz xanlığına qayıdıb Ağaməhəmməd şahın nəşini və onun ölümündə müqəssir olan Məhəmməd bəyi və pişxidmət Səfərəli bəyi onun yanına göndərsin. İbrahim xan öncə Məhəmməd bəyin yeznəsi olan oğlu Mehdiqulu xanı Qarabağa göndərdi ki, Məhəmməd bəyi və əhalini onu qarşılamağa hazırlaşdırsın, özü isə muzdla tutulmuş böyük bir ləzgi dəstəsi ilə yola düşdü.

Öz əmisindən əsla bədgüman olmayan Məhəmməd bəy xanın böyük oğlu Məhəmmədhəsənağa ilə birlikdə İbrahim xanı qarşılayıb sarayına qədər müşayiət etdi, ertəsi gün isə ona Ağaməhəmməd şahın xəzinəsindən ələ keçirdiyi qiymətli hədiyyələr göndərdi.

İbrahim xan oğlu Məhəmmədhəsənağanın məsləhətinə məhəl qoymayaraq bədxah qohumu Mirzəli bəyin təkidi ilə Fətəli şahın əmrinin yerinə yetirilməsi üçün fərman verdi. O, öz fikrini sonra dəyişsə də Məhəmmədhəsənağa tərəfindən qabaqcadan xəbərdar edilən Məhəmməd bəy ona inanmırdı.

Məhəmməd bəy Qarabağı tərk etməli oldu. Məhəmməd bəyin keçmiş rəqibi Şəki xanı kor Məhəmmədhəsən xan onun yanına adamlar göndərib qızını ona ərə vermək və kor olduğu üçün düşmənləri ilə mübarizə apara bilmədiyindən xanlığı idarə etməyi ona tapşıracağı vədi ilə Şəkiyə dəvət etdi.

Məhəmməd bəy ona inandı. Məhəmməd bəy Şəkiyə gəldiyinin 6-cı günü, toya hazırlıq zamanı xanın əmri ilə həbs edildi, sərvəti əlindən alındı və qandallanıb güclü keşikçi dəstəsi ilə qan düşməni Şamaxı xanı Mustafa xanın yanına göndərildi. Mustafa xan isə Məhəmməd bəy tərəfindən öldürülmüş atası və qardaşlarının intiqamını alaraq onu öldürdü.





İbrahim xan Səfərəli bəyi Şəki xanından tələb edib Ağaməhəmməd şahın cənazəsi ilə birlikdə Fətəli şaha göndərdi. Bir qədər sonra isə Fətəli şahın tələbi ilə oğlu Əbülfət xanı girov kimi göndərdi və qızı Ağabəyimağanı ona ərə verdi. Beləliklə, 1804-cü ilədək İrandan vassal asılılığına düşmüş Qarabağın həyatında əhəmiyyətli dəyişiklik olmadı.

Gəncə xanlığı Gəncə bəylərbəyliyi əsasında yaranmışdı. XVI əsrdən 1804-cü ilədək, kiçik fasilələrlə Gəncəni qacar soyların köçəri feodal əyanlarından olan Ziyadoğlular idarə etmişdir. Ziyadoğlu sülaləsindən Gəncənin ilk bəylərbəyi XVI əsrdə sultan Şahverdi, Gəncənin sonuncu xanı isə Cavad xan olmuşdur.

Ziyadoğlu sülaləsindən olan xanlar böyük bir ərazinin faktik hakimləri idilər. Onların hökmdarlığı ilə Gürcüstan arasında sərhəd «Sınıq körpüdən» yuxarı olan «Suri-daşa» qədər uzanırdı. Cənubi Azərbaycanla Gəncə bəybərbəyliyi arasında sərhəd isə «Xudafərin» körpüsünə çatırdı. Bəzi vaxt Gəncə xanlarının hökmranlığı Darüssürür (Tiflis) şəhərinə də şamil edilirdi (Darüssürür – torpaq, su, od və hava mənasını verir).

II Uğurlu xan Ziyadoğlu 1736-cı ildə Muğanda Nadir xanın şah seçilməsinin əleyhinə çıxmışdı. O, gizli və aşkar surətdə çalışmışdı ki, «səfəvilərdən başqa bir kimsə» şah olmasın. Nadir şah bundan xəbər tutduqda, Ziyadoğulların qədim sülalə və böyük bir duduman olduqlarına görə, ona ağır cəza vermədi. O, Qazax və Borçalını Ziyadoğlulardan alıb Gürcüstan əmirlərinin hakimiyyəti altına (Kartliya çarı Teymuraza) verdi; Cavanşir, Otuziki və Kəbirli elatlarını Qarabağdan köçürüb Xorasanın Sərəxs torpağında məskunlaşdırdı. O, Qarabağın Xəmsə əmirlərini də Gəncə xanlarının tabeliyindən azad edib, yalnız ona tabe olmalarını əmr etdi. Beləliklə, Gəncə xanlarının ixtiyarları tamamilə əllərindən alındı.

Nadir şahın vəfatından sonra Ziyadoğlu sülaləsinin nümayəndəsi Şahverdi xan öz hakimiyyətlərini bərpa edib Gəncə xanlığını yaratdı. Gəncə xanlığı hərbi-siyasi və iqtisadi

cəhətdən əhəmiyyətli mövqeyə malik idi. O, Şərqlə aparılan mühüm ticarət mərkəzi idi. Müstəqil olmuş Gəncə xanlığı bir tərəfdən Quba xanlığının, digər tərəfdən isə Kartli-Kaxetiya çarlığı və Qarabağ xanlığının mübarizə obyektinə çevrilmişdi. 1750-ci ildə Kartli-Kaxetiya çarı Teymuraz ilə Qarabağ xanı Pənah xan arasında Gəncə üstündə müharibə oldu. Gəncə xanlığı Qarabağ xanlığından bir müddət asılı vəziyyətə düşdü.

Cavad xanın hakimiyyəti dövründə Gəncə xanlığı nəinki öz müstəqilliyini bərpa edə bildi, hətta öz hakimiyyətini Şəmşədil mahalına da yaymağa müvəffəq oldu. Belə vəziyyət rus işğalına qədər davam etdi.

Azərbaycanın ilk xanlıqlarından biri də Şəki xanlığı olmuşdur. Hələ XIV əsrin dördüncü rübündə Şəki müstəqil dövlət kimi yaranmışdı. Onun müstəqilliyi XVI əsrin ortalarında şah Təhmasib tərəfindən ləğv edilmişdi. Nadir şahın dövründə Şəkidə milli-azadlıq hərəkatı genişlənir və 1743-cü ildə Şəki İran dövlətindən ayrılır. Üsyana başçılıq edən Hacı Çələbi müstəqil Şəki xanlığını yaradır. Hacı Çələbi 1551-ci ildə I Təhmasibə qarşı üsyana başçılıq edən Dərviş xanın 7-ci nəslinin nümayəndəsi idi. Xanlığın ilk mərkəzi Gələsən-görəsən qalası idi. 1746-cı ildə xanlığın paytaxtı Şəki şəhərinə köçürülür.

XVIII əsrin 40-cı illərinin sonu və 50-ci illərində Şəki xanlığı Azərbaycanda böyük siyasi qüvvəyə çevrilir. Qutqaşın, Ərəş və Qəbələ sultanlıqları ondan vassal asılılığı vəziyyətinə düşürlər. Car-Balakən camaatlığı da ona tabe olur.

Şəki xanlığının güclənməsi, Çələbi xanın hakimiyyətinin möhkəmlənməsi Qarabağ xanı Pənah xanı, Qaradağ xanı Kazım xanı, Naxçıvan xanı Heydərqulu xanı və Gəncə xanı Şahverdi xanı narahat edirdi. Onlar birləşib gürcü çarları Teymuraz və II İrakli ilə Şəki xanlığına qarşı ittifaqa girdilər. Gəncəni özünə tabe etmək istəyən II İrakli müttəfiqlərinə xəyanət etdi. O, 1791-ci ildə Şəmkir yaxınlığındakı düşərgəsinə xanları dəvət edərək onları həbs etdi. Hacı Çələbi xan düşmənin hücumunu gözləmədən qəflətən hücuma keçdi. O, Şəmkir yaxınlığında II İraklinin qoşunlarını əzib xanları əsirlikdən azad etdi. O, Qazax və Borçalı mahallarını öz hakimiyyəti altına aldı. 1751-1752-ci illərdə Gəncə, Şəmkir, Qazax və Borçalı uğrunda II İrakli ilə Hacı Çələbi xan arasında kəskin mübarizə getdi. Bu mübarizə sonralar öncə 1755-ci ilə qədər Şəkinin üstünlüyü ilə, 1755-ci ildən sonra isə gürcü çarlarının üstünlüyü ilə fasilələrlə davam etdi.





XVIII əsrin II yarısında Şəki xanlığı Azərbaycanın siyasi həyatında mühüm rol oynamış, onun paytaxtı Şəki şəhəri isə Azərbaycanın iri ticarət-iqtisadi mərkəzinə çevrilmişdi.

Şamaxı xanlığı XVIII əsrin ortalarında yaranmışdır. Qeyd edildiyi kimi bu ərazidə əvvəlcə iki hakimiyyət yaranır. Ağsu yaxınlığındakı Yeni Şamaxıda Hacı Məhəmmədəli xan, Köhnə Şamaxıda isə Məhəmməd Səyid xan hakimiyyəti ələ almışdılar. 1763-cü ildə Məhəmməd Səyid xan Hacı Məhəmmədəli xanı məğlub edib əsir götürdü və o, 5 həftə sonra həbsxanada öldü. Məhəmməd Səyid xandan sonra Şamaxı xanı onun qardaşı Ağası xan oldu. Sonrakı 25 il ərzində isə Şamaxı xanlığı öz müstəqilliyini itirib Quba xanlığından vassal asılılığına düşdü.

Beləliklə, XVIII əsrdə Azərbaycanda feodal pərakəndəliyi hökm sürürdü. Azərbaycanda yaranmış xanlıqlar feodal dövlətləri idi. Onların, möhkəm olmasa da, müəyyən sərhədləri var idi. Azərbaycan xanlıqları üçün ümumi cəhət o idi ki, onlar gah tam müstəqil olur, gah da biri digərini özündən asılı vəziyyətə salır və ya daha qüvvətli olan qonşu dövlətlərdən vassal asılılığı vəziyyətinə düşürdülər.

**13.3. Xanlıqlar dövründə Azərbaycanın ictimai-iqtisadi həyatı.** XVIII əsrin I yarısında Azərbaycanda dərin iqtisadi böhran hökm sürürdü. Xarici basqınlar, ara müharibələri, feodal dağınıqlığı ölkənin təsərrüfatını dağıdır, məhsuldar qüvvələrin inkişafına mane olurdu. Bunlara yerli hakimlərin amansız istismarı da əlavə olunurdu. Ölkənin şəhərləri tənəzzül edir, kəndlər boşalırdı. Azərbaycanda Təbriz istisna olmaqla bir dənə olsun 10 mindən çox əhalisi olan şəhər qalmamışdı.

XVIII əsrin II yarısında vəziyyət bir qədər dəyişir. Ölkə qonşu böyük dövlətlərin hücumlarından müəyyən müddət xilas olub azad nəfəs alır. Yalnız 1795-1797-ci illərdə İran tərəfindən hərbi müdaxilə olmuşdur. Əlbəttə zəhmətkeş kütlələrin yerli feodallar tərəfindən istismarı davam edirdi. Qonşu xanların və quldur dəstələrinin soyğunçu basqınları da davam edirdi. Bu da ayrı-ayrı bölgələrdə bütöv təsərrüfat sahələrinin tənəzzülünə səbəb olurdu. Məsələn, 1772-ci ildə Ağası xanın silahlı dəstələrinin qarətçi hücumları nəticəsində Salyanda balıqçılıq təsərrüfatı tamamilə tənəzzülə uğramışdı. Rus konsulunun məlumatında deyilirdi ki, Lənkəranda baramaçılığı inkişaf etdirməklə bir xeyli miqdarda ipək istehsal etməyə imkan vardır. Lakin Gilandan olan quldurların basqınları buna imkan vermir. Lənkərandan 17 ucrs məsafədə məskən salmış quldur dəstələri tez-tez basqın edir, tut ağaclarını qırır, Təbrizdən və Ərdəbildən gələn ticarət karvanlarını qarət edirdilər.

Bütün bunlara baxmayaraq xanlıqlar dövründə Azərbaycanın təsərrüfat-iqtisadi həyatı XVIII əsrin I yarısı ilə müqayisədə II yarısında xeyli inkişaf edir. Bunu prof. İ.Petruşevski və prof. H.Abdullayevin tədqiqatları sübut edir. İ.Petruşevski ayrı-ayrı xanların ölkənin məhsuldar qüvvələrini bərpa etməyə çalışdıqlarını, Şuşa, Şəki, Quba, İrəvan kimi şəhərlərin inkişaf etdiyini qeyd edir. Əlbəttə İ.Petruşevski bunu təsdiq etmək üçün konkret faktlar gətirmir, yalnız elmi fərziyyələrlə məhdudlaşır. Prof. H.Abdullayevin əsəri isə belə faktlarla zəngindir.

Azərbaycan iqtisadiyyatının əsas sahələri əkinçilik və maldarlıq idi. XVIII əsrdə ölkənin ayrı-ayrı bölgələri arasında təsərrüfat ixtisaslaşması davam edirdi. Gəncə, Qazax, Şamaxı, Quba, Şəki, Aran Qarabağ bölgələrində əkinçiliyin daha çox inkişaf etmiş sahəsi taxılçılıq (buğda və arpa) idi. Talış və Bərquşat bölgələri isə çəltik istehsalı ilə məşhur idilər. Abşeronda – zəfəran, Gəncə, Şamaxı, Qarabağ və Dərbəndə – üzümçülük inkişaf etmişdi. Gəncə, Şamaxı, Şəki, Qəbələ və Təbriz əsas ipəkçilik rayonları idilər.





Xanlıqlar dövründə qiymətli texniki bitkilərin əkin sahələri o qədər də böyük deyildi. Pambıqçılıq. İpəkçilik və üzümçülüklə, əsasən varlı kəndlilərin və bəylərin təsərrüfatlarında məşğul olurdular. Şamaxı, Cavad, Qazax, Aran Qarabağ, Gəncə, Talış, Salyan və b. bölgələrdə süni suvarma şəbəkələrindən istifadə edilirdi.

Maldarlıq Azərbaycanın təsərrüfat həyatında ikinci yeri tuturdu. Əhalinin əksər hissəsi həm əkinçilik, həm də maldarlıqla məşğul olurdu. Bu, xüsusilə, Qarabağ, Şamaxı, Təbriz və Naxçıvan üçün daha çox xarakterik idi.

Xəzər sahili bölgələrdə, Şəki və Gəncə xanlıqlarında balıqçılıq təsərrüfatı da əhalinin həyatında mühüm yer tuturdu.

Sənaye sahələrindən Abşeronda neft, Daşkəsəndə dəmir, Gədəbəydə mis, Qubanın Sahdağ rayonunda gümüş istehsalını qeyd etmək olar.

Xanlıqların şəhərlərində sənətkarlıq və ticarət də inkişaf edirdi. Şamaxı, Şəki və Basqalda ipək parçalar hazırlayan sənətkarlıq, Lahıcda mis qab-qacaq, xəncər, qılınc, çaxmaqlı silah istehsalı sənətkarlığı, Qubada xalçaçılıq, Bakıda boyaqçılıq, Lənkəranda dulusçuluq, həsirçilik və s. hörmə sənətkarlığı, ağac qab-qacaq istehsalı sənətkarlığı, Qarabağ və Naxçıvanda xalçaçılıq və dəridən şeylər hazırlayan sənətkarlıq, Təbriz və Ərdəbildə yun və ipək parçalar, zərgərlik məmulatı hazırlayan sənətkarlıq sahələri xeyli inkişaf etmişdi.

Xanlıqlar dövründə Azərbaycanda feodal torpaq mülkiyyəti formalarında bəzi dəyişikliklər baş verdi. Hələ Sasanilər dövründən mövcud olan divanı və xassə kimi torpaq üzərində mülkiyyət formaları xanlıqlar dövründə aradan çıxdı. Onların hər ikisi xan torpaqları adlanmağa başladı. Divani torpaqlarının hesabına xüsusi torpaq mülkiyyəti forması artmağa başladı.

Torpaq sahibliyinin formalarından biri mülk idi. Mülk feodalın, xana xidmətdən asılı olmayaraq, xüsusi mülkiyyəti idi. Onun sahibinə mülkədar deyilirdi. Azərbaycanda feodal torpaq sahibliyinin formalarından biri də tiyul idi. Tiyul xana

xidmətə görə feodala istifadə üçün verilən şərti torpaq sahibliyi idi. Xanlıqlar dövründə tədricən şərti feodal torpaq sahibliyi tiylun mülkə çevrilməsi prosesi gedirdi.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi. 7 cilddə, 3-cü cild, s. 404-439.
2. Azərbaycan tarixi. Dərslik, s. 522-568.
3. E.Babazadə. Gəncə xanlığı. Bakı, 2012.
4. F.Əliyev. Naxçıvan xanlığı. Bakı, 1996.
5. M.İsmayılov və M.Bağırova. Şəki xanlığı. Bakı, 1997.
6. C.Mustafayev. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, 2009.





# XIV FƏSİL

## ORTA ƏSRLƏR AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

**14.1. XI-XVIII əsrlərdə Azərbaycanda maarif, elm və fəlsəfə.** Azərbaycan xalqı dünyanın ən qədim xalqlarından biridir. Xalqımız əsrlər boyu yüksək mədəniyyət yaratmışdır. Xalqımız yaratdığı mədəniyyət inciləri ilə bəşər mədəniyyətini zənginləşdirmişdir.

Bütün müsəlman dünyasında olduğu kimi Azərbaycanda da təhsil və elm XI-XII əsrlərdə yüksək inkişaf səviyyəsinə çatmışdı. Bu dövrdə Azərbaycanın paytaxt şəhərləri Təbriz və Şamaxıda, həmçinin Naxçıvan, Gəncə, Beyləqan, Bakı və başqa iri şəhərlərdə görkəmli elm xadimləri yaşamış və yaratmışlar. Onlar elmin müxtəlif sahələrə hələ bölünmədiyi bir dövrdə elmi biliklərin bütün məcmusuna sahib olan şəxslər idilər. Belə şəxslərə xalq alim, yaxud şeyx deyirdi. Təbiidir ki, belə alimlərin yetişməsi üçün mükəmməl təhsil sistemi olmuşdur.

XI-XII əsrlərdə Azərbaycanda təhsil və elm sahəsində çalışan şəxsləri Şirvanşahlar və Eldəgəzlər dövlətlərinin hökmdarları himayə edirdilər. Monqol əsarəti Azərbaycana müəyyən zərbə vurmuş, maarifin və elmin inkişafını ləngitmişdi. Lakin monqollar istər-istəməz yerli mədəniyyəti qəbul etməli olmuşdular. Odur ki, Azərbaycan hətta monqol işğalı dövründə də Şərqin ən mühüm mədəniyyət mərkəzlərindən biri olaraq qalmışdı.

XIV əsrin əvvəllərində Təbrizin şimal-şərqində yerləşən Rəbi-Rəşididə təsis edilmiş Darülfünün Bağdadın "Nizamiyyə" mədrəsəsindən sonra Yaxın və Orta Şərqin ən böyük ali təhsil

müəssisəsi sayılırdı. Həmin təhsil müəssisəsində yeddi min tələbə təhsil alırdı. Rəbi-Rəşididə darülfünunun yerləşdiyi yer "Tələbə məhəlləsi" adlanırdı. Darülfünunda təbiətşünaslıq, fəlsəfə, tarix, təbabət, nücum, məntiq, ilahiyyat şöbələri vardı. Çindən, Hindistandan, Misirdən və Suriyadan Darülfünuna cəlb edilmiş 50 görkəmli alim tədris işi ilə məşğul olur və eyni zamanda xəstələri müalicə edirdilər. Təbabəti tədris edən hər bir müəllimin 12 tələbəsi olurdu. Təbabət şöbəsində təhsil müddəti 5 il idi. Təhsilini bitirmiş tələbələrdən bir il ərzində Rəbi – Rəşididə xəstələri müalicə etmək tələb olunurdu. Bu müddət ərzində tələbənin aldığı ixtisasın keyfiyyəti hərtərəfli yoxlanılır, xəstələri müalicə etmək qabiliyyəti müəyyənləşdirildikdən sonra həkim işləmək üçün ona icazənamə verilirdi.

XVI-XVII əsrlərdə maarif və məktəb işləri ilə ruhanilər məşğul olurdular. Uşaqların təhsili ilə məscidlərin nəzdində olan mədrəsələr və şəxsi evlərdə təşkil edilmiş məktəblər məşğul olurdular. İlkin mərhələdə dərslər ana dilində, yuxarı siniflərdə isə fars və ərəb dillərində keçilirdi. (Çünki Azərbaycan dilində hələ dərs vəsaiti yox idi).

Məktəblərdə şagirdlər əvvəlcə əlifbanı öyrənir, sonra isə "Quran"ı əzbərləyirdilər. Sonra kiçik kitabçalar, o cümlədən Übeyd Zakaninin "Siçan və pişik", Fəridəddin Əttarın "Nəsihətnamə", Sədinin "Gülüstan", Hafizin "Divan" əsərlərindən parçalar öyrənirdilər. Mədrəsələrdə ilahiyyat dərslərinin əsas yer tutmasına baxmayaraq, təbiət və ictimai elmlərin tədrisinə də geniş yer verilirdi. Şamaxı mədrəsəsini müşahidə etmiş Adam Oleari ölkədə astronomiyanın, riyaziyyatının və fəlsəfənin tədrisinin Avropa tədrisinə uyğun gəldiyini xəbər verirdi.

XVIII əsrdə Azərbaycanda məktəblər məscidlərin bir guşəsində, xüsusi dükanlarda və şəxsi evlərdə yerləşirdi və bir qayda olaraq onları yaradan müəllimlərin adları ilə adlanırdılar. Məsələn, Şuşa şəhərində Molla Pənah Vaqif məktəbi, Şıxlı kəndində Molla Vəli Vidadi məktəbi, Qıraq Salahlı kəndində





Molla Cəbrayıl məktəbi və s. Uşaqlar, bir qayda olaraq altı yaşından məktəbə gedirdilər. Məktəblər şagirdlərin valideynlərinin verdikləri "həftəlik" maddi yardım hesabına fəaliyyət göstərirdilər. Məktəblərdə, adətən, bir müəllim – molla dərs deyirdi. Şagirdlər ərəb əlifbasını öyrəndikdən sonra "Quran"ı oxumağa başlayırdılar. Dərs vəsaitləri məhdud idi. Şagirdlər "Quran"dan əlavə, əsasən Sədinin "Gülüstan" əsərini oxuyur və əzbərləyirdilər. Məktəblər ibtidai təhsil verirdi. Təhsilin yuxarı pilləsini isə mədrəsələr təşkil edirdi. Mədrəsələr böyük məscidlərin nəzdində yerləşirdi. Mədrəsədə nisbətən geniş bir dərs otağı və tələbələrin yaşadıqları kiçik otaqlar – hücrələr olurdu. Mədrəsədə dərs deyən müəllim "müdərris", təhsil alan şəxs isə "tələbə" adlanırdı. Tələbə mədrəsədə ərəb və fars dilləri və "Quran"ı öyrənməklə yanaşı islam fəlsəfəsini və islam qanunlarını ("fiqh"i) də öyrənirdilər. Mədrəsələrdə, həmçinin ədəbiyyat, riyaziyyat və nücum (astronomiya) elmləri də tədris olunurdu. Həm məktəblərdə, həm də mədrəsələrdə hüsn-xəttə diqqət yetirilirdi. Ona görə də mədrəsələri bitirənlərin əksəriyyəti gözəl xəttə malik olurdular.

XII-XIII əsrlərdə Azərbaycanda elm, o cümlədən fəlsəfi fikir yüksək zirvəyə qalxmışdır. Görkəmli şərqşünas alim Y.Bertels şərqin bu dövrdə tanınmış görkəmli şəxsiyyətləri sırasında şairlər şairi böyük Nizaminin adını birinci çəkir. Onun yazdığına görə zəmanəsinin və bütün zamanların ən böyük şairi Nizami Gəncəvi dövrünün biliklərinin tam məcmusuna sahib idi. Nizami fəlsəfə, ədəbiyyat, astronomiya, riyaziyyat, kimya, coğrafiya, ilahiyyat və b. elm sahələri ilə tanış idi.

Görkəmli Azərbaycan alimi Nəsrəddin Tusinin yaradıcılığı isə XIII əsrə aiddir. Məhz bu dövrdə Xacə Nəsirəddin Məhəmməd Tusinin (1201-1274) rəhbərliyi ilə 1259-cu ildə Marağa yaxınlığında, yüksək bir yerdə Yaxın və Orta Şərqin ən məşhur rəsədxanası yaradılmışdı. Tusinin yaradıcılığında planetlərin və digər səma cisimlərinin öyrənilməsinə həsr olunmuş

"Elxani cədvəlləri" adlı əsəri ilə yanaşı "Əxlaqi - Nasiri", adlı fəlsəfi, məntiqi və pedaqoji əsəri mühüm yer tutur.

XIII-XIV əsrlərin görkəmli alimi Xacə Fəzlullah Rəşidəddin (1247-1318) elmin müxtəlif sahələrindən bəhs edən 24 enlik "Əl-əhya vəl-əsar" adlı ensiklopedik əsər yazmışdır. Riyaziyyatçılardan Übeyd Təbrizi, Məhəmməd Təbrizi və Şeyx Abdulla Şəbüstəri bir sıra əsərlərin müəllifi olmuşlar. Fəlsəfə sahəsində Şeyx Məhəmməd Şəbüstəri (1252-1320) "Gülşəni-raz" ("Sirlər gülşəni") və "Səadətnamə" kimi dəyərli əsərlərin müəllifi idi. XV əsr alimi Seyid Yəhya Bakuvi (1464) "Gülşəni-raz" əsərinə şərh yazmış və "Əsrar ət-talibin" ("Həqiqətən axtaranların sirrləri") adlı fəlsəfi traktatı yaratmışdı. "Gülşəni-raz" əsəri 1836-cı ildə Vyanada, alman dilinə tərcüməsi ilə birlikdə nəşr edilmişdir.

Bu dövrdə İmanəddin Məhəmməd Yekui və İbrahim Salmasi kimi hüquqşünas alimlər, Əbühica əl-Rəvvadi Bərdəi kimi tarixçi alim də yetişmişdi. Fəzlullah Rəşidəddinin rəhbərliyi ilə XIV əsrin əvvəllərində Təbrizdə tarixçilər tərəfindən hazırlanmış "Cami ət-təvarix" ("Salnamələr məcmuəsi") adlı dünya əhəmiyyətli çoxcildli tarixi araşdırma qiymətli elmi əsər hesab edilir. XIV əsrdə yaşamış tarixçi Məhəmməd ibn Hinduşah Naxçivaninin "Dəstur əl-kitab"da ölkəmizin XIII-XIV əsrlərdə siyasi, ictimai və iqtisadi tarixini əks etdirən xeyli məlumat vardır.

XIII-XV əsrlərdə Azərbaycanda fəlsəfi fikrin əxilik təlimi də təşkilati baxımdan xeyli möhkəmlənmiş və güclənmişdi. Əxiliq təlimi solçu, sufi mahiyyətli şiəliyə çox yaxın idi. Bu dövrdə ismaili təlimi də müəyyən təsir dairəsinə malik olmuşdur. Məhəmməd Şəms Təbrizi sufiliklə bərabər ismaililiyin əsas təbliğatçılarından biri idi. İsmaililiyin hürufiliyin və səfəviyə təliminin formalaşmasına güclü təsiri olmuşdur. Səfəviyyə təliminin yaradıcısı Səfəvilər sülaləsinin banisi Şeyx Səfiəddin İshaq Ərdəbili (1252-1334) olmuşdur. Bu dövrdə Azərbaycan fəlsəfi fikrinin tanınmış nümayəndələri





Nəsirəddin Tusi, Şeyx Zahid Gilani, Siracəddin Urməvi, Əfzələddin Xunəci, Şəmsəddin Əhməd Xoylu, Nəcməddin Naxçıvani, Şəmsəddin Şirvani, Mahmud Şabüstəri Təbrizi, Zülfüqar Şirvani, Şah Qasım Ənvər, Seyid Yəhya Bakuvi, Yusif Miskuri, Şükrulla Şirvani, Bədrəddin Seyid Əhməd Ləlvi, Qaraqoyunlu hökmdarı Cavanşah Həqiqi və b. hesab edilirlər.

XVI əsrin başlanğıcında mərkəzləşmiş və qüdrətli Azərbaycan Səfəvilər dövlətinin yaranması ilə əlaqədar xalqın mədəniyyəti də xeyli inkişaf edir. Təbriz, Gəncə, Ərdəbil, Şamaxı və Marağa şəhərləri bu dövrün mühüm mədəniyyət mərkəzləri kimi tanınmışdılar.

XVI əsrin sonu – XVII əsrin əvvəllərində Səfəvi – Osmanlı müharibələri xalqın mədəniyyətinə ağır zərbə vurdu. Azərbaycan alimlərindən bir çoxu əsir kimi İstanbula aparılmış, bir qismi isə Qəzvin və İsfahana köçürülmüşdü. Azərbaycan filosofu Yusif Məhəmmədcan oğlu Qarabaği isə ölkə osmanlılar tərəfindən zəbt olunan zaman Orta Asiyaya köçmüş, Səmərqənd və Buxarada yaşamışdı. O, ərəb və fars dillərində hüquqa dair bir sıra əsərlərin müəllifidir.

Uzun sürən müharibənin ağır nəticələrinə baxmayaraq XVI-XVII əsrlərdə elm sahəsində müəyyən irəliləyişlər olmuşdu. Mədəni irsin öyrənilməsi sahəsində xeyli iş görülmüş, "Təzkirə" adlanan elmi məcmuələr yazılmışdı. I Şah İsmayılın oğlu Sam Mirzə Ərdəbildə məşhur "Töhveyi Sami" əsərini yazmışdı. Şahın digər oğlu İbrahim Mirzə "Tərhəngi - İbrahim" ("İbrahimin lüğəti") əsərini yazmışdı. Bu dövrdə tarix elmi də inkişaf etmişdi. Bu dövrün tanınmış tarixçiləri tarixi hadisələri yalnız təsvir etməklə kifayətlənməyib, hadisələrə öz münasibətlərini də bildirmişlər. XVI əsrin məşhur tarixçisi Həsən bəy Rumlu I Şah Təhmasibin sarayında xidmət etmiş, onun yürüşlərinin iştirakçısı olmuşdur. Onun yazdığı "Əhsən ət-təvarix" ("Tarixlərin ən yaxşısı") əsəri dövrümüzə qədər gəlib çatmışdır.

Azərbaycanın görkəmli tarixçisi İskəndər bəy Münşi öncə Məhəmməd Xudəbəndənin sarayında katiblik etmiş, sonra isə I Şah Abbasın tarixçisi olmuşdur. Onun "Tarixi aləm arayi Abbasi" ("Abbasın dünyanı bəzəyən tarixi") əsəri XVI əsrin sonu – XVII əsrin əvvəllərində Səfəvilər dövləti tarixini öyrənmək üçün ən qiymətli mənbədir.

Səfəvilər dövlətinin yaranması ilə Ərdəbil səfəviyyə dini ordenin ideoloji əsası olan şiəlik məshəbi Azərbaycan ərazisində hakim dini-siyasi məfkurəyə çevrildi. Şah İsmayılın hakimiyyətə gəlişindən sonra səfəvi-şiə məfkurəsi kəskin surətdə dəyişdi. Onun müxtəlif ifratçı sufi cərəyanları ilə əlaqələri ya tamamilə kəsildi, ya da formal səviyyə daşımağa başladı. İslamın şiə ruhunda təbliği mülayim mövqelərdə duran ideoloqlara xas idi. Bu xüsusiyyət şair – hökmdar Şah İsmayıl Xətainin yaradıcılığında daha qabarıq surətdə özünü nümayiş etdirirdi. Şah İsmayıl Xətai yaşadığı dövrdə "qızılbaş" səfəvi məfkurəsinin əsas təbliğatçısı olmuşdur. O, bidətçi panteizmdən uzaqlaşaraq, hürufiliyə aludə olmuş əcdadlarının ənənələrini davam etdirmiş və şiəliyin təbliğinə geniş yer vermişdir. O, şiə imamları güclü təbliğ edir, lakin özünü təkmilləşdirmənin təbliği zərurətini də unutmurdu.

Səfəvilər dövlətində amansızlıqla təqib olunan geniş yayılmış bidətçi təlimlərdən biri "nöqtəvilik" olmuşdur. "Nöqtəviliyin" başlıca cəhətləri materialist meyilli panteist fəlsəfə olması və islamın bir çox ehkamlarına qarşı çıxmasıdır. "Nöqtəvilik" təliminə qarşı təqiblər Şah I Abbasın dövründə xüsusilə güclü olmuşdur.

XVI əsrdə Azərbaycanda "nöqtəviliklə" yanaşı "əliallahilik", "əxilik", "rövşənilik" və s. təlimlər də mövcud olmuşdu. XVI-XVII əsrlərdə vaxtilə Səfəvilərin dayağı olan şəhərlilər, tədricən "qızılbaş" ideologiyasından uzaqlaşıb "heydəriyyə" adlanan və asketizmi təbliğ edən sufi təşkilatları ilə və panteist meyilli "neymətullahiyyə" təlimi ilə bağlı olmuşdur.





XVI əsrdə Azərbaycanda ictimai-siyasi və fəlsəfi fikri görkəmli nümayəndəsi dünya şöhrətli şair Məhəmməd Füzuli olmuşdur. Füzuli bədii əsərlərini Azərbaycan (türk), fars və ərəb dillərində yaratmışdı. Füzulinin divanları ilə yanaşı "Leyli və Məcnun", "Şah və gəda", "Rind və Zahid", "Səhhət və Mərəz", "Şikayətnamə", "Ənis-ül qəlb", "Həqiqət üs-şüəda" (Həqiqət baxçası), "Qırx hədisin tərcüməsi" və "Mətlə ül-etiqad" adlı bədii əsərləri dünya, o cümlədən Ön Asiya poeziyasının inciləri hesab edilir. O, fəlsəfi və elmi əsərlərini isə fars və ərəb dillərində yazmışdır. Füzuli dahi Nizami Gəncəvinin fəlsəfi poeziyasını, islamın rasional təlimlərini, sufilik və digər cərəyanların və təriqətlərin fəlsəfi təlimlərini gözəl bilirdi və onlardan öz bədii yaradıcılığında geniş istifadə etmişdi. Füzuli "Mətlə ül-etiqad" fəlsəfi əsərində elmlərin təsnifatını vermişdi. O, elmləri iki qrupa bölür: birinci qrupa təcrübi elmləri (əxlaq, evdarlıq və siyasət), ikinci qrupa isə nəzəri elmləri (ilahiyyat, riyaziyyat və təbiət) aid edir.

XVI-XVII əsrlər Azərbaycanda müxtəlif fəlsəfi fikirlərin, xüsusilə sufiliyin geniş yayıldığı dövr olmuşdur. Bu dövrün fəlsəfi fikir nümayəndələri Saib Təbrizi, Qövsi Təbrizi və Yusif Qarabağının dünyagörüşü insanpərvərlik, azad fikirlilik, ədalətlilik və xeyirxahlıq ruhundadır.

XVIII əsrdə Azərbaycanda elm sahəsində elə bir ciddi irəliləyiş olmamışdı. Coğrafiyaşünas alim Hacı Zeynalabdin Şirvani və onun qardaşı Hacı Məhəmmədəli Şirvani, tarixçi alim Əbdürrəzzaq bəy o dövrün tanınmış şəxsiyyətləri idilər. Hacı Zeynalabdin Şirvani ömrünün qırx ilini Avropa, Asiya və Afrikanın bir çox ölkələrində səyahətdə keçirmişdi. O, olduğu yerlər, gördüyü xalqlar haqqında külli miqdarda material toplamışdır. O, "Riyaz üs-səyahət" ("Səyahət baxçaları"), "Hədayiq üs-səyahət" ("Səyahət bağları"), "Bustan üs-səyahət" ("Səyahət bostanları"), "Kəşf ül-maarif" ("Mərifətlərin kəşfi") və b. əsərlərin müəllifidir. H.Z.Şirvani səyyah və coğrafiyaşünas olmaqla yanaşı, həm də tarixçi, etnoloq, filosof və şair kimi

də tanınmışdı. H.Z.Şirvani Azərbaycan toponimlərinə dair materialları "Bustan üs-səyahət" əsərində vermişdir. H.Z.Şirvaninin kiçik qardaşı Hacı Məhəmmədəli Şirvani Türkiyə, Misir, İraq, İran, Əfqanıstan, Hindistan və başqa ölkələri gəzmiş, öz təəssüratını "Həqiqətən əl-həqail" ("Həqiqətlərin həqiqəti") adlı əsərində əks etdirilmişdir. O, da qardaşı kimi həm də tarixçi, filosof və şair olmuşdur.

XVIII əsrin ikinci yarısı XIX əsrin əvvəllərində yaşamış, ensiklopedik biliyə malik olan alim Əbdürrəzzaq bəy Dünbuli Təbriz xanı Nəcəfqulu xanın oğlu olmuşdur. O, on yaşında ikən Şirazda Kərim xan Zəndin yanında girov saxlanmışdı. Yalnız Kərim xan Zəndin ölümündən sonra vətəninə qayıtmışdır. Əbdürrəzaq bəy antik və Şərq fəlsəfəsinin dərin bilicisi idi. Onun tarix, etnologiya, ədəbiyyat və fəlsəfəyə dair əsərləri vardır. Məftun təxəllüsü ilə yazan Ə.Dünbulinin yaradıcılığında "Həqaiq əl-Ənvər", "Hədaiq əl-üdəba", "Məsnəvi", "Humayunnamə" əsərləri xüsusi yer tutur.

Azərbaycan mədəniyyəti tarixinin görkəmli nümayəndəsi Mirzə Əbutalib xan Təbrizinin yaradıcılığı da XVIII əsrə aiddir. Nadir şahın hakimiyyəti dövründə Hindistana köçmüş azərbaycanlı ailəsində anadan olan Əbutalib xanın yaradıcılığında tarixi əsərlərlə yanaşı orta əsrlər şairlərinin yaradıcılığına həsr olunmuş tədqiqatlar da xüsusi yer tutur. Onun 1791-ci ildə yazdığı "Xülasət ül-əfxar" əsərində Şərq poeziyasının digər nümayəndələri ilə bərabər görkəmli Azərbaycan şairi Xaqaninin yaradıcılığı da tədqiq edilmişdir.

Azərbaycan mədəniyyəti tarixi üçün ənənəvi olan klassik mədəniyyətin tədqiqi və təbliği XVIII əsr fəlsəfi fikir tarixində də xüsusi yer tutmuşdur. XVIII əsr panteist fəlsəfəsi Azərbaycanda sufizmin ideoloqu Mirzə Həsən Zünuzinin "Bəhr əl-ülum" və "Biyaz ül-cənnət" əsərlərində öz əksini tapmışdır.

**14.2. Orta əsrlər Azərbaycan ədəbiyyatı.** X-XII əsrlər bütün müsəlman mədəniyyətinin, o cümlədən onun mühüm tərkib hissəsi olan Azərbaycan ədəbiyyatının ən məhsuldar





dövrlərindən biri hesab edilir. Bu dövrdə ərəb-fars dillərində yazıb-yaratmış Azərbaycan şairləri öz əsərlərində dövrün ümummüsəlman mədəniyyətini ən yüksək səviyyəyə qaldırmışlar. XI-XII əsrlərdə yazıb-yaratmış Azərbaycan şair və mütəfəkkirlərinin türk (Azərbaycan) dilində qələmə aldıqları heç bir əsər bizə gəlib çatmasa da qaynaqlarda belə əsərlərin mövcudluğu haqqında məlumat verilir.

Bu dövrdə Azərbaycan poeziyasının inkişafında Təbriz ədəbi məktəbinin nümayəndələri xüsusi yer tuturlar. Təbriz ədəbi mühitinin yetişdirmələri olan Hüseyn Təbrizi, Xətib Təbrizi, Qətran Təbrizi və b. fars dilində gözəl qəzəllər və şeirlər yazmışlar.

XII əsrin əvvəllərindən başlayaraq Azərbaycan poeziyasında Əbül Üla Gəncəvi, Xaqani Şirvani, Fələki Şirvani, İzzəddin Şirvani, Müzirəddin Beyləqani, Məshəti Gəncəvi və Nizami Gəncəvi kimi dahi söz ustaları öz gözəl əsərləri ilə bu ədəbiyyatın xəzinəsinə qiymətli töhfələr vermişlər.

Əfzələddin Xaqani Şirvani (1121-1199) öz yaradıcılığı ilə Yaxın və Orta Şərq xalqlarının poeziyasında yeni səhifə açdı. Ensiklopedik biliyə malik olan bu görkəmli şair o dövrdə fars dilinin hökmranlıq etdiyi şeir dilinə doğma Azərbaycan sözlərini ustalıqla gətirdi. Xaqaninin poeziyaya gətirdiyi yeniliklərdən biri də şerlərdə işlətdiyi fəlsəfi fikirlərdi. Belə fəlsəfi fikirlər ilk dəfə onun məşhur "Həbsiyyə" qəsidələr silsiləsində, "Tövhətül-İraqeyn" məsnəvisində və "Mədain xarabaları" əsərində öz əksini tapmışdır.

Azərbaycanın ilk görkəmli qadın şairi Məshəfi Gəncəvinin dastana dönmüş həyatı haqqında məlumatı XV-XVI əsrlərin şifahi xalq yaradıcılığı məhsulu olan "Məshəti və Ənvər Əhməd" dastanından bəllidir. Ehtimal ki, dastanda olan şeirlər XII-XIII əsrlərdə yaratmış Məshəti Gəncəviyə məxsusdur.

XII-XIII əsrlər Azərbaycan ədəbiyyatının ən görkəmli siması Nizami Gəncəvi olmuşdur. Şərq xalqlarının və bütün bəşəriyyətin böyük şairi, şeir dünyasının Allahı adlandırılan Şeyx

İlyas Yusif oğlu Nizami (1141-1209, 7 cildlik “Azərbaycan tarixi” kitabında isə bu rəqəmlər 1140-1214 kimi qeyd olunmuşdur), Gəncə şəhərində yaşamışdır. Nizami Gəncəvi hərtərəfli və mükəmməl təhsil almış, elmin müxtəlif sahələrində dərin biliyə malik olan böyük mütəfəkkirdir. O, 1177-ci ildə tamamladığı “Sirlər xəzinəsi” adlı bir poeması ilə Şərq xalqlarının bədii təfəkkür tarixində və Azərbaycan ədəbiyyatında yeni bir dövr açmışdır. Nizami Gəncəvi “Xəmsə” adı ilə məşhur olan 5 poemanın - “Sirlər xəzinəsi”, “Leyli və Məcnun”, “Xosrov və Şirin”, “Yeddi gözəl” və “İskəndərnamə”nin müəllifi kimi öz adını əbədi olaraq tarixə yazmışdır. Nizami dühası Azərbaycan poeziyasını əlçatmaz zirvəyə qaldırmışdır. XIII əsrdən bəri dünyada elə bir söz ustası tapılmaz ki, Nizami ideyalarının ecazkar təsiri altına düşməsin.

XIII-XV əsrlərdə Azərbaycanda, çox çətin şərait olsa da, ədəbi yaradıcılıq inkişaf etmişdi. Bu dövr saray ədəbiyyatının, qəsidə, şeir janrının nisbətən zəiflədiyi bir dövrdür. Nəimi və Nəsimi kimi görkəmli şairlərin yaradıcılığı ideya istiqaməti baxımından saray ədəbiyyatına, məddahlığa yabançı idi. Lakin Seyid Zülfüqar Şirvani və Arif Ərdəbili kimi şairlər saray şeirinin ənənələrini davam etdirirdilər.

XIV əsrdə Azərbaycan şeiri nisbətən daha sürətlə inkişaf etmişdir. 1376-cı ildə tamamladığı “Mehr və müştəri” poeması ilə Azərbaycan ədəbiyyatı tarixinə düşmüş Əssar Təbrizi Nizami ənənələrini davam etdirərək xalq dastanlarının yazılı ədəbiyyata gətirilməsi işinə xidmət göstərmişdi.

Bu dövrdə Azərbaycanda təşəkkül tapmış hürufilik təriqəti ədəbi inkişafa xeyli təsir göstərmişdir. Fəlsəfi məzmun baxımından sufizm ilə üzvi surətdə bağlı olmuş hürufilik təriqətinin əsasını məşhur şair və mütəfəkkir Fəzlullah Nəimi Təbrizi (1330-1396) qoymuşdur. Nəiminin şeirlərindən bir qismi Sankt-Peturburqda, qəzəl, tərcibənd, qitə və rübailərdən ibarət olan divanın əl yazması isə İstanbulda saxlanılır.





XIII-XV əsrlərdən etibarən Azərbaycan dilində yaranmış poeziya nümunələrinin artması ilə əlaqədar olaraq ərəbcə və farsca bədii əsər yazmaq ənənəsi tədricən zəifləməyə başladı. XIII əsrdən bizə gəlib çatmış Əli adlı bir şairin “Qisseyi-Yusif” əsərini Azərbaycan dilində yazılmış ilk bədii əsər hesab etmək olar. 1223-cü ildə tamamlanmış bu əsər həm Azərbaycan dilinin, həm də poeziyamızın tarixini öyrənmək baxımından çox əhəmiyyətlidir.

Azərbaycan dilində yazılmış İzzəddin Həsənoğlunun iki qəzəli və Nəsir Bakuvinin son illərdə üzə çıxmış müxəmməsini xüsusilə qeyd etmək lazımdır. Təbiidir ki, Bakuvinin bu müxəmməsini XIII əsrdə Azərbaycan dilində yazılmış ilk əsər kimi qiymətləndirmək olmaz. “Kitabi-Dədə Qorqud” kimi bədii cəhətdən zəngin bir yazılı abidə aydın surətdə göstərir ki, hələ XIII əsrə qədərki dövrdə Azərbaycan dilində ədəbi əsərlər yaradılmışdır.

XIV əsrdə Azərbaycan dilində yaradılmış şeir nümunələri içərisində Qazi Bürhanəddin (1344-1398) əsərləri böyük maraq doğurur. XIV əsrin ikinci yarısı – XV əsrin əvvəllərində isə Azərbaycan şeirinin inkişafında İmadəddin Nəsimi (1369-1417) mühüm rol oynamışdır. Nəsimi Azərbaycan dilində böyük divan yaratmışdır. O, ərəb və fars dillərində də şeir yazmış, lakin Azərbaycan dilində yazdığı şeirləri doğma dilin tarix səhnəsinə çıxmasını, elm və mədəniyyət vasitəsi kimi möhkəmlənməsini təmin etmişdir. Nəsimi Azərbaycan ədəbi dilini canlı xalq dili hesabına zənginləşdirmiş, şeiri bədii ifadə vasitələri, janr, vəzn və ahəng cəhətdən inkişaf etdirmişdir.

Nəsimi Azərbaycan ədəbiyyatının klassiklərindən biri olmaqla bərabər Azərbaycanda hürufilik fəlsəfi təliminin ən böyük nümunələrindən də biri olmuşdur. Nəsimi əvvəllər sufiliyə aludə olmuşdu. Lakin sonralar hürufiliyə bağlanmış və hürufiliyin banisi şair Nəimini özünün ustadı hesab etmişdir. (Nəimi 1402-ci ildə Naxçıvanda Əmir Teymurun oğlu Miranşah tərəfindən edam edilmişdir.) Nəsimi öz yaradıcılığında mükəmməl

bildiyi üç dildən (Azərbaycan, ərəb və fars) istifadə edərək müsəlman Şərqinin bir sıra ölkələrində bu təlimin geniş yayılmasında iştirak etmişdir.

Nəsimi hürufilik təliminin sıravi təbliğatçısı olmamışdır. Humanist şairin yaradıcılığında mərkəzi yeri İnsan tutur. Onun fikrincə, son məqsəd və həqiqət İnsandır. O, İnsana kainatın təcəssümü və yaradıcısı kimi yanaşır, İnsanı bütün mövcudatın, varlığın səbəbi hesab edir. "İnsan - Allahdır" tezisinin əsaslandırılması və hərtərəfli inkişaf etdirilməsi Nəsimi poeziyasında əsas yer tutur.

XV-XVII əsrlərdə Azərbaycan ədəbiyyatında poeziya janrı inkişaf zirvəsinə çatmışdı. Azərbaycan ədəbiyyatının inkişaf tarixində bu dövrdə yazıb-yaratmış Məhəmməd Füzulinin yaradıcılığı xüsusi yer tutur. Füzuli Azərbaycan ədəbiyyatının çoxəsrlik ənənələrini mənimsəmiş, onları yaradıcı surətdə inkişaf etdirmiş, ədəbiyyata yeni məzmun və bədii keyfiyyətlər gətirmişdir. Üç dildə ölməz əsərlər yaratmış bu dahi sənətkar yalnız Azərbaycanda deyil, bütün Yaxın Şərqdə, Türkiyə, İran və Orta Asiyada tanınmış, bu ölkələrin xalqlarının ədəbiyyatlarına güclü təsir etmişdir. Onun "Bəngü badə", "Şikayətnamə", "Leyli və Məcnun", "Söhbətül-əsmar", "Həft cam", "Ənis ülqəlb" poemaları, "Səhhət və Mərəz", "Rindü zahid" adlı nəsr əsərləri, "Mətlə ül-etiqad" adlı fəlsəfi əsəri və qəzəlləri dünya ədəbiyyatının incilərindən hesab edilir. Füzulinin yaradıcılığı təkcə Azərbaycanda deyil, Türkiyə, Rusiya, Yaxın Şərq və Avropada da tədqiq edilmiş və yüksək qiymətləndirilmişdir.

Azərbaycan xalqının tarixinə görkəmli dövlət xadimi kimi düşmüş Şah İsmayıl Xətai istedadlı bir şair kimi də Azərbaycan ədəbiyyatı tarixinə düşmüşdür. Şairin ədəbi irsi Azərbaycan dilində yazılmış "Divan"dan, ibrətamiz mənzumələrdən, lirik qoşmalardan, "Nəsihətnamə" adlı məsnəvidən və "Dəhnamə" poemasından ibarətdir. Üç dildə şeir yazmaq qabiliyyəti olan Xətainin əsərlərinin böyük qismi Azərbaycan dilin-





dədir. Onun yaradıcılığında xalq dilindən, əruz və heca vəznlərindən, folklordan geniş istifadə olunmuşdur.

XVII əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri də Saib Təbrizi olmuşdur. Azərbaycan və fars dilində şeirlər yazan Saib Təbrizinin yaradıcılıq irsi 120 min beytin toplusu olan 7 divandan, "Qəndəharnamə", "Mahmud və Ayaz" adlı məsnəvilərdən, "Səfineyi-Saib" məcmuəsindən ibarətdir. Saib Təbrizinin poeziyası Yaxın Şərq ölkələri ədəbiyyatının, Hindistanda irandilli poeziyanın inkişafına böyük təsir göstərmişdir.

Bu dövrdə Şah İsmayıl Xətainin sarayında fəaliyyət göstərən şairlər məclisinin Azərbaycan ədəbiyyatı tarixində özəl yeri olmuşdur. Həmin məclisə "Məlik üş-şüəra" adlanan Həbibi başçılıq edirdi.

XVI-XVII əsrlər ədəbiyyatı yazılı poeziya ilə yanaşı, folklorun müxtəlif forma və janrlarının geniş inkişafı ilə də səciyyələnir. Şah İsmayıl Xətainin hakimiyyəti illərində Azərbaycan dilində yazan aşıqlar da sarayın himayəsindən bəhrələnirdilər. Çox qiymətli qəhrəmanlıq və məhəbbət dastanlarının təşəkkül prosesi XVI əsrin sonu – XVII əsrin başlanğıcına təsadüf edir. Bu dövr xalq yaradıcılığının qüdrətli məhsulları "Koroğlu", "Şah İsmayıl", "Aşıq Qərib", "Abbas və Gülgəz" və "Əsli və Kərim" dastanlarıdır. Bu dövr xalq poeziyasının görkəmli nümayəndələrindən aşıq Qurbani, aşıq Abbas Tufarqanlı və Sarı Aşıq Abdulla daha çox tanınırdılar. ("Abbas və Gülgəz" dastanı XVII əsrdə aşıq Abbas Tufarqanlının lirik şeirləri əsasında formalaşmışdır).

XVIII əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi Molla Pənah Vaqif olmuşdur. Vaqif savadı və qabiliyyəti sayəsində Qarabağ xanının baş vəziri işləmişdir. Vaqif Azərbaycan ədəbiyyatının ən görkəmli lirik şairlərindən biridir. O, astronomiya və memarlıq haqqında məlumatı ilə də dövrünün görkəmli şəxsiyyəti kimi fərqlənirdi. Onun həyatı faciəli olmuşdur. Vaqif 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın

Qarabağa hücumunun qarşısının alınmasında fəal iştirak etmişdi. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşanı ələ keçirdikdə Vaqif həbsxanaya salınır. Lakin Ağa Məhəmməd şahın öldürülməsi şairin həbsxanadan azadlığa çıxmasına səbəb olsa da, onun həyatını xilas etmir. Şair saray çəkişmələrinin qurbanı olur.

Vaqif yaradıcılığı üçün xəlqilik, canlı və ifadəli dil, obrazlar zənginliyi, cilalanmış bədii sənətkarlıq və gerçəkliyin nikbin ifadəsi səciyyəvi cəhətlərdəndir. O, nikbin şair kimi Azərbaycan poeziya tarixində xüsusi yer tutur. Həyat sevinclərini tərənnüm edən şair dövrünün ədalətsizliklərinə və insan əzablarına da biganə deyildi. Vaqif "Görmədim" müxəmməsində dövrünün ümumbəşəri nöqsanlarını, ədalətsizlikləri lakonik şəkildə ifadə etmişdir:

"Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim."

Vaqif klassik Şərq poeziyasının sirlərinə, onun bədii ifadə formalarına dərindən yiyələnmiş, onları aşıq poeziyası ilə üzvi surətdə bağlamışdı. Nəticədə xalq şeir formaları olan qoşma yazılı poeziyada geniş tətbiqini tapmışdı.

XVIII əsr Azərbaycan ədəbiyyatının ikinci görkəmli nümayəndəsi Molla Vəli Vidadi olmuşdur. Vaqif və Vidadi dost olmuşlar. Bu iki dost şairi müəyyən amillər bir-birinə yaxınlaşdırmışdı. Vaqif və Vidadi birlikdə Azərbaycan poeziyası dilini, şeir formasını dəyişmiş, onu xalq üçün daha anlamlı etmişlər. Vaqif və Vidadi yaradıcılığında klassik və xalq ənənələri birləşsə də, onların hər biri özünəməxsus tərzdə, bir-birindən fərqli halda həyatı dərk etmiş və xalqa çatdırmışlar. Bu da onların yaradıcılığında təkrarolunmaz iz buraxmışdır.

Vidadi iri həcmli müxəmməslər də yazmışdır. Onun "Müsibətnamə"si incəsənəti hümayə edən görkəmli Şəki xanı şair Hüseyn xan Müştaqa həsr edilmiş şeirlər sırasında ən önəmlisidir. Vidadi "Müsibətnamə"də Hüseyn xanı düşmən əhatəsində təsvir edir, onu taxtdan salmaq istəyən namərd düşmənlərini qəzəblə lənətləyir. Hüseyn xan Müştaqın obrazında Vidadi özünün adil və vicdanlı hökmdar haqqında arzusunu əks etdirmişdi.





XVIII əsrdə Şəki xanlarına qulluq edən şair Nəbi yaradıcılığının bir hissəsini Hacı Çələbi xana həsr etmişdir. Onun müxəmməslərində Hacı Çələbi xanın Nadir şaha qarşı cürətli çıxışı və digər hərbi yürüşləri öz bədii əksini tapmışdır. Aşıq Şikəstə Şirvaninin poeması isə Ağa Məhəmməd şah Qaçarın 1795-ci ildə Tiflisi tutması ilə əlaqədar baş vermiş faciəli hadisələrə həsr edilmişdi. Poemada əhalinin qarət olunması ürək ağrısı ilə təsvir olunur.

XVIII əsr də, əvvəlki yüzillikdə olduğu kimi, aşıq poeziyasının yüksəlişi dövrü olmuşdur. Bu dövrdə Aşıq poeziyasının ən böyük ustadı Xəstə Qasım idi. Onun ustadnamələrindən həm XVIII əsrdə, həm də sonrakı əsrlərdə yaradılmış bir çox dastanların giriş hissələrində geniş istifadə olunmuşdur.

XVIII əsr Azərbaycan şifahi xalq ədəbiyyatına bir sıra maraqlı nəsr nümunələri də vermişdir. Onlardan ən maraqlısı "Şəhriyar" dastanıdır. Əsər naməlum müəllif tərəfindən "Şəhriyar və Sənubər" adlı xalq dastanı əsasında yazılmışdır. Əsərdə silki bərabərsizliyin amansızlığı təsvir edilir. Şəhriyar tacir oğludur, Sənubərin atası isə zadəgandır. Şəhriyarın atası varlı da olsa Sənubərin zadəgan atası onunla qohum olmağı özünə əskiklik bilir. Yalnız Şəhriyar Tiflisin hakimi təyin edildikdən sonra sosial durum dəyişir, sevgililər sosial iyerarxiya pilləsində bərabərləşirlər və bir-birinə qovuşurlar. Dastanda sosial durumlarından asılı olmayaraq bir neçə təmiz, ağıllı, cəsarətli və tədbirli insan obrazları vardır. Bu obrazlar insanların şəxsi keyfiyyətlərinin, qabiliyyətinin onların sosial mənsubiyyətindən asılı olmadığının nümunələri kimi verilmişdir.

Orta əsrlər Azərbaycan ədəbiyyatı milli mədəniyyətimizin təkamülündə mühüm mərhələ olmuşdur. Bu dövrün nailiyyətləri sonrakı yüzillikdə Azərbaycan ədəbiyyatının keyfiyyətcə yeni inkişaf mərhələsi üçün təməl yaratdı.

**14.3. XI-XVIII əsrlərdə Azərbaycanda incəsənət və memarlıq.** XIII-XV əsrlərdə Azərbaycanda musiqiçilərlə yanaşı, musiqi nəzəriyyəçiləri də yetişmişdi. Təbriz şəhərində Nəsiraddin Tusi, Səfiəddin Urməvi, Əbdülqadir Marağayi, Xacə Rizvanşah Təbrizi, Hafiz və Yusifşah kimi musiqişünaslar yaşayırdı. Səfiəddin Urməvi, Əbdülqadir Marağayi və Xacə Rizvanşah Təbrizi Azərbaycan ənənəvi musiqi nəzəriyyəsinin, peşəkar musiqi məktəblərinin və not yazılışı sahələrinin baniləri hesab olunurlar.

Məşhur xanəndə olmuş Əbdülqadir Marağayi (1353-1435) mahnılara özü şeir yazırdı. Onun Azərbaycan, fars və ərəb dillərində yazdığı şeirlərdən nümunələr indiyədək qalmışdır. Onun bəstələdiyi bir mahnının sözləri Azərbaycan dilində yazılmış "Bizi unutma" rədifli şeiri geniş yayılmışdı. O, Miranşahın hakimiyyəti dövründə Səmərqənddən Təbrizə qayıtmış və saray musiqiçiləri Həbib Udi, Qütbəddin Nai və Əbdülmömin Quyəndə ilə musiqi fəaliyyətini davam etdirmişdi. Miranşah atdan yıxınlığı üçün əsəbləri pozulmuş və günlərini eyş-işrətdə keçirirdi. Bundan qəzəblənən Əmir Teymur Təbrizə gələrək Miranşahı guya eyş- işrətə məcbur edən həmin məşhur musiqiçiləri edam etdirmiş, Əbdülqədir Marağayi isə canını qurtarıb Bağdada Əhməd Cəlairinin yanına qaçmışdı. Əmir Teymur Bağdadı tutduqdan sonra Əbdülqədirin edam olunmasını əmr etdi. Kəndir boğazında ikən görkəmli musiqişünas və müğənni bir Quran ayəsini muğam musiqisi axarında xoş avazla oxuyur. Bu Əmir Teymurun xoşuna gəlir, ölüm hökmünü ləğv edir.

Azərbaycan musiqisi Qaraqoyunlu və Ağqoyunlu hökmdarlarının dövründə xeyli inkişaf etmişdir. Bu dövrdə musiqi təkcə sarayda deyil, Təbrizin 30 min tamaşaçı tutan "Qurd meydanı"nda təşkil edilən müxtəlif məclislərdə də səslənirdi. Təbrizin musiqi həyatı Avropa səyyahlarının və elçilərinin də diqqətini cəlb etmişdi. Avropalı müəllif Barbaronun yazdığına görə Təbrizin meydanında uzunluğu bir gəzdən artıq olan cəng, ud, bərbət, ney və sinc çalınırdı.





Orta əsrlərdə Azərbaycanda təsviri incəsənət də inkişaf etməkdə idi. Təsviri sənətin əsas və daha çox tərəqqi etmiş növünə kitab tərtibatını və miniatür sənətini  misal göstərmək olar. Marağa, Təbriz və Şamaxı şəhərində dini və dünyəvi məzmunlu çoxlu əlyazma kitabları hazırlanmışdır. Kitablar əlvan miniatür rəsmləri ilə bəzədilirdi. Təsviri incəsənətin məhz bu sahəsində Azərbaycan xalqı dünya mədəniyyətində önəmli yer tutur. Azərbaycan miniatür sənəti müsəlman Şərqində miniatür rəssamlığının ümumi inkişafı prosesində aparıcı rol oynamışdır. XIII əsrdə "Vərqa və Gülşa", XIV əsrdə "Cami ət-təvarix" kimi məşhur əlyazmalarına çəkilmiş miniatürlər Azərbaycanda bədii sənət ənənələrinin mövcudluğunu, yeni bədii məktəbin yarandığını sübut edir. 1330-1340-cı illərdə Təbriz miniatür rəssamlığı məktəbində Firdovsinin "Şahnamə"sinə çəkilmiş miniatürlər nəinki Azərbaycan miniatür sənətinin, habelə bütün Şərq rəssamlıq sənətinin inkişafında yeni və yüksək mərhələni təşkil edir. Həmin miniatürlərin böyük bir hissəsini ustad rəssam Şəmsəddin çəkmişdir. Miniatürlərin başqa qismini onun şagirdi, XIV əsrin tanınmış rəssamı Əbdül Xoyluya aid edirlər.

Bu dövrdə Təbriz məktəbinin incilərindən biri Nizami "Xəmsə"sinin 1481-ci ildə tərtib edilmiş əlyazmasıdır. Əlyazmanı saray xəttatı Əbdürrəhim əl-Yaqubi tərtib etmişdir. Rəssamlardan Şeyxi və Dərviş Məhəmməd bu əlyazmasını 19 miniatürlə zənginləşdirilmişdir. Özlərinin quruluşu və kolorit həllinə görə bu rəsmlər XIV əsrin əvvəllərinin ən yaxşı miniatürləri hesab edilirlər. Hazırda bu nüsxə İstanbulun Topqapı muzeyində saxlanılır.

XVI əsrdə də Azərbaycan miniatür rəssamlığı çoxəsirlik ənənələrini davam etdirirdi. Tariximizin Səfəvilər dövrünün miniatür sənəti İslamın rəssamlığa mənfi, qadağaedici münasibət bəsləməsi haqqında qeyri-obyektiv fikri təkzib edir. XVI əsrdə özünün yüksək mərhələsinə çatmış Təbriz miniatür məktəbinin meydana gəlməsi və təkmilləşməsi mənbələri müxtəlif olmuşdur. Təbriz miniatür məktəbi monqolların gəlişi

ilə uyğur rəssamlığının, Bağdad məktəbi vasitəsilə əxz olunmuş ərəb boyakarlığı ənənələrinin və yerli təsviri sənət dəyərlərinin sintezi kimi təşəkkül tapmışdı. Təbriz rəssamlıq məktəbinin böyük uğurlar qazanmasında Kəmaləddin Behzad (1450-1536) mühüm rol oynamışdır.

XVI əsrdə Təbriz məktəbinin təsiri ilə kitab sənəti və miniatür rəssamlığı Şirvanda da inkişaf etmişdi. Sədi Şirazinin "Bustan" əsərinin 1539-cu ildə tərtib edilmiş əlyazmasındakı miniatürlər Müzəffərəli Şirvani və Əbdüllətif Şirani tərəfindən çəkilmişlər. (Həmin nüsxə İstanbulda Topqayı muzeyində saxlanılır).

XVII əsrdə Azərbaycan rəssamlıq sənətində durğunluq dövrü başlanır və XVIII əsrdə miniatür sənəti tamamilə tənəzzülə uğrayır. (Azərbaycanda miniatür rəssamlığı yalnız XIX əsrin II yarısından sonra dirçəlməyə başlamışdır).

XVI-XVII əsrlər Azərbaycan sənətkarlığı tarixdə zəngin dövrlərdən biri sayılır. Bu dövrdə Azərbaycan şəhər və kəndlərində xeyli zərgər, misgər, toxucu və duluscu çalışırdı. Onların hazırladıqları sənət nümunələrinin şöhrəti ölkənin hüdudlarını aşmışdı. Bu dövrdə Azərbaycanda əsl mənada bədii parça istehsalı sənayesi yaradılmışdı. Azərbaycanda istehsal edilən bədii parça nümunələri Venetsiya, Geniya, Fransa, Hollandiya, İngiltərə və Rusiyada böyük şöhrət tapmışdı.

XVI-XVII əsrlərdə Azərbaycanda xalçaçılıq sənəti də yüksək inkişaf mərhələsinə çatmışdı. Bu dövrün xalçalarında nəbati naxışlara daha çox üstünlük verilirdi. Bu dövrün naxışlı xalçaları arasında 1530-cu ildə Ərdəbildə Şeyx Səfi məscidi üçün toxunmuş və hazırda Nyu-Yorkun "Metropoliten" muzeyində saxlanılan xalını və 1539-cu ildə Təbrizdə yenə həmin məscid üçün toxunmuş və hazırda Londonun "Viktoriya və Albert" muzeyində saxlanılan xalını xüsusi olaraq qeyd etmək lazımdır. "Şeyx Səfi" adı ilə məşhur olan və 1893-cü ildə ingilislər tərəfindən alınıb Londona aparılan qeyd etdiyimiz həmin Təbriz xalçasının eni 5,34 metr, uzunluğu





10,51 metrdir. Həmin xalı dünya muzeylərində saxlanılan nadir incəsənət nümunələrindən sayılır. Bu dövrün Şirvan, Qarabağ, Gəncə və Qazax xalçaları naxışlarının məzmunu etibarı ilə Təbriz və Ərdəbil xalçalarına oxşasalar da, üslub xüsusiyyətlərinə görə onlardan fərqlənirlər. Mütəxəssislər Təbriz və Ərdəbil xalılarının rəsm və naxışlarının digər mərkəzlərdə toxunan xalılara nisbətən daha çox real bəzək ünsürlərinə malik olduqlarını qeyd edirlər.

XVI-XVII əsrlərdə metaldan məişət avadanlığı, bəzək şeyləri və silah hazırlamaq işi Təbriz, Ərdəbil, Naxçıvan, Gəncə, Şamaxı və Bakı şəhərlərində xüsusilə inkişaf etmişdi. Metal məmulatı üzərində Nizaminin əsərlərindən alınmış surətlərin həkk olunması XVI əsrdə geniş yayılmışdı.

Daşişləmə sənətinin XVI-XVII əsrlərə aid nümunələrinə məzarüstü daşlarda rast gəlmək olar. Məzar daşları müxtəlif forma və bəzəklərdə tərtib edilir. XVI-XVII əsrlərə aid ən zərif və orijinal üslubda oyma yolu ilə hazırlanmış məzar daşlarına Abşeron, Şamaxı, Bərdə, Laçın, Naxçıvan, Gəncə, Lerik və Qəbələ ərazilərində rast gəlmək mümkündür.

Azərbaycanda XVI-XVII əsrlərə aid daş qoç fiqurları xüsusilə geniş yayılmışdı. Bu da Azərbaycanda qoyunçuluq təsərrüfatının inkişaf etməsilə, qədim dövrdən fərqli olaraq orta əsrlərdə Azərbaycan xalqının qoyun ətinə qida məhsulu kimi daha çox üstünlük verməsilə əlaqədardır. Daş üzərində oyma bəzəklər və şəbəkə bəzəyi vurma sənəti də inkişaf etmişdi. XVI-XVII əsrlərdən bizə şəbəkəçilik sənətinin iki gözəl nümunəsi gəlib çatmışdır. Onlardan biri Gəncədə Cümə məscidinin minarəsi, o biri isə Qusar rayonunda Həzrə kəndindəki Şeyx Cüneyd türbəsinin qəbirüstü daşıdır.

XVIII əsr təsviri incəsənətinin geniş yayılmış və inkişaf etmiş sahəsi divarüstü boyakarlıq olmuşdur. XVIII əsr divarüstü boyakarlıq sənətinin ən gözəl nümunələri memarlıq abidələrində zəmanəmizə qədər gəlib çatmışdır.

XVIII əsrdə Azərbaycanda divar naxışlarının ən tipik və gözəl nümunələri "Şəki xan sarayı"nda, Şəkixanovların evində, Lahıc, Şuşa, Ordubad və digər şəhərlərdəki yaşayış evlərinin, ictimai tikililərin interyerlərində qorunub saxlanmışdır. Azərbaycan divar naxışlarında fantastik və real heyvan, quş, eləcə də nağıl qəhramanlarının təsvirləri ilə yanaşı, portret xarakterli və süjetli tematik kompozisiyalar da vardır. Portret təsvirlərinin və insan fiqurları olan süjetli əsərlərinin ən yaxşı nümunələri Şəkixanovun evinin və "Şəki xan sarayı"nın memarlıq dekorunda qorunub saxlanmışdı. Portret xarakterli naxış Ordubad rayonu Vənənd kəndindəki bir yaşayış binasında da qorunub saxlanmışdır.

XVIII əsrdən bu günədək xeyli miqdarda dekorativ tətbiqi incəsənət nümunələri, o cümlədən, daş və ağac üzərində bədii oyma, metal üzərində döymə məmulatı, saxsı qablar, xalçalar, parçalar və naxışlı tikmələr qorunub saxlanmışdır. Müxtəlif dekorativ incəsənət növləri arasında aparıcı yer xalçaçılığa məxsusdur. XVIII əsrdə Quba, Bakı, Şamaxı, Qarabağ, Gəncə, Qazax, Təbriz və Ərdəbil xalçaları məşhur idi.

Xalq yaradıcılığının geniş yayılmış növlərindən biri də bədii tikmədir. Azərbaycan Milli Tarix Muzeyində saxlanılan həmin dövr bədii tikmə nümunələri onların yüksək səviyyəyə və müxtəlif icra texnologiyasına malik olduğunu göstərir.

Təkəlduz və güləbətin kimi ənənəvi üslubla yanaşı, XVIII əsrdə məişət əşyalarına, paltarlara bəzək vurulduqda müxtəlif metallardan – gümüş, bürünc və s. hazırlanmış dairə (pilə), və romblardan geniş istifadə olunurdu. Bu tikmələrdən daha çox Gəncə, Şuşa, Şəki, Qazax və Naxçıvanda istifadə olunurdu. Taxça üçün pərdələrdən və xonça örtüklərindən tutmuş at çulunadək ən müxtəlif əşyalar pilələrlə bəzədilirdi. Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan Qarabağ xanının təkəlduzla tikilmiş papağı, Naxçıvanda güləbətinlə işlənmiş qadın arxalığı, Şuşada hazırlanmış muncuqlu bürüncək XVIII əsr tikmələrinin ən gözəl nümunələridirlər.





XI-XII əsrlərdə Azərbaycanda şəhərlərin inkişafı ilə bağlı olaraq memarlıq yüksək zirvəyə qalxmışdı. Bu dövrdə Azərbaycan şəhərlərində gözəl saraylar, qəsrlər, karvansaralar, məqbərələr, türbələr, körpülər və s. memarlıq nümunələri yaradılmışdı. Bu dövrdə Təbriz, Marağa, Gəncə, Şamaxı, Naxçıvan, Bakı və b. şəhərlərdə tikilmiş qala divarları orta əsrlər memarlıq məktəblərinin xüsusiyyətlərini əks etdirməklə bərabər hər bir şəhərin ümumi memarlıq görkəminə uyğunlaşdırılırdı.

Azərbaycanın XI-XII əsrlər memarlıq nümunələrindən Bakının "Qız qalası", Marağanın "Qırmızı kümbəz türbəsi" və Naxçıvanın "Möminə xatun məqbərəsi" (Memar Əcəmi Əbubəkr oğlu tərəfindən 1186-cı ildə tikilmişdir) dünya şöhrətli memarlıq inciləri hesab edilirlər.

XIII əsrin ikinci yarısında Azərbaycan torpaqlarının Elxanilər dövlətinin əsas mərkəzi olması nəticəsində nisbi sabitliyin qərarlaşması ölkədə memarlığın inkişafı üçün də şərait yaratdı. Hələ Hülaku xanın dövründə Nəsirəddin Tusinin başçılığı ilə Marağada rəsədxana inşa edildi. Rəsədxana elmi mərkəz olmaqla yanaşı, həm də gözəl memarlıq kompleksi kimi məşhurlaşmışdı.

1297-ci ildə Şənb adlı yerdə Təbrizin yeni mərkəzinin əsası qoyuldu. "Şənbi-Qazan", yaxud "Qazaniyyə" adı ilə tanınmış bu kompleksdə Qazan xanın məqbərəsi mərkəzi yer tuturdu. Azərbaycanın qülləvari abidələri tipinə aid edilən bu məqbərə kaşılarla bəzədilmişdi. Memar Tacəddin Əlişah tərəfindən inşa edilmiş bu məqbərə qaynaqların verdiyi məlumata görə XVI əsrə qədər mövcud olmuşdur. O dövrdə Təbrizdə yaradılmış iri memarlıq kompleksi olan "Rəbi-Rəşidi", yaxud "Rəşidiyə" adlandırılan şəhərcik olmuşdur. Bu şəhərcik Qazan xanın vəziri Rəşidəddininin rəhbərliyi ilə salındığına görə belə adlanırdı. Rəşidiyyədə darülfünundan əlavə 24 iri karvansara, 1500 dükan, 30 min ev, hamamlar, kağız istehsal edən karxana, boyaqçı emalatxanası, sikkəxana,

dəyirmanlar, rəssamlıq və xəttatlıq emalatxanaları, xiyabanlar və bağlar da vardı.

Böyük karvan yollarının qovşağında yeni şəhərin – Sultaniyyənin əsasının qoyulması dövrün əlamətdar hadisələrindən biri olmuşdur. Sultaniyyənin inşasına XIII əsrin 80-ci illərində Arqun xanın dövründə başlamış və tikinti işləri 1305-ci ildə Ulcayqu xanın dövründə başa çatdırılmışdı. XIII-XIV əsrlərdə Təbriz və Sultaniyyənin memarlıq simasına dair yeganə təsviri sənət XVI əsrin 30-cu illərində Sultan Süleymanın qoşunları tərkibində bu şəhərlərdə olmuş Mətrakçi Nasuhun rəsmidir.

Dövrün aparıcı memarlıq abidələri arasında məqbərələr geniş yer tuturlar. Naxçıvanın Qarabağlar kəndində XIV əsrin 30-cu illərində memar Əhməd Naxçıvani tərəfindən inşa edilmiş məqbərə xüsusilə diqqəti cəlb edir.

Müdafiə qurğularının bir qismini XIII-XIV əsrlərdə Abşeronda tikilmiş feodal qəsrləri təşkil edir. Adətən, bu qəsrlər qala divarları ilə əhatə olunmuş saray kompleksi və onların mərkəzində ucaldılmış qüllədən ibarət olurdu. Belə abidələrə 1232-ci ildə memar Əbdülməcid ibn Məsud tərəfindən inşa edilmiş Mərdəkandakı dördguşəli qülləyə malik qəsri, 1301-ci ildə memar Mahmud ibn Sədi tərəfindən Nardaranda inşa edilmiş qəsri, Ramana qəsrini və Şaqandakı qəsri misal göstərmək olar.

XIII-XIV əsrlərdə bir sıra mülki obyektlər (karvansara, hamam, su təchizatı şəbəkələri və b.) də inşa edilmişdi. Belə tikililərin ən yaxşı nümunələrindən biri 1388-ci ildə Nardaranda memar Güştəsif ibn Musa tərəfindən inşa edilmiş hamamdır.

Beləliklə, qeyd edilənlərdən məlum olur ki, monqol yürüşləri nəticəsində müvəqqəti tənəzzülə uğramış Azərbaycan mədəniyyəti, o cümlədən memarlığı XIII əsrin ikinci yarısından başlayaraq yeni yüksəliş mərhələsinə qədəm qoymuşdur. Mədəniyyət və incəsənət xadimləri keçmiş dövrlərdən əldə





edilmiş bilik və vərdişləri bərpa etmiş, Azərbaycan mədəniyyətinə mütərəqqi yeniliklər gətirmişlər.

Azərbaycan memarlıq sənəti XVI-XVII əsrlərdə də inkişaf etmişdir. Səfəvilər dövləti dövründə körpü, karvansara, hamam, kəhriz, quyu, ovdan, buzxana və s. tikililər geniş miqdarda aparılmışdı. Bu dövrün Azərbaycan memarlığında Şirvan-Bakı məktəbi aparıcı rol oynamışdır. Bu memarlıq məktəbinin mühüm abidələri Bakı, Şamaxı və Dərbənddə cəmləşmişdi. Yaxın və Orta Şərqin nadir memarlıq incilərindən olan Bakıdakı Şirvanşahlar saray kompleksi bu məktəbin tipik nümunəsidir. Bu kompleks saray, divanxana, Şirvanşahlar türbəsi (1435), ovdan (1436), hamam (1438), şah məscidi (1441), Keyqubad məscidi və Seyid Yəhya Bakuvinin türbəsindən ibarətdir. Səfəvilər dövlətinin möhkəmlənməsi və inkişafının nəticəsi olaraq, XVI əsrin ortalarından Azərbaycan memarlığının aparıcı mərkəzi Cənubi Azərbaycan şəhərlərinə keçdi. Təbriz şəhəri Səfəvilər dövlətinin paytaxtı kimi Azərbaycan bədii memarlıq sənətinin mərkəzi oldu. Səfəvilər sülaləsinin vətəni olan Ərdəbil şəhərinin yüksəlişi nəticəsində memorial memarlıq sənəti memarlığın diqqəti cəlb edən formalarından birinə çevrildi. Bu dövrün memarlıq abidələri arasında 1606-cı ildə Gəncədə inşa edilmiş məscid, Ordubad şəhərindəki məscid və mədrəsə binası da diqqəti cəlb edirlər.

XVIII əsrdə şəhərsalma sahəsində böyük işlər görülmüşdü. Şəhərsalmada xanlıqların paytaxtlarının öz xüsusiyyəti olmuşdur. Bu xüsusiyyət paytaxt kimi Azərbaycanın qədim tarixi şəhərlərinin seçilməsidir. Şamaxı 1734-cü ildə Nadir şah tərəfindən dağıdılmasına baxmayaraq yenidən bərpa edilmişdi. Şəki 1772-ci ildə baş vermiş seldən sonra yeni ərazidə, müasir şəhərin ərazisində salınmışdır. Bu dövrdə bir sıra xanlıqların yeni mərkəzləri də yaradılmışdı. Bununla əlaqədar şəhərsalma işində mühüm tədbirlərin aparılması müşahidə edilir. Şəhərsalmanın bu qrupuna Qarabağ xanlığının paytaxtı Şuşa şəhəri, Quba xanlığının paytaxtı Quba şəhəri və Talış xanlığının

paytaxtı Lənkəran şəhəri aiddir. O dövrün şəhərsalma işi üçün ən çox səciyyəvi olan obyektlər Şuşa və Şəki şəhərləridir. Şuşa salınarkən ilk növbədə təbii şəraitdən məharətlə istifadə edilmiş, ərazinin əlçatmaz, alınmaz olması nəzərə alınmışdır. Şəhər salınan əraziyə yalnız şimaldan yaxınlaşmaq mümkün olduğundan burada qala divarları tikilmişdir. Ona görə də Şuşa olduqca möhkəmləndirilmiş şəhər idi.

Azərbaycan Rusiya və İran arasında bölüşdürülməsindən sonra rus hökuməti tərəfindən Qafqazdakı bütün Azərbaycan xanlıqlarının paytaxtlarında olan xan sarayları dağıdıldığından bizə gəlib çatmamış, yalnız Şəkidə xanın mərasimlər keçirdiyi bina qalmışdır ki, o da "Xan sarayı" adı ilə xalqımızın nadir memarlıq abidəsi kimi qorunur.

Bu dövrdə dini binalar da inşa edilib: İrəvanda – "Göy məscid", Şuşada – "Gövhər ağa məscidi", Şəkidə – "Gilək məscidi", Ordubadda "Dilbər", "Yuxarı anbar", "Sərşahyar" məscidləri. Şamaxı, Quba, Şuşa və Qazaxda piramida şəkilli, səkkizguşəli günbəzli memorial tikililər – türbələr inşa edilmişdir.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi. 7 cilddə, 2-ci cild, s. 440-501, 3-cü cild, s. 123-181, 295-346, 460-488.
2. Azərbaycan incəsənəti. Bakı, 1992.
3. Ə.Səfərli və X.Yusifov. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1982.





# XV FƏSİL

## AZƏRBAYCANIN RUSİYA VƏ İRAN ARASINDA BÖLÜŞDÜRÜLMƏSİ

**15.1. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başlanması. Gülüstan müqaviləsi.** XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq durumu çox mürəkkəb idi. Azərbaycanın kiçik feodal dövlətləri olan xanlıqlar arasındakı çəkişmələr və ardı-arası kəsilməyən müharibələr, feodalların özbaşınalıqları və iqtisadi tənəzzül ölkə əhalisinin vəziyyətini ağırlaşdırırdı. Rusiyanın Cənubi Qafqazı işğal etmək niyyəti və İran işğalçılarının viranəedici yürüşləri ölkənin vəziyyətini daha da ağırlaşdırırdı. Osmanlı dövlətinin və Qərbi Avropa dövlətlərinin, xüsusilə İngiltərə və Fransanın da Qafqaz ölkələri barədə işğalçılıq planları var idi.

Belə bir mürəkkəb şəraitdə Azərbaycan xanları qüvvətli qonşuların hansınınsa himayəsinə ehtiyac hiss edirdilər. Xanların qarşısında Rusiya, yaxud Osmanlı dövlətinin himayəsi arasında seçim dururdu. Xanların bir çoxu, o cümlədən Qarabağ, Quba, Talış və Bakı xanları Rusiya himayəsinə üstünlük verirdilər. Şəki, Naxçıvan, İrəvan və Gəncə xanları isə Osmanlı dövlətinin himayəsini qiymətləndirirdilər. Osmanlı dövlətinin dəstəyini almaq üçün əməli addımlar da atılmışdı. Osmanlı dövləti Azərbaycan xanlarını dəstəkləməyi vəd etsə də, bu istiqamətdə heç bir əməli addım atmır, gözləmə mövqeyi tuturdu. Rusiya isə, Avropadakı inqilabı hadisələrlə məşğul olmaqdan başı ayıldıqdan sonra, Qafqazı işğal etmə planını gerçəkləşdirməyə başladı. 1800-cü ildə rus hökuməti Talış xanının məktubuna cavab verərək xanlığın Rusiya himayəsinə

qəbul olunduğunu bildirdi. 1801-ci ildə Şərqi Gürcüstan ilə birlikdə, əhalisi azərbaycanlılardan ibarət olan Qazax və Şəmsədil sultanlıqları Rusiya təbəəliyinə qəbul edildilər. 1801-ci ildə Talış, Quba və Bakı xanları Rusiyanın imperatoru I Aleksandr tərəfindən qəbul olundular və onlar arasında Rusiyaya birləşmə haqqında rəsmi danışıqlar getdi. 1802-ci il dekabrın 26-da Şimali Qafqazın Georgiyevski kəndində Şərqi Gürcüstanın və Şimali Qafqazın Rusiyaya birləşdirilməsi haqqında bağlanan müqavilənin imzalanması mərasimində Talış, Quba və Bakı xanlıqlarının nümayəndələri də iştirak etdilər. Georgiyevski müqaviləsini Rusiya imperiyası tərəfindən Rusiyanın Qafqaz qoşunlarının baş komandanı ilə birlikdə Talış və Quba xanları da imzaladılar.

1803-1804-cü illərdə Rusiya Azərbaycan torpaqlarını işğal etməyə başladı. General Bulqakovun komandanlığı altında rus qoşunları Car – Balakən torpaqlarını tutdular. 1803-cü ilin noyabrında general Sisianovun komandanlığı altında rus qoşunları Tiflisdən başlayaraq Gəncə xanlığı üzərinə yeridilər. Gəncə hökmdarı Cavad xan Gəncə şəhərinin mühafizəsini təşkil etdi. Lakin 1804-cü il yanvarın 3-də güclü top atəşi ilə dağıdıldıqdan sonra Gəncə şəhəri rus qoşunları tərəfindən tutuldu. Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. Gəncə şəhəri işğal edildikdən sonra adı dəyişdirilib I Aleksandrın arvadı Yelizavetanın şərəfinə Yelizavetpol edildi. Rusiya imperatorunun fərmanı ilə Gəncə xanlığı ləğv edilib Rusiyanın əyalətinə çevrildi. Gürcüstanın Rusiyaya birləşdirilməsi və Azərbaycanın Rusiya tərəfindən işğalının başlanması İran və Osmanlı dövləti tərəfindən etirazla, İngiltərə və Fransa tərəfindən isə narazılıqla qarşılandı.

1804-cü ilin mayında İran rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasını tələb etdi. İranın notasına Rusiya tərəfindən rədd cavabı verildi. 1804-cü il iyunun 10-da Rusiya ilə İran arasında müharibə başladı. Bu Azərbaycanı bölüşdürmək uğrunda birinci Rusiya – İran müharibəsi idi.





1806-cı ilin sonunda isə Rusiya – Osmanlı müharibəsi başladı. 1812- ci il iyulun 16-da Osmanlı dövləti ilə Rusiya arasında müharibə Buxarest sülh müqaviləsi ilə bitdi. Osmanlı dövləti Cənubi Qafqaz torpaqlarının Rusiya tərəfindən zəbt edilməsini tanımalı oldu.

Rus qoşunları Gəncəni işğal etdikdən sonra şərqə doğru irəliləməyə başladılar. 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla general Sisianın arasında "Andlı öhdəlik" adı ilə tarixə düşən Kürəkçay müqaviləsi imzalandı. Kürəkçay müqaviləsinə görə Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçir və Qarabağ xanlığı ərazisində yerləşən rus ordusunu ərzaqla təmin etməyi öz öhdəsinə götürürdü. Bir qədər sonra Şəki xanı Səlim xan da gəlib Kürəkçay "Andlı öhdəliyini" imzaladı. 1805-ci il dekabrın 27-də isə Şamaxı xanı Mustafa xan ilə Sisianov arasında Şirvanın Rusiya tabeliyinə keçməsi haqqında müqavilə imzalandı. 1806-cı il fevralın 8-də Bakıda İçərişəhərin qoşaqala qapıları yanında Bakı xanı Hüseynqulu xan general Sisianovu qarşıladı. Bu görüş zamanı Hüseynqulu xanın dayısı oğlu İbrahim bəy tərəfindən Sisianov öldürüldü. Oktyabrın 3-də Dərbənddən hərəkət edən general Bulqakovun qoşunları Bakını zəbt etdilər. Hüseynqulu xan İrana qaçdı. Bakı Rusiyaya qatıldı, Bakı xanlığı ləğv edildi. Az sonra Quba da Bulqakov tərəfindən döyüşsüz tutuldu, Quba xanı Şeyxəli xan dağlara qaçdı. Qafqazda rus ordusunun baş komandanı general Qudoviçin əmri ilə Dərbənd və Quba xanlıqları müvəqqəti olaraq Tarkov şamxallığının hakimiyyəti altına verildi, sonra isə Rusiyanın əyalətinə çevrildi. Şəki xanlığı Cəfərqulu xan Xoyskinin hakimiyyəti altına verildi. Cənubi Azərbaycanın Xoy xanlığından çoxlu azərbaycanlı, qismən də erməni köçürülüb Şəkidə məskunlaşdırıldı.

1812-ci ilin payızında İran cəbhəsində general Kotlyaroviçin komandanlığı altında rus qoşunları hücuma keçdi. Oktyabrın 18-də Araz çayı sahilində Aslandüzü adlı yerdə İran ordusu məğlubiyyətə uğradı və İran vəliəhdi şahzadə Abbas

Mirzənin komandanlığı altında Təbrizə çəkildi. 1812-ci il dekabrın 31-də isə rus qoşunları yaxşı möhkəmləndirilmiş Lənkəran qalası üzərinə hücuma keçdilər. Rus komandanlığı, Peterburqa Yeni il sovqatı təqdim etmək naminə, nəyin bahasına olursa-olsun şəhəri tutmaq əmri vermişdi. 1813-cü il yanvarın 1- də Lənkəran şəhəri rus qoşunları tərəfindən tutuldu. Bu qələbə rus qoşunlarına ikiqat itki hesabına başa gəldi. Lənkəran şəhərinin tutulması rus hərbçilərinin törətdikləri dəhşətli bir faciə ilə də tarixə düşdü. Həmin il yanvarın 1-i müsəlmanların Aşura günü idi. Səhər sübhdən dindar əhali əllərində ələm (dini bayraq) şəhərin Sütəmordov kəndi adlı məhəlləsində məscidin qarşısında toplaşmışdı. Rus hərbçiləri onların əllərində bayraq hücuma keçməyə hazırlaşdıqlarını zənn edib dinc əhalini qılıncla doğrayıb məscidin həyətindəki quyuya tökdülər. Dindarların bayrağı da həmin quyuya atıldı. (Həmin "ələm" sonralar quyudan çıxarılıb tarixi şahid kimi Sütəmordov məscidində saxlanılır).

Lənkəran qalasının süqutundan sonra İran sülh xahiş etməyə məcbur oldu. 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində bağlanmış sülh müqaviləsi ilə birinci Rusiya – İran müharibəsi başa çatdı. Gülüstan müqaviləsinə görə Şimali Azərbaycanın Bakı, Qarabağ, Quba, Dərbənd, Gəncə, Talış, Şamaxı və Şəki xanlıqları Rusiyaya qatıldı, İran bu xanlıqlara iddiasından imtina etdi və həmçinin Şərqi Gürcüstan ilə Dağıstanın Rusiya tabeliyinə keçmələrini tanıdı. Gülüstan müqaviləsinə görə yalnız Rusiya Xəzər dənizində hərbi donanma saxlaya bilərdi. Ticarət münasibətlərində 5% miqdarında gömrük rüsumu müəyyən edildi. Iranın daxilində Rusiya təbəələri üçün gömrük rüsumu ləğv edildi. Gülüstan müqaviləsi Rusiya ilə İran arasında ticarət münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradıldı.

Beləliklə, Gülüstan müqaviləsi ilə Rusiya və İran arasında Azərbaycanı bölüşdürmək uğrunda müharibənin birinci mərhələsi başa çatdı. Naxçıvan və İrəvan xanlıqları





istisna olmaqla Şimali Azərbaycan xanlıqları Rusiyaya qatıldı, Naxçıvan və İrəvan xanlıqları və Cənubi Azərbaycan xanlıqları İranın tabeliyində qaldılar.

**15.2. Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinin başa çatması. Türkmənçay müqaviləsi.** Gülüstan müqaviləsindən sonra da İran hakim dairələri Şimali Azərbaycan torpaqlarını zəbt etmək niyyətlərindən əl çəkməmişdilər. İngiltərə də İranı qızışdıraraq, Rusiyaya qarşı müharibəyə təhrik edirdi. İngiltərənin Peterburqdakı səfiri İranın Peterburqdakı səfirinə bildirir ki, onun hökuməti Gülüstan müqaviləsini bəyənmir, onu İrana qarşı ədalətsizlik hesab edir. Səfir bildirirdi ki, əgər İran Gülüstan müqaviləsinin şərtlərinə yenidən baxılmasını, Talış və Muğanın İrana qaytarılmasını tələb etsə İngiltərə onu dəstəkləyər. Böyük Britaniyanın Tehrandakı səfiri şahı inandırmağa çalışırdı ki, İran Cənubi Qafqazı yenidən ələ keçirə bilər. Bunun üçün İrana öncə güclü ordu yaratmaq lazımdır. Səfir bildirirdi ki, İngiltərə İrana yaxşı təlim görmüş və yaxşı silahlanmış 50 min nəfərlik ordu yaratmaqda köməklik göstərməyə hazırdır.

İranın Rusiya ilə yeni müharibəyə hazırlaşması işində Cənubi Azərbaycanın hakimi, vəliəhd şahzadə Abbas Mirzə mühüm rol oynayırdı. Abbas Mirzə özünü ingilis zabitləri və səfirin məsləhətçiləri ilə əhatə etmişdi və onların kömakliyi ilə öz ordusunu yenidən qururdu. İranın cəbhəxanaları ingilis silahları və hərbi sursatları ilə dolu idi. Abbas Mirzə rus səfirliyini qorumaq adı ilə Təbrizə 10 min nəfərlik hərbi hissə göndərdi.

XIX əsrin 20-ci illərinin əvvəllərində İranın Rusiyaya qarşı hərbi hazırlığı yeni mərhələyə qədəm qoydu və çox fəallaşdı. Şah sarayı ingilislərin köməyi ilə öz ordusunun gücünü artırır və gələcək müharibədə Osmanlı imperiyasından kömək almağa səy göstərirdi. Bu işdə də İngiltərə İrana kömək edirdi. Çünki İngiltərə ehtiyat edirdi ki, Rusiya Şərq məsələsini öz xeyrinə həll edə bilər. İngilis diplomatiyasının dəstəyi ilə

1823-cü ildə İran ilə Osmanlı dövləti arasında müqavilə bağlandı.

Rusiya İranla münasibətdə İngiltərənin fəal iştirak etməsini nəzərə alaraq müharibədən qaçırdı. Ona görə də Rusiya hökuməti danışıqlar aparmaq və ərazi məsələlərini dinc yolla həll etmək üçün Tehrana öz nümayəndələrini göndərməyi qərara aldı. 1826-cı ildə general Menşikovun rəhbərliyi ilə rus nümayəndə heyəti Tehrana gəldi. Menşikov şah sarayının nəzərinə çatdırmalı idi ki, Rusiyanın məqsədi İranla sülh və dostluq münasibətlərini qorumaqdan ibarətdir. Menşikov aldığı təlimata əsasən bütün gücünü şahı razı salmaq üçün sərf etməli idi. Rusiya Talış və Qarabağ xanlıqlarının bir hissəsini güzəştə getməyə hazır idi. Lakin Rusiyanın İranla hərbi münaqişəyə girməmək üçün bu cəhdi müvəffəqiyyətsizliyə uğradı. Menşikovu İranda çox soyuq qarşıladılar. Hətta Şimali Azərbaycan sərhədlərinə çoxlu qoşun yeridildi. Menşikov şahın yay iqamətgahı Sultaniyyəyə gələn zaman bunun təxribat olduğunu və müharibənin labüdlüyünü başa düşdü. O, heç bir danışıq aparmadan geri dönməli oldu. İran Rusiyaya ultimatum verərək Talış və Muğanı ona qaytarmağı tələb etdi və rədd cavabı aldıqda, İran qoşunları 1826-cı il mayın 26-da Rusiyanın sərhəd dəstələrinə hücum etdilər. 1826-cı il iyulun 16-da isə şahzadə Abbas Mirzənin 60 minlik ordusu sərhədi keçərək Rusiyaya qarşı müharibəyə başladı. Beləliklə, Azərbaycan uğrunda ikinci Rusiya - İran müharibəsi başladı.

İran sərkərdəsi Hüseyn xanın başçılığı altında ordu Şoragöl və Pəmbəni tutub Abbas Mirzənin əsas qoşunlarının gəlməsini gözlədi. Abbas Mirzə yetişdikdən sonra İran ordusu Gəncə üzərinə yeridi. Başqa bir ordu Şuşaya tərəf hərəkət etdi. Şuşa qalasına çəkilən əhali yol üstündə olan hər şeyi məhv edirdi ki, İran ordusunun əlinə keçməsin.

Cənubi Qafqazda rus qoşunlarının sayının azlığı və pərakəndə halda yerləşməsi İran qoşunlarının Bakı, Quba və b. bölgələrdə hərəkəti üçün əlverişli şərait yaradırdı. İran





qoşunları ilə birlikdə Azərbaycana, vaxtilə İrana qaçmış bakılı Hüseynqulu xan, şirvanlı Mustafa xan, Gəncə xanı Cavad xanın oğlu Uğurlu xan və başqaları da gəlirdilər. Gəncədə rus hakimiyyətindən narazı qüvvələr üsyan qaldırıb iyulun 28-də yerli rus qarnizonunu məhv etdilər. Beləliklə, hərbi əməliyyatlar Şimali Azərbaycanın, demək olar ki, bütün ərazisini əhatə edirdi.

İran ordusuna güclü müqavimət göstərən Şuşa qalasının müdafiəçiləri müharibənin taleyində böyük rol oynadılar. Qalanın 48 gün davam edən mühasirəsi xeyli İran qoşununun diqqətini özünə cəlb edirdi. Bu da rus ordusunun komandanı general Yermolova pərakəndə hərbi hissələri cəmləşdirib İran qoşunlarına qarşı hücum əməliyyatına keçməyə imkan verdi. Rus hərbi hissələri Şəmkir yaxınlığında İran qoşunlarının hücumunun qarşısını kəsdi və onu məğlub etdi. Məğlubiyyətə uğrayan İran qoşunu Gəncəyə çəkildi. Şəmkirdə məğlub olan İran qoşunları özlərinə gələ bilmədilər. Bir-birinin ardınca məğlubiyyətə uğrayan İran qoşunları geri çəkilməyə başladılar. 1827-ci ilin əvvəlində İran süvariləri bütün Şimali Azərbaycan ərazisini tərk etdilər. Yalnız Talışda vaxtilə İrana qaçmış Mirhəsən xanın süvariləri qalırdı.

Hərbi əməliyyatlar 1827-ci ilin yazında yenidən canlandı. Aprelin 20- də rus qoşunları Xüdafərin körpüsünü ələ keçirdilər, Cənubi Azərbaycana yol açıldı. 1727-ci il iyulun 7-də Qafqaz əlahiddə ordusunun döyüşçüləri Cavanbulaq adlı yerdə Abbas Mirzənin 16 min nəfərlik qoşununu ağır məğlubiyyətə uğradıb Abbasabad şəhərini tutdular.

Rus ordusu oktyabrın 11-də Xoy şəhərinin yaxınlığında ciddi müqavimətə rast gəlməyərək, Təbrizə doğru hərəkət etdi və oktyabrın 18- də şəhərə daxil oldu. 1827-ci il noyabrın 7-də hərbi əməliyyatların dayandırılması barədə danışıqlar başladı. Rusiya İrəvan və Naxçıvan xanlıqlarının ona güzəştə gedilməsini, İran qoşunlarının Talış xanlığından çıxarılmasını, 30 milyon rubl gümüş pul miqdarında təzminat verilməsini tələb edirdi. Lakin ingilis və türk diplomatiyasının təzyiqi

altında danışıqlar kəsildi. 1828-ci il yanvarın 24-də rus qoşunlarının komandanı general Paskeviç qoşuna Ərdəbil və Urmu üzərinə hücum əmri verdi. Rus qoşunları yanvarın 28-də Urmunu, fevralın 8-də isə Ərdəbili tutdular. İranın tamamilə darmadağın olunacağından ehtiyat edən İngiltərə səfiri Makdonald döyüşən tərəflər arasında vasitəçi kimi çıxış etdi. 1828-ci il fevralı 6-da Təbriz şəhəri yaxınlığındakı Türkmənçay kəndində şahzadə Abbas Mirzə ilə qraf Paskeviç arasında danışıqlar yenidən başladı. Rusiya ilə İran arasında müharibənin bitməsi haqqında Türkmənçay müqaviləsi 1828-ci il fevralın 26-da imzalandı. Müqaviləni Rusiya tərəfindən qraf Paskeviç, İran tərəfindən isə şahzadə vəliəhd Abbas Mirzə imzaladılar.

Türkmənçay sülh müqaviləsinə görə İran Şimali Azərbaycana iddiasından tamamilə əl çəkdi. Bakı, Dərbənd, Qarabağ, Quba, Gəncə, Talış, Şamaxı və Şəki xanlıqları ilə birlikdə İrəvan və Naxçıvan xanlıqları da Rusiyaya qatıldı. Cənubi Azərbaycan isə İranın tərkibində qaldı. Azərbaycan qəti olaraq iki yerə bölündü.

**15.3. Ermənilərin Cənubi Azərbaycan xanlıqlarından köçürülüb İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının torpaqlarında yerləşdirilməsi.** Türkmənçay müqaviləsinin 15-ci maddəsi Azərbaycan xalqı üçün daha acınacaqlı oldu. Bu maddəyə əsasən İranın Azərbaycan xanlıqlarında yaşayan xristianlar, daha doğrusu ermənilər ailələri ilə birlikdə 1 il müddətində sərbəst surətdə Rusiya ərazisinə köçə bilərdilər. Onlara daşınmaz mülkiyyətlərini 5 il müddətində satmağa icazə verilirdi.

Qafqaz ordusunun baş komandanı qraf Paskeviç tərəfindən ermənilərin Rysiyaya köçürülməsi əməliyyatına rəhbər təyin edilmiş polkovnik Lazarevə (əslən Türkiyə ermənisi olan rus zabiti Lazarev Paskeviçin adyutantı idi və Türkmənçay danışıqlarında katiblik edirdi) verilən təlimat 19 maddədən ibarət idi. Təlimatın əsas şərtlərinə görə köçürülmə





könüllülük əsasında həyata keçirilməli idi. Köçürülənlər 6 il müddətinə bütün vergilərdən və 3 il müddətinə feodal mükəlləfiyyətlərini yerinə yetirməkdən azad edilirdilər. Mülkiyyəti olmayanlara təcili maliyyə yardımı edilməsi nəzərdə tutulurdu. Lazarevə tapşırılmışdı ki, erməniləri mümkün qədər tez köçməyə inandırsın. Bu onları yerli əhalinin təzyiqindən qorumaq və köç zamanı mühafizələrini təşkil etmək üçün lazım idi. Ermənilər öz əvvəlki yerlərində etibar etdikləri adamlara daşınmaz mülklərini və əmlaklarını satmağı tapşıra bilərdilər.

Cənubi Azərbaycanın Marağa, Urmu və Xoy xanlıqlarından ermənilər 1828-ci il martın 9-dan köçməyə başladılar. Onları Rusiya sərhədlərinə qədər rus məmurları və əskərləri müşayiət edirdilər. İran şahzadəsi vəliəhd Abbas Mirzə qraf Paskeviçə məktub yazaraq bildirirdi ki, rus məmurları Türkmənçay müqaviləsinin 15-ci maddəsilə nəzərdə tutulmuş könüllülük prinsipini pozur, erməniləri köçməyə təhrik edir, hətta pul ilə şirnikləndirirlər. Qraf Paskeviçin göstərişi ilə polkovnik Lazarev şahzadə Abbas Mirzənin məktubuna cavab yazaraq bildirir ki, Sizin xanlar yalan danışır və Sizi aldadırlar. Həqiqətdə isə rus məmurları erməniləri köçməyə təhrik etmir, əksinə Sizin xanlar köçmək istəyən erməniləri hədələyir və könüllülük prinsipinə mane olurlar.

Ermənilər öncə Naxçıvan və İrəvan xanlıqlarının torpaqlarına köçürülüb məskunlaşdırılırdılar. Lakin Lazarev gördü ki, bu xanlıqlar köçkünləri ərzaqla təmin etmək üçün kifayət qədər ehtiyata malik deyillər. O, mayın 29-da Qarsa gedərək qraf Paskeviçdən köçkünlərin məskunlaşdırılması üçün daha zəngin xanlığın ayrılmasını xahiş etdi. Qraf Paskeviç təcili Peterburqa gedərək imperator I Nikolaydan köçkünlərin Qarabağ xanlığının da torpaqlarında məskunlaşdırılması üçün icazə aldı. O, bunu çaparla Lazarevə göndərdiyi məktubunda xəbər verərkən əlavə bildirirdi ki, imperator Nikolay köçkünlərə paylamaq üçün 14.000 çervon və 400 gümüş rubl göndərmişdir.

Köçkünlər Naxçıvan və İrəvan xanlıları ilə bərabər Qarabağ xanlığının da ən münbit torpaqlarında məskunlaşdırıldılar. Onlar 6 il müddətinə bütün vergilərdən və 3 il müddətinə feodal mükəlləfiyyətlərini yerinə yetirməkdən azad edildilər. Ermənilərin varlı kəndli təsərrüfatları yaratmaqları üçün onlara maliyyə yardımı göstərildi, iş heyvanları və damazlıq mal-qara verildi. Cənubi Qafqazda mövcud olan bütün kənd təsərrüfatı texnikası sərgilərinə göstəriş verildi ki, Avropadan gətirilən yeni müasir kənd təsərrüfatı texnikalarını birinci növbədə ermənilərə satsınlar.

Beləliklə, Cənubi Azərbaycan xanlıqlarından Şimali Azərbaycanın Qarabağ, Naxçıvan və İrəvan xanlıqları torpaqlarına köçürülən ermənilər qısa müddətdə varlı təsərrüfatlar yaratmaq imkanı əldə etdilər. Bununla da çar hökuməti ermənilərin simasında Azərbaycanda özünə xristian əhalinin sosial dayağını yaratdı.

**15.4. İstiladan sonra Şimali Azərbaycanın inzibati - ərazi və idarə sistemi. Çarizmin müstəmləkəçilik siyasətinə qarşı xalq üsyanları.** İstiladan sonra Şimali Azərbaycanın inzibati-ərazi bölgüsündə və idarə sistemində əsaslı dəyişikliklər baş verdi. 1804-cü ildə Gəncə xanlığı, 1806-cı ildə Bakı, Quba və Dərbənd xanlıqları, 1819-cu ildə Şəki xanlığı, 1820-ci ildə Şamaxı xanlığı, 1822-ci ildə Qarabağ xanlığı, 1826-cı ildə Talış xanlığı, 1828-ci ildə Naxçıvan və İrəvan xanlıqları ləğv edilib Rusiyanın əyalətlərinə çevrildilər.

Şimali Azərbaycan 7 əyalətə (Bakı, Quba, Dərbənd, Qarabağ, Lənkəran, Şəki və Şirvan), 2 dairəyə (Yelizavetpol və Car – Balakən) və 2 distansiyaya (Qazax və Şəmşədil) bölündü. Şimali Azərbaycanda hərbi idarə sistemi tətbiq edildi. Şəki, Şirvan, Qarabağ və Lənkəran əyalətləri, iqamətgahı Şuşada yerləşən hərbi-dairə komendantı tərəfindən idarə edilirdi. Bakı, Quba və Dərbənd əyalətləri, iqamətgahı Dərbənddə yerləşən hərbi-dairə komendantı tərəfindən idarə edilirdi. Hər bir əyalətin özünün də komendantı var idi. Komendantlar rus





ordusunun zabitləri arasından təyin edilirdilər. Belə inzibati-ərazi idarə sistemi komendant idarə-üsulu adlanırdı.

1840-cı il aprelin 10-da çar hökuməti Cənubi Qafqaz üzrə inzibati- ərazi bölgüsü haqqında fərman verdi. Həmin fərmana əsasən Şimali Azərbaycanın Yelizavetpol, Balakən və Naxçıvan qəzaları 1841-ci il yanvarın 1-dən Gürcüstan – İmeretiya quberniyasının tərkibinə daxil edilirdi. Həmin ilin aprelin 20-dən isə Qazax, Şəmşədil və Borçalı qəzaları da Gürcüstan – İmeritiya quberniyasının tərkibinə daxil edildi. Şimali Azərbaycanın qalan ərazisində mərkəzi Şamaxı şəhəri olmaqla Kaspi vilayəti yaradıldı. Kaspi vilayəti Şimali Azərbaycanın Şamaxı, Lənkəran, Şuşa, Bakı, Quba və Dərbənd qəzalarını əhatə edirdi.

1844-cü ildə çar hökuməti Qafqazda öz mövqeyini möhkəmlətmək üçün Qafqaz canişinliyi yaratdı. Qafqazın ilk canişini knyaz M.Voronsov oldu. 1846-cı ildə Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyaniyaları yaradıldı. 1850-ci ildə isə İrəvan quberniyası yaradıldı. Yelizavetpol qəzası Tiflis quberniyasının, Şamaxı, Nuxa, Şuşa, Lənkəran və Bakı qəzaları Şamaxı quberniyasının, Quba və Dərbənd qəzaları Dərbənd quberniyasının, Naxçıvan və İrəvan qəzaları isə İrəvan quberniyasının tərkibinə daxil edildilər. Car – Balakən torpaqlarında və İlisu sultanlığında xüsusi Zaqatala dairəsi yaradıldı.

Azərbaycan Rusiya və İran arasında iki yerə bölündükdən sonra Şimali Azərbaycan xalqı həm müstəmləkə əsarətindən, həm də feodalların istismarı və öz başından əziyyət çəkirdi. XIX əsrin 30-cu illərində Şimali Azərbaycanda çarizmin müstəmləkə əsarətinə və feodal zülmünə qarşı xalq kütlələrinin çıxışları genişlənib ölkənin bütün ərazisini bürümüşdü. Bu dövrdə Şimali Azərbaycanda baş verən xalq çıxışlarından ən böyükləri Zaqatala, Talış və Qubada olan üsyanlar olmuşdur.

Car – Balakən camaatlığını işğal etmiş çar hökuməti 1830-cu ilin fevralında camaatlığı ləğv edib Zaqatala dairəsinə

çevirdi. O, komendant idarə üsulu ilə nəzərdə tutulmuş, xüsusi qaydalarla idarə olunmalı idi. Camatlığın rus qoşunları tərəfindən tutulması və yeni hərbi idarə sisteminin tətbiqi carlıların narazılığına səbəb olmuşdu. Onlara Dağıstan dağlılarının çarizmə qarşı apardığı mübarizə də öz təsirini göstərmişdi. Carlılar dağlıların rəhbərlərindən biri olan Həmzət bəylə əlaqə yaratdılar. 1830-cu il sentyabrın 12-də Həmzət bəyin dəstələri dağlardan enərək Zaqatala dairəsinə gəldilər. Car əhalisi üsyan qaldırıb dağlılarla birləşdi. Oktyabrın 15-də rus qoşunları ilə üsyançılar arasında baş verən döyüşdə üsyançılar qələbə çaldılar. Lakin rus qoşunlarının komandanlığı dağlıların başçılarından biri ilə, sonra isə Həmzət bəyin özü ilə danışığa girə bildi. Həmzət bəy öz dağlılarını Zaqatala dairəsindən çıxarıb apardı. Nəticədə noyabrın 14-də rus qoşunları Carı ələ keçirtdilər və üsyan yatırıldı.

Talışda komendant İlınski tərəfindən Talış xanı Mirhəsən xan təqib edilirdi. O xana məxsus olan torpaqlarının 2/3 hissəsini əlindən almışdı. Ona görə də 1826-cı ildə Mirhəsən xan İrana qaçmışdı. Talış bəylərinin çoxlu tələbindən sonra çar hökuməti tərəfindən İlinski məhkəməyə verilsə də Talış zadəganlarının narazılığı artmaqda davam edirdi. Rus hərbi hakimiyyəti nümayəndələri tərəfindən hüquqları tapdanmış talış bəyləri və ruhanilər Mirhəsən xanla əlaqə yaradaraq onun geri qayıtmasını xahiş etdilər. 1831-ci il martın 5-də Mirhəsən xan 20 nəfər süvari ilə geri qayıdaraq Lənkəran şəhərindən 10 km aralıda düşərgə saldı. Lənkəran, Alar və Dırıq mahallarının əhalisindən ibarət olan dəstələr xana qoşuldular. Martın 12-də Mirhəsən xanın atlı dəstələri Lənkərandakı rus qarnizonunun Şirvan və Qarabağda yerləşən hərbi hissələr ilə quru yolla olan əlaqəsini kəsdilər. Lakin aprelin əvvəllərində üsyan yatırıldı. Mirhəsən xan hakimiyyətə qayıtmaq təşəbbüsünün mümkünsüzlüyünü başa düşərək 1831-ci il mayın əvvəlində yenidən İrana qaçdı.





Qubada komendant Qimbutun özbaşınalığı kəndlilərin səbr kasasını doldurmuşdu. Belə şəraitdə 1837-ci ilin əvvəlində Varşavada yerləşən hərbi-müsəlman alayında xidmət üçün süvarilərin çağırışı elan edildi. Bu kəndlilərin çıxışına səbəb oldu. Onların hiddəti orduda xidmət etməyə qarşı deyildi, onlar süvarilərin çağırışının növbəti qarət mənbəyinə çevrilməsinə qarşı çıxış edirdilər. Yerli məmurların özbaşınalığı nəticəsində Qubada hər bir atlının paltar və ləvazimatının qiyməti 350 rubla qaldırılmışdı, halbuki başqa əyalətlərdə bu 130-150 rubla başa gəlirdi. Üsyan 1837-ci ilin aprelində başladı. Bərmək mahalında onlara Buduq kəndinin yüzbaşısı Hacı Məmməd Yaroğlu adlı bir kəndli başçılıq edirdi. Avqust ayında üsyan yeni vüsət aldı. Sentyabr ayında üsyançıların sayı 12 minə çatdı və üsyan Bərmək mahalının hüdudlarını aşdı. Üsyançılar Hacı Məmmədi xan seçdilər. Üsyan 1838-ci ilin əvvəlində yatırıldı.

Quba üsyanı ilə eyni vaxtda Şimali Azərbaycanın digər bölgələrində də kəndli çıxışları baş verirdi. Məsələn: 1837-ci ilin mayında Naxçıvanda, 1838-ci ildə Şəkidə kəndli çıxışları olmuşdu.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi. 7 cilddə, 4-cü cild, Bakı, 2000, s.14-53.
2. Azərbaycan tarixi. Dərslik, s. 569-579.
3. Azərbaycan tarixinə dair qaynaqlar. Bakı, 1989, s. 271-286.
4. Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri. Bakı, 1956.
5. С.Глинка. Описание переселения армян Азербайджанских в пределы России. Москва, 1831 (Баку, 1990).

# XVI FƏSİL

## ŞİMALI AZƏRBAYCANDA KAPİTALİZMİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

**16.1. XIX əsrdə Şimali Azərbaycanda əmtəə-ticarət təsərrüfatlarının inkişaf edib əmtəə-kapitalist təsərrüfatlarına çevrilməsi və kapitalizmin genezisi.** Şimali Azərbaycanın Rusiya tərəfindən istila edilməsindən sonra çarizmin müstəmləkəçilik siyasətinin məqsədlərindən asılı olmayaraq imperiya daxilində ölkənin iqtisadiyyatı inkişaf etməyə başladı. Hər şeydən öncə bunun səbəbi müharibələrdən və daxili çəkişmələrdən əhalinin canının qurtarması idi. 1852-ci ildə Şimali Azərbaycanda buğda və düyü istehsalı 1845-ci ilə nisbətən iki dəfə, arpa istehsalı isə üçdə bir dəfə artmışdı. Buğda və arpa istehsal edən əsas bölgələr Şirvan, Qarabağ və Quba, düyünün istehsal edildiyi əsas bölgələr isə Talış, Qarabağ, Şirvan və Şəki idi. Satdıq buğda və arpa istehsalına görə Şirvan və Quba bölgələri xüsusilə fərqlənirdilər. Bu bölgələrdə məhsulun üçdə biri satdıq olduğu halda, Qarabağda taxıl məhsullarının az bir hissəsi bazara aparılırdı. Düyü satışı üzrə əsas yeri Talış bölgəsi tuturdu. Talışdan düyü yalnız Bakı bazarlarına deyil, Rusiyaya da aprılırdı.

XIX əsrin ortalarında Şimali Azərbaycanda zəfəran, tütün, texniki bitkilər və boyaq maddəsi almaq üçün indiqo da yetişdirilirdi. Zəfəran əsasən Bakı bölgəsində, indiqo isə Şirvan, Şəki və Gəncə bölgələrində becərilir və məhsullar başlıca olaraq Rusiyaya göndərilirdi.

XIX əsrin ortalarında Şimali Azərbaycanda şəkər qamışı yetişdirilməsinə də təşəbbüs edilmişdi. 1833-cü ildə İranın





Mazandaran bölgəsindən gətirilən şəkər qamışı şitilləri Lənkəran qəzasında əkilmişdi. Qaynaqların verdiyi məlumata görə burada istehsal edilən şəkər qamışından əldə edilən şəkər şirəsi şirinliyinə, dadına və iyinə görə Mazandaranda becərilən şəkər qamışından üstün idi. Lakin məlum olmayan səbəbə görə Şimali Azərbaycanda şəkər qamışı becərilməsi dayandırıldı.

XIX əsrdə Şimali Azərbaycanda ipəkçilik sənayesinin inkişafı ilə bağlı olaraq tut bağları genişləndirildi. Tut bağlarının becərilməsində muzdlu əməkdən geniş istifadə olunurdu.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanın kənd təsərrüfatında ixtisaslaşma gücləndi. XIX əsrin 60-70-ci illərində Rusiya sənayesinin ehtiyaclarına xidmət edən ipəkçilik və marenaçılığın inkişafı Şimali Azərbaycanın kənd təsərrüfatında bu cür ixtisaslaşmağa misal ola bilər.

Bu sahələrdən birincisi, yəni ipəkçilik XIX əsrin 50-60-cı illərində xeyli genişlənmişdi. 1861-ci ildə Bakı quberniyasında 17352 pud xam ipək istehsal edilmişdi. Bundan 14889 pudu Rusiya ipək sənayesinin ehtiyaclarını ödəmək üçün göndərilmişdi. 1865-ci ildə Bakı quberniyasında 19343 pud xam ipək istehsal edilmişdi. Lakin bu məhsulun yalnız 3605 pudu Rusiyaya göndərilmişdi. Azərbaycandan Rusiyaya xam ipəyin ixracının azalması o vaxtlarda Azərbaycana Qərbi Avropa ipəkçilik firmalarından çoxlu agentin gəlməsi idi. Onlar külli miqdarda sağlam ipək qurdları toxumu və xam ipək alaraq, kəskin böhran keçirən öz ipək sənayelərini dirçəltmək üçün ölkələrinə göndərirdilər. Təkcə bunu qeyd etmək kifayətdir ki, 60-cı illərin əvvəllərində Şəkidə barama qurdu toxumu alan 200 agent var idi.

Xarici agentlər nəinki Rusiya və Azərbaycan ipəkçiliyinə ağır zərbə vurdular, eyni zamanda onlar ölkəyə "qattına" adlı ipək qurdu xəstəliyi gətirdilər və burada ipəkçiliyin müəyyən müddət tənəzzülünə səbəb oldular. Bu xəstəlik təxminən 6-7 il davam etdi. Bunun nəticəsində barama qurdu saxlamaqla məşğul olanların çoxu öz tut bağlarını qırmalı oldular. İş o yerə

çatdı ki, 1867-ci ildə Bakı quberniyasında cəmi 1346 pud xam ipək istehsal olundu. Bu ipəyin 700 puddan bir qədər artıq hissəsi Rusiyaya göndərilmiş, 400 puda qədəri isə Qərbi Avropaya ixrac olunmuşdu. Yalnız 70-ci illərin əvvəddərində barama qurdu xəstəliyini aradan qaldırdıqdan sonra Azərbaycanda ipəkçilik təsərrüfatlarını bərpa etmək mümkün oldu. Nəticədə 1870-ci ildə Yelizavetpol qubreniyasında 14500 pud barama toplandı və 4800 pud xam ipək istehsal edildi. 1875-ci ildə, yəni 5 ildən sonra Yelizavetpol quberniyasında 142718 pud barama toplanmış, bunun da xeyli hissəsi Rusiya və Qərbi Avropaya ixrac edilmişdi.

XIX əsrin ortalarında əmtəə əkinçiliyinin digər sahəsi – marenaçılıq da çox sürətlə inkişaf etməyə başladı. Marena toxuculuqda istifadə edilən boyaq maddələrindən biri idi. Toza döndərilmiş bu boyaq maddəsi “krap” adlanırdı. Ondan “qaransin” və “karretin” kimi təbii boyaqlar alınırdı.

Əvvəllər Rusiya sahibkarları qaransini Fransadan, krapı Hollandiyadan gətirirdilər. XIX əsrin 70-ci illərində Rusiyada toxuculuq sənayesi sürətlə artdığından rus fabrik sahibləri ölkənin daxilində ucuz təbii boyaq maddəsi axtarmağa məcbur oldular.

Azərbaycanda marena 1840-cı ildən becərilirdi. Rus sənayeçiləri Azərbaycan marenasının daha yüksək keyfiyyətli olduğunu bildikdən sonra marena əkin sahələrini genişləndirmək və bu bitkinin istehsalını artırmaqda bilavasitə fəal iştirak etdilər. Marena əkinləri ilə maraqlanan ilk rus sənayesi Baranov olmuşdur. O, öz fabrikində Dərbənd növlü marenanı sınaqdan keçirmiş, onun yüksək keyfiyyətli olmasına əmin olmuş və bu bitkinin əkin sahələrinin genişləndirilməsinə maraq göstərmişdi. O, kəndlilərə avans pul verməklə onların marenasını bir neçə il öncədən satın alır, böyük torpaq sahibləri ilə şərik olurdu. Baranovdan nümunə götürən digər rus sənayeçiləri də Azərbaycana gəlirdilər. Nəticədə marenaçılıq





Azərbaycanın Dərbənd və Quba qəzalarında, qismən də Göyçay və Lənkəran qəzalarında yayılmışdı.

Azərbaycanda kəndlilər marena əkilən ləklərdə taxıl əkir və əkin sahələrində rütubətin saxlanmasına nail olurdular. Bununla əlaqədar olaraq göyçaylılar öyrəndilər ki, marena əkinləri üçün ayrıca torpaq sahələri lazım deyildir. Nəticədə marenaçılıq daha sürətlə inkişaf etdi. Azərbaycanda marenaçılığın inkişafı belə bir faktdan görünür ki, əgər təkcə Quba qəzasında 1851-ci ildə 2 min pud marena istehsal edilmişdisə, 1869-cu ildə burada marena istehsalı 100 dəfə artaraq 200 min puda çatmışdı.

Azərbaycan marenasının nə dərəcədə şöhrət tapması 1862-ci il London sərgisində 3 nəfər azərbaycanlının təqdim etdiyi marenanın nümayiş edilməsindən görünür. Quba qəzasından olan bu marenaçılardan Hacı Cavad bəy əla keyfiyyətli marena üçün medala, Qazıxan Mustafa oğlu və Mustafa Qaramirzə oğlu tərifnamə ilə təltif olunmuşdular.

XIX əsrin ortalarında Şimali Azərbaycanda daha bir əmtəə istehsalı sahəsi - şərab və araq istehsalı sənayesi də gözə çarpan dərəcədə inkişaf etməyə başladı. Qafqaz Rusiyanın əsas üzümçülük rayonu idi. Qafqazda 86 min desyatin üzüm sahələri var idi ki, bu da Rusiyada üzümçülük üçün ayrılmış bütün sahələrin 67 faizini təşkil edirdi. 1870-ci ildə Qafqazda 16 milyon pud üzüm, 11 milyon vedrə şərab istehsal olunmuşdu. Lakin Qafqazda üzümçülük və şərabçılıq sahələrində Azərbaycan hələ əhəmiyyətli yer tutmurdu. Belə ki, 1870-1872-ci illərdə Cənubi Qafqazda olan 78499 desyatin üzümçülük sahələrindən yalnız 1910 desyatini Bakı quberniyasının, 1500 desyatini isə Yelizavetpol quberniyasının payına düşürdü. Bütün Cənubi Qafqazda istehsal edilən 743915 vedrə şərabdan yalnız 67484 vedrəsi Bakı quberniyasının, 380388 vedrəsi Yelizavetpol quberniyasının payına düşürdü.

Yelizavetpol quberniyasında şərabçılığın inkişafı XIX əsrin 70-80-ci illərində də bu vəziyyətdə qalmışdı. Lakin Bakı

quberniyasında bu sahədə böyük dönüş baş verdi. Bakı quberniyasının Şamaxı və Göyçay qəzalarında üzüm bağlarının genişlənməsi və şərab müəssisələrin sayının artması göz qabağında idi. Şamaxı qəzasının Mədrəsə və Gürcüvan kəndlərində üzümçülük sahəsi 1830-cu ildəki 55 desyatindən 1875-ci ildə 200 desyatinə qədər, yəni 4 dəfə artmışdı. 1873-cü ildə Şamaxı və Göyçay qəzalarında cəmi 85 fəhləsi olan 22 şərabçılıq müəssisəsi olduğu halda, 1879-cu ildə cəmi 200 nəfərədək fəhləsi olan şərabçılıq müəssisələrinin sayı 107-yə çatmışdı.

Bakı quberniyasının Şamaxı qəzasında şərab istehsal edilməsinə hələ 50-ci illərin ortalarında başlanmışdı. Buradan şərab əsasən Rusiyaya ixrac olunurdu. Rusiyanın geniş bazarlarında şərabın satılması imkanı Azərbaycan kənd təsərrüfatının bu əmtəə istehsalı sahəsinin genişlənməsinə şərait yaradırdı.

Azərbaycanda ikinci mühüm şərabçılıq rayonu ətraf kəndləri ilə birlikdə Gəncə şəhəri idi. Gəncə şərabı hələ 1855-ci ildən Tiflisə aparılırdı. Bu isə Kaxetiyada üzümlüklərə xəstəlik düşməsi nəticəsində Kaxetiyadan Tiflisə şərab gətirilməsinin kəsilməsi ilə əlaqədar idi. 1883-cü ildə isə ixrac edilən Gəncə şərabının ümumi miqdarı 100 min vedrədən bir qədər artıq təşkil edirdi.

Yelizavetpol quberniyasında şərabçılıqla yanaşı araq da istehsal edilirdi. Tutdan araq çəkilməsində Yelizavetpol quberniyası Cənubi Qafqazda birinci yeri tuturdu. Bu dövrdə tut arağının istehsalı da xeyli artmışdı. 1877-ci ildə bütün Cənubi Qafqazda tut arağı çəkən 1440 müəssisədən 1238-i, 1888-ci ildə isə 2650 müəssisədən 2336-sı Yelizavetpol quberniyasının payına düşürdü.

Azərbaycanın balıq sənayesinə rus kapitalı hələ XVIII əsrin sonu XIX əsrin başlanğıcından daxil olmuşdu. Bakı balıq və suiti vətəgələri rus sahibkarı Şapoşnikov tərəfindən icarəyə götürülmüşdü. Talış xanlarının balıq vətəgələrini isə Astaranın sahibkarı İvanov icarəyə götürmüşdü. İvanov 1825-ci il yanvarın 1-də Salyan vətəgələrini də icarəyə götürdü.





1828-ci ildən çar hökuməti Azərbaycan balıq vətəgələrinin idarə olunmasını əlinə aldı. “Salyan dövlət qəyyumluğu” adlı kommersiya şirkəti təsis edildi.

XIX əsrin 30-cu illərində Şimali Azərbaycandakı balıq vətəgələrində yüzlərlə balıqçı və fəhlə işləyirdi. 1850-ci ilin sonlarında yalnız Salyan balıq vətəgələrində 800-dən 1000 nəfərə qədər muzdlu və ixtisaslı fəhlə işləyirdi. 50-ci illərin əvvəllərində Salyan balıq vətəgələrinin işçilərinə tibbi xidmət üçün Azərbaycanda ilk olan 3 korpusdan ibarət 64 çarpayılıq xəstəxana tikildi. Xəstəxananın nəzdində aptek də açılmışdı.

Azərbaycan balıq sənayesində muzdlu fəhlə əməyindən geniş istifadə edilməsi və balıq məhsullarının satışa çıxarılması ölkədə əmtəə kapitalist təsərrüfatlarının hələ XIX əsrin 50-ci illərində təşəkkül tapdığına dəlalət edir.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda kənd təsərrüfatı və sənayenin müxtəlif sahələrində əmtəə istehsalı tədricən əmtəə-kapitalist münasibətləri doğururdu. Qeyd edilməlidir ki, əmtəə istehsalını əmtəə-kapitalist istehsalı ilə eyniləşdirmək olmaz. Bunlar iki müxtəlif şeylərdir. Kapitalist istehsalı əmtəə istehsalının ən yüksək formasıdır. Əmtəə istehsalı yalnız istehsal vasitələri üzərində özəl mülkiyyət olduqda, iş qüvvəsi kapitalistin ala biləcəyi və istehsal prosesində istismar edə biləcəyi bir əmtəə kimi bazara çıxarıldıqda, yəni ölkədə muzdlu fəhlələrin kapitalistlər tərəfindən istismar edilməsi sistemi mövcud olduqda kapitalizmə gətirib çıxarır.

XIX əsrin sonlarında Şimali Azərbaycanda kənddə istehsal vasitələri əsasən mülkədarların və qolçomaqların əlində toplanmışdı. Qolçomaqlar isə sahib olduqları, yaxud icarəyə götürdükləri münbit torpaqları muzdlu fəhlə qüvvəsinin köməkliyi ilə becərirdilər. Bundan başqa, kənd təsərrüfatında iri ticarət kapitalistlərindən başlamış kiçik alverçilərə qədər hər cür ticarət-sələmçi kapitalı hökm sürürdü. Ticarət-sələmçi kapitalın ölkənin kənd təsərrüfatının bütün sahələrinə daxil olmasına baxmayaraq, o əmtəə-kapitalist münasibətlərinin

yaranmasında əhəmiyyətli rol oynaya bilməmişdi. Sələmçi-ticarət kapitalı, əmtəə əkinçiliyinin pambıqçılıq, biyan kökü yetişdirilməsi, üzümçülük, şərabçılıq və s. sahələrin daha çox daxil olmuşdu. Məsələn, Ağdaş qəzasında pambıqçılıq yayılmağa başlayanda tacirlər və alverçilər Poznanski və Korzinkin firmalarının idarələri ilə bir sırada pambıq alıb başlıca olaraq Nuxa (Şəki) şəhərində çatırdılar. Burada isə ipəklə qarışıq pambıq liflərindən parça toxunurdu. Kəndlilərin pula ehtiyacı olduğunu bilən adamlar çox idi. Onlar əhalisi pambıqçılıqla məşğul olan kəndlərə gəlib gələcək məhsul hesabına borc pul təklif edir və elə bir şərt qoyurdular ki, borcun faizi pambıq məhsulu ilə ödənsin və bütün pambıq Poznanski və Korzinskin firmalarının idarələri açılana qədər onlara satılsın. Belə sövdələşmə yetişdirilən pambığın keyfiyyətinə mənfi təsir göstərirdi. Pambıqçılar xırda alverçilərin fəaliyyəti nəticəsində hələ yaxşı yetişməmiş qozaların pambığını toplayıb təhvil verirdilər.

Pambıqçılar, tütünçülər, üzüm yetişdirənlər və baramaçıların hamısı hədsiz dərəcədə baha kredit məngənəsində boğulurdular. Azərbaycan iqtisadiyyatının bütün sahələrinə soxulmuş saysız-hesabsız sələmçilər və alverçilər ya xırda istehsalçı kəndlilərdən mal alır, ya da kəndliləri borc pul verməklə məngənəyə salır, sonra isə bu pulların əvəzinə onlardan, bir qayda olaraq, süni surətdə azaldılmış qiymətlə mal alır, lakin istehsalın texnologiyasını yaxşılaşdırmırdılar.

XIX əsrin ikinci yarısında Şiamli Azərbaycanda kənd təsərrüfatının bir sıra sahələrinin ticarət-əmtəə xarakteri almasına baxmayaraq, onun bir neçə sahəsində artıq əmtəə-kapitalist təsərrüfatına keçilmişdi. Bu sahələrdə muzdlu işçi qüvvəsindən istifadə olunması üstünlük təşkil edirdi. Belə sahələrdən ilk növbədə Qubada marenaçılıq, Lənkəranda çəltikçilik, Şamaxıda qismən də olsa üzümçülük və tamamilə şərabçılıq təsərrüfatları, habelə Rusiyadan Muğana və Şirvana





köçürülmüş təriqətçi rusların taxılçılıq təsərrüfatlarını göstərmək olar.

Marenaçılıq əkinçiliyin əmtəə-kapitalist təsərrüfat sahəsinin ən yaxşı gözə çarpan sahəsi idi. Marenaçılıqla məşğul olan rus sənayeçiləri, yerli mülkədarlar, qolçomaqlar və kapitalist icarədarlar öz təsərrüfatlarında əsas etibarilə Cənubi Azərbaycan və Dağıstandan buraya çörək pulu qazanmağa gələn muzdlu fəhlələrin əməyindən istifadə edirdilər.

Azərbaycan kənd təsərrüfatının əmtəə istehsalı mərhələsindən əmtəə-kapitalist istehsalı mərhələsinə keçən sahələrindən biri də Lənkəran qəzasında inkişaf etmiş çəltikçilik sahəsi idi. Çəltikçilik təsərrüfatlarında istehsal vasitələrinin sahibləri əsas etibarilə yerli mülkədarlar və qolçomaqlar, muzdlu işçilər isə Cənubi Azərbaycandan çörək pulu qazanmaq üçün gələnlər və qəzanın dağlıq kəndlərinin, xüsusilə Zuvand bölgəsinin kəndlilərinin muzdurları idilər. Lənkəran qəzasında 4 istehsal üsulu tətbiq edilirdi: kəndlinin şəxsi əməyi ilə, muzdlu əməyi ilə, mülkədarlardan torpaq icarəyə götürülməsi yolu ilə və mal-qara icarə edilməsi üsulu. Bu təsərrüfat üsullarından ən geniş yayılmış muzdlu əmək və icarə etmək üsulu idi.

Qazanc ardınca çəltik zəmilərində işləməyə Cənubi Azərbaycandan gələnlərin bir hissəsi burada daimi yaşamağa qalırdı. Kəndlərin çoxunda Cənubi Azərbaycandan gələn bir neçə ailə məskunlaşmışdı. Onlar düzən zolağın və meşəsiz dağ ətəyi zolağın kəndlərində daha çox idilər.

Qaynaqlarda muzdlu fəhlələrin çəltik zəmilərində iş şəraitləri də təsvir olunur. Çəltik zəmilərində muzdurlar ya günəmuzd, ya da aylığa işləyirdilər. Aylığa işləmə müddəti 2 ay yarımdan 3 aya qədər olurdu. Aylığa işləyənlərə 10-12 manat pul, yemək və ağ tuman-köynəkdən ibarət iş paltarı verilirdi. Yemək pulunu gündə 15 qəpik hesabı ilə 7 manat, paltar haqqı 1 manat 50 qəpik hesab etməklə sahibkar muzdura 3 ay müddətində 25-27 manat pul xərcləyirdi. Muzdur bu pulun müqabilində torpağı şumlamalı, malalamalı, ləklərə bölməli, bir sözlə

çəltik şitillərinin sancılması üçün hazırlamalı idi. Çəltik zəmilərində təkcə çəltiyin ləklərini əkin üçün hazırlanmasında deyil, çəltiyin becərilməsi, biçilməsi və döyülməsində də muzdlu əməkdən istifadə edilirdi. Biçində işləyən muzdur fəhlə hər 20 dərzdən ümumi özünə götürürdü.

Lənkəran qəzasında yaşayan rus kolonistlərinin taxılçılıq təsərrüfatlarında da muzdlu əməkdən geniş istifadə edilirdi.

Üzümçülük və şərabçılıq təsərrüfatları da muzdlu əməyin tətbiq olunduğu sahələr idi. Doğrudur üzümçülük və şərabçılıqda xırda kəndli təsərrüfatları üstün yer tuturdu. Xırda təsərrüfatlarda kəndlilər öz şəxsi əməklərindən istifadə edirdilər. Bununla belə varlı kəndlilərin öz təsərrüfatlarında muzdlu fəhlə qüvvəsindən istifadə etmələri də müstəsna hal deyildi. Üzümçülükdə muzdur əməyindən istifadə edilməsi əsasən, dəymiş üzümün qısa müddətdə dərilməsi zərurəti ilə bağlı idi.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, XIX əsrin ikinci yarısında muzdlu fəhlə əməyindən kənd təsərrüfatının çox az sahələrində - Quba qəzasında marenaçılıq təsərrüfatlarının hamısında, Lənkəran qəzasında çəltikçilik təsərrüfatlarının əsas hissəsində, Şamaxı qəzasının üzümçülük və şərabçılıq təsərrüfatlarında və rus kolonistlərinin taxılçılıq təsərrüfatlarında istifadə edilmişdir. Kənd təsərrüfatının qalan sahələrində muzdlu əməkdən istifadə geniş hal almamışdı.

**16.2. Şimali Azərbaycanda ilk iri sənaye müəssisələrinin yaradılması.** XIX əsrin 60-70-ci illərində Şimali Azərbaycanda iri sənaye müəssisələri yaranmağa başladı. İri sənaye müəssisələri üçün azad fəhlə qüvvəsi Rusiyadan Azərbaycan axan sənaye məhsulları ilə rəqabət nəticəsində işlərini dayandırmalı olan kustar sətənkarlıq müəssisələrinin işçiləri - ustalar, usta köməkçiləri və şagirdləri, həmçinin 1870-ci il kəndli islahatları nəticəsində torpaqsız qalmış kəndlilərdən ibarət idi.

Şimali Azərbaycanda ilk iri sənaye müəssisələri Kokaryev və Quboninin 1859-cu ildə Suraxanıda tikdirdikləri neftayırma zavodu, 1860-cı ildə tikilmiş Şəki ipək fabriki və Simensin 1865-ci ildə Gədəbəydə tikdirdiyi mis zavodu olmuşlar.





Hələ 1857-ci ildə Peterburqda "Zakaspi ticarət şirkəti" təşkil edilmişdi. Bu şirkətin başında Kokaryev və Qubonin dururdular. 1857-ci il oktyabrın 14-də Qafqaz canişini knyaz Baratimskinin əmrilə həmin şirkətə zavod tikmək üçün Bakının Suraxanı kəndi yaxınlığında torpaq sahəsi verildi. "Zakaspi ticarət şirkəti" 1858-ci ildə burada zavod tikməyə başladı. Azərbaycanda və bütün Rusiyada ilk ağ neft zavodu olan bu müəssisə 1859-cu ildə məhsul verməyə başladı.

Neftdən alınmış ilk "fotogen" dəmir qablara doldurulub 1860-cı ildə satılmaq üçün Tiflisə göndərildi. Lakin burada o bəyənilməli. Yandırılarkən öncə şəffaf olan fotogen sonra qızarır və nəhayət qonur rəng alırdı və tüstü verirdi. Məlum oldu ki, fotogenin tərkibində üzvü turşularla birlikdə müxtəlif birləşmələr şəklində çoxlu dəmir vardır. Buna görə də fotogen zəif duz məhlulu ilə təmizləndikdən sonra ondan "kerosin" (ağ neft) adlanan şəffaf məhsul alındı. 1862-cı ildə ağ neft Bakıdan Rusiyaya göndərildi. Peterburq saraylarının lampalarında 1862-ci ildə ilk dəfə yandırılan ağ neft də Bakıdan göndərilən Azərbaycan ağ nefti idi. Lakin rus tarixşünaslığında bu ABŞ-dan gətirilmiş amerikan ağ nefti kimi qələmə verilir. Bakıdan Peterburqa gətirilən ilk ağ neftin tarixini isə 1863-cü ildən qeyd edirlər.

İlk vaxtlar neft emalı işinin hələ təkmilləşməməsi Kokaryev və Qubonin zavoduna zərər vururdu. Kokaryev hətta zavodu bağlamaq fikrinə düşür. O, öncə böyük kimyaçı alim D.Mendeleyev ilə məsləhətləşmək qərarına gəlir. D.Mendeleyev Bakıya gələrək neft emalı və borular vasitəsilə nəqli barədə qiymətli təklifləri ilə zavodun böhranlı vəziyyətdən çıxmasına kömək edir.

Azərbaycanda istehsal olunan baramanın çox hissəsi 1861-ci ilədək "Zaqafqaziyada ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyətin" müəssisələrində və kəndli kustar ipəkəyirmə müəssisələrində sarınırdı. Şimali Azərbaycanda 1860-cı ildə

169, 1861-ci ildə 300, 1862-ci ildə 417 belə kiçik barama açan və baramadoyən sex vardı. Bu kiçik sexlər Azərbaycan ipəkçilik təsərrüfatlarının xammala olan tələbatını ödəyə bilmirdilər. İri bir fabrikə ehtiyac hiss edilirdi. Bu işin mənfəətli olduğunu başa düşən Moskva sənayeçilərindən Alekseyev və Voronin qardaşları Çarabadda 100 iyi olan ipək fabriki tikdirdilər. Fabrik buxar maşını ilə işləyən böyük müəssisə idi. 1863-1865-ci illərdə fabrikin buxarla işləyən dəzgahlarında 192 usta və 64 usta şagirdi, ayaqla işləyən dəzgahlarında isə 52 usta işləyirdi. Bundan başqa fabrikdə 200-250 qadın baramaları növlərə ayırmaqla məşğul olurdu. Fabrikin ildə 1600 pud ipək istehsal etməsi nəzərdə tutulmuşdu. Lakin fabrik faktiki olaraq ildə 1200-1500 pud ipək istehsal edirdi.

Alekseyev və Voronin qardaşlarının Şəkidəki Çarabad fabriki Rusiyada ən iri ipək fabriki idi. Belə fabrikin Qərbi Avropada da bərabəri yox idi. Onun buraxdığı məhsul özünün yaxşı keyfiyyətilə fərqlənirdi. 1862-ci ildə Londonda ümumdünya sərgisində Voronin qardaşları tərəfindən nümayiş etdirilən barama və ipəyin medala layiq görülməsi bunu təsdiq edir.

Lakin qeyd edildiyi kimi xarici şirkətlərin Azərbaycana gətirdikləri ipəkqurdu xəstəliyi Çarabad fabrikinə çox ağır zərbə vurdu. 1869-cu ildə yerli kapitalistlərdən Mirzəyev bu fabriki 45 min rubla satın aldı. Lakin fabrikin tələbatını ödəyəcək qədər barama toplamaq mümkün olmadığına görə yeni sahibkar onu 1870-ci ildə bağlamağa məcbur oldu. 1874-cü ildə isə Mirzəyev həmin fabriki 5 il müddətinə icarəyə verdi. Fabrik həmin müddətdə çox az məhsul istehsal etdi. Beşillik icarə vaxtı bitdikdən sonra fabrik yenidən bağlandı və 1884-cü ilədək işləmədi.

Şimali Azərbaycanın üçüncü iri sənaye müəssisəsi Gədəbəydə Simensin mis zavodu idi. Hələ Simensdən öncə Gədəbəydə yerli sahibkarlar ildə 1200 pud mis istehsal edən kiçik bir müəssisə yaratmışdılar. Bu kiçik zavodun istehsal etdiyi məhsulların bir hissəsi Rusiyaya ixrac edilirdi. 1863-cü





ildə bu zavodu hanoverli sahibkar Moritsin, 1864-cü ildə isə prusiyalı Simens əlinə keçirdi.

Simens burada xeyli miqdarda mis təbəqəsi olduğunu və buradan yüksək qazanc götürə biləcəyini nəzərə alaraq, köhnə zavodun əvəzinə yeni metallurgiya zavodu tikdirməyi qərara aldı. Hökumət orqanları onu dəstəkləyib 1864-cü ilin avqustundan başlayaraq 10 il müddətində zavodun arta biləcək gəliri miqdarında deyil, istehsalın başlanğıc həddi qədərdən gəlir vergisi müəyyən etdilər. Zavodun tikilməsi üçün 50 desyatin məhsuldar və 16 desyatin qeyri-məhsuldar torpaq sahəsi ayrıldı. Hökumət tərəfindən yaradılmış əlverişli şərait nəticəsində Gədəbəy mis zavodu 1865-ci il avqustun 25-də işə salındı. Zavodda 200 nəfərə qədər fəhlə işləyirdi. 1866-cı ildə zavodda 6 misəridən soba, 1 kramator qülləsi, 10 at gücündə 1 lokomobil maşın, 25 at gücündə 1 buxar maşını və 4 ventilyator vardı. 1869-ci ildə sobaların sayı 9-a, 1862-ci ildə isə 10-a çatdı. Zavodun ixtiyarında 2 mis mədəni vardı.

1865-ci ildə Gədəbəy mis zavodunda 60 min pud mis filizi çıxarılmış və 8 min pud mis əridilmişdi. 1875-ci ildə isə zavodda artıq 1460 nəfər fəhlə işləyirdi və 1132 min pud mis filizi çıxarılmış, 26 min pud mis əridilmişdi. 1875-ci ildə Gədəbəy mis zavodunda 29 soba, 7 dənizçi körüyü, mis kuporuslarının möhkəmləndirilməsi və yandırılmış mis filizlərini təmizləmək üçün hovuzlar sistemi, 25 at gücündə 1 turbin, 36 at gücündə 2 sərinkeş var idi. Mədənlərdən filizi daşımaq üçün Azərbaycanda ilk dəfə olaraq dar dəmir yolu çəkilmişdi. 6 verst uzunluğunda olan bu yolla vaqonları çəkən 2 lokomotiv işləyirdi. Onlardan biri 10, o biri 12 at gücündə idi.

Gədəbəy mis zavodu nəzdində ayrıca dülgərlik və çilingərlik emalatxanaları da vardı. Zavodun ən böyük nöqsanı onun odun yanacağı ilə işləməsi idi. Hökumət tərəfindən Şəmkir çayının sahilində ayrılmış "Şəmkir yaylası" adlanan 16800 desyatin meşə sahəsinin yarıdan çoxu zavodu yanacaqla təmin etmək məqsədilə məhv edilmişdi. Hətta Simens qardaşları torpaq

haqqını və məhv edilmiş meşənin dəyərini də qışlaq əhalisinə ödəməkdən imtina etdilər. Onlar meşə sahəsində qışlaqların olmasının zavodun işinə maneçilik törətməsini bəhanə edərək, hökumətə verdikləri, məhv edilmiş meşə sahəsini bərpa edəcəkləri haqqında vədlərini də yerinə yetirmədilər.

**16.3. Şimali Azərbaycanın milli sərvətlərinin istismarının başlanması və milli burjuaziyanın təşəkkülü.** Şimali Azərbaycanın iqtisadi inkişafında Cənubi Qafqaz dəmir yolunun çəkilməsinin böyük əhəmiyyəti olmuşdur. Bu yolun çəkilməsi fikri hələ 1857-ci ildə meydana çıxmış və onun ilk layihəsini mühəndis-kapitan V.Statkovski hazırlamışdı. Statkovskinin layihəsinə görə dəmir yolu Alazan çayının Kür çayına qovuşduğu yerdə olan Səngər kəndindən Tiflisə qədər çəkilməli idi. Lakin elə həmin il saray mühəndisi Zquveski və hərbi mühəndis Çervin Poti şəhəri ilə Tiflis arasında dəmir yolu çəkilməsini təklif etdilər. Bu təkliflər Tiflis və Peterburqda uzun müddət müzakirə olundular. Nəhayət, 1864-cü ildə dəmir yolunun birinci növbədə Poti ilə Tiflis arasında çəkilməsi qərara alındı. 1877-ci ildə bu xətt istifadəyə verildi. Həmin ildə dəmir yolunun ikinci növbəsi – Kutaisi xətti də istifadəyə verildi. 1878-ci ildə Cənubi Qafqaz dəmir yolunun neft hissəsinin də çəkilməsinə başlandı. Bu yolun çəkilməsi layihəsi 1878-ci il iyunun 16-da təsdiq edilmiş, 1880-ci il yanvarın 16-da isə yolun çəkilməsi başa çatmışdı. Yolun neft hissəsi Bakını Sabunçu və Suraxanı qəsəbələri ilə birləşdirdi. Bu yol ilə əvvəllər yalnız neft daşımırdı. Bakı ilə mədənlər arasında geniş neft kəmərləri şəbəkəsi çəkildikdən sonra dəmir yolu ilə sərnişinlərin də daşınmasına başlandı. Həmin illərdə Bakıdan Sabunçu və Suraxanıya hər gün 6 dəfə sərnişin qatarı hərəkət edirdi. Həmin qatarlar əsas etibarilə neft mədənlərinin fəhlələrini daşıyırdılar.

1879-cu il dekabrın 22-də Cənubi Qafqaz dəmir yolunun Bakı hissəsinin çəkilməsi qərara alınmışdı. Bu yol 515 verst olub Tiflis ilə Bakını birləşdirməli idi. Bakı-Tiflis dəmir yolu





xəttinin çəkilməsi 1883-cü il mayın 8-də başa çatdı. O vaxt bu yolda 20 sərnişin qatarı paravozu və 75 yük qatarı paravozu, 72 sərnişin və 10 baqaj vaqonu, yüzlərlə yük və neft sisterni vaqonları var idi. 90-cı illərin ortalarında Bakı stansiyasında hər gün 40-50 vaqondan ibarət 15 qatar yola salınırdı. Bakını Tiflis ilə birləşdirən dəmir yolunun çəkilməsi Şimali Azərbaycanda sənaye, kənd təsərrüfatı və ticarətin inkişaf sürətinin artmasına və kapitalist münasibətlərinin inkişafına şərait yaratdı.

XIX əsrin 60-cı illərində sənayedə neftdən yanacaq kimi istifadə edilməsi Bakıda neft sənayesinin inkişafına səbəb oldu. Lakin Azərbaycanın neftli torpaqlarında iltizam sisteminin mövcudluğu neft hasilatının artmasına mane olurdu. 1872-ci ildə neft sənayesinə kapital qoyuluşuna mane olan iltizam sistemi ləğv olundu. Neftli torpaqların mücayidə (hərraca qoyma) yolu ilə alqı-satqısı kapital sahiblərinin özlərinin icarəsinə verildi.

İltizam sisteminin ləğvi Şimali Azərbaycanda neft sənayesinə rus və Qərbi Avropa kapitalının axınına şərait yaratdı. 1879-cu ildə Bakıda isveçli Nobel qardaşları birliyinin əsası qoyuldu. 80-ci illərdə Bakı neft sənayesində Rotşildin simasında fransız kapitalı, 90-cı illərdə Vişşaunun simasında ingilis kapitalı özünə yer etdi. Sonralar Rusiya və ABŞ kapitalı da Bakı neft sənayesinə daxil oldu.

Neft sənayesinə kapital qoyuluşunun artması neft çıxarılması işinin təkmilləşməsinə səbəb oldu. 1871-ci ildə burğu üsulu ilə ilk neft quyusu qazıldı, nefti quyudan mancanaq vasitəsilə çıxarmağa başladılar. Sonra isə quyuların qazılması və istisması üçün, həmçinin mancanaqların işlədilməsi üçün buxar maşınlarından istifadə olundu. 70-ci illərin sonunda Balaxanı neftmədən rayonu ilə neft emalı müəssisələri arasında ilk neft kəməri işə salındı. XIX əsrin sonunda Abşeronda neft kəmərlərinin uzunluğu 30 km çatmışdı. Daha sonra nefti və neft məhsullarını saxlamaq üçün çənlər quruldu, daşımaq üçün vaqonsisternlər yaradıldı.

Görülən tədbirlər 1870-1880-ci illərdə Şimali Azərbaycanda neft hasilatının təxminən 10 dəfə artmasına səbəb oldu. Bakıda neft istehsalının artım tempi sonrakı illərdə də davam etdi. Bakıda əgər 1865-ci ildə 557 min pud neft istehsal edilmişdisə, 1875-ci ildə 5,2 milyon pud, 1880-ci ildə 21,5 milyon pud, 1885-ci ildə 116 milyon pud, 1890-cı ildə 212,9 milyon pud, 1895-ci ildə 384 milyon pud neft istehsal edilmişdi. Bakı neft sənayesinin belə sürətlə inkişafı nəticəsində Azərbaycan 1898-ci ildə 489 milyon pud neft istehsal edərək, neft hasilatının həcminə görə nəinki ABŞ-ın səviyyəsinə çatdı və hətta onu ötüb keçdi. 1901-ci ildə isə Bakıda rekord miqdarda – 667,1 milyon pud neft istehsal edildi ki, bu da bütün Rusiya imperiyasında istehsal olunan neftin 95 faizini, dünya neft hasilatının isə 51 faizini təşkil edirdi. Bakıda əsas neft rayonları Sabunçu, Suraxanı, Balaxanı, Ramana və Bibiheybət idi.

Bakı ağ nefti təkcə Rusiyaya deyil, xarici ölkələr – Çin, Hindistan, Hindi-Çin, Avstraliyaya da ixrac olunurdu. Neft ixracının artması nəticəsində onun daşınmasını asanlaşdırmaq üçün 1897-ci ildə Bakı ilə Batum arasında neft kəməri çəkilməsinə başlandı. Kəmərin çəkilməsi 10 ilə başa çatdı. Kəmər neft ixracını xeyli artırdı.

Neft çıxarma sənayesinin inkişafı ilə bağlı olaraq Bakıda neftayırma, maşınqayırma və mexaniki zavodlar, buxar qazanları, metal kanat istehsal edən və digər sənaye müəssisələri yaradıldı. Bu zavodların sahibləri Nobel qardaşları, Montaşevlər, Xatisovlar, Zelinskilər kimi əcnəbi sənayeçilər ilə yanaşı Əlibəyovlar kimi bir neçə azərbaycanlı sənayeçilər də vardı.

XX əsrin əvvəllərində Azərbaycan sənayesinin mühüm sahələri sırasınıda Naxçıvanın duz mədənləri və Bakının gəmi təmiri müəssisələri əhəmiyyətli yer tuturdular. Naxçıvan daşduz istehsalı mədənləri Azərbaycan əhalisinin duza olan tələbatını ödəməklə bərabər balıqçılıq sənayesinin tələbatını da tamamilə ödəyirdi. Gəmi təmiri müəssisələri isə balıqçı gəmiləri təmir etməklə bərabər ticarət gəmiçiliyinə də xidmət edirdilər.





1901-ci ildə Bakıda 9 gəmi təmiri zavodu işləyirdi. Bakının gəmi təmiri zavodları azərbaycanlı sənayeçi Dadaşovlara və "Qafqaz və Merkuri" şirkətinə məxsus idilər.

XX əsrin əvvəllərində Azərbaycan sənayesində balıqçılıq təsərrüfatları da əhəmiyyətli yer tuturdular. Xəzər dənizində balıqçı gəmilərinin əsas sahibləri Mayılov qardaşları və məşhur azərbaycanlı milyoner H.Z.Tağıyev idilər. 1898-1900-cu illərdə Azərbaycanda tutulmuş balığın ümumi çəkisi 2,4 milyon pud olmuşdu. Balıq və balıq məhsulları Şimali Azərbaycandan əsas etibarı ilə Gürcüstan və Rusiyaya, həmçinin Qərbi Avropa ölkələrinə ixrac edilirdi.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda kapitalist münasibətlərinin inkişafı nəticəsində cəmiyyətin sosial quruluşunda böyük dəyişiklər baş verdi: burjuaziya və proletariat kimi siniflər meydana çıxdı. XIX əsrin əvvəllərində Azərbaycan burjuaziyasının tərkibi Bakı və digər şəhərlərin sənaye müəssisələrinin sahiblərindən, kənd fermer təsərrüfatları sahibkarlarından, böyük yaşayış evlərinin sahiblərindən, gəmiçilik müəssisələrinin sahibkarlarından, tacirlərdən və sələm kapitalının nümayəndələrindən ibarət idi. Azərbaycana iqtisadiyyatının inkişafının müstəmləkə xarakteri ilə bağlı olaraq Şimali Azər-bay-canın burjuaziyası milli tərkibinə görə müxtəlif idi. Onun tərkibində azərbaycanlılar, ruslar, ermənilər və Qərbi Avropa xalqlarının nümayəndələri vardı.

Azərbaycan milli burjuaziyası XIX əsrin ikinci yarısında formalaşmağa başlayır. İlk vaxtlar milli burjuaziya, iqtisadi və eləcə də siyasi cəhətdən çox zəif idi. Azərbaycan sənayesində Qərbi Avropa, rus və erməni burjuaziyası hökmranlıq edirdi. Lakin XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan milli burjuaziyası güclənir və əcnəbi kapitalistləri ilə rəqabət aparmaq qabiliyyəti olan sosial qüvvəyə çevrilir. Bu dövrdə Azərbaycan milli burjuaziyasının Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev, Murtuza Muxtarov, Ələkbər Dadaşov və başqaları kimi görkəmli nümayəndələri

yetişmişdir. H.Z.Tağıyevin neft mədənləri, balıqçı gəmiləri, toxuculuq fabriki, bankı, kənd fermer təsərrüfatları və bir sıra digər sənaye müəssisələri vardı. "Millət atası" adlanan H.Z.Tağıyev böyük maarifpərvər və mesenat şəxs idi. Bakıda ilk realnı gimnaziyanı və qızlar seminariyasını o açmışdı. Onun vəsaiti ilə Bakıda rus dilində "Kaspi" adlı o dövrün ən böyük qəzeti nəşr edilirdi. Qazaxıstanın Alma-Ata şəhərində nəşr edilən ilk qəzet də onun vəsaiti ilə işıq üzü görmüşdü. H.Z.Tağıyev xeyirxah əməlləri ilə xalq tərəfindən sevilə-sevilə yad edilir. Şəmsi Əsədullayev neft sənayesində Nobel qardaşları ilə rəqabət edə bilən azərbaycanlı milyoner idi. O, mexaniki zavodlar sahibi kimi Nobel qardaşlarından geri qalmırdı. Neft sənayesi üzrə tanınmış milyoner Musa Nağıyev həm də Bakı şəhərində tikdirdiyi binaları ilə tarixə düşmüşdür. Bakının ən gözəl memarlıq abidəsi olan «İsmailiyyə» binası (indiki Milli Elmlər Akademiyasının Rəyasət heyətinin binası), Təcili yardım xəstəxanasının binası, "Staraya Yevropa" mehmanxanası və onlarla ictiai bina onun tərəfindən tikdirilmişdi. Murtuza Muxtarov neft çıxarma sənayesi sahəsində ən görkəmli milyonerlərdən biri olmuşdur. O, neft mühəndisi kimi neftçıxarma texnologiyası sahəsində etdiyi ixtiralarının qonorarı ilə sərvət toplayıb Azərbaycanın tanınmış milyonerlərindən birinə çevrilmişdi. Ələkbər Dadaşov böyük gəmi sahibkarı olmuşdur. Onun tərsanələri və digər gəmi təmiri zavodları vardı. Ə.Dadaşov həmçinin Bakıda ən böyük yaşayış evləri sahibkarı olmuşdur.

Azərbaycanda kapitalizmin inkişafı burjuaziya ilə yanaşı fəhlə sinfinin də təşəkkül tapmasına səbəb oldu. 1870-ci il aqrar islahatı Azərbaycan kəndində sosial təbəqələşmə prosesini sürətləndirdi, sənaye proletariatının formalaşması üçün ehtiyat işçi qüvvəsinin təşəkkülünə şərait yaratdı. Formalaşmaqda olan Azərbaycan fəhlə sinfi Rusiya və Cənubi Azərbaycandan çörək pulu qàzànmàq üçün gələn rus və azəri kəndliləri hesabına xeyli dərəcədə öz boy sırasını artırdı. XIX əsrin sonlarında





Azərbaycan fəhlə sinfinin sayı 90-100 min nəfərə, onun əsas özəyini təşkil edən Bakı fəhlələrinin sayı isə 60-65 minə çatmışdı.

Bütün Rusiyada olduğu kimi Azərbaycanda da fəhlə sinfinin vəziyyəti çox ağır, dözülməz idi. Mütləqiyyət və burjuaziyanın hökmranlığı şəraitində onların nəsibi əzablı əmək, aclıq, yoxsulluq və tam hüquqsuzluq idi.

Azərbaycan fəhlə sinfi yerli milli burjuaziyadan daha çox erməni, rus və qərbi Avropa burjuaziyası tərəfindən amansızcasına istismar olunurdu.

## Ədəbiyyat:


1. Azərbaycan tarixi. 7 cilddə, 4-cü cild, s.59-78, 162-176, 203-227, 238-248, 307-320.
2. Azərbaycan Rusiya və İran arasında bölüşdürülməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri.

# XVII FƏSİL

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALI AZƏRBAYCANDA SOSİAL-SİYASI DURUM

**17.1. Bakı proletariatının 1904-cü il Dekabr tətili.** XX əsrin başlanğıcında dünya inqilabı hərəkatının mərkəzi Qərbi Avropadan Rusiyaya keçdi. Bu hər şeydən öncə Rusiya fəhlə sinfinin sosial vəziyyətinin Qərbi Avropa ölkələrinin fəhlə sinfi ilə müqayisədə qat-qat ağır olması ilə bağlı idi. Azərbaycan fəhlə sinfinin maddi durumu isə Rusiyanın mərkəzi şəhərlərinin fəhlə sinfinin maddi durumundan dəfələrlə aşağı idi. Əsrin ilk illərindən başlayaraq Rusiyanın bütün sənaye şəhərlərini fəhlələrin tətil hərəkatı bürüdü. Bakıda fəhlələrin tətil hərəkatı daha geniş xarakter daşıyırdı. 1903-cü ildə Bakı fəhlə tətillərinin sayına görə Rusiyada birinci yerdə dururdu.

XX əsrin əvvəllərində Rusiyadan fəhlə hərəkatının ən mühüm hadisəsi Bakı proletariatının əzəməti Dekabr tətili olmuşdur. Tətil 1904-cü il dekabrın 13-də «Kaspi-Qara dəniz neft sənayesi cəmiyyətinin» zavodunda başladı və qısa müddətdə şəhərin bütün mədən-zavod rayonlarına yayıldı, ümumşəhər tətilinə çevrildi. Tətildə iştirak edən fəhlələrin sayı 50 min nəfərə çatırdı. Tətilin başında Bakı fəhlələrindən Pyotr Montin, Xanlar Səfərəliyev, İvan Fialetov və başqaları dururdular. Fəhlələr sahibkarlara təqdim etmək üçün öz tələbatını hazırlamaq məqsədilə «Tətil komitəsi» yaratdılar. Tətil komitəsinin işində 1904-cü ilin axırlarında yaradılmış «Hümmət» sosial-demokrat təşkilatının üzvlərindən Nəriman Nərimanov, Məmmədəmin Rəsulzadə, Məşədi Əzizbəyov, Sultanməcid Əfəndiyev və başqaları fəal iştirak edirdilər. Tətil komitəsinin hazırladığı sənədə fəhlələrin 8 saatlıq iş günü, əmək haqqının





artırılması, yaşayış şəraitinin yaxşılaşdırılması, istehsalatda texniki təhlükəsizlik qaydalarına əməl olunması, söz azadlığı və insan hüquqlarının qorunması və s. kimi iqtisadi və siyasi tələbləri daxil edilmişdi.

Dekabrın 14-də sahibkarlar tətil edənlərlə danışıqlar aparmaq üçün 15 nəfərdən ibarət nümayəndə heyəti ayırdılar. Sahibkarlar «Tətil komitəsi» ilə danışıqlarda fəhlələri milli mənsubiyyətlərinə görə qruplara bölüb paralamaq kimi adəti taktikalarına əl atdılar. Onlar rusdilli fəhlələrə guya daha yüksək keyfiyyətli işçi olmalarına görə azərbaycanlı fəhlələrə nisbətən daha çox əmək haqqı təklif etdilər. Qabaqcıl fikirli rus fəhlələrinin tələbi ilə «Tətil komitəsi» sahibkarların belə şərtlərini rədd etdilər. Danışıqlar baş tutmadı. Tətil davam edirdi.

Tətilin uzanması Bakı sahibkarlarının ciblərinə ziyan vurmaqla bərabər bütün Rusiya sənayesini iflic vəziyyətə salmışdı. Volqaboyu və Moskva sənaye müəssisələri neft yanacağı çatışmadıbına görə dayanmaq təhlükəsi ilə qarşılaşmışdı. Tətilin uzanmasından narahat olan maliyyə naziri həyəcan təbili çalırdı. Maliyyə nazirinin tələbilə baş nazir Vitte Bakı qubernatorunu general qubernatorla əvəz etdi və ona göndərdiyi əmrdə nəyin bahasına olursa-olsun tətili dayandırmağı və Bakı neft mədənlərində, habelə neftayırma zavodlarında işi bərpa etməyi tələb edirdi. Bakıda hərbi vəziyyət elan edildi. Şimali Qafqaz dəmir yolu stansiyalardan başlayaraq Bakıya qədər bütün dəmir yolu hərbiləşdirildi. Bu yol ilə Bakıya qoşun yeridilməsinə başlandı. Bakıda bütün nümayişlər qadağan olundu. 2-3 nəfərdən çox adamın bir yerdə toplaşmasına icapzə verilmədi. General qubernatora səlahiyyət vermişdi ki, əgər fəhlələr onlara təklif edilən şərtləri qəbul etməkdən imtina etsələr, onlara qarşı hərbi qüvvə göndərməklə zor tətbiq edilsin. Eyni zamanda general qubernatora güzəştə getmək istəməyən sahibkarları da həbs etmək səlahiyyəti ıerilmişdi.

Tətilin vüsət aldığı bir vaxtda Volqaboyundan Lev, İlya və Qleb adlı Şendrikov qardaşları kimi tanınmış sosial-

demokratlar Bakıya gəldilər. Onlar fəhlələr arasında təbliğat aparırdılar ki, sahibkarlara təzyiq göstərmək üçün mədənləri yandırsınlar. Lakin fəhlələr onların bu təxribatçı təbliğatına uymadılar. Şendrikov qardaşları Ramanı neft rayonunda yanğın törətməyə nail ola bildilər. Sonradan məlum oldu ki, jandarmanın agentləri olan bu sosial-demokratlar Bakıya təxribat törətmək üçün hökumətin xüsusi tapşırığı ilə gəlmişlər. Yanğını söndürmək üçün şəhərdən yanğınsöndürənlər dəstəsi göndərilməsi əvəzinə silahlı hərbi dəstə göndərildi. Lakin silahlı dəstə gələnə qədər fəhlələr yanğını söndürməyə müvəffəq oldular. Jandarma fəal fəhlələri həbs etmək istədikdə fəhlələr tərəfindən tərksilah edilib qovuldu.

Tətilçilərin inqilabi əzmini görüb sahibkarlar başa düşdülər ki, fəhlələr tam qələbəyədək tətili davam etdirəcəklər. Ona görə də fəhlələr ilə birgə danışıq stolunun arxasında oturmağa razılıq verdilər.

1904-cü il dekabrın 30-da fəhlələr ilə sahibkarlar arasında "Kollektiv müqavilə" bağlandı. Fəhlələrin «Mazut konstitusiyası» adlandırdıqları bu müqavilə Rusiya tarixində kapitalistlər ilə fəhlələr arasında bağlanmış ikl kollektiv müqavilə idi.

Kollektiv müqaviləyə görə fəhlələr 9 saatlıq iş günü, gecə növbələrində və qazma işlərində isə 8 saatlıq iş günü əldə etdilər. Qeyd etmək lazımdır ki, o vaxt bütün Rusiyada fəhlələrin iş günü 11-14 saata çatırdı. Müqavilənin şərtlərinə görə fəhlələrin əmək haqqı artırılırdı; xəstəliyə görə fəhəllər 3 həftə ərzində əmək haqqını yarısı məbləğində vəsait almalı idilər. Müqaviləyə görə emalatxanalar kifayət qədər işıqla təmin edilməli, buxar istilik sistemi və hava təmizləyici qurğuları və s. gigiyenik vasitələrlə təchiz edilməliydilər. Müqavilədə xüsusi bir maddə vardı ki, ona əsasən fəhlə kazarmalarında yaşayış yeri olmayanlar kirayə pulu almalı idilər. Müqavilədə belə bir maddə də vardı ki, sahibkarlar fəhlələr ilə nəcib rəftar etməli idilər, onlara «Sən» deyil, «Siz»





deyə müraciət etməli idilər. Kollektiv müqavilə bağlandıqdan sonra, dekabrın 31-də fəhlələr tətili dayandırıb işə çıxdılar.

Bakı proletariatının Dekabr tətili Rusiyanın mərkəzi vilayətlərində geniş əks səda verdi. Peterburq, Moskva, Xarkov, Rostov, Yekaterinburq, Samara, Simbirsk, Tiflis, Qroznı və Rusiya imperiyasının başqa şəşərlərində fəhlələr Bakı hadisələrinə dair inqilabi vərəqələr buraxdılar. Həmin vərəqələrdə Bakı proletariatının Dekabr tətilində qələbəsinin bütün Rusiya fəhlə sinfi üçün böyük əhəmiyyəti olduğu qeyd edilirdi. Saratov fəhlələrinin intibahnaməsində deyilirdi: "Proletariatın azadlığı uğrunda müqəddəs mübarizənin alovları genişlənir. Bu alovlar bütün Rusiyanı bürüyür, Bakının arxasınca Piter, Piterin arxasınca isə Moskva gedir".

Dekabr tətili günlərində Bakı proletariatı Rusiyada yaxınlaşmaqda olan xalq inqilabının yol göstərəni kimi çıxış etdi. Bu tətil Rusiyada 1905-ci il şanlı yanvar-fevral çıxışları üçün bir siqnal oldu. O yetişməklə olan hadisələr üçün bir növ tufandan öncəki ildırım oldu.

Bakı proletariatının bu qələbəsi Rusiyada zülm və əsarətə əsaslanan sükunət buzunu sındırdı. Həqiqətən də az sonra ölkədə 1905-1907-ci illərin xalq inqilabı baş verdi.

**17.2. 1917-ci il Rusiya inqilablarından sonra Azərbaycanda ictimai-siyasi həyat və Bakı Sovetinin hakimiyyəti ələ alması.** 1917-ci il fevralın 27-də Rusiyada Fevral burjua-demokratik inqilabının qələbəsi nəticəsində çarizm devrildi, ölkədə ikihakimiyyətlilik yarandı. Bu hakimiyyətlərdən biri burjuaziya və mülkədarların hakimiyyəti olan Müvəqqəti hökumət, digəri isə fəhlə, kəndli və əsgərlərin hakimiyyəti olan Sovetlər idi. Rusiyanın paytaxtı Petroqradda Sovetlərə eser (sosialist inqilabçılar) və menşevik sosial-demokratlar başçılıq edirdilər.

Paytaxtda inqilabın qələbəsi və çarizmin devrilməsi xəbəri Bakıya martın 2-də gəlib çatdı. Bu xəbər Azərbaycan əhalisinin zəhmətkeş və demokratik təbəqələri tərəfindən sevinc və

ruh yüksəkliyi ilə qarşılandı. İnqilabın qələbəsi nəticəsində ictimai-siyasi həyatın liberallaşması şəraitində əvvəllər gizli fəaliyyət göstərən siyasi partiyalar leqallaşdılar. Həmçinin Azərbaycanda yeni siyasi partiyalar yarandı.

Açıq fəaliyyət göstərməyə başlayan siyasi partiyalardan biri də "Müsavat" idi. Bu partiya 1911-ci ildə Bakıda "Müsəlman Demokratik Müsavat Partiyası" adı altında yaranmışdı. Onun təşkilatçıları M.Ə.Rəsulzadə, T.Şərifzadə və A.Kazımzadə idi. 1908-1910-cu illərdə Cənubi Azərbaycanda inqilabi hərəkatda fəal iştirak etdiyinə görə hökumət tərəfindən təqib olunan və millətçilikdə ittiham edilən M.Ə.Rəsulzadənin İstambula muhacirətə getməsindən sonra "Müsavat" partiyası öz fəaliyyətini dayandırmalı olmuşdu. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illik yubileyi münasibətilə siyasi məhbuslar və mühacirlər haqqında verilən amnisiyadan sonra Bakıya qayıtmış M.Ə.Rəsulzadə “Müsavat partiyasının ideyalarını” "Açıq söz" qəzeti vasitəsilə təbliğ edirdi. Bu ideyalar "türkləşmək, islamlaşmaq və müasirləşmək" devrinə əsaslanırdı.

1917-ci ilin martında N.Usubbəyli tərəfindən Gəncədə "Türk Federalistlər Partiyası" yaradıldı. Həmin ilin iyun ayında "Müsavat" və "Türk Federalistlər Partiyası" birləşmək qərarına gəldilər. Oktyabrın 26-da isə bu partiyaların birləşmiş I qurultayında yeni partiyanın rəsmi adı "Türk Federalistlər Müsavat Partiyası" oldu, lakin bir qayda olaraq həmişə "Müsavat" adını daşıdı. Partiyanın Mərkəzi Komitəsinə M.Ə.Rəsulzadə, N.Usubbəyli, H.Ağayev, M.H.Hacınski və b. daxil oldu. Partiyanın sədri M.Ə.Rəsulzadə, sədrin müavini N.Usubbəyli seçildilər. Fevral inqilabının qələbəsindən sonrakı ilk illərdə milli ərazi muxtariyyəti şüarını belə irəli sürməyən "Müsavat" birləşmədən sonra I qurultayında Rusiyanın gələcək dövlət quruluşunu "milli ərazi muxtariyyəti əsasında federativ dedekratik respublika formasında" nəzərdə tutan proqramı qəbul etdi. 1917-ci ilin yazında kiçik zəif partiya kimi





fəaliyyətə başlayan "Müsavat" həmin ilin payızınla Azərbaycanda ən iri, nüfuzlu və güclü siyasi partiyaya çevrildi.

Gizli fəaliyyətdən leqal fəaliyyətə keçən siyasi partiyalardan biri də RSDF(b)P-nin Bakı Komitəsi idi. Fevral inqilabından sonra sosial-demokrat "Hümmət" təşkilatı da yenidən fəaliyyətə başladı. "Hümmət" 1904-cü ilin sonlarında RSDF(b)P-nin Bakı komitəsinin yanında müsəlman fəhlələri arasında iş aparmaq üçün yaradılmış siyasi təşkilat idi. Birinci Rusiya inqilabın məğlubiyyətindən sonra "Hümmət" də gizli faliyyətə keçmişdi. "Hümmət"in yaradıcıları N.Nərimanov, M.Ə.Rəsulzadə, Ə.Axundov və S.M.Əfəndifev olmuşlar. 1917-ci ildə açıq fəaliyyətə keçdikdən sonra "Hümmət"in sədri N.Nərimanov seçildi. "Hümmət"in rəhbər heyətinə M.Əzizbəyov, Ə.Axundov, H.Sultanov, B.Sərdarov, B.Hacıyev, S.M.Əfəndiyev və M.Qədirli (İsrafilbəyov) daxil idilər.

1917-ci ilin martında İrəvanda "İrşad", sentyabrında Bakıda "Rusiyada müsəlmanlıq" və Gəncədə "İttihadi islam" ("islam birliyi") adlı Azərbaycan milli siyasi partiyaları da yarandı.

Fevral inqilabından sonra Bakıda hələ əsrin əvvəllərindən mövcud olan rus dilli əhalinin "Kadet", "Trudovik", "Eser" və "Sosial-demokrat (menşevik)" partiyalarının Bakı təşkilatları, habelə ermənilərin "Daşnaksütyun" partiyasının yerli təşkilatı mövcud idi. Siyasi həyatın liberallaşdırılması şəraitində böyük təcrübəyə malik olan bu siyasi partiyalar ilk çağlar müəyyən qədər populyar olub hakimiyyət orqanlarında və ictimai təşkilatlarda üstün mövqelər tutmağa nail ola bilmişdilər.

1917-ci il martın 4-5-də Bakıda Fəhlə Deputatları Sovetinə seçkilər keçirildi və martın 6-da 52 nəfərdən ibarət Bakı Fəhlə Deputatları Soveti təşkil olundu. Həmin gün Bakıda Zabit Deputatları və ayrıca Əsgər Deputatları sovetləri yaradıldı. Martın 29-da onlar birləşib vahid Hərbi Deputatları Soveti adlandırıldı.

Azərbaycanın digər şəhərlərində də Fəhlə və Əsgər Deputatları sovetləri yaradıldı. Rusiyanın mərkəzi şəhərlərində

olduğu kimi Azərbaycanda da Fəhlə və Əsgər Deputatları Sovetlərində rəhbərliyi eser və menşevik partiyalarının nümayəndələri ələ keçirmişdilər. Petroqraddan fərqli olaraq Azərbaycanda fəhlə və əsgər deputatları Sovetləri siyasi və təşkilatı cəhətdən zəif idilər və hakimiyyəti ələ almağa hələ cürət etmirdilər.

Azərbaycanda hakimiyyəti ələ almağa siyasi partiyalarından ilk olaraq kadet, eser, menşevik, müsavat və daşnaklar təşəbbüs etdilər. Martın 5-də Bakıda İctimai Təşkilatlar Şurası və onun İcraiyyə Komitəsi yaradıldı. Onun sədri öncə kadet L.Biç, sonra isə eser İ.Frolov seçildi. İTŞ İcraiyyə Komitəsinə L.Biç, İ.Frolov, İ.Heydərov, M.H.Hacınski və A.Bekzadyun daxil oldular. İTŞ İcraiyyə Komitəsi özünü Rusiya Müvəqqəti Hökumətinin Bakı quberniyasında yerli hakimiyyət orqanı elan etdi. Martın 10-da Gəncədə, sonra isə Azərbaycanın digər şəhərlərində də İctimai Təşkilatlar Şurasının İcraiyyə Komitələri yaradıldı.

Qeyd etmək lazımdır ki, mövcud tarixi ədəbiyyatda İTŞ İcraiyyə Komitəsi ilə Bakı Soveti arasındakı münasibətlər Rusiyanın mərkəzi şəhərləri Petroqrad və Moskvada olduğu tək ikihakimiyyətlilik kimi səciyyələndirilir. Həqiqətdə isə belə olmamışdır. Bakı Soveti İTŞ İcraiyyə Komitəsini bütün Bakı quberniyasında Rusiya Müvəqqəti Hökumətinin yerli hakimiyyət orqanı kimi tanımış və öz nümayəndəsini onun tərkibinə göndərmişdi. Bakı Soveti İTŞ-nı təşkil edən ictimai təşkilatlardan biri idi. Bakı Sovetinin qərarları məşvərətçi təşkilatın qərarları hüququna malik idi və onların yerinə yetirilməsi İTŞ İcraiyyə Komitəsinin qərarından asılı idi.

Bakı şəhər Duması da Bakı Sovetinin qarşısında deyil, İTŞ İcraiyyə Komitəsi qarşısında hesabat verirdi. Bakı şəhər Dumasının sədri 1917-ci ilin aprelində Azərbaycanın görkəmli siyasi xadimi Fətəli xan Xoyski seçilmişdi. Bakı şəhərinin inzibati idarə orqanları Bakı şəhər Duması qarşısında hesabat versələr də, ilk növbədə İTŞ İcraiyyə Komitəsinin qərar və sərəncamlarını yerinə yetirirdilər.





Bakıda yaradılmış, müxtəlif sosial təbəqələri birləşdirən milli şuralar da öz nümayəndələrini İTŞ İcraiyyə Komitəsinə göndərməklə onun hakimiyyətini tanımışdılar. Bakıda rus (xristian) milli şurası və erməni milli şurası ilə bərabər azərbaycanlıların müsəlman milli şurası da güclü nüfuza malik idi, Azərbaycanın qəzalarında da milli şuralar yaradılmışdı. Bakı Sovetinin qızıl qvardiyası kimi silahlı dəstəsi ilə yanaşı, milli şuraların müsəlman milli qvardiyası, rus milli qvardiyası və erməni milli qvardiyası kimi silahlı dəstələri vardı.

Azərbaycanın siyasi həyatında fəal iştirak edən nüfuzlu təşkilatlardan biri də 1917-ci il martın 29-da yaradılmış Müsəlman İctimai Təşkilatlarının Bakı Şurası idi. Şuranın Müvəq-qəti İcraiyyə Komitəsinə M.H.Hacınski (sədr), M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, F.Xoyski, M.Əsədullayev, N.Nərimanov, M.Əzizbəyov və b. daxil idilər. Müvəqqəti İcraiyyə Komitəsinin fəaliyyəti nəticəsində Bakıda 1917-ci il aprelin 15-dən 20-dək Qafqaz müsəlmanlarının birinci qurultayı keçirildi. Qurultay ərazi muxtariyyəti ideyasını rədd edərək, belə qərara gəldi ki, Qafqaz müsəlmanlarının mənafeyini ərazi federasiyası əsasında yaradılmış demokratik respublika quruluşu müdafiə edə bilər.

Azərbaycan siyasi partiyaları arasında "Müsavat" partiyasının nüfuzu gündən-günə artırdı. Bakı Sovetinə payızda keçirilən seçkilərdə "Müsavat" bütün siyasi partiyaları geridə qoyaraq səslərin 40 faizini toplaya bilmişdi. Lakin Sovetin rəhbər orqanlarının seçilməsi zamanı xristian deputatlar vahid blokda birləşib, sonralar məlum olduğu kimi İngiltərə kəşfiyyatına xidmət edən, bolşevik S.Şaumyanı yenidən Bakı Sovetin sədr seçdilər. Buna etiraz əmaləti olaraq "Müsavat"ın liderləri, siyasi taktika baxımında böyük səhvə yol verərək, Bakı Sovetinin İcraiyyə Komitəsinə daxil olmaqdan imtina etdilər. Bakı Sovetinin İcraiyyə Komitəsinə azərbaycanlılardan yalnız bolşevik S.M.Əfəndiyev və sol eser M.H.Vəzirov seçildilər.

1917-ci il oktyabrın 25-də Böyük Oktyabr sosialist inqilabı nəticəsində Petroqradda Sovetlər bolşeviklərin rəhbərliyi altında hakimiyyəti ələ aldılar. Petroqradın ardınca Moskva və Bakıda da Sovetlər hakimiyyəti ələ almaq haqqında qərar qəbul etdilər. Noyabrın 2-də bolşeviklərin rəhbərliyi altında Bakı Soveti bütün Bakı quberniyasında hakimiyyəti ələ almaq üçün tədbirlər planı hazırladı.

Noyabrın 7-də "Müsavat" partiyası qəbul etdiyi qətnaməsində Müvəqqəti Hökumətin, müharibəni davam etdirmək kimi xarici siyasət yeritdiyinə görə və millətlərin öz müqəddəratını təyin etmək hüququnu qəbul etmək istəmədiyinə görə, devrilməsini təbii və qanuni hal hesab edirdi. Lakin hakimiyyətin yalnız bir partiyanın əlində cəmləşməsinin Rusiyada demokratiya və inqilab üçün təhlükə törədə biləcəyi qeyd edilirdi. Bununla belə "Müsavat" Bakı Sovetində bir çox məsələlərdə bolşeviklərlə eyni mövqe tutur və onu dəstəkləyirdi. Bunu onunla izah etmək olar ki, bolşeviklər partiyası, hakim rus millətçiliyi siyasəti yeridən kadet, eser və menşeviklərdən və açıq antiazərbaycan mövqeyindən çıxış edən daşnaklardan fərqli olaraq, millətlərin öz müqəddəratını təyin etmək hüququnu öz proqram tələbi kimi irəli sürmüşdü. Bundan əlavə Sovet Rusiyasının hökuməti 1917-ci il noyabrın 2-də qəbul etdiyi "Rusiya xalqlarının hüquq bəyannaməsi"ndə xalqların öz müqəddəratını təyin etmək, hətta ayrılıb müstəqil dövlətlərini yaratmaq hüququnu elan etdi, noyabrın 22-də isə "Rusiya və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" müraciətində bildirdi ki, "sizin etiqad və adətləriniz, sizin milli və mədəni təsisatlarınız azad və toxunulmaz elan olunur. Öz milli həyatınızı sərbəst və maniyəsiz qurum, sizin buna hüququnuz vardır". Bu dekret və bəyanatlar "Müsavat"ın ümidini bir qədər də artırdı ki, bolşeviklər öz vədlərinə əməl edib Azərbaycan xalqına öz müqəddəratını təyin etmək imkanı verəcəklər.

Məhz "Müsavat"ın dəstəyilə bolşeviklər Bakı Sovetində, hələ oktyabrın 26-da yaradılmış və özünü Bakıda ali hakimiyyət orqanı elan etmiş, İctimai Təşkilatların Təhlükəsizlik Komitəsinin qanundan kənar elan edilməsi haqqında qərar çıxarmağa nail oldular.





1917-ci ilin noyabr və dekabr aylarında Bakı Sovetinin hakimiyyəti faktiki olaraq Bakı bölgəsini əhatə edirdi. Cənubi Qafqazın qalan hissələri isə 1917-ci il noyabrın 11-də Tiflisdə yaradılmış Zaqafqaziya Komissarlığı tərəfindən idarə olunurdu. Y.Gegeçkorinin sədr olduğu Zaqafqaziya Komissarlığı hökumətinin 11 üzvündən 4-ü azərbaycanlı, 4-cü gürcü, 3-ü erməni idi. Hökumətə Azərbaycandan M.Y.Cəfərov, X.Məlikaslanov, X.Xasməmmədov v F.Xoyski daxil idilər.

1918-ci il dekabrın 26-28-də Cənubi Qafqazda Ümumrusiya Müəssisələr Məclisinə seçkilər keçirildi. Müəssisələr Məclisinə gürcü menşeviklərindən 11, müsavatçılardan 10, daşnaklardan 9, müsəlman sosialist blokundan 2, bolşeviklərdən 1, eserlərdən 1, hümmətçilərdən 1 və ittihadçılardan 1 deputat seçildilər. 1918-ci ilin yanvarında Rusiya Müəssisələr Məclisi buraxıldığından Cənubi Qafqazdan Müəssisələr Məclisinə seçilmiş deputatlar 1918-ci il fevralın 23-də Tiflisə toplaşıb özlərini Zaqafqaziya seymi elan etdilər. Seym Cənubi Qafqazı Federativ Respublika elan etdi. Seym özünü Cənubi Qafqazda qanunverici orqan elan edərək, Y.Gegeçkorinin başçılığı ilə Müvəqqəti Zaqafqaziya hökumətini təşkil etdi. Zaqafqaziya seymi 1918-ci il aprelin 22-də Cənubi Qafqazın Federasiyasının müstəqilliyini elan etdi və aprelin 26-da onun yeni hökumətini təşkil etdi. Cənubi Qafqaz Federasiyasının yeni hökuməti 14 nəfərdən ibarət idi: 5 azərbaycanlı, 5 gürcü və 4 erməni. Baş nazir və əsas nazir portfellərini gürcülər və ermənilər tutdular. Çxenkeli - baş nazir, Çxeidze - xarici işlər naziri, Ramiaşvili - daxili işlər naziri, Georqadze - silahlı qüvvələr naziri, Xomerani - kənd təsərrüfatı naziri, Xatisiyan - maliyyə naziri və s. Azərbaycanlılara aşağıdakı nazir portfelləri qismət olmuşdu: F.Xoyski - ədliyyə naziri, M.H.Hacınski - ticarət və

sənaye naziri, X.Məlikaslanov - nəqliyyat naziri, N.Usubbəyli - təhsil naziri və M.Y.Cəfərov - dövlət nəzarəti naziri.

**17.3. Bakıda azərbaycanlıların 1918-ci il Mart soyqırımı.** Sözdə xalqların öz müqəddəratını təyin etmək hüququndan dəm vuran Rusiya Sovet hökuməti 1917-ci il dekabrın 18-də S.Şaumyanı Qafqazın Fövqəladə Komissarı təyin etməklə faktiki olaraq Qafqazı öz müstəmləkəsi saydığını nümayiş etdirdi.

S.Şaumyan öz hakimiyyətini möhkəmlətdikdən sonra açıq surətdə millətçi, ermənipərəst siyasəti yeridərək, Azərbaycan milli siyasi partiyalarına və ictimai təşkilatlarına qarşı mübarizəyə başladı. Hətta V.Lenin onun erməni millətçiliyi siyasətini görərək, 1918-ci il martın 15-də "Bakinski raboçi" qəzetində dərc olunmuş "Stepan Şaumyana məktubu"nda onu xalqların öz müqəddəratını təyin etmək hüququnu tanımaq istəmədiyinə görə tənqid edirdi. Həmin məktubda V.Lenin yazırdı: "Rusiya marksistinə erməni toyuq hini mövqeyində dayanmaq ayıb deyilmi?.. Siz "erməni" korluğu üzündən Pruşkeviçlərin və onların millətçiliyinin əlaltısına çevrilirsiniz. (ПСС, 48-ci c., s. 300).

S.Şaumyan Azərbaycan siyasi və ictimai təşkilatlarına qarşı mübarizə aparmaq üçün onları antisovet təxribatında ittiham etmək məqsədilə xüsusi plan hazırlayıb həyata keçirdi. İlk öncə onları təşkilati dəstəkdən məhrum etmək üçün F.Xoyskinin sədr olduğu Bakı şəhər Dumasına qarşı hücuma keçdi. Bakı Sovetinin qərarı ilə Bakı şəhər Duması buraxıldı.

Sonra isə Azərbaycan siyasi və ictimai təşkilatlarını silahlı qüvvələrinin dəstəyindən məhrum etmək qərarına gəldi. Bu vaxt Şimali Qafqazda fəaliyyət göstərən general Denikinin Könüllülər ordusunun "Vəhşi diviziya" adı ilə tanınan müsəlman (əsasən azərbaycanlı) zabitlərdən ibarət korpusunun qərargahı Bakıda yerləşirdi. Bakı Soveti adından S.Şaumyan tələb etdi ki, korpusun qərargahı Bakıdan çıxarılsın. Korpusun komandanı general X.Talışinski həbs edildi. Bu tədbir şəhərin azərbaycanlı əhalisinin qəzəbinə səbəb oldu. Daşnaklar bu





hadisədən şəhərin müsəlman milli şurası ilə Bakı Soveti arasında silahlı toqquşma törətmək üçün istifadə etməyə cəhd göstərdilər. Lakin Azərbaycan milli ziyalıları və siyasi xadimlərinin səyi nəticəsində bu təxribat planı baş tutmadı. Korpusun qərargahı Lənkərana köçdü.

Bu təxribat baş tutmadıqda S.Şaumyan azərbaycanlıların soyqırımı planlaşdırdı. Azərbaycanlıların soyqırımı planını həyata keçirmək üçün bəhanə Lənkəran sindromu oldu. Milyoner H.Z.Tağıyevin Lənkəranda müsəlman milli qvardiyasında xidmət edən zabit oğlu Məhəmməd təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak olmuşdu. Milyoner Ş.Əsədullayevin oğlu, Lənkəran müsəlman alayının zabiti Əli Əsdullayevin başçılığı ilə bir qrup zabit onun dəfnində iştirak etmək üçün Bakıya gəlmişdilər. Dəfn mərasimindən sonra həmin zabitlər martın 29-da "Evelina" gəmisinə minib Lənkərana getmək istədikdə S.Şaumyanın göstərişi ilə tərksilah olundular. Bu xəbər şəhərə çatan kimi müsəlman əhali küçə və meydanlara çıxaraq, nümayiş və mitinqlərdə Bakı Sovetinin bu hərəkətinə öz etirazlarını bildirdilər. S.Şaumyanın niyyətini başa düşən M.Əzizbəyov, M.Ə.Rəsulzadə, N.Nərimanov və başqa azərbaycanlı siyasi xadimlər həmin mitinqlərdə çıxış edərək əhalini səbirli olmağa, təxribata uymamağa çağırırdalır. Lakin martın 30-da axşam saat 5 radələrində şəhərdə atışma başladı.

Bakıda atəşin başlanması üçün bəhanə, S.Şaumyanın dediyinə görə, şəhərin müsəlmanlar yaşayan dağlıq məhəlləsində guya həyətlərin birindən Bakı Sovetinin atlı patrul dəstəsinə atılan güllə oldu. S.Şaumyanın özünün etiraf etdiyi kimi o, bunu bəhanə edərək bütün cəbhə boyu hücuma keçmək əmri verdi. (S.Şaumyan. İzbrannıe proizvedeniya. 2-ci cild, M., 1976, s. 246)

Şəhərdə atışma başlanan kimi Bakının bütün sahil boyu kəndləri Mayılov qardaşlarının balıqçı gəmilərində qurulmuş toplardan atəşə tutuldu ki, kənd əhalisi şəhərdəki qardaşlarına köməyə gələ bilməsinlər. Şəhərdə isə müsəlman milli şurasının

silahlı dəstələrinə qarşı Bakı Sovetinin qızıl qvardiyası ilə birlikdə daşnakların rəhbərlik etdikləri erməni milli qvardiyasının dəstələri, Brest sülh müqaviləsindən sonra tərxis olunmuş və indiki Ermənistana qayıdan, döyüş təcrübəsi olan silahlı ermənilər iştirak edirdilər. (Onları gətirən eşalonların qatarları S.Şaumyanın göstərişi ilə Bakıda ləngidilmişdilər). Bakı Soveti tərəfindən eserlərin və menşeviklərin silahlı dəstələri və hətta Muğandan çağrılmış rus qolçomaqlarının silahıl dəstələri də vuruşurdular. Xəzər hərbi dəniz donanmasının əsasən ruslardan ibarət olan matrosları da aldadılaraq İçərişəhəri top atəşinə tutmuşdular. Matroslara deyilmişdi ki, guya azərbaycanlılar İçərişəhərdə rusları qırmağa başlamışlar. Lakin matroslar bundan şübhələnib şəhərə nümayəndə heyəti göndərərək İçərişəhərdə heç bir nəfər də rusun "burnunun qanamadığına" əmin olduqdan sonra top atəşini dayandırmışdılar.

Bakıda iki gün davam edən qırğın nəticəsində təkcə silahlı kişilər deyil, qadınlar və uşaqlar da öldürülmüş, şəhərin qiymətli tarixi və memarlıq abidələri dağıdılmış, yaxud yandırılmışdı. Yalnız martın 31-dən aprelin 1-ə keçən gecə M.Əzizbəyovun adamları tərəfindən oğurlanıb girov kimi N.Nərimanovun mənzilinə gətirilən S.Şaumyan atəşin dayandırılması haqqında əmri imzalamağa məcbur edildikdən sonra azərbaycanlıların soyqırımı dayandırıldı, şəhərin müsəlman əhalisi tamamilə məhv edildikdən xilas oldu.

Mart hadisələri zamanı Bakıda 12 min nəfərə yaxın azərbaycanlı öldürülmüşdü. Bu əsl soyqırım idi. Çünki azərbaycanlıların bu qırğının S.Şaumyan başda olmaqla ermənilər hakimiyyət orqanı olan Bakı Sovetinin əli ilə həyata keçirmişdilər. Mart qırğını vaxtı Bakı Soveti Qızıl qvardiyasının qərargah rəisi "Daşnaksütyun" partiyasının üzvü, keçmiş çar ordusunun zabiti, polkovnik D.Avetisyan idi. Dinc əhaliyə qarşı vəhşiliklər törətməkdə erməni silahlı dəstələrinin komandirləri, keçmiş çar ordusunun zabitləri Hamazaps və Kazaryan xüsusi fərqlənmişdilər. Polkovnik Hamazaps Bakıdan sonra Quba və Şamaxıya





göndərilmiş cəza dəstəsinin komandiri kimi də azərbaycanlılara qarşı vəhşilikdə ad qazanmışdı.

Bakıdan sonra azərbaycanlıların soyqırımı Quba, Şamaxı, Lənkəran, Salyan, Caund və Kürdəmirdə də davam etdirildi. S.Şaumyanın göndərdiyi cəza dəstələri bu bölgələrdə əhaliyə divan tutur, hətta qoca və körpələrə də aman vermirdilər. Beləliklə, mart-aprel aylarında Bakıda və ona yaxın şəhər və kəndlərdə 20 mindən çox azərbaycanlı soyqırım qurbanı oldu. Soyqırım qurbanlarının sayına görə mart soyqırımı dünyada ən böyük soyqırım hesab edilə bilər.

Mart soyqırımına vətəndaş müharibəsi donu geydirməyə çalışan S.Şaumyan bunu şüurlu surətdə təşkil etdiyini etiraf edirdi. O, yazırdı: "Biz, atlı dəstəmizə ilk silahlı hücum cəhdini bəhanə edərək, bütün cəbhə boyu hücuma keçdik. Bizim artıq 6 min nəfərə yaxın silahlı dəstəmiz var idi. "Daşnaksütyun"un da 3-4 min nəfərdən ibarət milli qoşunu vardı. Onlar da bizim sərəncamımızda idi. Sonuncuların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi, lakin bundan qaçmaq olmazdı. Biz buna şüurlu surətdə getdik. Əgər onlar Bakıda üstünlüyü ələ alsaydılar, şəhər Azərbaycanın paytaxtı elan oluna bilərdi. (S.Şaumyan. Göstərilən əsər, s. 246).

S.Şaumyan Mart hadisələrinin törədilməsində "Müsavat" və digər milli siyasi partiyaları ittiham edərək, onları təqib etməyə başladı. Bolşeviklərin və daşnakların mətbuat orqanlarından başqa Bakıda çıxan bütün qəzetlərin nəşri dayandırıldı. "Müsavat" və digər Azərbaycan milli siyasi partiyaları öz qərargahlarını Gəncə və Tiflisə köçürməyə məcbur oldular.

Ermənilər sonralar da azərbaycanlılara qarşı qanlı cinayətlər törətməkdə davam etmişlər. Hazırda Ermənistan respublikasında məməyeyəndən pəpəyeyənə qədər bütün ermənilərin şovinist, antiazərbaycan, antitürk, antimüsəlman ruhunda tərbiyə olunması dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Bu siyasət erməni xristian kilsəsi tərəfindən tarix boyu dəstəklənmişdir. Məhz buna görə də biz ermənilərlə heç bir zaman dost ola

bilmərik. Ona görə də xalqımızın tarixi yaddaşını əbədiləşdirmək üçün 1998-ci il martın 26-da Azərbaycan Respublikasının Prezidenti ulu öndərimiz Heydər Əliyev öz fərmanı ilə martın 31-ni "Azərbaycanlıların soyqımı günü" elan etdi. Hər il biz bu "Soyqırım günündə" anma mərasimləri keçirməklə tarixi yaddaşımızı təzələyir, daha da möhkəm vətənpərvər və ayıq-sayıq oluruq.

**17.4. Bakı Xalq Komissarları Soveti və onun ermənipərəst, antiazərbaycan siyasəti.** Mart soyqırımı nəticəsinlə öz əleyhdarlarını aradan götürdükdən sonra əl-qolu açılmış S.Şaumyan 1918-ci il aprelin 25-də Bakı Xalq Komissarları Soveti adlı hökumət yaratdı. Bakı XKS özünü Bakı quberniyası və Dağıstanda Sovet Rusiyası hökumətinin yerli hakimiyyət orqanı elan etdi. Həqiqətdə isə özünün tərkibinə görə Bakı XKS əsl erməni hökuməti idi. Bakı XKS-nın sədri erməni S.Şaumyan idi. Onun üzvləri, bir neçə nəfər istisna olmaqla, əsasən ermənilərdən və ermənipərəslərdən ibarət idi. Hökumətin tərkibində yalnız bir nəfər azərbaycanlı vardı. Bu da o zaman Həştərxanda müalicədə olan N.Nərimanov idi. N.Nərimanov hökumətin qiyabi üzvü olmaqla yanaşı, həm də ikinci dərəcəli nazir portfeli - kommunal təsərrüfatı komissarı postu onun üçün ayrılmışdı. Görkəmli inqilabçı və siyasi xadim Məşədi Əzizbəyov Bakı XKS hdkumətinin üzvü deyildi. O, Bakı qəza komissarı idi, Şaumyan hökumətində isə daxili işlər komissarı P.Caparidzenin müavini vəzifəsini tuturdu.

Mart hadisələri Azərbaycanın geniş xalq kütlələrinin Sovet hakimiyyətindən uzaqlaşmasına səbəb olmuşdu. Bunu antiazərbaycan fəaliyyətilə fərqlənən A.Mikoyan da AK (b) P V qurultayında (1923-cü il) çıxışında qeyd edərək demişdi: "Mart hadisələrinin daha böyük nəticələri olmuşdu; müsəlman zəhmətkeş kütlələrinin Sovet hakimiyyətindən uzaqlaşması", ("Bakinskiy raboçiy" qəzeti 15 mart 1923-cü il). Azərbaycanın kənd əhalisinin dəstəyinə nail olmaq üçün Bakı XKS yalnız mayın 21-də sol eser Mir Həsən Vəzirovu öz tərkibinə daxil





edir. Bakı XKS-nin torpaq komissarı vəzifəsini tutan M.H.Vəzirov faktiki olaraq Şaumyan hökumətinin ilk və yeganə azərbaycanlı üzvü olmuşdur.

Bakı XKS ilk gündən azərbaycanlılara qarşı yönəldilmiş siyasət yeritməyə başladı. Azərbaycan Cümhuriyyəti yarandıqdan və iqamətgahını Tiflisdən Gəncəyə köçürdükdən sonra Bakı XKS ona qarşı müharibəyə başladı. Azərbaycan Cümhuriyyəti ilə müharibə zamanı Bakı XKS özünü Sovet Rusiyasının yerli hakimiyyət orqanı elan etməsinə baxmayaraq keçmiş çar Rusiyasının Tehrandakı kazak alayının komandiri polkovnik Biçeraxovun qoşunundan da istifadə etdi. S.Şaumyan Sovet Rusiyasının düşməni olan, ona qarşı hərbi müdaxilənin təşkilatçısı olan İngiltərənin Ənzəlidəki qoşunlarının komandanı general Denstervill ilə də gəmidə "tetatet" danışıqlar apararaq, ondan Azərbaycan Cümhuriyyətinə qarşı kömək almışdı.

Bakı XKS-nın sədri S.Şaumyan sovet hakimiyyətinin və bolşevizmin qəddar düşməni, azərbaycanlıların qanını içməyə hazır olan, erməni millətçisi Andronik ilə də məktublaşaraq onun ordusunu Azərbaycan Cümhuriyyətinə qarşı müharibədə iştirak etmək üçün Bakıya dəvət edirdi. O vaxt Azərbaycan Cümhuriyyəti yalnız Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun köməyilə Bakıda yaradılmış S.Şaumyanın Bakı XKS adlı erməni hökumətindən xalqımızı xilas edə bildi.

Ermənilər Azərbaycan Cümhuriyyəti dövründə də, sovet hakimiyyəti dövründə də torpaqlarımıza qəsd etməklə "Böyük Ermənistan" dövləti yaratmaq xülyasında olmuşlar, Bakı XKS-nin antiazərbaycan siyasətini davam etdirməyə cəhd göstərmişlər. Müstəqil Azərbaycan Respublikasının yarandığı ilk illərdə, onun başçılarının səbatsızlığından və hakimiyyət uğrunda apardıqları daxili çəkişmələrdən istifadə edən ermənilər Azərbaycana yenidən hərbi müdaxiləyə başlayaraq torpaqlarımızın 20 faizinə qədərini işğal etdilər. Lakin ermənilər əmin

ola bilərlər ki, xalqımız gec-tez işğalçıların burnunu ovacaq, itirilmiş torpaqlarımız geri qaytarılacaqdır.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi. 7 cild, 5-ci cild, Bakı, 2001, s.268-314.
2. Ə.Quliyev. Bakı proletariatının şanlı qələbəsi, Bakı, 1955.
3. V.Çıraqzadə. İstiqlaliyyət yollarında, Bakı, 1992, s. 5-27.
4. M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s. 26-35.
5. А.Халилов. Геносид против мусульманского населения Закавказья в исторических источниках. Баку, 2000.





# XVIII FƏSİL

## XX ƏSRIN ƏVVƏLLƏRİNDƏ CƏNUBİ AZƏRBAYCANDA MİLLİ-AZADLIQ HƏRƏKATI

**18.1. Səttarxan hərəkatı.** XX əsrin əvvəllərində İranda, o cümlədən Cənubi Azərbaycanda inqilabi şərait yaranmışdı. İnqilabi şəraitin yetişməsində daxili obyektiv şərtlərlə yanaşı Rusiyada, o cümlədən Şimali Azərbaycanda baş verən inqilabi hadisələrin də təsiri az olmamışdı. Onu da bilmək lazımdır ki, 1904-cü ildə Bakıda Cənubi Azərbaycandan gəlmiş 7 min nəfərdən çox fəhlə işləyirdi. Bu da Bakı fəhlələrinin beşdə biri demək idi. Rusiyada 1905-1907-ci illər inqilabı zamanı Cənubi Azərbaycandan olan fəhlələr öz vətənlərinə qayıtdılar. Onlar Bakıdan özləri ilə inqilabi ruh və inqilabi təşkilatçılıq aparmışdılar. Həmin fəhlələrin inqilabi ruhda tərbiyə olunmasında Bakıda 1904-cü ilin oktyabrında M.Ə.Rəsulzadə, N.Nərimanov, M.Əzizbəyov, S.M.Əfəndiyev, M.Hacıyev, M.Hacınski və b. tərəfindən yaradılmış «Hümmət» sosial-demokrat təşkilatı az rol oynamamışdı.

İranda inqilabi hərəkat 1905-ci ilin dekabr ayında Tehran fəhlələrinin ümumi tətili ilə başladı. Tətil və nümayişlər tez bir zamanda Təbriz, İsfahan, Şiraz və b. şəhərlərə də yayıldı. Ölkədə inqilabi hərəkatın geniş vüsət alması şah hakimiyyətini güzəştə getməyə məcbur etdi. 1906-cı il avqustun 5-də şah xalqa konstitusiya vəd etdi. Lakin tətil və nümayişlər səngiyən kimi şah öz vədini unutdu. Onda xalq yenidən küçə və meydanlara axışdı.

Xalq kütlələrinin inqilabi çıxışları Təbrizdə xüsusilə güclü idi. Təbrizdə 1906-cı ilin sentyabr ayında başlamış ümumi

tətil zamanı əncümən (inqilabi komitə) yaradıldı. Əncümənin tərkibinə tacirlər, ruhanilər və mülkədarların nümayəndələri daxil oldular. Xalq hərəkatına rəhbərlik etmək üçün əncümən mücahidlər (inqilabi iş uğrunda həqiqi mübarizlər) dəstəsi yaradıldı.

Xalq hərəkatının genişlənməsindən qorxuya düşən Müzəffəddin şah 1906-cı il oktyabrın 7-də İranın ilk Məclisini çağırdı. Məclis İranın ilk konstitusiyasını (Əsas qanun) hazırladı. Dekabrın 30-da şah «Əsas qanunu» təsdiq etdi. Məclis 1907-ci il dekabrın 7-də əsas qanuna «Əlavələr» qəbul etdi.

Konstitusiya və ona «Əlavələr» xalqa söz, mətbuat, yığıncaqlar, nümayişlər azadlığı verdi. Konstitusiyaya görə İranda hakimiyyət üç hissəyə bölünürdü: dövlət hakimiyyəti, dini hakimiyyət və məhkəmə hakimiyyəti. Konstitusiya şah üçün dövlət başçısı hakimiyyətini saxlayırdı. Şah məsuliyyətə cəlb edilə bilməzdi, qanun qarşısında heç bir cavabdehlik daşımırdı. O, ali baş komandan idi. Nazirləri təyin etmək və vəzifədən azad etmək hüququ da şah üçün saxlanmadı.

İranda demokratik inqilabi hərəkatın inkişafı daxili irtica qüvvələri ilə bərabər ingilis-rus-alman imperialistləri tərəfindən düşmənçiliklə qarşılandı. Rus çarizmi İranda çox təhlükəli irticaçı qüvvə idi. Rusiya İran inqilabının açıq düşməni kimi çıxış edirdi. İngilislər İranda öz imperialist məqsədlərini və antirus siyasətlərini ustalıqla gizlətməyə çalışaraq, demokratik qüvvələrə rəğbət bəslədiklərini nümayiş etdirməyə çalışırdılar. Almaniyanın İrana və Yaxın Şərqə soxulmaq təhlükəsi İngiltərə və Rusiyanı aralarında olan ziddiyyətləri müvəqqəti olaraq bir kənara qoyub İranda yaxınlaşmaq siyasəti yeritdilər. Onlar İranı İngiltərə və Rusiyanın təsir dairələrinə bölmək qərarına gəldilər. 1907-ci il avqustun 31-də İngiltərə ilə Rusiya arasında İranı iki nüfuz dairəsinə bölmək haqqında saziş imzalandı. Saziş bağlanarkən İranın razılığı alınmasa da bu saziş İran inqilabına qarşı çevrilmişdi. Sazişin bağlanmasından sonra İngiltərə və Rusiya İranın daxili işlərinə qarışaraq, demokratik





qüvvələrə qarşı daha fəal mübarizə aparmaq imkanı əldə etdilər.

İranı nüfuz dairələrinə bölmək haqqında ingilis-rus sazişinin imzalanması xəbəri xalq həyəcanının yeni dalğasına səbəb oldu. 1907-ci ilin dekabrında Təbrizdə kəndlilər üsyan etdilər və irticaçı mülkədarların malikanələrini tutub yandırdılar.

Şah hökuməti İngiltərə və Rusiya hökumətlərindən dəstək alıb inqilabi hərəkata qarşı hücuma keçmək qərarına gəldi. 1908-ci il iyunun 22-də Tehranda hərbi vəziyyət elan edildi. İyunun 23-də isə Məclisin binası, Tehrandakı Azərbaycan əncüməninin binası və inqilabçıların toplaşdığı Sapahsalar məscidi top atəşinə tutuldu. Azərbaycan əncüməninin fəal üzvləri və fəal mücahidlər dar ağacından asıldılar. Məclisin Azərbaycandan olan demokratik ruhlu deputatı İbrahim xan həbs olunan zaman öldürüldü. Təbriz üzərinə qoşun göndərildi.

Təbriz əncüməninin rəhbərləri şah hökuməti ilə barışığa cəhd etdilər. Lakin inqilabi ruhlu kütlələr tacirlər, ruhanilər və feodallardan ibarət olan əncüməni buraxdılar. Fəhlə, sənətkar və kəndlilərin qabaqcıl nümayəndələrdən ibarət yeni əncümən seçildi. Yeni əncümənə şah və feodallara qarşı partizan hərəkatının fəal iştirakçısı Səttarxan, daş ustası fəhlə Bağırxan, Təbriz sosial-demokrat təşkilatının rəhbəri Əli Mosye (Müsyo), Hacı Əli Dəvəfuruş və Hacı Mehdi başçılıq edirdilər. İnqilabın rəhbərləri kimi tanınmış Səttarxana xalq «Sərdari Milli» (Xalq Başçısı), Bağırxana isə «Salari Milli» (Xalqın Sərkərdəsi) adı vermişdi. İnqilabın ən tanınmış rəhbəri Səttarxan idi. Qərbi Avropa mətbuatında onu «Azərbaycanın Harribaldisi, rus mətbuatında isə «Azərbaycan Puqaçovu» adlandırırdılar.

Şah üsyançılara qarşı ordu göndərdi. 1908-ci ilin oktyabrında şah qoşunları ilə Təbrizin üsyançı dəstələri arasında gərgin döyüşlər getdi. Şah qoşunları məğlub edilib geri oturduldular.

Təbriz yaxınlığında şah qoşunlarını məğlub etdikdən sonra üsyançılar Mərənd, Marağa, Xoy, Salmas və b. Azərbaycan

şəhərlərini də tutdular. Azad olunmuş şəhər və kəndlərdə əncümənlər və silahlı fədai dəstələri yaradılırdı. Təbrizdə və digər şəhərlərdə yeni məktəblər açıldı. Təbrizdə yeni xəstəxana açıldı, qəzetlərin nəşri bərpa edildi.

1908-ci ilin sonu üçün üsyançı dəstələrinin sıralarında 40 min nəfərə qədər fədai var idi. Onların təxminən 20 min nəfəri Təbrizdə idi. Şimali Azərbaycandan təbrizlilərin köməyinə könüllü dəstələr gəlmişdi.

1909-cu ilin yanvarında şah qoşunları yenidən hücuma keçib Təbrizi mühasirəyə aldılar. 1909-cu ilin aprelinədək Təbrizin müdafiəçiləri, mühasirənin törətdiyi aclığa baxmayaraq irtica qüvvələrinin bütün hücumlarının mərdliklə dəf etdilər.

Təbriz üsyanı İranın digər sahələrində də inqilabi hərəkatın yeni yüksəlişinə səbəb oldu. 1908-ci ilin dekabr – 1909-cu ilin yanvarında Məşhəd, İsfahan, Rəşt və b. şəhərlərdə silahlı üsyanlar baş verdi. Rəştin ardınca üsyançılar Ənzəlidə hakimiyyəti ələ aldılar. Rəştin fədai dəstələri Məmmədəli şahı devirmək üçün Tehran üzərinə hücuma hazırlaşırdılar. Buşir və Bəndər-Abbasda da üsyançılar hakimiyyəti ələ aldılar.

Şah qüvvələri mühasirəyə alınmış Təbriz müdafiəçilərinin müqavimətini qırmaq gücündə olmadıqlarını başa düşdülər. İngilis və rus imperialistləri Məmmədəli şaha məsləhət gördülər ki, xalqa konstitusiyanı bərpa edəcəyinə vəd versin və eyni zamanda ingilis və rus qoşunlarını İrana dəvət etsin.

1909-cu il aprelin sonunda ingilis və rus qoşunları İrana hərbi müdaxilə etdilər. Buşir və Bəndər-Abbasa ingilis desantı çıxarıldı. İngilislər bu şəhərlərdə əncümənləri dağıdıb üsyanı yatırdılar.

Rus qoşunları Təbrizi mühasirəyə aldı. Lakin rus qoşunları şəhərə hücum etmədilər. Rus komandanlığının Səttarxan ilə apardığı danışıqlar nəticəsində rus qoşunları şəhərə daxil oldular. Rus qoşunları Təbrizə daxil olduqdan sonra yalnız fədai dəstələri tərksilah olundu və Səttarxan hərəkatında iştirak edən Rusiya təbəələri həbs edilib Rusiyaya göndərildilər. Rus





ordusunun komandanlığı Səttarxanı, Bağırxanı və üsyanın digər rəhbərlərini həbs etməyə və həmçinin Azərbaycan əncümənini dağıtmağa cəsarət etmədilər.

Təbrizlilər şah tərəfindən təyin olunmuş Azərbaycan general-qubernatoru Eyn-əd Dövləni qəbul etməkdən imtina etdilər. Təbriz əncüməni tərəfindən təyin edilmiş Azərbaycanın müvəqqəti hakimi Ecamulmülk öz vəzifəsini icra etməkdə davam edirdi.

Beləliklə, rus ordusunun işğalı Təbriz üsyanına son qoydu, Səttarxan hərəkatı süqut etdi. Səttarxan hərəkatı süqut etsə də onun təsiri altında İranın müxtəlif bölgələrində inqilabi hərəkat 1911-ci ilədək davam etdi.

Səttarxan hərəkatı Məşrutə (konstitusiya) inqilabı adı ilə tarixə düşən İran inqilabı dövrünün ən mühüm hadisəsi idi. Səttarxan hərəkatı əsl xalq inqilabı idi, tam mənası ilə demokratik xarakter daşıyırdı.

Təbriz üsyanı yatırıldıqdan bir müddət sonra Səttarxan və Bağırxan şah tərəfindən Tehrana dəvət olundular. Onlar öz yaxın adamları və mücahidləri ilə Tehranda yerləşdirildilər. Lakin bir qədər sonra xəyanətkarcasına onların ölümü təşkil edildi.

1911-ci ilin dekabrında Tehranda əksinqilabi çevriliş edildi. Səttarxan və Bağırxanın aradan götürülməsindən sonra əl-qolu açılmış şah Məclisi buraxdı, Azərbaycan əncüməni və demokratik xarakterli qəzetlər bağlandı. 1905-1911-ci illər İran inqilabı məğlubiyyətlə başa çatdı.

**18.2. Cənubi Azərbaycanda 1917-1920-ci illərdə demokratik və milli-azadlıq hərəkatının genişlənməsi.** Rusiyada 1917-ci il Böyük Oktyabr sosialist inqilabı, onun sonrakı nəticələrindən asılı olmayaraq, obyektiv surətdə imperialist dövlətlərin müstəmləkəçilik siyasətinə güclü zərbə vurdu, müstəmləkə və asılı ölkələrin xalqlarının, o cümlədən İran xalqlarının milli müstəqillik uuğrunda mübarizə mövqelərini möhkəmlətdi. Sovet Rusiyası hökumətinin (RSFSR-in XKS) 1917-ci il noyabrın 2-də elan etdiyi «Rusiya xalqlarının hüquq bəyanna-

məsi» və noyabrın 22-də «Rusiya və Şərqin bütün müsəlman zəhmətkeşlərinə» müraciətnaməsi Şərq xalqlarının milli azadlıq hərəkatının genişlənməsində inqilabiləşdirici rol oynadı. Hüquq bəyannaməsində xalqların öz müqəddəratını təyin etmək, hətta ayrılıb müstəqil dövlətlərini yaratmaq hüququ elan edilirdi. Bütün müsəlman zəhmətkeşlərinə müraciətnamədə isə deyilirdi: «Rusiya Respublikası və onun hökuməti başqa xalqların torpaqlarının işğal olunmasının əleyhinədir … İranın bölüşdürülməsi haqqında müqavilə pozulur və məhv edilir … Sizin etiqad və azadlıqlarınız, sizin milli təsisatlarınız azad və toxunulmaz elan olunur. Öz milli həyatınızı sərbəst və maneəsiz qurun. Sizin buna haqqınız vardır».

Rusiyada inqilabi hadisələrin təsiri altında İranın hər yerində inqilabi-demokratik və milli-azadlıq hərəkatı geniş vüsət aldı. Hər yerdə İngiltərə imperializminin İrandakı siyasətinə qarşı kütləvi mitinq və nümayişlər keçirilirdi.

İranda inqilabi hərəkatın mərkəzi Cənubi Azərbaycan idi. Cənubi Azərbaycanda 1917-ci ilin avqustunda yaradılmış Azərbaycan Demokratik Partiyası öz fəaliyyətini genişləndirdi. İran Demokratik Partiyasının vilayət təşkilatı bazasında yaradılmış Azərbaycan Demokratik Partiyasının sosial tərkibi xırda və orta burjuaziya təbəqələrindən, mütərəqqi mülkədarlardan, ziyalılardan, ruhanilərin aşağı təbəqələrindən, həmçinin fəhlə və kəndlilərdən ibarət idi. Partiya imperializmə qarşı mübarizə və İranda demokratik dəyişikliklər edilməsi tələbləri ilə çıxış edirdi.

Rusiya qoşunlarının İrandan çıxarılmasından sonra İranı tam əsarət altına almaq üçün əlverişli şəraitin yetişdiyi qənaətinə gələn İngiltərə hakim dairələri Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının genişlənməsindən narahat idilər. Cənubi Azərbaycandakı inqilabi hadisələr İngiltərənin Cənubi Qafqaz haqqındakı planlarına da ciddi zərbə endirə bilərdi.

1918-ci ilin mart-may aylarında Cənubi Azərbaycanın qərb hissəsini və Təbrizi işğal etmiş alman-türk ordularına qarşı mübarizə aparmaq bəhanəsilə İngiltərə İranı tamamilə işğal etməyə hazırlaşırdı. İranın şimal rayonlarına general Denstervillin





başçılığı altında ingilis hərbi ekspressiyası göndərildi. İyun ayının sonunda Denstervillin dəstəsi Rəşt və Ənzəlini tutdu, Gilan sovetləri dağıdıldı. İlk vaxtlar üsyançılarla birlikdə, Gilanın kiçik feodal hakimi Kuçek xanın cəngəllilərdən ibarət dəstələri ingilislərə müqavimət göstərdilər. Lakin bir qədər sonra Kuçek xan işğalçılarla müharibəni dayandırdı və 1918-ci ilin avqustunda general Denstervill ilə saziş imzaladı. Denstervill Gilanda Kuçek xanın hakimiyyətini tanıdı. Kuçek xan isə ingilis hərbi dəstəsini maneəsiz Bakıya buraxmağı və onları ərzaq ilə təchiz etməyi öhdəsinə götürdü. Lakin general Denstervill az sonra müqaviləni pozdu və cəngəllilərə qarşı qoşun göndərdi. Kuçek xanın dəstəsi yenidən meşələrə çəkilməli oldu.

1918-ci ilin avqustunda Denstervillin dəstəsi, yax-ınlaşmaqda olan türk ordusuna qarşı mübarizə aparmaq adı altında Bakıya gəldi. Lakin sentyabrın 14-də Nuru paşanın Qafqaz İslam ordusu, türk ordusu və Azərbaycan Cümhuriyyətinin hərbi hissələri Bakını azad edəndə, general Denstervillin dəstəsi qarət etdiyi əmlakı götürüb tələsik Bakını tərk etdi və Ənzəliyə qayıtdı.

**18.3. Təbriz üsyanı və Azərbaycan (Azadistan) Milli hökuməti.** 1918-ci ilin ortalarında bütün İran İngiltərənin nəzarəti altına alındı. Ölkədə ingilis ağalığına qarşı etiraz dalğaları geniş vüsət aldı. Bütün ölkəni bürüyən narazılıq və etiraz dalğaları 1920-ci ilin əvvəllərində iri şəhərlərdə mitinq, nümayiş və piketlərə çevrildi.

İnqilabi çıxışlar Cənubi Azərbaycanda daha kütləvi və güclü idi. Kütlələrin inqilabi çıxışları 1920-ci il aprelin 7-də Təbrizdə üsyana çevrildi. Təbriz üsyanına Şeyx Məhəmməd Xiyabaninin başçılığı altında Azərbaycan Demokratik Partiyası rəhbərlik edirdi. Təbrizdə hakimiyyət ADP-nin inqilaba rəhbərlik etmək üçün yaratdığı «İctimai komissiya"nın əlinə keçdi. 1920-ci ilin iyun ayında «İctimai komissiya» Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi «Milli hökumət» ilə əvəz olundu.

Tacir ailəsindən çıxmış Məhəmməd Xiyabani görkəmli din xadimi, ruhani alim idi. O, hələ 1908-1909-cu illərdə Təbriz üs-

yanında fəal iştirak etmişdi. M.Xiyabani 1909-cu ildə ikinci çağırış İran Məclisinə deputat seçilmişdi. O, İran Məclisində demokratların fraksiyasına daxil idi və İranda imperialist dövlətlərin ağalığına qarşı çıxış edirdi. Birinci Dünya müharibəsi illərində M.Xiyabani həm ingilis-rus, həm də alman-türk imperialistlərinə qarşı hərəkatda iştirak edir, antiimperialist çıxışları ilə seçilirdi. 1918-ci ilin yazında Cənubi Azərbaycan və onun mərkəzi şəhəri Təbriz türk qoşunları tərəfindən tutulduğu zaman türk hərbi hakimiyyət orqanları M.Xiyabanini, antitürk təbliğatında ittiham edib həbs etdilər və Qars şəhərindəki həbsxanaya saldılar. Birinci Dünya müharibəsi qurtardıqdan sonra həbsxanadan çıxan M.Xiyabani 1919-cı ildə Təbrizə qayıdıb Azərbaycan demokratlarının rəhbəri oldu. M.Xiyabani və onun tərəfdarları İranın müstəqilliyinin bərpası və möhkəmləndirilməsi uğrunda, İranın respublika elan olunması və demokratik islahatlar keçirilməsi uğrunda, İranın hüdudları daxilində Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda qətiyyətlə çıxış edirdilər.

Təbriz üsyanının qələbəsindən sonra Urmu, Xoy, Salmas, Marağa, Ərdəbil və Zəncanda da hakimiyyət demokratların əlinə keçdi. Azərbaycan «azadlıq ölkəsi» elan edildi və «Azadistan» adlandırıldı. Azərbaycan demokratları hakimiyyəti ələ aldıqdan sonra şah hakimiyyət orqanlarının özbaşınalığına və qanunsuzluğa son qoyuldu, geniş xalq kütlələrinin maddi durumunun yaxşılaşdırılması üçün tədbirlər görüldü. Ərzaq çatışmazlığı şəraitində möhtəkirliyə qarşı mübarizə aparılırdı. Ərzaq və çoxişlənən malların qiymətləri aşağı salında. Ölkədə yeni məktəblər və xəstəxanalar açıldı.

Lakin Azadistan «Milli hökuməti» Təbrizdə irtica qüvvələrinə qarşı ciddi mübarizə aparmadı, irtica tərəfdarları tərksilah edilmədi. Hətta Təbrizdəki fars kazak hissələri də tərksilah edilməmişdi. «Milli hökumət» xalqı silahlandırmaq üçün ciddi tədbirlər görmədi, yalnız kiçik könüllü dəstələri yaradıldı. Ona görə də irticaçı qüvvələr Təbrizdə açıq-açığına





antidemokratik təbliğat aparır, təxribat və pozuculuq işləri aparır və Azərbaycandan kənardakı həmfikirləri ilə, hətta şah qoşunlarının komandanlığı ilə açıq surətdə əlaqə saxlayırdılar.

Təbriz üsyanının əsas hərəkətverici qüvvələri Azərbaycan demokratlarının sosial tərkibinə uyğun olaraq milli ticarət və şəhər xırda burjuaziyası, şəhər yoxsulları və yenicə təşəkkül tapan fəhlə sinfi idi. Hökumət aqrar islahatları həyata keçirmədiyinə görə kəndlilər milli-azadlıq hərəkatından kənarda qalmışdılar. Təbriz üsyançıları İranın digər bölgələrindəki inqilabi hərəkat ilə əlaqə saxlamadılar. Üsyançılar fəal hücum taktikasından imtina etdilər və yalnız passiv müdafiə taktikası seçdilər. Bütün bunlar Təbriz üsyanının zəifləməsinə səbəb oldu və ingilislərdən dəstək alan şah hökumətinin üsyanı yatırmasına kömək oldu.

1920-ci il avqustun sonunda şah hökuməti və ingilis komandanlığı Təbriz üzərinə böyük qoşun hissələri göndərdi. Sentyabrın 12-də irtica qoşunları Təbriz üsyançılarının müqavimətini qırıb şəhəri tutdular. Üsyan iştirakçılarına amansız divan tutuldu. Sentyabrın 14-də Şeyx Məhəmməd Xiyabani ələ keçirildi və şəhərin küçələrində məhkəməsiz vəhşicəsinə öldürüldü.

**18.4. Cənubi Azərbaycanda 1917-1920-ci illər milli-azadlıq hərəkatının tarixi əhəmiyyəti.** Cənubi Azərbaycanda 1917-1920-ci illər milli-azadlıq hərəkatı məğlubiyyətə uğrasa da, Təbriz üsyanı yatırıldısa da inqilabın sölələri birdən-birə sönmədi. 1922-ci ildə Təbrizdə Azərbaycan Demokratik Partiyasının və Şeyx Məhəmməd Xiyabani tərəfdarlarının fəaliyyəti yenidən canlandı. İnqilabi hərəkat silahlı qüvvələrə də təsir etdi. 1922-ci il fevralın 1-də Təbriz jandarmasının qarnizonunda üsyan baş verdi. Üsyana səbəb hərbi nazir Rza xanın (sonralar İranda Pəhləvilər şah sülaləsinin əsasını qoyan Rza şahın) hərbi islahatları, mütərəqqi fikirli, demokratik əhval-ruhiyyəli zabitlərin silahlı qüvvələrdən qovulması və uzun müddət ərzində jandarma və hərbi qulluqçuların əmək haqlarının ödənilməməsi oldu. Üsyana Səttarxan hərəkatının iştirakçısı olmuş zabit Lahuti başçılıq edirdi.

Üsyançılar şəhərdə bütün hökumət idarələrini ələ keçirdilər və Milli Komitə yaratdılar. Təbrizdə hakimiyyəti ələ almış Milli Komitə İranda demokratik islahatlar keçirilməsi ölkədə ingilislərin ağalığına son qoyulması, Rza xanın hərbi nazir vəzifəsindən kənar edilməsi, silahlı qüvvələrdə xidmət edən işçilərin saxlanmış əmək haqlarının ödənilməsi və bir sıra sosial-siyasi tələblər irəli sürdü. Lakin şah hökuməti onların tələblərinə heç bir məhəl qoymadı. Rza xan üsyanı yatırmaq üçün Təbrizə İran kazaklarını göndərdi. Fevralın 7-də top atəşi ilə jandarma kazarması dağıdıldıqdan sonra şəhərə hücum başlandı və 10 saat davam edən döyüş nəticəsində Təbriz alındı, üsyan yatırıldı.

Cənubi Azərbaycanda 1917-1920-ci illər milli-azadlıq və demokratik hərəkatın İranda inqilabi hərəkat üçün böyük tarixi əhəmiyyəti olmuşdur. Cənubi Azərbaycanda 1908-1909-cu illər Səttarxan hərəkatı və 1917-1920-ci illər milli-azadlıq hərəkatı 1945-1946-cı illərdə muxtariyyət uğrunda mübarizə hərəkatı və İran İslam inqilabı üçün siqnal rolu oynamış 1978-ci il Təbriz üsyanı arasında dialektik əlaqə vardır. Səttarxan hərəkatı Xiyabani hərəkatı üçün sələf rolu oynamış, ona təsir etmiş, onu doğurmuşsa, M.Xiyabaninin başçılıq etdiyi milli-azadlıq hərəkatı Cənubi Azərbaycanda 1945-1946-cı illər inqilabi hadisələri üçün bir nümunə olmuş, 1945-1946-cı illər hadisələri isə 1978-ci il Təbriz üsyanını doğurmuş və İranda şah üsul-idarəsinin süqutunda fəal rol oynamışdır.

### Ədəbiyyat:

1. Azərbaycan tarixi. 11-ci sinif üçün dərslik, Bakı, 2002, s. 91-94.
2. Siyasi tarix. Mühazirə kursu (Professor S.Qəndilovun redaktorluğu ilə). I hissə, Bakı, 1995, s. 194-211.
3. S.Tağıyeva. 1920-ci il Təbriz üsyanı. Bakı, 1950.





# XIX FƏSİL

## AZƏRBAYCAN CÜMHURIYYƏTI

**19.1. Azərbaycan Cümhuriyyətinin yaranması.** 1917-ci il Rusiya Fevral demokratik inqilabından sonra Cənubi Qafqazda yerli hakimiyyət martın 3-də Tiflisdə yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə – OZAKOM-a verilmişdi. Onun sədri rus kadeti V.Xarlamov, üzvləri – azərbaycanlı kadet M.Cəfərov (sonralar müsavatçı olur), gürcü federal-sosialisti K.Abaşidze, erməni kadeti M.Papacanov və rus kadeti P.Pereverzevdən (martın 5-də o, gürcü menşeviki A.Çxengeli ilə əvəz olundu) ibarət idi.

Rusiyada Sovet hakimiyyəti qurulduqdan sonra gürcü menşevikləri (sosial-demokratları), müsavatçılar, daşnaklar və sağ eserlər Sovet Rusiyasının hökumətinə – XKS-ya tabe olmaq istəməyərək, noyabrın 15-də Tiflisdə müstəqil Cənubi Qafqaz hökuməti – Zaqafqaziya Komissarlığını yaratdılar. Onun tərkibinə gürcü Y.Gegeçkori (sədr) və A.Çxengeli, azərbaycanlı F.Xoyski, M.Cəfərov və X.Məlikaslanov, erməni T.Ter-Qazavyan, X.Karçikyan və D.Aqacanyan, rus A.Donskoy daxil oldular. Sovet Rusiyası bu hökuməti tanımadı və 1917-ci il dekabrın 18-də V.Lenin erməni S.Şamyanı Qafqaz üzrə fövqəladə komissar təyin etdi.

1917-ci il noyabrın 25-də Ümumrusiya Müəssisələr Məclisinə seçkilər keçirildi. Azərbaycanda Müəssislər Məclisinə seçkilər üzrə komissiyaya F.Xoyski rəhbərlik edirdi. Cənubi Qafqaz dairəsi üzrə seçkilərdə iştirak edən 15 siyasi partiya arasında gürcü menşevikləri, müsavatçılar və daşnaklar birlikdə səslərin 73 faizini qazandılar.

1918-ci ilin fevralında Cənubi Qafqazda heç bir nüfuzu və real gücü olmayan Zaqafqaziya Komissarlığı özünü buraxmağa məcbur oldu. Ümumrusiya Müəssisələr Məclisi buraxıldıqdan sonra onun Cənubi Qafqazdan olan deputatlarının yığıncağında Zaqafqaziya Seymi yaradılması və yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi. Fevralın 23-də Zaqafqaziya Seymi öz işinə başladı. Seymdə gürcü menşevikləri – 32, müsavatçılar – 30, daşnaklar – 27, hümmətçilər – 4, ittihadçılar – 3, eserlər, Müsəlman Sosialist Bloku və Erməni Xalq Azadlıq Partiyası – 7 deputatla təmsil olunmuşdular. Seymdə Azərbaycan fraksiyasının lideri M.Ə.Rəsulzadə idi. Hümmətçilər gürcü fraksiyasına daxil idilər. Gürcü və erməni fraksiyaları ilə müqayisədə Azərbaycan fraksiyası daxilində tam birlik yox idi.

Seym 5 gürcü, 5 azərbaycanlı və 4 ermənidən ibarət Zaqafqaziya hökumətini yaratdı. Hökumətin sədri gürcü Y.Gegeçkori oldu. Əsas nazirlikləri gürcü və ermənilər tuturdular: Xarici işlər naziri Çxengeli, daxili işlər naziri Ramişvili, hərbi nazir Georqudze, kənd təsərrüfatı naziri Xameriani, maliyyə naziri Xatisyan, əmək naziri Erzikyan, ərzaq naziri Saakyan idi. Azərbaycanlılar F.Xoyski – ədliyyə naziri, N.Usubbəyli – maarif naziri, X.Məlikaslanov – yollar naziri, M.H.Hacinski – ticarət və sənaye naziri, İ.Heydərov isə dövlət nəzarəti naziri vəzifələrini tuturdular.

1918-ci ilin aprelində Y.Gegeçkori hökuməti böhran keçirdi. Böhrana səbəb 1917-ci il Mart hadisələri oldu. Aprelin 2-də Seymin iclasında M.Ə.Rəsulzadənin tələbi ilə Bakıda azərbaycanlıların Mart soyqırımı müzakirə olundu. Müsəlman sosialist blokunun sədri Ə.Səfikürdski çıxışında bildirdi ki, Azərbaycanın müsəlman əhalisinə qarşı bu vəhşiliyin qarşısını almaq üçün təcili tədbirlər görmək lazımdır. Daxili işlər naziri Ramişvili öz çıxışında Bakıda Mart hadisələrini bolşeviklərin Tiflis üzərinə hücumunun və bütün Cənubi Qafqazda hakimiyyəti ələ almaq cəhdlərinin başlanğıcı kimi





qiymətləndirməklə kifayətləndi. O, Bakıya qoşun göndərilməsini Sovet Rusiyasına qarşı müharibə hesab edərək, onun əleyhinə çıxdı. M.Ə.Rəsulzadə Azərbaycana kömək edilmədiyi təqdirdə Seymi baykot etməklə hədələdi. Aprelin 3-də azərbaycanlı nazirlər Gegeçkori hökumətinin tərkibindən çıxmaları haqqında bəyanat verdilər. Aprelin 7-də Seymin iclasında F.Xoyski azərbaycanlı nazirlərin istefası ilə əlaqədar olaraq bildirdi ki, azərbaycanlı nazirlər yaranmış hazırki vəziyyətdə Bakının müsəlman əhalisini qorumaq üçün heç bir şeyə nail ola bilmirlər. Onların hökumətdən çıxmaq haqqında qərarlarının əsas səbəbi də budur. Aprelin 20-də Y.Gegeçkori hökuməti istefa verdi.

1918-ci il aprelin 22-də Azərbaycan fraksiyasının tələbi ilə Seymin geniş iclası çağırıldı. Seym müstəqil, demokratik Federativ Zaqafqaziya Respublikasının yaradılmasının elan olunması haqqında qətnamə qəbul etdi. Seym A.Çxengeli başda olmaqla Federativ Zaqafqaziya Respublikasının yeni hökumətini təşkil etdi. Azərbaycanlı nazirlər yeni hökumətdə öz əvvəlki postlarını saxlamışdılar.

Federativ Zaqafqaziya Respublikasının yaradılması ölkənin siyasi durumunda heç bir dəyişiklik etmədi. Bakı Sovetinin erməni hərbi hissələri Azərbaycan əhalisinə divan tutmaqda davam edirdilər. Seymin üzvləri X.Xasməmmədov və M.Y.Cəfərov Gəncədən Seymə vurduqları teleqramda xəbər verirdilər ki, quberniyanın əhalisi Bakı Sovetinə qarşı heç bir tədbir görməyən Seymdən narazıdır və Bakı bolşeviklərinin zülmünün dayandırılması üçün onlar barədə cəza tədbirləri görülməsini tələb edir.

Hələ aprel ayının əvvəllərində knyaz Mahalovun komandanlığı altında Seymin 2 min nəfərlik qoşunu Bakıya doğru hərəkət edərək Hacıqabula gəlib çatmışdı. Dağıstandan isə Nəcməddin Qotsinskinin süvari dəstələri Bakıya doğru hücuma keçərək Xırdalana qədər gəlib çatmışdı. Lakin aprelin 10-da N.Qotsinskinin dəstəsi Bakı Soveti qoşunları tərəfindən

məğlub edilərək geri oturduldu. Mahalovun qoşunu isə döyüşə girmədən aprelin 20-də Kürdəmirə geri çəkildi. S.Şaumyan Bakı XKS-ya verdiyi məlumatda deyirdi ki, Bakı Sovetinin qoşunu Yevlaxı tutub Gəncə üzərinə hücuma hazırlaşmalıdır. Gəncə alındıqdan sonra ermənilər üsyan qaldırıb Bakı Sovetinin tərəfinə keçəcəklər.

Aprelin 20-də Seymin üzübəri S.Tiqranyan və İ.Heydərov danışıqlar aparmaq üçün Bakıya göndərildilər. I.Heydərov Bakıya çatan kimi Bakı Soveti tərəfindən həbs edildi. Bakı Soveti ilə separat danışıqlar aparan Tiqranyan S.Şaumyan ilə sövdələşib mayın 3-də Tiflisə qayıtdı. O, Seymdəki çıxışında hökumətdən Bakı Sovetinin hakimiyyətinə qarşı hərbi əməliyyatı dayandırmağı və narazılıqların dinc yolla həll edilməsi üçün tədbirlər görülməsini tələb etdi (İ.Heydərov Seymin üzvü Camo Hacinskinin səyi nəticəsində azad edildi).

Bakı Sovetinin antiazərbaycan siyasətinin qarşısını almaq üçün Seymin gücündən istifadə etmək cəhdinin əbəs olduğunu görən Azərbaycan fraksiyası yeganə çıxış yolunu türk qoşunlarının çağırılmasında gördü. Türk qoşunlarının sürətlə irəliləməsinin nəticəsi olaraq A.Çxengeli hökuməti Osmanlı dövləti ilə danışıqlara başlamaq qərarına gəldi. 1918-ci il mayın 11-də Federativ Zaqafqaziya Respublikası və Osmanlı dövləti hökumətlərinin nümayəndə heyətləri arasında danışıqlar başlandı. Zaqafqaziya hökumətinin baş naziri və xarici işlər naziri A.Çxengelinin başçılıq etdiyi Cənubi Qafqazın nümayəndə heyətində Azərbaycanı M.Ə.Rəsulzadə və M.H.Hacinski təmsil edirdilər. Osmanlı nümayəndə heyətinə xarici işlər naziri Xəlil bəy, hərbi nazir Ənvər paşa və türk ordusu Qafqaz cəbhəsinin komandanı Vahib paşa daxil idilər. Batum konfransında müşahidəçi sifəti ilə Otto fon Lossonun başçılığı ilə alman nümayəndə heyəti də iştirak edirdi. Fon Losso gürcü nümayəndələri ilə gizli danışıqlar apararaq onlara hərbi və iqtisadi yardım göstəriləcəyini vəd etmişdi.





Batum konfransının gedişində general fon Kressin komandası altında 3 min nəfərlik alman ordusu Poti limanına çıxarıldı. Almanlar yalnız Gürcüstanı tutmaq, Azərbaycanı indiki Ermənistan ərazisi ilə birlikdə Osmanlı dövləti üçün saxlamaq niyyətində idilər. Eyni vaxtda türk qoşunları hücuma keçərək Gümrünü (Aleksandropol qəzasını) tutdular. Türk qoşunlarının hərbi əməliyyatları nəticəsində gürcülər, azərbaycaelılar və ermənilər türk-alman komandanlığı ilə ayrılıqda danışıqlara başladılar.

Alman komandanlığı ilə separat danışıqların nəticəsində Gürcüstanın Federativ Zaqafqaziya Respublikasının tərkibindən çıxaraq müstəqil respublika elan olunması qərara alındı. Mayın 25-də Seymin üzvlərindən A.Sereteli, K.Çxeidze və Y.Gegeçkori Seymin Azərbaycan fraksiyasının iclasına gəldilər və A.Sereteli gürcü fraksiyası adından bildirdi ki, müstəqillik şüarı altında Cənubi Qafqaz xalqlarını birləşdirmək mümkün olmadı, federasiyanın parçalanması faktı göz qabağındadır. Ona görə də Seymin sabahkı iclaslarında Federasiyanın ləğv olunması faktını təsdiq etmək niyyətindədirlər. Iclasa sədrlik edən F.Xoyski cavab nitqində bildirdi ki, əgər gürcü xalqının iradəsi belədirsə, bizim buna mane olmağa haqqımız yoxdur və Azərbaycanın da müvafiq qərar qəbul etməkdən başqa ayrı yolu yoxdur. Gürcü nümayəndələri getdikdən sonra Seymin Azərbaycan fraksiyasının iclası Azərbaycanın da müstəqilliyinin elan olunması haqqında qərar qəbul etdi.

Mayın 26-da Zaqafqaziya Seyminin son iclasında gürcü fraksiyasının çıxış edən nümayəndələri Federasiyanın dağılmasının bütün günahını Azərbaycan fraksiyasının üstünə yıxdılar. Guya Azərbaycan fraksiyası türkpərəst mövqe tutduğu üçün elə vəziyyət yaranmışdır ki, gürcülər onlarla əməkdaşlıq edə bilməzlər. Seymin azərbaycanlı üzvü Şəfi bəy Rüstəmbəyov cavab çıxışında bildirdi ki, gürcü fraksiyasının nümayəndələri tərəfindən irəli sürülən fikirlərin heç bir obyektiv əsası yoxdur. Eyni zamanda gürcü xalqının

nümayəndələri Cənubi Qafqaz xalqlarının birgə işləməsini mümkün hesab etmirlərsə, Federasiyanı saxlamağa və Seymə heç bir lüzum yoxdur və Azərbaycan fraksiyası Seymin özünü buraxmasına etiraz etmir. Seym Federativ Zaqafqaziya Respublikasının parçalanmasını təsdiq edən qətnamə qəbul etdi və özünü buraxdı.

Mayın 27-də keçmiş Seymin Azərbaycan Fraksiyasının fövqəladə iclası keçirildi. İclasda Batumdan qayıtmış Azərbaycan nümayəndə heyətinin başçısı N.Usubbəyli Azərbaycan fraksiyasının tapşırığı ilə türk ordusunun komandanlığı arasında aparılan danışıqlar haqqında məlumat verdi və bildirdi ki, Osmanlı dövləti müstəqil Azərbaycan dövlətinin yaradılması fikrini bəyənir və onu dəstəkləməyi öz özdəsinə götürür. Fraksiyanın iclası özünü Müvəqqəti Milli Şura elan etdi və M.Ə.Rəsulzadənin başçılığı ilə Milli Şuranın Rəyasət heyətini seçdi.

1918-ci il mayın 28-də Tiflisdə keçmiş Qafqaz canişininin sarayında Azərbaycan Milli Şurasının ilk iclası oldu. İclasa, M.Ə.Rəsulzadə Batumda olduğu üçün, Milli Şura sədrinin müavini Həsən bəy Ağayev sədrlik edirdi. Milli Şura Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul etdi. İstiqlal Bəyannaməsi müstəqil Azərbaycan dövlətinin – Azərbaycan Cümhuriyyətinin yaradılmasını elan edir, dövlətin ərazisinin hüdudlarını və fəaliyyətinin əsas prinsiplərini müəyyənləşdirirdi.

Beləliklə, bütün türk dünyasında və müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Cümhuriyyəti yaradıldı. Azərbaycan Cümhuriyyətinin süqutundan sonra bu tarixi günün qeyd edilməsi yasaq olunmuşdu. Mayın 28-i, yalnız 70 il sonra, ilk dəfə 1990-cı ildə Azərbaycan dövlətçiliyinin bərpası günü kimi, Azərbaycan Respublikasının yaranması günü kimi qeyd olunmağa başlandı, 1991-ci ildə isə «Respublika günü» kimi bayram edilməsi qərara alındı.





Azərbaycan Milli Şurası Cümhuriyyətin aşağıdakı tərkibdə ilk hökumətini yaratdı: Fətəli xan Xoyski (sədr), Xospaepaşa bəy Sultanov, Məmmədhəsən Hacinski, Nəsib bəy Usubbəyli, Xəlil bəy Xasməmmədov, Məmmədyusif Cəfərov, Əkbərağa Şeyxülislamzadə, Xudadat bəy Məlikaslanov və Camo Hacinski. Hökumətin 9 üzvündən 3 nəfəri "Müsavat" partiyasından (M.Hacinski, N.Usubbəyli və X.Xasməmmədov), 2 nəfəri "Müsəlman sosialist bloku" partiyasından (X.Məlikaslanov və C.Hacinski), 2 nəfəri bitərəf (F.Xoyski və M.Cəfərov), 1 nəfəri "Hümmət" partiyasından (Ə.Şeyxülislamzadə) və 1 nəfəri "İttihad" partiyasından (X.Sultanov) idi.

Mayın 30-da Azərbaycan Cümhuriyyətinin yaradılması radio-teleqramla dünya dövlətlərinin paytaxtlarından İstanbul, Berlin, Paris, London, Vyana, Roma, Sofiya, Buxarest, Madrid, Haaqa, Stokholm, Kopenhagen, Tehran, Kiyev, Moskva, Vaşinqton və Tokioya xəbər verildi. Radio-teleqramda deyilirdi ki, mayın 28-də Cənubi Qafqazın şərq və cənub hissələrini əhatə edən ərazidə müstəqil dövlət – Azərbaycan Cümhuriyyəti yaradılmışdır və dövlətin müvəqqəti paytaxtı Gəncə (Yelizavetpol) şəhəridir. Gəncə şəhərinin müvəqqəti paytaxt edilməsinə səbəb, o vaxt Bakı şəhərinin, özünü Rusiya Sovet hökumətinin yerli hakimiyyət orqanı elan etmiş, Bakı XKS-nın tabeliyində olması idi.

Qeyd etmək lazımdır ki, mayın 29-da F.Xoyski hökuməti alman-türk komandanlığının təzyiqi altında İrəvan şəhərini Ermənistanın paytaxtı etmək üçün ermənilərə verdi (Türk ordusu mayın 17-də Gümrünü tutub Osmanlı dövlətinə ilhaq etmişdi). Yalnız bundan sonra Osmanlı dövləti Azərbaycan Cümhuriyyətini tanımağa qərar verdi. İyunun 4-də Azərbaycan Cümhuriyyəti ilə Osmanlı dövləti arasında sülh və dostluq haqqında müqavilə imzaladı. Azərbaycan tərəfdən müqavilənin Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.Hacinski, Osmanlı dövləti adından isə türk ordularının komandanı Vahib paşa və xarici işlər naziri Xəlil bəy

imzaladılar. Bu müqavilə ilə Osmanlı dövləti Azərbaycan Cümhuriyyətini rəsmən tanıyan ilk dövlət oldu. Həmin müqaviləyə görə Osmanlı dövləti Azərbaycan Cümhuriyyətinin təhlükəsizliyini təmin etmək ehtiyacı olduğu təqdirdə ona hərbi yardım etməyi öhdəsinə götürürdü. Elə həmin gün M.Ə.Rəsulzadə Tiflisə qayıtdı və Milli Şura üzvlərindən bir qrupunun tələbi ilə Şuranın iclasını çağırdı. Milli Şura üzvlərindən bir qrupu Irəvan şəhərinin ermənilərə verilməsi haqqında hökumətin qərarını müzakirə edib, onun ləğv olunmasını tələb edirdi. Lakin M.Ə.Rəsulzadə öz çıxışlarında bildirdi ki, Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq naminə bu belə edilməli idi. Geriyə yol yoxdur. Beləliklə, Azərbaycanın ermənilərə «hədiyyə» etdiyi Irəvan şəhəri ilə birlikdə 3 qəza əsasında Ermənistan dövləti yarandı.

İyunun 16-da Azərbaycan Cümhuriyyətinin Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə köçdü. Lakin burada gənc hökumət çox ciddi problemlə qarşılaşmalı oldu. 300 təlimatçı zabitlə Gəncədə yerləşən türk ordusunun Şərq qoşunlarının komandanı Nuru paşa Azərbaycan Milli Şurasını və hökumətini tanımaqdan imtina etdi. Yalnız Nuru paşanın məsləhətçisi, tanınmış Azərbaycan ziyalısı Əhməd bəy Ağayevin vasitəçiliyilə kompromis əldə edildi. İyunun 17-də Milli Şura F.Xoyski hökumətinin istefasını qəbul etdikdən sonra özünü buraxdı. Nuru paşa ilə razılaşdırılmış siyahı əsasında F.Xoyskinin ikinci hökuməti təşkil edildi. Bu müqəvvəti hökumətdə sol demokratik partiyaların nümayəndələrini sağ təməyüllü partiyaların nümayəndələri əvəz etdilər.

İyunun 18-də M.Ə.Rəsulzadə, X.Xasməmmədov və Ə.Səfikürdski Istanbula danışığa dəvət olundular. Danışıqlar uzun sürdü və yalınz 30 oktyabr 1918-ci il tarixli Mudros müqaviləsi ilə Osmanlı dövləti məğlub ölkə kimi Birinci Dünya müharibəsindən çıxdıqdan sonra M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti artıq Azərbaycan Cümhuriyyətinin paytaxtı olmuş Bakıya qayıtdı. Beləliklə,





danışıqlar uzun, mürəkkəb və çətin olsa da, nəticədə Azərbaycanın müstəqilliyi qorunub saxlandı.

Azərbaycan dövlətçiliyinin bərpası yolunda atılmış növbəti addım dövlət bayrağının qəbul edilməsi oldu. 1918-ci il iyunun 24-də Cümhuriyyət hökuməti qırmızı parça üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz olan dövlət bayrağını təsdiq etdi. Həmin ilin noyabrın 9-da isə Azərbaycan parlamenti funksiyasını yerinə yetirən Bakıda toplanmış müvəqqəti Milli Şura göy, qırmızı və yaşıl parça üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz olan yeni üçrəngli dövlət bayrağını təsdiq etdi. Müasir Azərbaycan Respublikasının da dövlət bayrağı olan bu üçrəngli bayraqda göy, qırmızı və yaşıl rənglər müvafiq olaraq türkçülük, müasirlik və islam sivilizasiyasının rəmzlərini bildirirlər.

Müstəqil Azərbaycan Cümhuriyyətinin dövlət quruculuğunun mühüm tədbirlərindən biri də 1918-ci il iyunun 26-da Müsəlman korpusunun Azərbaycan korpusuna çevrilməsi haqqında Azərbaycan hökumətinin qərar qəbul etməsilə Azərbaycan Milli Ordusunun yaradılması oldu.

Müstəqil Azərbaycan dövlətinin yaradılması yolunda atılmış növbəti mühüm addım 1918-ci il iyunun 27-də türk köklü Azərbaycan dilinin dövlət dili elan edilməsi oldu.

**19.2. Azərbaycan Cümhuriyyətinin daxili və xarici siyasəti.** 1918-ci ilin yazında və yayında Azərbaycanın şərq torpaqları Bakı XKS-nın hakimiyyəti altında idi. Ona görə də Azərbaycan Cümhuriyyətinin daxili siyasət sahəsində qarşıda duran ən mühüm vəzifəsi Bakını azad etmək və sonra müstəqil Azərbaycan dövlətinin ərazi bütövlüyünü bərpa etmək və sərhədlərini möhkəmlətmək idi. Bu vəzifənin yerinə yetirilməsində hökumət, qərargahı Gəncədə yerləşən Qafqaz İslam Ordusuna böyük ümid bəsləyirdi. Qafqaz İslam Ordusunun komandanı Nuru paşa Bakının azad edilməsini vacib həyati məqsəd kimi qarşısına qoyduğunu vurğulayaraq,

öz qoşununa müraciətində demişdi: “Bizim məqsədimiz – Bakıdır”.

Bütün Cənubi Qafqazı sovetlərin bayrağı altında Rusiya ilə yenidən birləşdirmək istəyən bolşeviklər yaxşı bilirdilər ki, bu məqsədin həyata keçirilməsi yolunda əsas maneə Azərbaycan Cümhuriyyətidir. Ona görə də Gəncəni tutduqdan sonra Qərbi Azərbaycan ermənilərinin dəstəyinə ümid bağlayan Bakı XKS-nın sədri S.Şaumyan, Sovet Rusiyasının hərbi yardımına arxalanaraq, bütün qüvvələrini toplayıb Gəncə üzərinə hücuma keçməyə hazırlaşırdı.

Bakı XKS-nın qoşunları hərbi üstünlüyü ələ almaq üçün 1918-ci il iyunun 16-da hücuma keçdi. İlk döyüşlər Göyçaydan 20 verst şərqdə Qaraməryəm kəndi yaxınlığında baş verdi. Göyçay ətrafında döyüşlər iyulun 1-dək davam etdi. Göyçay dəfələrlə əldən-ələ keçdi. Qafqaz İslam Ordusunun Göyçay ətrafındakı döyüşlərdə qələbəsi Azərbaycanın şərq hissəsinin, o cümlədən Bakının azad edilməsi uğrunda müharibədə dönüş nöqtəsi oldu. Bu döyüşlərdə Dəllər, Zəyəm, Bərdə, Şəki və Göyçaydan olan azərbaycanlı könüllü dəstələri 5-ci türk diviziyası ilə birlikdə fədakarlıqla vuruşurdular.

Yaranmış gərgin vəziyyəti nəzərə alaraq Azərbaycan Cümhuriyyəti hökuməti iyunun 23-də bütün ölkədə hərbi vəziyyət elan etdi. Azərbaycan hökumətinin qərarı ilə Müsəlman korpusu iyunun 26-da Azərbaycan korpusu adlandırıldı. Azərbaycan korpusunun komandanı general-leytenant Əlağa Şıxlınski idi.

İyul ayında Qafqaz İslam Ordusu və Azərbaycan korpusu hücumları davam etdirdi. Döyüşlər üç istiqamətdə aparılırdı. Sağ cinahda Şamaxı istiqamətində və sol cinahda Salyanı istiqamətində Qafqaz İslam Ordusunun hərbi hissələri əməliyyat aparırdılar. Mərkəzi cəbhədə Kürdəmir-Hacıqabul istiqamətində Azərbaycan korpusunun hissələri hücum edirdi. İyulun 10-da üç günlük döyüşdən sonra Kürdəmir azad edildi, iyulun 14-də Karrar dəmir yol stansiyası, sonra isə Hacıqabul





azad edildi. Sol cinahda isə Mürsəl paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun hissələri iyulun 7-də Ağsu-Şamaxı istiqamətində hücuma keçərək iyulun 20-də Şamaxı şəhərini azad etdilər. Cənub cəbhəsində isə Həmid bəyin başçılığı altında türk əskərləri Bankə balıq vətəgələrini ələ keçirdilər.

Qafqaz İslam Ordusunun müvəffəqiyyətli hücumları Bakıdakı siyasi və iqtisadi böhranı daha da dərinləşdirdi. İyulun 25-də Bakı Sovetinin iclasında ingilis qoşunlarının Bakıya dəvət olunması haqqında qərar qəbul edildi. Bundan bir az əvvəl isə S.Şaumyan general Denstervill ilə gəmidə təkbətək görüş keçirmişdi. Bakı Sovetinin qərarına guya etiraz əlaməti olaraq, Bakı XKS-ı 1918-ci il iyulun 31-də öz səlahiyyətlərini yerə qoydu. Bakıda bolşevik-daşnak hakimiyyətinin süqutundan sonra eser-menşevik-daşnak blokunun “Sentrokaspi Diktaturası” adlı hökuməti yaradıldı. Elə həmin gün “Sentrokaspi Diktaturası” öz nümayəndələrini Ənzəliyə ingilis komandanlığının qərargahına göndərib kömək istədi.

Avqustun 4-də polkovnik Stoksun başçılığı altında ingilis hərbi hissəsinin ilk dəstəsi Ənzəlidən Bakıya gəldi. Avqustun 17-dək Bakıya gəlib çıxan ingilislərin hərbi yardımı kiçik bir dəstədən ibarət idi. Bakıya göndərilmiş ingilis hərbi hissəsi 3 batalyon, bir səhra artilleriya bölməsi və bir neçə zirehli maşından ibarət idi. Ingilis komandanlığının göndərdiyi hərbi yardım bolşeviklərin Bakıda olan Qızıl Ordu hissələrindən dəfələrlə az idi.

Bakı üzərinə hücuma keçməmişdən öncə, avqustun 13-də Qafqaz Islam Ordusunun komandanı Nuru paşanın əmri ilə Azərbaycan korpusu ləğv edildi və Qafqaz İslam Ordusunun tərkibində yenidən qurulmağa başlandı. General Ə.Şıxlınski yenidən qurulmasına başlanan korpusun komandiri vəzifəsində saxlandı. Bakı üzərinə hücuma hazırlaşan türk qoşunlarının komandanı Xəlil paşanın sərəncamına 25-ci türk diviziyasından əlavə 36-cı türk diviziyası da göndərildi.

Bakıya gəlmiş ingilis komandanlığı ilə "Sentrokaspi Diktaturası" hökuməti arasında elə ilk gündən qarşılıqlı inamsızlıq münasibəti yarandı. Yerli hakimiyyət hərbi yardımın az olmasından narazılığını bildirir, ingilislər isə müvəffəqiyyətsizliyi yerli hökumətin ordusunda intizamın olmaması ilə izah edirdilər. Şəhəri "xilas" etməyin mümkünsüzlüyünü dərk edən general Denstervil sentyabrın 1-də Bakını tərk etmək qərarına gəldi. Lakin "Sentrokaspi Diktaturası"nın sahildən aralanan hər hansı bir gəminin top atəşinə tutulacağı hədəsi ilə bağlı olaraq, Osmanlı-Azərbaycan qoşunlarının şəhərə sonuncu hücumuna qədər gözləməyə məcbur oldu.

Bakı üzərinə qəti hücum sentyabrın 15-də başladı. Həmin günün sonunda Denstervillin ingilis qoşunlarını aparan gəmilər, onların ardınca isə "Sentrokaspi Diktaturası"nın üzvləri və imkanı olan ermənilərin mindikləri gəmilər sahildən uzaqlaşdılar. Türk qoşunları sentyabrın 16-dək şəhərə girməkdən çəkindi. Şəhərə ilk daxil olan yerli partizan dəstələri Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş könüllülər, dünənədək müsəlman qanına susamış erməni məhəllələrində tam sərbəstlik əldə etdilər. Sentyabrın 17-də isə Bakıya daxil olmuş Azərbaycan Cümhuriyyətinin hökuməti kütləvi qırğın törədilməsinin qarşısını qətiyyətlə aldı. Hökumətin sədri F.Xoyskinin imzaladığı bəyanatda deyilirdi ki, qarətçilər, əmin-amanlığı pozanlar, ölüm cəzası da daxil olmaqla, müharibə dövrü qanunlarının bütün ağırlığı ilə cəzalandırılacaqlar. Bakının azad olunması ilə Azərbaycan Cümhuriyyətinin hökuməti ölkənin hüdudlarında öz hakimiyyətini bərqərar etmək imkanı əldə etdi.

Azərbaycan Cümhuriyyəti hökumətinin ölkənin bütün ərazisində hakimiyyətini bərqərar etməsi hələ onun tam müstəqil fəaliyyət göstərməsinin təmin olunması demək deyildi. Türk qoşunlarının Azərbaycanda olması vəziyyəti mürəkkəbləşdirirdi. Real hərbi qüvvəyə malik olan Nuru paşa





ölkədə baş verən bütün hadisələri öz nəzarəti altında saxlayırdı. Bölgələrdə yerləşdirilən türk hərbi hissələrinin komandirləri isə yerli hakimiyyət orqanlarının nümayəndələri ilə hesablaşmır, öz bildiklərini edirdilər. Məsələn, Gəncə qubernatoru hökumətə hesabatında bildirirdi ki, türk zabitləri vəzifəli şəxslərin sərəncamlarına müdaxilə edir və hətta həmin şəxsləri özləri təyin edirdilər. Şuşa qəza rəisi isə şəhərdəki türk hərbi komendantının bütün hakimiyyəti əlinə alaraq yerli hakimiyyəti tanımaq istəmədiyindən şikayət edirdi. F.Xoyski İstanbulda olan Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadəyə yazdığı məktubda bildirirdi ki, Nuru paşa bizim daxili işlərimizə daha çox qarışmağa cəhd göstərir. Türk hərbi komandanlığı nümayəndələrinin dəmir yol idarəsinin işlərinə tez-tez qarışması nəticəsində dəmir yol idarəsinə xeyli ziyan vurulurdu.

Azərbaycan Cümhuriyyətinin hökuməti Bakıya köçdükdən sonra Bakı XKS-nın bütün tədbirlərinin ləğv olunduğunu elan etdi və özü sosial islahatlar keçirməyə başladı. Lakin ingilis qoşunlarının Bakıya gəlməsi bu islahatları müəyyən vaxtadək təxirə saldı. 1918-ci il noyabrın 17-də Bakıya gələn Böyük Britaniyanın İranın şimalında olan qoşunlarının baş komandanı general Tomson guya "Azərbaycan Cümhuriyyəti adı altında xalq kütlələri arasında heç bir dayağı olmayan türklərin səyilə yaradılmış bir hökumət məlum" olduğu üçün, onu tanımaqdan imtina etdi və özünü Bakının general qubernatoru elan etdi. Onunla birlikdə təxminən iki min hindli əskərdən ibarət olan ingilis qoşunu da Bakıya gəldi. İngilis zabiti polkovnik Kokkerel şəhər polisinin rəhbəri-komissarı təyin edildi. Tomsonun dəvəti ilə Şimali Qafqazda lokallaşmış ağqvardiyaçı general Denikinin "Könüllülər Ordusu"nun təmsilçisi polkovnik Biçeraxovun dəstəsi də həmin gün Bakıya gəldi, Biçaraxovun dəstəsini şəhərin xristian əhalisi şadyanalıqla qarşıladı. Biçeraxovun, böyük əksəriyyətini ermənilər təşkil edən ordusu Bakıya daxil

olan kimi Azərbaycan dövlət rəmzlərini təhqir edir, Azərbaycan Cümhuriyyətinin tezliklə dağılacağı barədə şaiyələr yayırdılar. General Tomson özü də ingilis qoşunları Bakıya daxil olan zaman limanda İngiltərə, ABŞ, Fransa və İtaliya bayrağı ilə yanaşı Azərbaycan Cümhuriyyətinin də bayrağının asıldığını görüb, onun dərhal götürülməsini əmr etmişdi.

General Tomsonun tələbi ilə türk qoşunları ilə birlikdə Azərbaycan ordusu da Bakıdan çıxarıldı, hərbi nazirlik Gəncəyə köçürüldü. General Tomson noyabrın 19-da verdiyi əmr ilə Bakıda hərbi vəziyyət elan edərək Bakı quberniyasında bütün məhkəmə və icra orqanlarını öz əlinə aldı, müttəfiq qoşunlarının hərbi rütbəli şəxsləri və Rusiya hökumətinə xidmət edən şəxslər (ağqvardiyaçı zabitlər nəzərdə tutulurdu) istisna olmaqla, xüsusi icazə olmadan silah gəzdirmək, iclas və tətillər keçirmək qadağan edildi. Noyabrın 29-da Xəzər dənizinin bütün ticarət gəmiləri ingilis komandanlığının sərəncamına keçdi və onu idarə etmək üçün mayor Braun başda olmaqla "İngiltərə Dəniz Nəqliyyatı" şirkəti yaradıldı. İngilislər Cənubi Qafqaz dəmir yolunu və neft sənayesini də öz nəzarətləri altına aldılar. "Britaniya Neft İdarəsi" təsis edildi və 1918-ci ilin dekabrından 1919-cu ilin avqustunadək doqquz ay ərzində ingilislər Bakıdan 30 milyon puda qədər neft apardılar.

İngilislərin Bakıda özbaşınalığı o dərəcəyə çatmışdı ki, hətta Xarici İşlər Nazirliyinin ünvanına gələn diplomatik məktubları da açırdılar. Özlərini şəhərin sahibləri kimi hiss edən ingilis zabitləri yerli əhaləiyə qarşı kobud və hətta əxlaqsız hərəktlərə də yol verirdilər. Küçədə ingilis əskəri olanda qadınlar evdən bayıra çıxa bilmirdilər. İngilis əskərləri tərəfindən yerli əhalinin döyülməsi halları da olmuşdu. Bakı kəndlərində ingilislər tərəfindən əhalinin qarət edilməsi halları da baş vermişdi. 1918-ci il dekabrın 28-də general Tomson nəhayət ingilis komandanlığının Cümhuriyyət hökumətini Azərbaycan ərazisində yeganə yerli qanuni hökumət hesab etdiyini bildirsə də, ingilislərin özbaşınalığı davam edirdi.





İngilislərin özbaşınalığından və müsəlman əhaliyə pis münasibətlərindən ruhlanan Bakının xristian əhalisi həyasız çıxışlar edirdilər. Rus və erməni milli şuraları silahlı dəstələr saxlayır və Azərbaycan Cümhuriyyəti hökumətindən ağqvardiyaçı admiral Kolçakın Ufa hökumətini tanımağı tələb edirdilər. 1919-cu ilin yanvarında polkovnik Biçeraxov Azərbaycanda hakimiyyəti ələ almaq məqsədilə "Qafqaz-Kaspi hökuməti" adlı bir qurum yaratdı.

1919-cu il yanvarın 22-də müttəfiqlərin Cənubi Qafqaz qoşunlarının baş komandanı general Corc Miltonun Bakıya gəlməsindən sonra Azərbaycan milli hökumətinə münasibət bir qədər dəyişdi. Gəlişinin ertəsi günü F.Xoyskini qəbul edən general Milton bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan Cümhuriyyətinin hökumətini ölkədə yeganə qanuni hakimiyyət kimi tanıyır, müttəfiq qoşunlarının komandılığı Cənubi Qafqaz dövlətlərinin daxili işlərinə qarışmayacaq və onlara hərtərəfli yardım göstərərək. C.Miltonun bəyanatı Biçeraxovun oyuncaq hökumətinin taleyini həll etdi. Fevralın 28-də F.Xoyski müttəfiq qoşunlarının komandanlığına nota göndərib Biçeraxovun dəstəsinin Bakıdan çıxarılmasını və ermənilən tərksilah olunmasını xahiş etdi. Onun notası müsbət qarşılandı. Biçeraxovun qoşunu 24 saat ərzində Bakıdan çıxarıldı və erməni milli şurasının silahlı dəstələri buraxıldı.

Hələ 1918-ci il iyunun 17-də Azərbaycan Cümhuriyyətinin Milli Şurası özünü buraxarkən F.Xoyski hökumətinə tapşırmışdı ki, 6 ay ərzində Müəssislər Məclisinə seçkilər keçirsin. Ona görə də Tomson Bakıya gəldikdən iki gün sonra noyabrın 19-da Milli Şura M.Ə.Rəsulzadənin sədrliyi ilə yenidən toplaşıb yaranmış fövqəladə vəziyyətdə Müəssisələr Məclisinə seçkilərin keçirilməsinin mümkün olmadığı üçün Milli Şuranı müvəqqəti qanunverici orqana – Azərbaycan Cümhuriyyətinin palamentinə çevirmək haqqında qanun qəbul etdi. Qanuna müvafiq olaraq Milli Şuranın 44 üzvündən başqa

Azərbaycanın bütün qəzalarının nümayəndələri, Azərbaycanda yaşayan bütün xalqaların nümayəndələri və siyasi partiyaların nümayəndələri əlavə edilməklə Azərbaycan parlamenti 120 nəfərdən ibarət olmalı idi. Parlamentin təşkil olunması prosesində F.Xoyski hökuməti general Tomsonu inandıra bildi ki, Azərbaycan Cümhuriyyəti Avropa tipli demokratik respublikadır və onun hökuməti Bakıda ciddi siyasi qüvvədir. Nəhayət Tomson parlamentin açılmasına razılıq verdi.

Azərbaycan parlamenti 1918-ci il dekabrın 7-də Bakıda H.Z.Tağıyevin qızlar gimnaziyasının (indiki Azərbaycan MEA Əlyazmaları İnstitutunun) binasında öz işinə başladı. Azərbaycan parlamentinin fəaliyyətinin ilk mərhələsində onun 96 üzvü vardı. Parlamentin ilk iclasını təntənəli surətdə Milli Şuranın sədri M.Ə.Rəsulzadə açdı və böyük təbrik nitqi söylədi. Təbrik nitqindən sonra o, parlamentin sədrini və sədrin müavinini sevməyi təklif etdi. Parlamentin sədri vəzifəsinə bitərəf deputat Əlimərdan bəy Topçubaşov, onun müavini vəzifəsinə Müsavat partiyasının üzvü Həsən bəy Ağayev, parlamentin katibi vəzifəsinə isə ən gənc deputat Rəhim bəy Vəkilov seçildilər.

Parlament F.Xoyski hökumətinin istefasını qəbul etdi və yeni hökumətin təşkilini yenə də ona tapşırdı. Dekabrın 26-da parlament F.Xoyskinin üçüncü koalisyon hökumətinin tərkibini təsdiq etdi. F.Xoyskinin bu hökuməti 1919-cu il fevralın 25-də istefa verdi. Azərbaycan Cümhuriyyətinin dördüncü hökumətini 1919-cu il aprelin 14-də Nəsib bəy Usubbəyli təşkil etdi. 1919-cu il sentyabrın 13-də dördüncü hökumətin sədri N.Usubbəyli də istefa verdi və yalnız dekabrın 22-də parlament N.Usubbəylinin başçılığı ilə Cümhuriyyətin beşinci hökumətini təsdiq etdi. 1920-ci ilin fevralında yenidən hökumət böhranı başladı. Bu böhran daxili işlər naziri M.Hacinskinin istefası ilə bağlı idi. Həmin ilin əvvəlində ermənilər 1919-cu il noyabrın 23-də bağlanmış Tiflis sülh müqaviləsini pozaraq yenə də Azərbaycan torpaqlarına basqın etdilər. M.Hacinski





kommunistlərin iştirakı ilə koalisyon hökumət təşkil edib, onların vasitəsilə ermənilərin hücumunun qarşısını almaq üçün Sovet Rusiyasından hərbi yardım almağı təklif etdikdə, xarici işlər naziri F.Xoyski onu satqın adlandıraraq, hökumətin tərkibindən çıxarılmasını tələb etdi. M.Hacinski 1920-ci il fevralın 18-də daxili işlər naziri vəzifəsindən istefa verdi. Onun ardınca martın 23-də əmək və əkinçilik naziri Əhməd bəy Pepinov, aprelin 9-da isə poçt və teleqraf naziri Camo Hacinski istefa verdi. Aprelin 15-də A.Qardaşovun "Əhrar" partiyasının koalisyon hökumətin tərkibindən çıxması ilə N.Usubbəylinin hökuməti buraxıldı. Parlament yeni hökumət təşkil etməyi M.Hacinskiyə tapşırdı və ona kommunistlərin iştirakı ilə koalisyon hökumət kabinəsinin təşkili üçün danışıqlar aparmaq səlahiyyəti verdi. Lakin iki ay öncə, 1920-ci il fevralın 11-də öz partiyalarının birinci qurultayında bütün hakimiyyəti silahlı üsyan yolu ilə ələ almaq haqqında qərar qəbul etmiş kommunistlər M.Hacinskinin təklifini rədd etdilər. Kommunistlərin iştirakı ilə koalisyon hökumət yaratmaq təşəbbüsü baş tutmadıqda M.Hacinski hökumət təşkil etməkdən imtina etdi. Beləliklə, Azərbaycan Cümhuriyyətinin sayca altıncı olacaq hökumətini təşkil etmək mümkün olmadı.

Azərbaycan Cümhuriyyətinin siyasi və iqtisadi platforması bütün vətəndaşların hüquqi bərabərliyini təmin edərək demokrativ bir cəmiyyət qurmağı nəzərdə tuturdu. Bu məqsədə çatmağın əsas vasitəsi mülkiyyət formasının müxtəlifliyi formasının faktiki olaraq həyata keçirilməsindən, dövlət və özəl mülkiyyət formalarının inkişafı üçün bütün vətəndaşlara bərabər imkan verən demokratik şəraiti təmin etməkdən ibarət idi. Mülkiyyət formalarının müxtəlifliyi üçün bərabər imkanlar yaradılması ideyası, heç də dövlət iqtisadiyyatının əsasını təşkil edən iri fabrik və zavodların parçalanmasına aparan iqtisadi siyasət xətti deyildi. Bu ideya respublikanın iqtisadiyyat sahəsinə aid ilk qanunvericilik aktlarının əsasını təşkil edirdi. Lakin o zamankı şəraitdə həmin

aktların heç də hamısı özünü doğrultmadı. Ölkənin iqtisadi vəziyyəti istiqlaliyyətdən əvvəlki müharibə və hərcmərclik dövründəki kimi mürəkkəb olaraq qalırdı.

F.Xoyski və N.Usubbəylinin təşkil etdikləri hökumət kabinələri qiymətlərin tənzimlənməsi ilə yanaşı, maddi nemətlərin istehsalı və bölüşdürülməsi prosesinə müdaxilə etməklə iqtisadiyyat sahəsində inzibati rejim yaratmağa cəhd göstərirdilər. Azərbaycanın görkəmli sənayeçisi Hacı Zeynalabdin Tağıyev hökumətə ünvanladığı müraciətində iqtidarın iqtisadiyyat sahəsində yaratdığı rejimə qarşı çıxaraq yazırdı ki, əgər hökumət insan hüquqlarına hörmət edirsə və xüsusi mülkiyyətin toxunulmazlığına zəmanət verirsə, onda maliyyə, sənaye və ticarət sahələrində öz kursunu dəyişməli, müxtəlif qadağalara və məhdudiyyətlərə əl atmamalıdır, çünki hökumətin belə iqtisadi siyasətindən ən çox qazananlar möhtəkirlər və vicdansız məmurlar, itirənlər isə istehsalçılar və istehlakçılar olacaqlar.

Əlbəttə, iqtisadiyyat sahəsində yaradılmış inzibati rejimi yalnız ölkədə mövcud olan təsərrüfat dağınıqlığı ilə əlaqələndirmək və iqtidarın yaranmış problemi axıradək dərk etməməsi kimi qiymətləndirmək olmazdı. Nəzərə almaq lazımdır ki, aparıcı iqtidar partiyası olan "Müsavat"ın ideoloji platformasına görə əsl milli hökumət təkcə bir sinfin deyil, bütün xalqın mənafeyini müdafiə etməli idi.

Azərbaycan Cümhuriyyəti hökumətinin öz valyutasını yaratmaq planları, vergi sahəsində dövlət və sahibkarlar arasında qarşılıqlı münasibətləri nizamlaya bilməsi, infilyasiyanın qarşısını almaq cəhdləri, inflyasi şəraitində əmək haqlarının və pul tədavülünün tənzimlənməsi sahəsində tədbirləri diqqətə layiqdir.

Neft sənayesi ilə birlikdə Azərbaycan iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edirdi. Ona görə də aqrar məsələ kəskin iqtisadi, sosial və siyasi məsələlərdən biri idi. Onun həll edilməsi həm ölkədə sosial-iqtisadi vəziyyəti yaxşılaşdıra





bilərdi, həm də geniş kəndli kütlələri tərəfindən yeni hökumətə böyük dəstək olardı. Lakin Azərbaycan Cümhuriyyəti sənaye və iqtisadiyyatın digər sahələrində əmək qanunvericiliyi məsələlərini tam həll edə bilmədiyi kimi torpaq məsələsini də həll edə bilmədi.

Azərbaycan Cümhuriyyətinin istiqlaliyyətinin saxlanması daxili amillərdən daha çox xarici amillərlə bağlı idi. Ona görə də Azərbaycan Cümhuriyyəti xarici siyasət məsələlərinə xüsusi diqqət yetirirdi. Mürəkkəb beynəlxalq şəraitdə Azərbaycanın dövlət müstəqilliyinin qorunması uğrunda mübarizədə yetişmiş siyasətçilərdən və dövlət xadimlərindən hər an dəyişən vəziyyətə uyğun çevik xarici siyasət bacarığı tələb olunurdu, Azərbaycan Cümhuriyyətinin müxtəlif hökumət kabinələrində Xarici İşlər Nazirliyinin təşkil olunması və möhkəmləndirilməsində dünya siyasətinin sirlərinə bələd olan, çevik diplomatik bacarığa malik ziyalılar F.Xoyski, M.Hacinski, M.Y.Cəfərov və A.Ziyadxanlının böyük əməyi olmuşdur. Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Ə.Ağayev, N.Usubbəyli, Ə.Şeyxülislamzadə, C.Hacıbəyli, Ə.Haqverdiyev və Y.V.Çəmənzəminli yaxından iştirak etmişlər.

Azərbaycan Cümhuriyyətinin xarici siyasətinin əsasını sülh prinsiplərinə sədaqət və qonşu ölkələrlə mehriban münasibətlər yaratmaq təşkil edirdi. Bu siyasət Azərbaycan Cümhuriyyəti nümayəndələrinin imzaladıqları ilk beynəlxalq sənəddə, Osmanlı dövləti ilə bağlanmış 4 iyun tarixli Batum müqaviləsində də öz əksini tapmışdı: "Bir tərəfdən, Osmanlı imperator hökuməti, digər tərəfdən isə müstəqilliyini elan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməklə qarşılıqlı surətdə razılığa gəlirlər".

Azərbaycan Cümhuriyyəti qonşu Gürcüstan Respublikası ilə də normal dövlət münasibətləri yaratmışdı. 1918-ci il iyunun 26-da Azərbaycan Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında Zaqatala ilə bağlı ərazi mübahisəsi sülh yolu ilə Azərbaycanın xeyrinə həll edildi. 1919-cu il iyunun 27-də işə Azərbaycan Cümhuriyyəti ilə Gürcüstan arasında üç il müddətinə hərbi-müdafiə sazişi imzalandı.

Azərbaycan Cümhuriyyətinin hökuməti İngiltərə, Fransa, İtaliya, İran, ABŞ, Polşa, Ukrayna, Latviya, Finlandiya, Isveç, Danimarka, Belçika və İsveçrə ilə diplomatik münasibətlər yaratmışdı.

1919-cu ilin mayında Ə.M.Topçubaşovun başçılığı altında Azərbaycan Cümhuriyyətinin nümayəndə heyəti Paris sülh konfransına göndərilmişdi. Nümayəndə heyətinin vəzifəsi Paris sülh konfransında Azərbaycanın dövlət müstəqilliyinin deyule tanınmasına nail olmaq idi. Azərbaycan Cümhuriyyəti hökumətinin diplomatik nailiyyətlərini qeyd edərək, ulu öndərimiz Heydər Əliyev demişdir ki, Azərbaycan Demokratik Respublikası və onun liderləri Məmmədəmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Usubbəyli, Məmmədhəsən Hacinski və başqaları çox böyük işlər görmüşlər. Onlar dünyanın bir çox dövlətlərinin təcrübəsindən yararlanaraq, Azərbaycanın müstəqil dövlət kimi tanınmasına nail olmuşlar.

**19.3. Azərbaycan Cümhuriyyətində mədəni quruculuq.** Azərbaycan Cümhuriyyətinin mədəni quruculuq sahəsində ilk tədbiri 1918-ci il iyunun 27-də azəri (türk) dilini dövlət dili elan etməsi olmuşdur.

Azərbaycan Cümhuriyyətinin mədəni quruculuq sahəsindəki fəaliyyətində təhsilə qayğısı önəmli yer tuturdu. 1918-ci il 28 avqust tarixli qərarı ilə Azərbaycan Cümhuriyyət hökuməti müəyyən etdi ki, ibtidai məktəblərdə təhsil şagirdlərin öz ana dillərində, orta ümumtəhsil və ixtisas məktəblərində isə dərslər dövlət dili olan Azərbaycan dilində aparılmalıdır. Təhsilin ana dilində təşkil olunduğu azsaylı





xalqların ibtidai məktəblərində Azərbaycan dili ayrıca fənn kimi tədris olunurdu. Azərbaycan dilini bilməyən qeyri-azərbaycanlı millətlərdən olan şagirdlər üçün ibtidai məktəblərdə rus bölmələri də açılırdı. Həmin bölmələrin III-IV siniflərində Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, qeyri-azərbaycanlı şagirdlər sonrakı dərs illərində təhsillərini Azərbaycan dilində davam etdirə bilsinlər.

Cümhuriyyət hökuməti 1919-cu il aprelin 8-də Bakıda dövlət universitetinin yaradılması haqqında qərar qəbul etdi. Müəyyən hazırlıq görüldükdən sonra, 1919-cu il sentyabrın 1-də Azərbaycan Cümhuriyyətinin parlamenti Bakı Dövlət Universitetinin təsisi haqqında qərar qəbul etdi. 1919-1920-ci tədris ilində BDU-da iki fakültə - tibb və tarix-fılologiya fakültələri yaradıldı. Universitetdə dərslər noyabrın 15-də başladı. Bu günədək Azərbaycan elminin və təhsil sisteminin flaqmanı olan, təhsilə çıraq tutan BDU-nun yaradılması xalqımızın tarixində ən əlamətdar mədəni hadisə oldu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi Azərbaycan Cümhuriyyətinin qiymətli yadigarı olan Bakı Dövlət Universiteti Azərbaycanda ali təhsil sisteminin yaradılmasında, demək olar ki, liderlik etmişdir.

Azərbaycan Cümhuriyyətinin parlamenti 1919-cu il sentyabrın 1-də BDU-nun təsis olunması haqqında qərarı ilə birlikdə 1919-1920-ci tədris ilində təhsil almaq üçün 100 nəfər gəncin dövlət hesabma dünyanın müxtəlif ali məktəblərinə göndərilməsi haqqında qərar qəbul etmişdi. Azərbaycan gəncləri xaricdə təhsil almaq üçün Fransa, İtaliya, Almaniya, İngiltərə, Türkiyə və b. ölkələrə göndərildilər. Həmin gənclərdən çoxu təhsillərini başa vurub Vətənə qayıtdılar və sonralar Azərbaycan elminin, təhsil sisteminin və incəsənətinin inkişafmda önəmli xidmətləri ilə xalqımızın sonsuz məhəbbətini qazana bildilər.

**19.4. Azərbaycan Cümhuriyyətinin tarixi əhəmiyyəti.** Azərbaycan Cümhuriyyətinin yaranması xalqımızın XX əsr

tarixində ən böyük nailiyyətlərindən biridir. Azərbaycan Cümhuriyyətinin yaranması təkcə Azərbaycan miqyaslı, yəni yerli əhəmiyyətli hadisə deyildi. Bütün türk dünyasında və müsəlman Şərqində ilk demokratik tipli respublika olan Azərbaycan Cümhuriyyətinin həm də beynəlxalq əhəmiyyəti vardır.

Azərbaycan Cümhuriyyətinin yaranması ilə XIX əsrin başlanğıcında Azərbaycanın Rusiya və İran arasında bölünməsi nəticəsində Azərbaycan xalqının itirilmiş dövlətçiliyi bərpa edildi. Azərbaycan dövlətçiliyinin bərpası və dövlət müstəqillinin əldə edilməsi isə xalqımızın ən böyük nailiyyətidir. Çünki xalqın səadəti, xoşbəxtliyi onun azadlığında və istiqlaliyyətindədir. Azərbaycan Cümhuriyyəti parlamentinin açılış mərasimində M.Ə.Rəsulzadənin dediyi kimi müstəqilliyimizi ifadə edən üçrəngli bayraq qaldırılmış, "türk hürriyyəti, islam mədəniyyəti və müasir azadlıq ideyalarını təmsil edən bu üç boyalı bayraq daima başımızın üstündə dalğalanacaqdır".

Xalqımızın tarixində Azərbaycan Cümhuriyyətinin yerini bilmək, əhəmiyyətini dərk etmək və düzgün qiymətləndirmək üçün bu dövlətin tarixinin bəzi anlamını xatırlatmaq kifayətdir. Hər şeydən öncə qeyd etmək lazımdır ki, həmin vaxta qədər heç bir demokratik dövlət quruculuğu təcrübəsi olmayan xalqımız Azərbaycan Cümhuriyyətinin mövcud olduğu qısa tarixi müddətdə demokratik dövlət aparatı yaratdı. Həmin dövlət aparatı çox mürəkkəb beynəlxalq və daxili gərginlik şəraitində işləməli olmuşdur.

Azərbaycan hökuməti ilk növbədə Azərbaycan Cümhuriyyətinin dünya dövlətləri tərəfindən hüquqi cəhətdən tanınmasına nail olmuşdur.

Azərbaycan Cümhuriyyətinin dövlət artibutlarının qəbul edilməsi, ordunun yaradılması, Azərbaycan dilinin dövlət dili elan edilməsi, xalq təhsilini və mədəniyyəti inkişaf etdirmək sahəsində tədbirləri mühüm tarixi əhəmiyyət kəsb edirlər.





Azərbaycan Cümhuriyyəti cəmi 23 ay yaşadı. Lakin bu qısa müddətdə o, xalqımızın tarixi yaddaşında dərin iz buraxmış, azadlıq və dövlət müstəqilliyimizin elə ideyalarının əsaslarını qoymuşdur ki, onlar bu günədək öz aktuallığını və əhəmiyyətini saxlamışlar.

## Ədəbiyyat:

1. Azərbaycan tarixi. 7 cilddə, 5-ci cild, Bakı, Elm, 2001, s.315-525.

2. V.Çıraqzadə. İstiqlal yollarında. s.28-81.

3. N.Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.

4. M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s.36-65.

5. А.Бакаев. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку, 1990, с.23-63.

6. Г.Раджабли. Историческая роль и значение Азербайджанской Демократической Республики. - «Azərbaycan müəllimi" qəzetinin xüsusi buraxılışı, 4 iyun 1998-ci il.

7. Т.Святиховский. Русский Азербайджан в 1905-1920 гг. – Журнал "Хазар", 1990, №1.

# XX FƏSİL

## ŞİMALI AZƏRBAYCANDA XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MƏDƏNİYYƏT

**20.1. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda təhsil və elm.** Azərbaycan Rusiya və İran arasında bölüşdürüldükdən sonra Şimali Azərbaycanda maarif durumu Azərbaycanın ənənəvi təhsil formalarının inkişafı ibtidai rus məktəblərinin təhsili ilə də yanaşı səciyyələnir.

İbtidai təhsil məscidlərin nəzdindəki məktəblərdə təşkil olunmuşdu. Şuşada İbrahim xan məscidi nəzdində olan məktəbin əsası hələ 1801-ci ildə qoyulmuşdu. 1842-ci ildə Bakı, Şamaxı, Lənkəran, Quba, Şuşa və Şəki qəzalarında məscidlərin nəzdində 502 məktəb vardı. Onlarda 534 müəllim dərs deyirdi və 5242 şagird oxuyurdu. Məscidlərin nəzdində olmayan məktəblərin sayı isə çox idi. Belə məktəblər, demək olar ki, hər kənddə vardı. Onlar mollaların, axundların evlərində təşkil olunurdular. Məktəblərdə sosial mənsubiyyətindən asılı olmayaraq müxtəlif yaşlı oğlanlar oxuyurdular. Qız məktəbləri çox az idi. XIX əsrin 30-cu illərində Bakıda İçərişəhərdə iki qız məktəbi vardı. Onlarda qadın mollalar dərs deyirdi və yalnız varlı ailələrin qızları oxuyurdular.

Məktəblərdə ruhani şəxslərlə yanaşı, dünyəvi fənlərdən dərs deyən müəllimlər də çalışırdılar. Onlardan nisbətən daha savadlıları öz şagirdlərinə Şərq dillərindən və ədəbiyyatından mükəmməl biliklər verirdilər. Azərbaycanın bir çox görkəmli mədəniyyət xadimləri, o cümlələr, Mirzə Şəfi Vazeh və M. F. Axundzadə ilk təhsillərini belə məktəblərdə almışdılar.





Azərbaycanda ibtidai məktəblərdən başqa orta ruhani məktəbləri - mədrəsələr də fəaliyyət göstərirdilər. Mədrəsələr adətən böyük məscidlərin yanında açılır və onların hesabına saxlanılırdı. Mədrəsələrdə tədris və yaşamaq pulsuz idi. Mədrəsələri bitirən gənclər dini rütbə alırdılar. Mədrəsələrdə ərəb dilini sərbəst bilməyə əsaslanan tədris planına "Quran" və ilahiyyat fənni ilə yanaşı fəlsəfə, tarix, coğrafiya, astronomiya, təbabət, islam hüququ və b. fənlər də daxil idi.

1832-ci ildə A.Bakıxanov Bakıda pansionlu dünyəvi məktəb layihəsini işləyib hazırladı. Layihədə ana dili ilə yanaşı fars və rus dilləri, tarix, coğrafiya və hesab fənlərinin tədrisi nəzərdə tutulurdu. Lakin layihə həyata keçmədi. Bu zaman artıq ölkədə rus ibtidai məktəbləri şəbəkəsi yaranmağa başlanmışdı.

1830-cu ildə Şuşada ilk qəza məktəbi açıldı. Onun ardınca 1832-ci ildə Bakıda, 1833-cü ildə Şəkidə, 1837-ci ildə Gəncədə, 1838-ci ildə Naxçıvan, İrəvan və Şamaxıda qəza məktəbləri açıldı. Təhsilin rus dilində aparıldığı bu məktəblərdən Şamaxı qəza məktəbi dördsinifli məktəb idi. Digər altı məktəb isə üçsiniflı qəza məktəbləri idilər. Bunlardan əlavə üç şəhərdə (Quba, Lənkəran və Ordubad) birsinifli ibtidai qəza məktəbi açılmışdı.

XIX əsrin ikinci yarısından başlayaraq rus təhsil müəssisələri Azərbaycanın təhsil sistemində aparıcı rol oynamağa başlayırlar. Onların əksəriyyəti ibtidai məktəblər olmuşdur. 1872-ci il 13 may Əsasnaməsi ilə bütün qəza məktəbləri təhsil müddəti altı il olan pullu şəhər məktəblərinə çevrildi. 1865-ci ildə Azərbaycanda ilk gimnaziya Bakı şəhərində təşkil olundu. 70-ci illərdə isə Azərbaycanda ayrı-ayrı məktəblər yeni üsula (üsuli-cədidə) keçməyə başladılar. Bu yeni tədris üsulunun əsas prinsiplərindən biri "hərf-heca" üsulundan daha səmərəli "səs" üsuluna keçməkdən ibarət idi. Üsuli-cədid məktəblərinin ən mühüm xüsusiyyəti və əhəmiyyəti ondan ibarət idi ki, burada ilk dəfə olaraq elmi

biliklərin əsasları ana dilində öyrədilməyə başlandı. Bir sıra məktəblərdə ana dili ilə yanaşı rus dili də tədris olunurdu. Yeni üsul əzbərləmə sisteminin zəifləməsinə və şüurlu mühakimə təliminə əsaslanırdı.

Yeni tipli ilk məktəblərdən biri görkəmli Azərbaycan şairi Seyid Əzim Şirvaninin 1869-cu ildə Şamaxıda açdığı məktəb idi. Böyük pedaqoqlar Həsənəli Qaradaği, Mir Möhsün Nəvvab və C.Fətəlibəylinin Şuşada, Mirzə İsmayıl Qasirin Lənkəranda açdıqları məktəblər də dünyəvi xarakterlərilə "üsuli-cədid" məktəblərinə yaxın idilər. Yeni tipli məktəblərin yayılmasında 1882-ci ildə Ordubadda "Əxtar" ("Ulduzlar"), 1894-cü ildə Naxçıvanda "Tərbiyə" adlı məktəbləri açmış Məmmədtağı Sidqinin xüsusi xidməti olmuşdu. 1896-cı ildə Naxçıvanda ilk qızlar məktəbini də Məmmədtağı Sidqi açmışdır.

Azərbaycan əhalisinin maariflənməsi prosesində rus-tatar (Azərbaycan) məktəbləri nəzərə çarpacaq dərəcədə rol oynamışdır. İlk belə məktəbi Bakıda gənc pedaqoq Həbib bəy Mahmudbəyli və Sultan Məcid Qənizadə 1887-ci ildə açmışlar. Bu məktəbin ardınca 1894-cü ildə Naxçıvanda, 1894 və 1898-ci illərdə Şəkidə, 1896-cı ildə Şuşada, 1897-ci ildə Salyanda və 1899-cu ildə Gəncədə belə məktəblər açıldı.

Azərbaycanın yeni tipli məktəbləri üçün müəllimlərin hazırlanmasında Qori Müəllimlər seminariyası və onun 1879-cu ildə M.F.Axundzadə və A.O.Çernyayevskinin səyləri nəticəsində açılmış Azərbaycan şöbəsi müstəsna rol oynadı. 1899-cu ilədək Qori seminariyası 89 nəfər azərbaycanlı müəllim hazırlamışdı. Bu məktəbin məzunlarından Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli, Teymur bəy Bayraməlibəyov, Sultan Məcid Qənizadə, Mustafa Mahmudov, Mehdi bəy Hacıbababəyov, Səfərəli bəy Vəlibəyov, Əlicabbar Orucəliyev, Mehdi Quliyev və başqalarının Azərbaycanda maarifçilik sahəsindəki xidmətləri əvəzedilməzdir.





XX əsrin əvvəllərində məktəblər azərbaycanlı uşaqların xeyli hissəsini əhatə edirdi. 1914-cü ilin sonunda təkcə Yelizavetpol quberniyasında 5188 şagird və 192 müəllimi olan 153 məktəb vardı. Bu dövrdə yeni mədrəsələr də açılırdı: 1901-ci ildə Şuşada, 1906-cı ildə Gəncədə, 1907-ci ildə Bakıda yeni mədrəsələr açılmışdı. Köhnə məktəblər, sayca çox olmalarına baxmayaraq, öz mövqelərini itirir və üsuli-cədid məktəbləri ilə əvəz olunurdular. 1900-cü ildə Mərəzədə, (indiki Qobustanda) 1905-ci ildə Salyanda, 1907-ci ildə Lənkəranda, 1908-ci ildə Şamaxı və Ağdaşda, 1909-cu ildə Gəncə, Şəki, Balakən və Gədəbəydə, 1913-cü ildə Qax və Zaqatalada yeni üsul məktəbləri açıldı.

Bəzi ruhanilər yeni üsul məktəblərinə qarşı çıxır, onları islamın ruhuna zidd hesab edirdilər. Lakin onların əksinə olaraq Azərbaycanı ali din xadimləri, o cümlədən, Qafqaz müsəlmanlarının şeyxül-islamı Axund Əbdülsalam Axundzadə, Molla Məhəmməd Pişnamazzadə, Müfti Hüseyn Əfəndi Qayıbov xalqın maariflənməsinə hər cür şərait yaratmağa çalışırdılar. Onlar "Quran"a əsaslanır və Məhəmməd (s) peyğəmbərin vəsiyyətlərində hər bir müsəlmanın biliklərə yiyələnməkləri barədə kəlamları olmasını yada salırdılar.

Azərbaycan orta təhsili ciddi təşkilat və maliyyə çətinlikləri ilə qarşılaşdığı üçün çox zəif inkişaf edirdi. 1910-cu ilə qədər Bakıda cəmisi iki orta ümumtəhsil məktəbi vardı: realnı məktəb və gimnaziya. 1910-cu ildə Bakıda, 1915-ci ildə Şəkidə və 1916-cı ildə Lənkəranda yeni kişi gimnaziyaları, 1900-cu ildə Şamaxıda, 1911-ci ildə Bakının Balaxanı kəndində və 1916-cı ildə Salyanda realnı məktəblər açıldı. Onlarda yalnız oğlanlar oxuyurdular. Bakıda l903, 1913 və 1916-cı illərdə, Lənkəranda 1913-cü ildə qız gimnaziyaları açılmışdı. Gəncədə 1913-cü ildə və Şəkidə 1915-ci ildə Müqəddəs Nina qız məktəbləri fəaliyyətə başlamışdılar. l918-ci ilə qədər Azərbaycanda heç bir orta məktəbdə tədris ana dilində

aparılmırdı və mövcud orta məktəblərin hamısı rus maktəbləri idi.

Azərbaycanın görkəmli mesenat H.Z.Tağıyev Bakıda orta texniki məktəbin qəyyumu kimi onun inkişafına daim qayğı göstərirdı. O, milyoner M.Muxtarov ılə birlikdə texniki məktəb üçün xarrat emalatxanası tikdirmişdi. H.Z.Tağıyev şəhər dumasının deputatlarını texniki məktəbə əhəmiyyət verməyin, onun üçün maliyyə vəsaitinin ayrılmasının, məktəbin tikintisi üçün nəzərdə tutulmuş torpaq sahəsinin genişləndirilməsinin vacibliyinə inandıra bilmişdi. O, 1901-ci ildə texniki məktəbin binasının tikilməsinə 6600 manat, 1909-1910-cu illərdə binanın ikinci mərtəbəsinin tikintisinə və kimya laboratoriyasının təşkilinə 50 min manat pul vermişdi. O, məktəbin müəllimlərinin əmək haqqının verilməsində çətinlik yarandıqda müəllimlərin əmək haqqını da ödəyirdi. Bakı orta texniki məktəbə daim qayğı göstərdiyinə görə şəhər duması H.Z.Tağıyevin portretinin çəkilməsini məşhur rəssam İ.Brodskiyə sifariş vermiş, onun realnı məktəbin akt zalında asılması haqqında qərar çıxarmışdı. (1913-cü ildə çəkilmiş həmin portret Azərbaycan Milli Tarix Muzeyində saxlanılır).

Azərbaycanda orta ümumtəhsil və texniki məktəblərin yüzlərlə məzunu ali məktəblərə daxil olmaq üçün Rusiyanın və Avropanın müxtəlif şəhərlərinə yollanırdılar. Onların bir qismi əvvəllər Peterburq, Moskva və Sarbon universitetlərində təhsil alırdılar. XX əsrin başlanğıcında isə Kiyev, Odessa, Xarkov, Kazan, Riqa və b. şəhərlərin ali məktəblərinə də təhsil almağa gedənlərin sayı aıldı. Azərbaycan gəncləri həmin şəhərlərin universitetlərinin əsasən hüquq və tibb fakültələrində, qismən də texnoloji ali məktəblərdə təhsil alırdılar. Çünki bu sahələrdə əldə etdikləri bilikləri Azərbaycanda tətbiq etmək üçün geniş imkan vardı.

XIX əsrin I yarısında Azərbaycanda tarix, fəlsəfə, filologiya, coğrafiya, astronomiya kimi elmlərin ənənəvi sahələri nəzərə çarpacaq dərəcədə canlanır və inkişaf edirdi.





Azərbaycan alimləri, hər şeydən öncə, doğma diyarın tarixi keçmişini dərk etməyə daxili tələbat hiss edirdilər. Vətən tarixini bilmək həvəsi Azərbaycanda tarixçilərin və salnaməçilərin bütöv bir nəslinin meydana gəlməsinə səbəb oldu. Onlar ilk qaynaqlar, şəxsi xatirələr, canlı şahidlər və maddi mədəniyyət abidələri əsasında Azərbaycanın və onun ayrı-ayrı xanlıqlarının tarixini yazırdılar.

Vətən tarixini öyrənməyin əhəmiyyətini ilk dərk edənlərdən və ilk tədqiq edənlərdən biri Abbasqulu ağa Bakıxanov olmuşdur (1794-1846). O, Azərbaycan elm və mədəniyyəti tarixinə hər şeydən öncə maarifçi-tarixşünas kimi daxil olmuşdur. A. Bakıxanov "Qafqazın şərq hissəsinin tarixi" adlı əsərini 1841-ci ildə fars dilində yazmış və 1843-cü ildə "Gülüstani-İrəm" adı ilə rus dilinə tərcümə etmişdir. (Bu əsər ilk dəfə 1926-cı ildə rus dilində, 1951-ci ildə Azərbaycan dilində, 1978-ci ildə fars dilində çap edilmişdir). O, bu əsərində, onun öz sözləri ilə desək, "nəinki əsrlərin, hətta minilliklərin məhv edə bilmədiyi dillərə, qədim abidələrə, adət və ənənələrə istinad" edərək Azərbaycanda məskunlaşmış xalqların və soyların mənşəyini, etnonimlərin və toponimlərin etimologiyasını izah etməyə çalışmış, Alban dövlətinin tarixini qısa formada şərh etmişdir. A.Bakıxanovun həmçinin Cənubi-Şərqi Qafqazın siyasi və iqtisadi tarixinə, Azərbaycan əhalisinin etnik tərkibinə, burada yaşamış qədim soylara, feodalların titul və dərəcələrinə, xanlıqlar dövrünün müsəlman hüququna, Azərbaycanın Rusiya tərkibinə qatılmasından sonra müsəlman feodallarının hüquq və imtiyazlarına dair elmi qeydləri də vardır.

Bu dövrdə Mirzə Adıgözəl bəy və Mirzə Camal Qarabağın tarixinə dair, Fətəli xanın oğlu Kərim ağa və İskəndər bəy Hacınski Quba xanlığının tarixi haqqında, Şeyx İbrahim Gəncə şəhərinin tarixi haqqında, Mirzə Heydər Vəzirov Dağıstan və Şirvanın siyasi tarixi haqqında Mirzə

Məhərrəm və Mirzə Heydər isə Nadir şah imperiyasından bəhs edən tarixi əsərlər yazmışlar.

XIX əsrin I yarısmda Tiflis məktəblərində şərq dillərini tədris edən M.Ş.Vazeh və Fazil xan Şeyda ədəbiyyat sahəsində tədqiqatlar ilə məşğul olmuşlar. «Şərqşünaslıq sahəsində Azərbaycan alimlərinin nailiyyətlərini xüsusi qeyd etmək lazımdır. Rus şərqşünaslığının təşəkkülü və inkişafında azərbaycanlı şərqşünas alimlərdən A.Bakıxanov, M.C.Topçubaşov və M.Ə.Kazımbəyin mühüm xidmətləri olmuşdur.

A.Bakıxanov 1841-ci ildə fars dilinin quruluşu və qaydalarını Avropa elmi metodu ilə şərh edən ilk qrammatikanı şərh etmişdir. "Fars qrammatikası" adlanan bu əsər 1841-ci ildə Tiflisdə dövlət hesabına nəşr edilmiş və hökumət mükafatına layiq görülərək Rusiyada fars dilindən dərs vəsaiti kimi qəbul edilmişdir.

Gəncədə anadan olmuş Mirzə Cəfər Topçubaşov 1829-cu ildən 1849-cu ilədək Peterburq universitetinin professoru işləmiş, iyirmi ilə yaxın Rus Arxeologiya Cəmiyyətinin şərq numizmatikası şöbəsinə başçılıq etmişdir. O, Britaniya Kral Asiya Cəmiyyətinin həqiqi üzvü olmuşdur. Onun "Fars müntəxəbatı", "Qədim dövrlərdən Teymurləngə qədər monqolların tarixi", "Nadir şahın ölümündən sonra Gürcüstandakı hadisələr haqqında" və b. maraqlı elmi əsərləri vardır.

Zəmanəmizə qədər öz elmi əhəmiyyətini itirməyən çoxlu fundamental əsərlərin müəllifi, dünya şöhrətli şərqşünas azərbaycanlı alim Kazımbəy Rəşt şəhərində şəhərində anadan olmuşdur. O, 1826-1849-cu illərdə Kazan Universitetinin, 1849-1870-ci illərdə Peterburq Universitetinin professoru olmuşdur. Kazımbəy fars, ərəb, rus, türk, ingilis və fransız dillərini mükəmməl bilirdi. O, "Türk-tatar dilinin qrammatikası", "Firdovsiyə görə fars mifologiyası", "Dərbəndnamə", "Quranın tam konkordası", "Müridizm və





Şamil", "Bab və babilər" və b. samballı elmi əsərlərin müəllifidir.

XIX əsrin birinci yarısında Azərbaycanda astronomiya və coğrafiya elmlərinin inkişafında A.Bakıxanov, M.F.Axundzadə və İ.Qutqaşınlının xidmətlərini qeyd etmək lazımdır. A.Bakıxanovun fars dilində yazdığı "Kəşf ül-Qəraib" əsərində Amerikanın kəşf olunmasından, onun ölkələrinin təsvirindən bəhs edilir. "Əsrar əl-Məlaküt" ("Səma şahlığının sirləri") əsərində isə dünyanın heliosentrik sistemi təlimi dəstəklənir və Günəş sistemi cisimlərinin fıziki təbiəti və quruluşları izah edilir. A.Bakıxanov dünyanın fıziki, siyasi və iqtisadi coğrafıyası məsələlərindən bəhs edən "Ümumi coğrafiya" M.F.Axundzadə "Yeni dünyanı kəşf edən Xristofor Kolumbun tarixi", İ.Qutqaşınlı isə Şərq ölkələrinin coğrafıyası və etnoqrafiyasından bəhs edən "Yol qeydləri" kitablarının müəllifləridirlər.

XIX əsrin ikinci yarısında Azərbaycanda elmin inkişafından bəhs edərkən ilk növbədə Həsənbəy Zərdabinin (1842-1907) adını çəkmək lazımdır. Azərbaycanda biologiya, kənd təsərrüfatı, təbabət üzrə biliklərin yayılması onun adı ilə bağlıdır. H.Zərdabinin elmi yaradıcılığı təbiət elmləri ilə sıx bağlı idi. O, yerin yaranması, kainatda əbədi dövran haqqında o dövrdə elmdə hakim olan ideyanın tərəfdarı idi, Günəş sistemi haqqında elmi təsəvvürləri qəbul edirdi. H.Zərdabinin elmi və təcrübi yaradıcılığı Azərbaycanda biologiya və kənd təsərrüfatı elmlərinin sonrakı inkişafına səmərəli təsir göstərdi.

XIX əsrin ikinci yarısında Azərbaycanda tarix elmi də inkişaf etməkdə davam edirdi. Azərbaycan tarixçiləri orta əsrlərin tarixi ənənələrini davam etdirərək öz əsərlərini əsasən Qarabağın, Talışın və Lənkəran şəhərinin xanlıqlar dövrü tarixinə, onların Rusiya tərəfindən işğalından əvvəl baş vermiş hadisələrə həsr edirdilər. Bu cəhətdən Mirzə Yusif Qarabağinin 1855-ci ildə fars dilində yazdığı "Tarixi-safı", Mir Mehdi Haşımzadənin 80-ci illərdə yazdığı "Kitabi-tarixi-Qarabağ",

Əhməd bəy Cavanşirin 1883-cü ildə yazdığı "1747-ci ildən 1805-ci ilə qədər Qarabağ xanlığının siyasi tarixinə dair", Seyidəli Kazımbəyoğlunun 1869-cu ildə fars dilində yazdığı "Cavahimameyi Lənkəran", Mirzə Əhməd Xudaverdi oğlunun 1882-1883-cü illərdə fars dilində yazdığı "Əxbarnamə", Seyid Əbdülrəhimin yazdığı "Şəki xanları və onların nəsillərinin şəcərəsi" adlı salnaməni qeyd etmək olar.

XIX əsrin ikinci yarısında Qərb və rus tənqidçilərinin bədii ədəbiyyata verdikləri qiymətin təsiri altında Azərbaycanda ədəbi yaradıcılığa münasibətlə bağlı elmin yeni sahələri ədəbiyyatşünaslıq və ədəbi tənqid meydana çıxdı. Azərbaycanda ədəbiyyatşünaslıq və ədəbi tənqidin əsasını görkəmli mütəfəkkir və dramaturq M.F.Axundzadə qoymuşdur. Onun "Poeziya və nəsr haqqında", "Tənqidi qeydlər" və b. əsərlərində Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə "ədəbi tənqid" anlayışı işlədilmişdir. Azərbaycan ədəbiyyatı tarixi və nəzəriyyəsi məsələləri ilə bu dövrdə Həsənbəy Zərdabi, Firidun bəy Köçərli, Nəriman Nərimanov, Məmmədtağı Sidqi, Mirzə Əbülhəsən Vəzirov, Mirzə Yusif Qarabaği və Mir Möhsün Nəvvab da məşğul olmuşlar.

Bu dövrdə Azərbaycanda fəlsəfi fikir də yeni məzmun almışdı. Fəlsəfə sahəsində M.F.Axundzadənin "Kəmalüddövlənin İran şahzadəsi Cəmalüddövləyə üç məktubu və sonuncunun ona cavabı" əsəri xüsusi qeyd olunmalıdır. Bu fəlsəfi əsər 1863-1865-ci illərdə yazılmışdır. M.F.Axundzadənin "Filosof Yuma cavab", "Babi məsləki", "Yek kəlmənin tənqidi" və "Molla Rumi və onun əsərləri haqqında" adlı fəlsəfi əsərləri də vardır.

XX əsrin əvvəllərində də Azərbaycan elmi fikri inkişaf edirdi. Moskva universitetinin hüquq fakültəsini bitirmiş M.Y.Cəfərov 1912-ci ildə alimlik elmi dərəcəsi almışdı. Hələ XIX əsrin sonlarından elmi ictimaiyyət arasında tanınmış Əhməd bəy Ağayev və Əli bəy Hüseynzadə təkcə Rusiyada deyil Yaxın və Orta Şərqdə və Qərbi Avropada da tanınırdılar.





Sarbon universitetini bitirmiş Ə.Ağayev görkəmli publisist, ədəbiyyatsünas, islamşünas və zərdüştilik sahələrində alim idi. Ə.Hüseynzadə Peterburq universitetinin fizika, təbiət və Şərq fakültələrində oxumuşdu. O, sonralar İstanbul Universitetinin tibb fakültəsini bitirib onun professoru olmuşdu. Ərəb, fars, türk, rus, ingilis və alman dillərini bilən Ə.Hüseynzadənin elmi yaradıcılığında ədəbiyyat, fəlsəfə, sosiologiya, tarix, fizika, təbiətşünaslıq, psixologiya, dilçilik etnologiya və arxeologiya məsələləri öz əksini tapmışdı. O, İsmayıl bəy Qaspiralı ilə birlikdə elmdə "türkçülük" ideologiyasının banisi hesab edilir.

XX əsrin əvvəllərində tarix elmi sahəsində Rəşid bəy İsmayılovun 1904-cü ildə Tiflisdə "Qafqazın qısa tarixi", Hacı Şeyx Həsən Mollazadə Gəncəvinin 1905-1913-cü illərdə Tiflis və Gəncədə dörd cildlik "Zübtət ül-təvarix" ("Tarixin qaynaqları"), adlı kitabları nəşr edilmişdi.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan elm xadimləri arasında M. Şahtaxtinski xüsusi yer tutur. Sarbon universitetinin fəlsəfə, tarix və hüquq fakültələrini bitirmiş M. Şahtaxtinski ərəb, fars, rus, fransız və alman dillərini bilirdi. O, 1908-ci ildən başlayaraq dünya elminin aparıcı mərkəzlərindən biri olan Parisdə Şərq dilləri problemləri üzrə elmi-tədqiqat aparmış, Sarbon Universitetində Şərq dillərindən dərs demişdi.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyat tarixi elmi də təşəkkül tapır. Onun görkəmli nümayəndələri F.Köçərli, C.Hacıbəyli, N.Nərimanov, S.Hüseyn, C. Məmmədquluzadə, M.F.Sidqi, M.Hadi, H.Zərdabi, Ə.Haqverdiyev, N.Vəzirov və A. Şaiq olmuşlar. F.Köçərlinin 1903-cü ildə Tiflisdə Azərbaycan ədəbiyyat tarixinə dair ilk kitabı çap edilmişdi. O, 1908-ci ildə üçcildlik "Azərbaycan türklərinin ədəbiyyatı" adlı kitab yazmışdı. Bu kitab yalnız 1926-cı ildə ikicildlik kitab şəklində çap olunmuşdur. Parisdə təhsil almış C.Hacıbəyli Fransa ədəbiyyatı, mədəniyyəti və fəlsəfəsi məsələlərini tədqiq etmişdir.

Dilçilik sahəsində tanınmış alim S. M. Qənizadə Azərbaycan, rus, fars və ərəb dilləri üzrə kitablar yazmışdır. O, 1890-1904-cü illərdə "Azərbaycan-rus dilləri lüğəti"ni tərtib etmişdir.

**20.2. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda ədəbiyyat.** XIX əsrin birinci yarısında çoxəsrlik tarixə malik olan Azərbaycan ədəbiyyatında milli ədəbi ənənələr inkişaf etdirilir, eyni zamanda yeni ədəbi cərəyanlar təşəkkül tapır. Bu dövrdə Azərbaycan ədəbiyyatının mühüm bir qolunu klassik romantik poeziya təşkil edir. Həmin janrın görkəmli nümayəndələri A.Bakıxanov, M.Ş.Vazeh, Q.Zakir, M.B.Nədim, Ə.Nəbati və K.Salik olmuşlar. Onlar klassik romantik poeziyanın, xüsusilə Füzuli poeziyasının ənənələrini davam etdirmiş, klassik romantik şeirin müxtəlif janrlarında əsərlər yaratmışlar. Klassik romantik şeirlərdə olduğu kimi bu şairlərin də lirik şeirlərində başlıca mövzunu məhəbbət motivləri təşkil edirdi. Yeni dövrün bu istedadlı şairləri eyni zamanda ictimai-siyasi və fəlsəfi lirikanın bir sıra gözəl nümunələrini yaratmış və öz əsərlərində zamanədən narazılıqlarını və talelərindən şikayətlərini ifadə etmiş, zalım şəxsləri tənqid etmiş, xeyirxahlığı və humanist ideyaları tərənnüm etmişlər.

"Qüdsi" təxəllüsü ilə bədii yaradıcılıqla məşğul olan A.Bakıxanov Azərbaycan ədəbiyyatında əsasən lirik şair kimi tanınmışdır. O, Azərbaycan və fars dillərində klassik şeir üslubunda çoxlu qəzəl, müxəmməs, rübai, qitə, tərcibənd, tərkibbənd, mənzum hekayə, təmsil, satirik və əxlaqi-didaktik əsərlər yaratmışdır.

Azərbaycan ədəbiyyatının XIX əsrin birinci yarısındakı görkəmli nümayəndəsi Mirzə Şəfı Vazeh 1892-ci ildə Gəncədə anadan olmuşdur. O, Azərbaycan və fars dillərində klassik romantik şeir üslubunda şeirlər yazmışdır. Lakin onun zəngin ədəbi irsinin yalnız bir qismi orijinalda bizə gəlib çatmışdır. M.Ş.Vazehin şeirlərinin bir hissəsi isə Fridrix Bodenştedt tərəfindən alman dilinə tərcümə edilmiş və 1850-ci ildə





Ştutqartda "Min bir gecə" kitabında dərc edilmişdir. Şairin şeirlərinin əsas hissəsi isə F. Bodenştedt tərəfindən 1851-ci ildə Berlində "Mirzə Şəfinin şərqiləri" adı ilə alman dilində ayrıca kitab şəklində nəşr edilmişdir. Bu kitab Almaniyada yüksək təqdir edilmiş və dəfələrlə nəşr olunmuşdur. M.Ş.Vazehin nəğmələri tez bir zamanda ingilis, fransız, italyan, norveç, holland, dat, polyak, çex, rus və qədim yəhudi dillərinə tərcümə edilərək çap olunmuş və bütün Avropada sevilə-sevilə oxunmuşdur. M.Ş.Vazeh lirik, ictimai-fəlsəfi və əxlaqi-didaktik şeirlərində saf məhəbbəti, insani hiss və həyəcanları, sevinc və kədəri, həyat nemətlərini təsvir və tərənnüm etmiş, zahidliyi, tərkidünyalığı pisləmişdir.

XIX əsrin birinci yarısı Azərbaycan satirik şeirinin görkəmli nümayəndələri Qasım bəy Zakir və Mirzə Baxış Nədim hesab edilirlər. Onların satirik şeirlərində Azərbaycanın ictimai-siyasi həyatının səciyyəvi cəhətləri əks olunmuş, çar məmurlarının ədalətsizliyi, özbaşınalığı və ölkədə yaranmış ağır vəziyyət tənqid edilmişdir. Bu dövrdə Azərbaycan ədəbiyyatının inkişafında Qasım bəy Zakirin (Cavanşirin) xidməti xüsusilə böyük olmuşdur. O, 1784-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Q.Zakir dövrünə tənqidi münasibət bəsləyən, ədalətsizliyə və özbaşınalığa qarşı çıxan, həqiqətpərəst şəxs olmuşdur. Q.Zakir həm klassik romantik şeir üslubunda müxəmməs, müstəzad, tərcibənd, tərkibbənd, həm də xalq şeiri üslubunda qoşma, təcnis, gəraylı, bayatı, təmsil və mənzum məktublar yazmışdır.

XIX əsrin birinci yarısında Azərbaycan ədəbiyyatında mərsiyə, təzkirə və təqlidçi şeir formaları da inkişaf etmişdir. Məhərrəmlik mərasimləri ilə bağlı mərsiyələr, dini poemalar, mövludnamələr yazılmışdır. Dini mövzuda yazılmış şeirlərin ən görkəmli nümayəndələri Raci və Qumri olmuşlar. Bu dövrdə "Nəqşbəndlik" təriqətini təbliğ edən şairlər də çox olmuşdur.

XIX əsrin birinci yarısı Azərbaycan ədəbiyyatında yeni tipli bədii nəsrin təşəkkülü ilə də səciyyələnir. Onun ilk

nümayəndəsi İsmayıl bəy Qutqaşınlı olmuşdur. O, 1806-cı ildə indiki Qəbələ şəhərində anadan olmuşdur. İsmayıl bəyin atası Nəsrullah Qutqaşının sonuncu sultanı olmuş, Azərbaycanın Rusiya tərəfindən istilasından sonra isə Qutqaşın mahalının hakimi olmuşdur. İ.Qutqaşınlı rus ordusunda xidmət etmiş, general rütbəsinə qədər yüksəlmişdir. O, orduda xidməti ilə əlaqədar bir müddət Peterburq, Moskva və Varşava şəhərlərində yaşamışdır. Ərəb, fars, rus və fransız dillərini kamil bilən İ.Qutqaşınlı Qərbi Avropa mədəniyyəti ilə tanış olmuş, onun nailiyyətlərinə yiyələnmiş Azərbaycan ziyalılarından biri idi. O, 1835-ci ildə Varşavada hərbi xidmətdə olarkən fransız dilində "Rəşid bəy və Səadət xanım" hekayəsini nəşr etdirmişdir. Azərbaycan ədəbiyyatında sözün əsl mənasında yeni tipli nəsrin tarixi bu hekayə ilə başlanır.

XIX əsrin birinci yarısında Azərbaycanda şifahi xalq ədəbiyyatı, xüsusilə aşıq sənəti özünün geniş inkişafını tapmışdır. Bu dövrün görkəmli aşıqları Aşıq Musa (Basarkeçərin Qaraqoyunlu kəndi), Aşıq Məhəmmədhüseyn (Basarkeçərin Daşkənd kəndi), Aşıq Dilqəm (Zaqatalanın Barxiyanlı kəndi), Aşıq Həsən (Bakı qəzasının Masazır kəndi), Aşıq Cavad (Bakı qəzasının Bülbülə kəndi) və b. olmuşlar. Aşıq dastanlarında xalq həyatı, milli adət-ənənələr tərənnüm edilirdi.

XIX əsrin ikinci yarısı Azərbaycan ədəbiyyatının çiçəklənməsi, onun yeni ideya və bədii-estetik istiqamətdə inkişafı, böyük nailiyyətlər qazanması və dünya ədəbiyyatı sisteminə daxil olması dövrüdür. Bu dövrdə Azərbaycan ədəbiyyatının yeni realist sənət prinsiplərinin təşəkkülünü şərtləndirən əsas istiqamət maarifçilik ideyası olmuşdur. Bu dövrdə Azərbaycan ədəbiyyatında dramaturgiyanın əsası qoyulmuş və bu janr şərəfli inkişaf yolu keçmişdir.

XIX əsrin ikinci yarısı Azərbaycan ədəbiyyatına çoxlu görkəmli simalar vermişdir. Onlar öz əsərləri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirmiş, onu bütün dünyaya tanıtmışlar.





Bu dövrdə yazıb-yaradan böyük simalardan M.F.Axundzadə, N.Vəzirov, X.Natəvan, S.Ə.Şirvani, M.M.Nəvvab, M.İ.Qasir, C.Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev, M.Sidqi, Mirzə Ağa, Aşıq Ələskər və b. xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Həmin dövr Azərbaycan ədəbiyyatının ən görkəmli siması böyük mütəfəkkir, dramaturq, nasir, şair və ədəbiyyatşünas Mirzə Fətəli Axundzadə olmuşdur. O, XIX əsrin 50-ci illərində bir-birinin ardınca dram əsərləri - "Hekayəti molla İbrahimxəlil kimyagər" (1850), "Hekayəti müsyo Jordan həkimi nəbatat və dərviş Məstəlişah cadukuni məşhur" (1850), "Hekayəti - xırs quldurbasan" (1851), "Sərgüzəşti vəziri-xani Lənkəran" (1851), "Sərgüzəşti mərdi xəsis" ("Hacı Qara") (1852) və "Mürafiə vəkillərinin hekayəti" (1855) adlı komediyalar yazmaqla Azərbaycan dramaturgiyasının əsasını qoymuşdur. O, təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün Yaxın Şərqdə, müsəlman aləmində və türk dünyasında dramaturgiyanın banisi hesab edilir. M.F.Axundzadə komediyaların ardınca 1857-ci ildə yazdığı "Aldanmış kəvakib" povesti ilə Azərbaycan ədəbiyyatında bədii nəsrin gələcək inkişafına qüvvətli təsir etmişdir.

Bu dövrdə yaşamış Azərbaycanın ikinci böyük dramaturqu Nəcəf bəy Vəzirov "Ev tərbiyəsinin bir şəkli" (1875), "Daldan atılan daş topuğa dəyər" (1890), "Sonrakı peşmançılıq fayda verməz" (1890), "Yağışdan çıxdıq yağmura düşdük" (1890), "Müsibəti - Fəxrəddin" (1894), "Adı var, özü yox" və "Pəhləvani zəmanə" (1900) dramlarının müəllifidir. Yüksək ideya-bədii məziyyətləri ilə fərqlənən bu komediya və faciələrdə ailə-məişət həyatının bir sıra səciyyəvi cəhətləri təsvir edilmişdir.

XIX əsrin ikinci yarısında yazılmış dram əsərlərindən N.Nərimanovun "Nadanlıq" (1891), "Dilin bəlası" (1895), "Şamdan bəy" və "Nadir şah" (1899), Ə.Haqverdiyevin "Yeyəsən qaz ətini, görəsən ləzzətini" (1892), "Dağılan tifaq"

(1896) və "Bəxtsiz cavan" (1900), R.Əfəndiyevin "Qan ocağı" (1882), E.Sultanovun "Türk qızı" (1884) və Ə.Goraninin "Qocalıqda yorğalıq" (1892) komediya və faciələrində Azərbaycan realist ədəbiyyatının maarifçi-demokratik fikri yeni bir mərhələyə qaldırılmışdır.

XIX əsr Azərbaycan poeziyasının orijinal lirik şeirlərlə zənginləşdirilməsində S.Ə.Şirvani, X.Natəvan, M.M.Nəvvab və M.İ.Qasir kimı istedadlı şairlərin xüsusi xidməti olmuşdur. Həm klassik şeir ənənələrini davam etdirən, həm də satirik şeirlər yazan görkəmli şair Seyid Əzim Şirvaninin təşəbbüsü ilə Şamaxıda təşkil olunmuş "Beytüs-Səfa" ədəbi məclisinin ətrafında klassik şeir üslubunda yazan çoxlu şair toplanmışdı.

Şuşada şair Mirzə Rəhim Fəna tərəfindən təşkil edilmiş "Məclisi-üns" ədəbi məclisinə 1872-ci ildə görkəmli şairə Xurşudbanu Natəvan qoşulduqdan sonra onun üzvlərinin sayı daha da artmış, fəaliyyəti müntəzəm şəkil almışdı. Qarabağda tanınmış şair və rəssam Mir Möhsün Nəvvabın təşəbbüsü ilə "Məclisi-fəramüşan" adlı ikinci ədəbi məclis fəaliyyət göstərirdi. Lənkəranda şair Mirzə İsmayıl Qasirin rəhbərliyi ilə "Fövcül-füsəha" adlı, Bakıda şair Məmmədağa Cürminin rəhbərliyi ilə "Məcmey-şüəra" adlı və Ordubadda şair Hacı Fakirin rəhbərliyi ilə Əncüməni-şüəra" adlı ədəbi məclislər fəaliyyət göstərirdilər. Bu ədəbi məclislərdən əlavə Şəki, Qazax, Dərbənd və Ağdaşda kiçik ədəbi dərnəklər də fəaliyyət göstərirdi. Bu ədəbi məclis və dərnəklər ətrafında klassik şeir üslubunda yazan şairlər toplaşmışdılar.

XIX əsrin ikinci yarısında ideya-bədii cəhətdən yüksək keyfiyyətli nəsr əsərləri də yazılmışdır. Onların arasında N.Nərimanovun 1896-cı ildə yazdığı "Bahadur və Sona" adlı romanı və C.Məmmədquluzadənin 1894-cü ildə yazdığı "Danabaş kəndinin əhvalatları" adlı povesti Azərbaycanda yeni dövrün realist ədəbiyyatının çox qiymətli nümunələri hesab olunurlar.





XIX əsrin ikinci yarısında aşıq şeiri də coşğun inkişaf yolu keçərək Şimali Azərbaycanda yüksək mərhələyə qalxmışdı. Aşıq Mahmud, Aşıq Məhəmməd, Aşıq Əziz, Aşıq Aydın, Aşıq Hüseyn Şəmkirli, Aşıq Alı, Aşıq Ələskər, Çoban Əfqan və Molla Cuma kimi aşıqlar məhəbbət mövzusunda yüksək keyfiyyətli qoşmalar yazmış, Azərbaycan aşıq poeziyasında məhəbbət lirikasının inkişafı sahəsində önəmli rol oynamışlar.

Bu dövrün xalq aşıq poeziyasının ən görkəmli nümayəndəsi Aşıq Ələsgər olmuşdur. O, 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Gözəl şeirlər qoşan, məharətlə saz çalan və məlahətli səsi olan Aşıq Ələsgər ustad aşıq kimi tanınmış və geniş şöhrət qazanmışdı. O, doğma Azərbaycanı kəndbəkənd gəzərək, toy və bayram şənliklərində mahnılar oxumuş, dastanlar söyləmiş və aşıqlarla deyişmişdir. Ədəbi yaradıcılığının böyük bir hissəsini məhəbbət mövzusuna həsr etmiş Aşıq Ələsgər aşıq poeziyasının qoşma, müxəmməs, gəraylı, təcnis, ustadnamə, deyişmə və b. janrlarında dəyərli sənət nümunələri yaratmışdır. Onlar üslub və dilin səlisliyi, təsvir vasitələrinin orijinallığı və rəngarəngliyi ilə fərqlənirlər.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı çoxcəhətliliyi ilə fərqlənirdi. Bu dövrün ədəbiyyatında tənqidi realizm aparıcı istiqamətə çevrilmişdi. Bu milli şüurun oyanması, xalq kütlələrinin azadlıq istəyi və inqilabi əhval-ruhiyyənin yüksəlməsi ilə bağlı idi.

Bu dövrdə C. Məmmədquluzadə "Usta Zeynal", "Poçt qutusu", Qurbanəli bəy", "İranda hürriyyət" və b. hekayə və novellalarında köhnə dünyanı, Qərb imperializmini və Şərq despotizmini kəskin satira atəşinə tuturdu. Bu əsərlər ədəbiyyatımızın qızıl fonduna düşmüşdür. O, 1917-ci ildə yazdığı "Cümhuriyyət" əsərində xalq hakimiyyətinin tələblərini irəli sürmüş, 1919-cu ildə yazdığı "Anamın kitabı" pyesində isə xalqımızda milli qürur hissi tərbiyə etməyə çalışmışdır. Mütəfəkkir yazıçı və gözəl publisist olan C.Məmmədquluzadə

XX əsrin əvvəllərində Şərqin ən görkəmli şəxsiyyətlərindən biri idi.

XX əsrin əvvəllərinin ədəbiyyatının dahi şəxsiyyəti, realist ədəbiyyatın görkəmli siması Mirzə Ələkbər Sabir olmuşdur. Ədəbiyyatın yeni istiqamətinin, yeni janrının inkişafında müstəsna rol oynamış M.Ə.Sabir şeirləri xalqın istək və arzularını, azadlıq ideyalarını tərənnüm edən realist xalq poeziyasıdır.

XX əsrin başlanğıcında Azərbaycan ədəbiyyatının inkişafında N.Nərimanov, Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ə.Nəzmi, C.Cabbarlı, S.M.Qənizadə, Y.V.Çəmənzəminli, C.Hacıbəyli, Seyid Hüseyn, Ə.Hüseynzadə, M.Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq, Abdulla bəy Divanbəyoğlu və Əhməd Cavadın əsərlərinin müstəsna rolu olmuşdur.

**20.3. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində mədəni-maarif işi və mətbuat.** XIX əsrin ikinci yarısında Azərbaycanda savadlılığın səviyyəsinin yüksəlməsilə əlaqədar kitabxana və qiraətxanalara ehtiyac hiss edilməyə başladı. Dövlət məktəblərinin nəzdindəki kitabxanalarla yanaşı ictimai və özəl kitabxanalar da açıldı. İlk kütləvi kitabxanalar 1859-cu ildə Şamaxı və Şuşada, 1868-ci ildə Gəncədə, XIX əsrin 80-ci illərindən başlayaraq Bakı, Lənkəran, Quba və Salyanda təşkil edildi.

Azərbaycanda mövcud olan kitabxanalar şəbəkəsi 1894-cü ilədək, demək olar ki, yalnız rus dilini bilən oxuculara xidmət edirdi. 1894-cü ildə Bakıda Nəriman Nərimanov tərəfindən S.Vəlibəyov, H.Mahmudbəyov, S.Qənizadə, Ə.Cəfərzadə və Ə.Axundovun yaxından iştirakı ilə təşkil edilən ilk Azərbaycan qiraətxanası ölkənin mədəni həyatında çox mühüm rol oynadı. Xalq arasında "Nərimanov qiraətxanası" adını almış bu kitabxananın kitab fondu müxtəlif dillərdə olan ədəbiyyatdan ibarət idi. Onun oxucuları da müxtəlif millətlərdən idi. 1897-ci ildə qiraətxananın 25849 oxucusundan 8679 nəfəri azərbaycanlı oxucu idi. Lakin Bakı





qubernatorunun hökmü ilə 1898-ci ildə "Nərimanov qiraətxanası" "ziyankar" fəaliyyətinə görə bağlandı.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanın mədəni həyatının ən mühüm hadisələrindən biri Azərbaycan dilində dövri mətbuatın nəşri olmuşdur. Azərbaycanda ilk milli dilli mətbuat Həsən bəy Zərdabi tərəfindən yaradılmış "Əkinçi" qəzeti oldu. "Əkinçi" qəzetinin ilk nömrəsi Bakıda 1875-ci il iyunun 22-də çıxdı. "Əkinçi" qəzeti 1877-ci ilin sentyabrında Rusiya ilə Türkiyə arasında gedən müharibə ilə bağlı olaraq, guya qəzetdə siyasi xarakterli məqalələr dərc edilməsi bəhanəsi ilə hökumət tərəfindən bağlandı.

"Əkinçi"nin nəşri dayandırıldıqdan iki il sonra Tiflisdə Azərbaycan dilində "Ziya" qəzeti çıxmağa başladı. Onun birinci nömrəsi 1879-cu ilin yanvarın 16-da çıxdı. 1880-ci il dekabrın 6-dan qəzet "Ziyayi-Qafqaziyyə" adı altında çıxmağa davam etdi və 1884-cü il iyunun 1-də bağlandı. 1880-ci ildə Tiflisdə Cəlal Ünsizadə tərəfindən "Kəşkül" adlı qəzet nəşr olunmağa başladı və 1891-ci ilədək nəşr edildi. XIX əsrin 80-90-cı illərində Bakıda rus dilində də mətbuat orqanları çıxırdı. Onların arasında 1881-ci ilin yanvarından çıxan "Kaspi" qəzeti öz həcminə, səviyyəsinə və əhəmiyyətinə görə fərqlənirdi.

XX əsrin əvvəllərində mətbuat Azərbaycanın ictimai-siyasi və mədəni həyatını əks etdirir, birinci Rusiya inqilabının təsiri altında mütləqiyyəti, onun polis-jandarma sistemini, çarizmin milli zülmünü və müstəmləkəçilik siyasətini tənqid atəşinə tutur, zəhmətkeş kütlələrinin ağır iş şəraitindən və güzəranından bəhs edir, ona biganə qalmırdı. Mətbuat və ədəbiyyat nümayəndələri ölkənin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrə, Rusiyanın gələcək dövlət quruluşu və s. məsələlərə müxtəlif mövqelərdən yanaşırdılar. Mətbuat və ədəbiyyatda rus çarizminin və Qərb dövlətlərinin işğalçılıq planlarının, həmçinin İran və Türkiyə mütləqiyyət quruluşlarının tənqidinə də geniş yer verilirdi.

XX əsrin əvvəllərində "Şərqi-Rus" qəzeti ilə azərbaycanlı jurnalistlərin, publisistlərin və ədəbiyyatşünasların yeni nəslinin formalaşması başlandı. Qəzetlərin səhifələrində C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Ağayev, F.Köçərli, A.Səhhət, M.S.Ordubadi, Əli Nəzmi (Məmmədzadə), M.A.Şahtaxtinski, Ö.F.Nemanzadə, Ə.Qəmküsar, M.Ə.Rəsulzadə, Hüseyn Cavid (Rəsizadə) və b. ana dilində nəşr olunurdular. 1904-cü ilin oktyabrından 1905-ci ilin fevralınadək çıxmış "Hümmət" qəzetində M.Ə.Rəsulzadə, S.M.Əfəndiyev və Seyid Musəvi ədəbi və publisist fəaliyyətə başladılar. Milli mətbuatın inkişafında 1905-ci il iyunun 7-dən 1906-cı ilin sentyabrın 3- dək çıxan "Həyat" qəzeti, 1905-1907-ci illərdə nəşr olunan "İrşad" qəzeti və "Füyuzat" jurnalı mühüm rol oynamışlar. Mətbuat sahəsində bu dövrün ən önəmli hadisələrindən biri 1906-cı il aprelin 1-dən Tiflisdə "Molla Nəsrəddin" satirik jurnalının nəşri olmuşdur. "Həyat"ın səhifələrində Ə.Hüseynzadə, H.Zərdabi və N.Nərimanovun publisistikası, "İrşad"da Ə. Ağayev və Ü.Hacıbəylinin dərin məzmunlu, kəsərlı yazıları, "Füyuzat"da Ə.Hüseynzadənin ədəbi tənqid məqalələri, "Molla Nəsrəddin"də isə C.Məmmədquluzadənin satirası xüsusilə seçilirdi. "Molla Nəsrəddin"in ardınca onun təsiri altında 1907-1917-ci illərdə "Arı", "Tuti", "Zənbur", "Bəhlul", "Məzəli" və "Babayi-Əmir" satirik jurnalları nəşrə başladı.

XX əsrin əvvəlləri Azərbaycanda partiya mətbuat orqanlarının çıxması ilə də əlamətdar olmuşdur. "Hümməf"in ardınca "Təkamül", "Dəvət-Qoç", "Yoldaş", "Bakı həyatı", "Təzə həyat", "Tərəqqi", "İttifaq", "Həqiqət", "İqbal" və b. partiyalı qəzetlər nəşr edilir. "Müsavat" partiyasının orqanı "Açıq söz" (1905-1918-ci illər) qəzetinin mətbuat tariximizdə xüsusi yeri vardır.

Azərbaycan publisistləri və yazıçıları rus dilində çıxan mətbuat orqanlarında da fəal iştirak edirdilər. Bu onların öz maarifçi dünyagörüşlərini, demokratik ideyalarını təbliğ etmək,





dünya ictimaiyyətini milli ədəbiyyatımızla tanış etmək üçün ələ düşmüş bütün imkanlardan istifadə etmək arzusundan irəli gəlirdi. Bu səpkidə Qafqazda həcmcə ən böyük, ən kütləvi və ən təsirli mətbuat orqanı olan, həftədə yeddi dəfə, yəni istirahət günü olmadan, rus dilində çıxan "Kaspi" qəzetinin rolunu xüsusi qeyd etmək lazımdır. Görkəmli milyoner və mesenat H.Z.Tağıyevin maliyyə vəsaiti ilə nəşr olunan "Kaspi" qəzetində Ə.Ağayev, H.Zərdabi, M.A.Şahtaxtinski, M.Ə.Topçubaşov və M.Ə.Rəsulzadə fəal çıxış edirdilər. Ə.Ağayev 1898-1905-ci illərdə "Kaspi" qəzetində dərc olunan beynəlxalq icmalların və tənqidi-biblioqrafik materialların çoxunun müəllifi idi. M.Ə.Topçubaşovun böyük publisist istedadı da özünü bu qəzetdə göstərmişdi. O, 1917-ci ildə Ə.Ağayev və M.Ə.Rəsulzadə ilə bərabər "Kaspi" qəzetinin üç baş redaktorundan biri idi.

**20.4. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda teatr, incəsənət və memarlıq.** XIX əsrin birinci yarısında Azərbaycan incəsənətinin musiqi, təsviri və tətbiqi sənət sahələri, memarlıq inkişaf etmiş, milli teatrın yaradılması yollarında ilk addımlar atılmışdır.

Bu dövrdə aşıq yaradıcılığı ilə üzvi surətdə bağlı olan aşıq musiqisi və musiqili folklor daha çox inkişaf etmişdir. Müğənni-aşıq və çalğıçı-balabançıdan ibarət olan aşıq ansamblları xalq kütlələri arasında böyük şöhrət tapmışdı.

XIX əsrin birinci yarısında Azərbaycan xalq kukla teatrlarının tamaşaları geniş yayılmışdı. Bu tamaşalar arasında "Kilimarası" və "Maral oyunu" tamaşaları xüsusilə fərqlənirdi. Azərbaycanda sözün əsl mənasında ilk teatr tamaşaları 1848-ci ildə Şuşada, 1850-ci ildə Lənkəranda təşkil edilmişdir.

XIX əsrin birinci yarısında Şimali Azərbaycanda təsviri sənətdə realist meyllər güclü idi. Bu meyllər dövrün görkəmli rəssamı Mirzə Qədim İrəvaninin əsərlərində öz əksini tapmışdı. M.Q.İrəvaninin yaradıcılığının ilkin mərhələsi əsasən onun tətbiqi dekorativ sənət sahələrindəki işləri ilə səciyyələnir.

Rəssam ipək parçalar və qızıl saplarla güləbətin işi, həmçinin divar rəsmləri üçün çoxlu şəkil və qəliblər çəkib hazırlamışdı.

Bu dövrdə miniatür rəssamlığının ən yaxşı nümunəsi Məhəmməd Rza İrəvaninin çəkdiyi "Şikəstin sağalması" əsəridir. (Sankt-Peterburq Dövlət Ermitajında saxlanılır). Kitab xəttatlığı və rəssamlığı sənətinin ən gözəl nümunəsi isə 1809-cu ildə hazırlanmış "Kəlilə və Dimnə"nin əlyazmasıdır. Muğanlı rəssam Əvəz Əlinin tərtib etdiyi bu kitabda 115 şəkil sadəlövh folklor xarakteri daşısa da, bütünlükdə arxaik olan surətlərin bəzi fiqurları ifadəlidir. Dekorativ rəssamlığın digər nümayəndəsi qarabağlı rəssam Qəmbər 1848-1851-ci illərdə "Şəki xan sarayı" təmir edilərkən onun divar şəkillərini çəkmişdir.

İrəvan sərdarının sarayındakı salonların divarları və Təbriz bəylərbəyi sarayının divarları zəngin naxışlarla və süjetli kompozisiyalarla bəzədilmişdi. İrəvan sərdarının sarayındakı rəsmlər arasında "Şahnamə" qəhrəmanı Rüstəm zalın əfsanəvi qəhrəmanlığını əks etdirən süjetli kompozisiyalar, Fətəli şahın, Abbas Mirzənin və İrəvan xanı Hüseynqulunun ayaq üstə portretləri çəkilmişdir. Təbrizdəki sarayın divarları güzgülərlə, naxışlarla və döyüş səhnələri təsvir edilmiş süjetli kompozisiyalarla bəzədilmişdir. Burada "Torpaqqala qəsrinin alınması" adlı kompozisiya, Şah İsmayılın və Nadir şahın portretləri xüsusilə fərqlənirlər.

XIX əsrin birinci yarısında monumental memarlıq tənəzzül etsə də xalq memarlığı və rus şəhərsalma mədəniyyətindən bəhrələnmə özünü göstərirdi. Şəhərsalma sahəsində Bakı, Şəki və Şuşa şəhərlərində xeyli işlər görülmüşdü. 1810-cu ildə Bakının İçərişəhərində ilk dəfə nümunəvi mənzil tikintisi rayonu meydana gəldi. İçərişəhərdə iki və üçmərtəbəli yaşayış evləri tikildi, həm də Azərbaycanın ənənəvi feodal şəhərlərindən fərqli olaraq yaşayış evlərinin əsas fəsadları pəncərələrlə birlikdə küçəyə baxırdı. Yaşayış evlərinin istilik sisteminin təşkilini də mühüm yenilik hesab etmək olar. Buxarı qurğusu əvəzinə tüstüçəkəni olan divar sobalarının meydana





gəlməsi mənzillərin daha yaxşı qızdırılmasına imkan verirdi. XIX əsrin birinci yarısında memarlıq sahəsində müəyyən yeniliklər olsa da, bu dövr tikintilərinin əksəriyyəti bir çox cəhətdən Azərbaycan memarlığının incilərindən geridə qalırdı.

XIX əsrin ikinci yarısında milli mədəniyyətin ümumi yüksəlişi zəminində incəsənət yeni formalarda inkişaf edir, öz tətbiqini divar boyakarlığında, kitab illüstrasiyalarında, təsviri sənət əsərlərində, xalçaçılıqda, daş üzərində oymalarda, üzərində insan və heyvan təsvirləri və məişət əşyalarının təsvirləri olan qəbir daşlarında tapırdı. Təsviri sənətdə orta əsr miniatür sənətinin bəzi ənənələri saxlanmaqda realist incəsənətin müəyyən təsiri özünü göstərirdi.

Yeni realist meyllər yaranmaqda olan portret janrında aydın müşahidə edilirdi. XIX əsrin ikinci yarısında da bu sahənin aparıcı sənətkarı Mirzə Qədim İrəvani olmuşdur. 50-ci illərdə o, İrəvan xan sarayının güzgülü salonunda divar şəkillərinin çəkilməsində iştirak edərək 4 iri portret yaradır. Onun portretlərində konkret adamların obrazları canlandırılırdı.

Bu dövrün realist rəssamlığının digər nümayəndəsi Mir Möhsün Nəvvabın (1833-1918) əsərləri gerçəkliyin zərif cizgilərlə ifadəsi ilə fərqlənir. Nəvvab xəttat və nəqqaşçı-rəssam kimi öz əsərlərinin üzünü köçürür, onların bədii tərtibini verir və onlara illüstrasiyalar çəkirdi. Onun "Quş", "Güllər" və b. dəzgah əsərləri rəsmlərin incəliyi və təsvirlərin dolğunluğu ilə fərqlənir.

Məşhur Azərbaycan şairəsi Xurşud Banu Natəvanın rəsmlərində də realizm əlamətləri müşahidə edilir. Onun şeirlərinin əlyazmalarından ibarət albomunda 80-ə yaxın rəsm qorunub saxlanmışdır. Onlardan "Bülbül və qızıl gül", "Şam və pərvanə" və b. rəsmlər lirik şeirlərə çəkilmiş illüstrasiyalardır. Onun "Şəhərin görünüşü" və "Dəniz peyzajı" mənzərə rəsmləri öz üslubuna görə qeyri-adi və orijinaldır.

Azərbaycanda milli teatrın əsasının qoyulması xalqımızın mənəvi həyatında mühüm hadisə hesab edilə bilər. Qeyd

etdiyimiz kimi hələ 1848-ci ildə Şuşada və 1850- ci ildə Lənkəranda ilk teatr tamaşaları təşkil edilmişdi. 1857-ci ildə Şamaxıda da teatr tamaşası təşkil olundu. M.F.Axundzadənin məşhur komediyalarının rus səhnəsində tamaşaya qoyulmasının Azərbaycan teatr sənəti üçün mühüm əhəmiyyəti oldu. 1852-ci ildə Tiflisdə rus teatrı M.F.Axundzadənin "Xırs quldurbasan" pyesini tamaşaya qoymuşdu. Onun "Hekayəti Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukuni məşhur" komediyası isə Peterburqda ev tamaşalarından birində oynanılmışdı.

1873-cü il martın 10-da (23-də) Bakıda realnı məktəbin səhnəsində M.F.Axundzadənin "Lənkəran xanının vəziri" pyesinin tamaşaya qoyulması Azərbaycan milli teatrının əsasının qoyulması kimi tarixə düşmüşdür. Bu tamaşanın təşəbbüskarları realnı məktəbin müəllimi H.Zərdabi və onun şagirdi N.Vəzirov olmuşlar. Rollarda məktəbin şagirdləri oynayırdılar. Həmin il aprelin 17- də isə ikinci tamaşa - M.F.Axundzadənin "Hacı Qara" komediyası oynanıldı. Bunlar bütün müsəlman Şərqində, türk dünyasında ilk teatr tamaşaları idi. l883-cü ildə Bakı teatr həvəskarları qrupu peşəkar qrupa cevrildi. Həmin ildə Azərbaycan xalqının böyük mesenatı H.Z.Tağıyev teatr binası tikdirdi. (İndiki Musiqili Komediya Teatrın binası). Qısa müddətdə Bakıda bir çox istedadlı teatr xadimləri - Cahangir Zeynalov, Həbib bəy Mahmudov, Nəcəfqulu Vəliyev və b. yetişdi. Bakı qrupunun ilk tamaşaları sonralar bütün Azərbaycanda teatr sənətinin inkişafına güclü təkan verdi. 1875-ci ildə Qubada, 1879-cu ildə Şəkidə, 1882-ci ildə Şuşada, 1883-cü ildə Naxçıvanda, 1886-cı ildə İrəvanda, 1899-cu ildə Gəncədə və digər şəhərlərdə teatr qrupları yaranır və teatr tamaşaları təşkil olunur.

XIX əsrin ikinci yarısı Azərbaycan musiqi sənətinin daha da inkişaf etməsi ilə əlamətdar olmuşdur. Bu dövrdə yaradılmış ilk musiqi məktəbləri ifaçıların yetişməsində və musiqi mədəniyyətinin inkişafında böyük rol oynadılar. İlk musiqi





məktəbləri Şuşada Xarratqulu, İbrahim və Kor Xəlifə tərəfindən təşkil olunmuşdular.

XIX əsrin sonunda musiqi nəzəriyyəsi və tarixi üzrə əsərlərin yazılmasına da cəhdlər göstərilirdi. Həvəskar musiqiçi Əliverdibəyov uzun illər boyu topladığı materiallar əsasında 1896-cı ildə "Rəsmli musiqi tarixi" adlı Azərbaycan musiqi tarixini yazdı. Şair, rəssam və musiqiçi M.M.Nəvvab musiqi üzrə tədqiqatlarla da məşğul olurdu. Nəvvab "Musiqi sənəti" adlı kitab yazmış və kitabda muğamların yaranma və ifaetmə qanunlarını izah etmişdi.

XIX əsrin II yarısında Azərbaycanda memarlığın inkişafı bir tərəfdən Bakı şəhərinin inkişaf edib Rusiyanın iri sənaye şəhərlərindən birinə çevrilməsi, digər tərəfdən qədim şəhərlərin ləng inkişafının davam etməsi ilə səciyyələnirdi. Bu dövrdə Azərbaycanda şəhərsalma və memarlığın inkişafının başlıca xüsusiyyətlərindən biri tikintidə plan-kompozisiya və bədii memarlıq ünsürlərindən istifadə olunması idi. Bu yeniliklər binaların fasadlarının xüsusi bəzəyində, eyvanlar, küçədən giriş qapıları, ikitaxtlı pilləkanlar və s. quruluşlarda nəzərə çarpırdı. Bakının tikintiləri kapitalist şəhərinə məxsus olan bütün ziddiyyətləri əks etdirərək, güclü təzadlarla fərqlənirdi.

XIX əsri sonlarında Abşeronun kurort zonasına çevrilmiş Mərdəkanda çoxlu villalar və yaylaq evləri tikildi. 90-cı illərdə Mərdəkanda tikilmiş Bakı sənayeçisi Muxtarovun villası Bakı varlılarının şəhərkənarı bağ tikintilərinin başlanğıcını qoydu. 1897-1901-ci illərdə Abşeronda Nobelin və Əsədullayevin villaları da tikildi. Mərdəkanda tikilmiş ilk villa olan Muxtarovun bağının sahəsi 8 hektar idi. (İndi Azərbaycan MEA Dendaroloji parkıdır). Nobelin villası tikilən bağın sahəsi 10 hektar idi. Muxtarovun villası ilə yanaşı tikilmiş Əsədullayevin villası yerləşən bağın sahəsi 15 hektar idi. Əsədullayevin villası Bakı bağlarında o zaman mövcud olan bütün villalardan üstün idi. Memarlar təbii şəraiti nəzərə almaqla park memarlığının funksional məsələlərini müxtəlif

üsullarla həll etmişdilər. Villa bir üzü parka, digər üzü isə dənizə baxan ikimərtəbəli və üçmərtəbəli iki binadan ibarət idi. Gözəl parkı, hovuzu və xiyabanları olan geniş villa ərazisinin memarlıq plan quruluşunda Abşeronun ənənəvi yaylaq evlərindən məharətlə istifadə edilmişdi.

Bakının yeni kapitalist şəhəri hissəsinin formalaşmasında görkəmli Azərbaycan memarı Qasım bəy Hacıbababəyovun (1811-1877) böyük rolu olmuşdur. O, İçərişəhərdən kənardakı tikintilərin əsas hissələrindən birini təşkil edən Parapet adlı mərkəzi meydanın tikintisini həyata keçirmişdir. O, 1863-cü ildə həmin meydanda böyük karvansara binasını (sonralar "Araz" kinosu olan bina) layihələşdirmiş və tikdirmişdir. Layihənin qrafik işlərini isə onun köməkçisi, sonralar Bakının ən görkəmli memarı olan Məşədi Mirzə Qafar İsmayılov görmüşdü. İsmayılov 30 il ərzində Bakıda binaların layihələşdirilməsi və tikinti ilə məşğul olmuşdur.

XIX əsrin sonlarında Bakıda inzibati-ictimai binaların tikilməsi üçün nəzərdə tutulan Nikolayev (indiki İstiqlaliyyət) küçəsinin layihəsi hazırlanır və 1898-ci ildə H.Z.Tağıyev memar İ.V.Qoşlavskinin layihəsi ilə həmin küçədə ilk binanı - xüsusi müsəlman qız məktəbinin binasını (indiki Azərbaycan MEA Əlyazmalar İnstitutunun binası) tikdirdi. 80-90-cı illərdə Bakıda bir sıra memarlıq nümunələri, inciləri olan binalar - dövlət bankının, dəmiryol vağzalının Deburun evi (indiki R.Mustafayev adına İncəsənət Muzeyi) inşa edilmişdir.

Memarlıq abidələrinin bərpası üzrə də xeyli iş görülmüşdü. Hələ 50-ci illərdə "Şəki xan sarayı"nın bərpası başa çatdırılmışdı. 60-70-ci illərdə Bakının qala divarları rayonunda bərpa işləri aparılmışdı. Lakin bu zaman şəhərin bir sıra memarlıq abidələrinin dağıdılmasına yol verilmişdi. Məsələn, 1865-ci ildə sahil boyunca qala divarların bir hissəsinin dağıdılması hesabına bulvar salınmağa başlanmış, bu divarların daşlarından isə şəhərdə binalar tikintisində istifadə edilmişdir.





XX əsrin əvvəlləri Azərbaycan incəsənəti və memarlığının inkişafında da xüsusi mərhələ təşkil edir. XX əsrin əvvəllərində Bakıda M.Nağıyevin "İsmailiyyə" binasının H.Z.Tağıyev və M.Muxtarovun saraylarının tikilməsi yeni mərhələni səciyyələndirən memarlıq incilərindəndirlər. Bakı şəhər Dumasının, Opera və Balet Teatrının gözəl tərtibatlı binaları, "Təzə pir" məscidi, polyak katolik kilsəsi, yəhudi sinaqoqu, Tağıyevin qız məktəbi, Realnı gimnaziya, "Səadət" məktəbi və b. binalar şəhərin yaraşığı oldular.

Ticarət, maliyyə, səhiyyə və xidmət sahələrinin binaları sırasında Tiflis kommersiya bankı, Olginsk ticarət cərgəsi M.Nağıyevin xəstəxanası və onun "Yeni Avropa" mehmanxanası, bazar-passaj binalarını xüsusi qeyd etmək olar.

XX əsrin əvvəllərində Bakının istedadlı memarlarından 1902-ci ildə Peterburq Mülki Mühəndislər İnstitutunu bitirmiş ilk azərbaycanlı mühəndis - memar Zivər bəy Əhmədbəyovun xidmətini qeyd etmək lazımdır. "Təzə pir" məscidi onun əsəridir. Milli memarlıq məktəbinin nümayəndəsi məşədi Qafar İsmayılovun tikdirdiyi binalar Bakının milli memarlıq abidələridir. Bakıdakı möhtəşəm binaların çoxu İmran Hacıqasımov tərəfindən inşa edilmişdir. Z.Əhmədbəyovun layihəsi ilə Bakıda Əjdər bəy məscidi, Göyçayda məscid (1906) tikilmişdir. Z.Əhmədbəyovun memar Ploşko ilə birlikdə Şamaxıda tikdiyi (1909-1918) "Cümə məscidi" gözəl memarlıq abidəsi idi.

Azərbaycanın Gəncə, Şəki, Lənkəran və b. şəhərlərində də unikal memarlıq abidələri olan binalar tikilmişdir. 1911-ci ildə keçmiş xanların nəslindən olan Mirəhməd xanın arvadı Tuğra xanımın Lənkəran şəhərində tikdirdiyi ev Avropa memarlığı üslubunda tikilmişdir. Hazırda "Xan evi" adı ilə tanınan həmin bina nadir memarlıq abidəsi kimi şəhərə yaraşıq verir. (İndi tarix-diyarşünaslıq muzeyidir)

XX əsrin başlanğıcında milli teatr sənəti də özünün yüksək inkişaf mərhələsinə qədəm qoyur. Daimi teatr truppaları

yaradılır. Belə truppalardan biri "Müsəlman dram artistlərinin cəmiyyəti" adlanırdı. Onun başçısı və rejissoru Ə.Haqverdiyev idi. "Balaxanı dram dərnəyi"nin rejissoru isə H.Ərəblinski idi. Milli teatr sənətinin inkişafında maarif cəmiyyətləri "Nicat" və "Səfa" mühüm rolu olmuşdur. "Nicat" cəmiyyətinin nəzdindəki teatr bölməsinə aktyor Mehdi bəy Hacınski, "Səfa" cəmiyyətinin nəzdindəki teatr qrupuna aktyor Cahangir Zeynalov başçılıq edirdi.

XX əsrin əvvəllərində ilk peşəkar aktyor birlikləri yaranmağa başladı. 1916-cı ildə yaradılmış "Müsəlman dram cəmiyyəti" Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Mir Mahmud Kazımovski, Mehdi bəy Hacınski, Muxtar Məlikov, Sidqi Ruhulla, Abbas Mirzə Şərifzadə və b. istedadlı aktyorların peşəkarlığının yüksəldilməsində əhəmiyyətli rol oynamışdır. Teatr tarixində milli səhnəmizin ilk peşəkar aktyoru H.Ərəblinskinin xüsusi yeri var. Qərbi Avropa klassikləri Molyer, Şiller, Höyne və Volterin qəhrəmanları ilə Azərbaycan tamaşaçısını ilk dəfə H.Ərəblinski tanış etmişdir. O, həm də istedadlı rejissor və teatr təşkilatçısı idi. H.Ərəblinski 1916-cı ildə nümayiş etdirilmiş "Neft və milyonlar səltənətində" adlı ilk Azərbaycan filminin yaradılmasında fəal iştirak etmişdir.

Azərbaycan mədəniyyət xadimləri teatra xalqın maariflǝndirilməsində qüdrətli vasitə kimi baxırdılar. Azərbaycanın Şuşa, Gəncə, Şəki, Şamaxı, Naxçıvan, İrəvan, Lənkəran, Quba və b. şəhərlərində teatr həyatı canlanmış, yaradıcı kollektivlərin səhnəyə qoyduqları pyeslərin sayı xeyli artmışdı. 1904-cü ildə Şekspirin "Otello"su ilk dəfə Şuşada səhnəyə qoyulmuşdu.

XX əsrin əvvəli Azərbaycanda musiqi sənətinin inkişafında da xüsusi mərhələni təşkil edir. Bu dövrdə Qazax, Gəncə, Tovuz, Şəmkir, Borçalı və Göycə bölgələrində aşıq musiqisi geniş yayılmışdı. Göycədə Azərbaycan aşıqlarının bütöv bir nəsli yetişmişdi.





Azərbaycan xalq musiqisinin yaradıcı şəkildə inkişaf etdirilməsində və təbliğində xanəndələrin rolunu da qeyd etməmək olmaz. Xanəndələrin arasında Cabbar Qaryağdıoğlu, İslam Abdullayev, Keçəçi Məhəmməd, Məcid Behbudov, Məşədi Cəmil Əmirov, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski, bakılı Seyid Mirbabayev, şəkili Ələskər Abdullayev, şamaxılı Mirzə Məhəmmədhəsən və b. çox məşhur idilər. Xalq musiqisi xəzinəsinə Hüseynqulu Sarabskinin və Qurban Pirimovun öz töhfələri olmuşdur. İranda və Qafqazda məşhur olan xanəndələrdən biri də Cənubi Azərbaycan torpağının yetişdirilməsi Əbdülhəsən xan Azər olmuşdur.

Xanəndə sənəti yeni keyfiyyət qazanmağa, toy şənlikləri tədbirlərindən kənara çıxaraq, teatr və konsert salonlarına yol açdı. Xalq musiqisini ilk dəfə səhnəyə çıxaran Ə.Haqverdiyev olmuşdur. O, 1897-ci ildə Şuşada yerli həvəskarların iştirakı ilə Füzulinin "Leyli və Məcnun", 1902-ci ildə isə Nizaminin "Xosrov və Şirin" poemalarını səhnələşdirmişdir. Hər iki tamaşada baş rolda Cabbar Qaryağdıoğlu çıxış etmişdi. "Şərq konserti" adı ilə yeni konsert növü ilk dəfə 1901-ci ildə Şuşada, daha sonra isə 1902-ci ildə Bakıda təşkil olundu. Ə.Haqverdiyevin hazırladığı hər iki konsertdə C.Qaryağdıoğlu başda olmaqla muğam üçlüyü muğam və xalq mahnıları, rəqsləri, aşıq melodiyaları ifa etmiş, səhnələşdirilmiş musiqi əsərləri göstərmişlər.

XX əsrin başlanğıcı Azərbaycan operasının yaranması ilə də mədəniyyət tariximizdə xüsusi mərhələni təşkil edir. Milli operamızın meydana çıxması bütün müsəlman Şərqində və türk dünyasında çox böyük tarixi mədəni hadisə olmuşdur. Onun yaradıcısı dünyanın ən böyük bəstəkarlarından biri olan dahi Ü.Hacıbəyli Füzulinin "Leyli və Məcnun" poeması əsasında muğam operası yaratmağa müvəffəq olmuşdur. "Leyli və Məcnun" operasının ilk tamaşası 1908-ci il yanvarın 2-də göstərilmişdi. Operanın tamaşasında orkestrə dirijorluq Ə.Haqverdiyev etmişdir, tarda isə Q.Pirimov və Ş.Salyanski

müşayiət etmişlər. Məcnun rolunun ilk ifaçısı Hüseynqulu Sarabski olmuşdur. "Leyli və Məcnun"dan sonra Ü.Hacıbəyli 1909-1916-cı illərdə beş opera və üç musiqili komediya yaratmışdır. Onların içərisində "Əsli və Kərəm" operası, "O olmasın bu olsun" və "Arşın mal alan" operettalarının tamaşaları da uğurlu olmuşdur. Bu tamaşalara rejissorluğu H.Ərəblinski etmişdir.

Ü.Hacıbəylinin qardaşı Zülfüqar Hacıbəyli 1917-ci ilə qədər bir neçə opera və operetta yaratmışdır. Üzeyir bəyin bacanağı M.Maqomayevin (baba) 1916-cı ildə tamaşaya qoyulmuş "Şah İsmayıl" operası isə Azərbaycan opera sənətinin qızıl fonduna düşmüşdür.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi. 7 cilddə, 4-cü cild, Bakı, 2000, s. 127-161,
   321-380; 5-ci cild Bakı, 2001, s. 192-267, 489-504.
2. H.Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, 1999.
3. İ.Cəbrayılov. Azərbaycan tarixi. s. 388-391, 404-406.
4. Y.Qarayev. Azərbaycan ədəbiyyatı XIX və XX yüzilliklərdə. Bakı, 2002.
5. İ.Rəhimli. Azərbaycan teatr tarixi. Bakı, 2005.






# XXI FƏSİL

## AZƏRBAYCAN SSR XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ

**21.1. Azərbaycan SSR-in yaradılması və Azərbaycanın ilk Konstitusiyasının qəbulu.** 1920-ci il aprelin 28-də Azərbaycan İnqilab Komitəsi bütün hakimiyyəti ələ alaraq Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığını elan etdi. Müvəqqəti İnqilab Komitəsi Azərbaycan sovet hökumətini - Xalq Komissarları Sovetini təşkil etdi. Azərbaycan sovet hökumətinin ilk tərkibi aşağıdakılardan ibarət idi: N.Nərimanov - XKS-nin sədri və xalq xarici işlər komissarı, Ç.İldırım - xalq hərbi və dəniz işləri komissarı, H.Sultanov - xalq daxili işlər komissarı, Ə.Qarayev - xalq əmək və ədliyyə komissarı, Q.Musabəyov - xalq əkinçilimk, sənaye, ticarət və ərzaq komissarı, M.D.Hüseynov - xalq maliyyə komissarı, D.Bünyadzadə - xalq maarif və dövlət nəzarəti komissarı, C.Vəzirov - xalq poçt, teleqraf və yollar komissarı və A.Əlimov - xalq səhiyyə və himayə komissarı.

Aprelin 29-da Gəncə qubernatoru bütün Gəncə quberniyasında hakimiyyətin sovet hökumətinə təhvil verilməsi haqqında aktı imzaladı və hərbi hissələr Gəncə inqilab komitəsinin sərəncamına verildi. Aprelin 29-da Lənkəran hərbi inqilab komitəsi də hakimiyyəti əlinə aldı. Aprelin 29-30-da Şamaxı, Cavad, Salyan, Şuşa, Zaqatala, Cavanşir, Şəmkir, Gədəbəy qəzalarında da inqilab komitələri hakimiyyəti ələ aldılar.

Aprelin 30-da Sovet Rusiyasının XI Qızıl Ordusu ilə S.Orcenikidze və S.Kirov Bakıya gəldilər. S.Orcenikidze PK

(b) P Mərkəzi Komitəsi Qafqaz Bürosunun sədri, S.Kirov isə Azərbaycan KP MK-nın birinci katibi oldular. Qafqazda bütün hakimiyyət, sonralar Tiflisə gedən S.Orcenikidzenin, Azərbaycanda isə faktiki olaraq S.Kirovun əlinə keçdi. Çünki sovet siyasi quruluşuna görə faktiki hakimiyyət kommunist partiyasına məxsus idi, partiyanın rəhbəri dövlətin başçısı hesab edilirdi.

1920-ci ilin ortalarına qədər XI Qızıl Ordunun fəal iştirakı ilə, Naxçıvan istisna olmaqla, bütün Azərbaycanda sovet hakimiyyəti quruldu. 1920-ci il iyulun 28-də Naxçıvanda da sovet hakimiyyəti quruldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi. 1921-ci il martın 16-da isə Sovet Rusiyası ilə Osmanlı Türkiyəsi arasında Moskvada bağlanan müqaviləyə əsasən Naxçıvan Azərbaycan SSR-in tərkibində muxtar ölkəyə çevrildi. 1924-cü il fevralın 9-da isə Naxçıvan MSSR təşkil edildi.

1921-ci ilin yazınadək Azərbaycanda rəsmi hakimiyyət orqanları - mərkəzdə Azərbacan İnqilab Komitəsi və onun hökuməti, yerlərdə qəza inqilab komitələri, kəndlərdə isə yoxsul komitələrindən ibarət idi. Həmin ilin yazından isə inqilab komitələrindən və yoxsul komitələrindən fəhlə və kəndli deputatları sovetlərinə keçirilməsi ilə bağlı seçkilər başlandı. Öncə kənd və nahiyə sovetləri seçildi və yoxsul komitələri kənd sovetləri ilə əvəz edildilər. Azərbaycanda 1400 kənd soveti seçildi, onların deputatlarının sayı isə 30 minə çatırdı. Sonra qəza sovetləri və onların icraiyyə komitələri seçildi, qəza inqilab komitələri qəza sovetlərinin icraiyyə komitələri ilə əvəz edildilər.

Ümumazərbaycan Sovetlər qurultayına keçirilən seçkilərdən sonra 1921-ci il mayın 6-da I Ümumazərbaycan Sovetlər qurultayı çağırıldı və mayın 19-dək davam etdi. Qurultayda N.Nərimanovun Azərbaycan SSR hökumətinin fəaliyyəti haqqında, M.D.Hüseynovun xarici siyasət haqqında, H.Sultanovun sovet quruculuğu haqqında, D.Bünyadzadənin





maarif komissarlığının işi haqqında və b. məruzələr dinlənildi. Mayın 19-da qurultay Azərbaycanın ilk Konstitusiyası - Azərbaycan SSR-in birinci Konstitusiyasını qəbul etdi. Azərbaycanın ilk Konstitusiyası bütün Şərqdə, bütün müsəlman dünyasında ilk respublika tipli dövlətin konstitusiyası idi.

Konstitusiyaya görə respublikada ali qanunvericisi hakimiyyət Ümumazərbaycan Sovetlər qurultayına, qurultaylararası müddətdə isə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinə (MİK), ali icraedici hakimiyyət isə Azərbaycan SSR Xalq Komissarları Sovetinə məxsus idi. Azərbaycan SSR MİK-in ilk sədri M.Hacıyev, onun müavini isə S.Ağamalıoğlu seçildilər. Azərbaycan SSR XKS-nin sədri N.Nərimanov seçildi. Onun hökumətinə 17 komissar, o cümlədən, M.D.Hüseynov - xalq xarici işlər komissarı, H.Sultanov - xalq daxili işlər komissarı, M.C.Bağırov - dövlət təhlükəsizlik komitəsinin (fövqəladə komissiyanın) sədri, Ə.Qarayev - hərbi və dəniz işləri komissarı, S.M.Əfəndiyev - xalq torpaq komissarı, D.Bünyadzadə - xalq maarif komissarı və b. daxil oldu.

1921-ci il aprelin 14-də Azərbaycan, Gürcüstan və Ermənistan arasında Cənubi Qafqaz dəmir yolu idarələrinin birləşdirilməsi haqqında, iyulun 2-də isə xarici ticarət orqanlarının birləşdirilməsi haqqında sazişlər imzalandı.

1921-ci ilin iyulunda Sovet Rusiyası və Osmanlı Türkiyəsinin iştirakı ilə keçirilən Cənubi Qafqaz respublikalarının sərhəd məsələlərinə dair beynəlxalq Tiflis konfransının qərarına əsasən Borçalı və Axalsisi Gürcüstana verilir, Gürcüstan isə Qarayazını Azərbaycana verir və Azərbaycanın Zaqatala qəzasına iddiadan imtina edirdi, Azərbaycanın Dilican, Zəngəzur və Mehri qəzaları Ermənistana verilir, Ermənistan isə Türkiyənin İqdır, Qars və Ərdəhan bölgələrinə iddiadan imtina edirdi. Tiflis konfransından sonra Azərbaycan Dilican qəzasını (Göyçə mahalı), Mehri və Zəngəzur qəzalarını (Zəngəzur mahalı) Ermənistana verdi, Gürcüstan isə Qarayazını Azərbaycana qaytarmadı.

1921-ci il noyabrın 3-də PK(b) P MK Qafqaz bürosu Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR arasında federativ ittifaq bağlanması haqqında qətnamə qəbul etdi. Noyabrın sonunda isə V.Lenin "Cənubi Qafqaz respublikalarının federasiyasının yaradılması haqqında təklifin layihəsini" hazırladı. 1922-ci il fevralın 18-də Cənubi Qafqaz partiya təşkilatlarının I ölkə qurultayı Leninin hazırladığı layihəni müzakirə edərək federasiya yaradılması ideyasını bəyəndi. Martın 12-də Bakıda toplaşan Cənubi Qafqaz respublikaları sovetlərinin birləşmiş qurultayı Zaqafqaziya Sovet Sosialist Respublikalarının Federativ İttifaqının (ZSSR Fİ) yaradıldığını elan etdi. Federativ İttifaqı təşkil etmək üçün keçid hökumətinin - ZSSR Fİ İttifaq Şurasının sədri vəzifəsinə N.Nərimanov seçildi. Dekabrın 10-da Bakıda keçirilən Zaqafqaziya (Cənubi Qafqaz) birinci Sovetlər qurultayında federativ ittifaq vahid federativ respublikaya çevrildi və ZSFSR (Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası) adlandırıldı. ZSFSR-ın ali qanunverici orqanının - MİK-in həmsədrləri S.Ağamalıoğlu, M.Tsxakaya və S.Ambarsunyan, katibi isə B.Talıblı seçildilər. Ali icraedici orqan - ZSFSR XKS-nın sədri vəzifəsinə bir qədər sonra, 1923-cü il yanvarın 15-də M.Oraxelaşvili, onun müavinləri M.D.Hüseynov və A.Myasnikov seçildilər.

1922-ci il dekabrın 30-da bütün sovet respublikaları vahid dövlət şəklində birləşdirilərək SSRİ (Sovet Sosialist Respublikaları İttifaqı) yaradıldı. SSRİ həm dörd, həm də altı respublikadan ibarət idi. Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR həm ZSFSR-in tərkib hissələri kimi, həm də birbaşa ittifaq subyektləri kimi SSRİ-ə daxil edildilər. Odur ki, SSRİ dörd respublika - RSFSR, ZSFSR (Azərbaycan SSP, Gürcüstan SSR və Ermənistan SSR), Ukrayna SSR və Belorusiya SSR-in timsalında əslində 6 müttəfiq respublikanın ittifaq dövləti idi. Bu durum SSRİ-nin ali qanunverici orqanı - SSRİ MİK-nin təşkilində də öz əksini tapmışdı. Dekabrın 30-da





SSRİ-nin I Sovetlər qurultayı SSRİ MİK dörd həmsədrini və katibini seçdi. Həmsədrlər M.Kalinin (RSFSR-in təmsilçisi), N.Nərimanov (ZSFSR-in, həm də mütləq Azərbaycan SSR-in təmsilçisi), Q.Petrovski (Ukrayna SSR-in təmsilçisi) və A.Çernyakov (Belorusiya SSR-in təmsilçisi) seçildilər. SSRİ MİK-in ilk katibi A.Yenikidze (ZSFSR-in, həm də mütləq Gürcüstan SSR-in təmsilçisi) seçildi. SSRİ-nin ilk hökumətinin - XKS-nin sədri Vladimir Ulyanov (Lenin) oldu.

1923-cü il iyulun 7-də Azərbaycan torpaqlarına növbəti qəsdin əsası qoyuldu, Azərbaycan SSR ərazisində ermənilərin Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

**21.2. Azərbaycan SSR-də sosializm quruculuğu prosesi.** Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Sovet Rusiyasında həyata keçirilən "hərbi kommunizm" siyasəti burada da tətbiq olundu. Sənaye müəssisələri milliləşdirildi, kənd təsərrüfatında ərzaq sapalağı tətbiq edildi və azad ticarət qadağan edildi. Sənaye müəssisələrinin çoxu, məişət xidməti sahələrinin bir hissəsi öz fəaliyyətlərini dayandırmalı oldular. Ərzaq sapalağı siyasəti bütün kəndlilərin mənafeyi ilə toqquşurdu. Artıq 1921-ci ilin ərəfəsində kəndlilərin və fəhlələrin bir hissəsini əhatə edən narazılıq göstərirdi ki, "hərbi kommunizm" siyasəti əsasında xalq təsərrüfatını bərpa etmək və inkişaf etdirmək mümkün deyildir.

1921-ci ilin martında PK(b)P X qurultayının "hərbi kommunizm" siyasətindən yeni iqtisadi siyasətə keçilməsi haqqında qərarından sonra Azərbaycanda da ərzaq sapalağı ərzaq vergisi ilə əvəz edildi. Ərzaq vergisinin miqdarı ərzaq sapalağından az idi. Həm də kəndli bilirdi ki, ərzaq vergisini ödədikdən sonra qalan məhsul onun ixtiyarındadır və bu məhsulu azad surətdə sata bilər. Şəhərlərdə müəssisələr öz məhsullarının bir hissəsindən istədikləri kimi istifadə edə bilərdilər. Yeni iqtisadi siyasətin tətbiqi ilə torpağı icarəyə götürməyə, muzdlu əməkdən istifadə etməyə icazə verilir, sənaye müəssisələri təsərrüfat hesabına keçirilir, onların bir

çoxu kooperativlərə, şirkətlərə və xüsusi şəxslərə icarəyə, yaxud konsessiyaya verilirdi. Öz sahiblərinə qaytarılmış kiçik və kustar sənaye müəssisələri, xüsusi ticarət şəbəkələri genişlənirdi.

Yeni iqtisadi siyasətə keçidin ilk ilində Azərbaycanda kənd təsərrüfatının ağır vəziyyəti, məhsul qıtlığı və məhsul yığımında nöqsanlara yol verilməsi ilə bağlı olaraq ərzaq vergisi tətbiq edilməsi təxirə salındı. Bakı şəhərini, neftinə görə, ərzaqla təmin etməyi Sovet Rusiyası öz öhdəsinə götürmüşdü. Lakin Rusiyanın özündə də ərzaq qıtlığı hiss edilirdi, hətta 1922-ci ildə bəzi yerlərdə aclıq da baş verdi. Odur ki, 1921-ci ildə Azərbaycanda N.Nərimanov tərəfindən irəli sürülmüş ərzaq vergisi əvəzinə "çanaq" adlı könüllü natural rüsum toplanması haqqında qərar qəbul edildi. Bu rüsum kəndlilərin özlərinin müəyyən etdikləri hər təsərrüfatdan 20 girvənkə taxıldan ibarət idi. Kəndlilər "çanaq" toplanmasını rəğbətlə qarşıladılar. Bəzi qəzalarda kəndlilər 20 girvənkə əvəzinə bir pud, hətta beş pud taxıl verməyə hazır olduqlarını bəyan etdilər. "Çanaq" hesabına kəndlilər 100 min puddan çox taxıl toplayıb şəhərlərin əhalisinin taxıla ehtiyacının bir hissəsini ödədilər. 1922-ci ildən Azərbaycanda ərzaq vergisi tətbiq olunmağa başladı.

Azərbaycanda sosializm quruculuğu prosesində, digər sosialist respublikalarında olduğu kimi üç əsas vəzifə yerinə yetirilmişdir: sosialist sənayeləşdirilməsi, kənd təsərrüfatının kooperativləşdirilməsi və mədəni inqilab.

SSRİ-də sənayeləşdirmə xətti 1925-ci ilin dekabrında ÜİK(b)P XIV qurultayı tərəfindən müəyyən edilmişdi. Azərbaycanda sənayeləşdirmə xəttini həyata keçirmək üçün 1926-cı il fevralın 3-də Q.Musabəyovun sədrliyi ilə respublikanın sənayeləşdirilməsi komissiyası yaradıldı. Azərbaycanda sənayeləşdirmənin özünəməxsus xüsusiyyəti ondan ibarət olmuşdur ki, onun əsas aparıcı sahəsini neft sənayesi təşkil etmişdir. Azərbaycanda bütün sənaye sahələrini





inkişaf etdirmək üçün kifayət qədər maliyyə vəsaiti yox idi. Mərkəz isə yalnız neft sənayesini inkişaf etdirmək üçün vəsait ayırırdı. Ona görə də Azərbaycan qəzalarının sənayeləşdirilməsi məhdud xarakter daşıyır və ləng gedirdi. Sənayenin inkişafında Bakı ilə respublikanın digər bölgələri arasında ənənəvi uyğunsuzluq yenə də qaldı.

Azərbaycanda sənayeləşdirmə xəttinin həyata keçirilməsində birinci beşillik planın yerinə yetirilməsi mühüm rol oynadı. Birinci beşillikdə yeni neft yataqları istifadəyə verildi, neftayırma, neftmaşınqayırma və neftkimya sənayesi inkişaf etdi. Təkcə Stalin adına neftayırma zavodunda 23 yeni neftayırma qurğusu tikilib istifadəyə verildi. Azərbaycanda birinci beşillik plan 3 il 4 ayda, neft sənayesində isə 2 il yarıma yerinə yetirildi.

Sənayeləşdirmə xətti kəndin ictimai-iqtisadi həyatında da köklü dəyişikliklər olunmasını tələb edirdi. Kənd təsərrüfatında xırda kəndli təsərrüfatları üstünlük təşkil edirdilər. 1927-ci ilin dekabrında ÜİK(b)P XV qurultayı xırda kəndli təsərrüfatlarını birləşdirməyi və iri kollektiv təsərrüfatlara çevirməyi kənddə əsas vəzifə kimi qarşıya qoydu. Qurultay kənd təsərrüfatında kooperasiyanın bütün formalarının inkişaf etdirilməsi və yeni texnikanın tətbiqi əsasında elliklə kollektivləşməyə keçilməsini nəzərdə tuturdu.

Azərbaycanda kollektiv təsərrüfatlar yaradılmasına hələ sovet hakimiyyətinin ilk illərində başlanmışdı. 1921-ci ilin may ayında respublikada 137 kənd təsərrüfatı arteli və 17 kommuna vardı. Həmin kollektiv təsərrüfatların çoxu iqtisadi-texniki amillərin kifayətləndirici səviyyədə olmaması nəticəsində və kəndli kütlələrinin şüurunda fərdiyyətçiliyin güclü olması səbəbindən qısa müddətdə dağıldı.

1926-1928-ci illərdə kollektiv təsərrüfatlar yenidən təşkil olunmağa başladı. 1928-ci ildə Azərbaycanda 289 kolxoz vardı. Bu dəfə kolxozlar kənd yoxsullarının nisbətən şüurlu hissəsindən və əsasən könüllülük prinsipi ilə yaradılırdı.

Təsadüfi deyil ki, yeni kollektiv təsərrüfatlarda kommunistlərin sayı əvvəlkilərdən iki dəfə, komsomolçuların sayı isə beş dəfə çox idi. Həm də yeni kolxozların 88 faizi kənd təsərrüfatı maliyyə kooperasiyası ilə əhatə olunmuşdu. Bu da kollektiv təsərrüfatlara kənd təsərrüfatı texnikası almaqda kömək edirdi. Lakin texnika ilə təchizat İttifaq mərkəzindən asılı idi. Mərkəz isə ucqar rayonlara çox az maşın ayırırdı. Belə ki, 1929-cu ildə Azərbaycanda kolxozların yalnız 59 faizində, cəmi 560 traktor var idi, kotanların sayı çox az idi, kolxozlar hələ də 100 min xışdan istifadə edirdilər.

Azərbaycanda 1928-ci ilin ortalarına qədər kollektivləşmə kəskin sinfi mübarizəsiz, dinc şəraitdə həyata keçirilir və müsbət nəticə verirdi. Kollektiv təsərrüfatların 40 faizindən çoxu vergidən azad edilmişdi. Vergidən azad olunmuş yoxsul, zəif kəndli kollektiv təsərrüfatları hesabına məsul istehsalı çoxalırdı. Ona görə də Azərbaycanda kollektivləşmə faizi Cənubi Qafqazın digər respublikalarından yüksək idi. Lakin 1928-ci ilin ortalarından başlayaraq bütün İttifaqda olduğu kimi Azərbaycanda da kolxozların təşkili süni sürətdə sürətləndirildi, hətta zorakılığa da əl atıldı. Azərbaycanda 1929-1930-cü illərdə fərdi təsərrüfatların kollektivləşdirilməsi çox ləng getmişdir. Çünki kolxozlara əsasən yoxsul kəndlilər daxil olur, ortabablar isə hələ tərəddüd edirdilər.

Azərbaycanda kəndli təsərrüfatlarının elliklə kollektivləşdirilməsi ikinci beşillikdə nəzərdə tutulmuşdu. Lakin ÜİK(b)P MK 1929-cu il noyabr plenumu Azərbaycanda elliklə kollektivləşdirməyə 1930-cu ilin əkin kampaniyası dövründə keçilməsi haqqında qərar verdi. 1930-cu ildə Azərbaycanda 1839 kolxoz olduğu halda, 1931-ci ildə kolxozların sayı 3330-a çatdı, yəni bir ildə 1491 kolxoz təşkil edildi. Bu kollektivləşmədə inzibati-amirlik siyasəti vasitəsilə aparılır və nəticədə kənddə sinfi münasibətləri kəskinləşdirirdi.

Kənddə sinfi münasibətlərin gərginləşməsi şəraitində SSRİ MJK və XKS 1930-cu il fevralın 1-də qolçomaqlara qarşı





mübarizə tədbirləri haqqında qərar qəbul etdi. həmin qərara əsasən Azərbaycanda qolçomaqlara qarşı mübarizə gücləndi. Qolçomaq ailə başçısı antisovet və əksinqilabçı ünsür adı ilə həbs edilib güllələnir, ailə üzvləri isə Sibirə, Qazaxıstana və Orta Asiyaya sürgün edilirdi. Kolxoz hərəkatına qarşı çıxış edən varlı kəndlilər də ailələri ilə birlikdə sürgün cəzasına məhkum edilir, yük vaqonlarına doldurularaq Sibirə və Qazaxıstana gedən dəmir yollarında həftələrlə saxlanmaqla min bir əzab-əziyyətlərə düçar olurdular.

Sovet İttifaqının hər yerində olduğu kimi Azərbaycanda da qolçomaqlar Sovet hakimiyyətinə qarşı müxtəlif mübarizə formalarından istifadə edirdilər. Gəncənin Nərimanov dairəsində, Şirvanın Ucar dairəsində, Şəkinin Zaqatala dairəsində, Şəmkir dairəsinin Bitdili kəndində, Naxçıvan Muxtar Respublikasında Sovet hakimiyyətinə qarşı qiyamlar olmuşdur. Həmin qiyamlarda qolçomaqlarla birlikdə varlı və hətta ortabab kəndlilər də iştirak edirdilər. Həmin qiyamlar yatırıldı və iştirakçılarına divan tutuldu. Ümumiyyətlə, kollektivləşmə prosesində güclənən sinfi mübarizə pərdəsi altında Sovet Azərbaycanın kəndlərində soyqırıma bərabər dəhşətli cinayətlər törədildi.

Azərbaycan Sovet hakimiyyəti dövründə sosializm quruculuğunun üç əsas vəzifələrindən biri, sosialist sənayeləşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi ilə bərabər, mədəni inqilab olmuşdur. Sosializm quruculuğu dövründə ölkənin mədəni həyatında köklü dəyişikliklər baş verdiyi üçün mədəni quruculuq tədbirləri mədəni inqilab adlanırdı. Mədəni inqilabın mahiyyəti zəhmətkeş xalqın əməyi ilə yaradılmış mədəni sərvətləri xalqın malı etmək və geni° xalq kütlələrinin bu sərvətlərdən istifadə edə bilmələri üçün şərait yaratmaqdan ibarətdi.

Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində geniş xalq kütlələri mədəni sərvətlərdən istifadə etmək üçün asudə vaxt və maddi imkanlar əldə etsələr də ölkədə hökm sürən

kütləvi savadsızlıq zəhmətkeş təbəqənin mədəni sərvətlərə yiyələnməsinin qarşısında bir sədd çəkirdi. Odur ki, Azərbaycanda mədəni inqilabın ilk tədbiri savadsızlığın ləğv edilməsinə yönəldilmişdi. Bu tədbir kütləvi təhsil müəssisələri açmaqla yanaşı, 1-ci və 2-ci pillə məktəblərində tədris dilinin şagirdlərin ana dili olması haqqında Azərbaycan İnqilab Komitəsinin 1920-ci ilin dekabrında verdiyi dekret olmuşdur. Ölkədə yaradılmış savadsızlığı ləğv etmək kurslarının da bu sahədə önəmli rolu olmuşdur.

Azərbaycanda savadsızlığın ləğv olunması işində ərəb qrafıkli əski əlifbadan latın qrafikli yeni Azərbaycan əlifbasına keçıdin müstəsna əhəmiyyəti olmuşdur. Hələ 1920- cı ilin noyabrında Xalq Maarif Komissarlığı yanında əlifba islahatı üzrə komitə yaradılmışdı. 1922-ci ildə isə latın qrafıkli əlifbaya keçmək üçün S.Ağamalıoğlunun sədrliyi ilə Yeni Türk Əlifbası Daimi Komitəsi yaradıldı. 1923-cü il oktyabrın 20-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qəbul etdiyi "Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında" dekreti ilə latın qrafıkli Azərbaycan əlifbasına keçid başlanır və bu iş 1926-cı ildə əsasən başa çatdırılır.

XX əsrin 20-30-cu illərində Azərbaycanda latın qrafıkli yeni əlifba əsasında savadsızlığın ləğv edilməsi mədəni inqilabın ən böyük qələbəsi idi. 1928-1930-cu illərdə isə 212836 nəfər yaşlı nəslin nümayəndəsi savadsızlığı ləğv edib oxumaq və yazmaq öyrəndi. Savadlanma hərəkatı sonrakı illərdə də davam etdi.

1936-cı ilin fevralında Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS "Azərbaycan SSR-də savadsız və azsavadlıların təhsili işi haqqında" qərar qəbul etdi. Qərar ölkədə yaşı 50-dək olan əməkçilərin savadsızlığını iki ildə ləğv etmək vəzifəsini qarşıya qoydu. Qərarda 1936-cı ildə yaşlı əhali içərisində 216 min savadsız və 94 min azsavadlının təhsilə cəlb edilməsi vəzifəsi müəyyənləşdirilirdi. Yaşlıların təhsilini





təkmilləşdirmək məqsədilə ikiaylıq savad məktəbləri əvəzinə onaylıq savad məktəblərinin yaradılmasına başlandı.

Mədəni inqilab prosesində Azərbaycan xalqının əldə etdiyi nailiyyətlərlə bərabər rus sovinizminin təzyiqi altında mədəni tərəqqinin müəyyən qədər ləngidilməsi halları da olmuşdu. Faktiki unitar dövlət olan Sovet İttifaqında müxtəlif millətlər arasında əməkdaşlığı təmin etmək üçün rus dilinin vahid ünsiyyət dili və kiril qrafikli rus yazısının rolu danılmaz faktdır. Ancaq, təəssüf ki, bu obyektiv faktdan hakim rus millətçiliyi tərəfdarları ruslaşdırma siyasəti üçün, milli dilləri sıxışdırmaq üçün vasitə kimi istifadə edirdilər. 1938-ci ilin martında ÜİK(b)P MK və SSRİ XKS qeyri-rus məktəblərində rus dilini məcburi qaydada öyrənmək haqqında xüsusi qərar qəbul etdi. Mərkəzin təzyiqi altında ruslaşdırma siyasətinin davamı kimi 1939-cu ilin iyulunda Azərbaycan SSR Ali Soveti latın qrafıkli Azərbaycan əlifbasından rus (kiril) əlifbasına keçilməsi haqqında qanun qəbul etdi. Bu qanun 1940-cı il yanvarın 1-dən qüvvəyə mindi.

Beləliklə, qısa bir tarixi dövrdə Azərbaycanda iki dəfə əlifba dəyişdirildi. Sonrakı illərdə Azərbaycan yazısı rus əlifbası məcarasında inkişaf etdi. Rus qrafıkli əlifba əsasında Azərbaycan yazısının inkişaf prosesi xalqı öz doğma dilindən, tarixi kökündən və milli dəyərlərindən ayıra bilmədi. Bu əlifba ilə ana dilində elm və mədəniyyətin bütün sahələrinə aid Azərbaycan xalqının mədəni irs xəzinəsinə daxil olan elmi-texniki kəşflər edilmiş, bədii ədəbiyyatın dəyərli nümunələri yaradılmışdır.

Azərbaycan SSR-də mədəni inqilabın əhatə etdiyi mühüm sahələrdən biri də mədəni-maarif işi idi. 1920-ci ilin oktyabr ayında Azərbaycan K(b)P-nin II qurultayı ölkədə klub, kitabxana və qiraət komalarının geniş şəbəkəsinin yaradılması haqqında qərar qəbul etdi. Bu qərarla bağlı Bakı və onun mədən-zavod rayonlarında fəhlə klublarının yaradılmasına başlandı. 1924-cü ildə Bakıda artıq 5 fəhlə klubu fəaliyyət

göstərirdi. Azərbaycan kəndində mədəni-maarif işinin mərkəzi 1923-cü ildən yaradılmağa başlanmış qiraət komaları idi. Kənd mədəniyyət ocaqlarının inkişafında şəhərlərin fəhlə sinfinin hamilik köməyinin mühüm rolu olmuşdur. Bu hamilik yolu ilə yaradılan kənd klubları kənddə mədəniyyət ocaqlarının yeni mərkəzlərinə çevrilirdilər. 1927-ci ilin sonunda ölkədə kənd klublarının sayı 171-ə çatmışdı.

Mədəni-maarif işində kitabxanalar da mühüm rol oynamışlar. 1920-ci ilin əvvəlində Azərbaycanda cəmi 5 kitabxana vardı. 1923-cü ildə Azərbaycan Dövlət Kitabxanasının, 1925-ci ildə isə Kitab palatasının təşkili ölkənin mədəni həyatında mühüm hadisə oldu. Respublikada qəza kitabxanalarının sayı 1925-ci ildə 25-ə, 1927-ci ildə isə 114-ə çatdı.

XX əsrin 30-cu illərində Bakı, Gəncə, Şəki, Lənkəran, Naxçıvan, Qazax, Quba, Ağdam və b. şəhərlərdə klub müəssisələrinin yeni tipi olan mədəniyyət saraylarının yaradılmasına başlandı. 1932-ci ildə Bakıda 6 mədəniyyət sarayı fəaliyyət göstərir, fəhlələrin mədəni sərvətlərə yiyələnməsinə şərait yaradırdı.

Respublikada mədəni inqilabın həyata keçirilməsində qəzet-kitab nəşrinin də önəmli rolu olmuşdur. 1933-1934-cü illərdə Bakıda güclü mətbəə bazası olan "Mətbuat sarayı", Gəncə, Naxçıvan, Şəki, Lənkəran, Quba, Qazax və Ağdamda mətbəələr tikildi.

Azərbaycanda geniş xalq kütlələrinin mədəni səviyyəsinin yüksəldilməsi işində savadsızlığın ləğv edilməsi ilə bərabər radio şəbəkəsinin yaradılmasının da misilsiz rolu olmuşdur. Ölkənin radiolaşdırılmasına 1940-ci ildən başlandı. Respublikanın 20 rayonunu əhatə edən radiolaşdırma şəbəkəsi xalqın mədəni həyatında çox əhəmiyyətli hadisə oldu. 1940-cı ilin əvvəlində respublika əhalisinin artıq 100 min nəfərinə yaxınının evində radio nöqtəsi var idi. Radiolaşdırma ölkədə





mədəni inqilabın mühüm nailiyyətlərindən biri olub çox geniş kütlələri əhatə edirdi.

Mədəni inqilabın kütlələrin bədii sərvətlərə yiyələnməsi tələbini Azərbaycanın ədəbiyyat və incəsənət xadimləri özlərinin ideoloji fəaliyyətlərinin başlıca vəzifəsi hesab edirdilər və "İncəsənət xalqa!" şüarını əldə rəhbər tuturdular. "İncəsənət xalqa!" şüarı nəzərdə tuturdu ki, ədəbiyyat və incəsənət xalqa mənsub olmalı və sosialist ideologiyası əsasında onun mənəvi cəhətdən tərbiyələndirilməsini və maariflənməsini təmin etməliydi.

**21.3. Azərbaycan SSR-də inzibati-amirlik sisteminin acı nəticələri və kütləvi-siyasi repressiyalar.** XX əsrin 20-30-cu illərində Sovet İttifaqında milli və dini mənsubiyyət məsələsi xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycanda bir sıra partiya, dövlət və təsərrüfat orqanlarında rus dilini mükəmməl bilməmək bəhanəsilə, milli və dini mənsubiyyət amili azərbaycanlı kadrların sıxışdırılması üçün əsas götürülürdü. Azərbaycanlıların, müsəlmanların simasında antisovet, əksinqilabçı ünsür obrazı yaradılmışdı. Rəhbər orqanlarda, xüsusilə partiya orqanlarında və güc "nazirliklərində", əsasən ruslar və ermənilər, qismən də gürcülər, yəhudilər və digər millətlərin nümayəndələrindən olan "gəlmələr" üstünlük təşkil edirdilər.

1934-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Bakı Komitəsinin birinci katibi vəzifəsinə M.C.Bağırov seçilənədək Azərbaycan KP MK və BK-da, demək olar ki, azərbaycanlı işləmirdi. Mərkəzi Komitənin Bürosunun üzvlərindən cəmi iki nəfəri (milli respublikada tutduqları vəzifələrinə görə Azərbaycan SSR XKS və MİK-ın sədrləri) azərbaycanlı, qalanları isə rus və ermənilərdən olurdu. Bakı Komitəsi isə əsasən qeyri-müsəlman xalqların nümayəndələrindən təşkil edilirdi.

M.C.Bağırov Azərbaycan SSR-də partiya rəhbərliyinə gəlmiş, Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi

seçilmiş ilk azərbaycanlı idi. O, 1921-ci ildən, hələ Azərbaycanın "müstəqilliyi" dövründən başlayaraq Azərbaycanın dövlət təhlükəsizlik orqanlarına başçılıq etmişdir. M.C.Bağırov Azərbaycana rəhbərlik etdiyi 20 il ərzində partiyanın rəhbər orqanlarını - Mərkəzi Komitə və Bakı Komitəsini azərbaycanlılaşdırma siyasəti yeritmişdir. M.C.Bağırov 1954-cü ildə həbs olunan zaman Azərbaycan KP MK Bürosunun üzvləri arasında yalnız bir erməni qalmışdı, qalanların hamısı azərbaycanlılar idi.

XX əsrin 20-30-cu illərində inzibati-amirlik sisteminin hökm sürdüyü şəraitdə Azərbaycanda bir çox məsələlər mərkəzləşmiş qaydada Moskva tərəfindən idarə olunurdu. Böyük dövlətçilik diktatının totalitar rejimi təşəkkül tapdığı bir şəraitdə rus dilinin "birinciliyi" ictimai-siyasi və mədəni həyatın bütün sahələrində həlledici amilə çevrilir, Azərbaycan xalqının öz ana dili köklərindən uzaqlaşdırılmasına, öz tarixi keçmişinə və ədəbiyyatına biganə qalmasına, milli mədəni ənənələrini unutmasına səbəb olurdu. Azərbaycanda milli özünüdərkin hər cür təzahürü millətçilik damğası vurulmaqla kökündən kəsilirdi, milli özünüdərki az-çox özündə əks etdirən elmi və ədəbi əsərlər partiya iclaslarında, ictimai təşkilatların yığıncanqlarında və mətbuat səhifələrində təhqirlə dolu amansız tənqid atəşinə tutulurdu.

Stalinin şəxsiyyətinə pərəstiş və inzibati-amirlik sistemi, bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da başqa cür düşünən ictimai-siyasi xadimlərin və millətin ən yaxşı nümayəndələrinin güllələnməsi ilə müşayiət olunan siyasi represiyaların güclənməsinə səbəb oldu. Azərbaycan xalqı millətin zehni sərvətini təşkil edən çox parlaq simalarının bir, bəlkə də, iki nəslini itirdi. Azərbaycan milləti yüksələn inkişaf dövründə müəyyən müddət öz intellektual imkanlarından faktiki olaraq məhrum edildi.

Mərkəz Azərbaycanın güc orqanlarında yerləşdirdiyi nökərləri Sumbatov - Topuridze, Markaryan, Qriqoryan,





Yemelyanov, Borşov, Atakişiyev və b. vasitəsilə Azərbaycanın milli demokratik hərəkatının fəal iştirakçıları olan partiya və dövlət xadimlərinə, ziyalıların görkəmli nümayəndələrinə və zəhmətkeşlərin əməkdar nümayəndələrinə qarşı qəddarlıq göstərməklə cəza tədbirləri gördülər. Azərbaycanın görkəmli partyia və dövlət xadimlərindən Q.Musabəyov, B.Axundov, M.Hacıyev, D.Bünyadzadə, M.D.Hüseynov, Ç.İldırım, M.Qədirli, Ə.Qarayev, H.Bəhmanov, H.Sultanov, A.Sultanova, M.Nərimanov, S.M.Əfəndiyev, görkəmli mədəniyyət və elm xadimlərindən Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli, B.Talıblı, T.Şahbazi, M.Cuvarlinski, B.Çobanzadə, hərbi xadimlərdən Səmədağa Mehmandarov, Əlağa Şıxlinski, Qamboy Vəzirov və b. məhv edildilər. Təkcə 1937-ci ildə Azərbaycanda "xalq düşməni" adı ilə 29 min nəfər güllələnmiş və Sibirə sürgün edilmişdi. 1937-ci ildə yalnız Xəzər Gəmiçiliyi İdarəsindən 200 rəhbər işçi, o cümlədən 19 gəmi kapitanı repressiya qurbanı olmuşdur.

1939-cu ildə ÜİK(b)P Mərkəzi Komitəsinin 1937-ci ildə repressiya olunmuşların işlərinə yenidən baxılmasına dair xüsusi Plenumu olmuşdur. Plenum kütləvi represiyalar zamanı heç bir günahı olmayanların da cəzalandığını qeyd edərək, belələrinə dərhal bəraət verilməsini dövlət orqanlarından tələb etmişdir. İttifaqın digər respublikalarında repressiyanın günahsız qurbanlarından bir çoxuna bəraət verilsə də Azərbaycanda heç kəsin işinə yenidən baxılmadı. Çünki Azərbaycanda kütləvi siyasi repressiya əslində Azərbaycan millətinin qatı düşmənlərinin, birinci növbədə ermənilərin siyasi qərəzçiliklə pərdələnmiş etnik düşmənçilik məqsədlərinin nəticəsi idi. Belə bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycanın 51 rayonundan 31-də milisin rəisi erməni idi. Bakı şəhərinin mərkəzi hissəsində azərbaycanlılar "antisovet, əksinqilabçı ünsürlər" olduqlarına görə öz evlərindən çıxarılmış, onların mənzillərinə ruslar, ermənilər, yəhudilər və gürcülər yerləşdirilmişdilər.

## Ədəbiyyat:

1. Azərbaycan tarixi. 7 cilddə, VI c., Bakı, 2000, s. 9-401.
2. Z.İbrahimov. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı, 1957.
3. N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, 1992.
4. Г.Раджабли. Образование Нахичеванской Автономной Республики как историческая необходимость. – «Humanitar elmlərin öyrənilməsinin aktual problemləri», Ali məktəblərarası tematik məcmuə. Bakı., 1999, IV buraxılış.





# XXII FƏSİL

## AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

**22.1. Azərbaycan döyüşçülərinin İkinci Dünya müharibəsi cəbhələrində fərdi və kütləvi qəhrəmanlıqları.** İkinci Dünya müharibəsi 1939-cu il sentyabrın 1-də başladı və altı il davam etdi. Müharibəyə 61 dövlət və dünya əhalisinin beşdə dörd hissəsi cəlb edilmişdi. Bu müharibə dünyada ən dağıdıcı müharibə olmuş və 50 milyon insanın həyatı bahasına başa gəlmişdir. Müharibə qurbanlarından 20 milyon nəfəri keçmiş Sovet İttifaqının, 6 milyon nəfəri Polşanın, 5 milyon nəfəri Çinin, 1,7 milyon nəfəri keçmiş Yuqoslaviyanın payına düşmüşdür.

Sovet İttifaqı İkinci Dünya müharibəsinə 1941-ci il iyunun 22-də cəlb edildi. Keçmiş Sovet İttifaqının tərkibində Azərbaycan xalqı da İkinci Dünya müharibəsində iştirak etdi. İkinci Dünya müharibəsi Sovet İttifaqının bütün xalqları kimi Azərbaycan xalqı üçün də Böyük Vətən müharibəsi oldu. Azərbaycanın şanlı oğulları Sovet İttifaqının hər qarışı uğrunda döyüşərkən elə hesab edirdilər ki, onlar eyni zamanda doğma Azərbaycanı qoruyurlar. Bu barədə Lənkərandan olan cəsur döyüşçü, snayper Baloğlan Abbasovun Azərbaycanın zəhmətkeşlərinə ünvanlanmış məktubunda çox gözəl deyilirdi: "Mənim atəş xəttim Stalinqrad ətrafındadır. burada düşmənlə döyüşərək, mən həm də doğma şəhərimin, doğma Azərbaycanımın şərəfini və azadlığını qoruyuram".

Müharibənin başlanğıcında əfsanəvi Brest qalasının müdafiəçiləri arasında 40 nəfərdən çox azərbaycanlı döyüşçü

də var idi. Brest qalasının müdafiəsində qəhrəmanlıqla həlak olmuş azərbaycanlı döyüşçülərin xatirəsi xalqımız üçün əzizdir.

Cənub cəbhəsində geriyə çəkilən hərbi hissələri təqib etmək üçün alman faşistləri Prut çayı üzərindəki körpülərdən istifadə edirdilər. Komandanlıqdan tapşırıq alan siyasi rəhbər Kamal Qasımov 6 döyüşçüsü ilə birlikdə düşmənin fasiləsiz atəşi altında 3 körpünü partladaraq alman qoşunlarının irəliləməsinin qarşısını üç gün ərzində ləngitdilər və qəhrəmanlıqla həlak oldular.

Müharibənin ilk günlərində Leninqrad şəhərinin göylərini qorumaqda təyyarəçi leytenant Hüseynbala Əliyev əbədi şöhrət qazandı. 1941-ci il iyulun 13-də döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirib geri qayıdarkən qəflətən üç düşmən təyyarəsinin hücumuna məruz qalır. O, düşmənlə qeyri-bərabər döyüşə girib düşmən təyyarələrinin üçünü də vurur və 30 yerdən yaralanmasına baxmayaraq öz qırıcı təyyarəsini sağ-salamat yerə endirir. Cəsur Azərbaycan qartalını qələbə münasibətilə təbrik etmək üçün onun təyyarəsinə qalxan dostları qəhrəmanın çoxdan öldüyünün şahidi oldular.

Müharibənin dördüncü günü Qara dəniz donanmasının 63-cü aviasiya alayının təyyarəçisi Məzahir Abbasov Konstansada düşmən bazasını bombalamaq tapşırığını yerinə yetirib geri qayıdarkən iki düşmən qırıcı təyyarəsinin hücumuna məruz qalır. O, düşmən təyyarələrindən birini məhv edir, digərini isə qaçmağa məcbur edir. O, döyüş zamanı təyyarənin hər iki motorunun sıradan çıxdığını görür, lakin ruhdan düşmür, ustalıqla təyyarəni suya endirir. M.Abbasov 6 gün dənizlə əlbəyaxa olub təyyarəsinin heyəti ilə birlikdə sahilə çıxmağa müvəffəq olur. (Müharibədən sonra qəhrəman təyyarəçi Məzahir Abbasov tarix elmləri doktoru olmuşdur).

Moskvanın müdafiəsində xüsusi fərqlənmiş baş serjant İsrafil Məmmədov 1941-ci il dekabrın 11-də Sovet İttifaqı





Qəhrəmanı adına layiq görülür. O, bu ada layiq görülmüş ilk azərbaycanlı döyüşçü idi. Moskva uğrunda döyüşlərdə podpolkovnik Həzi Aslanovun tank alayı da xüsusilə fərqləndi. Onun tankçıları sovet ordusunun hissələrindən birini, hərbi sursatla dolu 50 avtomobil ilə birlikdə mühasirədən çıxarmağa nail oldular. Stalinqard uğrunda döyüşlərdə feldmarşal Manşteynin ordusunun məhv edilməsində fəal iştirak edən Həzi Aslanov 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür. Belarusun azad edilməsində general Həzi Aslanovun tank briqadası xüsusilə fərqlənir. Berezini çayını keçib Pleşenı şəhərini və 508 yaşayış məntəqəsini azad etdiyinə görə general Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanının ikinci Qızıl Ulduzunu almağa təqdim edilir. Lakin Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanının Qızıl Ulduzu ilə təltif olunması haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı 47 il sonra, yalnız 1991-ci ildə dərc edildi. Həzi Aslanov sərkərdələri təltif etmək üçün təsis edilmiş Aleksandr Nevski və Suvorov ordenlərinə də layiq görülmüşdü. 1944-cü ilin payızında general Həzi Aslanovun tank korpusu Riqa körfəzi rayonunda Qərbi Dvina çayını keçərək düşmənə gözlənilmədən zərbə endirdi və onun geri çəkilmək yolunu kəsdi. Lakin 1945-ci il yanvarın 24-də H.Aslanov döyüş meydanından kənarda müəmmalı şəraitdə həlak oldu. Azərbaycanın istedadlı və cəsur sərkərdəsi, tank qoşunlarının qvardiya general mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun cənazəsi Bakıya gətirildi və Dağüstü parkda (indiki Şəhidlər Xiyabanında dəfn edildi).

Ukraynanın azad edilməsi salnaməsinə qvardiya leytenant Məlik məhərrəmovun bölüyü qızıl hərflərlə yazılmışdır. 1943-cü il sentyabrın 27-də gecə Dnepr çayını keçərək sağ sahildə mövqe tutmuş Məlik Məhərrəmovun bölüyü qoşun hissələrinin Dnepri keçmək əməliyyatına şərait yaratdığına görə leytenant Məlik Məhərrəmov və onun sağ qalmış 18 döyüşçüsünün

şamısı Sovet İttifaqı Qəhrəman adına layiq görüldü. Dneprin keçilməsi əməliyyatlarında fərqlənmiş leytenant Səlahəddin Kazımov və döyüşçü Məmməd Məhərrəmov, Kiyev şəhərinin azad edilməsi uğrunda döyüşlərdə igidlik göstərmiş tank batalyonunun komandiri mayor Xıdır Mustafayev də Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

1944-cü ilin sonu - 1945-ci ilin əvvəllərində Avropa ölkələrinin azad edilməsi uğrunda hücum əməliyyatlarında on minlərlə azərbaycanlı döyüşçü fədakarlıqla vuruşmuşlar. Onlar bu döyüşlərdə faşizm üzərində tam qələbə əzmi, yüksək qəhrəmanlıq və igidlik nümunələrini göstərdilər. 1944-cü ilin oktyabrında Rumıniyanın azad edilməsi uğrunda döyüşlərdə əl qumbarası qurtarmış Gəray Əsədov öz bədəni ilə düşmən pulemyotunun qarşısında sipər çəkərək, yüzlərlə cəbhə yoldaşının həyatını xilas etdi.

İkinci Dünya müharibəsində azərbaycanlı qızlar da iştirak edir, xarüqələr törədirdilər. Volxov cəbhəsində azərbaycanlı qız - snayper Ziba Qəniyeva 20 nəfərdən çox düşməni məhv etmiş, Qızıl Bayraq ordeni ilə təltif edilmişdi. Stalinqrad ətrafında döyüşlərdə ilk azərbaycanlı hərbi təyyarəçi qız, kapitan Züleyxa Seyidməmmədova fərqlənmişdi. O, 40 hava döyüşündə iştirak etmişdi. Onun döyüş xidmətləri II dərəcəli Vətən müharibəsi ordeni ilə qeyd olunmuşdur.

İkinci Dünya müharibəsi cəbhələrində azərbaycanlılar fərdi rəşadətlərilə bərabər kütləvi qəhrəmanlıqlar da göstərmişlər. Kerç və Krım yarımadaları uğrunda döyüşlərdə, Sevastopolun müdafiəçilərinə yardım əməliyyatlarında əsasən azərbaycanlılardan təşkil olunmuş 77-ci diviziya fəal iştirak etmişdir. 1942-ci ilin martında 77-ci diviziyaya sovet qoşunlarının Kerçdən Taman yarımadasına geri çəkilməsini təmin etmək tapşırığı verirlir və diviziya bu tapşırığı şərəflə yerinə yetirir. Bu diviziyanın 105-ci alayı Oğuztəpə rayonunda





düşmən mühasirəsindən çıxarkən düşmənin 12 tankını və 300 nəfərdən çox canlı qüvvəsini məhv etmişdilər. 77-ci diviziya Kerçdən Taman yarımadasına keçən sonuncu sovet hərbi hissəsi oldu. Bu əməliyyat zamanı öz şəxsi heyətinin yarıdan çoxunu itirən 77-ci diviziya 1942-ci ilin mayında yenidən Bakıda komplektləşdirilib cəbhəyə yola salındı. Taman yarımadasının müdafiəsində iştirak edən 396-cı diviziya da 1942-ci ilin əvvəllərində Bakıda təşkil olunmuşdu.

Şimali Qafqaz döyüşçülərində Azərbaycan oğulları igidlik və cəsurluq imtahanından uğurla çıxdılar, döyüşmək və qalib gəlmək bacarığını nümayiş etdirdilər. Bu keyfiyyətləri Bakıda komplektləşdirilmiş Azərbaycanın milli diviziyaları - 402-ci (avqust 1941), 223-cü (oktyabr 1941), 416-cı (mart-sentyabr 1942), 271-ci (avqust-sentyabr 1942) diviziyalar öz fəaliyyətləri ilə nümayiş etdirdilər. 1942-ci ilin yanvarında 223-cü diviziya Mozdok, Proxladnı, Mimeod, Georgiyevsk və b. 50 yaşayış məntəqəsini düşməndən azad etdi. 416-cı diviziya 1943-cü ilin əvvəlində iki aylıq hücum ərzində 1000 kilometrdən çox döyüş yolu keçdi. 1943-cü ilin yaz-yay aylarında Azərbaycandan 223-cü diviziyaya 400 nəfər, 416-cı diviziyaya isə 1500 nqəfər əlavə döyüşçü göndərildi. Yeni qüvvə aldıqdan sonra 416-cı diviziya Taqanroq və Melitopol şəhərlərini azad etdi. 416-cı və 223-cü diviziyalar Odessa və Kişinyovun azad edilməsi əməliyyatlarında iştirak etdilər. 271-ci Azərbaycan diviziyası Donbasın sənaye mərkəzlərindən biri olan Qorlovka şəhərini azad etdi. Bu diviziyanın tərkibində 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Onların arasında müharibədən sonra akademik olan Ziya Bünyadov da vardı. 223-cü Azərbaycan diviziyasına Yuqoslaviyanın paytaxtı Belqradı da azad etmək nəsib olmuşdur.

Ayrı-ayrı şəhərlərin azad edilməsində döyüş xidmətlərinə görə Azərbaycan milli diviziyalarına fəxri adlar verilmişdi.

416-cı diviziyaya - Taqanroq diviziyası, 77-ci diviziyaya - Simferopol diviziyası, 271-ci diviziyaya - Qorlovka diviziyası və 223-cü diviziyaya Belqrad diviziyası fəxri adları verilmişdi.

Azərbaycan diviziyalarından 416-cı Taqanroq diviziyasına Berlinə birinci daxil olan diviziyalardan biri olmaq şərəfi nəsib olmuşdur. 416-cı Taqanroq diviziyası 1945-ci il mayın 2-də Berlinə daxil oldu və Brandenburq qapıları üzərində qələbə bayrağını ucaltdı.

**22.2. Azərbaycanın mərd oğullarının partizan hərəkatında və Avropada antifaşist Müqavimət hərəkatında iştirakı.** Sovet qoşunlarının hücumunu işğal olunmuş rayonlarda fəaliyyət göstərən partizan dəstələri müəyyən qədər asanlaşdırırdılar. Ukrayna, Belarus və Pribaltkada yaradılmış partizan dəstələrinin tərkibində Azərbaycanın şanlı oğulları da qəhrəmancasına vuruşurdular.

Ukrayna ərazisində partizan dəstələrinin yaradılmasında Azərbaycan xalqının mərd oğlu Vəli Hüseyn oğlu Axundovun da xidmətləri olmuşdur. Könüllü surətdə cəbhəyə getmiş Astara rayon partiya komitəsinin birinci katibi Vəli Axundov 57-ci orduda batalyon komissarı idi. 1942-ci ilin yazında Xarkov ətrafında döyüşlərdə düşmən mühasirəsində qalan Vəli Axundov düşmən arxasında fəaliyyət göstərən gizli vilayət partiya komitəsilə əlaqəyə girib kiçik partizan qrupları yaradır. Onun dəstələri gizli partiya komitəsi ilə partizan dəstələri arasında rabitə yaratmaqla fövqəladə əhəmiyyətli vəzifəni yerinə yetirirdilər. 1943-cü ilin yayında Vəli Axundovu Bliznetsov rayon gizli partiya təşkilatının sədri seçirlər. Onun partizanları silah əldə edib partizan dəstələrinə göndərirdilər. Onun təşkil etdiyi kiçik zərbə dəstələri gecələr düşməndən gizlədilmiş taxıl ehtiyatını şəhər əhalisinə, xüsusilə əsgər ailələrinə paylamaq kimi çox məsul işlə də məşğul olurdu. 1943-cü ilin yayında Vəli Axundovun partizan dəstəsi döyüşən ordu hissələri ilə birləşir və o, Ukraynanın düşməndən azad





edilməsi uğrunda döyüşlərin birində qəhrəmancasına həlak olur.

Azərbaycanın cəsur oğlu zabit Xanlar Babanlı Ukrayna ərazisində əsir düşmüş 12 döyüşçü ilə birlikdə hərbi əsirlərin düşərgəsindən qaçaraq xüsusi dəstə təşkil edir. Alman dilini təmiz bilən Xanlar Babanlı alman zabiti geyimində saxta sənəd də əldə edir. O, öz yoldaşlarını da alman hərbi geyimi ilə təchiz edir və Krivoy-Roq şəhəri regionunda kəşfiyyat-diversiya işləri ilə məşğul olur. Yerli əhalinin məhəbbətini qazanmış Xanlar Babanlı Krivoy-Roq, Nikolayev və Dnepropetrovsk şəhərləri bölgəsində ələkeçməz əfsanəvi qəhrəmana çevrilmişdi. 1944-cü ilin yanvarında kəşfiyyatçı partizan Xanlar Babanlı Krivoy-Roqa yaxınlaşan döyüşən ordu hissələrinə qovuşmağa hazırlaşan zaman dəstəyə soxulmuş bir casus tərəfindən öldürülür.

Ukraynada alman işğalçıları ilə əsl xalq müharibəsi aparan Kovpakın komandanlıq etdiyi partizan birləşmələrində Babaş Dadaşov, Aslan Əliyev, Müslüm Bağırov və b. azərbaycanlılar da vardı. Azərbaycanlı Kamal Haşımov Rovno rayonunda əfsanəvi partizan Medvedyevin dəstəsində iki il alman faşist işğalçıları ilə vuruşmuşdur. 1942-cı ilin yayında hərbi həkim Həmid Abdullayevin başçılığı ilə 40 nəfər hərbi əsirlər üçün olan düşərgədən qaçaraq Jitomir rayonunda partizan dəstələrinə qoşulmuş və iki il partizanlarla birlikdə düşmənlə vuruşmuşdu. Döyüşən ordu hissələri ilə birləşdikdən sonra Həmid Abdullayev Varşava, Vyana və Berlin uğrunda döyüşlərdə iştirak etmişdir.

1942-ci ilin sentyabrında Krasnodarda yaradılmış gizli "Gənc qvardiya" təşkilatının tərkibində azərbaycanlı gənc Əli Dadaşov da vardı. O, 1943-cü il yanvarın 15-də əfsanəvi gənc qvardiyaçıların digər rəhbərləri ilə birlikdə almanlar tərəfindən ələ keçirilib güllələnmişdir.

1943-cü il sentyabrın əvvəlində zabit Məmməd Əliyevin başçılığı altında 50 azərbaycanlı hərbi əsir düşərgədən qaçaraq Cənubi Krımda fəaliyyət göstərən partizan birləşmələrinin 7-ci briqadasına qoşulurlar. Azərbaycanlı partizanlar 8-ci Azərbaycan partizan dəstəsində birləşirlər. Məmməd Əliyev dəstənin komandiri, Sahib Hacıyev qərargah rəisi təyin edilir. Alman işğalçıları ilə apardığı 7 aylıq mübarizə dövründə 8-ci partizan dəstəsi top və minomyot atəşi ilə dənizdə 3 düşmən gəmisini batırmış, 7 dəfə düşmən qarnizonuna hücum etmiş və 25 dəfə nəqliyyat vasitələrinə basqın etmişdi, düşmənin 1225 nəfər canlı qüvvəsini məhv etmiş, 451 əsgər və zabitini əsir götürmüş, 7 top, 11 minomyot, 12 pulemyot, 23 avtomobil və 35 ton ərzağını ələ keçirmişdilər.

1943-cü ilin sentyabrında Ukraynanın Zdolbunov rayonunda 350 azərbaycanlı əsir Məmməd Axundov, Hümmət Namazov və İzzətulla Nəsrullayevin başçılığı altında gecə vaxtı keşikçiləri öldürüb əsirlər saxlanan düşərgədən qaçaraq partizan dəstəsi təşkil edirlər. Məmməd Axundov dəstənin komandiri, Hümmət Namazov qərargah rəisi olur. Onlara qarşı göndərilmiş almanların böyük cəza dəstələri ilə üç ay ərzində qeyri-bərabər döyüş apararaq, Məmməd Aslanovun partizan dəstəsi nəhayət 1944-cü ilin yanvarında Rovno vilayətində fəaliyyət göstərən Şşukayevin partizan birləşməsinə qovuşmağa müvəffəq olurlar. Şşukayevin partizan birləşməsinə doğru yürüş zamanı aparılan döyüşlərin nəticəsində onlar 400 nəfərdən çox əsirin azad edilməsinə də nail olurlar. Şşukayevin partizan briqadasında Hümmət Namazovun da partizan dəstəsi vardı. Şşukayevin briqadasının tərkibində azərbaycanlı partizanların dəstələri Macarıstan və Çexoslovakiyanın azad olunmasında iştirak etmişlər. Onlar 1945-ci ilin fevralın 25-də hücum edən sovet ordusunun ön hissələri ilə birləşirlər. Ukrayna və Şərqi Avropanın alman işğalından azad edilməsi





döyüşlərində Şşukayevin partizan briqadasından 200 nəfər azərbaycanlı partizan qəhrəmancasına həlak olmuşdur.

Ukrayna ərazisindəki partizan dəstələrində 5 min nəfərə qədər azərbaycanlı düşmənə qarşı mübarizə aparmışdır. Onlardan 100 nəfərdən çoxu dövlət orden və medalları ilə təltif edilmişdir.

Belarus ərazisində fəaliyyət göstərən partizan dəstələrində də Azərbaycan oğulları düşmənlə vuruşlarda iştirak edirdilər. 1942-1943-cü illərdə Belarusun Borisovo rayonunda partizan dəstələrinin yaradılmasında azərbaycanlı mayor Ələkbər Əliyevin böyük xidməti olmuşdur. 1942-ci ilin başlanğıcında bir qrup döyüşçü ilə birlikdə düşmən mühasirəsindən çıxan Ələkbər Əliyev Borisovo gizli şəhər partiya komitəsi ilə əlaqə yaradaraq, onun tapşırıqlarını yerinə yetirir. Həmin ilin payızında Ələkbər Əliyev Lopantinin partizan briqadasının qərargah rəisi, bir qədər sonra isə həmin briqadanın Suvorov adına partizan dəstəsinin komandiri təyin olunur. Ələkbər Əliyevin partizan dəstəsi Belorusda məşhur "rels müharibəsi" əməliyyatlarının fəal iştirakçısı olmuşdur. 1944-cü ilin iyun ayının əvvəlində Lopatinin 2 min nəfərdən ibarət olan partizan briqadası 15 min nəfərlik alman cəza dəstəsi tərəfindən mühasirəyə alınırö. Belə ağır vəziyyəti briqada radio ilə Sovet ordusunun komandanlığına xəbər verdi. Komandanlıq general-mayor Həzi Aslanovun tank briqadasını partizanların köməyinə göndərdi. Həzi Aslanovun tank briqadası cəbhə xəttini yararaq sürətlə hərəkət edib partizanların köməyinə yetişdi və düşmənin cəza dəstəsinə güclü zərbələr endirərək onu tamamilə məhv etdi. Partizan dəstəsi döyüşən ordu ilə birləşdikdən sonra mayor Ələkbər Əliyev alay komandirinin müavini vəzifəsində Azərbaycan oğullarının qəhrəmanlıq salnaməsinə yeni səhifələr yazmaqda davam etdi.

Belorus ərazisindəki partizan dəstələrində bütövlükdə 1000 nəfərdən çox azərbaycanlı partizan iştirak etmişdi. Onlardan 300 nəfərdən çoxu müxtəlif orden və medallarla təltif edilmişdi.

Müharibə illərində Azərbaycanın şanlı oğulları partizan dəstələrində göstərdikləri misilsiz qəhrəmanlıqları ilə xalqın mərdlik, ərənlik ənənələrini davam etdirərək bəşəriyyətin faşizm üzərində tarixi qələbəsinin təmin olunmasında müəyyən rol oynadılar.

İkinci Dünya müharibəsi illərində çoxlu azərbaycanlı Avropa ölkələri ərazisində alman-italyan faşizminə qarşı Müqavimət hərəkatında iştirak etmişdir. 1942-1944-cü illərdə əsirlikdə olan azərbaycanlılar Fransa, İtaliya, Polşa, Triyest və Almaniyada hərbi əsirlər saxlanan düşərgələrdə gizli antifaşist təşkilatları yaratmışdılar.

1942-ci ilin yayında Polşanın Edlina şəhərində bir qrup azərbaycanlı hərbi əsir gizli antifaşist təşkilat yaratmışdılar. Gizli antifaşist təşkilatın üzvü Əli Əliyev təşkilatdan Polşa partizan dəstələri ilə əlaqə yaratmaq tapşırığı alır və əsirlər saxlanan düşərgədən qaçaraq, partizanlar ilə görüşür, onlardan gizli təşkilat üçün əlaqə parolu alır. Onun köməkliyi ilə zabit Bahadur Hacıyevin başçılığı altında bir qrup hərbi əsir 1942-ci ilin sonunda düşərgədən qaçıb partizanlara qoşulur. Bir neçə gündən sonra azərbaycanlı zabitlər Zeynal Zeynalov və Həsən Novruzovun başçılığı altında daha bir qrup azərbaycanlı əsir düşərgədən qaçıb partizanlara qoşulur. Bu qrup təxminən bir il "Azad Polşa" partizan dəstəsinin tərkibində almanlarla vuruşur. Zeynal Zeynalov və Həsən Novruzov 1943-cü ilin sonunda döyüşlərin birində qəhrəmancasına həlak olurlar.

1943-cü ilin sentyabr-oktyabr aylarında fransız şəhəri Bodezdə hərbi əsirlərin düşərgəsində azərbaycanlı əsirlər gizli antifaşist təşkilatı yaradırlar. Gizli təşkilatın üzvləri əsirlər arasında intibahnamələr yayır, yerli partizan dəstəsi ilə əlaqə





yaradırlar və almanlara işləyən "Lobinal" avtomobil zavodunu partladırlar. 1944-cü ilin yayında gizli təşkilat üsyan hazırlayıb hərbi əsirlərin kütləvi qaçışının təşkilini qarşılarına məqsəd qoyurlar. Bu vəzifənin həyata keçirilməsi gizli təşkilatın rəhbərlərindən biri, keçmiş hərbi siyasi işçi Hüseynrza Məmmədova tapşırılır. O, düşərgədə işləyən fransız fəhləsi Albert Salqo vasitəsilə Aveyron dairəsi Müqavimət hərəkatının rəhbəri ilə görüşür və gizli təşkilatın məqsədini ona bildirir. Fransız Müqavimət hərəkatından təlimat aldıqdan sonra gizli təşkilatın rəhbəri Mirzəxan Məmmədov 1944-cü il avqustun 16-da gecə üsyan qaldırıb əsirlərin qaçışını təşkil etmək və partizan dəstəsinə qoşulmaq qərarına gəlir. Bodez rayonunda partizan birləşməsinin komandiri Riçard partizanlara paylamaq üçün Bodezin müxtəlif yerlərində silah tədarükü görmüşdü. Fransız vətənpərvərlərinin çoxu qaçmış hərbi əsirlər almanlar tərəfindən təqib oluna biləcəyi ehtimalı qarşısında onları öz evlərində gizlətmək üçün hazırlıq da görmüşdülər. Üsyan Bodez partizanlarının faşist qarnizonuna hücumu ilə eyni vaxtda başlanmalı idi. Lakin üsyanın başlanmasına 2 saat qalmış faşistlərin casus şəbəkəsinə üsyanın planı məlum oldu. Düşərgə alman qoşunları ilə mühasirəyə alındı, üsyanın təşkilatçıları həbs edildi. Gizli təşkilatın 12 rəhbəri ölüm cəzasına məhkum edildi. Onları güllələmək üçün qəbiristanlığa aparan üstüörtülü maşında Mirzəxan Məmmədov və Qulu Quliyev qəflətən mühafizəçilərin üstünə tullandılar. Mühafizəçinin biri güclü zərbə ilə avtomobildən yerə atıldı, digəri isə boğuldu. Hərbi əsirlər avtomobildən cəld tullanaraq qaçmağa başladılar. Arxadakı maşından mühafizəçilər qaçanlara atəş açdılar. 5 nəfər, o cümlədən Mirzəxan Məmmədov, Q.Əliyev, Q.Məmmədov, M.Məmmədli və P.Cəfərxanlı həlak oldular. 7 nəfəri isə qaçıb gizlənə bildilər. Həmin gün düşərgədə azərbaycanlı əsirləri kütləvi surətdə güllələməyə başladılar. Gün ərzində 200 nəfərdən çox əsir güllələndi. Lakin kütləvi

qırğın sağ qalanların əzmini qıra bilmədi. Ertəsi gün, yəni avqustun 17-də fransız və azərbaycanlı partizanlar Bodezi azad etdilər. Bu əməliyyatda azərbaycanlı partizanlara gizli təşkilatın üzvü Hüseynrza Məmmədov rəhbərlik edirdi. Bodez şəhərinin əhalisi Fransanın azadlığı uğrunda həyatlarını vermiş azərbaycanlı əsirlərin xatirəsinə hörmət əlaməti olaraq ölənləri təntənə ilə şəhər qəbiristanlığında dəfn etdi. Azad edilmiş azərbaycanlı hərbi əsirlərdən Fransanın vahid Müqavimət hərəkatı sıralarında fransız partizan birləşməsinin nəzdində müstəqil sovet alayı yaradıldı. Alayın komandiri Hüseynrza Məmmədov oldu. Azərbaycan alayı Fransanın Bodez, Mand, Nim, Larzak və Kurşak şəhərlərinin azad edilməsində qəhrəmanlıqla iştirak etdi.

Fransanın cənubunda azərbaycanlı partizanlardan Əhmədiyə Cəbrayılov, Bayandur Hacıyev, Rza Rzayev, Ələkbər Mövsumov və b. igidlikləri ilə ad qazanmış, Fransanın yüksək hərbi ordenlərinə layiq görülmüşdülər. Fransada Armed Mişel adı ilə tanınan Əhmədiyə Cəbrayılov şəxsi igidliyə görə ən yüksək "Hərbi medal" ilə təltif olunmuşdu. O, təxminən üç il fransız partizanları ilə birlikdə alman faşistlərinə qarşı vuruşmuş, Fransanın Tuluz, Lion və Marsel şəhərlərinin azad edilməsi uğrunda döyüşlərdə iştirak etmişdir.

İtaliyanın şimalında, Yuqoslaviyada və Triyesdəki alman faşistlərinin hərbi əsərlər üçün düşərgələrində çoxlu sayda azərbaycanlı hərbi əsirlər var idi. Onlar hələ Almaniyanın hərbi əsir düşərgələrində olarkən gizli antifaşist təşkilatı yaratmışdılar. Təşkilatın əsas məqsədi azərbaycanlı əsirlərin qaçışını təşkil etmək idi. Lakin Almaniyada bunun üçün şərait yox idi. Azərbaycanlı hərbi əsirlərin bir hissəsinin Triyestin Opçina şəhərinə köçürülməsindən sonra azərbaycanlı əsirlərin düşərgədən kütləvi qaçışı başladı. 1944-cü il yanvarın 31-də Kontedelo kəndi yaxınlığındakı hərbi əsirlər üçün düşərgədən gizli təşkilatın üzvü Əkbər Babayevin başçılığı altında





azərbaycanlı hərbi əsirlərin böyük bir qrupu qaçıb partizanlara qoşuldu. Fevral ayında isə gizli təşkilatın üzvlərindən Mehdi Hüseynzadə, Cavad Akimli, Rza Ağazadə, Mirdamad Seyidov, Hans Frits və b. özləri ilə çoxlu miqdarda silah götürüb partizanların yanına qaçdılar. Əsirlikdən qaçmış azərbaycanlılar italyan partizan diviziyasının tərkibində xüsusi bölükdə birləşdirildilər. Bölüyün komandiri Cavad Akimli, komissarı Mehdi Hüseynzadə oldu. Onlar hələ əsirlikdə olan sovet döyüşçülərinin azad edilməsində fəal iştirak etdilər.

1944-cü il fevral ayının ortalarında Mehdi Hüseynzadənin rəhbərliyi altında Yuqoslaviya Milli-Azadlıq Ordusu 11-ci korpusunun qərargahı nəzdində xüsusi kəşfiyyat-təxribat qrupu yaradılır. Qrupa onun dostları Mirdamad Seyidov, alman Hans Frits, Tağı Əliyev və Ənvər Məmmədov da daxil idi. Bu ələkeçməz kəşfiyyatların, xüsusilə onların əfsanəvi rəhbəri Mehdi Hüseynzadənin rəşadəti bütün Adriatik dənizi sahillərinə yayıldı. Xalq arasında Mixaylo adı ilə şöhrət tapmış Mehdi Hüseynzadə 1944-cü il noyabrın 2-də döyüş tapşırığını yerinə yetirib geri qayıdarkən Qoritsa şəhəri yaxınlığında alman patrul dəstəsi ilə üz-üzə gəldi və axırıncı gülləsinə qədər döyüşüb qəhrəmancasına həlak oldu. Yalnız ölümündən xeyli sonra Mehdi Hüseynzadənin qəhrəmanlığı Azərbaycan xalqına məlum oldu. 1957-ci il aprelin 11-də SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Mehdi Hüseynzadəyə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Azərbaycanın mərd oğulları antifaşist Müqavimət hərəkatı sıralarında Avropa ölkələrinin xalqları ilə həmrəylik nümayiş etdirdilər, öz mətanət və şücaətləri ilə faşizmə qarşı mübarizədə Avropa xalqlarının nümayəndələri üçün nümunə oldular. Avropa xalqları İkinci Dünya müharibəsi illərində antifaşist Müqavimət hərəkatı sıralarında vuruşmuş azərbaycanlıların adlarını minnətdarlıq hissi və dərin hörmətlə xatırlayırlar.

**22.3. Azərbaycan mühacirləri müharibə illərində.** Almaniyada hələ müharibədən əvvəl Azərbaycan siyasi mühacirlərini öyrənməyə başlamışdılar. Sovet Azərbaycanından olan bəzi siyasi mühacirlər elə hesab edirdilər ki, Almaniya Sovet İttifaqını işğal etdikdən sonra Azərbaycana müstəqillik verəcəkdir. Lakin onlar səhv edirdilər. Almaniyanın Azərbaycan haqqında, bu yağlı tikə haqqında öz planları vardı. Bunu M.Ə.Rəsulzadə yaxşı başa düşürdü. Ona görə də 1941-ci ildə Almaniyaya hökumət nümayəndələri ilə danışığa çağırılanda, M.Ə.Rəsulzadə onlar ilə əməkdaşlıqdan imtina etdi və öz mövqeyini 12 maddədən ibarət memorandum vasitəsilə bildirdi. Onun mövqeyi nasional sosialistlərin xoşuna gəlmədi. M.Ə.Rəsulzadə Azərbaycan siyasi mühacirləri qarşısında çıxışında Almaniyanın Azərbaycan haqqında niyyətinin həqiqi mahiyyətini açıqladı və Almaniyanı tərk etdi.

Bununla belə alman faşistləri ilə əməkdaşlıq etməyə və Sovet dövlətinə qarşı mübarizəyə hazır olduqlarını bildirən yalançı vətənpərvərlər də tapıldı. Onlardan biri sovet ordusunun mayoru Əbdürrəhman Fətəlibəyli - Dudenginski idi. O, 1941-ci ildə, müharibənin ilk günlərində almanlara təslim olaraq, Hitlerə göndərdiyi müraciətnamədə azərbaycanlı hərbi əsirlərdən xüsusi hərbi hissələr düzəltməyi təklif etdi. Onun bu təklifi Almaniya rəhbərliyi tərəfindən müsbət qarşılandı.

Alman komandanlığı Qafqaza "Edelueys" adlı hücum planı hazırlamışdı. Bu plana görə Bakı 1942-ci ilin sentyabrın 25-də alınmalı idi. Qafqaz uğrunda döyüşlərdə Qafqaz müsəlmanlarından, o cümlədən azərbaycanlı hərbi əsirlərdən təşkil olunmuş xüsusi hərbi hissələr də fəal iştirak edirdilər. Lakin 1942-ci ilin oktyabrında Qafqazda alman orduları darmadağın edildilər. Bu qələbədə 77-ci, 223-cü, 271-ci, 402-ci və 416-cı Azərbaycan milli diviziyalılarının da payı vardı. Qafqazda məğlub olduqdan sonra alman komandanlığı Qafqaz müsəlmanlarının xüsusi hərbi hissələrini Krıma keçirdi. 1943-





cü ildə isə alman komandanlığı tərəfindən türk diviziyasının tərkibində Azərbaycan legionu yaradıldı. Azərbaycan legionu Fransanın cənubunda müttəfiq qoşunlarına qarşı döyüşlərdə iştirak etdi və məğlubiyyətə uğrayaraq İtaliyanın şimalına çəkildi, müharibə qurtardıqdan sonra isə buraxıldı. Legionun şəxsi heyyəti dünyanın müxtəlif ölkələrinə səpələndi.

Almaniyada yaşayan və müharibədə Almaniyanın qələbəsi nəticəsində müstəqil Azərbaycan dövlətinin yaranmasına ümid bağlayan azərbaycanlı siyasi mühacirlər 1943-cü il noyabrın 6-da Berlində Milli qurultay çağırdılar. Qurultay Əbdürrəhman Fətəlibəyli - Dudenğinskinin başçılığı ilə Azərbaycan Mühacir Hökumətini yaratdılar. Bu hökumət 1944-cü ilin qışınadək "yaşadı".

Azərbaycanın bəzi siyasi mühacirləri və Qafqazın müsəlman xalqlarından olan hərbi əsirlərin bir hissəsi öz yalançı vətənpərvərlikləri ilə ölkənin daxilindəki düşmənlərimizə Sovet dövlətinin rəhbərliyində müsəlman xalqlarına etimadsızlıq münasibətini formalaşdırmağa "əsas", bəhanə verirdilər. Bu münasibət nəticəsində 1944-cü ilin fevralında 650.000 nəfər çeçen, inquş və qaraçaylı, həmin ilin mayında 183.155 nəfər Krım türkü, həmin ilin noyabrında is Gürcüstandan 91.095 nəfər axısxa türkü ölkənin şərq bölgələrinə deportasiya edildi. Hələ müharibənin əvvəllərində Sovet rəhbərliyi tərəfindən azərbaycanlıların da Orta Asiyaya və Kazağıstana köçürülməsi planı hazırlanmışdı. Lakin Azərbaycan KP MK-nın o vaxtkı birinci katibi Mircəfər Bağırovun səyi nəticəsində Azərbaycan xalqı bu faciədən yaxa qurtara bildi. Azərbaycan xalqı İkinci Dünya müharibəsi illərində cəbhədə qəhrəmanlıq nümunələri ilə və arxa cəbhədə fədakar əməyi ilə Sovet dövlətinin rəhbərlərində azərbaycanlılara etimadsızlıq münasibətlərini dağıda bildi.

**22.4. Azərbaycan zəhmətkeşlərinin, elm və mədəniyyət xadimlərinin arxa cəbhədə fədakarlığı. Bakı neftinin faşist Almaniyası üzərində qələbədə rolu.** Dünya

müharibəsinin başlanması şəraitində ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi Sovet dövləti üçün həyati əhəmiyyətli iş idi. Sovet rəhbərliyi ölkənin iqtisadi və hərbi qüdrətinin daha da möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Sovet rəhbərliyi yaxşı başa düşürdü ki, müharibədə qələbə üçün yaxşı təşkil olunmuş arxa cəbhə lazımdır. Bu baxımdan belə bir tarixi həqiqət nəzərə alınırdı ki, ən qüdrətli, yaxşı təlim görmüş ordu belə, əgər yaxşı silahlanmasa və kifayət qədər ərzaqla təmin edilməsə məğlub ola bilər.

Hələ 1940-cı ildə Azərbaycan SSRİ-də 8 saatlıq iş günə keçildi. Əmək intizamının möhkəmləndirilməsi, neft mədənlərinin, zavodların fabriklərin və müəssisələrin işinin yaxşılaşdırılması üçün konkret tədbirlər görüldü. Əmək ehtiyatları yaratmaq məqsədilə sənət məktəbləri və fabrik-zavod təhsili məktəblərinin şəbəkəsi genişləndirildi. Müharibə başlandığı şəraitdə kənd təsərrüfatını mexanizator kadrları ilə təchiz etmək üçün qadınların kütləvi surətdə traktorçu, kombaynçı və digər kənd təsərrüfatı texnikası peşələrinə yiyələnmələri hərəkatı başlandı.

Müharibənin ilk günlərindən Azərbaycanda xalq təsərrüfatının hərbi relslər üzərinə keçirilməsi sahəsində böyük işlər görüldü, "hər şey cəbhə üçün, hər şey qələbə üçün" prinsipinə keçildi. Xalq təsərrüfatının müharibə tələblərinə uyğun yenidən qurulması ilə bərabər Bakının müdafiəsinin möhkəmləndirilməsi üzrə də iş görüldü. 1942-ci ilin sentyabrında Dövlət Müdafiə Komitəsinin qərarı ilə Mahaçqala, Dərbənd və Bakı müdafiə xətlərinin inşasına başlandı. Tikintiyə rəhbərlik üçün qərargahı Bakıda yerləşən Xüsusi Bakı müdafiə rayonu yaradıldı. Bakıdan şimalda 10 istehkam xətti çəkildi. Tikintidə 43 min nəfər işləyirdi. Xüsusi Bakı müdafiə rayonu istehkamlarının tikintisi oktyabrın ortalarında başa çatdırıldı. Qısa müddətdə 97 km tank əleyhinə xəndək qazıldı, 100 km piyadalar əleyhinə maneələr quruldu,





800 km uzunluğunda əlaqə-keçid səngərləri, minlərlə daimi atəş nöqtələri, blindajlar və komanda - müşahidə məntəqələri yaradıldı.

Ölkənin iqtisadi və hərbi qüdrətinin möhkəmləndirilməsində neft əhəmiyyətli rol oynayırdı. 1940-cı ildə Sovet İttifaqında istehsal olunan neftin 71,4 faizi Azərbaycanın payına düşürdü. Azərbaycan neftçiləri həqiqətən qəhrəmanlıq nümunəsi göstərərək neft hasilatını respublikanın neft sənayesi tarixində hələ görünməmiş yüksəkliyə qaldıra bildilər. 1941-ci ildə Azərbaycanda rekord miqdarda - 23 milyon 541 min ton neft istehsal edildi. Bakının maşınqayırma zavodları öz işlərini yenidən qurub minomyot avtomat, tank üçün diyircəkli yastıqlar, hərbi sursat istehsalına başladı. Müharibə illərində kənd zəhmətkeşlərinin payına da ciddi imtahan düşdü. Kənddə əmək qabiliyyəti olan əhalinin kəskin azalmasına, kənd təsərrüfatının maddi texniki bazasının zəifləməsinə baxmayaraq kənd zəhmətkeşləri kənd təsərrüfatı məhsullarının əsas növləri üzrə dövlət planlarını artıqlamasilə yerinə yetirirdilər. 1942-ci ildə Azərbaycanın kənd əməkçiləri dövlətə plandan əlavə yarım milyon pud taxıl, 8211 pud yağ, təxminən 30 min pud yun verdilər.

Azərbaycan zəhmətkeşləri cəbhə üçün vəsait toplanması ümumxalq hərəkatında da fəal iştirak edirdilər. İkinci Dünya müharibəsi dövründə Azərbaycan zəhmətkeşləri müdafiə fonduna 295 milyon manat pul vəsaiti, 15,5 kq qızıl, təxminən bir ton gümüş və mis əşyalar verdilər. Kənd zəhmətkeşləri təkcə 1942-cı ildə Stalinqrad və Qafqazın müdafiəçilərinə 146 vaqon kənd təsərrüfatı məhsulları, ərzaq və yun paltarlar doldurulmuş 242 min poçt bağlaması göndərmişdilər.

Azərbaycan hökumətinin fəaliyyətində işğala məruz qalmış ərazilərdən respublikaya köçürülmüş istehsal vasitələrinin saxlanması və istismarı qayğısı xüsusi yer tuturdu. Bir çox rayonlar Stavropol və digər işğal olunmuş vilayətlərdən

köçürülmüş MTS, sovxoz və kolxoz texnikasını qəbul etmiş və qayğı ilə qoruyurdular. Göyçay, Ağsu, Quba, Qusar, Xaçmaz və b. rayonlar işğal olunmuş vilayətlərdən gətirilmiş çoxlu miqdarda mal-qaranı qəbul edib Şimali Qafqazın azad olunmasına qədər onları qoruyub saxladılar. Bakı, Lənkəran və b. şəhərlərə köçürülüb gətirilmiş sənaye müəssisələri yeni tikilmiş istehsal binalarında quraşdırılıb cəbhə üçün məhsul istehsalına başladılar.

Azərbaycan xalqı faşist işğalından azad edilmiş rayonların əhalisinə dağıdılmış xalq təsərrüfatını bərpa etməkdə ümumxalq yardım hərəkatında da fəal iştirak etmişdir. Azərbaycandan Stavropol ölkəsinə, Leninqrada, Ukraynaya, Volqaboyu vilayətlərə çoxlu tikinti materialları, kənd təsərrüfat texnikası və ərzaq göndərilmişdi. Azərbaycan neft maşınqayırma sənayesi işçiləri Ukrayna neft sənayesi üçün böyük miqdarda qazma və istismar avadanlığı, maşınqayıranlar isə öz Ukrayna həmkarlarına 15 metalkəsən dəzgah göndərmişdilər. 1943-1944-cü illərdə Azərbaycandan azad olunmuş rayonlara 177 vaqon sement, 40 avtomobil, 315 traktor, 315 kotan və 42000 baş qaramal göndərmişdilər. 1944-cü ilin sentyabrında Ukraynanın neft sənayesini bərpa etmək üçün Draqobiç və Borislav rayonlarına bir qrup Bakı neftçiləri - mühəndis və ustalar getmişdilər. Rusiya və Ukraynanın azad edilmiş rayonlarından kənd təsərrüfatında müvəqqəti işləmək üçün Azərbaycandan 12 aqronom, 13 mexanik, 60 traktor briqadiri, 315 traktorçu və b. mütəxəssislər göndərilmişdi.

Müharibədə faşizm üzərində qələbədə Azərbaycan alimlərinin də xidməti rolu olmuşdur. Onlar öz elmi-tədqiqatları ilə neft mədənlərinin istismarının yaxşılaşdırılmasına, neft hasilatının və emalının artırılmasına nail oldular. Görkəmli kimyaçı alim Yusif Məmmədəliyev yüksək oktanlı aviasiya benzinin istehsalının yeni səmərəli üsulunu kəşf etdi. Kimyaçı alim Ə.Quliyev şüşəyə doldurulmuş tank əleyhinə yandırıcı





qarışıq və başqa partlayıcılar kəşf etdi. İctimai elmlər sahəsində alimlər Azərbaycan xalqının qəhrəmanlıq tarixindən bəhs edən əsərlər yaratdılar. 1941-ci ildə Almaniya ilə müharibə ərəfəsində prof. Zülfəli İbrahimovun redaktorluğu ilə "Azərbaycan tarixinin qısa oçerkləri" çapdan çıxdı. 1943-cü ildə prof. Heydər Hüseynov və prof. Məmməd Arif Dadaşzadənin redaktorluğu ilə "Azərbaycan ədəbiyyatının qısa tarixi" kitabı nəşr olundu.

Müharibə illərində Azərbaycanın bədii söz ustaları öz əsərlərində cəsur döyüşçülərimizin surətlərini yaradırdılar. Xalq arasında S.Vurğunun "Ananın nəsihəti" və "Şəfqət bacısı", S.Rüstəmin "Ana və poçtalyon", Ə.Cəmilin "Əziz nənə, mənə nağıl danış", Mir Cəlalın "Anaların üsyanı" və b. bədii əsərlər dillər əzbəri idi. Müharibə illərində əhalinin döyüş ruhunun yüksəldilməsində Azərbaycan musiqisinin xüsusi xidməti olmuşdur. Azərbaycan bəstəkarları onlarla marş, nəğmə, simfoniya və operalar yaratdılar. Onların arasında Ü.Hacıbəylinin "Qələbə marşı" və "Şəfqət bacısı", S.Rüstəmovun "Cəbhəyə", S.Ələsgərovun "Gözlə məni", Q.Qarayev və C.Hacıyevin "Vətən" və b. musiqi əsərləri məşhur idi.

Müharibə illərində Azərbaycanın görkəmli ədəbiyyat və incəsənət xadimləri S.Vurğun, S.Rüstəm, M.Rahim, O.Sarıvəlli, R.Rza, Z.Xəlil, M.İbrahimov, M.Hüseyn, Ə.Vəliyev, M.Cəlal, Ə.Məmmədxanlı, T.Əyyubov, İ.Əfəndiyev, S.Rüstəmov, C.Cahangirov, Niyazi, Bülbül və b. dəfələrlə cəbhəyə gedib 77-ci, 223-cü, 402-ci və 416-cı Azərbaycan diviziyalarının döyüşçüləri önündə çıxışlar edirdilər. İncəsənət işçiləri döyüşçülər qarşısında konsert proqramları ilə çıxış etməklə bərabər Bakı, Kislovodsk, Pyatiqorsk, Jeleznovodsk, Minvod, Yesentuki və b. şəhərlərdəki hərbi qospitallarda yaralı əsgərlər qarşısında da konsertlər verirdilər.

Beləliklə, inamla demək olar ki, Azərbaycan xalqı İkinci Dünya müharibəsində fəal iştirak etmiş və faşist Almaniyası üzərində qələbədə onun da xidməti olmuşdur. Müharibə illərində

Azərbaycandan cəbhəyə 540 min nəfər, o cümlədən 10 min nəfər qadın əsgər və zabit getmişdir. Onlardan 176 min nəfəri igidlik, cəsurluq və rəşadəti ilə fərqlənərək dövlət orden və medalları ilə təltif olunmuşlar, 121 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür, 30 nəfəri isə "Şöhrət" ordeninin bütün üç dərəcəsini almışdır. Azərbaycanın yüzlərlə igid oğlu Fransa İtaliya, Polşa, Yuqoslaviya, Çexoslovakiya və b. xarici ölkələrin dövlət orden və medalları ilə təltif olunmuşlar.

İkinci Dünya müharibəsi illərində Azərbaycan Sovet Ordusunun əsl cəbbəxanası olmuş, cəbhəsi fasiləsiz olaraq silah və sursatla təmin etmişdir. Azərbaycan xalqı möhkəm arxa cəbhə yaradaraq, ordunu ərzaq ilə təmin etmək üçün bütün imkanlardan istifadə etmişdir.

Müharibə illərində Bakı fəhlələri, o cümlədən neftçiləri xüsusilə fərqlənmişlər. Bakı fəhlələri 1941-1945-ci illərdə cəbhəyə silah və sursat, 75 min ton neft, 22 milyon ton benzin və digər neft məhsulları verməklə faşizm üzərində qələbəyə öz layiqli töhfələrini vermişlər. Sovet İttifaqı marşalı G.Jukovun dediyi kimi İkinci Dünya müharibəsi illərində Bakı neftçiləri əsl qəhrəmanlıq göstərərək, fədakar əməklərilə cəbhəyə faşist Almaniyası üzərində qələbə üçün laxım olan qədər yanacaq verdilər. Ona görə də cəsarətlə demək olar ki, Bakı İkinci Dünya müharibəsinin Qəhrəman şəhəri olmuşdur.

### Ədəbiyyat:

1. Azərbaycan tarixi. 7 cilddə, 7-ci cild, Bakı, 2003, s. 11-89.
2. X.İbrahimli. Azərbaycan siyasi mühacirəti. Bakı, 1956.
3. Г.Мадатов. Азербайджан в Великой Отечественной войне. Баку, 1975.
4. Г.Раджабли. Азербайджан в годы Второй мировой войны. Учебное пособие, Баку, 2003.





# XXIII FƏSİL

## AZƏRBAYCAN SSR İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI QURUCULUQ İLLƏRİNDƏ

**23.1. Müharibədən sonrakı ilk illərdə Azərbaycan SSR-də yeni sənaye mərkəzlərinin yaradılması.** Azərbaycan bilavasitə faşist Almaniyasının işğalına məruz qalmasa da xalqımız müharibənin bütün ağırlığını çəkmişdi. Müharibə nəticəsində sənayenin ümumi həcmi 1940-cı il ilə müqayisədə 1945-ci ildə 22 faiz, neft hasilatı isə 50 faiz aşağı düşmüşdü. Kənd təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdi. Pambıq istehsalı 1940-cı ildəki 154 min tondan 65 min tona, barama istehsalı 2384 tondan 1615 tona, qaramalın sayı 1382.000 başdan 1.203.500 başa enmişdi.

Respublika xalq təsərrüfatının bərpası hələ İkinci Dünya müharibəsi qurtarmamışdan, 1945-ci ilin mayından başladı. Silah istehsalının azaldılması ilə əlaqədar olaraq sənayenin yenidən qurulması üçün tədbirlər görüldü. Müharibə qurtardıqdan sonra müəssisələrdə iş vaxtından artıq işləmək hallarına son qoyuldu, 8 saatlıq iş günü və illik məzuniyyətlər bərpa edildi. 1945-ci il dekabrın 1-dən müharibə illərində istifadə edilməmiş məzuniyyətlərə görə pul kompensasiyasının ödənilməsinə başlandı. 1947-ci ildə çörək və digər ən zəruri istehlak mallarının azad ticarətinə keçildi, talon sistemi ləğv edildi.

Hərbi iqtisadiyyatdan dinc iqtisadiyyata keçidin müvəffəqiyyətlə başa çatdırılması xalq təsərrüfatını bərpa və inkişaf etdirmək vəzifələrini yerinə yetirmək sahəsində işləri daha çox genişləndirməyə imkan yaratdı. 1946-1950-ci illərdə

Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair dördüncü beşillik planda sənayenin və kənd təsərrüfatının inkişafını müharibədən əvvəlki səviyyəyə çatdırmaq və bu səviyyəni ötüb keçmək əsas vəzifə kimi irəli sürüldü.

SSRİ-nin neftçıxarma sənayesinin əsas mərkəzi sayılan Azərbaycan müharibədən sonrakı illərdə artıq bütün ölkənin yanacağa olan ehtiyacını tam ödəyə bilmirdi. Ona görə də Xəzər dəniz neft yataqlarının kəşf edilib istifadəyə verilməsi problemi ortaya çıxdı.

Azərbaycan neft sənayesinin inkişafındakı Xəzər dəniz neft yataqlarının kəşfi və istifadəyə verilməsi çox mühüm hadisə oldu. Azərbaycan alimlərinin və neftçilərinin gərgin əməyi sayəsində dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına başlandı. Neft daşlarında neftçilərin qazdığı ilk kəşfiyyat quyusu 1949-cu il noyabrın 7-də fontan vurdu. Dəniz neft yataqlarında istifadə etmək üçün dünya təcrübəsində ilk dəfə olaraq dənizdə neft-mədən estakadaları tikildi. Neftçi fəhlələrin, mühəndis-texniki işçilərin və alimlərin fədakar əməyi nəticəsində dəniz yataqlarından dördüncü beşilliyin son ili 1950-ci ildə 1,6 milyon ton neft çıxarıldı.

1946-1950-ci illərdə neftayırma zavodları yenidən quruldu və yeni texnika ilə təmin edildi. Maşınqayırma sənayesinin yeni sahələrinin yaradılmasına başlandı. 1947-ci ildə respublika elektrotexnika sənayesinin ilkini olan Bakı elektrik maşınqayırma zavodu (BEMZ), Bakı diyircəkli yastıq zavodu, yeni cihazqayırma zavodu və elektrotexnika zavodu işə düşdü. Yeni zavodların istifadəyə verilməsi o vaxta qədər əsasən neftmaşınqayırma zavodlarından ibarət olan maşınqayırma sənayesinin birtərəfli inkişafına son qoydu.

Azərbaycanda yeni sənaye mərkəzləri yaradılmasına başlandı. Hələ 1944-cü ildə, tikintisinə müharibədən əvvəl başlanmış, Sumqayıt boru-prokat zavodunun tikintisi bərpa





olundu. Sumqayıtda alüminium zavodunun tikintisi üçün hazırlıq işləri genişləndi. 1947-ci ilin yayında Sumqayıtda respublikanın böyük kimyasının ilkini olan sintetik kauçuk zavodunun tikintisinə başlandı. 1945-ci ilin mayında, tikintisinə hələ müharibədən əvvəl başlanmış, Mingəçevir SES-in tikintisi bərpa edildi. Daşkəsəndə də dəmir filizi yataqlarının əsası hələ müharibədən əvvəl qoyulmuşdu. Müharibə nəticəsində Daşkəsən filiz mədəninin tikintisi dayandırılmışdı. 1945-ci ilin ikinci yarısında Daşkəsəndə də işlər bərpa edildi və Daşkəsən dəmir filizi yatağı əsasında Cənubi Qafqazda ən böyük filiz-mədən sənayesinin yaradılmasına başlandı.

Azərbaycan sənayesinin metala böyük tələbatı ilə bağlı olaraq kifayət qədər dəmir filizi ehtiyatları olan respublikamızda tam istehsal dövriyyəli metallurgiya kombinatının yaradılması zərurəti hələ müharibədən öncə meydana çıxmışdı və bu mühüm sənaye sahəsinin yaradılması və inkişafı yolları barədə əsaslandırılmış müxtəlif layihələr də hazırlanmış, təkliflər irəli sürülmüşdü. Lakin gürcüpərəst Mərkəz istehsalatın inkişaf tələblərinə məhəl qoymayaraq, Azərbaycan dəmir filizi ehtiyatları əsasında Gürcüstan SSR-də fəhlə sinfinin boy sırasını artırmaq məqsədi ilə, xammal və yanacaq mənbələrindən xeyli uzaqda yerləşən Rustavidə metallurgiya kombinatı tikintisini qərar-laşdırdı. Nəticədə Rustavi metallurgiya kombinatı bütün Sovet İttifaqında maya dəyəri ən baha başa gələn polad istehsal edən müəssisəyə çevrildi.

Sumqayıt boru-prokat zavodu, Mingəçevir SES və Daşkəsən filiz-mədən kombinatının Azərbaycan sənayesinin inkişafı üçün əhəmiyyətini aydın təsəvvür etmək üçün qeyd etmək lazımdır ki, 1952-ci ilin oktyabrında Sov.İKP XIX qurultayında təsdiq olunmuş beşinci beşillik planın direktiv-lərində kommunizmin nəhəng tikintiləri sırasında onlar Azərbaycan üçün kommunizmin nəhəng tikintiləri adlandırılır-

dı. Sumqayıt boru-prokat zavodu 1952-ci il dekabrın 31-də istifadəyə verildi. 1955-ci il martın 8-də isə Sumqayıtda əlvan metallurgiyanın ilkini olan alüminium zavodu işə salındı.

1954-cü il yanvarın 10-da Mingəçevir SES-in birinci növbəsi işə salındı. Həmin ilin sonunadək digər dörd aqreqatın işə düşməsindən sonra Mingəçevir SES-in gücü 356 min kilovata çatdı. 1954-cü ilin aprelində Daşkəsən filiz-mədən tikintisi başa çatdırıldı. Daşkəsəndəki filiz-saflaşdırma kombinatında 1960-cı ildə dəmir filizi çıxarmaq üçün əlavə qurğular işə salındı. Daşkəsənin filizsaflaşdırma kombinatı Quşçu körpüsü dəmiryolu stansiyası ilə iki xətdən ibarət 6 km uzunluğunda hava kanat yolu ilə birləşdirildi. Daşkəsən filizi Alabaşlı - Quşçu dəmiryolu xətti ilə Gürcüstanın Rustavi metallurgiya kombinatına daşınırdı. Buradan isə, öz növbəsində, hazır metalın bir hissəsi Sumqayıt boru-prokat zavoduna göndərildi.

Müharibədən sonrakı illərdə Azərbaycanın digər bölgələrində də sənaye müəssisələri yaradıldı. Daşkəsən filiz-mədəninin işə salınması və elektrik dəmir yolunun çəkilməsi Zəylik alunit yatağının alüminium filizindən istifadə etməyə imkan yaratdı. 1955-ci ildə respublikanın ikinci sənaye mərkəzi Gəncədə əlvan metallurgiyamızın ən iri müəssisələrindən biri olan gil-torpaq kombinatının tikintisinə başlandı. Ordubad rayonunda əvvəllər yaradılmış Paraqaçay molibden mədəni və saflaşdırıcı fabriki ilə yanaşı, 1954-cü ildə indiki Şərur rayonunda gümüşlü qurğuşun yatağının sənaye miqyasında işlənməsinə başlandı. Azərbaycanın bir çox rayonlarında yeni yüngül sənaye və yeyinti sənaye müəssisələri, inşaat materialları müəssisələri - sement və kərpic zavodları işə salındı. Nəticədə, əgər 1940-cı ildə respublika sənaye məhsullarının 90 faizindən çoxu Bakı və onun rayonlarının payına düşürdüsə, 1958-ci ildə bu rəqəm 65, 1 faizə endi.





**23.2. Müharibədən sonrakı illərdə siyasi rejimin mülayimləşdirilməsi şəraitində Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında dəyişikliklər**.1953-cü il martın 5-də Stalin vəfat etdikdən sonra Sovet İttifaqında hakimiyyəti 1953-cü il sentyabrın 3-də Sov. İKP Mərkəzi Komitəsinin birinci katibi seçilmiş N.Xruşşov ələ aldı. N.Xruşşovun şəxsiyyətə pərəstiş və onun acı nəticələrini aradan qaldırmaq uğrunda mübarizəsi şəraitində siyasi mülayimləşdirmə prosesində ictimai-siyasi həyatda deformasiya və dəyişikliklər baş verdi.

1953-cü il iyulun 12-13-də Azərbaycan KP Mərkəzi Komitəsi və Bakı Komitəsinin birgə Plenumunda M.C.Bağırov partiya rəhbərliyindən uzaqlaşdırıldı. (O, öncə Azərbaycan SSR Nazirlər Şurasının sədri, sonra isə Kuybışevneft birliyi rəisinin müavini işlədi. 1956-cı il aprelin 26-da isə Bakıda SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının hökmü ilə ölüm cəzasına məhkum edildi). Azərbaycan KP MK-nın birinci katibi öncə Teymur Yaqubov oldu, 1954-cı il fevralın 14-16-da keçirilən Azərbaycan KP XX qurultayında İman Mustafayev seçildi. Azərbaycan SSR Nazirlər Sovetinin sədri Sadıx Rəhimov, Ali Soveti Rəyasət Heyətinin sədri isə görkəmli yazıçı Mirzə İbrahimov oldular.

Respublikanın yeni rəhbərliyi iqtisadi tərəqqiyə nail olmağa, xalqın vəziyyətini yaxşılaşdırmağa, milli və mənəvi dəyərlərin, mədəniyyətin, elmin və təhsilin inkişaf etdirilməsinə cəhdlər göstərdilər. Sənayenin inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin Bakıya axını nəticəsində paytaxtın iqtisadi-ictimai həyatında azərbaycanlı kadrların rolu artdı. Beynəlmiləl şəhər kimi məşhurlaşmış Bakı azərbaycanlaşma yoluna düşdü. Respublikanın kənd təsərrüfatına göstərilən diqqət nəticəsində ərzaq məhsulları istehsalı artmağa başladı. Azərbaycan rəhbərliyi Mərkəz qarşısında respublikada istehsal olunan pambığın emalı üçün yerlərdə müvafiq fabrik və

zavodların tikilməsi məsələsini qaldırdıqda, onlar millətçilikdə ittiham olundular.

İctimai-siyasi mülayimləşmə şəraitində respublikada Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına təşəbbüs edildi. Bu məsələnin mətbuatda açıq müzakirəsi keçirildi. Mirzə İbrahimovun təşəbbüsü ilə 1956-cı ildə Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR-in 1937-ci ildə qəbul edilmiş Konstitusiyasına Azərbaycan dilinin respublikada dövlət dili olması haqqında maddə əlavə edildi.

Azərbaycanda milli özünüdərk, milli oyanış əlamətlərini hiss edən Mərkəz respublikanın rəhbərliyinə qarşı təqiblərə başladı. Mərkəz xalqı qorxutmaq, özünə tabe saxlamaq üçün növbəti dəfə Dağlıq Qarabağ məsələsini ortaya atdı. İndiki Ermənistanın və Dağlıq Qarabağın erməni əhalisi Dağlıq Qarabağın Ermənistan SSR-ə verilməsini tələb etməyə başladı. Ermənistan SSR-də antitürk əhvali-ruhiyyə yenidən qızışdırıldı. 1958-ci ildə Bakıya gəlmiş erməni katolikosu II Uozger həyasızcasına Dağlıq Qarabağın Ermənistan SSR-ə verilməsi, Bakıda erməni ruhani seminariyasının açılmasını, hər səhər Bakının mərkəzində yerləşən erməni kilsəsinin zəng vurmasına icazə verilməsini Azərbaycan SSR Nazirlər Sovetinin sədrinə təklif etmiş, lakin rədd cavabı almışdı. O vaxt sərhəd dəyişiklikləri etməkdən ehtiyat edən Mərkəz Azərbaycan rəhbərliyini millətçilik siyasəti yeritməkdə təqsirləndirdi. Sov. İKP MK Azərbaycan partiya təşkilatının işini yoxlamaq üçün Bakıya 26 nəfərdən ibarət komissiya göndərdi. Həmin günlərdə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə respublikanın "millətçi" rəhbərliyi dəvət edilmədi.

1959-cu il iyunun 24-29-da keçirilən Sov. İKP MK-nın Plenumu heç bir konkret əsas göstərmədən, qondarma ittihamlarla Azərbaycan rəhbərliyini ciddi tənqid etdi. 1959-cu ilin iyulunda keçirilən Azərbaycan KP MK-nın Plenumu İmam Mustafayevi vəzifəsindən azad etdi, MK-nın birinci katibi Vəli





Axundov seçildi. Vəli Axundovun respublikaya rəhbərlik dövrü SSRİ-də N.Xruşşovun volyuntarist siyasətinin gücləndiyi dövrə təsadüf etdi.

Sov. İKP XXII qurultayında (1961-ci ilin oktyabrında) elan etdiyi yaxın gələcəkdə SSRİ-də kommunizm qurulacağı haqqında utopik ideyalar və uğursuz islahatlar N.Xruşşovu cəmiyyətdə və partiyada hörmətdən salmışdı. Partiya elitasında ona qarşı müxalifət formalaşırdı. Hakimiyyəti əldə saxlamaq üçün N.Xruşşov partiyanı parçalamaq, siyasi məsələlərin həllində təşkilatların birgə fəaliyyətlərini məhdudlaşdırmaq, onların diqqətini təsərrüfat məsələlərinə və islahatlara rəhbərliyə yönəltmək məqsədilə Sov.İKP MK-nın Noyabr (1962) Plenumunda rəhbər partiya orqanlarının istehsalat prinsipi üzrə yenidən təşkil edilməsini qərara aldı. Mərkəzi Komitədə sənaye və kənd təsərrüfatına rəhbərlik üzrə iki büro yaradıldı. Azərbaycanda da şəhər-sənaye partiya təşkilatları və rayon-kənd partiya təşkilatları, sənaye və kənd təsərrüfatı üzrə istehsalat idarələri yaradıldı. Lakin N.Xruşşovun partiya aparatını zəiflətmək cəhdlərindən narazı qalan ali partiya və təsərrüfat rəhbərləri birləşərək 1964-cü il oktyabrın 14-də Sov. İKP MK-nın Plenumunda onu vəzifədən kənar etdilər. Sov. İKP. MK-nın Birinci (1966-cı ildən - Baş) katibi L.Brejnev seçildi.

XX əsrin 60-cı illərində milli özünüdərkin güclənməsi və milli dəyərlərə diqqətin artması ilə bərabər respublikada dissident hərəkatı da genişlənirdi. O vaxt Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsində rəhbər vəzifədə çalışan, 1964-cü ildən komitənin sədr müavini, 1967-ci ildən isə sədri olmuş Heydər Əliyevin Azərbaycan dissident hərəkatının dəstəklənməsində, vətənpərvər milli ziyalıların müdafiəsində önəmli xidmətləri olmuşdur.

### 23.3. XX əsrin 60-cı illərinin sonu - 80-ci illərinin əvvəllərində Azərbaycan SSR-də rəhbərliyin möhkəmlən-

**dirilməsi və respublikada yeni mütərəqqi sənaye sahələrinin yaradılması, iqtisadi və sosial yüksəliş.** XX əsrin 60-cı illərinin ortalarında bütün Sovet İttifaqında oluğu kimi Azərbaycanda da iqtisadi və mədəni həyatın bütün sahələrində durğunluq baş vermişdi. Respublika sənayesinin, kənd təsərrüfatının, tikintinin və xidmət sahələrinin heç bir sahəsində plan göstəriciləri yerinə yetirilmir, mənəviyyat sahəsində rüşvətxorluq, bürokratizm və dövlət vəsaitini mənimsəmək, dövlət əmlakını dağıtmaq halları baş alıb gedirdi. Belə bir şəraitdə Moskvanın təşəbbüsü ilə Azərbaycan KP MK-nın 1969-cu il iyulun 14-də keçirilən Plenumu respublikaya rəhbərliyi möhkəmlətmək sahəsində tarixi bir addım atdı, Mərkəzi Komitənin birinci katibi vəzifəsinə, bundan öncə respublika Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik edən Heydər Əliyevi seçdi. Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu.

Çağdaş dövrdə Azərbaycanla bağlı taleyüklü vəzifəni boynuna götürən Heydər Əliyev həmin il avqustun 5-də Azərbaycan KP MK-nın Plenumunda məruzə ilə çıxış edərək respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil etdi, təsərrüfata rəhbərlikdə, mədəni quruculuq sahəsində və ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd etdi və onları aradan qaldırmaq yollarını göstərdi.

Heydər Əliyev qısa müddətdə respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi, bütün dövlət hakimiyyəti orqanlarının işini böyük uzaqgörənliklə xalqın iqtisadi, sosial və mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi. O, rüşvətxorluğa, təsərrüfatsızlığa və dövlət əmlakını dağıtmağa qarşı mübarizəyə başladı. Heydər Əliyev ağlı, bacarığı və yorulmaq bilmədən fəaliyyəti nəticəsində Sovet İttifaqının rəhbərliyində böyük nüfuz qazandı. O, 1976-cı ildə Sov. İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ildə Siyasi Bürosunun üzvü seçildi.





Heydər Əliyevin mövcud reallıqlar daxilində məharətlə həyata keçirdiyi çoxcəhətli siyasi-dövlətçilik fəaliyyətinin nəticəsi olaraq Sovet İttifaqında XX əsrin 70-ci illərində əsas iqtisadi göstəricilərin artım sürətinin aşağı düşdüyü bir vaxtda Azərbaycanda bütün iqtisadi göstəricilər durmadan artırdı. 14 ildə respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı 2 dəfə, xalq istehlakı malları 3 dəfə, kənd təsərrüfatı istehsalının ümumi həcmi 2,7 dəfə artmış, 250-dən çox fabrik, zavod, istehsal sexləri tikilmiş, 2 milyondan çox adamın mənzil şəraiti yaxşılaşdırılmışdı.

Heydər Əliyev 1976-cı ildə Sov. KİP MK, SSRi Nazirlər Soveti və SSRİ Ali Soveti Rəyasət Heyətinin "Azərbaycanda yeni mütərəqqi sənaye sahələrinin yaradılması haqqında" birgə qərarının qəbul edilməsinə nail oldu. Azərbaycan KP MK-nın 1976-cı il Oktyabr və Noyabr plenumlarında mərkəzin həmin qərarı müzakirə olundu və Azərbaycanda radioelektronika və dəqiq cihazqayırma sənaye sahələrinin yaradılması və inkişaf etdirilməsi tədbirləri hazırlandı. Həmin tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanda IX-X beşilliklərdə hərbi sənaye əhəmiyyətli və kosmik tədqiqatlarla bağlı 11 iri sənaye müəssisəsi, radioelektronika zavodları tikilib istifadəyə verildi. Sonuncu, 12-ci nəhəng müəssisə - Əhmədlidə tikilən robot dəzgahlar zavodunun tikintisi isə Heydər Əliyev Moskvaya rəhbər işə aparıldıqdan sonra yarımçıq qaldı və sonralar ləğv edildi.

Azərbaycanın neft sənayesinin Xəzər dənizi hesabına böyük gələcəyini nəzərə alaraq, Heydər Əliyev uzaqgörənliklə son dərəcə mühüm bir tədbir də həyata keçirdi. Sovet İttifaqının ümumi vəsaitindən alınan 400 milyon manat hesabına Bakıda dərin dəniz özülləri kimi nəhəng bir zavod tikildi.

Ümumiyyətlə, XX əsrin 70-80-ci illərinin əvvəllərində yeni tikilən müəssisələr Azərbaycan sənayesinin istehsal quruluşunun təkmilləşdirilməsində və məhsul istehsalının

artırılmasında əhəmiyyətli rol oynamışdır. Həmin illərdə respublikada istifadəyə verilən yeni sənaye müəssisələri Azərbaycanda sovet hakimiyyətinin əvvəlki 50 ili ərzində tikilən müəssisələrin 70 faizinə qədər idi. Həmin illərdə istifadəyə verilən sənaye müəssisələri sırasında Bakı məişət kondinsionerləri zavodu, Bakı şampan zavodu, Bakı və Xankəndində iri ayaqqabı fabrikləri, Gəncə xalça və qənnadı fabrikləri və çini qablar zavodu, Sumqayıt kompressorlar zavodu, Mingəçevirdə Yeni Azərbaycan Dövlət Rayon Elektrik Stansiyası, Mingəçevir yol maşınları və rezin-texnika məmulatları zavodları, Əli Bayramlı (indiki Şirvan) məişət cihazları, avtomatik və telemexanika zavodları, Ağdam dəzgahqayırma və metiz-furnitur zavodları, Naxçıvan alt trikotaj fabriki, Yevlax yunun ilkin emalı zavodu, Göyçay pambıqəyrici fabriki, Neftçala yeni yod-brom zavodu, Salyan plastik kütlə emalı zavodu, Şəmkir SES və onlarla yüngül və yeyinti sənaye müəssisələri vardı. Üzümçülüklə məşğul olan az qala hər kənddə şərab zavodu tikilmişdi. Həmin illərdə tikilən sənaye müəssisələrinin 158-i, yəni 70 faizi Bakı-Sumqayıt iqtisadi rayonun hüdudlarından kənarda, respublikanın başqa bölgələrində idi. Bu da Azərbaycanda sənayenin müxtəlif bölgələrdə yerləşdirilməsi probleminin həllində önəmli rol oynadı.

XX əsrin 70-80-ci illərinin əvvəllərində Azərbaycanın kənd təsərrüfatının maddi bazasının genişləndirilməsi ilə yanaşı, torpaq fondunun intensiv yollarla mənimsənilməsi və ixtisaslaşma sistemi də güclənmişdi. Nəticədə 1981-1985-ci illərdə respublikada illik kənd təsərrüfatı məhsulu istehsalı taxıl üzrə orta hesabla 1239,5 min ton, pambıq üzrə - 861, 4 min ton, tərəvəz üzrə - 890,4 min ton, üzüm üzrə 1829,2 min ton, çay üzrə - 29,2 min ton, meyvə və giləmeyvə üzrə - 317, 5 min ton, kartof üzrə - 1898 min ton, barama üzrə - 6 min ton, tütün üzrə - 56,9 min ton təşkil edirdi.





İqtisadi potensialı ilbəil möhkəmlənən Azərbaycanın inkişafının üzə çıxan yeni-yeni imkanlarının gerçəkləşdirilməsi üçün Heydər Əliyev düşünülmüş və əsaslandırılmış maliyyə və başqa resurs təminatı almaq barədə təşəbbüslərlə çıxış edirdi. Bu, ilk növbədə, Azərbaycanın Sovet İttifaqında o zaman çox yüksəlmiş nüfuzu və tutduğu mövqeyi ilə bağlı idi. Həmin illərdə Azərbaycanda bütün İttifaqın neft-mədən avadanlığının üçdə iki hissəsi, məişət kondinsionerlərinin hamısı, sintetik kauçuk və bir sıra kimya məhsullarının xeyli hissəsi istehsal olunurdu. Azərbaycan 70-ci illərin axırında ildə orta hesabla 2 milyon tona qədər üzüm istehsal edərək İttifaqda birinci, 700-800 min ton pambıq istehsal edərək dördüncü, 6 min ton barama istehsal edərək ikinci yerdə dururdu. Bu baxımdan Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi inkişafında çox böyük imkanlara malik mühüm bir istiqamət kimi müalicə, istirahət və turizm sahəsinin əsaslı dərəcədə genişləndirilməsi barədə təklifinin Sov. İKP MK Siyasi Bürosu tərəfindən qəbul edilməsinin əhəmiyyəti xüsusi qeyd edilməlidir.

Respublika iqtisadiyyatının kompleks halında hərtərəfli inkişafı çox mühüm problemlərin həllində, xüsusilə əhalinin maddi rifah halının və sosial vəziyyətinin yüksəldilməsində əhəmiyyəti rol oynadı.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi. 7 cilddə, 7-ci cild, s. 103-248.
2. H.Əliyev. Sovet Azərbaycanı 50 ildə. Bakı, 1970.
3. H.Əliyev. Azərbaycan SSR. Bakı 1983.
4. Əsrlərə bərabər illər: 1969-1999. Bakı, 2000.

# XXIV FƏSİL

## CƏNUBI AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI İLLƏRDƏ

**24.1. 1941-1945-ci illərdə Cənubi Azərbaycanda siyasi durum.** Məlum olduğu kimi II Dünya müharibəsi başlananda İran rəsmi olaraq öz bitərəfliyini elan etsə də onun hökumət dairələri faktiki olaraq Almaniyapərəst mövqe tutmuşdular. İran Yaxın Şərqdə alman kəşfiyyatının əsas fəaliyyət mərkəzinə çevrilmişdi. Almaniya kəşfiyyat idarəsi Suriya və İraqda müvəffəqiyyətsizliyə uğradıqdan sonra öz casuslarını həmin ölkələrdən İrana köçürmüşdü. Almaniya İrandan Sovet İttifaqına qarşı hücum meydanı kimi istifadə etmək niyyətində idi.

Sovet İttifaqı ilə sərhəd bölgələrdə alman kəşfiyyatçıları tərəfindən keçmiş rus ağqvardiyaçıları və erməni daşnaklarından ibarət silahlı quldur dəstələri təşkil olunmuşdu. Əlverişli imkan düşən kimi həmin quldur dəstələri Bakı neft sənayesində təxribat və terrorla məşğul olmaq üçün Sovet Azərbaycanına göndəriləcəkdilər.

İran ordusunda podpolkovnik Mənuçöhri başda olmaqla bir qrup zabit İranda alman ordusunu qarşılamağa hazırlaşırdı. Faşist Almaniyasının casusları İran ordusunun generalları, Məclisin deputatları, nazirlər, dövlət məmurları, tacirlər və sənayeçilər arasında da var idi.

İranı Sovet İttifaqına qarşı müharibəyə cəlb etmək məqsədilə 1941-ci il avqustun 17-də Almaniyanın Tehrandakı səfiri İran şahına hərbi yardım təklif etdi, əvəzində isə İran aerodromlarının Almaniyanın sərəncamına verilməsini tələb etdi. İranı müharibəyə cəlb etmək planı baş tutmadığı təqdirdə





Almaniya İranda hərbi çevriliş hazırlayırdı. Məhz bu məqsədlə alman kəşfiyyatının rəhbərlərindən biri admiral Kanaris avqustun əvvəllərində İrana gəlmişdi. Dövlət çevrilişini İran ordusunun almanpərəst zabitlərinin köməyi ilə Tehranda yaşayan almanlardan təşkil olunmuş xüsusi batalyonun həyata keçirməsi planlaşdırılmışdı.

Sovet hökuməti üç dəfə - 1941-ci il iyunun 26-da, iyulun 19-da və avqustun 16-da İran hökumətinə onun ölkəsi ərazisində Sovet İttifaqının təhlükəsizliyini hədələyən vəziyyətin yaranması haqqında xəbərdarlıq notaları göndərdi. Lakin Rza şah və onun hökuməti bu xəbərdarlıqlara əhəmiyyət vermədi və İranda alman kəşfiyyatının fəaliyyətinin qarşısını almaq üçün tədbir görmədilər. Onda Sovet İttifaqı priventiv tədbir görmək qərarına gəldi.

Sovet İttifaqı 1921-ci il Sovet-İran müqaviləsinin 6-cı maddəsini əsas götürərək 1941-ci il avqustun 25-də öz qoşunlarını İrana yeritdi. Eyni vaxtda ingilis qoşunları da qərbdən və cənubdan İran ərazisinə daxil oldular. Avqustun 27-də Əli Mənsurun başçılıq etdiyi İran hökuməti istefa verdi və Foruqinin sədrliyi altında yaradılmış yeni hökumət sovet və ingilis qoşunlarına qarşı hərbi əməliyyatların dayandırılması haqqında sərəncam verdi. Avqustun 28-də İran Məclisi Foruqi hökumətinin qərarını təqdir etdi. Sovet İttifaqı, İngiltərə və İran arasında əldə edilmiş razılığa görə İran qoşunları ölkənin şimal və cənub-qərb bölgələrini boşaldaraq sovet və ingilis qoşunlarının nəzarəti altına verdilər. Əldə edilmiş razılığa görə Almaniya və İtaliyanın bütün diplomatik nümayəndəlikləri və casusları İrandan çıxarılmalı idi.

Rza şah bu tələblərlə formal olaraq razılaşsa da, onların yerinə yetirilməsini ləngidirdi. Almaniya və İtaliya diplomatik nümayəndəliklərinin ölkədən çıxarılması bu gündən o biri günə təxirə salınırdı. Faşist Almaniyasının casusları İran ərazisində fəaliyyətlərini açıq-aşkar davam etdirir, təxribatlar törədirdilər.

Rza şah Tehranda hərbi vəziyyət elan edərək bütün yığıncaqları qadağan etdi. Şəhərdə hərbi tribunal yaradıldı və ölüm cəzası tətbiq edilməyə başlandı. Bu da xalq kütlələrinin hiddətinə səbəb oldu. Ölkədə etiraz nümayişləri başlandı. İran hakim dairələri bitərəflik siyasətindən uzaqlaşmaq və Almaniyaya xidmət göstərmək siyasətinin iflasa uğradığını aydın dərk edirdilər. Xalq hərəkatının yüksəlməsindən qorxuya düşən İran hakim dairələri öz siyasətində inadkarlıq göstərən Rza şahı dəstəkləməkdən imtina etdilər. Bütün dayaqlarından məhrum olunmuş Rza şah sentyabrın 16-da oğlu Məhəmməd Rzanın xeyrinə taxt-tacdan imtina etməyə məcbur oldu. 1943-cü ilin payızında İranda alman kəşfiyyatının başçısı F.Mayer və Almaniyanın digər casusları tutuldular.

Sovet və ingilis qoşunlarının İrana girməsi, Rza şahın hakimiyyətdən uzaqlaşdırılıb, oğlu Məhəmməd Rza şahla əvəz edilməsi və faşist Almaniyası ilə əlaqələrin kəsilməsi ölkədə demokratik hərəkatın dirçəlməsinə və inkişafına güclü təkan verdi. İkinci Dünya müharibəsinin qurtarması İranda demokratik hərəkatın daha da genişlənməsi üçün şərait yaratdı. Eyni zamanda ingilis və amerikan imperialistlərinin İranın daxili işlərinə qarışmaları da gücləndi. Amerika və İngiltərə hakim dairələrindən dəstək alan İran hökuməti demokratik hərəkatla mübarizənin yeni mərhələsinə qədəm qoydu.

Demokratik hərəkata qarşı hökumətin irtica və terror siyasəti ölkənin bütün vilayətlərini əhatə edirdi. İrtica və terror, xüsusilə Cənubi Azərbaycanda geniş vüsət aldı. Burada hakimiyyət orqanlarının, jandarmeriyanın və feodalların əhaliyə qarşı özbaşınalığı ilə yanaşı azərilərə qarşı milli bərabərsizlik siyasəti sosial vəziyyəti daha çox gərginləşdirirdi. Bu da Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının yeni mərhələsinin başlanmasına səbəb oldu.

XX əsrdə bu vaxtadək artıq iki dəfə fars şovinizminə və irticaya qarşı böyük mübarizəyə qalxmış Cənubi Azərbaycanda





milli-azadlıq hərəkatının genişlənməsi Ümumiran miqyasında gedən bir sıra proseslərlə yanaşı bəzi spesifik səbəblərlə də bağlı idi. Məlumdur ki, İran hökuməti Xiyabani hərəkatını boğduqdan sonra azərilərin milli varlığını məhv etmək və milli şüurunu kütləşdirmək məqsədilə milli diskriminasiya siyasəti yeridirdi. Bu siyasəti həyata keçirmək üçün bir sıra tədbirlər həyata keçirilmişdi, o cümlədən, İranda azəri dilində qəzet, jurnal və kitab nəşrinə qadağa qoyulmuşdu, idarələrdə və ictimai yerlərdə azəri dilinin işlədilməsinə icazə verilmirdi. "Azərbaycan" geosiyasi anlayışını aradan qaldırmaq niyyətilə Şərqi Azərbaycan 3-cü ostanlığa, qərbi Azərbaycan isə 4-cü ostanlığa çevrilmişdi. Azərbaycan ərazisindəki bütün idarələrdə fars məmurları işləyirdilər. Bu dövrdə Ə.Kəsrəvinin "Vahid İran milləti" nəzəriyyəsi Cənubi Azərbaycanda geniş təbliğ edilirdi. Fars şovinizminə xidmət edən bu nəzəriyyəyə görə İranda yaşayan qeyri millətlər inkar olunur, onlar Səfəvilər dövləti dövründə "özgələşmiş", xüsusilə də "türkləşmiş" farslar hesab edirdilər. XX əsrin 20-30-cu illərində Sovet İttifaqındakı siyasi rejimin nəticəsində Cənubi Azərbaycan ilə Şimali Azərbaycan arasındakı hər cür əlaqələrin, hətta mədəniyyət sahəsindəki əlaqələrin kəsilməsi də fars şovinizmi siyasətinə kömək edirdi.

İkinci Dünya müharibəsinin əvvəllərində Sovet və ingilis qoşunlarının İranda olması faktı və Rza şahın devrilməsi Cənubi Azərbaycanda siyasi rejimin qismən də olsa mülayimləşməsinə səbəb oldu. Təbrizdə azəri və fars dillərində olmaqla iki dildə "Azərbaycan" qəzeti nəşr olunmağa başladı. 1941-ci ilin oktyabrında "Azərbaycan" cəmiyyəti yaradıldı. Lakin siyasi mühitin nisbi mülayimləşməsi çox davam etmədi. "Azərbaycan" qəzeti 6 aydan sonra Şərqi Azərbaycan ostanının qubernatorunun sərəncamı ilə bağlandı. İran mərkəzi hökuməti 1945-ci ilin başlanğıcında Azərbaycanda genişlənməkdə olan milli-demokratik hərəkata qarşı hücuma keçdi. İran Məclisi

sədrinin müavini Sərdar Hikmət parlamentinin tribunasından açıq-aşkar bildirdi ki, Azərbaycanda milli hüquqlar uğrunda çıxış edən "dillər və əllər kəsilməlidir". Bütün bunlar 1941-1945-ci illərdə Cənubi Azərbaycanda milli-demokratik hərəkatın yavaş-yavaş canlanmasına səbəb olurdu.

Cənubi Azərbaycanda milli hərəkat və demokratiya uğrunda dinc yolla mübarizə 1945-ci ilin ikinci yarısında daha da genişləndi. Cənubi Azərbaycanda genişlənməkdə olan milli hərəkat haqqında Tehranda çıxan "Bəşər" qəzeti 1945-ci il 23 avqust tarixli nömrəsində yazırdı: "Azərbaycan təlatümdədir və inqilaba hazırdır". 1945-ci il sentyabrın 3-də (1334-cü il şəhrivər ayının 12-də) Azərbaycanın tanınmış demokratlarından bir qrupu Azərbaycan Demokratik Partiyasını yaratmaq bəyannaməsilə çıxış etdi. 12 şəhrivər bəyannaməsində Cənubi Azərbaycana İran daxilində muxtariyyət verilməsi, əyalət əncümənlərinin yaradılması, azəri dilinin rəsmi dil kimi işlədilməsi və s. tələblər irəli sürülürdü.

1945-ci il sentyabrın 13-də Azərbaycan demokratlarının təsisçi konfransında Azərbaycan Demokratik Partiyası yaradıldı. Onun ilk konfransında partiyanın Mərkəzi Komitəsinin sədrliyinə Seyid Cəfər Cavadzadə (Pişəvəri) seçildi. Pişəvəri deyirdi ki, Tehranın qüdrətini milli hərəkatların gücü ilə sındırmaq lazımdır. "Bu işdə Azərbaycan həmişə olduğu kimi indi də qabaqcıl olmalıdır. Tehrandan azadlıq ummaq böyük səhvdir".

Azərbaycan Demokratik Partiyasının 1945-ci ilin sentyabrında nəşr etdiyi "Azərbaycan" qəzeti partiyanın təşkilatı əsaslarının yaradılmasında böyük işlər gördü. 1945-ci il oktyabrın 2-4-də ADP-nin I qurultayı oldu. Qurultayda bütün işlər azəri dilində aparılırdı. Qurultayda partiyanın Məramnaməsi qəbul olundu. Məramnamədə partiyanın siyasi xətti kimi Azərbaycan üçün İran daxilində məhəlli muxtariyyətə və demokratik respublikaya nail olmaq vəzifələri irəli sürülürdü.





Pişəvəri qurultaydakı məruzəsində deyirdi ki, Məramnamədə irəli sürülən başlıca vəzifə azərilərin bir millət kimi tanınmasına və muxtariyyət əldə etməsinə nail olmaq məsələsindən ibarətdir.

Tehran Cənubi Azərbaycanda milli hərəkatın genişlənməsindən qorxuya düşərək, bir tərəfdən hərəkatın rəhbərlərinə danışığa başlamağı təklif edir, digər tərəfdən Təbrizə qoşun dəstələri göndərirdi. Azərbaycana yeni vali təyin olunmuş Murtuza Bayat ilə Pişəvəri arasında 1945-ci il noyabrın 8-11-də Təbrizdə danışıqlar oldu. Lakin danışıqlar heç bir nəticə vermədi. Bütün noyabr ayı ərzində xalq hərəkatı dinc siyasi mübarizə formasında davam etdi. Keçirilən xalq yığıncaqlarında iştirak edənlərin sayı 1,5 milyon nəfərdən çox idi. Xalq yığıncaqlarının nəticəsi noyabrın 20-21-də Təbrizdə Azərbaycan Xalq Konqresinin yaradılması oldu. Bu tələb Mərkəz tərəfindən rədd edildi. Ona görə də vali M.Bayat Tehrana qayıtmalı oldu. İran şah hökuməti Təbriz üzərinə qoşun göndərdi. Beləliklə, Cənubi Azərbaycanda milli-demokratik hərəkatın dinc inkişafı dövrü başa çatdı.

**24.2. Cənubi Azərbaycan milli hökumətinin yaranması və fəaliyyəti.** Azərbaycan Xalq Konqresinin fərmanına əsasən 1945-ci il noyabrın 27-si ilə dekabrın 1-i arasında Azərbaycan Milli Məclisinə seçkilər keçirildi. Seçkilər keçirilən müddətdə Təbriz ətrafında hökumət qoşunları ilə Azərbaycan fədai dəstələri arasında qanlı döyüşlər getdi. Nəhayət, 1945-ci il dekabrın 12-də Azərbaycan fədai dəstələri hökumət qoşunlarının müqavimətini qıraraq Təbrizə daxil oldular. Elə həmin gün Təbrizdə Azərbaycan Milli Məclisi açıldı və Milli hökumət yaradıldı. Azərbaycan Milli hökumətinin sədri Seyid Cəfər Pişəvəri oldu. Milli hərəkatın görkəmli xadimləri F.İbrahimi Baş Prokuror, Z.Qiyami isə Ali Məhkəmənin sədri oldular. Dekabrın 15-dən bütün Cənubi Azərbaycan İran

mərkəzi hökumətinin qoşunlarından təmizləndi. Beləliklə, Cənubi Azərbaycanda milli demokratik inqilabı qalib gəldi.

Cənubi Azərbaycan Milli hökuməti bəyanat verərək bildirdi ki, mərkəzi İran hökumətini tanıyır, Azərbaycanı İranın bir hissəsi hesab edir və mərkəzi hökumətin Azərbaycanın muxtariyyətinə zidd olmayan bütün göstərişlərini yerinə yetirəcəkdir. Cənubi Azərbaycan Milli hökuməti yaradılarkən İran daxilində məhəlli muxtariyyət prinsiplərinə müvafiq olaraq, hökumətdə xarici işlər və hərbi nazirliklər yaradılmamışdı. Məhz bu prinsip milli hərəkatın sonrakı inkişafına mənfi təsir göstərdi.

Milli hökumət xalqa xüsusi müraciətində dövlət məmurlarını, hərbi qulluqçuları, polisi, jandarmeriyanı və bütün vətəndaşları öz vəzifələrini icra etməkdə davam etməyə çağırdı. Cənubi Azərbaycan ərazisində yerləşən, demək olar ki, bütün hərbi hissələr, polis, jandarmeriya milli hökumətin tabeliyinə keçdi. Milli hökumətə xidmət etmək istəməyən güc strukturlarının nümayəndələri isə silahlarını könüllü surətdə təhvil verdilər. Xalqa müraciətdə xüsusi mülkiyyətin toxunulmazlığı da elan edildi.

Milli hökumət dövlət torpaqlarının aztorpaqlı kəndlilər arasında pulsuz bölüşdürülməsi haqqında qanun qəbul etdi. Eyni zamanda Azərbaycandan qaçmış və muxtar hökumətə qarşı düşmənçilik fəaliyyəti ilə məşğul olan, əks təbliğat aparan mülkədarların torpaqları müsadirə edilib kəndlilər arasında bölüşdürüldü. Azərbaycan Milli Məclisi 1946-cı ilin aprelində mülkədarlar və kəndlilər arasında kənd təsərrüfatı məhsullarının bölüşdürülməsinin yeni qaydaları haqqında da qanun qəbul etdi. Lakin bəzi yerlərdə kəndlilər Milli hökumətin qərarlarının əksinə olaraq, məhsul yığımından sonra mülkədara çatacaq payı verməkdən tamamilə imtina edir, bəzi bölgələrdə isə hətta mülkədar torpaqlarını özbaşına bölməyə başlamışdılar. Əlbəttə, Milli hökumət bu cür əyintilərin qarşısını almaq üçün





ciddi tədbirlər görürdü. Milli hökumətin mühüm addımlarından biri Cənubi Azərbaycan muxtar qurumunun himninin qəbul edilməsi idi. Himnin sözləri şair Mirmehdi Etimadın, musiqisi isə Sovet Azərbaycanının bəstəkarı Cahangir Cahangirovun idi.

Azərbaycan Milli hökuməti təhsil, mədəniyyət və səhiyyə sahəsində tədbirlərə də xüsusi əhəmiyyət verirdi. Azərbaycan Milli Məclisi 1946-cı il yanvarın 6-da "Dil haqqında" qanun qəbul etdi. Həmin qanunla azəri dili bütün Azərbaycan ərazisində rəsmi dövlət dili elan olunurdu. Bütün idarə və təşkilatlarda işlər azəri dilində görülür, məktəblərdə dərslər ana dilində keçilirdi. Azərbaycanda yaşayan milli azlıqların öz ana dillərində təhsil almaq hüququ da saxlanmışdı. 1946-cı il yanvarın 12-də Təbriz Universitetinin yaradılması haqqında qərar qəbul edildi və iyun ayında universitet təsis edildi. Milli hökumət büdcənin 15,6 faizini maarif sahəsinin ehtiyacları üçün ayırmışdı. Qısa müddətdə şəhərlərdə 500, kəndlərdə isə 2000 ibtidai və orta məktəb açıldı. Bir il ərzində birinci sinifdən yeddinci sinfə qədər bütün dərsliklər azəri dilində hazırlandı və nəşr olundu. Yaşlı əhali üçün 3800 savadsızlığı ləğv etmə kursları açıldı. Az bir vaxtda 50-dən çox qəzet və jurnal azəri dilində çıxmağa başladı, kitabxana və qiraətxanalar açıldı. Martın 28-də Təbrizdə dövlət musiqili dram teatrı, bir qədər sonra isə filarmoniya açıldı, radioverilişləri komitəsi yaradıldı, Səttarxan və Bağırxana heykəllər qoyuldu. Təbrizdə yeni xəstəxana açıldı və əhaliyə pulsuz tibbi xidmət göstərilməsinə başlandı. Yetim uşaqlar və qocalar üçün evlər açıldı.

Muxtariyyəti həyata keçirmək üçün yeni demokratik dövlət aparatı yaradıldı. Xəzinənin oğurlanmasının, rüşvətin və digər neqativ halların kökünü kəsmək üçün ciddi tədbirlər görüldü. Polis və jandarmeriyanın özbaşınalığına son qoyuldu. Xalq özünümüdafiə dəstələrinin yaradılması, siyasi məhbuslar üçün əhv, tiryəkin qadağan olunması və s. haqqında qanunlar qəbul edildi.

Azərbaycan Milli hökumətinin fəaliyyəti çox mürəkkəb və ağır şəraitdə keçirdi. Tehran hökuməti müxtəlif vasitələrlə Azərbaycanın iqtisadi durumunu dağıtmaq və ölkədə narazılıq və hərc-mərclik yaratmağa çalışırdı. Bu məqsədlə süni surətdə ərzaq qıtlığı və aclıq şəraiti törədilir, Azərbaycandan böyük miqdarda ərzaq məhsulları kənara aparılır və təxribat xarakterli müxtəlif şayiələr yayılırdı. Təbrizdə yerləşən İran və İngiltərə banklarının şöbələri sabotaj və maliyyə təxribatı ilə məşğul olurdular. Onlar müvəqqəti maliyyə böhranı və iqtisadi çətinliklər törədə də bildilər.

Belə bir şəraitdə Azərbaycan Milli hökuməti İran Milli, Sənaye v Kənd təsərrüfatı banklarının Təbriz şöbələri üzərində öz nəzarətini qoydu, möhtəkirliyə qarşı ciddi mübarizə tədbirləri müəyyən etdi, dövlət ticarəti təşkil edildi və dövlət mağazaları açıldı. Əsas ərzaq məhsullarının və zəruri gündəlik tələbat mallarının qiymətləri aşağı salındı. Nəticədə Təbriz şəhərində əsas ərzaq məhsullarının qiyməti Tehrandakından iki dəfə ucuz oldu. Təbrizdə yeni xalça-toxuculuq fabriki və bir sıra emalatxanalar açıldı. Əvvəllər mövcud olan fabriklərin işi nizama salındı. Milli Məclisin mayın 12-də qəbul etdiyi "Əmək haqqında qanun" ilə fəhlə və qulluqçuların iş şəraiti xeyli yaxşılaşdırıldı. 8 saatlıq iş günü müəyyən edildi. Həmkarlar ittifaqları vasitəsilə istehsal üzərində fəhlə nəzarəti qoyuldu. Fəhlələrin əməyinin sosial müdafiəsini təmin etmək məqsədilə sığorta haqqında qanun qəbul edildi. Görülən tədbirlər nəticəsində Cənubi Azərbaycanda iqtisadi durum yaxşılaşmağa başladı, şəhər və kəndlərdə bu vaxta qədər görünməmiş sakitlik, qayda-qanun və təhlükəsizlik şəraiti yaradıldı.

Cənubi Azərbaycan Milli hökumətinin hakimiyyəti ölkənin bütün ərazisini əhatə edirdi. Milli hökumətin qarşısında duran mühüm vəzifələrdən biri də yerlərdə yeni inzibati-ərazi orqanlarının təşkili - vilayət, mahal, şəhər və kənd əncümənlərinin seçkilər yolu ilə yaradılması idi. Onu da qeyd etmək





lazımdır ki, Cənubi Azərbaycanın Ərdəbil, Marağa, Maku, Sarab, Mərənd, Zəncan, Astara və digər şəhərlərində hələ 1945-ci il noyabrın 17-dən dekabrın əvvəllərinədək demokratik yerli hakimiyyət orqanları yaradılmışdı və onlar Təbrizi dəstəkləyirdilər.

Cənubi Azərbaycanda demokratik quruluşun nailiyyətləri və qayda-qanun yaradılması şah hökumətini ciddi narahat edirdi. Tehran Azərbaycan nümunəsinin İranın digər vilayətlərinə də yayılmasından qorxurdu. Ona görə də şah hökuməti Azərbaycan milli-demokratik hərəkatını boğmağa hazırlaşırdı. Lakin bunu gizli surətdə edirdi. Bir tərəfdən diqqəti yayındırmaq üçün Milli hökumətlə danışıqlar aparır, digər tərəfdən ABŞ və İngiltərə ilə SSRİ arasındakı ziddiyyətlərdən istifadə edib, onların dəstəyini alaraq Təbriz üzərinə hücuma keçməyə hazırlıq görürdü.

1946-cı ilin yanvarında İran hökuməti SSRİ-ni İranın daxili işlərinə qarışmaqda ittiham edərək, "Cənubi Azərbaycan məsələsini" BMT-nin müzakirəsinə çıxartdı. Bu məsələdə müvəffəqiyyətsizliyə uğrayan Hakimi hökuməti istefa verdi. Baş nazir vəzifəsində Hakimini əvəz etmiş Qəvam üs-Səltənə kursu dəyişmək qərarına gəldi. O, 1946-cı il fevralın 18-də böyük bir nümayəndə heyətilə Sovet hökuməti ilə danışıqlar aparmaq üçün Moskvaya getdi. Danışıqlar zamanı Qəvam üs-Səltənə SSRİ hökumətinin ABŞ və İngiltərə ilə münasibətləri gərginləşdirmək istəməməsindən məharətlə istifadə edərək, "Cənubi Azərbaycan məsələsində" Sovet hökumətinin "bitərəfliyinə" nail oldu. Danışıqların nəticəsində hazırlanmış Sovet İttifaqının Şimali İranda, o cümlədən Cənubi Azərbaycanda çoxdan arzuladığı neft kəşfiyyatı və çıxarılması konsessiyası haqqında müqavilə 1946-cı il dekabrın 4-də Tehranda imzalandı. (Lakin Qəvam üs-Səltənənin nəzərdə tutduğu kimi, sonralar, 1947-ci ildə İranın Məclisi həmin müqaviləni təsdiq etmədi). Bundan sonra Sovet İttifaqı öz

qoşunlarını İrandan çıxartmağa başladı və onu mayın 8-də başa çatdırdı. Şah hökuməti, həmçinin, hərbi yardım və siyasi dəstək göstərilməsi haqqında ABŞ və İngiltərə hökumətlərinin razılıqlarını da aldı.

Eyni zamanda hiyləgər siyasətçi Qəvam üs-Səltənə, bir tərəfdən, Azərbaycan Milli hökuməti ilə danışıqları başa çatdırdı. Pişəvəri hökuməti razılıq əldə edilməsi naminə bir sıra güzəştlərə getdi. 1946-cı il iyunun 13-də Təbrizdə imzalanmış sazişə görə Cənubi Azərbaycanın məhəlli muxtariyyəti faktiki olaraq ləğv edilirdi, Azərbaycanda general qubernator, əyalət idarələrinin başçıları və əyalət əncüməninin rəyasət heyətinin üzvlərindən ibarət əyalət inzibati idarə şurasının yaradılması nəzərdə tutulurdu. Sazişə görə 1945-ci ilin dekabrında seçilmiş Azərbaycan Milli Məclisi əyalət əncüməni statusu alırdı. Azərbaycan general qubernatoru vəzifəsinə namizəd əyalət əncüməni tərəfindən irəli sürülməli və İran hökuməti tərəfindən təsdiq edilməli idi. İran hökuməti Cənubi Azərbaycanın bütün dövlət gəlirlərinin 3/4 hissəsinin yerli ehtiyaclar üçün xərclənməsinə və 1/4 hissəsinin dövlətin mərkəzi xəzinəsinə verilməsinə razılıq verdi. İran hökuməti dövlət torpaqlarının kəndlilər arasında bölüşdürülməsini də təsdiq edirdi. Kəndlilər arasında bölüşdürülmüş mülkədar torpaqlarına görə mülkədarlara dəyən ziyanın isə ödənilməsi qaydalarını hazırlamaq üçün hökumət və əyalət əncüməni nümayəndələrindən ibarət komissiya yaradılması nəzərdə tutulurdu. Saziş Azərbaycan ali və orta məktəblərində dərslərin iki dildə - fars və azəri dillərində keçirilməsini nəzərdə tuturdu. Hökumət, həmçinin, Azərbaycan ərazisində yaşayan kürdlərə, ermənilərə, aysorlara və digər milli azlıqlara uşaqlarını beşinci sinfədək öz ana dillərində oxutmaq hüquqi verilməsinə də razılıq verirdi. Saziş, habelə, Milli hökumətin polisinin və fəlai dəstələrinin İranın silahlı qüvvələrinin tərkib hissəsi sayılmasını da razılaşdırırdı.





Lakin Milli hökumətin belə ciddi güzəştlərinə baxmayaraq, İran Məclisi həmin sazişi təsdiq etməkdən yayındı və onu təsdiqləməmək üçün XIV çağırış İran Məclisi tətilə çıxdı. Digər tərəfdən, İran rəhbərliyi və kütləvi informasiya vasitələri Azərbaycan milli-demokratik hərəkatının rəhbərlərini separatizmdə ittiham edən geniş kompaniyaya başladılar.

Mərkəzi İran hökuməti ABŞ ilə gizli müqavilə bağlayaraq ondan 150 təyyarə, 40 tank və digər silahlar aldı. Azərbaycana qarşı hərbi əməliyyatlara başlamaq üçün büdcədən 1 milyon 250 min tümən vəsait ayrıldı. Azərbaycan üzərinə hücuma hazırlığı başa çatdırdıqdan sonra Qəvam üs-Səltənə İran Məclisinə yeni seçkilər zamanı Cənubi Azərbaycanda qayda-qanunu təmin etmək bəhanəsilə noyabr ayının sonunda milli-demokratik hərəkatı boğmaq üçün qoşun göndərdi. Sovet İttifaqının rəhbərliyi buna açıq-aşkar göz yumaraq susdu. Əvvəllər Azərbaycan Milli hökumətinə müəyyən maraq göstərən ABŞ hökuməti də indi Azərbaycan demokratik hərəkatının boğulmasını "normal hal" hesab etdi.

Cənubi Azərbaycan üzərinə göndərilmiş şah hökumətinin qoşunu 50 min nəfər canlı qüvvə, 55 tank, 174 top, 3 minə qədər ağır pulemyot, 50 təyyarə və başqa silahlardan ibarət idi. Hökumət qoşunları bir neçə istiqamətdə hücuma keçdi. Azərbaycan Milli hökumətinin cəmi 18 min nəfərlik qoşunu olmasına baxmayaraq hər yerdə hökumət qoşunlarına ciddi müqavimət göstərilirdi. Zəncan, Miyanə və Marağa cəbhələrində isə Milli hökumət qoşunları əks hücuma keçərək düşmənə zərbələr endirirdilər. Cənubi Azərbaycan şahsevən tayfasından olan igid qız Səriyyə 18 nəfərlik fədai dəstəsilə 5 gün düşmənlə qəhrəmancasına döyüşdü. Lakin qüvvələr nisbəti bərabər olmadığından Azərbaycanın fədai dəstələri məğlub oldular. Dekabrın 10-da şah qoşunlarının Təbriz şəhərinə hücumu başladı və dekabrın 12-də şəhər alındı. Azərbaycan milli-demokratik hərəkatı qan içində boğuldu. Minlərlə adam

güllələndi və həbs olundu. Azərbaycan Demokrat Partiyasının və Milli hökumətin Təbrizdə qalan rəhbərləri tutulub edam edildilər. Milli hökumət dövründə az-çox siyasi fəallıq göstərən ziyalılar, fəhlələr, kəndlilər və bir çox sahibkarlar təqiblərə məruz qaldılar. Cəza tədbirlərindən xilas olmaq üçün on minlərlə fədai, Azərbaycan vətənpərvəri mühacirətə qaçmağa məcbur oldular. Onların bir qismi Sovet Azərbaycanında siyasi sığınacaq tapdı. Azərbaycan fədailərinin çox hissəsi İranın cənub bölgələrinə sürgün edildilər. Sürgün edilənlərin sayı 300 min nəfərə yaxın idi, öldürülənlərin sayı isə 25-30 min nəfər təşkil edirdi. "Mərdom" qəzetinin 1947-ci il 5 iyul tarixli nömrəsində xəbər verilirdi ki, təkcə Təbriz şəhərinin küçələrində dar ağaclarından asılanların və güllələnənlərin sayı 760 nəfər olmuşdur.

Mərkəzi şah hökuməti Azərbaycana "bir məğlub ölkə", azərilərə isə "məğlub bir millət" baxımından yanaşaraq Milli hökumətlə bağlanmış sazişi ləğv etdi. Qısa müddətdə milli-demokratik hərəkatın nailiyyətlərinin üstündən xətt çəkildi. Əyalət əncüməninin fəaliyyəti dayandırıldı. Təbriz Universiteti, milli teatr, filarmoniya radio, kitabxanalar və s. bağlandı, Səttarxan və Bağırxanın heykəlləri dağıdıldı.

Cənubi Azərbaycanda milli istiqlal mübarizələrinə qarşı aparılan siyasi repressiyaların davamı Şimali Azərbaycanda da özünü göstərdi. Sovet Azərbaycanına pənah gətirmiş S.C.Pişəvəri 1947-ci ildə müəmmalı avtomobil qəzası nəticəsində həlak oldu.

Beləliklə, 1945-1946-cı illər Cənubi Azərbaycan milli-demokratik hərəkatı məğlubiyyətə uğradı. Onun məğlubiyyətinin bir sıra daxili obyektiv və subyektiv səbəbləri ilə yanaşı, o zaman böyük təsir gücünə malik olan xarici səbəbləri də var idi. Xarici səbəb SSRİ, ABŞ və İngiltərənin İrandakı siyasətilə bağlı idi. Əks mövqelərdən çıxış edən bu dövlətlər Cənubi Azərbaycanda milli-demokratik hərəkatı ilk vaxtlar





dəstəkləsələr də, sonralar öz imperiya maraqlarına qurban verdilər. Deməli Cənubi Azərbaycan Milli hökumətinin süqutu zamanın hökmü idi. Odur ki, milli-demokratik hərəkatın məğlubiyyətinin onun ayrı-ayrı rəhbərlərinin səhmləri ilə izah etmək doğru olmazdı.

**24.3. Milli hökumətin fəaliyyəti dövründə Cənubi və Şimali Azərbaycan əhalisinin bir-birinə yenidən yaxınlaşmasının təməlinin qoyulması və onun İran İslam inqilabından sonrakı illərdə milli hərəkata təsiri.** Cənubi Azərbaycanda 1945-1946-cı illər milli-demokratik hərəkatının məğlubiyyətinə baxmayaraq, onun çox böyük tarixi əhəmiyyəti olmuşdur. Bu hərəkat, ilk növbədə, Cənubi Azərbaycan əhalisinin milli mənlik şüurunun və milli özünüdərkin inkişafı və möhkəmlənməsi prosesinə ciddi təsir göstərdi. Milli hökumətin fəaliyyəti dövründə diktatura rejimindən xilas olmuş və azadlıq badəsini içmiş xalq onun əsas təzahürlərindən biri kimi ana dilində danışmağa, yazıb-oxumağa, yaratmağa başladı. Azəri dili Cənubi Azərbaycanda məişət ünsiyyəti vasitəsindən çıxaraq ictimai-siyasi, mədəni və ədəbi inkişaf vasitəsinə çevrilməyə başladı. Qısa tarixi bir dövrdə milli dil ideyası əlçatmaz bir arzudan ümummilli ideya səviyyəsinədək yüksəldi və artıq təşəkkül dövrünə qədəm qoymuş milli şüurun, milli azadlıq ideologiyasının atributlarından biri oldu. Əhəmiyyətli cəhət odur ki, hərəkatın ilk çağlarında milli dil ideyasını xalqın geniş demokratik təbəqələri - müəllimlər, incəsənət xadimləri, mətbuat işçiləri və b. öz təşəbbüsləri ilə həyata keçirməyə başladılar. Məktəblərdə, dövlət idarələrində və ictimai təşkilatlarda doğma azəri dilində danışılır, qəzet və jurnalların nəşrinə başlanmışdı. Milli-demokratik hərəkatın rəhbəri Pişəvəri milli dil ideyasına yüksək qiymət verərək yazırdı: "Dil məsələsi ölüm-dirim məsələsidir. Bu məsələdə güzəştə getmək olmaz".

Cənubi Azərbaycanda 1941-1946-cı illər milli-demokratik hərəkatının nəticəsində Azərbaycan Milli hökumətinin yaranması İran dövləti tərkibində yaşayan soydaşlarımızın öz milli varlığını qoruyub saxlamaları və gələcəkdə birləşmək məqsədi uğrunda sonrakı illərdəki mübarizəsi üçün xüsusi əhəmiyyət kəsb etdi. Bu hərəkatın ən önəmli cəhətlərindən, ən mühüm xidmətlərindən biri də həmin dövrdə Cənubi Azərbaycan ilə Şimali Azərbaycan arasında, XX əsrin 20-30-cu illərində kəsilmiş əlaqələrin bərpa olunması və az da olsa inkişaf etməsi idi. Cənubi Azərbaycan xalqının yaddaşında Şimali Azərbaycanda onların soydaşlarının olmaları haqqında xatirələri təzələndi və onlar əmin oldular ki, Sovet Azərbaycanında azərbaycanlılar öz milli ənənələrini davam etdirirlər, öz milli mədəniyyətlərini inkişaf etdirirlər və Azərbaycan milləti məhv olmamışdır.

1941-1946-cı illər Cənubi Azərbaycan milli-demokratik hərəkatının mühüm tarixi əhəmiyyətlərindən biri də, azərbaycanlılara İran dövlətini parçalaya bilən potensial bir qüvvə kimi baxan Mərkəzi İran hökumətinin ən çox qorxduğu "vahid Azərbaycan" ideyasının yaranması idi. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan milli-demokratik hərəkatı təkcə İran hökumətini deyil, öz təsir gücü ilə bütün Yaxın və Orta şərqdə bir sıra dövlətləri də qorxuya salmışdı.

Beləliklə, 1945-1946-cı illər milli-demokratik hərəkatı və onun bəhrəsi olan Cənubi Azərbaycan muxtar Milli hökuməti Azərbaycan xalqının azadlıq mübarizəsi tarixinin mühüm mərhələlərindən biri olmuşdur. Bu hərəkat məğlubiyyətə uğrasa da, Cənubi Azərbaycanın sonrakı tarixinə qüvvətli təsir göstərdi, azəri xalqında öz tarixi, mədəniyyəti, ənənələri ilə milli varlığı ideyasını möhkəmlətdi, xalqın bu ideya uğrunda gələcək mübarizəsi üçün möhkəm təməl qoydu.

1941-1946-cı illər Cənubi Azərbaycan milli-demokratik hərəkatı yatırıldıqdan az sonra İranda ingilislərin inhisarında





olan neft sənayesinin milliləşdirilməsi uğrunda xalq hərəkatı başlandı. Milli burjuaziyanın başçılıq etdiyi 1949-1953-cü illər hərəkatı nəticəsində ölkənin neft sənayesi üzərində İngiltərənin inhisarına son qoyulmasına və neft sənayesinin sonralar milliləşdirilməsi üçün zəmin yaranmasına baxmayaraq, İranın, o cümlədən Cənubi Azərbaycanın ictimai-siyasi həyatındakı ziddiyyətlər aradan qaldırılmadı. İranın bir çox bölgələrini, xüsusilə Cənubi Azərbaycanı XX əsrin 50-ci illərin sonu - 60-cı illərin əvvəllərində güclü kəndli çıxışları bürüdü. Bununla əlaqədar olaraq, hökumət islahatlar keçirmək qərarına gəldi. "Ağ inqilab" adı ilə tarixə düşən və 1962-ci ildən başlayaraq 70-ci illərin ortalarınadək Məhəmməd Rza şah tərəfindən geniş miqyasda həyata keçirilən bu islahatlar İranın kapitalistcəsinə inkişafını sürətləndirməyi və onu inkişaf etmiş sənaye ölkəsinə, həmçinin müasir aqrar-sənaye ölkəsinə çevirməyi nəzərdə tuturdu.

1962-ci ildə keçirilmiş aqrar islahatı kəndlilərin dövlətdən və mülkədarlardan torpaq sahələrini satın almalarına yardım etməklə, onları fermerlərə çevirmək, iri və orta torpaq sahibləri olan mülkədarları isə kənd burjuaziyası kimi formalaşdırmaq məqsədi güdürdü. Aqrar islahatının nəticəsində 1962-1978-ci illərdə Cənubi Azərbaycanda kəndlilərin təqribən 80 faizi torpaq sahiblərinə çevrildi. Lakin bu islahat Cənubi Azərbaycan kəndində sosial gərginliyi aradan qaldıra bilmədi. Bankların verdikləri vəsait hesabına torpaq satın ala bilmiş kəndlilər fermer təsərrüfatları yaratmaq işində böyük maliyyə çətinliklərilə qarşılaşırdılar. İri torpaq sahibləri olan mülkədarların çoxu isə kapitalist kənd təsərrüfatı yaratmaq imkanından lazımınca istifadə edə bilmədilər.

XX əsrin 60-70-ci illərində Cənubi Azərbaycanda sənayenin müxtəlif sahələri də yaradıldı. Təbrizdə maşınqayırma, traktor, dizel mühərrikləri, neft emalı zavodları, Sofyanda sement zavodu və b. sənaye müəssisələri tikildi.

Lakin Cənubi Azərbaycanda sənayenin inkişaf surəti İranın əsas sənaye rayonlarından xeyli geridə qalırdı, İran sənayesində onun xüsusi çəkisi azalırdı. Cənubi Azərbaycan sənayesi üçün xırda müəssisələrin üstünlüyü, iri müəssisələrin tikintisinə kapital qoyuluşunun az olması səciyyəsi idi.

Şah hökumətinin "milli vəhdət" adı altında apardığı, əslində fars şovinizmi olan milli ayrıçeskilik siyasəti Cənubi Azərbaycanda təhsil sahəsində islahatların həyata keçirilməsində özünü daha qabarıq göstərirdi. Planlı surətdə aparılan farslaşdırma siyasəti nəticəsində azəri dilinin qadağan vəziyyətində saxlanması davam edir, azəri dilində qəzet, jurnal və kitab nəşr edilmirdi. (Əvvəllər nəşr olunmuş kitablar isə yığılıb yandırılmışdı). Bu siyasətə qarşı çıxanlara isə divan tutulurdu. 1977-ci ilin payızından etibarən baş verən bir sıra siyasi çıxışlar sosial partlayışın yeni dalğasının yaxınlaşdığını xəbər verirdi.

1977-ci ilin dekabrında Təbrizdə tələbələrin tətil və nümayişləri, nümayişçilər ilə polis arasında baş verən toqquşmalar və tələbələrin bir qrupunun həbs edilməsi ölkədə vəziyyəti gərginləşdirdi. Həmin ilin tələbə çıxışlarından ən möhtəşəmi 1945-ci il dekabrın 12-də Cənubi Azərbaycan Milli hökumətinin yaradılmasının ildönümü münasibətilə keçirilən Təbriz Universiteti tələbələrinin nümayişi oldu. Həmin gün Təbriz Universitetinin müəllimlərindən bir qrupu da çıxış edərək tələbələrlə həmrəy olduqlarını bildirdilər, polislər də nümayişçi tələbələri dəstəklədilər.

1978-ci il yanvarın 9-da Qum şəhərində polis tərəfindən nümayişçilərə atəş açılmış, ölən və yaralananlar olmuşdu. Qumdakı hadisələrin 40-cı günü, fevralın 18-də Təbrizin din xadimlərinin çağırışı ilə şəhər əhalisi – ziyalılar, tələbələr, ruhanilər, sənətkarlar, xırda tacirlər, sahibkarlar, fəhlələr, məktəb şagirdləri və b. küçələrə çıxdılar. 100 min nəfərlik nümayişçi dəstələri şəhərin müxtəlif rayonlarından hərəkət edib





şəhərin mərkəzinə doğru yönəldilər və mitinqləri dağıtmaq istəyən polisi qaçmağa məcbur etdilər.

Hökumət nümayişçilərin üzərinə ordu hissələri göndərdi. Şəhərə ordu hissələrinin göndərilməsi əhalinin qəzəbini coşdurdu, əllərində dəyənək, daş-kəsək olan nümayişçilər silahlı polis və ordu hissələrinə qarşı çıxdılar. Onlar hökumət idarələrini, bankları, mehmanxanaları, parnoqrafik filmlər nümayiş etdirilən kinoteatrları və s. dağıtdılar. Dinc etiraz nümayişləri mövcud şahlıq quruluşuna qarşı üsyana çevrildi.

Şah hökuməti fevralın 19-da Təbrizə əlavə hərbi hissələr göndərdi. Hərbçilər ilə üsyançılar arasında qanlı toqquşma bütün günü davam etdi. Qüvvələr nisbəti bərabər olmadığından üsyançılar məğlub oldular. Təbriz üsyanı qəddarlıqla yatırıldı. İki gün davam edən üsyan zamanı minlərlə ölən və yaralanan oldu.

18 fevral təbriz üsyanı İranın siyasi və sosial həyatına böyük təsir göstərdi. Təbriz üsyanından sonra inqilabi çıxışlar bütün İranı bürüdü. Təbriz üsyanı İranda şahlıq quruluşuna zərbə vuran və sosial əhatəsinin genişliyinə görə misli-bərabəri olmayan, sözün əsl mənasında, xalq çıxışı idi. Onun əsas hədəfi Məhəmməd Rza şahın mütləqiyyət üsul-idarəsi, ölkənin hakim partiyası "Rəstaxiz" və onların açıq şəkildə təbliğ etdikləri Qərb həyat tərzi idi.

O vaxt İranda azəri dilində nəşr olunmağa başlayan "Varlıq", "Dədə Qorqud", "Günəş" və digər qəzet və jurnallar Təbriz üsyanına yüksək qiymət verərək, onu bütün İranda baş verəcək inqilabın başlanğıcı hesab edirdilər. Həqiqətən 1978-1979-cu illər İran İslam inqilabı dövründə şahlıq idarəçilik üsulunu devirməyə çağırış və "şaha ölüm" şüarı ilk dəfə məhz Təbriz üsyanı zamanı irəli sürülmüşdü. İran İslam inqilabının sosial-siyasi mahiyyətini əslində 18 fevral Təbriz üsyanı müəyyən etmişdi. Bu baxımdan Təbriz üsyanını İran İslam inqilabının bir növ modeli hesab edənlər, şübhəsiz, haqlıdırlar.

Təbriz üsyanından sonra mühüm inqilabi çıxışlar 1978-ci il martın 29-30-da və mayın 9-19-da İranın 20-dən çox şəhərini, o cümlədən Azərbaycanın Təbriz və b. şəhərlərini əhatə etdi. Həmin ilin sentyabrından isə inqilabın ikinci mərhələsi başlandı. Bu mərhələ şah hakimiyyətinə müxalif olan ruhanilərin rolunun artması ilə xarakterizə olunur. Şah hakimiyyətinə qarşı çıxan ruhanilərin lideri İranda islam dininin başçısı - böyük Ayətullah Ruhulla Musəvi Xomeyni idi. O, 1964-cü ildə Türkiyəyə sürgün edilmiş, az sonra oradan İraqa getmiş və Nəcəf ruhani akademiyasında 13 il ilahiyyatdan dərs demişdir, 1978-ci ildə isə İraq hökumətinin tələbi ilə ölkəni tərk edərək Parisə getmiş və oradan İran İslam inqilabına rəhbərlik etmişdir.

İnqilabın ikinci mərhələsinin ilk çıxışları 1978-ci il sentyabrın 7-də ölkənin 12 şəhərində, o cümlədən Təbrizdə başladı. Oktyabr-noyabr aylarında Cənubi Azərbaycanın Təbriz, Ərdəbil, Marağa, Urmu, Culfa, Zəncan, Həştrud, Şahpur və b. şəhərlərində tətil və nümayişlər olmuşdu. Dekabrın 8-11-də həmin şəhərlərdə keçirilən nümayişlərdə polislə toqquşmalar zamanı onlarla ölən və yaralanan, çoxlu sayda həbs edilənlər olmuşdu. Təbrizə əlavə hərbi hissələr göndərilməsinə baxmayaraq, nümayişlər səngimədən davam edirdi.

Nəhayət, 1979-cu il yanvarın 16-da Məhəmməd Rza şah İranı tərk etdi. Fevralın 1-də Ayətullah Xomeyninin Tehrana gəlməsi münasibətilə Təbrizdə nümayişlər daha da izdihamlı şəkil aldı. Azərbaycanlılar Tehranda qələbə ilə nəticələnən 11 fevral üsyanında da çox fəal iştirak etdilər.

1979-cu il fevralın 11-də Tehranda inqilabın qələbə çalmasına baxmayaraq, Cənubi Azərbaycanın bir çox şəhərlərində şahpərəst əksinqilabi qüvvələr hələ bir neçə gün müqavimət göstərdilər. Fevralın 15-də əksinqilabi qüvvələr Təbriz qarnizonunda üsyan qaldırdılar. Şəhərin bütün əhalisi





ayağa qalxıb qarnizonu tərksilah etdi. Şahpərəst zabit və əsgərlər həbs edildilər. Fevralın 16-da Təbrizdə və Cənubi Azərbaycanın başqa şəhərlərində də şahpərəstlər tamamilə zərərsizləşdirildilər.

Beləliklə, 1979-cu il fevralın 11-də Tehranda qələbə çalan İran İslam inqilabı fevralın 16-da Cənubi Azərbaycanda başa çatdırıldı. 1978-1979-cu illər İran İslam inqilabı dövründə azərilər 25 min nəfərə qədər qurban verdilər.

İnqilabda çox fəal iştirak etmiş azərbaycanlılar şahlıq quruluşu devrildikdən sonra İranda federasiyalı dövlət qurumunun yaradılacağı ümidində idilər. Lakin qələbənin ilk günündən hakimiyyəti ələ keçirən Ayətullah Xomeyni başda olmaqla ruhanilər hərəkatın aparıcı qüvvələrinin tələb və təkliflərinə əhəmiyyət verməyərək ümumxalq rəy sorğusu yolu ilə 1979-cu il aprelin 1-də İranı İslam Respublikası elan etməyə müvəffəq oldular.

Doğrudur, əhalinin böyük əksəriyyətinin demokratik azadlıqlar, bərabərlik və eləcə də, milli hüquqların yüksək səviyyədə təmin edilməsi kimi tələbləri yeni Konstitusiyanın müvafiq maddələrində bu və ya digər dərəcədə öz əksini tapdı. Lakin onların çoxu kağız üzərində qaldı. Məsələn, Konstitusiyanın 15-ci maddəsində milli və etnik azlıqların dillərinin fars dili ilə yanaşı kütləvi informasiya vasitələrində və məktəblərdə milli ədəbiyyatın tədrisində işlənməsi azad elan edilir. Lakin Cənubi Azərbaycanın məktəblərində və universitetlərində bu qanunun həyata keçirilməsi öz həllini tapmamışdır. İran İslam Respublikasının hakim dairələri, əvvəllər "vahid İran milləti" adı altında yeridilən farslaşdırma siyasəti əvəzinə, indi "vahid islam hümməti" anlayışını təbliğ etməklə İranda yaşayan xalqların, o cümlədən azərbaycanlıların etnik mənşəyini və milli xüsusiyyətlərini inkar etmək siyasəti yeridirlər.

Lakin teokratik dövlət şəraitində demokratiya uğrunda mübarizənin çətinliklərinə baxmayaraq, Cənubi Azərbaycan əhalisi mütərəqqi ziyalıların başçılığı altında bu gün də milli azadlıq uğrunda mübarizəni davam etdirir və azadlıq şərbətini bir daha içmək əminliyi ilə yaşayır.

### Ədəbiyyat:


1. M. İbrahimov Cənubi Azərbaycanda 1945-1946-cı illər demokratik hərəkatı haqqında. Bakı, 1948, s. 3-44.
2. Azərbaycan tarixi. 11-ci sinif üçün dərslik, Bakı, 2002, s. 188-195, 189-199, 260-278.
3. Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1989, s. 18-43.
4. Siyasi tarix. Prof. S.Qəndilovun redaktorluğu ilə mühazirə kursu, II hissə, Bakı, 1995, s. 44-51, 74-86.
5. История Ирана. Москва, 1977, с. 355-369.






# XXV FƏSİL

## SOVET AZƏRBAYCANIN MƏDƏNİYYƏTİ

**25.1. Sovet Azərbaycanında təhsil və elm.** Azərbaycan SSR-də savadsızlığın ləğv edilməsi ilə yanaşı ümumi ibtidai təhsilə də özəl əhəmiyyət verilirdi. 1927/28-ci dərs ilində respublikada ümumi icbari ibtidai təhsilə keçilməsinə başlandı.

XX əsrin 30-cu illərində Azərbaycanda ümumtəhsil sistemi üç mərhələdən ibarət idi: ibtidai, natamam orta və orta təhsil. 1932/33-cü tədris ilində Azərbaycanda ibtidai, natamam orta və ümumtəhsil orta, habelə fabrik-zavod və kəndli gənclər məktəbləri üçün xüsusi fənn proqramları tərtib edildi. Tədris sahəsində ümumi nailiyyətlərlə bərabər Azərbaycan dilində yeni dərsliklərin hazırlanması işində ciddi "əməliyyatlar" da aparılırdı, məktəb proqramlarından milli-mənəvi dəyərlərə dair müddəalar çıxarılırdı. Tarix və coğrafiya fənləri partiya "nəzarəti" altında idi. Mərkəzin tələbi ilə tarix fənninin proqramları "beynəlmiləlçilik" və böyük rus xalqına məhəbbət, slavyan vətənpərvərliyi tərbiyəsinin tələblərinə uyğunlaşdırılmalı idi.

XX əsrin 20-30-cu illərində respublikada ixtisaslı fəhlə kadrları hazırlanmasına dövlət qayğısı ilə əlaqədar peşə təhsilinə də xüsusi fikir verilirdi. Respublikada texniki-peşə təhsilinin dörd tip təhsil müəssisəsi yaradılmışdı: 1) fabrik-zavod şagirdliyi (FZŞ) məktəbləri, 2) peşə məktəbləri, 3) peşə kursları və 4) texnikumlar. Azərbaycanda 1921-ci ildən fəaliyyət göstərən FZŞ məktəbləri daha geniş yayılmışdı. İstehsalat əməyi ümumi və xüsusi təhsil elementlərini birləşdirən FZŞ

məktəbləri gəncləri texnikumlara və ali məktəblərə hazırlamaq məqsədinə də xidmət edirdilər.

İkinci Dünya müharibəsi qurtardıqdan sonra Azərbaycan SSR-də təhsil şəbəkələrinin maddi-texniki bazasını möhkəmlətmək və tədrisin səviyyəsini yüksəltmək üçün əməli tədbirlər həyata keçirildi. 1946-1970-ci illərdə respublikanın şəhər və kəndlərində 74 min yerlik məktəbəqədər uşaq müəssisəsi və 444 min yerlik 169 ümumtəhsil məktəbi binaları tikilib istifadəyə verildi.

1950/51-ci tədris ilində respublikada 4233, 1970/71-ci tədris ilində isə aıtıq 5115 ümumtəhsil məktəbi vardı. Gənclərin və yaşlıların istehsalatdan ayrılmadan təhsil almaları üçün 1970/71-ci tədris ilində 772 axşam və qiyabi ümumtəhsil məktəbi fəaliyyət göstərirdi.

1970-1980-ci illərdə respublikada 101 min yerlik məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verildi. Məktəbəqədər uşaq müəssisələrinin sayı 1990-cı ildə 2185-ə çatmışdı. Onlarda 181 min uşaq tərbiyə alırdı. Həmin illərdə respublikada 703 min yerlik 1058 ümumtəhsil məktəbi tikilmişdi. 1990/91-ci tədris ilində respublikanın şəhər və kəndlərində 4356, o cümlədən 4368 gündüz, 58 axşam və növbəli ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Ümumtəhsil məktəblərində hər il orta hesabla 1.400.000-ə qədər şagird təhsil alırdı. Bu məktəblərdə 132 min müəllim dərs deyirdi.

1949-cu ildən Azərbaycanda ümumi icbari yeddiillik təhsilə keçid başlandı. 1959-cu ildən icbari səkkizillik təhsil tədbiq olundu. Politexnik təlimə diqqət artırıldı, məktəblərin nəzdində tədris emalatxanaları yaratmağa başlandı. 1966-cı ildə isə ümumi orta təhsilə keçildi və texniki-peşə məktəblərinin sayı artırıldı. 70-80-ci illərdə 100 yeni texniki-peşə məktəbi yaradıldı. 1990-cı ildə respublikada 176 texniki-peşə məktəbi vardı. Onlarda 83 minə qədər şagird sənaye, nəqliyyat, kənd təsərrüfatı və məişət xidməti sahələri üzrə peşələrə .yiyələnirdi.





XX əsrin 20-30-cu illərində mədəni quruculuğun ən mühüm vəzifələrindən biri fəhlə və kəndlilərdən sovet ziyalıları, mütəxəssis kadrlar hazırlamaq idi. Bu vəzifə əsasən ali məktəblərin öhdəsinə düşürdü. Sovet Azərbaycanında ilk çağlar yeganə ali məktəb hələ Cümhuriyyət dövründə 1919-cu ildə yaradılmış Bakı universiteti idi. Fəaliyyətə başladığı vaxt universitetdə iki fakültə - tibb və tarix-filologiya fakültələri vardı. 1921-1922-ci tədris ilində isə ictimai elmlər fakültəsinə çevrilmiş tarix-filologiya fakültəsi və fizika-riyaziyyat elmləri bazasında pedaqoji fakültə yaradıldı. 1921-ci ildə ölkədə ilk texniki ali məktəb - Azərbaycan Politexnik İnstitutu açıldı. Həmin il Bakıda müəllim kadrları hazırlayan Pedaqoji İnstitut, Ali Bədii Məktəb və Konservatoriya açıldı.

Yerli əhalidən ali təhsilli mütəxəssislər hazırlamaq üçün Moskva və Leninqradın ali məktəblərinə çoxlu azərbaycanlı tələbələr göndərilirdi. 1925-ci ildə Sovet Rusiyasının və başqa sovet respublikalarının ali məktəblərinə 150 azərbaycanlı tələbə göndərilmişdi.

Ali məktəblərə fəhlə-kəndli gənclərin qəbulu işinə kömək məqsədilə 1920-ci ildə Bakı universitetinin nəzdində hazırlıq kursu rolunu oynayan fəhlə fakültəsi yaradılmışdı. Birinci il burada təhsil rus dilində aparılırdı. 1921-ci ildə həmin fakültədə 80 nəfər dinləyicisi olan Azərbaycan şöbəsi də açıldı. 1923/24-cü tədris ilində Azərbaycan dılində fəhlə fakültələri Gəncə və Şəkidə də açıldı. Bu dövrdə Azərbaycan ali təhsil sisteminin ən böyük nöqsanı ali məktəblərin "proletarlaşdırılması" siyasəti idi. Ali məktəblərə yalnız fəhlə və yoxsul kəndlilərin uşaqları qəbul edilirdilər. Bu da əhalinin geniş kütləsinin, o cümlədən, ziyalıların və keçmiş burjua və mülkədarların uşaqlarının ali məktəblərə yolunu bağlayır, ali təhsilli mütəxəssislər hazırlanması işinin keyfiyyətinə mənfi təsir göstərirdi.

1930-cu ildən Azərbaycan ali təhsil müəssisələrinin yenidən qurulmasına başlandı. Azərbaycan Politexnik İnstitutun mühəndis-inşaat fakültəsi müstəqil İnşaat İnstitutuna çevrildi,

kənd təsərrüfatı fakültəsi əsasında Gəncədə Kənd Təsərrüfat İnstitutu yaradıldı, irriqasiya və su nəqliyyatı şöbələri bazasında Cənubi Qafqaz (Zaqafqaziya) Pambıqçılıq İnstitutu yaradıldı, Politexnik İnstitut özü isə Neft İnstitutuna çevrildi.

Bakı Universiteti də əsaslı dəyişikliyə uğradı. Onun tibb fakültəsi müstəqil Azərbaycan Tibb İnstitutuna, pedaqoji fakültəsi Azərbaycan Pedaqoji İnstitutuna, hüquq fakültəsi Sovet Quruculuğu və Hüquq İnstitutuna, iqtisad fakültəsi isə Kooperativ Ticarət İnstitutuna çevrildi. Nəticədə 1930-cu ildə Bakı Universiteti öz fəaliyyətini müvəqqəti dayandırdı.

1930/31-ci tədris ilində Azərbaycanda Diş Müalicəsi İnstitutu, Avtomobil Nəqliyyatı İnstitutu, Qırmızı Professorlar İnstitutu, Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutunun Bakı filialı kimi ali məktəblər yaradıldı. Beləliklə, XX əsrin 30-cu illərində Azərbaycanda 15 ali məktəb var idi. Onlarda on min tələbə təhsil alırdı. 1940/41-ci tədris ilində isə Azərbaycan Dövlət Universiteti bərpa olundu və ali məktəblərin sayı 16-ya, tələbələrin sayı 14600 nəfərə çatdırıldı.

Müharibədən sonrakı illərdə Azərbaycanda ali təhsil daha da inkişaf etdi. 1945-ci ildə Teatr İnstitutu yaradıldı, 1968-ci ildə isə İncəsənət İnstitutu adlandınıldı. 1947-ci ildə Pedaqoji İnstitutun xarici dillər fakültəsi bazasında Xarici Dillər İnstitutu, 1950-ci ildə Politexnik İnstitutu yaradıldı. 1951-ci ildə, fəaliyyətini 1941-ci ildə dayandırmış, Xalq Təsərrüfatı İnstitutu bərpa olundu. 1952-ci ildə Rus dili və Ədəbiyyatı İnstitutu təşkil edildi. 1959-cu ildə Xarici Dillər İnstitutu ilə Rus dili və Ədəbiyyatı İnstitutu birləşdirilib Pedaqoji Dillər İnstitutu adlandırıldı. 1973-cü ildə Pedaqoji Dillər İnstitutunun bazasında Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu (indiki Bakı Slavyan Universiteti) və Pedaqoji Xarici Dillər İnstitutu (indiki Azərbaycan Dillər Universiteti) təşkil edildi. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları bazasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Stepanakert (indiki Xankəndi) Pedaqoji





İnstitutları, 1976-cı ildə İnşaat Mühəndislər İnstitutu, 1981-ci ildə Gəncə Texnoloji İnstitutu təşkil edildi.

XX əsrin 80-ci illərinin sonunda respublikada 17 ali məktəb vardı. 1945/46-cı tədris ilində Azərbaycan ali məktəblərində 19,6 min nəfər, 1950/51-ci tədris ilində 28,6 min nəfər, 80-ci illərin sonunda isə 100 min nəfərdən çox tələbə təhsil alırdı, hər il 17-18 min gənc ali təhsilli mütəxəssis diplomu alırdı. Bunlardan əlavə keçmiş SSRİ-nin mərkəzi şəhərlərindəki qabaqcıl ali məktəblərdə də Azərbaycan üçün ali təhsilli kadrlar hazırlanırdı. Əgər 70-ci illərə qədər hər il 40-50 nəfər gənc SSRİ-nin mərkəzi şəhərlərindəki ali məktəblərdə təhsil alırdılarsa, respublikaya ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi 70-80-ci illərdə keçmiş SSRİ-nin 50-dən çox şəhərində 135 mülki, 105 hərbi ali məktəbdə Azərbaycan üçün 17 min nəfərdən çox mütəxəssis hazırlanmışdı.

Respublikanın ali məktəblərində 1950-ci ildə 2 min nəfər, 1970-ci ildə 5 min nəfər, 80-ci illərin axırlarında isə 8,5 min nəfər professor-müəllim heyəti çalışırdı. 1970-ci ildə respublikada tələbələrin təlim-tərbiyəsi ilə 500-dən çox professor, 1140-dan çox dosent məşğul olurdusa, 80-ci illərin axırlarında onların sayı müvafiq olaraq 612 nəfərə və 3021 nəfərə çatmışdı.

XX əsrin 20-ci illərində Azərbaycanda təbiət - texnika elmləri sahəsində elmi-tədqiqat müəssisələri yox idi. Lakin Bakı Universitetinin, Azərbaycan Politexnik İnstitutunun, sonralar Neft Akademiyasının və b. ali məktəblərin kafedralarında geniş elmi-tədqiqat işləri aparılırdı. Mərkəz SSRİ-nin əsas neft bazası olan Bakıda neft-qazma texnikası, neft kimyası, geologiya və energetika sahələrinin elmi idarəçiliyinə xüsusi fikir verirdi. Bu məqsədlə Bakıya görkəmli alimlər - akad. İ.Qubkin, akad. İ.Kurçatov, prof. A.Qurvin, prof. D.Qolubyatnikov, prof. M.Abramoviç və b. göndərilmişdi. Onlarla çiyin-çiyinə istedadlı azərbaycanlı alimlər F.Rüstəmbəyov, E.Tağıyev, X.Məlikaslanov və başqaları çalışır, neft

mədənlərinin istismarının təkmilləşdirilməsinə texniki rəhbərlik edirdilər.

İctimai elmlərin inkişafı sahəsində də ilk addımlar Bakı Universitetində atılmışdır. Bu sahədə də sinfı keçmişinə görə Rusiyanın mərkəzi şəhərlərində sıxışdırılan və Azərbaycanda sığınacaq tapmış akad. V.Bartold, akad. N.Marr, akad. İ.Meşşaninov, prof. A.Makovelski, prof. Y.Bertels, prof. A.Batmanov və b. görkəmli alimlərin xidmətləri olmuşdur. Azərbaycanda ictimai elmlərin inkişafında 1923-cü il noyabrın 2-də yaradılmış "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin müstəsna rolu olmuşdur; Cəmiyyətin sədri görkəmli yazıçı və mədəniyyət xadimi Ə.Haqverdiyev idi. N.Nərimanov və S.Ağamalıoğlu Cəmiyyətin fəxri üzvləri idilər. ATTC-nin üzvləri arasmda akad. V.Bartold, akad. N.Marr, akad. İ.Meşşaninov, akad. S.Oldenburq, M.H.Baharlı. A.Divanbəyoğlu, B.Çobanzadə, H.Cəbiyev, A.Sübhanverdixanov, Ü.Hacıbəyli, Y.V.Çəmənzəminli, Ə.Ələkbərov və b. görkəmli şəxslər var idi. Cəmiyyətin Naxçıvan, Lənkəran, Gəncə, Şəki, Şamaxı, Zaqatala və Dağlıq Qarabağ şöbələri vardı. 1925-ci ildə Moskva və Leninqradda da Cəmiyyətin şöbələri açıldı. Cəmiyyət Azərbaycan xalqının ədəbiyyatının, folklorunun, arxeologiyasının, etnoqrafiyasının və dilçilik məsələlərinin öyrənilməsi sahəsində böyük işlər görmüşdür.

1929-cu ildə Azərbaycan MİK-nin nəzdində yaradılmış Azərbaycan Dövlət Elmi- Tədqiqat İnstitutu Azərbaycan SSR-in ali elmi idarəsi kimi respublikanın bütün elmi idarə və təşkilatlarının fəaliyyətini birləşdirirdi. Onun 53 nəfərdən ibarət həqiqi üzvləri arasında akademiklər V.Bartold, N.Marr, İ.Qubkin, İ.Meşşaninov, İ.Pokrovski, Samoyloviç, professorlar A.Makovelski, İ.Yesman, X.Məlikaslanov, V.Xuluflu, B.Çobanzadə kimi tanınmış alimlər də vardı.

1932-ci ildə SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi yaradıldı. 1935-ci ilin oktyabrında isə SSRİ EA Azərbaycan Filialı yaradıldı. Onun tərkibində geologiya, fizika,





energetika, torpaqşünaslıq bölmələri, kimya, botanika, zoologiya, tarix, etnoqrafiya və arxeologiya, dil və ədəbiyyat institutları var idi. Azərbaycan EA AF-nin sədri akad. İ.Qubkin idi. Azfılialm 66 nəfərdən ibarət Elmi Şurasının tərkibində SSRİ Elmlər Akademiyasının həqiqi üzvləri V.Volgin, V.Komarov, D.Pryanişnikov, A.Samoyloviç, Q.Qraftio, N.Vavilov, N.Zelinski, müxbir üzvü Y.Bertels var idi. Bu dövrdə Azərbaycanın gələcək görkəmli alimləri M.Qaşqay, Ə.Əlizadə, S.Quliyev, K.Quluzadə, S.Vəzirov, İ.Baybakov, S.Orucov, A.Yaqubov, A.Əliyev, Ş.Əzizbəyov, Q.Əfəndiyev və başqaları elmi fəaliyyətə başlamışdılar.

XX əsrin 30-cu illərinin sonunda SSRİ EA AF-nin rəhbərliyi altında 60-dək elmi idarə elm və texnikanın aktual problemləri ilə məşğul olur, respublikanın məhsuldar qüvvələrinin inkişafına qiymətli töhfələr vermişlər. Azərbaycanın energetika alimləri Mingəçevir su qovşağının layihəsini hazırlamaqla respublikanın enerji sisteminin möhkəmləndirilməsinə öz töhfələrini vermişlər. Bu dövrdə ictimaiyyətçi alimlər və ədəbiyyatçılar dahi Nizaminin 800 illik yubileyinə hazırlıq məqsədilə onun əsərlərinin nəşri ilə bağlı böyük iş aparırdılar. Ədəbiyyatşünasların M.Füzulinin, M.F.Axundzadənin və M.P.Vaqifin əsərlərini nəşrə hazırlayıb çap etdirmələri Azərbaycan xalqına ən yaxşı töhfələr sayıla bilər. İctimai elmlərin bu dövrdə ən böyük nailiyyəti 1941-ci ildə "Azərbaycan tarixinin qısa oçerkləri" kitabının nəşridir. Kitabın İkinci Dünya müharibəsi dövründə vətənpərvərlik tərbiyəsi üçün böyük əhəmiyyəti vardı.

Müharibə illərində Azərbaycan alimləri zirehli texnikaya qarşı top mərmiləri, özüidarə olunan bombalar, çoxpilləli minalar, polad və çuqunu duru yanacaqla əritməyə imkan verən texnologiya hazırlamaqla cəbhəyə öz borclarını verirdilər. 1941-ci ilin mayında akademik Yusif Məmmədəliyevin başçılığı altında bir qrup alim 28 gün laboratoriyadan

çıxmayaraq, neft kimyası elmində böyük hadisə olan yüksək oktamlı aviasiya benzini aldılar.

Azərbaycan geoloq alimləri Mirəli Qaşqay və Şamil Əzizbəyovun rəhbərliyi ilə strateji xammal olan gil və fosforit yataqlarını aşkar etmişdilər. Onlar yeni neft yataqları kəşf etməklə neft hasilatını artıraraq, cəbhəni lazım olan qədər neft və neft məhsulları ilə təmin etməyə xidmət edirdilər. Bioloq alimlər Azərbaycan ərazisində bitən dərman bitkilərinin, vitaminlərlə zəngin olan cır meyvələrin aşkar olunmasında fəal iştirak edirdilər. Onların köməyilə Göyçayın yağ zavodunda ardıc kökündən efir yağı alınırdı. Müharibə illərində ictimai elmlər sahəsində çalışan alimlər xalqın qəhrəmanlıq tarixindən əsərlər yazmaqla vətənpərvərlik ideyalarını təbliğ edirdilər.

Alimlərimizin müharibə illərində cəbhəyə xidmətinin nəticəsi olaraq, 1945-ci il mayın 23-də SSRİ EA AF əsasında Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Onun ilk prezidenti məşhur həkim, akademik M.Mirqasımov oldu. Akademiyanın 16 institutu və bölməsi, əlyazmalar fondu var idi.

Azərbaycanda elm müharibədən sonrakı illərdə də böyük uğurlar əldə etmişdi. Elmi idarələrin sayı 1945-ci ildəki 66-dan 1970-ci ildə 142-ə, 1980-ci ildə 151-ə çatmışdı. Respublikada elmi kadrların sayı sürətlə artırdı. 1947-ci ildə elmlər doktorlarının sayı 113 nəfərdən 1970-ci ildə 652 nəfərə, 80-ci illərin sonunda isə 1186 nəfərə, elmlər namizədlərinin sayı 1947-ci ildə 669 nəfərdən 1970-ci ildə 5346 nəfərə, 80-ci illərin sonunda isə 8905 nəfərə çatmışdı.

Müharibədən sonrakı illərdə fizika elmində mühüm nailiyyətlər əldə edilmişdi. 1950-ci ildən respublikada fizika elminin inkişafında yeni mərhələ başlandı. Yarımkeçiricilər fizikasının, nəzəri fizikanın, metallar fizikasının problemlərinin tədqiqi genişləndirildi. Azərbaycan fizikləri akademik Həsən Abdullayevin rəhbərliyi altında yarımkeçiricilərin düzləndirici elektrik xassələrini, mayelərin (əsasən neftin) mikrostruk-





turunu, termodinamik və optik xassələrini öyrənmək sahəsində maraqlı tədqiqatlar apardılar.

Azərbaycanın fizik və riyaziyyatçıları tərəfindən kvant fizikasını və kosmoqoniyanı öyrənmək sahəsində önəmli işlər aparılırdı. Bu işlərin nəticəsində Şamaxıda astrofizika rəsədxanası yaradıldı. Həmin rəsədxana keçmiş Sovet İttifaqında ən böyük astrofizika rəsədxanası idi.

Görkəmli riyaziyyatçı alim Zahid Xəlilovun rəhbərliyi ilə neft qatlarında quyuların ən əlverişli şəkildə yerləşdirilməsinin riyazi öyrənilməsinin böyük əhəmiyyəti vardı. Bakı Dövlət Universitetinin riyaziyyatçılarının Mingəçevir su qovşağı inşaatçılarının müraciəti ilə Mingəçevir SES-in su altında qalan borularının təzyiqini müəyyənləşdirmək üçün apardıqları tədqiqatların böyük elmi və əməli əhəmiyyəti vardı. Riyaziyyatçılar funksional təhlil problemləri və inteqral tənliklər nəzəriyyəsi sahəsində tədqiqatlar ilə bərabər tətbiqi xarakterli məsələləri də araşdırırdılar. 1954-cü ildə qazın və qazlı neftin süzülməsinin riyazi məsələləri sahəsində akademik Azad Mirzəcanzadənin tədqiqatlarının böyük elmi və istehsalat əhəmiyyəti vardı.

Azərbaycan alimləri kimya, biologiya, geologiya, coğrafiya və seysmologiya sahələrində də bir sıra nailiyyətlər əldə etmişdilər. 1949-cu ildə Şamaxı, Gəncə, Naxçıvan və Lənkəranda seysmik stansiyaların yaradılması Azərbaycan həyatında böyük hadisə idi.

1972-ci ildə Azərbaycan EA Naxçıvan Elmi Mərkəzinin yaradılmasının, 1975-ci ildə "Xəzər" Elmi Mərkəzinin fəaliyyətə başlamasının Azərbaycan elminin inkişafında böyük rolu olmuşdur. "Xəzər" Elmi Mərkəzi respublikanın təbii sərvətlərinin kosmik tədqiqi ilə məşğul olurdu. 1978-ci ildən isə Bakıda Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyi fəaliyyətə başladı. Akademik Tofiq İsmayılovun rəhbərliyi altında Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyində keçmiş

SSRİ-də ilk dəfə ətraf mühitə operativ nəzarət edən peykaltı ölçü sistemləri yaradılmışdı.

Müharibədən sonrakı illərdə tarix, fəlsəfə, dilçilik, ədəbiyyatşünaslıq, folklor, arxeologiya və etnologiya sahəsində də mühüm tədqiqatlar aparılmışdır. Humanitar və ictimai elmlər sahəsində Azərbaycan elminin müharibədən sonrakı illərdə ən böyük nailiyyəti 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası"nm hazırlanıb nəşr olunmasıdır.

**25.2. Azərbaycan sovet ədəbiyyatı.** Demokratik ənənələr üzərində dayanan Azərbaycan yazıçıları Sovet hakimiyyətinin ilk illərində ictimai-mədəni və ədəbi tədbirlərdə iştirak edərək respublikanın yeni həyatına fəal qoşulurdular. S.S.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, H.Cavid, Ə.Cavad, Hacı Kərim Sanılı, C.Cabbarlı, A.Şaiq, Y.V.Çəmənzəminli, N.Vəzirov, M.S.Ordubadi, Ə.Nəzmi və T.Şahbazi kimi görkəmli yazıçılar maarifçilik, tərəqqi və humanizm ideyalarını təbliğ edərək, köhnəlik və mövhumata qarşı mübarizə aparırdılar.

S.S.Axundov 1921-ci ildə "Laçın yuvası" pyesilə "Tənqid-təbliğ teatrı"nın səhnəsi üçün elan olunmuş müsabiqədə 32 səhnə əsəri içərisində birinci yeri tutmuşdu. S.S.Axundov 1921-1923-cü illərdə "Taleyin təkəri", "Əməkdə xoşbəxtlik", "Qaranlıqdan işığa", "İki yol", "Məhəbbətin nəticələri", "Şərq diplomatları" və "Yeni məişət" səhnə əsərlərini yazmışdır.

XX əsrin 20-ci illərində Azərbaycan ədəbiyyatı C.Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi" (1921) və "Dəli yığıncağı" pyesləri, H.Cavidin "Peyğəmbər" (1923) və "Topal Teymur" (1925) əsərləri, Ə.Cavadın "Göy göl" (1925) poeması, Hacı Sanılının "Aran köçü" (1925) və "Namus davası" (1927) poemaları, C.Cabbarlının "Aydın" (1921) və "Oqtay Eloğlu" (1923) pyesləri ilə zənginləşmişdi.

1925-ci ildə "Kommunist" qəzetinin yanında "Gənc Qızıl Qələmlər İttifaqı" yaradıldı. Bu ittifaqa S.Rüstəm, M.Rahim,





M.Müşfıq, S.Vurğun, Ə.Əbülhəsən, M.Hüseyn və M.Cəlal daxil idilər. İttifaqın Gəncə, Naxçıvan, Xankəndi, Lənkəran, Şəki və b. şəhərlərdə şöbələri vardı.

XX əsrin 20-30-cu illərinin dramaturgiyasının parlaq ulduzu C.Cabbarlı olmuşdur. Onun "Od gəlini", "Sevil" (1928), "Almaz" (1930), "1905-ci ildə" (1931) və "Yaşar" (1932) pyesləri Azərbaycan dramaturgiyasının gələcək istiqamətini müəyyən etdi.

Azərbaycanın görkəmli şairi H.Cavid yeni ədəbiyyata mürəkkəb və ziddiyyətli yol keçərək gəlmişdi. Rəsmi tənqid onu sovet yeniliklərini əks etdirməməkdə günahlandırırdı. 20-ci illərin sonunda ədəbi tənqidin təzyiqi altında onun yaradıcılığında müəyyən dəyişikliklər nəzərə çarpırdı. Bu baxımdan onun "Azər" poeması diqqəti cəlb edir. Bu poemasında və "Knyaz" pyesində H.Cavid Sovet hakimiyyəti uğrunda mübarizəni əks etdirirdi.

1930-cu ildə Ə.Əbülhəsənin "Yoxuşlar", S.Rəhimovun "Şamo" romanları nəşr olunur. Bu əsərlər Azərbaycan nəsrinin tədricən yeniləşdiyini göstərirdi. "Yoxuşlar" romanı Azərbaycan kəndində baş verən yeni mürəkkəb sosial-iqtisadi proseslərə, "Şamo" romanı isə Azərbaycanda vətəndaş müharibəsinə həsr olunmuşdu.

30-cu illərdə Azərbaycan poeziyasının ön cərgələrində S.Rüstəm, S.Vurğun, M.Müşfiq, M.Rahim, R.Rza və b. gedirdilər. S.Rüstəmin "Bakı misraları" şeiri, S.Vurğunun "Komsomol" poeması, M.Müşfiqin "Cəbi dayı" şeiri, M.Rahimin "Neft" şeiri, R.Rzanın "Bakı" şeiri sovet cəmiyyətinin yeniliklərinə həsr olunmuşdular. Həmin illərin nəsrinin ən yaxşı nümunəsi isə M.İbrahimovun "Həyat" pyesi hesab edilir. O vaxt bu pyes Azərbaycan sovet ədəbiyyatının böyük nailiyyəti kimi qiymətləndirilirdi.

30-cu illərdə Azərbaycan dramaturgiyası H.Cavidin "Səyayuş" (1933), "İblisin intiqamı" (1936) və "Xəyyam" (1935) pyesləri ilə zənginləşdi. H.Cavidin "Xəyyam" pyesi

Azərbaycanın SSR XKS-nin qərarı ilə mükafata layiq görülmüşdü. Həmin illərdə C.Cabbarlı ənənələri ilə yetkinləşmiş Azərbaycan dramaturgiyası S.Vurgun yaradıcılığı ilə yeni pilləyə qalxdı və onun "Vaqif" (1939) və "Xanlar" (1939) pyesləri ilə şöhrət tapdı. S.Rüstəmin "Qaçaq Nəbi" dramı ona şöhrət qazandırmışdı. S.Rəhmanın "Toy" və "Xoşbəxtlər" komediyaları Azərbaycan teatrlarının səhnəsində müvəffəqiyyətlə nümayiş etdirilirdi.

Lakin Azərbaycan sovet ədəbiyyatının inkişaf yolu heç də hamar deyildi. Respublikanın ədəbi mühiti mürəkkəb və ziddiyyətli idi. Mətbuat səhifələrində Azərbaycanın görkəmli şair və yazıçılarına qarşı hücumlar edilir, onların yaradıcılığı kəskin tənqid edilir, özləri isə köhnəpərəstlikdə, bədbinliyi təbliğ etməkdə ittiham edilirdilər. Tənqid və hücumlara ən çox H.Cavid, Ə.Cavad, H.K.Sanılı, Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev və M.S.Ordubadi məruz qalırdılar.

Azərbaycan ədəbi mühütindəki ziddiyyətlər kütləvi siyasi represiyalar başlayanda ağır cinayətlərlə nəticələndi. Azərbaycanın görkəmli ziyalıları, yazıçıları və şairləri H.Cavid, Ə.Cavad, S.Hüseyn, M.Müşfıq, Y.V.Çəmənzəminli, Ə.Nəzmi, S.Mümtaz, T.Simurq, B.Çobanzadə və bir çox başqaları 1937-ci il siyasi represiyalarının qurbanları oldular. Lakin onlar öz əsərləri ilə adlarını Azərbaycan ədəbiyyatı salnaməsində əbədi olaraq həkk etdirmişlər.

İkinci Dünya müharibəsi illlərində humanizm, xəlqilik və vətənpərvərlik ənənələrinə sadiq qalan Azərbaycanın ədəbiyyat xadimləri - yazıçılar və şairlər öz əsərləri vasitəsilə insanlarda Vətənə məhəbbət, düşmənə nifrət hissi aşılayır, cəsurluq, mətinlik və igidlik duyğuları tərbiyə etməklə düşmən üzərində qələbəyə inam yaradırdılar. Şair və yazıçılar orduya çağırış məntəqələrində, hərbi hissələrdə, müəssisə və idarələrdə çıxış edərək insanları vətənpərvərliyə yə qələbəyə səsləyirdilər. S.Vurğun, O.Sarıvəlli, S.Rüstəm, M.Rahim, R.Rza, M.Hüseyn, Z.Xəlil, T.Əyyubov, Ə.Vəliyev, İ.Əfəndiyev, Ə.Məmmədxanlı,





M.İbrahimov, Mir Cəlal bir neçə dəfə cəbhə xəttinə gedərək 416-cı, 402-ci və 223-cü Azərbaycan diviziyalarının döyüşçüləri ilə görüşlər keçirmişdilər.

Süleyman Rəhimov, Məmməd Səid Ordubadi, Mehdi Hüseyn, Mir Cəlal, Ənvər Məmmədxanlı, Yusif Şirvan və başqalarının vətənpərvərlik mövzusunda "Döyüşən qələm" bədii əsərlər toplusu çap olundu. Uşaqlar və yeniyetmələr üçün isə "Vətən mahnıları" adlı kitab çap olunmuşdu. Azərbaycan ədəbiyyatı müharibə illərində M.Hüseynin "Nizami" və "And", S.Rüstəmin "Partizanlar", S.Rəhimovun "Fitnə", Z.Xəlilin "Namus bayrağı", S.Vurğunun "Fərhad və Şirin" kimi tərbiyəvi əhəmiyyətli dram əsərləri ilə zənginləşdi.

Müharibədən sonrakı ilk illərdə Azərbaycan ədəbiyyatı ictimai-siyasi həyatla sıx əlaqədə inkişaf etmiş, oxucularda böyük maraq oyadan əsərlər yaradılmışdı. Poeziya sahəsində S.Vurğunun "Muğan" və "Zəncinin arzuları", M.Rahimin "Leninqrad göylərində" və S.Rüstəmin "Qafurun qəlbi" kimi poemalar yazıldı. Nəsr sahəsində M.Hüseynin "Abşeron", M.Cəlalm "Yaşıdlarım", Ə.Vəliyevin "Gülşən", M.Süleymanovun "Yerin sirri", M.S.Ordubadinin "Dumanlı Təbriz" və "Qılınc və Qələm" romanları və M.Hüseynin "Komissar" povesti xalqın tarixinin mühüm səhifələrinə, müasir həyata və azadlıq uğrunda mübarizə hərəkatına həsr edilmişdilər. Dramaturgiya sahəsində İ.Əfəndiyevin "Bahar suları", Ə.Məmmədxanlının "Şərqin səhəri", C.Məcnunbəyovun "Böyük məhəbbət", İ.Qasımovun "Xəzər üzərində şəfəq" və S.Rəhmanm "Aydınlıq" pyeslərində müasirliyə maraq güclü idi.

1947-ci ildə böyük Azərbaycan şairi, dünya poeziyasının Günəşi, böyük filosof, mütəfəkkir Nizami Gəncəvinin 800 illik yubileyi dünya miqyasında qeyd edildi. Yubiley münasibətilə Gəncədə 1946-cı ildə dahi şairin məqbərəsi açıldı. SSRİ Yazıçılar İttifaqının və Azərbaycan Yazıçılar İttifaqının böyük Nizaminin yubileyinə həsr edilmiş təntənəli plenumu keçirildi.

Yubiley Moskvada, Leninqradda və Sovet İttifaqının digər mədəni mərkəzlərində təntənə ilə qeyd olundu.

50-ci illərdə Azərbaycan yazıçıları yeni ədəbi nailiyyətlər qazandılar. S.Vurğunun "Aygün" poemasında əməyin qüdrəti və şəxsiyyətin fərdi duyğuları bədii təhlilini tapır. Azərbaycan nəsri M.İbrahimovun "Böyük dayaq", M.Hüseynin "Səhər", M.Cəlalın "Yolumuz hayanadır", Ə.Vəliyevin "Çiçəkli", İ.Qasımov və H.Seyidbəylinin "Uzaq sahillərdə", Ə.Sadıqın "Mingəçevir", S.Rəhmanın "Böyük günlər", S.Rəhimovun "Ağbulaq dağlarında", İ.Şıxlının "Ayrılan yollar", İ.Hüseynovun "Yanar ürək", İ.Əfəndiyevin "Söyüdlü arx", Ə.Əbülhəsənin "Tamaşa qarınm nəvələri" və H.Seyidbəylinin "Telefonçu qız" roman və povestlərilə zənginləşdi. Azərbaycan dramaturgiyasında bədii kamillik kəsb edən Ə.Məmmədxanlının "Od içində" və "Şirvan gözəli", İ.Əfəndiyevin "Atayevlər ailəsi", R.Rzanm "Qardaşlar", İ.Qasımov və H.Seyidbəylinin "Dəniz cəsurları sevir" və İ.Səfərlinin "Göz həkimi" əsərlərində bir sıra bitkin bədii surətlər yaradıldı.

60-cı illərdə S.Rəhimovun "Mehman", S.Rəhmanın "Yalan", İ.Hüseynovun "Doğma və yad adamlar", Elçinin "Ağ dəvə", M.İbrahimovun "Gələcək gün" və P.Makulunun "Səttarxan" romanları oxucular tərəfindən rəğbətlə qarşılanmışdı. Bu sənət əsərlərində cəmiyyətdə, ailədə və nəsillər arasında olan ziddiyyətlərin səbəbləri məharətlə açıqlanırdı.

70-ci illərdə Azərbaycan ədəbiyyatı poeziyanın yeni-yeni nümunələrinin yaradılması ilə fərqlənir. Mirvarid Dilbazinin "Bənövşələr üşüyəndə", "Ana qanadı", "Dağ çiçəyi" və "Yasəmən fəsli", Nigar Rəfibəylinin "Günəşdən gənclik istədim" və "Bizə bahar yaraşır", İslam Səfərlinin "Çiçək təranəsi", "Dan ulduzu, bir də mən" Əli Kərimin "Qaytar ana borcumu", "Uşaqlar və ulduzlar", "Pillələr" və "Qayıq", Nəbi Xəzrinin "Dərələr", "Ulduz karvanı", "Heykəlsiz abidə" və "İnam", Rəsul Rzanın "Dünən, bugün, sabah", "Güneylər və quzeylər" və "Üzü küləyə", Bəxtiyar Vahabzadənin "Muğam"





və "Atılmışlar" şeirlər kitablarında məhəbbət, torpağa bağlılıq, vətənpərvərlik, azadlıq ideyaları, Azərbaycan qadınlarının mənəvi zənginliyi, Vətənin təbii gözəllikləri, insanların nəcib arzu və istəkləri, ümumbəşəri hiss və düşüncələr başlıca yer tuturdu.

70-80-ci illərdə Azərbaycanın bədii nəsri zəngin inkişaf yolu keçmişdir. Bu illərdə S.Rəhimovun "Ana abidəsi" və "Qafqaz qartalı", İ.Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı", Əzizə Cəfərzadənin "Aləmdə səsim var mənim", Ələviyyə Babayevanın "Adamlar və talelər", İsa Hüseynovun "Nəsimi" və M.İbrahimovun "Pərvanə" roman və povestləri yazılmışdır.

70-80-ci illərdə Azərbaycan dramaturgiyası da yeni əsərlərlə zənginləşdi. Bu illərdə yazılmış M.İbrahimovun "Bəşəri komediya", İ.Qasımovun "Nağıl başladı", B.Vahabzadənin "Yağışdan sonra", İ.Əfəndiyevin "Billur sarayda" və Anarın "Şəhərin yay günləri" pyeslərində mənəvi-əxlaqi və psixoloji problemlər əsas yer tuturdu.

Azərbaycan Sovet ədəbiyyatı XIX əsrin sonu - XX əsrin əvvəllərində yazıb-yaratmış klassik yazıçılarımızın ənənələrini davam etdirərək həm realist, həm də romantik ruhlu bədii əsərlərlə gənclərimizin qəlbini oxşamış, xalqımızı vətənpərvərlik və xəlqilik ruhunda tərbiyə etmişdir.

**25.3. Sovet Azərbaycanının incəsənəti.** XX əsrin 20-ci illərində Azərbaycan teatrınm inkişafında da müəyyən irəliləyişlər olmuşdur. 1920-ci ildə Mayılov teatrının binasmına Dövlət Teatrı yaradıldı. O vaxt bütün dram və opera kollektivləri orada cəmləşmişdi. Elə həmin ildə Bakıda Azərbaycan Akademik Dram Teatrının özəyi olan ilk teatr truppası formalaşdı. Onun yaradılmasında görkəmli yazıçı Ə.Haqverdiyevin böyük rolu olmuşdur.

1920-ci ildə, Mart soyqırımı vaxtı ermənilər tərəfindən yandırılmış H.Z.Tağıyev teatrının bərpasına başlandı. Teatr binasının bərpası 1922-ci ildə başa çatdırıldı və yanvar ayında M.F.Axundzadənin "Hacı Qara" komediyasının tamaşası ilə

teatrın açılışı oldu. Dövlət Dram Teatrı Mirzağa Əliyev, Mərziyə Davudova, Ağadadaş Qurbanov, Sidqi Ruhulla, Rza Təhmasib, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Möhsüm Sənani kimi görkəmli səhnə ustalarının sayəsində yüksək zirvələrə qalxdı. Azərbaycan Dram Teatrının səhnəsində C.Cabbarlınm dram əsərləri əsas yer tuturdu. Onun "Aydın", "Sevil" və "Oqtay Eloğlu" pyesləri milli dramaturgiyamızın qızıl fonduna daxil edilmişdir. 1926-cı ildə V.Şekspirin "Hamlet" faciəsi Azərbaycanda ilk dəfə tamaşaya qoyulmuş, baş rolda - Hamlet rolunda A.M.Şərifzadə oynamışdır.

1923-cü ildə Bakıda bütün Şərqin ilk teatr texnikumunun açılması böyük tarixi hadisə oldu. Texnikum Ş.Məmmədova və A.M.Şərifzadənin rəhbərliyi ilə təkcə Azərbaycan üçün deyil, Orta Asiya respublikaları üçün də aktyor kadrları hazırlayırdı.

30-cu illərin siyasi represiyaları Azərbaycan teatr səhnəsindən də yan keçmədi. Azərbaycan teatr səhnəsində faciəli rolların görkəmli ifaçıları Abbas Mirzə Şərifzadə və Ülvi Rəcəb də 1937-ci il repressiyasının qurbanı oldular.

XX əsrin 20-ci illərində milli musiqi incəsənətimizin yeni əsaslı inkişaf bazası yaradılırdı. Respublikada geniş xalq kütlələri üçün xüsusi musiqi təhsili sisteminin yaradılmasında peşəkar Azərbaycan musiqisinin banisi Ü.Hacıbəylinin misilsiz xidmətləri olmuşdur. Onun təşəbbüsü ilə 1921-ci il avqustun 26-da Bakıda Azərbaycan Dövlət Konservatoriyası - Şərqdə ilk musiqi akademiyası təsis edildi. Konservatoriyaya azərbaycanlı uşaqları cəlb etmək məqsədilə Ü.Hacıbəyli 1922-ci ildə ilk professional Azərbaycan musiqi məktəbi yaratdı. Tezliklə texnikuma çevrilən bu məktəb 1926-cı ildə Konservatoriyanın nəzdində orta musiqi məktəbi oldu.

Ü.Hacıbəyli, M.Maqomayev və başqa mütərəqqi musiqi mədəniyyəti xadimləri musiqi folklorunu toplamaq və dərindən öyrənməyə xüsusi diqqət yetirirdilər. Konservatoriyada Azərbaycan xalq mahnı və nəğmələrini öyrənən və toplayan Komitə fəaliyyət göstərirdi. 1927-ci ildə Komitə Ü.Hacıbəyli





və M.Maqomayevin redaktə etdikləri və təkmilləşdirdikləri birinci "Azərbaycan türk xalq mahnıları" məcmuəsini buraxdı.

1925-ci ildə əvvəllər dram teatrının nəzdində fəaliyyət göstərən opera truppası Azərbaycan Dövlət Opera və Balet Teatrına çevrildi. Həmin teatrda Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", "O olmasın, bu olsun" və "Arşın mal alan", M.Maqomayevin "Şah İsmayıl" və digər milli bəstəkarların operaları və musiqili komediyaları (operettaları) tamaşaya qoyulmuşdur. Teatrın rus truppası isə 1927-ci ildə bəstəkar Qliyerin "Şahsənəm", Çaykovskinin "Yevgeni Onegin" və "Qaratoxmaq qalın", Borodinin "Knyaz İqor", Musorqskinin "Boris Qodunov", Bizenin "Karmen", Rossininin "Sevilya bərbəri", Verdinin "Riqaletto", Puççininin "Toska" və s. əsərləri tamaşaya qoydu.

Azərbaycanın istedadlı cavan bəstəkarı Asəf Zeynallı (1909-1932) milli və Avropa musiqisinin qarşılıqlı əlaqələrini dərinləşdirən ilk Azərbaycan romanslarını yaratdı. Onun "Ölkəm", "Çadra" və "Sərhədçi" romansları yüksək vətənpərvərlik ruhu aşılayırdı.

XX əsrin 30-cu illərində xalq musiqi yaradıcılığı və ifaçılığı geniş vüsət aldı. Bu sahədə xalqın böyük məhəbbətini qazanmış sənətkarlar Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Qurban Primov və Bəhram Mansurov xüsusilə fərqlənirdilər. Azərbaycan professional vokal sənətinin banisi Bülbülün musiqi sənətinin inkişafında böyük rolu olmuşdur.

1934-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqının yaradılması musiqi mədəniyyətimizin inkişafında önəmli hadisə kimi qeyd edilməlidir. 1936-cı ildə isə Azərbaycan Dövlət Filarmoniyası açıldı və Azərbaycan Dövlət xoru və xalq rəqsləri ansamblı yaradıldı.

1937-ci ildə tamaşaya qoyulmuş Ü.Hacıbəylinin "Koroğlu" operası milli opera sənətinin klassik nümunəsi, Azərbaycan opera musiqisinin ən uca zirvəsi oldu. Bəstəkar Əfrasiyab

Bədəlbəyli isə "Qız qalası" əsəri ilə milli baletimizin əsasını qoydu (1940).

1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyü xalqın musiqi mədəniyyətinin nailiyyətlərinə böyük baxış oldu. Ongünlüyün nəticəsində Ü.Hacıbəyli, M.Qliyer, Bülbül və Ş.Məmmədova SSRİ xalq artisti adı aldılar, Azərbaycan Dövlət Opera və Balet Teatrına isə Lenin ordeni verildi. 1940-cı ildə "Koroğlu" operasına görə Ü.Hacıbəyliyə SSRİ Dövlət mükafatı verildi və o, Azərbaycan Dövlət Konservatoriyasının rektoru təyin edildi. Onun rəhbərlik etdiyi Konservatoriyada Azərbaycan musiqi sənətinə dünya şöhrəti gətirən Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Cövdət Hacıyev, Sultan Hacıbəyov, Süleyman Ələskərov və Tofiq Quliyev kimi sənətkarlar yetişdi.

XX əsrin 20-30-cu illərində Azərbaycan kinematoqrafının təşəkkül tapıb müasir inkişaf yoluna çıxdığı illər kimi səciyyələnə bilər. 1921-ci ildə Azərbaycanda ilk bədii film olan "Qız qalası" çəkildi. 1928-ci ildə "Vulkan üzərində ev", 1929-cu ildə "Hacı Qara" və "Sevil", 1934-cü ildə "İsmət", 1936-cı ildə "Almas" və 1938-ci ildə "Kəndlilər" bədii filmləri yaradıldı.

Zəhmətkeş kütlələri incəsənətin təsviri sənət növünə alışdırmaq məqsədilə 1920-ci ildə Xalq Maarif Komissarlığı nəzdindəki incəsənət şöbəsində bədii bölmə yaradılmışdı. Bölməyə görkəmli rəssam Ə.Əzimzadə rəhbərlik edirdi. Azərbaycan hökumətinin 1924-cü ildə qəbul olunmuş "Qədim abidələrin qeydə alınması və onların mühafizəsi haqqında" qərarına uyğun olaraq, memarlıq abidələrinin, sarayların, qədim evlərin, karvansaraların və bütün incəsənət sərvətlərinin qeydə alınması və mühafizəsi işinə başlandı. Təsviri sənət sahəsində milli kadrlar hazırlamaq məqsədilə 1921-ci ildə Ali Bədii Məktəb açıldı. 1932-ci ildə yaradılmış Azərbaycan Rəssamlar İttifaqının təsviri sənətin inkişafında xüsusi rolu olmuşdur.





XX əsrin 20-30-cu illərinin ən görkəmli rəssamları Əzim Əzimzadə və Bəhruz Kəngərli olmuşlar. Ə.Əzimzadə Azərbaycanda yeni qrafika sənətinin banisi hesab edilir. Onun siyasi plakatları qrafika sənətinin aydınlığı və asan başa düşülməsilə seçilirdi. "Molla Nəsrəddin" və digər jurnallarda çıxış edən rəssam özünün kəskin satirik şəkil və karikaturalarında daxili və beynəlxalq həyatda baş verən mühüm hadisələri ustalıqla əks etdirirdi. Ə.Əzimzadənin teatr tamaşalarının bədii tərtibatı işində də böyük xidmətləri olmuşdur. O, "Hacı Qara", "Ölülər", "Əsli və Kərəm", "Leyli və Məcnun", "Dağılan tifaq", "Ağaməhəmməd Şah Qacar", "Şeyx Sənan" və b. səhnə əsərləri üçün maraqlı geyim eskizləri çəkmişdir. Xalqın tarixini, etnoqrafiyasını və folklorunu dərindən bilmək əsasında yaradılmış bu əsərlər təkcə bədii deyil, həm də tarixi dərketmə əhəmiyyətinə malikdi. Ə.Əzimzadə Azərbaycan Rəssamlar İttifaqının təşkilatçısı və ilk sədri olmuşdur.

Dəzgah rəssamlığının inkişafında mühüm rol oynamış B.Kəngərli görkəmli şəxsiyyətlərin portretlərini çəkmiş, lirik lövhələr və miniatürlər yaratmışdır. Onun "Aylı gecə", "Şəlalə", "İlanlı dağ" və "Çinarlar" lövhələri incə lirikanın ən gözəl nümunələridir.

Bu dövrdə Azərbaycanda dekorativ tətbiqi sənətin ənənəvi sahələri - xalçaçılıq, bədii tikmə, zərgərlik, ağac üzərində oyma və s. sənətləri də dirçəlirdi. Portret xalça sənətkarlığının ən gözəl nümunəsi L.Kərimovun eskizi üzrə hazırlanmış "Firdovsinin portreti" xalçası idi. Bu xalça 1937-ci ildə Parisdə Ümumdünya sərgisində müvəffəqiyyətlə nümayiş etdirilmişdi.

Səhnə tərtibatı ustaları içərisində R.Mustafayev seçilirdi. O, "Şahnamə", "Od gəlini" və "1905-ci ildə" tamaşalarına dekorasiyalar vermişdi.

Görkəmli heykəltaraşlar F.Əbdürrəhmanov və C.Qaryağdının yaradıcılıqları da XX əsrin 30-cu illərindən başlanır. Gənc heykəltaraşlar ilk əsərlərində Azərbaycan yazıçılarının və

mədəniyyət xadimlərinin surətlərini yaratmışdılar. F.Əbdürrəhmanovun Firdovsinin "Şahnamə"sinin motivləri əsasında yaratdığı "Nizə atan" heykəli onun ilk yaradıcılıq nailiyyəti idi.

Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq görülməsi təsviri və tətbiqi sənətin çiçəklənməsi üçün mühüm amil oldu. 1940-cı ildə Nizami Gəncəvinin portret surətini yaratmaq üzrə müsabiqədə H.Xalıqovun çəkdiyi məşhur portret birinci mükafata layiq görüldü. 1940-cı ildə Nizaminin abidəsini yaratmaq üçün elan olunmuş Ümumittifaq müsabiqəsində isə F.Əbdürrəhmanovun yaratdığı heykəl birinci mükafata layiq görüldü. Nizami muzeyinin fasadını bəzəyən altı heykəlin və 50-ci illərin sonunda qoyulmuş Füzulinin abidəsinin də müəllifi F.Əbdürrəhmanovdur. Nizami muzeyinin fasadında qoyulmuş Vaqifin heykəlinin müəllifi isə C.Qaryağdıdır.

XX əsrin 20-30-cu illərində Azərbaycanda memarlıq sənətinin də müəyyən uğurları olmuşdur. Sovet Azərbaycanında milli memarlıq ənənələri əsasında tikilmiş ilk monumental memarlıq nümunəsi Bakıda "Sabunçu vağzalının binası" (1926) hesab edilir. Bakının memarlıq abidələri arasında Azərbaycan Mətbuat Sarayı, Azərbaycan Sənaye İnstitutunun binası (indiki Neft Akademiyası), Dövlət bankı, köhnə "İnturist" mehmanxanası seçilirdilər.

Bu illərdə Bakıda indiki 28 May və Bülbül küçələrinin yenidən qurulması şəhərsalma memarlığının gözəl nümunəsi idi. Bu küçələrin kəsişdiyi yerdə tikilmiş "Nizami" kinoteatrının və Yeyinti Sənayesi Nazirliyinin binaları şəhərə xüsusi gözəllik verirdi. Həmin binaların memarları S.Dadaşov və M.Useynov idilər. Onlar Bülbül küçəsini bəzəyən incəsənət işçilərinin yaşayış evinin də layihəsinin müəllifləri idilər.

Bakının tədricən yaşıllaşdırılması üçün yeni bağlar, parklar və bulvar salınmasına başlandı. Şəhərin mərkəzinin görkəmini ümumi memarlıq baxımından yaxşılaşdırmaq məqsədilə köhnə bulvarın təbii davamı olan yeni bulvar salınması tədbirləri həyata keçirildi.





Azərbaycan incəsənət xadimləri İkinci Dünya müharibəsi illərində də böyük işlər görmüşlər. Azərbaycan bəstəkarları müharibə illərində 400 mahnı, marş, simfoniya, opera və s. musiqi əsəri bəstələmişdilər. Ü.Hacıbəylinin "Şəfqət bacısı" və "Qələbə himni", S.Rüstəmovun "Cəbhəyə", S.Ələskərovun "Gözlə məni" mahnıları dillər əzbəri olmuşdur.

Müharibədən sonrakı illərdə Azərbaycan musiqisi və ifaçılıq sənəti sahələrində mühüm nailiyyətlər əldə edilmişdi. Azərbaycan bəstəkarlarının yaradıcılığında 60-cı illərdə önəmli yeri simfoniya janrı tuturdu. Niyazinin "Rast", Fikrət Əmirovun "Şur" və "Kürdovşarı" və S. Ələskərovun "Bayatı Şiraz" simfonik muğamlarında ilk mənbə kimi Azərbaycan muğamlarının orijinal motivlərindən istifadə edilmişdi. 60-cı illərdə Qara Qarayevin skripka və fortepiano üçün "Sonata" və "Don Kixot" qravürləri, Cövdət Hacıyevin "Sülh uğrunda" və "Kvartet-poema" simfonik poemaları yazılmışdır. Arif Məlikovun "Nağıl" simfonik poeması və Birinci simfoniyası, Xəyyam Mirzəzadənin Birinci simfoniyası və Vasif Adıgözəlovun Birinci simfoniyası da 50-60-cı illərdə bəstələnmişdir. Opera və balet əsərlərinin yaradılmasında da bir sıra uğurlar əldə edilmişdi. 1953-cü ildə F.Əmirovun "Sevil" operası, C.Cahangirovun "Azad" operası, 1972-ci ildə Ş.Axundovanın "Gəlin qayası" operası, Q.Qarayevin 1952-ci ildə "Yeddi gözəl" və 1958-ci ildə "İldırımlı yollarla" baletləri, 1957-ci ildə S.Hacıbəyovun "Gülşən" baleti, 70-ci illərdə F.Əmirovun "1001 gecə" və Aqşin Əlizadənin "Babək" baletləri Bakı və Leninqrad Opera və Balet teatrlarında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Musiqili komediya janrı da böyük uğurlar əldə etmişdir. Müasir mövzulara həsr edilmiş Azərbaycan operettaları - Səid Rüstəmovun "Durna", Süleyman Ələsgərovun "Ulduz", Fikrət Əmirovun "Yaxşı yol", Tofiq Quliyevin "Qızılaxtaranlar", Rauf Hacıyevin "Romeo mənim qonşumdur" və Emin Sabitoğlunun "Hicran" musiqili komediya janrının gözəl nümunələri kimi tamaşaçıların rəğbətini

qazanmışdılar. Mahnı bəstələmək sahəsində T.Quliyev, S.Ələsgərov, S.Rüstəmov, Q.Hüseynli, C.Cahangirov, A.Rzayeva, R.Hacıyev, V.Adıgözəlov, O.Rəcəbov, P.Bülbüloğlu, E.Sabitoğlu, E.İbrahimova, Ə.Tağıyev və C.Quliyev xüsusilə fərqlənirdilər. Akademik Opera və Balet Teatrında tamaşalara Niyazi, Ə.Bədəlbəyli kimi püxtələşmiş sənətkarlar dirijorluq edirdilər. Ü.Hacıbəyli adına simfonik orkestra Niyazi, xalq çalğı alətləri orkestrinə S.Rüstəmov rəhbərlik edirdilər. Qəmər Almaszadə, Rəfiqə Axundova, Leyla Vəkilova, Məqsud Məmmədov, K.Bataşov, Çimnaz Babayeva və Tamilla Şirəliyeva milli baletin, Əminə Dilbazi və Əlibaba Abdullayev xalq rəqslərinin mahir ifaçıları və təbliğatçıları olmuşlar. Xalq musiqiçiləri Qurban Pirimov, Ə.Bakıxanov, B.Mansurov, S.Şuşinski, X.Şuşinski, H.Rzayeva, Ş.Ələkbərova, S.Qədimova, R.Behbudov, F.Əhmədova, M.Maqomayev, Z.Xanlarova, P.Bülbüloğlu, R.Atakişiyev, L.İmanov, F. və X.Qasımovalar, R.Muradova, F.Bədəlbəyli, V.Mustafazadə, H.Əliyev, Hacı Məmmədov, Q.Əskərov və b. ifaçılıq məharəti zəngin kaloriti və təkrarolunmazlığına görə xalq tərəfindən yüksək qiymətləndirilirdi.

XX əsrin 50-ci illərdə Azərbaycan teatrı müasir həyatımızın müxtəlif sahələrinə həsr edilmiş yeni tamaşalarla yanaşı klassik dramaturgiyanın ən yaxşı nümunələrini də səhnəyə qoyurdu. Müasir mövzulu tamaşalar içərisində İ.Səfərlinin "Göz həkimi", S.Rəhmamn "Nişanlı qız", İ.Əfəndiyevin "Atayevlər ailəsində" və Ə.Məmmədxanlının "Şirvan gözəli" pyesləri böyük uğurlar qazanmışdı. Müasirlik hissi, hadisələrə müasir baxış klassik əsərlərin tamaşalarında da öz əksini tapmışdı. Bu baxımdan V.Şekspirin "Otello" və "Qış nağılı", C.Cabbarlının "Od gəlini" və "Aydın", H.Cavidin "Şeyx Sənan", M.F.Axundzadənin "Lənkəran xanının vəziri", N.Vəzirovun "Hacı Qənbər", S.Vurğunun "Vaqif" və A.Şirvanzadənin "Namus" əsərlərinin tamaşaları çox qiymətli idi. Bu dövrdə Azərbaycan dram teatrında Adil İskəndərov,





Tofiq Kazımov, Əliheydər Ələkbərov, Ələkbər Şərifov, Mehdi Məmmədov və Rza Təhmasib kimi istedadlı rejissorlar yetişmişdi. Azərbaycan rejissorlarının yeni nəslinin yetişməsində A.İskəndərov və F.Kazımov rejissorluq məktəblərinin xüsusi rolu olmuşdur. 50-80-ci illərdə Azərbaycan teatrının Sidqi Ruhulla, Mirzağa Əliyev, Mərziyə Davudova, Ələskər Ələkbərov, Adil İskəndərov, Hökumə Qurbanova, Ağadadaş Qurbanov, Ağasadıx Gəraybəyli, Leyla Bədəlbəyli, Əli Zeynalov, İsmayıl Dağıstanlı, Barat Şəkinskaya, Mustafa Mərdanov, İsmayıl Osmanlı, Münəvvər Kələntərli, Sofiya Bəsirzadə, Həsənağa Salayev, Möhsün Sənani, Nəcibə Məlikova, Lütvəli Abdullayev, Bəşir Səfəroğlu, Nəsibə Zeynalova, Məlik Dadaşov, Mehdi Məmmədov, Amalya Pənahova, Məmmədrza Şeyxzamanov, Həsən Turabov, Yaşar Nuri, Rafael Dadaşov, Afaq Bəşirqızı, Əlağa Ağayev, Hacıbaba Bağırov, Fuad Poladov, Səməndər Rzayev və b. kimi istedadlı aktyorları yetişmişdi.

Lakin müharibədən sonrakı ilk illərdə Azərbaycanda dövlət dram teatrlarının sayı çox az idi. 1937-ci ildə respublikanın ayrı-ayrı şəhərlərində yaradılmış dövlət teatrları "səmərəsiz" hesab edilib bağlanmışdı. Yalnız Bakı, Gəncə, Quba, Naxçıvan və Xankəndində olan teatrlar öz fəaliyyətlərini davam etdirirdilər. 50-ci illərdə Azərbaycanın bir çox şəhərlərində xalq teatrları yarandı. 60-cı illərdə Sumqayıt və Mingəçevirdə dövlət teatrları açıldı, Lənkəran, Şəki, Şuşa və Ağdamda dövlət teatrları bərpa edildi. 80-ci illərin sonunda Qazax dövlət teatrı və Qusar dövlət ləzgi dram teatrı yaradıldı.

XX əsrin II yarısında Azərbaycan kinosunun inkişafı da çox uğurlu olmuşdur. Hələ 1945-ci ildə çəkilmiş "Arşın mal alan" filmi nəinki Sovet İttifaqında, hətta bütün dünyada çox böyük müvəffəqiyyətlə nümayiş etdirilirdi. Bu filmin yaradıcıları və ifaçılarının bir qrupu SSRİ Dövlət mükafatına layiq görüldülər. 50-80-ci illər ölkənin kino həvəskarları tərəfindən hərarətlə qarşılanan ən yaxşı filmlər - "Görüş",

"Qızmar günəş altında", "Bir məhəllədən iki oğlan", "Uzaq sahillərdə", "O olmasın, bu olsun", "Ögey ana", "Mahnı belə yaranır", "Şərikli çörək", "Yeddi oğul istərəm", "Ulduzlar sönmür", "Səhər", "Nəsimi", "Babək", "Tütək səsi", "Axırıncı aşırım", "Dədə Qorqud", "Telefonçu qız", "Bəxtiyar", "Mən ki, gözəl deyildim", "Uşaqlığın son gecəsi" və b. filmlərin yaradılması ilə əlamətdar olmuşdur.

XX əsrin ikinci yarısında Azərbaycanda bədii təsviri sənət, heykəltəraşlıq və memarlıq sahəsində nailiyyətlər incəsənət tarixində önəmli yer tutur. Görkəmli fırça ustası Mikayıl Abdullayevin romantik sənaye mənzərəsinə həsr edilmiş "Mingəçevir işıqları", Azərbaycan qadınının mənəvi saflığını və gözəlliyini əks etdirən "Axşam", fəlsəfi baxışı ilə nəzəri cəlb edən "Xoşbəxtlik yaradanlar" rəsmləri boyakarlıq sənətinin gözəl inciləri hesab edilə bilər. Azərbaycan rəssamlarından Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Elbəy Rzaquliyev, Vəsilə Səmədova, Maral Bəhmanzadə, Nəcəfqulu Nəcəfov, Lətif Kərimov, Salam Salamzadə, Tahir Salahov və başqalarının yaratdıqları boyakarlıq sənət nümunələri dünya sərgilərini bəzəyirdi. S.Bəhlulzadənin "Azərbaycan nağılları", "Suraxanı atəşgahı", "Əfsanəvi torpaq", "Naxçıvan axşamçağı", "Ordubad bağlarında" və "Abşeron tacı", M.Rəhmanzadənin "Xınalıq", "Bizim qızlar", "Azərbaycan", "Doğma vətənim" və "Mənim bacım", S.Salamzadənin "Çay plantasiyası" tablolarında Azərbaycanın təbiətinə, doğma torpağa, kənd həyatına, insanlara böyük məhəbbət motivləri sənətkarlıqla əks olunmuşdur. M.Abdullayevin "İmadəddin Nəsimi" və "Pianoçu Fərhad Bədəlbəyli", T.Salahovun "R.Rza" və "D.Şastakoviç" portretləri Azərbaycan boyakarlıq sənətinin ən parlaq nümunələridir.

XX əsrin II yarısında Azərbaycan heykəltəraşlarının yaratdıqları heykəllər dünya incəsənətinin ən nadir abidələri kimi qiymətləndirilirlər. Heykəltəraşlıq sənətinin zirvələrinə yüksəlmiş tişə ustası Fuad Əbdürrəhmanov bu dövrün ən





nəhəng simalarından olmuşdur. Onun "Çoban" abidəsi (1951) Moskvada Tretyakov Qalereyasının ekspoziyasına daxil edilmişdir. Onun Ulan-Batorda qoyulmuş "Suxe Bator"(1954) və "Marşal Çaybolsan" (1954) büst-heykəlləri, Bakıda ucaldılmış "Azad qadın" abidəsi (1960), Bakıda ucaldılmış "Səməd Vurğun" heykəli (1961), Düşənbədə ucaldılmış "Rudəki" heykəli (1964), Bakıda əfsanəvi qəhrəman Mehdi Hüseynzadəyə qoyulmuş abidə (1973) və Buxarada ucaldılmış "İbn Səna" heykəli (1975) dünya heykəltəraşlığının inciləri sırasına daxil olmuşlar. Bu dövrün tişə sənətinin digər nəhəngi Cəlal Qaryağdı olmuşdur. Bakıda ucaldılmış "M.Ə.Sabir" və "N.Nərimanov" heykəlləri, Lənkəranda ucaldılmış "General Həzi Aslanov" heykəli, Ordubadda ucaldılmış "Akademik Yusif Məmmədəliyev" heykəli və Qazaxda ucaldılmış "Səməd Vurğun" heykəli Cəlal Qaryağdı yaradıcılığının məhsullarıdırlar. Heykəltəraşlar Tokay Məmmədov və Ömər Eldarovun Bakıda ucaltdıqları "Füzuli" heykəli, heykəltəraşlar Tokay Məmmədov və İbrahim Zeynalovun Bakıda ucaltdıqları "Nəsimi" heykəli, Ömər Eldarovun Bakıda qoyulmuş "Xurşud banu Natəvan" abidəsi və Düşənbədə ucaldılmış "Sədrəddin Ayni" heykəli, Mirələskər Mirqasımovun Bakıda ucaltdığı "Cəfər Cabbarlı" heykəli və Naxçıvanda ucaltdığı "Cəlil Məmmədquluzadə" heykəli və Elmira Hüseynovanın Zərdabda qoyulmuş "Həsən bəy Zərdabi" abidəsi monumental heykəltəraşlığın ən yaxşı nümunələridir.

XX əsrin II yarısında Azərbaycan memarlığının mühüm obyekti Bakının mərkəzinin yenidən qurulması olmuşdur. 50-ci illərdə Bakının ən iri memarlıq obyektlərinin - Hökumət Evinin və Respublika stadionunun inşası başa çatdırıldı. Bir qədər

sonra Milli Elmlər Akademiyasının yeni binası, Texniki Universitetin binası, Akademik Dövlət Dram Teatrı, Mərkəzi Univermaq, Daxili İşlər Nazirliyinin binası, indiki Muzeylər Evi və Mərkəzi Dövlət Kitabxanasının binası tikildi. Sabir bağından Gənclər meydanına qədər olan ərazidə köhnə binalar

söküldü, İçərişəhər divarlarının qənşəri açıldı, qala divarları Nizami Muzeyi, AMEA Rəyasət Heyətinin binası və böyük Nizaminin heykəli olan bağ ilə uyğun şəkildə bərpa olunduqdan sonra gözəl memarlıq mənzərəsi yarandı. Azərbaycan memarlığı üçün Xəzər sahilində iri sənaye mərkəzi Sumqayıtın yaradılması böyük hadisə oldu. Mingəçevir şəhərinin layihələşdirilməsi və inşası da yeni böyük şəhərsalma memarlığının nümunəsi hesab edilə bilər.

Azərbaycan memarlığı 70-80-ci illərdə daha çox inkişaf etdi. Yaşayış binalarının kütləvi inşası ilə yanaşı, orijinal layihələr üzrə şəhərləri bəzəyən ictimai binalar da tikilirdi. Bakıda və respublikanın digər şəhərlərində milli memarlıq ünsürlərini əks etdirən layihələr üzrə çoxlu bina inşa olundu. Bakıda "Respublika" (indiki Heydər Əliyev) sarayı, "Gülüstan" sarayı, mehmanxana binaları, metropolitenin "Nizami", "Əcəmi" və b. stansiyalarının və digər ictimai binalar tikilib şəhərin gözəlliyini artırdı.

Beləliklə, XX əsrin II yarısı Azərbaycan mədəniyyətinin inkişafında mühüm dövr oldu. 70-80-ci illərdə ulu öndər Heydər Əliyevin milli oyanış siyasəti nəticəsində təhsil, elm, ədəbiyyat və incəsənətin tərəqqisi üçün geniş imkanlar açıldı, xalqın mədəni sərvətləri xeyli dərəcədə artdı.

**25.4. Azərbaycan SSR-də XX əsrin ortaları və ikinci yarısında mədəni-maarif işi və kütləvi informasiya vasitələri.** İnsanların biliyinin genişləndirilməsilə yanaşı mədəni səviyyəsinin yüksəldilməsində mədəni-maarif müəssisələrinin və kütləvi informasiya vasitələrinin (KİV) əhəmiyyətli yeri vardır. Azərbaycanda müharibə illərində azalmış mədəni-maarif müəssisələri şəbəkəsi XX əsrin ortaları və ikinci yarısında bərpa olundu və genişləndi. Azərbaycanda kütləvi kitabxanalarının sayı 1946-cı ildəki 815-dən 1970-ci ildə 2922-yə, 1980-ci ildə isə 4605-ə, klubların sayı müvafiq olaraq 1711-dən 2146-ya və 3680-ə çatdı.





Mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri kino idi. Respublikada kino qurğularının sayı 1946-cı ildəki 252-dən 1970-ci ildə 2004-ə, 1980-ci ildə 2167-yə çatdı. 80-ci illərin ortalarında Bakınm "Araz" kinoteatrında stereoiılmlər kinozalı yaradıldı.

Mədəni-maarifin inkişafında 1947-ci ildə yaradılmış və sonralar "Bilik" cəmiyyəti adlanan, Azərbaycan Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyətin də müəyyən rolu olmuşdur.

Azərbaycanda ikl muzeylər hələ XX əsrin 20-32-ci illərində yaradılmışdı. 1920-ci ildə Azərbaycan Dövlət muzeyi təhkil edilmişdi. Sonralar bu muzey Azərbaycan tarixi sahəsində ixtisaslaşdırıldı və Azərbaycan Tarix Muzeyi adlandırıldı. 1936-cı ildə isə Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsinin əsasında Azərbaycan İncəsənət Muzeyi yaradıldı. Hazırda bu muzeylər Milli Muzey statusu almışlır. 1938-ci ildə Azərbaycanda ilk memorial muzey - Şəki şəhərində M.F.Axundzadənin Ev Muzeyi təşkil edildi.

XX əsrin II yarısında Azərbaycanda muzey işi də inkişaf etmişdir. 1946-cı ildə Bakıda Nizami adına Ədəbiyyat Tarixi Muzeyi, 1958-ci ildə Şəkidə yeni Tarix Diyarşünaslıq Muzeyi, 1959-cu ildə Xızıda C.Cabbarlının, Şuşada Ü.Hacıbəylinin Ev muzeyləri, 1964-cü ildə Bakıda "Qız qalası" Muzeyi, 1972-ci ildə Bakıda "Azərbaycan xalçası və tətbiqi sənət" muzeyi, 1975-ci ildə Bakıda Ü.Hacıbəylinin və S.Vurğunun Ev muzeyləri, 1981-ci ildə Naxçıvanda H.Cavidin Ev Muzeyi, 1982-ci ildə Bakıda C.Cabbarlının və Bülbülün Ev muzeyləri, respublikanın şəhərlərində 10-a yaxın Tarix-Diyarşünaslıq muzeyləri açıldı. 1990-cı ildə Azərbaycanda 174 muzey fəaliyyət göstərirdi. Respublikada bədii muzeylər və şəkil qalereyaları açılmışdı. Bakıda S.Bəhlulzadə adına və V.Səmədova adına sərgi salonları, Bakıda və Lənkəranda uşaq şəkil qalereyaları, Gəncədə "Nizami təsviri sənət qalereyası" və "Nizami dövrü yaradıcılığı muzeyi" açıldı.

Azərbaycan Milli Dövlət Tarix Muzeyində əsas ekspozisiya ilə yanaşı hər il mühüm hadisələrə və əlamətdar günlərə həsr edilmiş tematik və səyyat sərgilər təşkil edilirdi. Tarix Muzeyinin eksponatları Paris, Madrid, London, Budapeşt, Tokio, Nyu-York və b. şəhərlərdə keçirilən sərgilərdə nümayiş etdirilmişdir. Milli Azərbaycan Dövlət Tarix Muzeyi YUNESKO-nun nəzdində olan Beynəlxalq Muzeylər Komitəsinin üzvü seçilmişdir.

Azərbaycanda tarixi və memarlıq abidələrinin mühafizəsinə dövlət qayğısı mövcuddur. Respublikada 6500 tarix, arxeologiya və memarlıq abidəsi dövlət tərəfindən qeydə alınmış və qorunur.

Əhalinin mədəni səviyyəsinin yüksəldilməsində və ictimai-siyasi fəallığının artmasında KİV əhəmiyyətli rol oynayır. Hələ Azərbaycan sovetləşməsindən qabaq Bakıda bolşeviklərin rus dilində "Bakinskiy raboçiy" və Azərbaycan dilində "Kommunist" adlı mətbuat orqanları vardı. "Bakinskiy raboçiy" qəzeti 1906-cı ildən "Kommunist" qəzeti isə 1919-cu ilin aprelin 29-dan nəşr edilirdi. Sovet hakimiyyəti qurulduqdan sonra bu qəzetlər Azərbaycan KP MK-nın Azərbaycan SSR MİK-nin və Azərbaycan SSR XKS-nin mərkəzi mətbuat orqanları oldular. Bu ictimai-siyasi qəzetlərlə bərabər 1932-ci ildə Bakıda "Ədəbiyyat" adlı ədəbi-bədii qəzet də nəşr edilirdi. 1953-cü ildə bu qəzetin adı dəyişdirilib "Ədəbiyyat və incəsənət" adlandırıldı. 1923-cü ildən Bakıda "Maarif və mədəniyyət" adlı ədəbi-bədii jurnal da nəşr edilirdi. Bu jurnalın adı 1928-ci ildə dəyişdirilib "İnqilab və mədəniyyət", 1936-cı ildə - "Revolyusiya və kultura", 1941-ci ildə ""Vətən uğrunda", 1946-cı ildə - yenidən "İnqilab və mədəniyyət", 1953-cü ildən isə "Azərbaycan" adlandırıldı.

Müharibədən sonrakı illərdə Sovet Azərbaycanında nəşr edilən qəzet və jurnalların sayı xeyli artdı. l946-cı ildə Azərbaycanda 87 qəzet və 21 jurnal çıxırdısa, onlarm sayı 1970-ci ildə müvafiq olaraq 118-ə və 116-ya çatdı. 1990-cı ildə





isə respublikada 259 qəzet və jurnal nəşr olunurdu. 1946-cı ildən "Azərbaycan gəncləri" və "Molodyoj Azerbaydjana", 1959-cu ildən "Bakı", 1963-cü ildən "Baku", 1946-cı ildən "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət" və "Sovet kəndi" qəzetləri, 1946-cı ildən "Pioner", 1957-ci ildən "Kirpı", 1958-ci ildən "Göyərçin", 1961-ci ildən "Elm və həyat", 1967-ci ildən "Ulduz" jurnalları və 1969-cu ildən "Qobustan" incəsənət almanaxı nəşr olunur. 80-ci illərin sonunda ölkədə demokratik hərəkatın genişlənməsi və plüralizm nəticəsində onlarla yeni formal və qeyri-formal qəzet və jurnallar çıxmağa başladı.

Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təbliğində 1946-cı ildə yaradılmış "Azərbaycanın Xarici Ölkələrdə Dostluq və Mədəni Əlaqələri Cəmiyyəti"nin önəmli rolu olmuşdur.

Azərbaycan KİV şəbəkəsində radio və televiziya verilişləri xüsusi yer tutur. Müharibədən sonrakı illərdə Azərbaycan radiosu hər gün birinci proqramla və "Araz" proqramı ilə efirə çıxırdı. 1956-cı il fevralın 14-ü Azərbaycan Telestudiyasının yaradılması ölkəmizin KİV tarixində böyük hadisə oldu. Televiziya xalqın gündəlik həyatına girdi, onun mənəvi həyatının bir hissəsinə çevrildi.

**Ədəbiyyat**:


1. Azərbaycan tarixi. 7 cilddə, 6-cı cild, s. 201-249, 308-367, 7-ci cild, Bakı, 2003, s. 31-42, 162-190, 290-298.
2. H.Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, 1992.
3. H.Əliyev. Mədəni irsimizin keşiyində. I-II kitablar, Bakı, 2001.
4. Azərbaycan incəsənti. Bakı, 1992.
5. Azərbaycan kino tarixinin oçerkləri. Bakı, 2001.
6. Azərbaycan sovet ədəbiyyatı. Bakı, 1988.
7. Azərbaycan Tarix Muzeyinin 50 illiyi. Bakı, 1973.

8. X.Əlimirzəyev. Təhsil, elm və səhiyyə 50 ildə. Bakı, 1970.
9. N.Xəlilov. Azərbaycanın məktəb və pedaqoji fikir tarixindən. Bakı, 1998.
10. F.Məqsudov. Heydər Əliyev və Azərbaycan elmi. Bakı, 1998.
11. İ.Rəhimli. Azərbaycan teatr tarixi. Bakı, 2005.
12. M.Süleymanov. Eşitdiklərim, oxuduqlarım və gördüklərim. Bakı, 1987.





# XXVI FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI

**26.1. "Yenidənqurma" siyasəti və Azərbaycanda uydurma "Dağlıq Qarabağ problemi".** XX əsrin 60-cı illərində Sovet İttifaqında keçirilən islahatlar iflasa uğradı. Çünki ictimai-iqtisadi üsul-idarə toxunulmaz qalmışdı, ictimai həyatın bütün sahələrində partiya amirliyi davam edirdi. Partiya daxilində isə mənəvi çürümə prosesi gedirdi. Məkrli və fırıldaq yollarla varlanan rəhbər işçilər "sosialist həyat tərzi" meydanına uyğun gəlməyən dəbdəbəli həyat sürür və yığdıqlarından asudə bəhrələnmək üçün mövxud ictimai-siyasi quruluşun dağılmasına çalışır, yaxud bu prosesə biganə qalırdılar. 70-ci illərin ortalarında böhranın əlamətləri görünməyə başladı - elmi-texniki inqilab ləngiyirdi, təbii ehtiyatlar istehsalında çətinliklər yaranırdı, maddi nemətlərin qıtlığı özünü göstərir və qiymətlər sürətlə qalxırdı. Artıq 80-ci illərin ortalarında böhran ölkənin bütün ictimai-siyasi, iqtisadi və mənəvi həyatını bürüdü. Dövləti qanunlar deyil, partiya elitasının maraqları idarə edirdi. Qanunsuzluq və ona qarşı mübarizənin səmərəsizliyi adamları siyasi həyata münasibətdə biganələşdirirdi.

Sovet cəmiyyətinin iflasını xarici səbəblər də sürətləndirirdi. Qərbdə "bəla imperiyası" adlandırılan Sovet super dövləti böyük çətinliklərlə kapitalist və sosialist sistemləri arasında hərbi paritet yaratmağa müvəffəq olmuşdu. Lakin kapitalist dünyasının antikommunizm qüvvələri dünyanın

"demokratikləşdirilməsi" adı altında Sovet İttifaqına qarşı mübarizənin bütün vasitələrindən istifadə edirdilər.

Sovet respublikalarının suveren hüquqlarının hakim şovinist dairələr tərəfindən daim tapdalanmasına qarşı, respublikaların milli sərvətlərinin talan olunmasına etirazlarla bağlı hərəkat müttəviq respublikalarda özünüdərkin güclənməsinə səbəb olurdu. M.Qorbaçovun "yenidənqurma" siyasəti iqtisadiyyata güclü zərbə vurmaq və Kommunist Partiyasının nüfuzunu sarsıtmaqla Sovet imperiyasını daha dərin böhrana saldı, mərkəzdənqaçma hərəkatı gücləndi. Mərkəz buna qarşı müxtəlif məkrli tədbirlərə əl atdı, respublikalar arasında münaqişələr törətdi.

1986-cı ildən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni separatçılıq təbliğatı açıq və geniş xarakter aldı. Moskva rəsmi dairələrində antiazərbaycan əhval- ruhiyyəsinin formalaşmasında M.Qorbaçovun əhatəsində olan "şahnazaryanlar" və "aqanbekyanlar" mühüm rol oynayırdılar.

Həmin vaxt Moskvada yüksək rəhbər vəzifələrdə işləyən, Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini Heydər Əliyev "yenidənqurma"nın milli münaqişələrə səbəb ola biləcək metodlarına etiraz edir və onu düşünülməmiş dövlət siyasəti kimi səciyyələndirirdi. Belə bir şəxsiyyətin yüksək vəzifələrdə olması M.Qorbaçovun planlarını poza bilərdi. Ona görə də H.Əliyev 1987-ci ilin oktyabr ayında nəinki rəhbərlikdən uzaqlaşdırıla, hətta ona qarşı böhtançı təbliğat işi başlandı. Bu məqsədlə Bakıya gəlmiş Sov. İKP MK-nın katibi V.Liqaçov Azərbaycan KP MK-nın ikinci katibi V.Konovalova tapşırıq vermişdi ki, H.Əliyevin Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrdəki fəaliyyətini yoxlamaq üçün xüsusi komissiya yaradılsın. Azərbaycanda guya iqtisadi ziyankarlıq üzrə, "ikinci özbək işi" adlı istintaq işləri başlandı. İstintaqı Moskvanın təşkil etdiyi, Qıdılyan başda olmaqla, əsasən ermənilərdən





ibarət istintaq qrupu aparırdı. M.Qorbaçovun göstərişi ilə Moskvanın və respublikanın mətbuatında Azərbaycan SSR-də 70-ci illərdə iqtisadi sahədə əldə edilmiş nailiyyətlər qərəzli və məqsədyönlü şəkildə inkar edilir və riyakarlıqla xalqa böhtan atılırdı.

H.Əliyevin yüksək partiya və hökumət vəzifələrindən kənar edilməsi ermənilərin Azərbaycan torpaqlarına yiyələnmək barədə niyyətlərini reallaşdırmaq ümidini artırdı. SSRİ Dövlət Plan Komitəsinin sədri vəzifəsində işləyən akad. A.Aqanbekyan 1987-ci il noyabrın 18-də Parisdə çıxan "Humanite" qəzetinə verdiyi müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsi barədə dövlət başçısına təklif verildiyini və bu məsələnin bu yaxında həll ediləcəyini bildirdi. Azərbaycan torpaqlarını ələ keçirmək məqsədilə ermənilərin əvvəllər yaratdıqları "Qarabağ" komitəsinin fəaliyyəti genişləndi. "Qarabağ" Komitəsinin Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən "Krunk" təşkilatı açıq mübarizəyə keçdi. Ermənilərin "miatsum" ("birləşmə") hərəkatı geniş vüsət aldı.

1988-ci il fevralın 12-də İrəvanda izdihamlı antiazərbaycan mitinqi keçirildi. "Ermənistanda ermənilər yaşamalıdır!" və b. millətçi şüarlar altında keçirilən mitinqdə natiqlər əhalini azərbaycanlıları Ermənistan SSR-dən qovmağa çağırırdılar. Fevralın 21-də erməni vandalları İrəvan şəhərində qalmış sonuncu məscidə hücum edib onu dağıtdılar. Böyük şair Səməd Vurğunun abidəsi dağıdıldı, aşıq Ələsgərin qəbri təhqir edildi. Azərbaycanlılara qarşı terror 1988-ci ilin əvvəllərində Vedibasarda xüsusilə amansız idi, ağsaqqallar və qız-gəlinlər təhqir edilir, kəndlər qarət olunurdu. Döyülmüş, alçaldılmış və heç yerdən köməyi olmayan 400 nəfər azərbaycanlı ev-eşiyini atıb piyada, ayaqyalın-başıaçıq, böyük çətinliklərlə qarlı dağ keçidlərini aşaraq Azərbaycana gəlməyə məcbur oldu. 1988-ci ildə Ermənistan SSR-dəki öz ata-baba yurdlarından 230 min azərbaycanlı qovuldu. Onlara məxsus 185 kənd, 31 min ev və

şəxsi təsərrüfat, 165 kolxoz və sovxoz əmlakı talan olundu və dağıdıldı. 214 nəfər öldürüldü və 1154 nəfər yaralandı. 1988-ci il yanvarın 25-də Ermənistan SSR Qafan və Mehri rayonlarında xüsusi hazırlanmış silahlı dəstələrin vəhşi əməllərindən yaxa qurtaran ilk azərbaycanlı qaçqınlar Azərbaycana pənah gətirdilər. Qaçqınların yeni dəstələri fevralın 18-23-də təqiblərdən can qurtarıb Azərbaycana gəldilər.

Erməni millətçilərinin cəzasız qalmalarından ruhlanan Dağlıq Qarabağın separatçı erməniləri daha fəal siyasi aksiyalar keçirməyə başladılar. 1988-ci ilin əvvəllərindən Xankəndinin erməniləri ardı-arası kəsilməyən kütləvi mitinqlər keçirməyə başladılar. 1988-ci il fevralın 20-də DQMV Sovetinin sessiyasında DQMV-nın Azərbaycan SSRİ-ın tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə verilməsi haqqında SSRİ Ali Sovetinə müraciət qəbul olundu. Moskva isə separatçıları yerində oturtmaq əvəzinə millətçiliyi daha da qızışdırırdı. Moskvanın Bakıya göndərilmiş səlahiyyətli nümayəndəsi sərhədlərin dəyişdirilməsinin yolverilməz olduğunu bildirir, İrəvana göndərilmiş nümayəndəsi isə hər bir xalqın öz müqəddəratını təyin etmək hüquqi olmasını bildirməklə separatçılara haqq qazandırırdı.

Baş verən hadisələri vaxtında və düzgün qiymətləndirmək, Azərbaycan xalqını gözləyən təhlükələri görmək, qabaqlayıcı tədbirlər həyata keçirmək və vahid milli platforma yaratmaq əvəzinə Azərbaycanın o zamankı rəhbərliyi bağışlanmaz bir passivlik və laqeydlik nümayiş etdirirdi. Moskvanın və Azərbaycan rəhbərliyinin respublikanın suveren hüquqlarını tapdalanmasına qəti tədbirlərlə cavab vermədiklərini görən Azərbaycan xalqı böyük həyəcan içində kütləvi mitinqlər və etiraz nümayişləri keçirirdi. Başsız qalmış xalqın kortəbii etiraz hərəkatı səmərəli nəticə vermirdi.

Dünya ictimaiyyətinin gözündə "vəhşi azərbaycanlı" obrazı yaratmaqla öz əməllərinə haqq qazandırmaq məqsədilə





1988-ci il fevralın 28-də Sumqayıtda Edik Qriqoryanın fəal iştirakı ilə fitnəkarlıq aksiyası törətdilər. Bütün Azərbaycan xalqı bu fitnəkarlığı, onun müəlliflərini və icraçılarını lənətləsə də, ermənilər istədiklərinə nail oldular. Onlar Azərbaycan rəhbərlərinin səbatsızlığından və Moskvanın dəstəyindən məharətlə istifadə edərək bu faciəni ağlasığmaz uydurmalarla bəzəyib, dünya ictimaiyyətində azərbaycanlılar haqqında mənfi fikirlər yaratmağa çalışdılar.

Sumqayıt fitnəkarlığından sonra yaxşı silahlanmış erməni qeyri-formal hərbi dəstələri 1988-ci il martın 10-da İrəvan yaxınlığındakı Mehmandar kəndində 4 azərbaycanlını öldürdülər, martın 25-də Ararat rayonunun Vedi, Şirazlı, Xalisə və Şiddi kəndlərində 100-dən çox evi talan edib yandırdılar, əhalisini isə qovdular, mayın ortalarında Şirazlı kəndinə yenidən basqın etdilər və kəndin 880 nəfər sakini Türkiyə sərhəddinə qaçıb, Türkiyədə sığınacaq tapdılar. Daha dəhşətli faciələr Qukark rayonunda törədildi. 1988-ci il noyabrın sonu - dekabrın əvvəllərində bu rayonda 70 ahərbaycanlı öldürüldü. Rayonun Gözəldərə kəndində 21 nəfər, Vartana kəndində 17 nəfər öldürüldü. Öldürülənlərin 6 nəfəri qadın, 3-ü isə körpə uşaq idi.

Erməni millətçilərinin "təmizləmə" siyasəti nəticəsində Ermənistan SSR-də bir nəfər də olsun azərbaycanlı qalmadı. Azərbaycanlıların sonuncu nümayəndələri Nüvədi kəndinin əhalisi 1991-ci il avqustun 8-də rus əsgərlərinin köməyilə Ermənistan SSR-dən qovuldu. Beləliklə, Ermənistan monoetnik respublikaya çevrildi.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağı Ermənistanın tərkibinə qəbul etməyə razılıq verdi. Yalnız bundan sonra iyunun 17-də Azərbaycan SSR Ali Soveti Dağlıq Qarabağ Vilayət Sovetinin 1988-ci il 20 fevral tarixli qərarını ləğv etdi. Buna qarşı cavab olaraq, iyulun 12-də Dağlıq Qarabağın Vilayət Sovetinin sessiyası onun Azərbaycan

SSR-in tərkibindən çıxmaq haqqında qərar qəbul etdi. 1989-cu il dekabrın 1-də isə Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qeyri-hüquqi qərar qəbul etdi.

1989-cu il yanvarın 12-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti vəziyyəti nizama salmaq adı altında Azərbaycanın hüquqlarını yenidən kobudcasına pozaraq "Azərbaycan SSR-in DQMV-nin xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. Dağlıq Qarabağda bütün dövlət və ictimai orqanların fəaliyyəti dayandırıldı. Birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İşlər Komitəsi təşkil edildi. A.Volskinin başçılığı altında Xüsusi İdarə Komitəsi vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə Dağlıq Qarabağı Azərbaycana bağlayan iqtisadi əlaqələrinin tam qırılmasına, azərbaycanlıların vilayətdən qovulmasına, ermənilərin silahlanmasına və quldur dəstələrində birləşməsinə şərait yaratdı. Dağlıq Qarabağda vahid erməni cəbhəsində birləşən 80 hərbi-terrorçu qrup fəaliyyət göstərirdi. Ermənistandan Dağlıq Qarabağın Ağdərə (keçmiş Mardakert) rayonundakı gizli təyyarə meydanına silah və sursat daşınırdı. Azərbaycanlıların isə adi ov tüfəngləri də müsadirə edilmiş, onlar yaxşı silahlanmış düşmən qarşısında əliyalın, müdafiəsiz vəziyyətə salınmışdılar. Xüsusi İdarə Komitəsinin ermənilər üçün yaratdığı şərait nəticəsində 1989-cu il iyunun 13-dən azərbaycanlıların yaşayış məntəqələri blokadaya alındı. Rus ordusu hissələrinin kbməyi ilə "saqqallılar" (erməni quldurlar) Xankəndi şəhərindən 14 min azərbaycanlını qovub çıxartdılar.

Azərbaycan milli hərəkatının demokratik qüvvələrinin tələbi ilə SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də A.Volskinin Xüsusi İdarə Komitəsini ləğv etdi. Vilayətin İdarəsi SSRİ Ali Soveti Xüsusi Komissiyasının nəzarəti altında Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Lakin Mərkəz tərəfindən yenə də qəti tədbirlər görülməməsi ermənilləri





təhrikçi tədbirlərə şirniklənd irirdi. Vəziyyət gərgin idi. 1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti DQMV və qonşu rayonlarda fövqəladə vəziyyət elan etdi. Respublika Təşkilat Komitəsi, Xüsusi Təyinatlı Milis Dəstələri (OMON), hərbi komendatura vilayətin azərbaycanlılar yaşayan kəndlərinin blokadasını açmağa, qanunsuz silahlı dəstələri ləğv etməyə başladı. Ermənistandan silah gətirilməsinin qarşısını almaq üçün tədbirlər görüldü. 1990-cı il yanvar-iyun aylarında vilayətin 43 yaşayış məntəqəsində 67 xüsusi əməliyyat aparıldı, erməni quldurlarının silahlarının bir hissəsi alındı.

Bu vaxt Ermənistan ərazisindən Azərbaycanın sərhəd bölgələrinə hücumlar başlandı. Naxçıvan Muxtar Respublikası Ermənistan tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, qatarları atəşə tuturdular. Ermənilər Naxçıvanın Kərçi, Qazaxın Boqanis - ayrım, Xanlar rayonunun Quşçu kəndlərinə basqınlar edib əhaliyə divan tutmuşdular. Ermənilərin basqınları ilə bağlı Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistan ilə sərhəd boyu 975 km. məsafədə fövqəladə vəziyyət elan etdi. Sərhədlər mühəndis qurğuları ilə möhkəmləndirildi. Sərhədləri qorumaq Xüsusi təyinatlı Milis dəstələrinə və Bakının ayı-ayrı böyük kollektivlərinin, o cümlədən ali məktəblərin könüllülərdən ibarət dəstələrinə tapşırıldı. Dağlıq Qarabağın təyyarə meydanına nəzarət Azərbaycan milisinə verilirdi.

Eyni zamanda bölgədə yerləşən sovet hərbi hissələri də SSRİ-nin saxlanması ilə əlaqədar 17 mart Ümumittifaq referendumunda iştirak etməyən Ermənistana "dərs vermək" məqsədilə o vaxt erməni quldurlarına köməyi azaltmışdı. məhz rus hərbçilərinin dəstəyi ilə Çaykənd möhkəmləndirilmiş hərbi baza alınmış və erməni hərbi birləşmələri 1991-ci il mayın əvvəllərində tərksilah edilmişdilər.

Lakin erməni quldurları rus hərbi hissələrinin köməyi ilə yenə də Azərbaycanın sərhəd bölgələrindəki kəndlərinə basqınları davam etdirirdilər. Ermənilərin Qazax, Zəngilan, Qubadlı və Laçın rayonları kəndlərinə hücumları ara vermirdi. Vəziyyəti gərginləşdirmək üçün ermənilər terrordan da bir vasitə kimi istifadə edirdilər. Erməni terrorçuları 1989-cu il sentyabrın 16-da Yevlax şəhəri yaxınlığında Tiflis-Bakı şəhərlərarası sərnişin avtobusunu, 1990-cı il avqustun 10-da Gəncə şəhəri yaxınlığında Tiflis-Ağdam sərnişin avtobusunu partlatdılar, 1991-ci il avqustun 31-də Mahaçqala yaxınlığında Moskva-Bakı sərnişin qatarında, bir qədər sonra Rostov şəhəri yaxınlığında Simferopol - Bakı sərnişin qatarında partlayış törətdilər. Bu partlayışlar nəticəsində 40 nəfərə yaxın adam həlak oldu, 50 nəfərə yaxın adam isə yaralandı. Mərkəz milli münaqişələri daha da qızışdırır, ən yaxşı halda sehrçi mövqe tuturdu. Dağlıq Qarabağ uydurma "problemi" ilə bağlı başlanmış bu milli münaqişələr Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan təcavüzkar "Qarabağ" müharibəsinə çevrildi.

**26.2. Azərbaycanda öz torpaqlarını qorumaq və milli müstəqillik uğrunda xalq hərəkatının başlanması. 1990-cı il Qanlı Yanvar hadisələrindən sonra Azərbaycanda siyasi durum.** "Yenidənqurma" siyasəti nəticəsində köhnə idarəçilik mexanizminin dağılması, yeni mexanizminin isə hələ yaradılmaması ilə əlaqədar Sovet İttifaqının düşdüyü ümumi böhran gündən-günə dərinləşirdi. Uzun illər münasib fürsət gözləyən erməni millətçiləri yaranmış vəziyyətdən məharətlə istifadə edib Azərbaycanın hesabına torpaqlarını genişləndirmək üçün fəaliyyətə başladılar. Azərbaycanın Moskvaya sədaqətlə xidmət edən rəhbərləri isə yaranmış yeni şəraitdə qüvvələr nisbətini düzgün qiymətləndirə bilməyib, xalqı vahid milli cəbhədə birləşdirmədilər və ümumi düşmənə qarşı mübarizəyə qaldırmadılar. Azərbaycan rəhbərlərinin bağışlanmaz passivliyi və gözləmə mövqeyi nəticəsində Azərbaycanın suveren hüquqları tapdalandı, ərazisində separatçılıq hərəkatı gücləndi, milli münaqişə ocağı alovlandı azərbaycanlılar növbəti dəfə öz ata-baba yurdlarından deportasiyaya məruz qaldılar.





Hadisələrin belə inkişafı Azərbaycanda milli hərəkatın başlanmasına səbəb oldu. Hələ 1988-ci ilin əvvəlində ilk kütləvi etiraz çıxışları başlamışdı. Lakin milli hərəkat həmin ilin sonunadək, demək olar ki, kortəbii xarakter daşıyırdı. Yeni ictimai-siyasi təşkilatlar meydana gəlirdi. 1987-ci ilin çıxışlarında Bakı Dövlət Universitetində yaradılmış "Yurd" və 1988-ci ilin əvvəlində Azərbaycan Elmlər Akademiyasında yaradılmış "Varlıq" təşkilatları, "Azərbaycan Xalq cəbhəsinin təşəbbüs qrupu", "Azərbaycan ziyalıları", "Çənlibel", "Müstəqillər", "Qala", "Ozan" və "Aşıq Ələskər" cəmiyyəti, "Bakı gənc alimlər klubu", "Bakı incəsənət mərkəzi" və başqa təşkilatlar bu hərəkata istiqamət verməyə çalışırdılar. Lakin bu təşkilatları vahid milli cəbhədə birləşdirən mütəşəkkil qüvvə yox idi. İlk vaxtlar Azərbaycan xalqı Dağlıq Qarabağ ermənilərinin separatçılıq hərəkatına qarşı münasibətini ayrı-ayrı kollektivlərdə Sovet İttifaqının partiya və hökumət rəhbərlərinə, mərkəzin kütləvi informasiya vasitələrinə etiraz teleqramları və məktubları göndərməklə, imzalar toplamaqla bildirirdi.

İlk etiraz mitinqi 1988-ci il fevralın 19-da Bakının mərkəzi meydanında keçirildi. Martın 16-da isə Elmlər Akademiyasında etiraz mitinqi təşkil olundu. Ermənistan SSR-də azərbaycanlıların soyqırımının kütləvi hal almasına qarşı mayın 16-da "Yurd" təşkilatının fəal iştirakı ilə Bakı Dövlət Universitetinin qarşısında başlanan mitinq şəhərin indiki "Azadlıq" meydanında davam etdirildi. Mitinqdə çıxış edən respublikanın görkəmli ziyalıları Azərbaycanın rəhbərlərini res-

publikanın hüquqlarını müdafiə etməyə çağırdılar. Respublikanın başqa şəhərlərində də etiraz mitinqləri keçirildi.

Mərkəzin 1988-ci il mayın 21-də Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirdiyi Əbdürrəhman Vəzirovun xalqın milli mənafeyinə zidd siyasəti və Moskvanın Dağlıq Qarabağdakı səlahiyyətli nümayəndəmi A.Volskinin ermənipərəst siyasəti erməniləri öz xəbis niyyətlərini həyata keçirməyə daha da həvəsləndirirdi. Azərbaycanın Şuşa rayonu ərazisində Topxana adlı nadir qoruq meşəsində İrəvanın sənaye müəssisəsinin obyektinin tikintisinə başlanması xəbəri Azərbaycan xalqının səbr kasasını doldurdu. "Varlıq" və "Yurd" təşkilatlarının təşəbbüsü ilə noyabrın 15-də Dövlət Universitetinin qarşısında, ertəsi gün Elmlər Akademiyasının dairəvi salonunda mitinqlər keçirildi.

1988-ci il noyabrın 17-də xalq hərəkatının kortəbii mərhələsi ən yüksək zirvəsinə qalxdı, Milli Dirçəliş mərhələsinə keçdi. Həmin gün səhər tezdən Elmlər Akademiyası, Dövlət Universiteti, Politexnik və İqtisadi institutlarının nümayişçi dəstələri milisin mane olmaq cəhdinə əhəmiyyət verməyərək Sabir bağına, oradan isə şəhərin mərkəzi meydanına gəldilər. Burada onlara digər ali məktəblərin və sənaye müəssisələrindən kollektivləri də qoşuldular. Nümayişçilər meydanda mitinq keçirdilər. Mitinqdə nümayişçilərin tələbləri oxundu. Ermənilərin Azərbaycana qarşı təcavüzünün qarşısının alınması, Dağlıq Qarabağda A.Volskinin antiazərbaycan Xüsusi İdarəetmə Komitəsinin ləğv edilməsi, "Topxana" meşəsində ermənilərin sənaye obyektinin tikintisinin dayandırılması, əks təqdirdə Ermənistan SSR-ə qarşı iqtisadi sanksiyalar tətbiq edilməsi, SSRİ Ali Sovetinin sessiyasında Azərbaycan deputatlarının Ermənistan SSR-in təcavüzü ilə bağlı məslə qaldırması əsas tələblər idi. Nümayişçilər bu tələblərin yerinə yetirilməyincə meydanı tərk etməyəcəklərini elan etdilər.





Nümayişçilər meydana Azərbaycan SSR-in bayrağı ilə gəlmişdilər. Noyabrın 19-da burada ilk dəfə Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı. Meydan səngimək bilmirdi. Mərkəz bütün Azərbaycanda, o cümlədən Bakı, Gəncə və Naxçıvan şəhərlərində, habelə Ermənistan SSR-in azərbaycanlılar yaşayan bölgələrində fövqəladə vəziyyət elan etdi. Noyabrın 24-də Bakıya qoşun yeridildi. Qoşuna noyabrın 25-də meydanı "təmizləmək" əmri verilmişdi. Lakin nümayişçilərin iradəsi qarşısında həmin əmrin yerinə yetirilməsi təxirə salındı. Hər gün yüz minlərlə adam meydana axışırdı. Çox vaxt gündüzlər mitinqlər zamanı meydanda nümayişçilərin sayı milyon nəfəri ötürdü. Meydana Azərbaycanın digər şəhərlərinin nümayəndələri də gəlirdilər. Onlar meydanda bəstə oturanları (piketçiləri) mənəvi cəhətdən və maddi vəsaitlə dəstəkləyirdilər. Gecələr də meydanda qalanmış tonqalların ətrafında on minlərlə adam qalırdı.

Ölkənin rəhbərliyi erməni millətçiliyinə, separatizmə qarşı heç bir tədbir görməsə də mitinqdə xalq mümkün olan nəticəni əldə etmişdi, rəhbərlik mövcud problemə Azərbaycan xalqının münasibətini bilmişdi. İndi təşkilatlanmaq, mübarizəni demokratik vasitələrlə davam etdirmək laxım idi. Cəmiyyətin bunu dərk edən qüvvələri tədricən meydandan uzaqlaşırdılar. Dekabrın 3-də meydanı mühasirəyə almış hərbi qüvvələr nümayişçilərdən meydanı tərk etməyi tələb etdilər. Dekabrın 4-dən 5-ə keçən gecə isə hərbçilər zorla meydanı boşaltdılar. Meydan zor gücünə dağılsa da, 18 gün davam edən bu mubarizə forması xalqımızın tarixinə "Meydan hərəkatı" adı ilə daxil oldu. "Meydan hərəkatı" milli oyanışa, xalqın özünüdərk prosesinə, milli dirçəlişə güclü təkan verdi. Ona görə də xalqımız "Meydan hərəkatı"nın başlandığı 17 noyabrı "Dirçəliş günü" kimi qeyd edir.

"Meydan hərəkatı"ndan sonra xalq onun təşkilatçısı AXC-nin təşəbbüs qrupu ətrafında birləşməyə başladı. 1989-cu

il martın 13-də AXC-nin təşəbbüs qrupu ilə "Varlıq" təşkilatı arasında siyasi razılaşma əsasında AXC-nin Müvəqqəti Təşəbbüs Mərkəzi yaradıldı. Müvəqqəti Təşəbbüs Mərkəzi 1989-cu il iyulun 16-da Bakıda Azərbaycan Xalq Cəbhəsinin təsis konfransını çağırdı. Konfrans AXC-ni yaratdı, onun Nizamnamə və Məramnaməsini qəbul etdi, İdarə Heyətini seçdi. AXC İdarə Heyəti Əbülfəz Elçibəyi AXC təmsilçisi vəzifəsinə seçdi. 1989-cu il oktyabrın 5-də Azərbaycan SSR Nazirlər Soveti AXC-ni rəsmi qeydə aldı. AXC artıq nüfuzlu təşkilata çevrilmişdi. Onun sıralarında 300 min nəfərə qədər üzv və tərəfdaş vardı. AXC-nin kütləvi mətbuat orqanı "Azadlıq" qəzeti 1989-cu il dekabrın 4-dən nəşrə başladı.

1990-cı ilin mart ayında respublika Ali Sovetinə keçirilməsi nəzərdə tutulan seçkilərdə "demokratik qüvvələrin" hakimiyyətə gələcəyi şübhə doğurmurdu. Demokratik qüvvələrin hakimiyyətə gəlməsini Mərkəz Azərbaycanın suverenliyinə, iqtisadi müstəqilliyinin təmin olunmasına imkan verilməsi kimi qiymətləndirirdi. Bunun qarşısını almaq məqsədilə xalqa divan tutulması üçün, bəzi qəzetlərlə onu zorakı hərəkətlərə şirnikləndirmək kimi təxribat vasitələrindən istifadə olunurdu. AXC İdarə Heyətində rəhbərlik uğrunda mübarizə aparan radikal qrup bu tələyə düşdü. 1989-cu il oktyabrın 28-29-da keçirilmiş AXC Məclisinin birinci sessiyasında "radikallar" AXC İdarə Heyətinin "liberal" üzvlərini təslimçilikdə xalqa xəyanətdə və qətiyyətsizlikdə taqsırlandırdılar. Xalq cəbhəsinin bütövlüyünü qoruyub saxlamaq üçün "liberallar" müəyyən güzəştlərə getməli oldular. Dekabrın 9-da AXC müşavirəsində İdarə Heyəti buraxıldı, onun səlahiyyətləri əslində "radikallardan" ibarət Müvəqqəti Təşkilat Qrupuna verildi.

Daha da fəallaşan "radikallar" narazılığa gündən-günə artan xalq kütlələrini öz ardlarınca apara bildilər. Azərbaycanın bir çox bölgələrində Cəbhəçilər hakimiyyəti ələ almağa





təşəbbüs göstərdilər, nəticədə ikihakimiyyətlilik yarandı: kommunistlərin və cəbhəçilərin hakimiyyətləri. AXC təşkilatlarında dövlət funksiyalarını yerinə yetirən strukturlar yaradıldı.

1989-cu il dekabrın 8-dən başlanan fasiləsiz mitinqlər Cəlilabadda raykomun və milisin binalarının dağıdılmasına, milisin qovulmasına və rayon rəhbərliyinin döyülüb qovulmasına gətirib çıxartdı. Toqquşmalarda 150 nəfərdən çox adam yaralandı. Dekabrın 29-da Cəlilabadda "Xalq hökuməti" adlandırılan hakimiyyət fəaliyyətə başladı, Müvəqqəti Təşkilat Komitəsi və Milli Müdafiə Şurası yaradıldı.

Naxçıvan Muxtar Respublikasında 1989-cu il dekabrın 23-də Xalq Cəbhəsi sərhəd dəstəsinin komandirinə ultimatum göndərib dekabrın 31-dək sərhəddən adamların o taydakı qohumları ilə görüşmək üçün müəyyən qaydalarla keçməsinə imkan verilməsini tələb etdi. Lakin sərhədlərin pozulmasını xalqa qarşı hazırlanan qanlı qırğın üçün bəhanə kimi istifadə etməyi planlaşdıran Moskvanın tələbi ilə sərhəd dəstəsinin komandiri bu tələbi rədd etdi. Rədd cavabı alan xalq 137 km məsafədə Sovet-İran sərhəd qurğularını dağıtdı, hər iki tərəfdən sahildə toplaşmış qohum-qardaş Araz çayını keçib görüşdülər. Cəlilabad və Biləsuvar rayonlarında da sərhəd qurğuları 1990-cı il yanvarın 18-də sərhədçilərin iştirakı ilə dağıdıldı.

1990-cı il yanvarın 11-dən 12-ə keçən gecə AXC-nin Lənkəran şöbəsinin qərarı ilə şəhər partiya komitəsinin binası, daxili işlər şöbəsi, rabitə qovşağı, mətbəə və digər dövlət müəssisələri silahlı xalq tərəfindən ələ keçirildi, partiya və dövlət orqanlarının fəaliyyəti dayandırıldı, müvəqqəti Müdafiə Komitəsi təsis olundu.

Bütün bunlara şərait yaradan Mərkəz 1990-cı il yanvarın əvvəllərində Azərbaycanda cəza dəstələri - müxtəlif qoşun hissələri yerləşdirmişdi. SSRİ müdafiə naziri D.Yazov, daxili işlər naziri Bakatin, dövlət təhlükəsizlik komitəsinin sədri Kryuçkov Bakıya gəlib "Tayfun" adlı qanlı əməliyyat planı

hazırlamağa başladılar. Onlar hələ yanvarın 6-da Azərbaycanın daxili işlər orqanlarının rəhbərləri, o cümlədən Bakı şəhəri rayonlarının daxili işlər idarələrinin rəisləri ilə müşavirə keçirib yanvarın 13-də Bakıda erməni qırğını gözlənilməsi haqqında məlumat verdilər. Əslində bunu təxribat məqsədi ilə özləri hazırlayırdılar. Şəhərdə heç kəsin bu hazırlıqdan xəbəri yox idi. Rayon daxili işlər idarələrinin rəislərinə tapşırıldı ki, milisin bütün tabel silahları, hətta dəyənəkləri də yığılsın və milis işçiləri talan və qırğınlarda iştirak edənləri bu işdən çəkindirmək üçün onlarla yalnız dialoqa girə bilərdilər. Hətta Azərbaycan SSR Daxili İşlər naziri də bu əməliyyatdan təcrid edilmişdi. Qırğın və talanlara qarşı "mübarizə əməliyyatına" Moskvadan göndərilmiş və respublikada daxili işlər nazirinin birinci müavini təyin olunmuş general V.Barannikov başçılıq etməli idi.

1990-cı il yanvarın 13-də Bakıda "erməni talanları" baş verdi. 56 nəfər qoca və xəstə erməni öldürüldü, 112 nəfər xəsarət aldı. Bakıda yerləşdirilmiş və general V.Barannikovun sərəncamında olan SSRİ Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı milis dəstəsinin 12 min nəfərlik silahlı qüvvələri "erməni talanının" qarşısını almaq üçün heç bir tədbir görmədilər. "Erməni talanlarının" qarşısı AXC Milli Müdafiə Şurasının özünümüdafiə dəstələri və silahsız milisin iştirakı ilə alındı. Ermənilərin çoxu azərbaycanlıların evlərində sığınacaq tapdı və kino-teatr binalarında yerləşdirilib mühafizə olundular.

Yanvarın 13-də planlaşdırılmış bu təxribat xalqın demokratik qüvvələrinə qarşı hücuma keçilməsi üçün “hüquqi əsas” oldu. "Tayfun" əməliyyatına başlamazdan öncə, hərbi komandanlıq Bakıda xalqa tutulacaq divana cavab olaraq, guya adamların rus dilli əhaliyə ilk növbədə hərbçi ailələrinə zərər yetirəcəyindən qorxub onları Azərbaycandan çıxarmağa başladı.





1990-cı il yanvarın 17-dən Azərbaycan KP MK binası (indiki Prezident sarayı) qarşısında izdihamlı mitinq başlandı, ümumi tətil elan olundu. Mitinqdə Moskvadan ermənilərin Azərbaycana ərazi iddialarına son qoyması, Bakı və onun ətrafında yerləşdirilmiş hərbi hissələrin Dağlıq Qarabağa və Azərbaycanın erməni basqınlarına məruz qalan sərhəd rayonlarına göndərilməsi, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun istefası tələbləri irəli sürülürdü. Rəsmi Moskvanın Bakıya göndərdiyi nümayəndələri Sov. İKP MK katibi A.Kiriyenko və SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakovun AXC-nin "liberal" və "radikal" qanadlarının nümayəndələri ilə ayrı-ayrılıqda görüşləri bir nəticə vermədi.

Moskva Naxçıvanda da xalqa divan tutmaq məqsədi ilə fövqəladə vəziyyət elan etmək üçün fürsət axtarırdı. 1990-cı il yanvarın 18-də Şərur rayonu Kərki kəndini ermənilərin işğalı vəziyyəti daha da gərginləşdirdi. Xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti yanvarın 19-da Muxtar Respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi.

1990-cı il yanvarın 19-da SSRİ Ali Sovetinin sədri M.Qorbaçov yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" Fərman verdi. Lakin xalqı qəfildən yaxalamaq, ona divan tutmaq və qoşunlardan istifadə etməklə qırğın törətmək məqsədilə fərmanı gizli saxladı. Belə ki, fövqəladə vəziyyətin vaxtının elan edilməsi Mərkəzin qanlı planların poza bilərdi. Çünki, AXC-nin radikalları barrikadaları tərk etməməyə çağıraraq, xalqa silah veriləcəyi və "kömək gələcəyinə" vəd vermələrinə baxmayaraq, AXC İdarə Heyəti komendant vaxtı tətbiq olunduğu təqdirdə orduya müqavimət göstərmədən piketləri götürmək haqqında qərar qəbul etmişdi. Piketçilər Moskvanın Bakıda olan səlahiyyətli nümayəndələri və respublika

rəhbərlərinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərinə inanmışdılar.

İnformasiya blokadası yaratmaq məqsədi ilə yanvarın 19-da saat 19.22-də Azərbaycan Televiziyasının enerji bloku partladılıb sıradan çıxarıldı. Yanvarın 19-da saat 21-də D.Yazovun şəxsi rəhbərliyi altında Bakıda "Tayfun" əməliyyatı başladı. Bütün qoşun növlərindən istifadə olunması ilə hər tərəfdən şəhər üzərinə ordu yeridildi. Əhaliyə divan tutuldu. Ordunun şəhərə hücumu vaxtı rəsmi məlumata görə 131 nəfər öldürüldü, 744 nəfər yaralandı. 400 nəfər həbs edildi 4 nəfər itkin düşdü. Fövqəladə vəziyyət haqqında fərman isə yalnız yanvarın 20-də səhər saat 7-də elan olundu.

Yanvarın 21-də Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırıldı. Sessiyada deputatların üçdə bir hissəsi iştirak edirdi. Sessiya baş vermiş hadisəyə siyasi qiymət verməyə çalışdı. Sessiyada qanlı faciəni törədən ölkə və respublika rəhbərlərinə qəti etiraz bildirildi, Bakı şəhərində qanunsuz olaraq fövqəladə vəziyyət tətbiq edilməsi haqqında fərmanın ləğv edilməsi və qoşunların Bakıdan çıxarılması haqqında qərarlar qəbul edildi. Moskva bu qərarlara əhəmiyyət vermədi.

Xalq başsız qalmışdı. Belə bir şəraitdə, yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlib, burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etdi. O, heç yerdən dəstək almayan doğma xalqı ilə bir yerdə olduğunu bildirdi və 20 yanvar faciəsinə siyasi qiymət verdi. H.Əliyev ölkə rəhbərliyini "qatillər" adlandırıb qeyd etdi ki, Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya rəhbərliyi tərəfindən vaxtında lazımi tədbirlər görülsə idi 20 yanvar faciəsi törənməzdi. H.Əliyevin çıxışının mətni bütün maneələrə baxmayaraq respublikada və dünyada yayıldı, dünya ictimaiyyəti Bakıda yanvarın 19-dan 20-ə keçən gecə törədilən qanlı cinayət barədə ilk dəfə xəbər tutdu.





Azərbaycanda 3 gün matəm elan olundu. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarova fövqəladə vəziyyət üzrə hərbi komandanlığa müraciət edərək şəhidlərin dəfn olunmasına imkan verilməsini tələb etdi. Yanvarın 23-də Azərbaycan xalqı, Bakıda fövqəladə vəziyyət olmasına baxmayaraq, şəhidlər ilə vidalaşdı. Paytaxt matəm libası geyinmişdi. Azadlıq meydanında izdihamlı matəm mitinqi keçirildi. Mitinq və dəfn mərasimində bir milyondan çox adam iştirak edirdi. Şəhidlər şəhərin ən uca yerində - Dağüstü parkda dəfn edildi.

Sovet Ordusunun xalqa qarşı qanlı cinayətləri tükənmək bilmirdi. Tam döyüş vəziyyətində olan ordunun Ermənistan ərazisindən Naxçıvana yeridilməsinə cəhd göstərildi, lakin xalq bunun qarşısını aldı. Ordu hissələri Lənkərana da yeridildi. Lənkəranda və Neftçalada xeyli qan töküldü. Siyasi çevriliş edilmiş Lənkəran bölgəsinin bütün rayonlarında ordunun köməyi ilə kommunistlərin hakimiyyəti bərpa edildi. Moskva, gizli surətdə respublikadan qaçmış Ə.Vəzirovun yerinə, Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə Ayaz Mütəllibovu gətirdi.

Qanlı Yanvar günü Azərbaycan xalqı üçün faciə olmaqla yanaşı, eyni zamanda öz ləyaqətini qorumaq üçün mübarizəyə və bu yolda qurban verməyə hazır olan millətin tarixində şərəfli bir səhifədir. Qanlı Yanvara qədər Azərbaycanın suverenliyini SSRİ daxilində mövcud iqtisadi və siyasi münasibətlərin təkmilləşdirilməsi kimi qeyri-real imkanlarda axtaran xalqın mütərəqqi, qabaqcıl qüvvələri bir daha yəqinlik əldə etdilər ki, suverenliyin yeganə yolu Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasındadır.

**26.3. SSRİ-nin süqutu və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası.** Qanlı Yanvar hadisələrindən sonra bir qrup ziyalının müraciətindən "təsirlənən" Azərbaycan iqtidarı və AXC liderləri 1990-cı il mayın 17-də birlikdə Məşvərət Şurası yaratdılar. Məşvərət Şurasında əldə edilmiş razılığa əsasən

mayın 18-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında Prezident vəzifəsi təsis olundu və Ayaz Mütəllibov Azərbaycanın ilk Prezidenti seçildi.

Mayın 21-də Prezidentin Fərmanı ilə 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yarandığı gün 28 May Azərbaycan dövlətçiliyinin bərpası günü kimi "Respublika günü" elan edildi. Həmin gün Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı parlament binasının üzərində yenidən yüksəldildi.

1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin sessiyasında muxtar respublikanın adından "Sovet Sosialist" sözləri götürüldü, Muxtar Respublikanın ali qanunvericisi orqanı "Ali Məclis" adlandırıldı. Naxçıvan MR-də həyata keçirilən tədbirlər bütün Azərbaycana örnək oldu. Demokratik qüvvələrin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilib Azərbaycan Respublikası adlandırıldı. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı Azərbaycan Respublikasının bayrağı kimi təsdiq olundu.

Azərbaycan Respublikasının Ali Sovetinin xalqın tələbi ilə çağrılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasınqın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyannamə - "Azadlıq Bəyannaməsini" qəbul etdi.

1991-ci il sentyabrın 8-də Azərbaycanda ilk Prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri baykot etdilər. Naxçıvan MR-in ərazisində də seçkilər keçirilmədi. Seçkilərin nəticəsində A.Mütəllibov Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalqın rəğbətini qazanmaq üçün sentyabrın 14-də çağırılmış Azərbaycan KP XXXIII qurultayı artıq Prezident olmuş Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibovun təkidi ilə Azərbaycan Kommunist Partiyası buraxıldı. Bu vaxt üçün Azərbaycanda artıq bir neçə siyasi partiya fəaliyyət göstərirdi. Hələ 1990-cı ilin əvvəllərində AXC-nin parçalanması





nəticəsində Xalq Azadlıq Partiyası, Dirçəliş Partiyası, Azərbaycan Sosial-Demokrat Partiyası, Azərbaycan Milli Demokrat (Yeni Müsavat) Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası yaranmışdı.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi.

1991-ci il dekabrın 8-də Belorusun Brest şəhəri yaxınlığındakı Belovojsk meşəsində Viskuli iqamətgahında Rusiya Federasiyası, Ukrayna və Belorus respublikaları rəhbərləri Müstəqil Dövlətlər Birliyi yaradılması haqqında müqavilə imzaladılar. "Belovojsk sazişi" adı ilə tarixə düşən bu müqavilədə SSRİ-nin hüquqi subyekt kimi mövcudluğuna son qoyulduğu elan olundu. Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan respublikalarının rəhbərləri Aşqabadda görüşüb MDB-yə daxil olmaq niyyətlərini bildirdilər. Dekabrın 21-də Almatı şəhərində Brest "üçlüyü", Aşqabad "beşliyi", Azərbaycan, Moldava və Ermənistan rəhbərlərinin görüşündə SSRİ-nin mövcudluğunun dayandırılması və bununla əlaqədar problemlərin nizama salınması haqqında Bəyannamə qəbul edildi.

1991-ci il dekabrın 29-da respublikada keçirilən referendumunda "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına" xalq yekdilliklə tərəfdar çıxdı. 1992-ci il mayın 27-də Milli Məclis Azərbaycan Respublikasının Dövlət Himnini, 1993-cü il fevralın 23-də isə Dövlət Gerbini təsdiq etdi.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi. 7 cilddə, 7-ci cild, Bakı, 2003, s. 249-283, 301-316.
2. H.Əliyev. Müstəqillik yolu. Bakı, 1997.
3. H.Əliyev. Müstəqilliyimiz əbədidir. Əsərləri, 45 cilddə, I-XLIII cildlər.

# XXVII FƏSİL

## QARABAĞ MÜHARİBƏSİ VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL-SİYASI DURUM

**27.1. Elan olunmamış Qarabağ müharibəsinin başlanması və Xocalı soyqırımı.** Azərbaycan Respublikası dövlət müstəqilliyini elan etdikdən sonra onu qısa müddətdə dünya dövlətlərinin böyük əksəriyyəti tanıdı. Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilk olaraq Türkiyə Cümhuriyyəti (9 noyabr 1991-ci il), sonra Rumıniya (11 dekabr 1991-ci il), Pakistan (13 dekabr 1991-ci il), İngiltərə (31 dekabr 1991-ci il), ABŞ (23 yanvar 1992-ci il), nəhayət sayca 109-cu olaraq Rusiya Federasiyası (10 aprel 1992-ci il) və b. dövlətlər tanıdı. 1993-cü ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini artıq 116 dövlət tanımışdı, 70 dövlət isə Azərbaycan Respublikası ilə diplomatik əlaqələr yaratmışdı. Azərbaycan Respublikasının bir çox dövlətlərdə, o cümlədən Türkiyə, İran, ABŞ, Almaniya, Fransa, İngiltərə və İrlandiyada səfirlikləri açıldı. 1993-cü il üçün Azərbaycan Respublikası 14 beynəlxalq təşkilata üzv qəbul edilmişdi. Azərbaycan Respublikası 1991-ci il dekabrın 8-də İslam Konfransı Təşkilatına üzv oldu. Azərbaycan Respublikası 1992-ci ilin fevralında İran, Türkiyə və Pakistan dövlətləri ilə birlikdə İqtisadi Əməkdaşlıq təşkilatına daxil oldu. Azərbaycan Respublikası 1992-ci il iyulun 8-də Ümumavropa təhlükəsizlik və əməkdaşlıq proseslərini tənzimləyən Helsinki müşavirəsinin 1976-cı il Yekun Aktına, 1992-ci il iyulun 10-da isə Helsinki Yekun Sənətinə imza atdı. O, 1992-ci il yanvarın 20-də Avropada Əməkdaşlıq və Təhlükəsizlik Müşavirəsinə (sonralar - Təşkilatına) (ATƏT) qoşuldu. Azərbaycan Respublikası





1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olundu, bu təşkilatın bir çox mühüm beynəlxalq konvensiya və paktlarına imza atdı. Azərbaycan Respublikası 1992-ci il iyunun 25-də 11 dövlətlə birlikdə Qara dəniz hövzəsində iqtisadi əməkdaşlıq haqqında Bəyannaməni imzaladı.

Azərbaycan Respublikası beynəlxalq münasibətlərini dövlətlərin bərabərliyi əsasında quraraq, zor işlətməmək, sərhədlərin toxunulmazlığı, mübahisəli məsələləri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini əsas götürürdü. Lakin Dağlıq Qarabağda erməni separatizminə qarşı mübarizədə və Ermənistanın Azərbaycana qarşı hərbi müdaxiləsini dayandırmaqda Azərbaycan Respublikası dünya dövlətlərinin təsirli dəstəyini qazana bilmədi, Dağlıq Qarabağ separatçılarını açıq şəkildə dəstəkləyən və Azərbaycana qarşı müharibəyə başlayan Ermənistana "Dayan!" deyən olmadı.

1991-ci il sentyabrın əvvəllərində erməni separatçıları oyuncaq "Dağlıq Qarabağ Respublikasının" yaradılmasını elan etdilər. Sentyabrın ortalarında erməni silahlı dəstələri Dağlıq Qarabağda yerləşən Sovet Ordusu hissələrinin şəxsi heyəti və döyüş texnikasının köməyi ilə azərbaycanlıları öz torpaqlarından qovub çıxartmağa başladılar. Sentyabrın 14-18-də erməni "yaraqlıları" Goranboy rayonunun bir neçə kəndini ələ keçirib dağıtdılar. Sentyabrın 23-də Qazaxıstanın təşəbbüsü ilə Şimali Qafqazın Jeleznovodsk kurort şəhərində Rusiya, Qazaxıstan, Azərbaycan və Ermənistan arasında saziş imzalandı. Bu saziş ilə atəşin dayandırılması, qanunsuz silahlı dəstələrin tərksilah edilməsi haqqında razılıq əldə edildi. Azərbaycan-Ermənistan münaqişəsinin həlli ittifaq orqanlarına tapşırıldı.

Lakin Jeleznovodsk razılığının heç bir müsbət nəticəsi olmadı. Erməni quldurları hücumlarını davam etdirərək, oktyabrın 28-də Tuğ, oktyabrın 31-də Sanaket, noyabrın 19-da Xocavənd, noyabrın 20-də Zamzur, noyabrın 23-də Əmiran,

Daşbaşı və Axunlu kəndlərini top atəşi ilə dağıdıb tutdular. Düşmən Meşəli kəndinin dinc əhalisini güllələbaran etdi, 29 nəfər kənd əhalisi öldürüldü, o cümlədən 3 ailə evindəcə yandırıldı. Yalnız bundan sonra Azərbaycan Respublikasının Ali Soveti tərəfindən 1991-ci il noyabrın 26-da Dağlıq Qarabağın muxtar vilayət statusu ləğv edildi.

1991-ci ilin axırlarında Rusiya ilə Ermənistan arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" imzalandı. Beynəlxalq təşkilatlar tərəfindən heç bir müqavimətə rast gəlməyən erməni təcavüzkarları Rusiyanın himayəsinə rəsmi surətdə nail olduqdan sonra daha da azğınlaşdılar.

Belə bir şəraitdə Azərbaycanın milli ordusu yox idi. Demokratik qüvvələr milli ordu yaradılmasını tələb edirdilər. Hələ 1991-ci il avqustun 30-da Prezidentin milli ordu əvəzinə milli qvardiya yaratmaq təklifi Ali Sovet tərəfindən rədd edildi. Ali Sovet milli özünümüdafiə dəstələri yaratmaq haqqında qərar qəbul etdi. Yalnız sentyabrın 5-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi təşkil edildi və general Valeh Bərşadlı müdafiə naziri təyin olundu. Onun təklifi ilə 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti silahlı qüvvələr haqqında qanun qəbul etdi. Milli Ordunun 3-4 çağırışda formalaşdırılması və döyüşə tam hazır olmayınca cəbhəyə göndərilməməsi nəzərdə tutulurdu. O vaxta qədər cəbhə xəttində ərazi prinsipi ilə yaradılmış könüllü özünümüdafiə dəstələri fəaliyyət göstərməli idilər. Noyabrın 19-da rayon və şəhər ərazi özünümüdafiə batalyonları (taborları) yaradılması haqqında əmr verildi. Ağdam, Ağdaş, Ağcabədi, Ağstafa, Bakı, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Gəncə, Gədəbəy, Goranboy, Göyçay, Xanlar, Xocalı, Kəlbəcər, Qazax, Qubadlı, Laçın, Lənkəran, Mingəçevir, Şəmkir, Şuşa, Tərtər, Tovuz, Ucar, Yevlax və Zəngilan batalyonları təşkil olundu.





Hərbi hissələrə müxtəlif siyasi qüvvələrin təsiri güclü idi. Bəzi ictimai təşkilatların, hətta AXC-nin ayrı-ayrı siyasətçilərinin hərbi dəstələri var idi. Hərbi hissələrdə nizam-intizam yox idi. Baş qərargahın işi pis təşkil olunmuşdu. Baş qərargaha və hərbi hissələrə xarici ölkələrin xüsusi idarələrinin işçiləri soxula bilmişdilər, onlar pozuculuqla məşğul olur, informasiya axınına yol verirdilər. Müdafiə Nazirliyini ələ keçirmək və hərbi hissələrin gücündən istifadə edib hakimiyyəti ələ almaq istəyən "liderlər" bu nazirliyə hərbçinin deyil, mülki şəxsin nazir təyin olunmasını tələb edirdilər. Onlar qısa müddətdə bir neçə müdafiə nazirinin dəyişdirilməsinə nail oldular.

Azərbaycan özünümüdafiə dəstələrinin belə ağır dövründə ermənilər hücumu davam etdirirdilər. Erməni hərbi hissələri MDB qoşunu ilə birlikdə 1992-ci il yanvarın 19-da Xankəndi yaxınlığındakı azərbaycanlılar yaşayan Kərkicahan qəsəbəsini ələ keçirib yandırdılar. Bir aya yaxın davam edən Kərkicahan müdafiəsində 30-dan çox azərbaycanlı əsgər həlak oldu. Yanvarın 21-də Qubadlı, fevralın 12-də Malıbəyli, Aşağı Quşçu və Yuxarı Quşçu kəndləri də işğal olundu. Xocalı və Şuşa şəhərlərinin mühasirəsi daralırdı. Yanvarın 25-dən 26-a keçən gecə Azərbaycan hərbi hissələrinin Şuşa müdafiəçilərinə kömək məqsədilə qalanın mühasirəsini yarmaq üçün həyata keçirdikləri Daşaltı əməliyyatı satqınlıq nəticəsində uğursuzluqla başa çatdı.

Quduzlaşmış erməni quldurları, Azərbaycan Respublikası rəhbərliyinin cinayətkar laqeydliyindən istifadə edib, Rusiyanın Xankəndi şəhərində yerləşmiş 366-cı alayının köməkliyi ilə XX əsrin Xatın və Sonqmi faciələrini kölgədə qoyan Xocalı soyqırımı törətdilər. 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Xocalıya hücum etdilər. Xocalı aeroportunu müdafiə edən dəstə milis mayoru Əşrəf Hacıyevin rəhbərliyi ilə düşmənin üç həmləsini qəhrəmanlıqla dəf etdi. Lakin qüvvələr nisbəti bərabər deyildi. Ə.Hacıyev düşmənin əlinə keçməməsi üçün

aeroportun dispetçer məntəqəsini partlatdı və döyüşdə özü qəhrəmancasına həlak oldu. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Güclü artilleriya hücumundan sonra düşmənin tankları və zirehli maşınları Mehdikənd, Qalagah və Daşbulaq tərəflərdən şəhərə soxuldular. Küçə döyüşləri başlandı. Şəhəri müdafiə edən özünümüdafiə batalyonunun döyüşçüləri Tofiq Hüseynovun başçılığı altında qat-qat güclü olan yırtıcı düşmənlə son damla qanlarına qədər vuruşdular. T.Hüseynov düşmənə əsir düşməmək üçün sonuncu gülləsini özünə vurub ana torpağı qucaqladı. Ölümündən sonra T.Hüseynova Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Xocalı düşmən tərəfindən tutulub yandırıldı. Sağ qalanlar, əsasən qocalar, qadınlar və uşaqlar Ağdam istiqamətinə qaçmaq istədilər. Qarlı, şaxtalı gecədə başıaçıq, ayaqyalın yaralı qaçqınların çoxunu don vurdu, bir çoxu davam gətirməyib elə meşədə öldü. Salamat qalıb Abdal-Gülablı kəndinə getmək istəyənləri meşədən çıxdıqları yerdə pusqu qurub qəddarcasına qırdılar.

Xocalıda erməni qaniçənləri azərbaycanlılara qarşı növbəti soyqırım törətdilər. Şəhər yerlə-yeksan edildi, 613 nəfər (83 azyaşlı uşaq, 106 qadın, 70 qoca da daxil olmaqla) öldürüldü, 1000 nəfərə qədər yaralı əlil oldu, 1275 nəfər əsir aparıldı. Xocalı soyqırımı zamanı 8 ailə bütövlükdə məhv edildi, 56 nəfər xüsusi qəddarlıqla diri-diri yandırıldı.

Xocalı faciəsində uzun müddət düşmən mühasirəsində qalmış şəhərə lazımi kömək göstərməyən iqtidar da, Qarabağ problemindən istifadə edib siyasi vəziyyəti gərginləşdirməyə çalışan müxalifət də günahkar idi.

**27.2. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi və onun uğursuz daxili və xarici siyasəti.** Xocalı soyqırımı ölkədə siyasi gərginliyi daha da artırdı. 1992-ci il martın 3-də Prezident sarayı qarşısında piket başladı. Bəətə oturanlar "istefa" tələb edirdilər. Martın 5-də Ali Sovetin





fövqəladə sessiyası çağırıldı. Ali Sovetin qarşısında keçirilən izdihamlı mitinqin təzyiqi altında Azərbaycan Ali Sovetinin sədri Elmira Qafarova istefa verdi. Onun yerinə Demblokdan olan deputat Yaqub Məmmədov seçildi. İqtidar bu dəyişikliklə qarşıdurmanı bir qədər zəiflətsə də Demblokdan olan 26 deputat Prezident A.Mütəllibovun qanunları pozduğuna görə vəzifədən götürülməsi haqqında qərar layihəsini sessiyaya təqdim etdi. Axşam Ali Sovetin binasını mühasirəyə almış nümayişçilər, xüsusilə qadınlar iqtidara və deputatlara daha güclü təzyiq göstərmək üçün binanın bütün giriş və çıxış qapılarını tutdular. Gecə yarısı MDB-nin Bakıdakı 5-ci ordusunun hissələri mitinqi dağıtmaq üçün Ali Sovetin binasına doğru hərəkətə başladı. Bundan xəbər tutan Ali Sovetin sədri Y.Məmmədov və bir qrup deputat qəti etirazlarını bildirib yeni vətəndaş qırğınının törədilməsinə yol vermədilər. Martın 6-da A.Mütəllibov Prezident vəzifəsindən istefa verməyə məcbur oldu. Nazirlər Kabineti də buraxıldı. Onun sədri Həsən Həsənova yeni kabinet təşkil etmək tapşırıldı. Lakin koalisyon hökumət yaratmaq mümkün olmadı. Ölkədə əsl hərc-mərclik dövrü başlandı. Ali Sovet 1992-ci il iyunun 7-ə yeni prezident seçkiləri təyin etdi.

Azərbaycanda nüfuzunu gücləndirməyə çalışan qüvvələrin mübarizəsi kəskinləşdi. Azərbaycana təzyiqini artırmağa çalışan Rusiyanın dəstəyi ilə ermənilər martın 12-də hücuma keçib Tərtər, Ağdam, Cəbrayıl, Füzuli, Tovuz və Qazax istiqamətlərində xeyli irəlilədilər. Yeni hakimiyyət xalqın qüvvələrini birləşdirib düşmənə qarşı qəti mübarizə aparmaq üçün əməli tədbirlər görə bilmədi.

AXC-nin hakimiyyətə gəlmək üçün hətta vətən torpaqlarını verməyə hazır olan bəzi "liderləri" isə siyasi oyunbazlıq edir, silahlı dəstələr yaradır, cəbhədə hər an vəziyyətə təsir göstərmək imkanı axtarırdılar. Y.Məmmədov AXC-nin dəstəyini qazanmaq və ordunu öz tərəfinə çəkmək məqsədilə 1992-ci il martın 17-də "cəbhənin liderlərindən"

Rəhim Qazıyevi müdafiə naziri təyin etdi. Rusiya hərbi dairələrinə arxalanan R.Qazıyev "ağalarının" köməyi ilə hərbi diktatura qurmağa və hakimiyyəti ələ almağa cəhd göstərirdi. Rusiyanın hərbi naziri R.Qraçov Y.Məmmədova Azərbaycanın rəhbərliyinin R.Qazıyevə verilməsinin vacibliyini təkidlə bildirmişdi. Hakimiyyəti ələ almaq fikrində olduğunu R.Qazıyev sonralar özü də bildirdi. A.Mütəllibovun hakimiyyətə qayıtmaq cəhdi ilə bağlı mayın 8-də axşam Ali Sovetin binasını mühasirəyə alanlar arasında, binaya girməyə cəhd göstərən R.Qazıyevi görməsindən təəccüblənən telejurnalistin "Bəy, Şuşanın belə ağır vəziyyətində cəbhəni buraxıb Bakıya niyə gəlmisiz?"- sualına "Hakimiyyəti öz əlimə almağa gəlmişəm " - cavabını verdi.

Müdafiə naziri R.Qazıyevin 1992-ci il 30 aprel tarixli əmri ilə Şuşa və Laçındakı xalq cəbhəsi könüllülərinin hərbi hissələri buraxıldı. Mayın 3-5-də Ağdam şəhərində Qarabağ uğrunda döyüşən könüllü hərbi hissə komandirlərinin müşavirəsi keçirildi. Müşavirə iştirakçıları xalqa, Ali Sovetə, hətta rəsmən tabe olmadıqları Müdafiə Nazirliyinə müraciət edib bildirdilər ki, özünümüdafiə hissələrinin "Hərbi birliyi" və bu "Birliyin Hərbi Şurası" yaradılmışdır. Birliyin təşkilat, nəzarət və təchizat işləri üzrə rəhbəri Surət Hüseynov seçildi.

Hakimiyyətə gəlməyə çalışan AXC Prezident seçkilərində Türkiyənin siyasi dəstəyinə arxalanırdı. AXC-nin sədri Əbülfəz Elçibəy mayın 3-də Türkiyənin baş naziri Süleyman Dəmirəl tərəfindən qəbul edildi. Türkiyənin nümayəndəsi Alparslan Turkeşin iştirakı ilə Bakının Azadlıq meydanında türk xalqlarının ümumdünya həmrəylik günü izdihamlı mitinqlə qeyd olundu. Bu tədbirlər AXC-nin tərəfdarlarını artırmağa yönəldilmişdi.

Prezident seçkiləri yaxınlaşdıqca A.Mütəllibovun tərəfdarları da fəallaşırdılar. Aprelin 25-də eks-prezident A.Mütəllibov Şamaxıda öz tərəfdarları qarşısında çıxış edərək





bildirmişdi ki, onu qeyri-qanuni yolla, zorla istefa verməyə məcbur etmişlər.

Hakimiyyət uğrunda mübarizənin növbəti qurbanları Şuşa və Laçın oldu. Mayın 7-dən 8-ə keçən gecə güclü top atəşindən sonra erməni quldurları Şuşa şəhərinə hücuma başladılar. Səhərə yaxın şəhər ətrafındakı əsas döyüş mövqeləri düşmən tərəfindən tutulmuşdu, yalnız bəzi mövqelərdə milli qüvvələr düşmənə qarşı qəhrəmancasına vuruşurdular. Axşama yaxın köməyə göndərilmiş helikopter isə səhvən şəhərin müdafiəçilərinin mövqelərini atəşə tutdu, zirehli maşınlar məhv edildi. Mayın 8-də axşam şəhərin sonuncu 30-40 müdafiəçisi də onu tərk etdi. Şuşa şəhəri ermənilər tərəfindən tutuldu. Döyuşlərdə şəhərin 155 müdafiəçisi həlak oldu, 167 nəfər yaralandı, 20 nəfər itkin düşdü.

Şuşanın süqutu və milli hərbi hissələrin Laçını tərk etməyə başlaması ölkədə siyasi vəziyyəti daha da gərginləşdirdi. Hakimiyyət uğrunda mübarizədə iştirak edən, demək olar ki, bütün tərəflər öz silahlı qüvvələrini Bakıya gətirmişdilər. A.Mütəllibov Bakıda yerləşmiş 295-ci rus diviziyasına, özünün təşkil etdiyi "Qardaşlıq" təşkilatının silahlı dəstələrinə və Hacı Əbdülün yaratdığı "Tövbə" təşkilatının silahlı dəstələrinə arxalanırdı. R.Qazıyev özünə tabe olan hərbi hissələri, AXC-nin digər liderləri və başqaları öz silahlı dəstələrini döyüş mövqelərindən çıxarıb Bakıya gətirmişdilər. Şuşada müdafiəçilərin sayı yüzlərlə hesablandığı halda, paytaxtda müxtəlif məsləklərə qulluq edən silahlı dəstələrin əlində 40 mindən çox avtomat və pulemyot vardı. A.Mütəllibov tərəfdarları hələ mayın 3-dən Ali Sovetin binası qarşısında gecə-gündüz piket keçirib eks-prezidentin yenidən vəzifəsinə qaytarılması tələbini irəli sürürdülər. Mayın 12-də piketçilərin bir qrupu müqavimətə rast gəlmədən Milli Şuranın iclas salonuna soxulub şura üzvlərini silahla hədələyərək Ali Sovetin sessiyasını çağırmağa tələb etdi. Mayın 14-də çağırılmış Ali Sovetin sessiyası, azlıqda qalan Demblokun etirazına

baxmayaraq A.Mütəllibovu vəzifəsinə qaytarmaq haqqında qərar qəbul etdi. A.Mütəllibov elə həmin saat ölkədə fövqəladə vəziyyət tətbiq etmək, siyasi azadlıqları məhdudlaşdırmaq haqqında Fərman verdi. Milli Şura buraxıldı və Prezident seçkiləri ləğv edildi.

AXC Bakıdakı silahlı qüvvələrinə arxalanaraq hakimiyyət uğrunda qəti döyüşə girdi, xalqı A.Mütəllibovun Konstitusiyaya zidd rejimini tanımamağa çağırdı. Bu çağırışa müxtəlif qüvvələr qoşuldu. A. Mütəllibovun arxalandığı Rusiyanın qoşun hissələri Naxçıvan MR-ə ermənilərin hücumları ilə əlaqədar Türkiyənin ciddi reaksiya verdiyi bir vaxtda Bakıdakı hadisələrə fəal təsir göstərməkdən çəkinib, neytral qaldılar. Mayın 15-də AXC qərargahı qarşısında mitinq keçirildi. A.Mütəllibov AXC liderlərini danışığa çağırdı. Lakin cavab olaraq, ondan saat 16-dək hakimiyyətdən imtina etmək və Prezident iqamətgahını tərk etmək tələb olundu. Vaxt tamam olduqda AXC fəalları silahlı dəstələrin və zirehli texnikanın müşayiəti ilə Ali Sovetin binasına hücum etdilər. Ali Sovetin binası, sonra isə Prezident sarayı ələ keçirildi. A.Mütəllibov gizlincə Rusiyaya qaçdı. Qiyam baş tutmadı. A.Mütəllibov eks-prezident imtiyazlarını itirdi. Eks-prezident Ayaz Mütəllibov qiyamçı Ayaz Mütəllibova çevrildi.

Fürsətdən istifadə etməyə çalışan müdafiə naziri R.Qazıyev mayın 16-da Milli Şurada bütün hakimiyyətin Müdafiə Nazirliyinə verilməsini və ölkədə "hərbi diktatura" rejimi yaradılmasını tələb etdi. Lakin "diktator"un "Şuşa getsə, başıma güllə çaxaram" sözləri hamının yadında idi. Şuşa düşmənin əlində idi, R.Qazıyev isə sağ idi. Odur ki, onun "diktator"luq iddiası baş tutmadı, tələbi rədd edildi.

Mayın 18-də Ali Sovetin sessiyasında qeyd edildi ki, Ali Sovetin 14 may tarixli "Prezident haqqında" qərarı qanuni deyilmiş, çünki sessiyada yetərsəs yox imiş. Bununla əlaqədar Y.Məmmədov Ali Sovetin sədri vəzifəsindən istefa verdi. Ali Sovetin Milli şurası "Milli Məclis" adlandırıldı və ona





parlament səlahiyyətləri verildi. Milli Məclisin sədri "Müsavat" partiyasının lideri İsa Qəmbər seçildi və seçkilərə qədər Prezident vəzifəsini icra etmək də ona həvalə edildi. İyunun 7-də keçirilən Prezident seçkilərinin nəticəsində AXC-nin sədri Əbülfəz Elçibəy Azərbaycan Respublikasının yeni Prezidenti seçildi. Beləliklə, hakimiyyətdə AXC - kommunist alyansı AXC - müsavat bloku ilə əvəz edildi.

Hakimiyyəti ələ almış qüvvələr onu saxlaya, möhkəmləndirə və ondan xalqın xeyrinə istifadə edə bilmədilər. Hələ paytaxtda hakimiyyət çəkişmələri getdiyi vaxt hərbi hissələrin Laçından çıxarılmasından istifadə edən düşmənlər hücuma keçib mayın 18-də Laçını işğal etdilər. Dağlıq Qarabağ separatçıları ilə Ermənistan arasında birbaşa əlaqə yarandı.

Mayın 18-də Ermənistan silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikasında Sədərək, Künnüt, Havuş, Şada, Biçənək, Yuxarı Buzqov və b.kəndlərinə güclü hücumlara başladılar. Sədərəkdə qanlı döyüşlər 40 gün davam etdi. Əhali qəhrəmanlıqla vuruşurdu. Xeyli ölən və yaralananlar vardı. Kəndlər dağılmışdı. Naxçıvanda erməni təcavüzkarlarına qarşı döyüşlərə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev başçılıq edirdi. O, erməni təcavüzünün qarşısını almaq üçün diplomatik vasitələrdən geniş istifadə etdi. Hələ martın 23-də onun Türkiyəyə səfəri zamanı baş nazir Süleyman Dəmirəl bütün dünyaya bəyan etmişdi ki, Naxçıvan MR-ın statusunda bir dəyişiklik meydana gələrsə, qüvvədə olan Batum müqaviləsinə əsasən Türkiyə öz sözünü deyəcəkdir. Mayın 18-də isə Türkiyə Nazirlər Kabineti Naxçıvanla bağlı geniş bəyanatla çıxış etdi, erməni təcavüzkarlarının niyyəti dünya ictimaiyyətinə çatdırıldı. 57 dövlət bu təcavüzü pislədi. NATO xüsusi bəyanat verdi. Belə bir şəraitdə Rusiya öz siyasətində dəyişiklik etməyə, geri çəkilməyə məcbur oldu. MDB Birləşmiş Silahlı Qüvvələrinin baş komandanı marşal Şapoşnikov demişdi ki, Türkiyənin Naxçıvana kömək etməsi üçüncü dünya müharibəsinə gətirib çıxara bilərdi. Nəticədə,

mayın 24-də Ermənistanın təklifi ilə danışıqlar başlandı və Ermənistan - Naxçıvan sərhədlərində sabitlik təmin olundu.

Azərbaycanda AXC - Müsavat hakimiyyəti dövründə cəmiyyət xeyli dəyişmişdi, çoxlu siyasi partiya və ictimai hərəkatlar meydana çıxmışdı. 1992-ci il iyunun 3-də "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edildi. 1991-ci ilin payızından "Azərbaycan İslam Partiyası", "Vahid Azərbaycan Uğrunda Mübarizə İttifaqı", "Azərbaycan Qarabağa Nicat Cəmiyyəti" mövcud idi. 1992-ci ilin yayında "Azərbaycan Milli İstiqlal Partiyası", "Türk Dünyası Birliyi Partiyası", "Vahid Azərbaycan Milli Birlik Partiyası", "Çağdaş Turan Partiyası", "Yeni Azərbaycan Partiyası", "Boz Qurd Partiyası" fəaliyyətə başladılar. 1993-cü ilin payızında "Vətəndaş Həmrəyliyi Partiyası" təşkil olundu. İctimai təşkilatlar arasında "Azərbaycan Mədəniyyət Fondu", "İnkişaf" assosiasiyası, "Vətən cəmiyyəti", H.Z.Tağıyev adına "Xeyriyyə Fondu", "Bakılı" cəmiyyəti, "Bakı İncəsənət Mərkəzi", "Rus icması", "Sodrujestvo", "Anar", "Bonai" (kürd), "Tat" və "Dağıstan" cəmiyyətləri, "Ləzgi Milli Mərkəzi", tatar, talış, gürcü, Ukrayna mədəniyyət mərkəzləri, Avropa və dağ yəhudilərinin dini icmaları vardı. 1993-cü ilin fevralında Azərbaycan Hmkarlar İttifaqları Şurası buraxıldı, onun yerində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası təşkil olundu. 1993-cü ilin ortalarında Azərbaycanda 30-dan çox siyasi partiya və ictimai təşkilat fəaliyyət göstərirdi.

AXC - Müsavat hakimiyyəti dövründə kadr siyasətində ciddi səhvlərə yol verilir, idarəçilikdə olan qüsurlar xalqı, qabaqcıl ziyalıları iqtidardan daha da uzaqlaşdırırdı. Demokratiya məhdudlaşdırılır, vəzifəli şəxslər özbaşınalıq edir, cəmiyyətdə vahimə yaratmaq üçün jurnalistlər, alimlər döyülür və təhqir edilirdilər. Daxili İşlər naziri Həmid İskəndərov şəxsən "İstiqlal" qəzetinin redaktorunu döymüş, televiziyada veriliş gedə-gedə aparıcıları söyüb təhqir etmişdi.





AXC-nin dövlət orqanlarını əvəz etmək cəhdləri AXC hakimiyyətinin daxili siyasətinin əsas xəttinə çevrilirdi. AXC İcraiyyə Komitəsinin respublikada hərbi-siyasi durum haqqında 8 fevral 1993-cü il tarixli bəyanatı əslində AXC-nin diktaturasının zəruriliyi barədə cəmiyyətdə yəqinlik yaratmaq məqsədini güdürdü.

AXC hakimiyyətinin səbatsız xarici siyasəti də Azərbaycan üçün çox uğursuz idi. AXC hakimiyyəti böyük dövlətlərin iqtisadi və siyasi maraqlarına əsaslanan dünya siyasətini düzgün qiymətləndirə bilmirdi. Dövlətçilik təcrübəsi olmayan AXC hakimiyyətinin Türkiyəyə meylini açıq nümayiş etdirməsi nəinki qonşu Rusiya və İranı, həm də Azərbaycanın gələcəkdə Türkiyədən asılı olacağından ehtiyatlanan Qərb dövlətlərini də narahat edirdi. Prezident Ə.Elçibəyin "Türkün türkdən başqa dostu yoxdur"! şüarını tez-tez xatırlatması dünya dövlətlərini Azərbaycandan uzaqlaşdırırdı. Ə.Elçibəy daxildə Dağlıq Qarabağ separatçılarının öhdəsindən gələ bilmədiyi halda gah İranda, gah da Çində türklərin hüquqlarının müdafiəsi ilə bağlı bəyanatlar verməklə vəziyyəti daha da ağırlaşdırırdı.

Hansı tərəfdən daha çox faydalanmanın mümkünlüyünü həmişə "ölçüb biçən" böyük dövlətlərin siyasətçiləri Azərbaycan - Ermənistan münasibətlərində "tələsmirdilər". ATƏT-in Minsk qrupunun işi heç hiss edilmirdi. ABŞ Konqresi 1992-ci il oktyabrın 24-də Azərbaycanı guya Ermənistanı blokadaya almaqda taqsırlandırıb, "Azadlığı Dəstək Aktına" Azərbaycana dövlət səviyyəsində hər cür yardım göstərilməsinə sərt məhdudiyyətlər qoyan 107-ci əlavəni qəbul etdi.

**27.3. Azərbaycanın dövlət müstəqilliyi üçün təhlükəli vəziyyətin yaranması. Qurtuluş hərəkatı və Heydər Əliyevin hakimiyyətə qayıtması.** 1992-ci il 16 may sövdələşməsinə görə Moskvanın adamı hesab edilən R.Qazıyevi Müdafiə naziri vəzifəsində saxlayan AXC rəhbərliyi onu neytrallaşdırmaq məqsədilə Surət Hüseynovun hərbi-siyasi qüvvəsini artırmaq

qərarına gəldi, 1992-ci il avqustun 8-də onu korpus komandiri təyin etdi. Ona 1992-ci il oktyabrın 8-də Azərbaycanın Milli Qəhrəmanı adı verildi. S.Hüseynov Prezidentin Fərmanı ilə Dağlıq Qarabağ və cəbhə bölgələrində prezidentin səlahiyyətli nümayəndəsi təyin edildi. Ə.Elçibəy sonralar etiraf edirdi ki, R.Qazıyev, S.Hüseynov və Ə.Hümbətovun xarici dövlətlərə işlədiklərini bilirdi, sadəcə olaraq onlarla bacarmırdı. İqtidarın acizliyi üzündən hərbi qüvvəyə söykənən "sərkərdələr" hakimiyyət uğrunda mübarizə apardıqlarına görə bir sıra döyüşlərdə xalqın qəhrəman oğullarının qanı bahasına qazanılan uğurlar sonrakı məğlubiyyətlər hesabına heçə endirilirdi.

Belə ki, 1992-ci il iyunun 4-də Ağdaban və Çərəkdar kəndləri yaxınlığında erməni təcavüzkarları ilk dəfə Azərbaycan hərbi hissələrinin güclü müqavimətinə rast gəldilər. Azərbaycanın igid oğulları iki saat yarıma Əskəran rayonunun Aranzəmin, Pircamal və Naxçıvanik kəndlərindən erməni silahlı dəstələrini qovub çıxartdılar. Sırxavənd, Baş və Orta Güneytəpə, Kiçan, Maniklu, Bəşirlər və Qaraşlar kəndləri də erməni quldurlarında təmizləndi. İyunun 12-də Ağdərə rayonunda başlanan hücum nəticəsində 3-4 gün ərzində 35-ə qədər yaşayış məntəqəsi, o cümlədən Gülüstan, Talış, Zeyvə, Qaraçinar, Buzluq və b. kəndlər, habelə Ortakənd qəsəbəsi düşməndən azad edildi, strateji əhəmiyyəti olan ərazilər nəzarət altına alındı, Azərbaycan hərbi hissələri Xankəndinin 10-15 km-nə çatdı. Azərbaycan döyüşçüləri Kəlbəcər-Tərtər yolu üstündəki kəndləri də azad etdilər. Lakin ermənilər Laçın yolu vasitəsilə Ermənistandan əlavə hərbi qüvvə gətirib iyunun ortalarında Ağdərə istiqamətində hücuma keçdilər, Maqavuz və Orataq kəndlərini ələ keçirərək Sərsənk su anbarını nəzarət altına aldılar. Sentyabrın əvvəllərində Ağdam istiqamətində hücuma keçən ermənilər Abdal-Gülablı, Dəhraz Ağbulaq, Aranzəminli, Pircamal, Qazançı, Bəşirlər, Qaraşlar və Naxçıvanik kəndlərini yenidən işğal etdilər.





Azərbaycan hərbi hissələri sentyabrın 23-də Xocavənd yaxınlığında düşmənə ağır zərbələr vurdular. Qubadlı tərəfdən Laçına həmlə edən hərbi hissələr oktyabrın əvvəllərində bir sıra kəndləri azad etdilər. Kəlbəcərdəki hissələr isə cənub istiqamətində hücuma keçib Laçın dəhlizini daraltdılar. İki briqadanın birləşməsi üçün aralarında cəmi 6 km məsafə qalmışdı. Lakin hərbi rəhbərlikdəki Rusiyaya meylli qüvvələrin təxribatı nəticəsində hücum davam etdirilmədi. Oktyabrın 5-də Əlikram Hümbətovun tank briqadası geri çəkilmək əmri aldı. Azad edilmiş yaşayış məntəqələri və tutulmuş mövqelər yenidən düşmənin əlinə keçdi.

Cəbhədəki uğursuzluqlar ölkədə siyasi durumu daha da dərinləşdirdi. Korpus komandiri Surət Hüseynov dövlət çevrilişinə hazırlıq məqsədilə 1992-ci ilin dekabrında Kəlbəcərin strateji yüksəkliklərindən, 1993-cü il yanvarın 28-də isə Ağdərə bölgəsindən hərbi hissələri geri çəkib Gəncəyə apardı. Fevralın 15-də Ağdərə - Kəlbəcər yolu düşmənlərin əlinə keçdi. Müdafiə naziri R.Qazıyev və korpus komandiri S.Hüseynov vəzifələrindən kənar edildilər. Onların təsiri altında olan hərbi hissələr Müdafiə Nazirliyinə tabe olmaqdan imtina etdilər.

Yaranmış vəziyyətdən istifadə edən Ermənistan hərbi hissələri martın 10-da hücuma keçib Ağdərə və Kəlbəcər rayonlarında strateji mövqeləri ələ keçirdilər. Aprelin 3-də Kəlbəcər ermənilər tərəfindən işğal olundu. İqtidarın laqeydliyi üzündən hərbi hissələr geri çəkilərkən əhalini bölgədən vaxtında çıxartmaq mümkün olmadı. Erməni quldurları tərəfindən 15 min adam əsir alındı, iş qabiliyyəti olmayan qoca və uşaqlar isə yerindəcə güllələndilər.

1993-cü il iyunun əvvəllərində S.Hüseynovun başçılığı ilə hərbi qiyam başlandı. 709-cu hərbi hissə Ali Baş Komandana və Müdafiə Nazirliyinə tabe olmaqdan imtina etdi. Qiyamı yatırtmaq üçün Milli Məclisin sədri, baş nazir və güc nazirliklərinin başçılarından ibarət Mərkəzi Qərargah yaradıldı.

Qiyamçılara qarşı göndərmək üçün Müdafiə Nazirliyinin hərbi hissələrindən, daxili qoşunlarından ibarət ağır döyüş texnikası ilə təchiz edilmiş böyük cəza dəstəsi təşkil edildi. İyunun 4-də hökumət dəstələri qiyamçılara qarşı hücuma keçdi. 709-cu hərbi hissənin kazarmaları dağıdıldı. Lakin qiyamçılar təşəbbüsü ələ aldılar. Respublika prokuroru İxtiyar Şirinov başda olmaqla hökumət qüvvələrindən 1200 nəfər girov götürüldü. Qardaş qırğınında 68 nəfər həlak oldu, 150 nəfərədək adam yaralandı.

Hökumət qüvvələri məğlub oldu, qiyamçılar Prezidentin və hökumətin istefası tələbi ilə paytaxta doğru yürüşə başladılar. İyunun 14-də artıq qiyamçılar və hökumət qoşunları Bakının Lökbatan qəsəbəsi yaxınlığında üz-üzə dayandılar. Hökumət danışıqlara getməyə məcbur oldu. Əldə edilmiş razılığa görə Milli Məclisin sədri İsa Qənbər, baş nazir Pənah Hüseynov və üç güc nazirliyinin rəhbərləri istefa verdilər.

İyunun 15-də Azərbaycan Respublikasının Milli Məclisinin fövqəladə sessiyası Heydər Əliyevi Milli Məclisin sədri seçdi. Bu gün Azərbaycanın çağdaş dövr tarixinə "Qurtuluş Günü" kimi daxil oldu. 1992-ci il iyunun 15-i sayca üçüncü olan Azərbaycan Respublikasının tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Sonralar - 1997-ci ilin iyununda Milli Məclis bu günü "Milli Qurtuluş Günü" kimi bayram etməyi qərara aldı.

Siyasi bacarıqsızlığı ilə ölkəni vətəndaş müharibəsi həddinə gətirmiş AXC - Müsavat hakimiyyəti, özü hakimiyyətə dəvət etdiyi Heydər Əliyevə ölkənin düşdüyü ağır vəziyyətdən çıxartmağa kömək etməkdənsə, müxalifətə keçdi. Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəy siyasi gərginliyə davam gətirməyib və şəxsi təhlükəsizliyi üçün qorxub, iyunun 17-dən 18-nə keçən gecə paytaxtı gizlicə tərk edərək, anadan olduğu Ordubad rayonunun Kələki kəndinə getdi və bu ucqar dağ kəndindən dövləti idarə etmək fikrində olduğunu bildirdi. Milli Məclis qaçqın Prezidentə dəfələrlə müraciət edib, ona geri qayıtmağı və öz vəzifəsini icra etməyi təklif etdi. Lakin hər





dəfə rədd cavabı aldı. Nəhayət, iyulun 2-də Milli Məclis Prezident seçkiləri keçirilənədək, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Heydər Əliyevə tapşırdı.

H.Əliyev vətəndaş müharibəsini dayandırmaq məqsədilə, real silahlı gücə malik olan S.Hüseynovu Baş nazir təyin etdi. H.Əliyevin sayıq nəzarəti altında Baş nazir vəzifəsində öz məqsədinə nail ola bilməyəcəyini dərk edən S.Hüseynov, qərargahı Gəncədə yerləşən Səhra Cəbhə İdarəsi yaratdı. O, bu qurumda R.Qazıyev ilə birlikdə və iyunun 15-də Lənkəranda hərbi hissələrin köməkliyilə hakimiyyəti ələ almış Ə.Hümbətov ilə birlikdə dövlət başçısını hakimiyyətdən əl çəkməyə məcbur etmək üçün planlar hazırlamaqla məşğul olurdu. Hazırlanmış plana görə S.Hüseynov, Ə.Hümbətov və R.Qazıyev 1993-cü il sentyabrın ortalarında qüvvələrini birləşdirib Bakıya hücum etməli və H.Əliyevi hakimiyyətdən devirməli idilər.

1993-cü il avqustun 7-də Ə.Hümbətov, Lənkəran bölgəsində "Talış-Muğan Respublikasının" yaradılmasını elan etdi. Lakin bölgədə əhalinin əksəriyyəti onun hakimiyyətini qəbul etmədi. Avqustun 13-də H.Əliyev Lənkəran bölgəsindən olan Milli Məclisin üzvləri, tanınmış ziyalılar və ağsaqqallar ilə görüşdü. Onlar Ə.Hümbətovün "separatçılıq" cəhdinə qarşı tədbirlər görməyi tələb etdilər. Avqustun 17-də Milli Məclis Lənkəran hadisələrinə siyasi qiymət verdi. Ə.Hümbətovun "separatçılığını" Azərbaycanın dövlət müstəqilliyinə "arxadan vurulan zərbə" cəhdi kimi qiymətləndirdi. Dövlətin dəstəyini alan Lənkəran əhalisi avqustun 23-də ayağa qalxdı. Ə.Hümbətov qorxub qaçdı, "Talış-Muğan Respublikası" ləğv edildi.

1993-cü ildə hərbi müxalifətin satqınlığı nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yeni zərbələr endirildi. İyulun 23-də Ağdam şəhəri, avqustun 18-də Cəbrayıl, avqustun 23-də Füzuli, avqustun 31-də Qubadlı, oktyabrın 29-30-da Zəngilan ermənilərin əlinə keçdi.

1993-cü il oktyabrın 3-də alternativ əsaslarla keçirilən prezident seçkilərində Heydər Əliyev qalib gəlib Azərbaycan

Respublikasının prezidenti seçildi. O, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olduğunu təsdiqləyən uğurlu daxili və xarici siyasəti ilə respublikada siyasi sabitliyin yaradılmasına nail oldu. H.Əliyevin əzmi və bacarığı nəticəsində 1994-cü il oktyabrın 4-də S.Hüseynovun qiyamının, 1995-ci il martın 13-14-də Qazax və Ağstafa Xüsusi Təyinatlı Polis dəstəsi əməkdaşlarının qiyamının, martın 16-17-də Bakıda Cavadov qardaşlarının qiyamının qarşısı alındı. Azərbaycan xalqı respublikanın dövlət müstəqilliyinin qarantı olan Prezident Heydər Əliyevi dəstəkləməklə siyasi yetkinlik, öz ölkəsinə məhəbbət, Vətənə və Azərbaycan dövlətinə sədaqət nümayiş etdirdi.

H.Əliyevin hakimiyyətə qayıtması ilə ölkədə demokratiya və qanunçuluğun inkişaf etdirilməsi üçün real imkanlar yaradıldı. Bunun üçün xalqın mentalitetini nəzərə almaqla münasib yollar və vasitələr arayıb aşkara çıxarılırdı. Ölkədə plüralizm şəraitinin yaradılması, qeyri-qanuni silahlı qüvvələrin ləğv edilməsi, demokratiya və qanunçuluğun inkişafı dövlət quruculuğunda keyfiyyətcə yeni bir mərhələyə daxil olmağa imkan verdi. XX əsrin 90-cı illərinin ikinci yarısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi və ictimai-siyasi sabitlik uğrunda mübarizə daha da gücləndi və intensiv xarakter aldı.

**27.4. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi və siyasi sabitlik uğrunda mübarizə.** Heydər Əliyev yenidən Azərbaycanın rəhbərliyinə gələndə respublika ərazisinin 20 faizi ermənilərin əlinə keçmişdi. Düşmənlər işğal olunmuş ərazilərdə yaşayış məntəqələrini, evləri, müəssisələri, kommunikasiya vasitələrini, təbii sərvətləri talan edir, dağıdır və yandırırdılar. Müharibədə 20 min azərbaycanlı həlak olmuş və 5 min nəfər əlilə çevrilmişdi. Qaçqın və köçkünlərin sayı bir milyon nəfəri ötmüşdü. Erməni quldurları tərəfindən 4861 nəfər azərbaycanlı, o cümlədən 514 qadın, 58 uşaq və 255 qoca əsir və girov götürülmüşdü. Ermənilər əsir və girovlarla qeyri-





insani rəftar edir, qul kimi işlədir, təhqir edir, ləyaqətlərini alçaldırdılar.

BMT Təhlükəsizlik şurası 30 aprel, 29 iyul, 14 oktyabr və 11 noyabr 1993-cü il tarixli qətnamələrində işğal olunmuş Azərbaycan ərazilərindən işğalçı silahlı dəstələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb etsə də, bu qətnamələrin yerinə yetirilməsi üçün heç bir əməli tədbir görmürdü. Əslində bu qətnamələrin heç birində Ermənistan təcavüzkar adlandırılmırdı, yalnız birində Ermənistanın adı çəkilir və ondan guya Azərbaycan torpaqlarını tutmuş Dağlıq Qarabağa təsir göstərməsi tələb olunurdu.

Azərbaycan ordusu isə işğal olunmuş torpaqları azad etmək iqtidarında deyildi. Ordu bərbad vəziyyətdə idi. Azərbaycanın əvvəlki iqtidarları, demək olar ki, ordu quruculuğu ilə məşğul olmamışdılar. Mövcud hərbi hissələr ayrı-ayrı siyasi qrupların təsiri altında idi. Müdafiə Nazirliyinə tabe olmayan müxtəlif siyasi ambisiyalı, nizam-intizamsız hərbi hissələri ləğv etmək, güclü nizami ordu yaratmaq lazım idi. 1993-cü il noyabrın 1-də Prezidentin Fərmanı ilə Dövlət Müdafiə Şurası yaradıldı. DMŞ-nın elə həmin gün ilk iclasında ordu quruculuğu və müdafiə məsələləri müzakirə olundu və müvafiq qərarlar qəbul edildi. Noyabrın 2-də Prezident Heydər Əliyev televiziya və radio vasitəsilə xalqa müraciət etdi və onu düşmənə qarşı mübarizəyə qalxıb ölkənin azadlığı uğrunda birləşməyə çağırdı.

Prezidentin çağırışı ilə orduya könüllü gələnlərdən xüsusi batalyonlar (taborlar) yaradılıb cəbhəyə göndərildi. Vaxtilə Əfqanıstanda xidmət etmiş, döyüş təcrübəsi olan Azərbaycanın mərd oğulları Prezidentə müraciət edib xüsusi alay yaratmaq təşəbbüsü irəli sürdülər. "Əfqan döyüşçülərindən" ibarət əlahiddə hərbi hissə yaradıldı.

1993-cü il noyabrın 23-də Milli Məclis "Müdafiə haqqında" qanun qəbul etdi. Səmərəli hərbi təlim üçün proqramlar hazırlandı, ordunun döyüş hazırlığı yüksəldildi. Səhra Cəbhə

İdarəsi və 33 köhnə "başıpozuq" hərbi hissə ləğv edildi. 36 yeni tabor təşkil olundu. Artıq 1994-cü ilin sonunda Azərbaycan ordusunun sıralarında 54 min əsgər və zabit vardı. Silahlı qüvvələrin maddi-texniki bazası xeyli möhkəmləndirildi. Görülən tədbirlər nəticəsində Azərbaycan ordusu ermənilərin ölkənin içərilərinə doğru irəliləməsini dayandırdı və hətta hücuma keçib bir sıra əraziləri düşmən işğalından azad etdi. Azərbaycan ordusu 1994-cü il yanvarın 5-də müvəffəqiyyətli əməliyyat apararaq Füzuli rayonunu strateji əhəmiyyətli Horadiz qəsəbəsini və 22 kəndini azad etdi. Milli Ordu hücumu genişləndirərək Cəbrayıl və Kəlbəcər rayonlarının xeyli yaşayış məntəqələrini azad etdi və strateji əhəmiyyətli Çiçəkli dağını ələ keçirdi.

Ordunun möhkəmlənməsi Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyinə şərait yaratdı. Bundan narahat olan Rusiya 1994-cü ilin aprelində regionda mövqelərini qoruyub saxlamaq, qoşunlarını atəş xəttində yerləşdirmək və ağlasığmaz siyasi və iqtisadi güzəştlər əldə etmək məqsədilə Azərbaycana münasibətdə alçaldıcı bir saziş layihəsi təklif etdi. Rusiya Azərbaycanı bu layihə ilə razılaşmağa məcbur etmək üçün Ermənistana hərbi dəstək verdi. Nəticədə, 1994-cü ilin fevralında Azərbaycan Ordusunun Kəlbəcərlə uğurla həyata keçirməyə başladığı "Murovdağ" əməliyyatı məğlubiyyətlə nəticələndi. Aprelin 10-da Rusiyanın dəstəyi ilə Ermənistan bütün cəbhə boyu hücuma başladı. Azərbaycan Ordusu düşmənin hücumunu müvəffəqiyyətlə dəf etdi. Goranboy rayonunun Talış və Gülüstan kəndləri uğrunda döyüşlərdə Azərbaycan döyüşçüləri qalib gəldilər, düşmən 150 əsgər və zabitini itirib geri çəkildi. Lakin arxalı köpəklər hücuma keçib Ağdam rayonunun 18 kəndini yenidən işğal etdilər. Bərdə şəhəri üçün ciddi təhlükə yarandı. Azərbaycan Ordusu buraya əlavə qüvvələr cəlb edib düşmənin hücumunun qarşısını aldı və əks-hücuma keçib bir neçə yaşayış məntəqəsini geri götürdü. Rusiyanın təklif etdiyi layihə - ATƏT-in iştirakı olmadan





Rusiyanın vasitəçiliyi ilə döyüşən tərəflərin bir-birindən ayrılması planı baş tutmadı. Azərbaycan öz suverenliyinə hörmət çərçivəsində Rusiyanın atəşkəsə nail olmaq sahəsində səylərindən də imtina etmədi. 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflərin, o cümlədən Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının, habelə Rusiya Federasiyasının atəşkəs haqqında niyyətini təsdiq edən Bişkek protokolu Azərbaycan Respublikası tərəfindən imzalandı. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu.

Prezident H.Əliyevin gündəlik qayğısı nəticəsində Azərbaycan Ordusu atəşkəs şəraitində getdikcə inkişaf etdi, müasir hərbi texnika ilə təchiz olundu, silahlı qüvvələrin şəxsi heyətinin döyüş qabiliyyəti artdı, hərbi hissələrdə nizam-intizam möhkəmləndi. Bu işdə Azərbaycanın NATO ilə sülh naminə əməkdaşlıq proqramı çərçivəsində həyata keçirilən tədbirlər və Türkiyə Cümhuriyyəti hərbçilərinin köməyi əhəmiyyətli rol oynadı. Azərbaycan Respublikası Prezidentinin Fərmanları ilə 2002-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondu"nun təsis edilməsi və Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin yaradılması Azərbaycan Ordusunun möhkəmləndirilməsində mühüm rol oynadı.

## Ədəbiyyat:


1. Azərbaycan tarixi. 7 cilddə, 7-ci cild, s. 284-300, 316-360.
2. H.Əliyev. Müstəqillik yolu. Bakı, 1997.
3. H.Əliyev. Müstəqilliyimiz əbədidir. Əsərləri, 45 cilddə, I-XLIII cildlər.

# XXVIII FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASI İNKİŞAF YOLLARINDA

**28.1. Müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası və hüquqi, demokratik dövlət quruculuğu.** Azərbaycan xalqı 1991-ci il avqustun 30-da öz dövlət müstəqilliyini elan etdikdən sonra, ümummilli liderimiz H.Əliyev 1997-ci ildə ABŞ-ın Coretaun Universitetində nitqində dediyi kimi "demokratik, azad cəmiyyətin qurulması Azərbaycan dövlətinin əsas siyasəti və strateji məqsədi" oldu. Qeyd edidiyi kimi 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi və bu Akt 1991-ci il dekabrın 29-da ümumxalq referendumu vasitəsilə bəyənildi. Konstitusitya Aktı ilə Azərbaycan Respublikası dövlət müstəqilliyini və hüquqi prinsiplərə əsaslanan demokratik dövlət qurmaq məqsədini bütün dünyaya bəyan etdi. Bu məqsədə nail olmaq üçün Milli Məclis 1995-ci il iyulun 2-də Prezident H.Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiyasının layihəsini hazırlayan komissiya yaratdı.

İftixar hissi ilə qeyd etmək lazımdır ki, Şərqdə respublika tipli demokratik dövlətin ilk konstitusiyası Şimali Azərbaycanda qəbul edilmişdir. Məlumdur ki, 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər qurultayında Azərbaycan SSR-in Konstitusiyası qəbul edilmişdi. Bu Azərbaycanın ilk Konstitusiyası olmaqla bərabər bütün Şərqdə, türk dünyasında, islam aləmində ilk konstitusiya olmuşdur. Təəssüf ki, "dünya sosialist inqilabının" qələbəsi uğrunda mübarizə aparan Rusiyanın kommunist rəhbərlərinin siyasəti nəticəsində





Azərbaycan Cümhuriyyətinin varisi olan ikinci Azərbaycan respublikası - Azərbaycan SSR-in SSRİ-nin tərkibinə daxil edilməklə onun Konstitusiyası artıq müstəqil dövlətin konstitusiyası əhəmiyyətini itirib, Sovet İttifaqı kimi bir fövqəldövlətin geniş daxili özünüidarəetmə hüquqlarına malik olan milli-inzibati ərazisinin əsas qanununa çevrildi. Bununla bağlı 1925, 1927, 1931 və 1935-ci illərdə Azərbaycan SSR-in Konstitusiyasında dəyişikliklər edildi. 1937-ci il martın 14-də Ümumazərbaycan IX Sovetlər qurultayında Azərbaycan SSR-in ikinci Konstitusiyası, 1978-ci il aprelin 21-də isə Azərbaycan SSR Ali Sovetinin sessiyasında üçüncü Konstitusiyası qəbul edildi. Qeyd edildiyi kimi bu konstitusiyaları da müstəqil dövlətin konstitusiyaları hesab etmək olmaz.

Üçüncü Azərbaycan Respublikasının sayca dördüncü Konstitusiyanın layihəsini hazırlayan, komissiyanın ilk iclası 1995-ci il iyulun 5-də oldu. İclasın sədri H.Əliyevin nitqində yeni Konstitusiyanın layihəsinin əsas prinsipləri və istiqamətləri müəyyənləşdirildi. Konstitusiya komissiyası tərəfindən hazırlanmış Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verildi və sonra Milli Məclisdə müzakirə edilib bəyənildi. Azərbaycan Respublikasının yeni Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə qəbul edildi və noyabrın 27 qüvvəyə mindi.

Azərbaycan Respublikasının Konstitusiyası "Giriş", 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət idi. 2002-ci il avqustun 24-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Konstitusiyasını daha da təkmilləşdirmək üçün keçirilən ümumxalq referendumda ona 39 dəyişiklik edildi. 2009-cu il martın 18-də isə Azərbaycan Respublikasının yeni Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən ümumxalq referendumu yolu ilə Azərbaycan Respublikasının Konstitusiyasına daha 26 mühüm dəyişiklik edildi.

Beşiyinin başında H.Əliyevin durduğu Azərbaycan Respublikası Konstitusiyasında xalqın iradəsi onun aşağıdakı niyyətləri kimi bəyan edilir:

- "Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- Xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək".

Azərbaycan Respublikası Konstitusiyasına görə dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır. H.Əliyev deyirdi: "Xalq dövlət üçün yox, dövlət xalq üçüq olmalıdır". Konstitusiyaya görə Azərbaycan Respublikası onun bütün vətəndaşlarının, milliyyətindən, dilindən, irqindən və dinindən asılı olmayaraq ümumi və bölünməz vətənidir.

Konstitusiyada mühüm fəsillərdən biri dövlət quruculuğu məsələlərinə həsr edilmişdir. Konstitusiyaya görə Azərbaycan Respublikasında dövlət hakimiyyəti üç yerə bölünür: qanunvericilik hakimiyyətini Milli Məclis həyata keçirir; icra hakimiyyəti Prezidentə məxsusdur; məhkəmə hakimiyyəti isə məhkəmə hakimləri həyata keçirirlər. Azərbaycan Respublikasının Prezidenti dövlət başçısı və Silahlı Qüvvələrin baş komandanıdır.

Konstitusiyaya görə Azərbaycan Respublikasının ərazisi vahid və bölünməzdir. Azərbaycan Respublikasının dövlət sərhədləri yalnız Milli Məclisin qərarı ilə keçirilən ümumxalq referendumu yolu ilə dəyişdirilə bilər.





Konstitusiyaya görə Azərbaycanda mülkiyyət toxunulmazdır. Azərbaycan dövləti mülkiyyətin müxtəlif formalarına (dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti) əsaslanaraq xalqın rifahını yüksəltmək üçün iqtisadiyyatın bazar münasibətləri yolu ilə inkişafına şərait yaradır.

Azərbaycan Respublikasının Konstitusiyasına görə qanunvericilik hakimiyyətini həyata keçirən Milli Məclis 5 il müddətinə seçilən 125 deputatdan ibarət olur. Dövlət başçısı Prezident 5 il müddətinə seçilir. Prezident vəzifəsinə Azərbaycan ərazisində 10 ildən artıq daimi yaşayan və yalnız Azərbaycan Respublikasının vətəndaşı olan, heç bir ağır cinayət törətməyən, ali təhsilli şəxs seçilə bilər. Azərbaycan Respublikasında seçkilərin düzgün keçirildiyini yoxlayan və yekunlaşdıran orqan, Prezident seçkilərinin nəticələrini təsdiq edən orqan Konstitusiya Məhkəməsidir. Mülki və cinayət işləri üzrə məhkəmə hakimiyyəti Ali məhkəməyə, respublikada qanunçuluğa nəzarət isə Azərbaycan Respublikasının Baş prokuroruna məxsusdur.

Yeni Konstitusiya əsasında Azərbaycan Respublikasının ilk parlamenti - Milli Məclis 1995-ci il noyabrın 12-də seçildi. Yeni Konstitusiya əsasında ilk Prezident 1998-ci ildə Heydər Əliyev seçildi. 2003-cü il oktyabrın 15-də keçirilən Prezident seçkilərində isə Azərbaycan Respublikasının yeni Prezidenti İlham Əliyev seçildi. İ.Əliyev 2008-ci ilin Prezident seçkilərində yenidən qalib gələrək ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti oldu.

Azərbaycan Respublikası Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikası daxilində muxtar dövlət statusuna malikdir. Naxçıvan Muxtar Respublikasının dövlət idarəetmə sistemi parlament hakimiyyəti üsulu ilə həyata keçirilir. Parlamentin - Ali Məclisin sədri Muxtar Respublikasının başçısı hesab edilir. Muxtar Respublikanın icra hakimiyyəti Ali Məclis tərəfindən

formalaşdırılan Nazirlər kabinetidir. Naxçıvan Respublikasının yeni Konstitusiyası Azərbaycan Respublikasının Konstitusiyası əsasında 1998-ci il aprelin 28-də Muxtar Respublikanın Ali Məclisi tərəfindən qəbul edilmiş və həmin ilin dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmişdir.

Azərbaycan Respublikasında yerlərdə icra hakimiyyətini Prezident tərəfindən təyin edilən şəhər və rayon icra hakimiyyəti başçıları həyata keçirirlər. Azərbaycan Respublikası Konstitusiyasına əsasən yerlərdə özünüidarə orqanları seçkili bələdiyyələr sistemindən ibarətdir. Bələdiyyələr inzibati ərazi vahidlikləri və yaşayış məskənləri üzrə təşkil olunurlar. Bələdiyyələr vətəndaşların yerli özünüidarə təşkilatları kimi dövlətdən ayrı, müstəqil fəaliyyət göstərirlər. Azərbaycan "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına qoşulmuş və respublikada "Bələdiyyələrin statusu haqqında" qanun qəbul edilmişdir. Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri 1999-cu il dekabrın 12-də keçirilmişdir.

Azərbaycan Respublikasında demokratiya hüquqi dövlət qurmaq işində 1996-cı ilin fevralında Azərbaycan Respublikasının Prezidenti yanında yaradılmış "Hüquqi İslahatlar Komissiyasının" xüsusi rolu olmuşdur. Həmin komissiya siyasi və iqtisadi islahatlarla bağlı Azərbaycanın qunanlarının sivil dünya dövlətlərinin hüquqi dövlət ənənələrinə, beynəlxalq hüquq normalarına "Avropa Şurası və dünya demokratik təşkilatlarının tələblərinə uyğun hazırlanmasına təsirli kömək edir. Azərbaycan Respublikasının Avropa Şurasının "Qanun vasitəsilə demokratiyaya doğru" Venesiya Komissiyasına üzv qəbul edilməsi də respublikada demokratik cəmiyyət quruculuğu işində əhəmiyyətli rol oynadı.

Azərbaycan Respublikası insan hüquqları il bağlı 29 beynəlxalq komissiyaya qoşulmuşdur. Bu sahədə BMT Azərbaycana fəal köməklik göstərir. 1998-ci il avqustun 18-də BMT Azərbaycan hökuməti ilə "insan hüquqları və





demokratiyanın dəstəklənməsi və müdafiəsi sahəsində birgə bağlı layihə haqqında memorandum" imzaladı. 2002-ci ildə respublikada Ombudsman institutu yaradıldı. Həmin ilin iyulun 2-də Milli Məclis Elmira Süleymanovanı Azərbaycan Ombudsmanı vəzifəsinə seçdi.

Azərbaycanda söz, fikir və mətbuat azadlığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə 2001-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, 2002-ci il oktyabrın 5-də isə Milli Televiziya və Radio Şurası yaradıldı.

1993-cü ildə Prezident Heydər Əliyevin Fərmanı ilə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyuldu, 1998-ci ilin fevralında ölüm cəzası hökmü tamamilə lğv edildi. Beləliklə, Azərbaycan Respublikası Şərqdə ölüm cəzasını ləğv etmiş ilk ölkə oldu.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu prosesində siyasi fəaliyyət və fikir plüralizmi üçün əlverişli şərait yarandı. 2002-ci ildə ölkədə rəsmi qeydə alınmış 350 minə qədər üzvü olan 39 siyasi partiya və 1350 ictimai birlik, qeyri-hökumət təşkilatı fəaliyyət göstərirdi. Siyasi partiyalar arasında Yeni Azərbaycan Partiyası (YAP) sürətlə inkişaf edib respublikada ən böyük partiyaya, iqtidar partiyasına çevrildi. 2001-ci il dekabrın 21-də keçirilən YAP-ın II qurultayı ərəfəsində onun sıralarında 230 min nəfər üzv vardı.

Respublika siyasi həyatında sağlam müxalifətin mühüm rol oynayan biləcəyini nəxərdə tutan iqtidar elə bir qüvvələrin formalaşmasında maraqlı idi. Müxalifət partiyalarına demokratik vasitələrdən istifadə etməklə təbliğat və təşviqat imkanları yaradıldı. Müxalifət dövlətin maliyyə dəstəyi ilə onlarla qəzet və jurnal nəşr edib yayır, televiziya və radio kanallarından istifadə edir, seçki komissiyalarında və parlamentdə təmsil olunurdular. Buna baxmayaraq Avropa Şurası parlament Assambleyasının siyasi məsələlər üzrə məruzəsində qeyd olunduğu kimi, Azərbaycanda "sərt"

müxalifət mövcud idi və o, bəzən iqtidarla çox "amansız" rəftar edirdi. Lakin ölkədə güclü konstruktiv müxalifət yarana bilmədi. Buna səbəb bir tərəfdən, iqtidar tərəfindən xalqın əsas maraqlarının ödənməsi, digər tərəfdən, hakimiyyət iddiasında olan müxalifət qüvvələrinin xalqa yeni heç nə təklif edə bilməmələri idi.

Ölkədə demokratiya və plüralizmin inkişafından sui-istifadə edən bizə din xadimləri xarici havadarlarının dəstəyilə Azərbaycan Respublikasında islam respublikası tipində teokratik dövlət yaratmağa çalışırdılar. Hələ 80-ci illərin sonlarında Şəkidə bir qrup din xadimi dindarlardan "Yeni Azərbaycan İslam Cəmiyyəti" adlı təşkilat yaratmış və "İslam Ordusu" adlı silahlı dəstə təşkil etmişdilər. Təşkilatın liderləri dövlət orqanlarının işinə qarışır, bölgədə hakimiyyəti zorla ələ keçirməyə çalışırdılar. Yalnız 1993-cü ilin noyabr ayında hökumət bu təşkilatın qanunsuz fəaliyyətinə son qoydu. 1992-ci ildən fəaliyyət göstərən İslam Partiyası xarici kəşfiyyat orqanları ilə əməkdaşlıq edir, Azərbaycanda hakimiyyəti ələ almaq üçün tədbirlər planı hazırlayırdı. Xaricin maliyyə vəsaiti ilə fəaliyyət göstərən İslam Partiyasının liderlərinin dini təhsil almaq adı altında İrana göndərdikləri minlərlə gənc, orada hərbi təlim alıb Azərbaycana qayıdırdı. İrandan gələn "qonaqlar" əhali arasında təbliğat işi aparırdılar. İslam Partiyasının satqın liderləri 1996-cı ildə ifşa edilib həbs olundular və partiyanın fəaliyyəti qanundankənar elan edildi.

XX əsrin 90-cı illərinin ortalarında demokratiyanın inkişafından ölkənin şimal bölgələrində sui-istifadə edən "Sadval" ləzgi təşkilatı Rusiyanın müəyyən dairələri tərəfindən qızışdırılırdı. Ölkədə həyəcan və qarışıqlıq yaratmaq məqsədilə "Sadval" bir sıra terror aktı törətdi. 1994-cü il martın 19-da Bakı metrosunun "20 yanvar" stansiyasında partlayış törədildi, 14 nəfər həlak oldu, 49 nəfər yaralandı. Həmin il iyulun 3-də metronun "28 May" və "Gənclik" stansiyaları arasında qatarda partlayış törədildi, ölən və yaralananlar oldu. Terrorçular





yaxalanıb cəzalandırıldılar. 1996-cı ildə özünü "ləzgilərin imamı" adlandıran Asum Qasımov Rusiya Müsəlmanları İttifaqının tapşırığı ilə məscidləri gəzir və guya ləzgilərin hüquqlarını müdafiə etmək üçün əhalini Azərbaycan Respublikasının iqtidarına qarşı cihada çağırırdı. Onlar Dağıstanda təşkil etdikləri silahlı dəstələrlə Azərbaycana keçib bu tərəfdən rus sərhədçilərinə silahlı basqın etməklə təxribatçılıqla məşğul olurdular. Onların da təxribatçılıq cəhdlərinin qarşısı vaxtında alındı.

Xalq kimin-kim oduğunu getdikcə daha aydın dərk edir, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə mane olan qüvvələrin niyyətlərini və hərəkətlərini düzgün qiymətləndirirdi. Xalq təşkilatların və demokratiya məktəbi keçirdi.

Azərbaycan Respublikası əhalisinin 66 faizini gənclər təşkil edir. Ümummilli lider H.Əliyevin başçılığı altında iqtidar gənclərin sağlam böyüməsinə, onların mənəvi və fiziki tərbiyəsinə xüsusi qayğı göstərirdi. 1994-cü ilin iyununda Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi təsis edildi. 1995-ci ilin noyabrında Azərbaycan Gənclər Təşkilatının Milli Şurası yaradıldı. Bu Şurada 2003-cü ildə 80-dən çox gənclər təşkilatı və 40-a qədər uşaq təşkilatı birləşmişdi.

Azərbaycan gənclər hərəkatında Prezident H.Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də Bakıda keçirilmiş gənclərin Birinci Respublikası Forumunun xüsusi yeri vardır. Ulu öndər H.Əliyev forumda söylədiyi böyük nitqində müstəqil Azərbaycan Respublikasının gələcək sahibləri olan gəncləri daha mütəşəkkil olmağa Vətənini, dövlətini, millətini, dilini, dinini, mədəniyyətini və tarixini sevməyə çağırdı. O, gənclərimizə müxtəlif dilləri və elmləri öyrənməklə bərabər iki elmi - ana dili olan Azərbaycan dilini və Vətən tarixi olan Azərbaycan tarixini dərindən və mükəmməl öyrənməyi tövsiyə etdi.

H.Əliyev, - "Mən fəxr edirəm ki, azərbaycanlıyam", - deməklə, "azərbaycançılıq" ideologiyasına xüsusi əhəmiyyət verir, onu yüksək ideya kimi təbliğ etməyi, xalqımızın üstün

ideologiyasına çevirməyi öyrədirdi. Respublika gənclərinin birinci forumundakı nitqində H.Əliyev islam dininə münasibətdən bəhs edərkən, xalqımızın dininin "islam" olmasını bəyan etməklə bərabər, ərəb islam məfkurəsindən, İran İslam məfkurəsindən və nəhayət Türkiyə islam məfkurəsinən fərqli olan müstəqil Azərbaycan islam məfkurəsinin formalaşmasına xüsusi fikir verməyin zəruriliyini qeyd etdi.

H.Əliyevin Azərbaycan gənclərinin Birinci Respublika Forumundakı nitqi gənclər hərəkatının proqramına çevrildi. Respublika Prezidentinin fərmanı ilə fevralın 2-ni hər il Azərbaycanda "Gənclər Günü" kimi qeyd olunması qərara alındı.

1994-cü ilin sentyabrından Azərbaycanda BMT-nin YUNİSEF uşaq təşkilatı fəaliyyətə başlamışdır. 1998-ci il mayın 19-da Azərbaycanda "Uşaq hüquqları haqqında" Qanun qəbul edildi. Respublikada "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında" Dövlət Proqramı da qəbul edilmişdir.

Müstəqillik dövründə Azərbaycan qadınlarının da ictimai-siyasi fəaliyyəti xeyli genişləndi. 1998-ci ilin yanvarında Respublika Prezidentinin Fərmanı ilə "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Bu komitə qadınları narahat edən problemləri aşkar edir və onların həlli yollarını müəyyənləşdirir. Çağdaş dövrdə Azərbaycanın qadın təşkilatları ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər - 2001-ci ildə ölkədə 41 qadın təşkilat fəaliyyət göstərirdi. Onların arasında "Sevil" Qadınlar Məclisi, D.Əliyeva adına "Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti", "Əsgər Anaları" cəmiyyəti və b. təşkilat və cəmiyyətlər daha çox diqqəti cəlb edirlər.

Çağdaş dövrdə ölkədə həmkarlar hərəkatı da geniş vüsət almışdır. Respublikada AHİK (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası fəaliyyət göstərir. AİHK 40-dan artıq Azad Həmkarlar İttifaqını birləşdirir. AİHK 2001-ci ildə





Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasına üzv qəbul edilmişdir.

**28.2. Azərbaycan Respublikasının xarici siyasətinin uğurları.** Azərbaycan Respublikasının hüquqi demokratik dövlət quruculuğu sahəsində əldə etdiyi nailiyyətləri onun uğurlu xarici siyasəti üçün şərait yaratdı. Azərbaycan Respublikası xarici siyasət sahəsində dünya dövlətləri arasında özünə layiq yer tutmağa çalışır və beynəlxalq münasibətlərin ümumbəşəri dəyərlər əsasında inkişafına kömək etməyə səy göstərirdi. Azərbaycan Respublikası xarici siyasət sahəsində, həmçinin Dağlıq Qarabağ probleminə və Ermənistanın təcavüzünə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gərgin iş aparılırdı. Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatların iclasında, o cümlədən, 2000-ci il sentyabrın 6-da BMT Baş Məclisdə və 2001-ci il yanvarın 25-də AŞPA-nın iclasında çıxışlarında mövcud şəraitdə müstəqillik əldə etmiş dövlətlərə müunasibətdə ikili standartlarla yanaşılmanın yolverilməzliyinini və demokratiyanın inkişafında ayrı-ayrı xalqların mentalitetinin nəzərə alınmasının zəruriliyini qeyd etmişdi.

Azərbaycan Respublikası MDB daxilində dövlətlərin bərabərhüquqlu əməkdaşlığının təmin edilmədiyinə baxmayaraq, 1993-cü il sentyabrın 24-də bu təşkilata daxil oldu. Belə bir şəraitdə bu təşkilatın subyektləri arasında münaqişələrin aradan qaldırılması üçün heç bir təsirli tədbir həyata keçirmək mümkün deyildir. Azərbaycan Respublikasının Prezidenti H.Əliyev MDB dövlət başçılarının demək olar ki, bütün görüşlərində birlik daxilində belə qeyri-sağlam, anormal münasibətlər olmasının yolverilməzliyini və separatizmlə mübarizənin zəruriliyini nəzərə çatdırırdı.

1997-ci il noyabrın 25-də Bakıda Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova respublikasının öz aralarında əməkdaşlıq haqqında blok - "GUAM" blokunun təşkilini bəyan

edən protokol imzalandı. 1994-cü il aprelin 4-də Vaşinqtonda GUAM təşkilatına üzv olan dövlətlərin prezidentlərinin görüşündə Özbəkistan respublikası da bu təşkilata qəbul edildikdən sonra o, GUÖAM adlanırdı, H.Əliyev GUÖAM təşkilatının sədri seçildi, təşkilatın icrası katibliyinin yaradılması qərara alındı. GUÖAM təşkilatını yaradılması Rusiyanı çox narahat edirdi. Bununla əlaqədar 2001-ci iyunun 6-7-də Yaltada GUÖAM təşkilatı başçılarının görüşündə qəbul olunmuş "Yalta Xartiyası"nda bu təşkilatın iqtisadi sahələrdə əməkdaşlığa üstünlük verəcəyi elan edildi.

1994-cü ilin yanvarında Azərbaycan Respublikası NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın qorunmasına xidmət edən "Sülh Naminə Əməkdaşlıq" Proqramına qoşuldu. Həmin il mayın 4-də Prezident H.Əliyev bu Proqramın Çərçivə sənədini imzaladı.

Azərbaycan Respublikası hərbi inkişaf perspektivləri sahəsində NATO ilə sıx əməkdaşlığa meyl göstərir. Azərbaycan hərbi kontingenti İraq Kosovo və Əfqanıstanda NATO sülhməramlı qüvvələrinin keçirdiyi əməliyyatlarda Türkiyə hərbi hissəsinin tərkibində əlahiddə takım kimi iştirak etdi. 2002-ci il noyabrın 18-də NATO Parlament Assambleyasının İstanbulda keçirilən iclasında Azərbaycan Respublikası NATO Parlament Assambleyasına assosiativ üzv qəbul edildi.

Azərbaycan Respublikasının xarici siyasətində NATO ilə əməkdaşlığın əsas istiqamətləri H.Əliyevin 2002-ci il noyabrın 22-də Avropa - Atlantika Tərəfdaşlıq Şurasının Praqa şəhərində keçirilmiş zirvə görüşündəki çıxışında öz əksini tapmışdır: "Dünya son dərəcə mürəkkəb bir dövr yaşayır. Beynəlxalq terrorizm bəzi dövlətlərin dəstəyindən istifadə edərək dünya nizamına qarşı hərəkət edir, ekstremizm, təcavüzkar millətçilik və davadar separatizm ideologiyası əsasında yeni qarşıdurma xətləri yaratmağa çalışır, sərhədləri yenidən bölməyə, dəyişməyə cəhd göstərir. Beynəlxalq sistemin ümumi təhlükəyə qarşı səmərəli mübarizə aparmaq qabiliyyəti ciddi sınağa





səkilir. 11 sentyabr faciəsindən dərhal sonra Aeroatlantika birliyi antiterror koalisiyası yaratdı və Azərbaycan ilk gündən bu koalisiyaya qoşuldu. Biz bu gün də başqa ölkələr və beynəlxalq təşkilatlarla birlikdə bu təhlükələrə qarşı əlimizdən gələni edirik".

Azərbaycan Respublikasının Türkiyə ilə münasibətlərində 1993-cü ilin yayından ciddi dəyişikliklər edildi. Bu qardaş ölkə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi və iqtisadi tərəfmüqabili oldu. Türkiyə Ermənistanı təcavüzkar bir dövlət kimi tanımış, Dağlıq Qarabağ problemi ədalətlə həll olunmayınca Ermənistan ilə heç bir əlaqə saxlamayacağını elan etmişdir.

Azərbaycan Respublikası İran ilə də hər iki tərəf üçün faydalı siyasi, iqtisadi və mədəni əlaqələr yaratdı. İran dövləti Ermənistanın Azərbaycana təcavüz etdiyini bildirsə də, onunla hərtərəfli əlaqələr saxlayır. Bu da onun Azərbaycan Respublikası ilə münasibətlərdə səmimi olmadığını göstərir. İran Xəzər dənizinin mübahisəli suları ilə bağlı Azərbaycana qarşı çox aqressiv mövqe tutmuşdur. 2001-ci il iyulun 23-də İran mübahisəli hesab etdiyi Xəzər dənizindəki sulardan Azərbaycan gəmilərinin çıxarılması haqqında nota göndərdikdən dərhal sonra hərbi təyyarələrini havaya qaldırmışdı. Azərbaycan buna cavab tədbiri gördü. Belə gərgin anda Türkiyə İrana etirazını bildirərək, bəyanat verdi ki, Azərbaycan əl qaldıran qarşısında Türkiyəni görəcək. Münaqişə dinc yolla nizama salındı. Prezident H.Əliyevin İrana səfəri zamanı 2002-ci il mayın 20-də imzalanmış "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə iki qonşu dövlət arasında münasibətlərin nizama salınması üçün mühüm səhən oldu.

1996-cı ilin martında Azərbaycan Respublikası ilə qonşu Gürcüstan arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalandı. Bu qonşu ölkədə yaşayan azərbaycanlılara qarşı

münasibətin yaxşılaşmasına səbəb oldu. İki dövlət arasında bütün sahələrdə strateji əməkdaşlıq başlandı.

Azərbaycan Respublikasının xarici siyasətində ABŞ İngiltərə, Fransa, Almaniya, İtaliya, Çin, Yaponiya, Koreya, Pakistan, Səudiyyə Ərəbistanı, İsrail, Rumıniya və b. dövlətlər ilə münasibətləri mühüm yer tutur. Azərbaycan bu və digər dövlətlər ilə tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələr yaratmışdır. Azərbaycan Respublikası qərblə şərq arasında qədim "İpək yolu"nun bərpa olunmasında fəal iştirak etmişdir və bu yolun mərkəzində, Qərblə Şərqin qovşağında mühüm yer tutur.

Azərbaycan Respublikası XXI əsrin başlanğıcında artıq 137 dövlət ilə diplomatik əlaqələr yaratmışdı, 24 dövlətin Bakıda səfirliyi fəaliyyət göstərirdi, Azərbaycanın isə 21 dövlətdə səfirliyi və baş konsulluğu vardı.

Azərbaycanda aparılan demokratik islahatlar Avropa dövlətləri tərəfindən razılıqla qarşılanırdı. 1996-cı ilin aprelində Avropa Şurası dövlətləri ilə Azərbaycan Respublikası arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı, iyun ayında isə Azərbaycan Respublikası Avropa Şurası parlament Assambleyasında xüsusi dəvət olumuş qonaq statusu aldı. 2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasına üzv qəbul olundu. Avropa Şurasında Azərbaycan parlamentinin nümayəndə heyətinin başçısı İlham Əliyev öz işgüzarlığı ilə böyük nüfuz qazanaraq və 2003-cü il yanvarın 27-də AŞPA-nın sədrinin müavini və büro üzvü seçilmişdi.

Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin əsas məqsədi Ermənistanın təcavüzkar kimi tanınmasına nail olmaq və onu işğal olunmuş Azərbaycan torpaqlarından çıxmağı məcbur etmək idi. 2001-ci il aprelin 24-də Azərbaycan nümayəndə heyəti bu təşkilatın tribunasından Ermənistanın azərbaycanlılara qarşı soyqırım siyasəti yeritdiyini, işğal olunmuş Azərbaycan ərazilərində narkotik maddələr istehsal etdiyini və onun ixracatından əldə etdiyi vəsaitlə terrorçu





dəstələr yaratdığını bütün dünyaya bildirdi. 2001-ci ilin iyununda AŞPA-nın sessiyasında İ.Əliyev Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında tarix və mədəniyyət abidələrini dağıtmasını, planlı surətdə ekologiyanı korlamasını konkret faktlarla ifşa etdi. 2002-ci il sentyabrın 26-da AŞPA-nın sessiyasında müzakirə edilər. Azərbaycan haqqında məruzədə ilk dəfə açıq surətdə bildirildi ki, Azərbaycanın torpaqları Ermənistan tərəfindən işğal olunubdur, Ermənistanın Azərbaycana qarşı təcavüz edibdir və bu təcavüz nəticəsində Azərbaycanın bir milyon nəfərə yaxın qaçqını vardır.

Azərbaycan Respublikasının müstəqil xarici siyasətindən narazı olan Rusiya Azərbaycana təzyiq göstərmək üçün 1994-cü ilin axırlarında şosse, dəmir yolu və dəniz yolunu bağlamaqla iqtisadi sanksiyalar tətbiq etdi. Atəşkəs şərtlərinə zidd olaraq, 1994-1996-cı illərdə Rusiya Ermənistana ümumi dəyəri 1 milyarddan çox olan tank, təyyarə, raket texnikası və digər ağır və taktiki hərbi silah verdi, Ermənistanda öz hərbi bazalarını yerləşdirdi. 1997-ci il iyulun 3-də Moskvada Rusiya ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalansa da, həmin ilin avqustun 29-da Rusiya Ermənistan ilə də dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında yeni müqavilə imzalanmaqla əvvəlki öhdəliklərini təzələdi. Bu yeni sənəddə hərbi vəziyyət yaranarkən Rusiyanın Ermənistan tərəfindən çıxış edəcəyi rəsmi surətdə bəyan edilirdi. Azərbaycanın bu müqavilədən narahat olduğunu və narazılığını görən Rusiya Federasiyası Xarici İşlər Nazirliyi xüsusi nota ilə bu müqavilənin Azərbaycana qarşı çevrilmədiyini bildirdi. Azərbaycan Respublikasının Prezidenti H.Əliyev MDB dövlət başçılarının 1997-ci il oktyabr, 1999-cu il mart zirvə görüşlərində bu müqavilənin Azərbaycana qarşı təhlükə yarada bilən maddələrinin ləğv olunmasını tələb etdi. Bununla əlaqədar 2001-ci ilin mayında Bakıda olan Rusiya Federasiyası müdafiə naziri rəsmi surətdə elan etdi ki, Ermənistan və

Azərbaycan arasında silahlı münaqişə olarsa, Rusiya neytral qalacaqdır.

Prezident H.Əliyevin müdrik xarici siyasəti nəticəsində Azərbaycan Respublikası ABŞ kimi super dövlətin Qafqaz regionunda əsas iqtisadi və siyasi partnyoru oldu. 2001-ci il sentyabrın 11-də Nyu-York və Vaşinqtonda dəhşətli terror hadisələrinə cavab olaraq ABŞ beynəlxalq terrorizmə qarşı mübarizə elan edərkən Azərbaycan Respublikası onunla bir mövqedə olduğunu bildirənlərin ilk sırasında oldu, öz ərazisindən Əfqanıstana göndərilən ABŞ silahlı qüvvələrinin istifadəsi üçün imkanlar yaratdı. ABŞ senatı 2001-ci ilin oktyabr ayında sülh və tərəqqi naminə yardım aktına Azərbaycan Respublikası üçün məhdudiyyətlər qoyan 907-ci əlavəsi müvəqqəti olaraq dayandırmaq üçün Prezidentə səlahiyyətlər verdi. ABŞ Prezidenti 2002-ci il yanvarın 28-də və 2003-cü il yanvarın 17-də bu səlahiyyəti reallaşdırdı. Az sonra ABŞ Azərbaycan Respublikasına silah satışına qoyulmuş qadağanı aradan qaldırdı və təhlükəsizlik tədbirlərində kömək etməyə başladı.

Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Dağlıq Qarabağ problemini və Ermənistan tərəfindən işğal olunmuş torpaqların azad edilməsi məsələsini mümkün qədər qan tökülmədən, dinc vasitələrlə həll etmək xəti götürmüşdü. O, ATƏT-in Minsk qrupunun fəaliyyətinin canlandırılması istiqamətində xeyli iş gördü, ATƏT-in rəhbərliyi və onun Minsk qrupunun təmsilçiləri ilə 180-dən çox görüş keçirdi. ATƏT-in 1994-cü ilin dekabrında Budapeşt və 1996-ci ilin dekabrında Lissabon sammitləri Dağlıq Qarabağ probleminin Minsk qrupu vasitəsilə beynəlxalq prinsiplərə əsaslanaraq ədalətli həllinin vacibliyini təsdiq etdilər. Lissabon sammitinin yekun qəranının Dağlıq Qarabağ məsələsinin həlli prinsipləri haqqında təklif edilən bəndə Ermənistan prezidentinin razı olmadığı üçün, sammit iştirakçılarının bu məsələ ilə bağlı yalnız yekdilliklə qəbul edilə biləcək Yekun Aktına bütövlükdə





imza etməkdən H.Əliyev imtina etdi. Nəticədə sammitin 54 iştirakçısından 53 üzv dövlətin adından ATƏT-in sədrinin verdiyi və sammitin rəsmi sənədi elan olunmuş bəyanat qəbul edildi. Ermənistan bu bəyanata etiraz etdi. Bu bəyanatda problemin həlli üçün üç prinsip irəli sürülürdü: birincisi - Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması; ikincisi - Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində yüksək dərəcəli özünüidarə statusu - muxtariyyət hüququ verilməsi, üçüncüsü - Dağlıq Qarabağın həm erməni, həm də azərbaycanlı əhalisinə təhlükəsizlik təminatı verilməsi, İkinci prinsip təcavüzə məruz qalmış Azərbaycan üçün məqbul olması da münaqişəni aradan qaldırmaq naminə H.Əliyev buna razılıq vermişdi.

Lissabon sammitindən sonra Minsk qrupuna üç dövlət - ABŞ, Rusiya və Fransa sədrlik etməyə başladı. Həmsədrlər tərəfindən 1997-ci il iyunun 11-də "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlı layihə təklif edildi. Bu sərhəd BMT-nin Dağlıq Qarabağ məsələsi ilə bağlı məlum qətnamələrinə əsaslanmır və hüquqi baxımdan məcburi xarakter daşımırdı. 1997-ci il sentyabrın 19-da həmsədrlər "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş" adlı ikinci layihə təklif etdilər. Bu sənəd münaqişənin mərhələlər üzrə həllini nəzərdə tuturdu. Birinci mərhələdə Laçın rayonu istisna olunmaqla Azərbaycanın işğal olunmuş altı rayonunun azad olunması, qaçqınların azad edilmiş torpaqlara qaytarılması, Ermənistan və Dağlıq Qarabağın həyat fəaliyyəti üçün zəruri olan kommunikasiyaların bərpa edilməsi nəzərdə tutulurdu. İkinci mərhələdə tərəflər Azərbayan Respublikası tərkibində Dağlıq Qarabağın statusunu müəyyənləşdirməklə, onun təhlükəsizliyi üçün təldbirlər görməklə Laçın, Şuşa və keçmiş Şaumyan rayonları ilə bağlı məsələləri həll etməklə məşğul olmalı idilər. Bu layihədə hər bir bəndin həyata keçirilməsinin dəqiq mexanizmi və zaman çərçivəsi, eyni zamanda müqaviləni

pozan tərəflərə qarşı tətbiq ediləcək sanksiyalar müəyyənləşdirilmişdi. Bu layihədə "Laçın dəhlizi" və Dağlıq Qarabağın azərbaycanlı əhalisi ilə bağlı Azərbaycan tərəfi qane etməyən maddələr vardi. Lakin Azərbaycan 1997-ci il oktyabrın 1-də "mərhələli həll" layihəsinin danışıqlara başlamaq üçün əsas kimi qəbul olunmasına razılıq verdi. Ermənistan Prezidenti L.Ter-Petrosyan da bu layihəyə müsbət münasibətini açıqladı. 1997-ci il oktyabrın 10-da Strasburqda Azərbaycan və Ermənistan prezidentləri ATƏT-in Minsk qrupunun həmsədrlərinin hazırladıqları ikinci layihə əsasında danışıqlara başlamağa razılıq verdilər. Lakin Ermənistan prezidentinin qərarı qondarma "Dağlıq Qarabağ Respublikasının liderləri" tərəfindən etirazla qarşılandı, onlar "mərhələli həll" layihəsinin qəbuledilməzliyini bəyan etdilər. Ermənistan Respublikası Təhlükəsizlik Şurasında L.Ter-Petrosyan kəskin tənqid edildi və o, 1998-ci il fevralın 3-də istefa verməyə məcbur oldu. 1998-ci il noyabrın 9-da ATƏT-in Minsk qrupunun həmsədrləri "Ümumi dövlət" adlı üçüncü layihəni irəli sürdülər. Bu layihə də birinci layihə kimi ATƏT-in Budapeşt və Lissabon sammitinin qərarlarına zidd idi. Ortaya atılmış "ümumi dövlət" modelinin heç bir hüquqi əsası yox idi. Bu layihədə Dağlıq Qarabağ müvafiq artibutları olan respublika şəklində dövlət qurumuna çevrilirdi, "ümumi dövlət"də Azərbaycanla bərabər hüquqlu ittifaq subyekti olurdu. Təbii ki, Azərbaycan özünə qarşı bu alçaldıcı təklifi qəbul edə bilməzdi.

2001-ci il fevralın 23-cə Azərbaycan Respublikasının Milli Məclisi siyasi partiyaların nümayəndələrinin və tanınmış ziyalıların iştirakı ilə Dağlıq Qarabağ məsələsinin sülh yolu vasitəsilə həlli prosesinə aid müzakirə keçirdi. Müzakirədən iki gün öncə, fevralın 21-də rəsmi qəzetlərdə ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ problemi və Ermənistanın təcavüzü ilə bağlı təklif etdiyi hər üç layihə dərc edilib ictimaiyyətə çatdırılmışdı. Milli Məclisdə müzakirələr göstərdi ki,





Azərbaycan Respublikasının Qarabağ münaqişəsinin həll üçün güzəşt imkanları tükənmişdir. Bu fikir Azərbaycan ziyalıların 2001-ci il mayın 30-da yaydıqları bəyanatda daha aydın ifadə olundu: "Biz sülh tərəfdarıyıq, müharibə başlanmasının, qan tökülməsinin əleyhinəyik, amma sülhdən daha vacib Vətənimizin əzəli torpaqlarının qaytarılmasıdır. Lazım gələrsə, bu yolda BMT Nizamnaməsinə uyğun olaraq təcavüzkara qarşı güc tətbiq edilməsi də istisna olunmamalıdır".

Azərbaycan Respublikasının uğurlu xarici siyasəti nəticəsində o, 2012-2013-cü illərdə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir.

**28.3. Azərbaycan Respublikasında iqtisadi inkişaf və sosial siyasətin uğurları.** Sovet İttifaqının dağılması və ölkədə yaranmış siyasi hərc-mərclik Azərbaycanın iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. Respublikanı iqtisadi əlaqələri pozulmuşdu. Müəssisələr bağlanır, işçizlik artır, əhalinin güzəranı surətlə pisləşirdi. İşsizliklə bağlı reçpublikanı milyon nəfərə qədər gənc tərk etmişdi. Təminatsızlıq üzündən mütəxəssislər və alimlər dolanacaq dalınca xaricə getməyə məcbur olmuşdular.

Dövlətin aztəminatlı ailələrə kömək məqsədilə verdiyi güzəştlər, o cümlədən 1991-ci ilin iyulundan əmək veteranlarına və pensionerlərə şəhər daxili nəqliyyatdan pulsuz istifadə etmək hüququ, 1992-ci ilin aprelində müəllimlərə kommunal-məişət sahələrində imtiyazlar verilməsi, 1992-ci ilin dekabrında tənha vətəndaşların sosial müdafiəsini gücləndirməklə bağlı tədbirlər isə dərin inflyasiya şəraitində çox az səmərə verirdi. Cəmiyyətdə orta təbəqə qalmamışdı. Əhalinin böyük əksəriyyəti yoxsulluq səviyyəsindən aşağı vəziyyətdə yaşayırdı. Minimum əmək haqqı rəsmi istehlak minimumu həcmində 20 dəfə az idi.

Azərbaycan müstəqil dövlətçilik siyasətindən narazı olan dövlətlərin iqtisadi təzyiqi ölkəni iqtisadi durumunu daha da ağırlaşdırırdı. Rusiya Federasiyası 1994-cü ilin dekabrından

quru və su yollarını bağlamışdı, İran İslam Respublikası isə 1995-ci ilin ortalarından bir sıra zəruri məhsulların Azərbaycana ixracına qadağa qoymaqla iqtisadi blokada siyasəti yeridirdi.

Dövlət orqanlarında işləyən şəxslərin öz vəzifələrindən sui-istifadə halları geniş miqyas almışdı. Özəl müəssisələrin çoxu gəlirlərinin bir hissəsini gizlədir, vergi verməkdən yayınırdılar. Xarici ticarətdə barter əməliyyatı üstünlük təşkil edirdi və bundan ayrı-ayı şəxslər külli miqdarda qazanc əldə edirdilər. Malların bir hissəsi ölkənin sərhədlərində mövcud olan 400-ə qədər qeyri-rəsmi sərhəd keçid məntəqələrindən keçirilir və qeydə alınmırdı.

Ölkənin belə bir ağır günündə hakimiyyətə qayıdan ümummilli lider H.Əliyev qısa bir zamanda dövlət intizamının möhkəmləndirib, siyasi sabitliyi yaranmasına nail oldu və iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Bazar iqtisadiyyatının inkişafına münasib şərait yaratmaq məqsədilə bir sıra qanun və qərarlar qəbul edildi. Prezidentin 1994-cü il 5 aprel tarixli Fərman ilə xarici ticarət sərbəstləşdirildi. İqtisadiyyat inkişaf etdirmək üçün kifayət qədər investisiya qoymağa respublika daxilində imkanlar olmadığına görə, xarici kapitalı cəlb etmək məqsədilə "açıq qapı" siyasəti yeridilməsinə başlandı. Gömrük vergiləri aşağıya salındı və sabitləşdirildi. Xarici investisiyalara və kreditorlara təminat verən qanunlar qəbul olundu. Nəticə ölkəyə xarici kapitalın axını sürətləndi. 2000-ci ildə Azərbaycan Respublikasında artıq 1300-dən çox xarici şirkətin nümayəndələri fəaliyyət göstərirdilər.

Ölkənin iqtisadiyyatının böhran vəziyyətindən çıxarılmasında və inkişaf etdirilməsində neft sənayesinin dirçəldilməsi əhəmiyyətli rol oynadı. Prezident H.Əliyev rəhbərliyi ilə Azərbaycan Respublikasının yeni dövlət neft strategiyası hazırlandı.





Neft sənayesinin müasir texnologiyalar əsasında yenidən qurmaq, neft sənayesinə investisiyalar cəlb etmək və Azərbaycan üçün əlverişli şərtlərlə xarici neft şirkətlərilə müqavilələr bağlamaq Azərbaycan Dövlət Neft Şirkətinə tapşırıldı. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin, birinci vitse-prezidenti İlham Əliyevin və vitse-prezidenti Xoşbəxt Yusifzadənin səmərəli fəaliyyətləri nəticəsində dünyanın məşhur neft şirkətləri ilə Azərbaycan Respublikasının maraqlarına cavab verən müqavilə şərtləri razılaşdırıldı.

Azərbaycanın yeni dövlət neft strategiyasının həyata keçirilməsinə start 1994-cü il sentyabrın 20-də verildi. Həmin tarixi gündə Bakının "Gülüstan" sarayında Azərbyacan Dövlət Neft Şirkəti ilə ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı və Yunanıstanın neft şirkətlərinin daxil olduğu beynəlxalq konsersium arasında Xəxər dənizinin Azərbaycan bölməsində "Azəri" və "Çıraq" yataqlarının, həmçinin "Günəşli" yatağının bir hissəsinin birgə işlənməsi və hasil olan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik müqavilə imzalandı. Sonralar beynəlxalq konsorsiuma Yaponiya şirkəti də qoşuldu. Dünyada "Əsrin müqaviləsi adı ilə tanına bu sazişə görə investisiyanın 80 faizini konsorsum qoyur, Azərbaycanın gəliri çıxarılacaq neftin ümumi dəyərinin 80 faizi miqdarında müəyyən olunurdu. Bundan əlavə, çıxan səmt qazı tamamilə Azərbaycan Respublikasının ixtiyarında qalırdı.

1995-ci il noyabrın 10-da Xəzər dənizinin "Qarabağ yatağında kəşfiyyat işləri, yatağın işlənməsi və çıxarılacaq neftin bölüşdürülməsi haqqında ABŞ, Rusiya və İtaliya şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında yeni müqavilə imzalandı. 1996-cı il iyunun 4-də Xəzər dənizinin "Şahdəniz" yatağının birgə işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, İran və Fransanın neft şirkətləri konsorsiumu arasında

müqavilə imzalandı. "Şahdəniz" yatağında dərinliyi 6,5 min m olan quyular qazıldı və nadir qaz-kondensat layı kəşf edildi. Çox böyük ehtiyatları olan "Şahdəniz" yatağının kəşfi ilə Azərbaycan təkcə neft "kralına" deyil, həm də qaz "kralına" çevrildi. Azərbaycan dövləti qazın dünya bazarlarına çıxarılması yolların müəyyənləşdirməyə başladı.

Azərbaycan Dövlət Neft Şirkəti 1996-cı il dekabrın 14-də Xəzər dənizində "Dan ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlənməsi üzrə ABŞ, Səudiyyə Ərəbistanı və Yaponiya, 1997-ci il yanvarın 13-də "Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının kəşfiyyat işləri və birgə istismarı üzrə Fransa və 1997-ci ilin avqustunda Xəzər dənizinin "Abşeron", "Naxçıvan", "Oğuz" və "İnam" yataqlarında birgə iş barədə ABŞ-ın qabaqcıl neft şirkətləri ilə üç yeni müqavilə imzaladı. Azərbaycan Dövlət Neft Şirkəti ilə 1998-ci ilin iyun ayında ABŞ, Britaniya, Kanada, Türkiyə, İtaliya və Yaponiya neft şirkətləri konsorsiumu arasında, həmin ilin iyulunda ABŞ, Böyük Britaniya və Rusiya neft şirkətləri arasında yeni müqavilələr imzalandı. 2001-ci ilin yanvarında isə Rusiyanın LUKOYL şirkəti ilə Zığ və Hövsan yataqlarının istismarı üzrə müqavilə imzalandı.

Ümumiyyətlə, Azərbaycan Dövlət Neft Şirkəti 1994-2001-ci illərdə 14 ölkənin 32 neft şirkəti ilə 21 müqavilə imzalandı. 2001-ci ilə bu şirkətlərə servis xidməti göstərən 400-ə qədər xarici şirkət Azərbaycanda fəaliyyət göstərirdi. Bu müqavilələr çərçivəsində Azərbaycanda 60 milyard dollar həcmində sərmayə qoyulması nəzərdə tutulurdu. Bu müddətdə xarici neft şirkətləri müqavilələr üzrə işlərin həyata keçirilməsi üçün 6 milyard dollara qədər investisiya qoymuşdu. Azərbaycan neft sənayesinin bərpa və inkişaf etdirilməsində ABŞ, Böyük Britaniya, Yaponiya, Rusiya, Səudiyyə Ərəbistanı, Fransa və İtaliyanın ən qabaqcıl neft şirkətləri iştirak etdilər. Dünyanın qabaqcıl neft şirkətləri Azərbaycanın neftçıxarma, neftayırma və neftmaşınqayırma sənaye sahələrinə





müasir texnologiyalar gətirdilər. Neft sənayesində idarəetmə təcrübəsi təkmilləşdirildi, infrastruktura yenidən quruldu, neft donanması yeniləşdirildi və gücləndirildi. "Baku" elmi-tədqiqat gəmisi modernləşdirilib dünyada ən mükəmməl geofiziki tədqiqat gəmilərindən birinə çevrildi. "Dədə Qorqud" dəniz neft qazma qurğusu yenidən qurulub modernləşdirildi, "Şelf-5" dəniz neft qazma qurğusu yenidən qurulub, dünyanın ən böyük üzən qazma qurğusundan birinə çevrildi və 1998-ci ilin sentyabrında "İstiqlal" adı ilə istifadəyə verildi.

"Xəzər", "Çıraq" və "Günəşli" yataqlarından çıxarılacaq ilkin neftin Rusiya və Gürcüstandan keçməklə Qara dəniz limanlarına çəkilən Bakı-Novorossiysk "Şimal" neft kəməri və Bakı-Supsa "Qərb" neft kəməri ilə ixrac edilməsinə dair müqavilələr imzalandı. Uzunluğu 1400 km olan Şimal" neft kəməri 1997-ci il sentyabrın 25-də, uzunluğu 920 km olan "Qərb" neft kəməri isə 1999-cu il aprelin 17-də istifadəyə verildi. 1999-cu il noyabrın 18-də İstanbulda Xəzər dənizindən çıxarılan neftin Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Aralıq dənizinə qədər 1760 km uzunluğunda Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə nəql edilməsinə dair saziş imzalandı. 2002-ci il sentyabrın 18-də kəmərin təməli qoyuldu. 1 milyard dollara qədər dəyəri olan bu kəməri sahibi Azərbaycan Dövlət Neft Şirkəti ilə bərabər ABŞ, Böyük Brtaniya, Norveç, Yaponiya, Türkiyə, Səudiyyə Ərəbistanı, İtaliya və Fransa neft şirkətləridir. Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ilin oktyabrında istifadəyə verildi. 2007-ci ilin noyabrında isə Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərinin istifadəyə verilməsi ilə Azərbaycandan Türkiyəyə qaz ixracının əsası qoyuldu.

Azərbaycanın neft strategiyasının birinci mərhələsində həyata keçirilən tədbirlər nəticəsində ölkənin neft sənayesi dirçəldi və sürətlə inkişafa başladı. 2002-ci ildə ölkədə 153 milyon ton neft hasil edildi. Neft sənayesindən əldə edilən gəlirdən səmərəli istifadə edib ölkənin iqtisadiyyatının bütün

sahələrinin inkişafına nail olmaq üçün Prezident H.Əliyevin fərmanı ilə 1999-cu ilin dekabrında Azərbaycan Dövlət Neft Fondu yaradıldı. Dövlət Neft Fondunu yaratmaqda əsas məqsəd, Azərbaycan Respublikasının indiki Prezidenti İlham Əliyevin dediyi kimi, ölkənin karbohidrat ehtiyatlarını maliyyə ehtiyatlarına çevirmək və fondda yığılan vəsait investisiya şəklində Azərbaycan iqtisadiyyatının başqa sahələrinə qoymaqla neftlə bağlı olmayan sənaye sahələrinin, habelə kənd təsərrüfatının stabil inkişafını təmin etmək və yeni iş yerlərini yaratmaq, son nəticədə isə yeni layihələr həyata keçirməklə, gələcək nəsillər üçün neft hasilatının səviyyəsinin və dünya bazarında neftin qiymətinin dəyişməsindən asılı olmayan güclü iqtisadiyyat yaratmaqdı. Azərbaycan Dövlət Neft Fondunda yığılan vəsaitdən ölkənin iqtisadiyyatının inkişafı, respublikanın bütün bölgələrinin kompleks halında inkişafı, şəhər və kəndlərin abadlaşdırılması, nəqliyyatın, səhiyyənin, təhsilin, elm və mədəniyyətin dünya standartları səviyyəsinə yüksəldirilməsi, əhalinin sosial rifahını yaxşılaşdırmaq üçün səmərəli istifadə olunur.

Müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatının dirçəldilməsində və inkişafında "Yeni İpək Yolu"nun işə düşməsinin də əhəmiyyətini qeyd etmək lazımdır. 1993-cü ilin may ayında Avropa birliyinin tşəbbüsü ilə "TRACECA" proqramı üzrə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin - "Yeni İpək Yolu"nun açılması barədə 9 ölkənin, o cümlədən Azərbaycanın iştirakı ilə "Brüssel bəyannaməsi" qəbul olundu. 1996-cı il mayın 13-də Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan arasında tranzit yük daşınmasının tənzimlənməsi haqqında Sarahs sazişi 1996-cı ilin dekabrında Azərbaycan, Gürcüstan və Ukrayna arasında Avropa nəqliyyat dəhlizi yaradılması haqqında Odessa sazişi imzalandı.

1997-ci ilin martında Rusiya Federasiyası Azərbaycan Respublikası ilə sərhəd keçid məntəqələrindəki məhdudiyyətləri ləğv etdi, şosse, dəmir yolu və su nəqliyyat bərpa edildi.





2001-ci ilin ortalarında isə Rusiya Federasiyası Azərbaycandan keçməklə İrana gedən "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması təşəbbüsü ilə çıxış etdi. Rusiyanın Azərbaycan Respublikasını nəqliyyat blokadasına almaq cəhdi baş tutmadı.

1998-ci il sentyabrın 7-8-də Prezident H.Əliyevin təşəbbüsü ilə Bakıda "Böyük İpək Yolu" Beynəlxalq konfransı keçirildi. Konfransda 32 ölkənin və beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdi. Beynəlxalq konfrans "Böyük İpək Yolu"nun tranzit ölkələr üçün əhəmiyyətini açıqlayan "Bakı Bəyannaməsi"ni qəbul etdi. Konfrans "Böyük İpək Yolu"nun iqamətgahının Bakıda yerləşdirilməsi haqqında da qərar qəbul etdi.

1994-1995-ci illərdə neftayırma zavodlarında qurğular modernləşdirildi və qaz emalı zavodu yenidən quruldu. Respublikanın maşınqayırma sənayesi müəssisələri xarici bazarın məhdudlaşması ilə bağlı olaraq, profillərini dəyişib respublika sənayesi və kənd təsərrüfatı üçün avadanlıq, texnika və ehtiyat hissələr istehsal etməyə başladılar. Respublikada yeni sənaye müəssisələri, istehsal sahələri yaradıldı. Ümumiyyətlə, 1996-2002-ci illərdə ölkənin iqtisadiyyatına 12 milyard dollar məbləğində investisiya qoyuldu.

Regionların kompleks inkişafı üçün qeyri-neft sahələrinə kapital qoyuluşu artırıldı. 1996-cı ildə Naxçıvan Muxtar Respublikasında 18 min hektar əkin sahəsinin suvarılmasını təmin edən Vayxır su anbarının inşası bərpa edildi. İran vasitəsilə Naxçıvan bölgəsinə elektrik enerjisi tranzit etmək üçün 52 km-lik İmişli-Parsabad elektrik xətti işə salındı. 2001-ci ildə Bakı elektoqaynaq səhmdar cəmiyyətinin poladtökmə zavodu, Bakıda "Kaspian-Fiş" balıq məhsulları istehsalı müəssisəsi, 2002-ci ildə Şəmkir-Yenikənd SES-i və s. işə salındı.

Kənd təsərrüfatında həyata keçirilən islahatçılar da öz bəhrələrini verməyə başladı. 1991-1994-cü illərdə kənd təsərrüfatı məhsulları istehsalı ildə orta hesabla 15-20 faiz

azaldığı halda, 1997-2002-ci illərdə ildə orta hesabla 51 faiz artdı. 2002-ci ildə ölkədə rekord miqdarda - 2 milyon 200 min ton taxıl, 700 min ton kartof istehsal edildi. Ölkədə çəltik becərilməsi bərpa olundu, şəkər çuğunduru əkilməsinə başlandı. 2001-ci ildə ölkədə 2 milyon 21 min baş qaramal, 6 milyon 86 min başdan çox qoyun vardı. Əhalinin heyvandarlıq məhsullarına tələbatını daxili imkanlar hesabına ödəmək mümkün oldu. Artıq ölkəyə başqa yerlərdən heyvandarlıq məhsullarının gətirilməsinə ehtiyac qalmadı.

İqtisadi dirçəliş xarici ticarət dövriyyəsinin artmasına şərait yaratdı. Xarici ticarət dövriyyəsi 1993-cü ildə 1 milyard 300 milyon dollardan artaraq 2002-ci ildə təxminən 4 milyard dollara çatmışdı. Xarici ticarət dövriyyəsində 2000-ci ildə ixrac ilk dəfə idxaldan çox olub 63,3 faiz oldu. Xarici ticarətdə müsbət saldo yaranması ölkədə istehsal olunan malların kəmiyyət və keyfiyyətinin artması nəticəsi idi.

Heydər Əliyevin Azərbaycan Respublikasında hakimiyyətə qayıtması ərəfəsində iqtisadi böhran və tənəzzül əhalinin güzəranını ağırlaşdırmışdı. Ölkədə 1 milyon nəfərə yaxın qaçqın və köçkünün olması əhalinin sosial durumunu daha da ağırlaşdırırdı. Onlar çadır şəhərciklərində çox acınacaqlı şəraitdə yaşayırdılar.

Prezident H.Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri 90-cı illərin ortalarından başlayaraq dövlətin iqtisadi siyasətində mühüm yer tutdu. 1994-cü il iyulun 24-də "Əhalinin sosial müdafiəsi haqqında" Qanun qəbul edildi, noyabrın 21-də isə "Əhalinin Sosial Müdafiəsi Fondu" təsis olundu. 1995-2000-ci illərdə dövlət büdcəsindən sosial təyinatlı xərclər üç dəfəyə qədər artırıldı.

Əmək haqqının artırılması üçün dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində dövlət büdcəsindən maliyyələşdirilən işçilərin orta aylıq əmək haqqı xeyli artdı. 2000-ci ilin yanvarında təhsil işçilərinin, aprelində isə elm,





mədənyiyət və sosial təminat sahələri işçilərinin əmək haqları 25 faiz artırıldı. Elm, təhsil, mədəniyyət və səhiyyə sahələrində çalışan işçilərin əmək haqları sonralar da bir neçə dəfə 25-30 faiz artırılmışdır. Sonuncu dəfə isə təhsil işçilərinin əmək haqqının 2008-ci ilin sentyabrında 3 dəfə artırılması müəllimləri sosial müdafiəsi sahəsində çox dəyərli tədbir oldu. Dövlətin bir qrup ədəbiyyat, incəsənət və elm xadimlərinə, gənc istedadlara fərdi təqaüdlər müəyyən etməsi də sosial yönümlü tədbirlər sırasında xüsusi yer utur.

Dövlətin sosial yönümlü tədbirləri sırasında müharibə əlillərinə qayğı da əhəmiyyətli yer tutur. Dövlət tərəfindən müharibə əlilləri üçün xüsusi olaraq evlər tikilir və onlara pulsuz paylanır. Müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, 1998-ci ildən onlara hər il dövlət hesabına "Oka" markalı minik avtomobilinin verilməsi də ənənə halı olmuşdur.

Əhalinin maddi-rifah halının yaxşılaşdırılması, yoxsulluğun səviyyəsinin aşağı salınması və ləğv edilməsi üçün "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" hazırlandı. 2003-2005-ci illəri əhatə edən bu proqrama əsasən makroiqtisadiyyat daha da möhkəmləndirildi, iqtisadiyyatın bütün sahələr və regionlar üzrə tarazlı inkişafı üçün investisiyalar qoyuluşu artırıldı və yeni iş yerləri yaradıldı. Qaçqınların və köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq üçün yeni abad şəhərciklər salınması işi sürətləndirildi. Ölkədə sonuncu çadır şəhərciyi 2007-ci il oktyabrın 4-də ləğv edildi. Onların əhalisi hər cür kommunal şəraiti olan müasir evlərə köçürüldü.

İqtisadiyyatın dirçəlməsi ölkədə idmanın da inkişafına böyük təsir göstərdi. 1992-ci il martın 10-da Azərbaycan Milli Olimpiya Komitəsi yaradıldı. 1997-ci il iyulun 31-də Azərbaycan MOK prezidenti vəzifəsinə İlham Əliyev seçildi. 2001-ci ilin oktyabrında isə Bakının Maştağa qəsəbəsində müasir standartlar əsasında inşa edilmiş Olimpiya İdman

Kompleksi istifadəyə verildi. Sonrakı illərdə Gəncə, Naxçıvan, Şəki, Bərdə, Lənkəran, Quba, Şamaxı, Göyçay, Qazax, Şəmkir, Yevlax, Mingəçevir, Qəbələ və b. şəhərlərdə də Olimpiya İdman Kompleksləri tikildi.

Azərbaycan idmançıları beyəlxalq yarışlarda fəal iştirak edərək, uğurlar qazandılar. 1996-cı ilə XXVI Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları ilk dəfə müstəqil respublikanı təmsil etdilər və 197 komanda arasında 48-ci yeri tutdular. 2000-ci ilin sentyabrında Sidneydə keçirilən XXVII Yay Olimpiya Oyunlarında Azərbaycan idman komandası 198 komanda arasında 34-cü yerə çıxdı, güləş üzrə Natiq Abdullayev və stend atıcılığı üzrə Zemfira Meftahəddinova qızıl medal qazanaraq Olimpiya çempionu oldular. Olimpiyalarda qızıl, gümüş və bürünc medallar qazanan idmançılar və onların məşqçiləri üçün 2002-ci il oktyabrın 10-da Azərbacan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdü təsis edildi. Azərbaycan Respublikasının idman komandası 2004-cü ildə Afina, 2008-ci ildə Pekin və 2012-ci ildə London Yay Olimpiya Oyunlarında da uğurla çıxış etdilər. Azərbaycan güləşçilərindən Fərid Mənsurov Afina Olimpiadasında, Elnur Məmmədli isə Pekin Olimpiadasında qızıl medal qazanaraq olimpiya çempionu oldular. Azərbaycan idmançılarının London Yay Olimpiya oyunlarında çıxışları daha uğurlu olmuşdur. Respublikamızın idman şərəfini qoruyan gənclərimiz 2 qızıl medal, 2 gümüş medal və 6 bürünc medal olmaqla 10 medal qazanaraq ümumi komanda yarışında 30-cu yerə çıxmışlar. Güləşçilərimizdən Toğrul Əliyev və Şərif Şərifov qızıl medal qazanaraq olimpiya çempionu olmuşlar.

İqtisadi dirçəliş ölkədə turizmin inkişafına diqqəti artırmağa imkan verdi. Azərbaycanın səfalı guşələrində beynəlxalq standartlar səviyyəsində istirahət mərkəzləri yaradıldı. 2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı üzrə Dövlət Proqramı qəbul edildi və həyata keçirildi. Azərbaycan beynəlxalq turizm mərkəzlərindən birinə çevrildi,





turizm ölkə iqtisadiyyatının yeni gəlir sahələrindən biri kimi xalqın sosial tərəqqisinə kömək edən amillərdən biri oldu.

## Ədəbiyyat:


1. Azərbaycan tarixi. 7 cilddə, 7-ci cild, s. 360-441.
2. H.Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. Bakı, 2001.
3. H.Əliyev. Müstəqillik yolu. Bakı, 1997.
4. H.Əliyev. Müstəqilliyimiz əbədidir. Əsərləri. 45 cilddə, I-XLIII.
5. R.Rəcəbli. Azərbaycan Respublikası Konstitusiyasının baş memarı. Bakı, 1999.

# XXIX FƏSİL

## Müstəqil Azərbaycan Respublikasının mədəniyyəti

**29.1. Müstəqil Azərbaycan Respublikasında təhsil və elm.** Azərbaycan Respublikası müstəqillik əldə etdiyi ilk vaxtlar iqtisadi, siyasi və mənəvi həyatdakı çətinliklər, ziddiyyətlər təhsil sisteminə də təsir etmişdi. Təhsilə kifayət qədər maliyyə vəsaiti ayırmaq mümkün deyildi, məktəblərin maddi bazası zəifləyirdi. XX əsrin 90-cı illərinin əvvəllərində nəzarətsizlik üzündən məktəbəqədər təhsil müəssisələrinin, məktəblərin və digər təhsil ocaqlarının bir çoxu, yaxud sinif otaqları "zirək" işbazların əlinə keçmişdi və onlardan başqa məqsədlər üçün istifadə olunurdu. Yüzlərlə təhsil müəssisəsi - 855 məktəbəqədər uşaq müəssisəsi, 693 ümumtəhsil məktəbi, 85 musiqi məktəbi, 4 texnikum və 1 ali məktəb Qarabağ müharibəsi nəticəsində düşmənlərin əlinə keçmişdi. Müəllimlərin və alimlərin bir qismi maddi vəziyyətin ağır olması üzündən təhsil sistemini tərk etmişdilər.

Belə bir ağır vəziyyətdə müstəqil Azərbaycan Respublikası öz milli təhsil sistemini yaratmağa başladı. 1998-ci il martın 30-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə “Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası” təşkil edildi. Dünya Bankının, milli və xarici ekspertlərin köməyi ilə “Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı” hazırlandı və 1999-cu il iyunun 15-də Prezident tərəfindən təsdiq edildi. Bu Proqramda Azərbaycan milli təhsil sisteminin strategiyası və konsepsiyası müəyyənləşdirildi. Proqramda təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması, dünya təhsil sisteminə inteqrasiyası və əsaslı surətdə təkmilləşdirilməsi nəzərdə tutulurdu. Dünya Bankı bu





Proqramın həyata keçirilməsinin birinci mərhələsi üçün 10 milyon dollar kredit ayırdı.

Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Həmin Fərmana görə mülkiyyət formasından asılı olmayaraq bütün təhsil müəssisələrinə tədris-metodik rəhbərlik və ayrı-ayrı dövlət qurumlarına məxsus təhsil müəssisələrinin (Milli Təhlükəsizlik və Müdafiə nazirlikləri müəssisələrindən başqa) tabeliyi Azərbaycan Respublikası Təhsil Nazirliyinə verildi, Azərbaycan Pedaqoji Kadrların İxtisaslarının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutu bazasında Azərbaycan Müəllimlər İnstitutu və onun bölgələrdə filialları yaradıldı, Təhsil Problemləri üzrə Respublika Elmi-Tədqiqat Mərkəzi ilə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutu bazasında Respublika Təhsil Problemləri İnstitutu təşkil olundu.

2000-ci ildə Azərbaycanda 111 min uşağı əhatə edən 1790 məktəbəqədər müəssisə və müxtəlif maraq sahələri üzrə 310 min şagirdi əhatə edən 367 məktəbdənkənar müəssisə fəaliyyət göstərirdi. 2000-ci ildə Bakının Əhmədli yaşayış sahəsində beynəlxalq "SOS Kinderdof İnternatsional" təşkilatı tərəfindən yaradılmış 12 evdən ibarət uşaq kəndi istifadəyə verildi.

2000-2001-ci tədris ilində Azərbaycanda 4548 dövlət gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 654 min şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 165 min müəllim məşğul olurdu. Ümumtəhsil sistemində dəyişikliklər baş vermiş, xüsusi istedada malik uşaqlar üçün təmayülyönlü 235 məktəb, o cümlədən 7 gimnaziya və 33 litsey yaradılmışdı. Bakıda özəl "Atatürk" litseyi, "Bakı Türk litseyi", T.Özal adına Bakı və Sumqayıt Türk litseyləri, Lənkəran Türk litseyi, Şəki Türk litseyi və b. fəaliyyət göstərirdi. 1998-ci ildə C.Naxçıvanski adına Orta Hərbi İnternat Məktəbinin Naxçıvan filialı təsis edildi. XXI əsrin başlanğıcı üçün respublikada 38

ümumtəhsil internat məktəbi vardı və onlarda 18 mindən çox şagird təhsil alırdı.

Texnikumlar şəbəkəsi də yenidən quruldu, onların çoxunun əvəzində kolleclər yaradıldı. 2002-ci ilin avqustunda Bakı Kommersiya, İnşaat, Plan-Uçot, Plan-İqtisad, Rabitə və Dəmiryolu, Əlibayramlı (indiki Şirvan) Sənaye Texnikumu, Agdam, Gəncə, Lənkəran, Şamaxı və Şəki Kənd Təsərrüfatı texnikumları ləğv edildi. Bakı Dövlət İqtisadiyyat, Humanitar, Sosial-İqtisad, Rabitə və Nəqliyyat kollecləri, Sumqayıt, Naxçıvan və Şəki Dövlət Texniki kollecləri, Göyçay, Bərdə və Zaqatala İdarəetmə və Texnologiya kollecləri, Sabirabad, Ağdam, Quba, Şamaxı, Tovuz və Qazax Dövlət Sosial-İqtisad kollecləri, Lənkəran və Ağdaş Dövlət Humanitar kollecləri yaradıldı.

Azərbaycan təhsil sistemində mühüm yeniliklər 1992-ci ildən ali və orta ixtisas məktəblərinə tələbə qəbulunun test üsulu ilə aparılmasının tətbiq edilməsi və 1993-cü ildən ali məktəblərdə ikipilləli təhsil sisteminə - dörd illik bakalavr hazırlığı və iki illik magistr hazırlığı pillələrindən ibarət təhsil sisteminə keçilməsi olmuşdur.

1993-cü ildə Lənkəran Dövlət Universiteti fəaliyyətə başladı, Dövlət Neft-Kimya İnstitutu Azərbaycan Neft Akademiyasına, Gəncədəki Kənd Təsərrüfatı İnstitutu Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına, Azərbaycan Dövlət Konservatoriyası Azərbaycan Musiqi Akademiyasına çevrildi. 1996-cı ildə Bakı Dənizçilik Məktəbi Dəniz Akademiyasına, Polis məktəbi Polis Akademiyasına, Dövlət Pedaqoji İnstitutu Dövlət Pedaqoji Universitetinə, Politexnik İnstitutu Texniki Universitetə, Tibb İnstitutu Tibb Universitetinə çevrildi, Bakı Ali Partiya Məktəbi Sosial İdarəetmə və Politologiya İnstitutu kimi yenidən quruldu. 1998-ci ildə Milli Təhlükəsizlik Akademiyası və Milli Təyyarəçilik Akademiyası yaradıldı. 1999-cu ildə Sosial İdarəetmə və Politologiya İnstitutu bazasında Respublika Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradıldı.





Həmin illərdə Mülki Dənizçilik Akademiyası yaradıldı. 2002-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutu və Əmtəəşünaslıq Kommersiya İnstitutu bazasında Bakı Dövlət İqtisad Universiteti yaradıldı. Azərbaycan İnşaat Mühəndislər Universiteti Memarlıq və İnşaat Universitetinə, Azərbaycan Sənaye İnstitutu Sumqayıt Dövlət Universitetinə, Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu profili dəyişdirilərək Bakı Slavyan Universitetinə, Gəncə Dövlət Pedaqoji İnstitutu profili dəyişdirilərək Gəncə Dövlət Universitetinə, Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutu profili dəyişdirilərək Azərbaycan Dillər Universitetinə və Azərbaycan Texnologiya İnstitutun profili dəyişdirilərək Azərbaycan Texnologiya Universitetinə çevrildi. Azərbaycan Rəssamlıq Akademiyası və onun nəzdində İncəsənət Kolleci, Azərbaycan Milli Konservatoriyası və onun nəzdində Musiqi Kolleci təsis edildi.

Respublika Prezidentinin 2000-ci il 13 iyun tarixli Fərmanı ilə Bakı Dövlət Universitetinə, Azərbaycan Neft Akademiyasına və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına təhsil sistemində aparıcı mövqelərinə görə və beynəlxalq aləmdə real nüfuza malik olduqlarına görə muxtariyyət - özünüidarəetmə və maliyyə müstəqilliyi statusu verildi. 2002-ci ilin iyun ayında belə status Naxçıvan Dövlət Universitetinə də verildi. Əvvəllər Azərbaycan Tibb Universitetinin də belə statusu var idi.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra özəl ali məktəblərin geniş şəbəkəsi də yaranmışdır. Bakı Qızlar Universiteti, "Qərb", "Xəzər", "Asiya", "Təfəkkür", "Azərbaycan", "Qafqaz", "Odlar Yurdu", "Biznes", "Beynəlxalq Münasibətlər" universitetləri, Ali İctimai-Siyasi Kollec və b. özəl ali məktəblər təhsil sahəsində özlərini tanıda bilmişlər.

Hazırda Azərbaycanda 54 ali məktəb fəaliyyət göstərir. Onlardan 37-si dövlət akademiyası, universiteti və institutu, 17-si isə özəl universitetdir.

2000-2001-ci tədris ilində respublika ali məktəblərində 120 minə yaxın tələbə təhsil alırdı. Onlardan 91 min nəfərdən

çoxu dövlət ali məktəblərində dövlət hesabına təhsil alır və dövlət tərəfindən onlara təqaüd verilirdi. Dövlət ali məktəblərində 38 mindən çox tələbə ödənişli əsaslarla, özəl ali məktəbdə isə 28 mindən çox tələbə oxuyurdu. Prezident Heydər Əliyevin Fərmanı ilə 2001-ci ilin sentyabrından dövlət ali məktəblərində əlaçı tələbələr üçün Prezident təqaüdü təsis edilmişdir. Dövlət ali məktəblərində 22 min nəfərdən çox, özəl ali məktəblərində isə 5 min nəfərdən çox professor, dosent və müəllim dərs deyir.

Azərbaycan gənclərinin dünyanın qabaqcıl ali məktəblərində də təhsil almalarına xüsusi qayğı göstərilir. 2002-2003-cü tədris ilində 882 azərbaycanlı tələbə, 10-dan çox xarici ölkənin ali məktəblərində təhsil alırdı, respublikamızın ali məktəblərində isə 2100 xarici tələbə oxuyurdu.

200l-ci ildə Azərbaycan Respublikasında əhalinin təhsil səviyyəsinin durumu kifayət dərəcədə yüksək olmuşdur. Ölkə əhalisinin 2 milyon 901 min nəfəri ümumi orta, 694 min nəfəri orta ixtisas, 612 min nəfəri ali təhsilli idi. Yaşı 15-dən yuxarı hər 1000 nəfərə 908 təhsilli, o cümlədən 108 ali, 122 orta ixtisas, 511 ümumi orta və natamam orta təhsilli şəxs düşürdü.

Müstəqillik əldə etməklə bağlı keçid dövründə Azərbaycan elminin də vəziyyəti ürək açan deyildi. Vəsaitin çatışmamazlığı, ənənəvi əlaqələrin kəsilməsi, alimlərin əmək haqqının aşağı olması ilə yanaşı respublikanın o vaxtkı rəhbərliyinin Elmlər Akademiyasına qərəzli münasibəti ölkədə elmin inkişafını xeyli ləngitdi. Azərbaycan elminə həmişə hamilik etmiş Heydər Əliyevin respublikaya rəhbərliyə qayıtmasından sonra elm sahəsində mühüm dəyişikliklər baş verdi. Elmlər Akademiyasının Azərbaycan elm və mədəniyyətinin inkişafında rolu yüksəlməyə başladı. 90-cı illərin sonunda Elmlər Akademiyasının 35 elmi-tədqiqat institutuna yeniləri əlavə olundu. 1997-ci ildə Arxeologiya və Etnoqrafiya İnstitutu, Milli Münasibətlər İnstitutu, Əlyazmalar İnstitutu, İnsan Hüquqları İnstitutu, daha sonralar Folklor İnstitutu təşkil olundu. Azərbaycan alimlərinin





keçmiş sovet respublikalarının alimləri ilə əlaqələri bərpa olunmağa başladı, Türkdilli dövlətlərin elmlər akademiyaları arasında əlaqələr yarandı.

2000-ci ilin sonlarında Azərbaycan EA-da 3450 nəfərə yaxın elmi işçi çalışırdı. Elmlər Akademiyasının 31 həqiqi və 48 müxbir üzvü vardı, 2002-ci ildə isə akademiklərin sayı 60-a, müxbir üzvlərin sayı 175-ə çatdı. Akademiyada elmin müxtəlif sahələri üzrə 466 elmlər doktoru və 1665 elmlər namizədi elmi-tədqiqat işləri ilə məşğul olurdu. Prezident Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası statusu verildi. 2002-ci il avqustun 7-də AMEA-nın Naxçıvan bölməsi yaradıldı. Bölmədə Təbii Ehtiyatlar İnstitutu, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, Dil və Ədəbiyyat İnstitutu, İncəsənət İnstitutu, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası fəaliyyət göstərirdi. Respublika Prezidentinin Azərbaycan Milli Elmlər Akademiyası statusu haqqında 2003-cü il 4 yanvar tarixli Fərmanında deyilir ki, AMEA respublikada elmin inkişafını təşkil edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, respublikanın bütün elmi müəssisələrinin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətlərini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan elmini xarici ölkələrin elmi mərkəzlərində təmsil edən ali dövlət elmi təşkilatıdır.

XX əsrin sonu XXI əsrin əvvəllərində Azərbaycan elmi bir sıra önəmli uğurlar əldə etmişdir. Riyaziyyat, fizika, neft kimyası, geologiya və biologiyanın müasir sahələri üzrə yaradılmış elmi məktəblər daha da inkişaf etdirilmişdir. Azərbaycan Milli Aerokosmik Agentliyi Xüsusi Kosmik Cihazqayırma Konstruktor Bürosunda Rusiya Kosmik Tədqiqatlar İnstitutunun sifarişi ilə Yerin maqnit sahələrinə Günəş şüalarının təsirini öyrənən nadir aerokosmik cihaz yaradılmışdır. Akademik Əyyub Quliyev Günəş sistemində hələ kəşf edilməmiş 3 planetin olduğunu bildirmişdi. Azərbaycan aliminin elmi fərziyyəsi özünü doğrultmaq üzrədir. Son illər

Neptun-Pluton sistemində yeni səma cismi aşkar olunmuşdur. Kosmik tədqiqatlar sahəsində Azərbaycan Respublikasının diqqəti cəlb edən nailiyyətlərindən biri 2012-cü il fevralın 12-də kosmosa Azərbaycanın süni peykinin buraxılmasıdır. Azərbaycanın bu ilk peyki elektron rabitə sisteminin təkmilləşdirilməsinə və inkişafına xidmət edəcəkdir.

Azərbaycan geofizikləri Aşağı Kür bölgəsində beş laydan ibarət tektonik sahə kəşf etmiş və onu Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması şərəfinə "Qayıdış zolağı" adlandırmışlar. "Şahdəniz" böyük qaz ehtiyatlarının aşkar edilməsi və Azərbaycanın qərb bölgələrində yeni qızıl yataqlarının kəşfı də alimlərimizin bu dövrdə uğurlarına aiddir. AMEA Aşgarlar Kimyası İnstitutunun 2001-ci ildə apardığı elmi işlər ABŞ-ın Biznes Təşəbbüs İstiqamətləri Beynəlxalq Təşkilatının "Qızıl kateqoriya" mükafatına layiq görülmüşdür.

Müasir dövrdə Azərbaycan alimlərinin ictimai və humanitar elmlər üzrə də uğurları böyükdür. İctimai və humanitar elmlərin metedoloji əsasını ulu öndər Heydər Əliyevin bu illərdə 43-cü cildi çapdan çıxmış 45 cildlik "Müstəqilliyimiz əbədidir" adlı əsərləri külliyatı təşkil edir. Müasir dövrdə humanitar elmlərin ən önəmli nailiyyəti Prezident İlham Əliyevin sədr olduğu Baş Redaksiya Şurasının rəhbərliyi altında Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" adlı xüsusi cildinin 2007-ci ildə Azərbaycan dilində, 2012-ci ildə isə rus dilində çapdan çıxması olmuşdur. “Azərbaycan” ensiklopediyasının ingilis dilində nəşri də hazırlanır. 2002-ci ildə "Naxçıvan ensiklopediyası"nın çapı da humanitar elmlər sahəsində əlamətdar hadisələrdən biri olmuşdur. Bu dövrdə "Kitabi - Dədə Qorqud ensiklopediyası", "Üzeyir Hacıbəyli ensiklopediyası" və "Məhəmməd Füzuli ensiklopediyası" kimi dəyərli kitablar da nəşr olunmuşdur.

Azərbaycan MEA nəzdində 1997-ci ildə yaradılmış "Azərbaycan tarixi" Baş Redaksiyası Şurasının rəhbərliyi altında 1998-2003-cü illərdə çapdan çıxmış 7 cildlik





"Azərbaycan tarixi"nin nəşri tarixçi alimlərin Azərbaycan xalqına böyük töhfəsi kimi dəyərləndirilə bilər. AMEA-nın Tarix İnstitutunda "Azərbaycan XX əsrin əvvəllərində. Müstəqilliyə aparan yollar", "Azərbaycan Cümhuriyyəti. 1918-1920", "İkinci Azərbaycan Respublikasının təşkili tarixinə dair", "Azərbaycan Respublikası: əsrə bərabər illər - 1991-2001" monoqrafiyaları, Azərbaycan Milli Dövlət Tarix Muzeyində "Azərbaycanda dövlətçilik və onun rəmzləri" kitab-albom və b. dəyərli əsərlər də bu dövrdə çap olunmuşdur.

Azərbaycan etnoqraflarının uzun illər boyu apardıqları elmi tədqiqatlar müasir dövrdə öz bəhrəsini verdi. Akademik Teymur Bünyadovun baş redaktorluğu ilə 2007-2008-ci illərdə 3 cildlik "Azərbaycan etnoqrafiyası"nın akademik nəşri çapdan çıxdı. Bu illərdə arxeoloqlar "Azərbaycan arxeoloji abidələri Bankı"nı yaratdılar və "Azərbaycan arxeologiyası"nın 6 cildlik akademik nəşrini çapa hazırlayırlar.

Şərqşünas tarixçi alimlər "Ümumi türk tarixinə giriş", "Cənubi Azərbaycan tarixinin qısa oçerkləri" və "Güney Azərbaycan" kitablarını nəşr etdirmişlər. Azərbaycan filosoflarının hazırladıqları "Azərbaycan fəlsəfə tarixi"nin birinci cildi çapdan çıxmışdır. Filosof alimlərin hazırladıqları "Azərbaycan tarixi irsi və müstəqillik fəlsəfəsi" kitabında müasir cəmiyyətdə baş verən mürəkkəb proseslər dərindən təhlil edilmişdir.

XX əsrin 90-cı illərində və XXI əsrin başlanğıcında Azərbaycanın dilçi alimlərinin uğurları da böyük olmuşdur. Dilçi alimlər "Azərbaycan ədəbi dili tarixi", "Azərbaycan dilinin orfoqrafik lüğəti" və "Azərbaycan dilinin işgüzar üslubu" kimi fundamental əsərlər hazırlayıb çap etdirmişlər. Bu dövrdə nəzəri (ümumi) dilçilik sahəsində irəliləyiş daha çox diqqəti cəlb edir. Azərbaycan dilçiliyində nəzəri dilçiliyin bir elm kimi formalaşması akademik Ağamusa Axundovun və AMEA-nın müxbir üzvü Afad Qurbanovun adı ilə bağlıdır. Bu dövrdə A.Axundovun "Azərbaycan dilinin izahlı lüğəti" (2005), A.Qurbanovun 2 cildlik "Ümumi dilçilik" (2004) və 2 cildlik

"Azərbaycan onomasiologiyası" (2006) və s. kitablar çap olunmuşdur. Azərbaycan dilçilik elmində ümumi dilçilik problemlərinin tədqiqi ilə məşğul olan ən məhsuldar alim Bakı Dövlət Universitetinin professoru Əbülfəz Rəcəblinin yaradıcılığı da bu dövrə düşür. Onun dilçiliyin nəzəri məsələlərinə həsr edilmiş 5 kitabı: "Dil, şüur, cəmiyyət, tarix" (1993), "Nəzəri dilçilik" (2003), “Dilçilik metodları" (2003), "Sosiolinqvistika" (2004), “Struktur dilçilik” (2005) və “Universalilərin dilçiliyi” (2011) kitabları bu dövrün məhsuludur. Onun 2 cildlik "Dilçilik tarixi" (2006) və "Azərbaycan dilçiliyi" (2007) kitabları da ümumi dilçilik problemlərindən bəhs edir. 1993-cü ildə çap olunmuş "Orxon-Yenisey abidələri" kitabı ilə bir türkoloq alim kimi dilçilik elmində tanınmağa
başlayan Ə.Rəcəbli qısa bir tarixi dövrdə postsovet məkanında qədim türk dillərinin tədqıqilə məşğul olan ən nəhəng simaya çevrildi. O, "Göy türk dilinin leksikası" (2004), "Göy türk dilinin fonetikası" (2004), "Göy türk dilinin morfologiyası" (2002) və "Göy türk dilinin sintaksisi" (2003) adlı 4 cildlik monoqrafiyanın, 2 cildlik "Qədim türk yazılı abidələrinin dili” (2006), "Qədim türkcə-azərbaycanca lüğət" (2001), "Uyğurlar” (1996), “Ulu türklər" (2003) və b. kitabların müəllifidir. Bu böyük alimin 42 kitabından 38-i bu dövrdə çapdan çıxmışdır.

Bu dövrdə yazılmış çox dəyərli əsərlər sırasında indiki Ermənistan ərazisində yaşamış azərbaycanlıların etnik tarixinə, onların soyqırımına və deportasiyasına həsr edilmiş kitablar xüsusi yer tutur. Belə əsərlərdən akademik Cəlal Əliyev və akademik Budaq Budaqovun Azərbaycan, ingilis və rus dillərində çap olunmuş "Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı" və "Ermənistan azərbaycanlılarının tarixi coğrafıyası" kitablarının çox böyuk elmi, siyasi və tərbiyəvi əhəmiyyəti vardır.





Elm sahəsində bu dövrdə əldə edilən nailiyyətlər ölkəmizdə mədəniyyətin inkişafına, mənəvi həyatın zənginləşməsinə və iqtisadiyyatın yüksəlməsinə əlverişli zəmin yaratmışdır.

**29.2 Müstəqil Azərbaycan Respublikasında ədəbiyyat və incəsənət.** Azərbaycan ədəbiyyatı və incəsənəti müstəqilliyin əldə edilməsində önəmli ideoloji rol oynadığı kimi, müstəqillik də öz növbəsində ədəbiyyatın və incəsənətin yeni əsərlərlə zənginləşməsinə səbəb oldu.

Müstəqillik uğrunda mübarizə dövründə ədəbiyyatda Bəxtiyar Vahabzadənin "Şəhidlər", "Hara gedir bu dünya" poemaları və "Göytürklər" pyesi, Teymur Bünyadovun “Göz yaşları” romanı, “Bir qız bir oğlanındır” hekayələr toplusu, “Öpərdim gözlərindən” şeirlər toplusu, “Bilsəydim ayrılıqdır”, “... Gül açılır yaz olur”, “Anam birdir, Vətən tək”, “Xan çinarın kölgəsində” və “Başı çalmalı dağlar” adlı bayatılar kitabları, Şükür Xanlarovun “Əcəl, macal ver mənə” şeirlər toplusu, Xəlil Rzanın "Davam edir 37..." şeirlər toplusu, Nəriman Həsənzadənin "Pompeyin Qafqaza hücumu", Sabir Rüstəmxanlının "Ömür kitabı", İsmayıl Şıxlının" Ölən dünyam" və "Saplağı özümüzdəndir", İlyas Əfəndiyevin "Hökmdar və qızı", Anarın "Otel otağı", Elçinin "Ah, Paris, Paris!", İsa Hüseynovun "Cəhənnəm", Vidadi Babanlının "Ana intiqamı", İsi Məlikzadənin "Qırmızı şeytan", Aqşin Babayevin "Dünyanın axırı", Arif Abdullazadənin "Qanlı yaddaş", Əli Əmirlinin "Meydan", Məmməd Orucun "Köçürmə" adlı kitabları, habelə Hüseynbala Mirələmov, Ağarəhim Rəhimov və Kamal Abdullanın pyes və romanları bu dövrün hadisələrini, xalqın yaxın tarixinin, sevinc və kədərini realist səhnələrini əks etdirirlər. Detektiv roman ustası Çingiz Abdullayevin əsərləri bütün dünyada maraqla oxunurdu. Məmməd Araz, Nəbi Xəzri, Cabir Novruz, Qabil, Fikrət Qoca, Söhrab Tahir, Mirhaşım Talışlı, Vaqif Səmədoğlu və Ramiz Rövşənin şeirləri dərin məzmunu və lirikası ilə seçilirlər.

1997-ci il noyabrın 10-da Prezident Heydər Əliyev "Azərbaycan Respublikasında ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında", 2002-ci il iyunun 11-də "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin təsis edilməsi haqqında" fərmanlar verdi. Qocaman ədəbiyyat və incəsənət xadimləri, gənc istedadlı yazıçı və şairlər üçün fərdi təqaüdlər, elm, maarif, mədəniyyət, incəsənət və digər sahələrdə xüsusi xidməti olmuş 150 nəfərə Prezident təqaüdü təyin edildi.

Müstəqillik dövründə respublikada Milli Akademik Dram Teatrı, Milli Opera və Balet Teatrı, Musiqili Komediya Teatrı, Rus Dram Teatrı, Dövlət Gənclər Teatrı ilə bərabər yeni Bakı Bələdiyyə Teatrı, Tənqid-Təbliğ Teatrı, Yuq Teatrı, Pantomim Teatrı və Bakı Kamera Teatrı fəaliyyət göstərməyə başladı. Bu dövrdə Fəraim Fərzəlibəyov, Azərpaşa Nemətov və Hüseynağa Atakişiyev kimi istedadlı rejissorlar Adil İskəndərov və Tofiq Kazımovun rejissorluq məktəblərinin ən yaxşı ənənələrini davam və inkişaf etdirirlər.

XX əsrin sonu XXI əsrin başlanğıcında Azərbaycan musiqi sənəti yeni əsərlərlə zənginləşdi. 1991-ci ildə Fikrət Əmirovun "Nizami" baleti, 1996-cı ildə Süleyman Ələskərovun "Solğun çiçəklər" operası tamaşaya qoyuldu. Arif Məlikov 7-ci simfoniyasını yazdı. Bu simfoniyanın səslənməsi üçün Türkiyədə İnsan Doğramacı tərəfindən xüsusi konsert salonu inşa olunmuşdur. Bəstəkar Cövdət Hacıyevin "Onu zaman seçib" adlı 8-ci simfoniyası və bəstəkar Sərdar Cəfərovun "Böyük vətəndaş haqqında" odası ulu öndər Heydər Əliyevə həsr olunmuşdur. Bəstəkar Vasif Adıgözəlovun "Qarabağ" və "Çanaqqala" oratoriyaları respublikanın musiqi həyatında əlamətdar hadisələrdən biri olmuşdur. Bu dövrdə Azərbaycan musiqisində hərbi mövzuya diqqət yetirilir. Süleyman Ələskərovun "Əsgər marşı", Cavanşir Quliyevin "Əsgər marşı" və başqa əsgər mahnıları dillər əzbəri olub gəncləri qələbəyə inam ruhunda tərbiyə edir.





Müstəqillik illərində musiqi ifaçılığı sənəti də inkişaf etməkdə və geniş təbliğ olunmaqdadır. Lütfiyar İmanov, Fidan və Xuraman Qasımova bacılarının bənzərsiz ifaçılıq sənəti yeni zirvələr fəth etdi. Görkəmli vokal ustaları Lütfiyar İmanov və Xuraman Qasımova Türkiyə musiqi təhsili müəssisələrində dərs deməyə dəvət olunurdular.

Muğam və xalq mahnıları ifaçılarının ənənəvi müsabiqələri keçirilirdi. 1997-ci ildə Bakıda vokalçıların Bülbül adına Birinci Beynəlxalq Müsabiqəsi keçirildi. Azərbaycanın musiqi kollektivləri və görkəmli müğənnilər Zeynəb Xanlarova, Alim Qasımov, Səkinə İsmayılova, pianoçu Əzizə Mustafazadə xarici ölkələrə qastrola dəvət olunur, Azərbaycan musiqisini Fransa, İtaliya, Türkiyə, Rusiya, Almaniya, İngiltərə. İsveç, ABŞ, Kanada, Çin, İraq, İsrail və dünyanın başqa ölkələrində ləyaqətlə təmsil və təbliğ edirdilər. 2000-ci ildə Alim Qasımov Avropada diskləri ən çox satılan 5 nəfərdər biri olmuşdur. O, 2012-ci ildə ifaçılıq fəaliyyətinə görə Azərbaycan Respublikasının “Elm, mədəniyyət və ədəbiyyat üzrə” dövlət mükafatına layiq görülmüşdür.

2000-ci ilin noyabrında Moskvada "Şən və Hazırcavablar" klublarının beynəlxalq yarışında Azərbaycanın "Bakılı oğlanlar" klubu XX əsrin ən yaxşı komandası adına və "XX əsr Çempionları Kuboku"na layiq görülmüşdür.

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2010-cu ildən başlayaraq hər il keçirilən ənənəvi Qəbələ Beynəlxalq Musiqi Festivalı Azərbaycanı dünyanın musiqi mərkəzlərindən biri kimi tanıtmaqda mühüm rol oynayır.

Azərbaycanın gənc müğənniləri 2008-ci ildən «Yevrovijn» beynəlxalq musiqi festivalında iştirak edirlər. Azərbaycan nümayəndələri «Yevrovijn» beynəlxalq musiqi fenstivalında birinci il səkkizinci yeri tutdularsa da, 2010-cu ildə ikinci yerə çıxdılar, 2011-ci ildə isə gənc müğənnilərimizdən Nigar Camal və Elmar Qasımov «Yevrovijn» beynəlxalq musiqi

festivalında birinci yeri tutaraq Azərbaycanın musiqi şöhrətini Avropada bir daha yüksəyə qaldırdılar. Bu qələbə Azərbaycana növbəti ildə «Yevrovijn» beynəlxalq musiqi festivalına ev sahibliyi etmək hüququ verdi. 2012-ci ildə Bakıda yüksək səviyyədə keçirilən «Yevrovijn» beynəlxalq musiqi festivalı Azərbaycan xalqının belə beynəlxalq tədbirləri keçirməyə qabil olduğunu nümayiş etdirdi.

Müstəqillik uğrunda mübarizə illərində özəl kinostudiya-lar təşəkkül tapdı. Lakin onların maddi-texniki bazası çox zəif idi. Ona görə də "Azərbaycanfilm" kinostudiyası 1994-cü ildə yenidən dövlət tərəfindən maliyyələşdirilməyə keçirildi. Müstəqillik əldə edildikdən sonra Azərbaycan kinomatoqrafçıları "Əhli-kef", "Fransız", "Hər şey yaxşı olacaq", "Yaramaz", "Həm ziyarət, həm ticarət", "Yer ilə göy arasında", "Uçurulmuş körpü", "Özgə vaxtı" və b. bədii filmlər yaratmışlar. Rejissor Ə.Əblüçun çəkdiyi "Ağ atlı" və rejissor C.Mirzəyevin çəkdiyi "Fəryad" filmlərində Qarabağ müharibəsi, erməni vəhşilikləri və qaçqınlıq həyatının dəhşətləri kimi təsirli və realist hadisələr kinolentə alınmışdır. Rejissor Vaqif Mustafayevin yaratdığı "General", "Birinci", "Moskva-Kreml", "Lider", "Tale", "Əsl məhəbbət haqqında" və "Bir həsədin tarixi" sənədli filmlərdə fenomen şəxsiyyət olan ulu öndər Heydər Əliyevin ömür yolundan bəhs olunur. Azərbaycan kinematoqrafının ən populyar əsəri «Xocalı» filmi hesab edilir. Vahid Mustafayev tərəfindən çəkilmiş bu film Qarabağ həqiqətlərindən bəhs edir, Xocalı faciəsi haqqında canlı təsəvvür yaradır. Film dünyanın əksər ölkələrində nümayiş etdirilmişdir.

Müstəqillik illərində Azərbaycan tətbiqi sənəti sahəsində də müəyyən diqqətəlayiq işlər görülmüşdür. Şəhərlərdə meydanlar və parklar yenidən qurulmuş, yeni abidələr qoyulmuşdur. Dağüstü parkda Şəhidlər Xiyabanı salındı. Prezident Heydər Əliyevin təşəbbüsü ilə Şəhidlər Xiyabanında 21 metr hündürlüyündə möhtəşəm bir abidə ucaldıldı. Bakıda 1994-cü ildə Hüseyn Cavidin (heykəltəraş Ö.Eldarov), 1993-cü ildə Şah





İsmayıl Xətainin (heykəltəraşlar İ.Zeynalov və Z.Mehdiyev), 1998-ci ildə akademik Yusif Məmmədəliyevin (heykəltəraş A.Ələskərov), Xızıda 1999-cu ildə C.Cabbarlının (heykəltəraş C.Qaryağdı) və Bakıda 1997-ci ildə akademik Zərifə Əliyevanın xatirəsinə həsr edilmiş "Elegiya" abidəsi (heykəltəraş Ö.Eldarov) qoyuldu. 1912-ci ildə Bakıda xalq qəhrəmanı Koroğluya həsr olunmuş abidə xalqın azadlıq hərəkatları simvoluna çevrilmişdir. 1996-cı ildə Naxçıvanda Hüseyn Cavidin möhtəşəm məqbərəsi (müəlliflər Ö.Eldarov və R.Əliyev) tikildi. Bakıda tikilmiş Heydər Əliyev Mərkəzi Azərbaycan memarlığının ən gözəl nümunəsidir. Bakıda tikilmiş "Xalça" və "Muğam" muzeyləri şəhəri bəzəyir.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə ölkənin paytaxtı Bakıda Dövlət Bayrağı meydanı yaradıldı. Meydanda ucaldılan Azərbaycan Respublikasının bayraq dirəyinin hündürlüyü 162 metrdir. Bu dünyada ən hündür bayraqdır. Meydanda tikilmiş muzeydə həmin bayrağın dünyada ən uca bayraq olmasını təsdiq edən seltifikat ilə birlikdə Azərbaycanın vaxtilə kiçik feodal dövlətləri olmuş Azərbaycan xanlıqlarının bərpa olunmuş dövlət bayraqları da nümayiş etdirilir.

Bu illərdə Azərbaycanın təsviri sənət ustaları gözəl rəsm əsərləri yaratdılar. Azərbaycanın fırça ustalarının əsərləri dünyanın sərgi salonlarında böyük uğurla nümayiş etdirildi. Səttar Bəhlulzadənin rəsm əsərləri sərgisi 1995-ci ildə ABŞ-da, 1996-cı ildə Almaniyada təşkil olunmuşdur. 1996-cı ildə Parisdə dünya rəssamlarının sərgisində Toğrul Nərimanbəyovun, 1997-ci ildə Vaşinqton, Nyu-York və Çikaqo sərgilərində Kamil Nəsibzadənin rəsm əsərləri nümayiş etdirilmişdir.

Xalça rəssamı Kamil Əliyevin Mustafa Kamal Atatürk və Heydər Əliyevin portretləri toxunmuş xalçalarında Azərbaycan xalçaçılıq sənətinin ən yaxşı ənənələri yaradıcılıqla inkişaf etdirilmişdir. Xalça rəssamı Tahir Məcidovun Heydər Əliyevə həsr etdiyi "Qayıdış" xalçası yüksək sənətkarlığı ilə diqqəti cəlb

edir. 1996-cı ildə Brüsseldə rəssam E.Mikayılovun misilsiz gözəlliyə malik xalçaları müvəffəqiyyətlə nümayiş etdirilmişdir.

Azərbaycanın fırça ustaları bu illərdə tez-tez müharibə, qəhrəmanlıq, vətənpərvərlik mövzularına müraciət edirdilər. C.Qasımovun, F.Hüseynovun və K.Əlizadənin plakatlarında xalq birliyə, düşmənə qarşı döyüşdə amansız olmağa və qələbə uğrunda mübarizəyə çağırılırdı.

Beləliklə, müstəqilliyin ilk illərində Qarabağ müharibəsinin vurduğu ziyanlara, ermənilər tərəfindən minlərlə mədəniyyət abidələrinin məhv edilməsinə, postsovet məkanında xarici ölkələrlə mədəni əlaqələrin zəifləməsinə, maddi və maliyyə vəsaitinin çatışmazlığına baxmayaraq, Azərbaycan Respublikasının mədəniyyəti özünə inamı və kökünə bağlılığı nəticəsində çətinlikləri aradan qaldıraraq tərəqqi yollarında irəliləyirdi.

**Ədəbiyyat**:


1. Azərbaycan tarixi. 7 cilddə, 7-ci cild, s. 442-484.
2. H.Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında. - "Dirçəliş", 2001, 1-2.
3. H.Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. (Nitqlər, məruzələr, çıxışlar). Bakı, 1999.
4. H.Əliyev. Mədəni irsimizin keşiyində. I-II kitablar, Bakı, 2001.
5. R.Əliyev. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı, 1980.
6. Azərbaycan kino tarixinin oçerkləri. Bakı 2001.
7. F.Maqsudov. Heydər Əliyev və Azərbaycan elmi. Bakı, 1998.
8. İ.Rəhimli. Azərbaycan teatr tarixi. Bakı, 2005.






# NƏTİCƏ

Azərbaycan dünyanın ən qədim insan məskənlərindən biridir. Tarixə məlum olan qədim insan tipləri sırasında pitekantropdan sonra dünyada ikinci olan azıxantrop tipinin insanları 400 min il bundan əvvəl Azərbaycan ərazisində yaşamışlar.

Qaynaqlarda e.ə. IV minillikdən başlayaraq Azərbaycan ərazisirndə müxtəlif etnosların yaşaması haqqında məlumat vardır. Qədim zamanlarda şimallı-cənublu Azərbaycan ərazisində hurri, lullu, kuti, turukki, mana, səbai, mada, kadusi, kaspi (kas), mard, oğuz (işquz, aşquz, yaxud skif), alban, sak, savdey, qarqar, gel, leq, kax, saxur və başqa soyların yaşamaları haqqında məlumat vardır. Xalqımızın əcdadları olan bu soyların bir hissəsi Türk dilləri ailəsinə, bir hissəsi Hind-Avropa dilləri ailəsinə, bir hissəsi isə Qafqaz dilləri ailəsinə mənsub etnoslar olmuşlar. Son illərin tədqiqatları nəticəsində müəyyən edilmişdir ki, bu etnoslar yerli soylar olmuşlar, qədim zamanlardan bəri ölkəmizinq ərazisində birgə yaşamış və qaynayıb-qarışaraq Azərbaycan xalqının təşəkkülü prosesində iştirak etmişlər.

Azərbaycan xalqının qədim dövlətçilik ənənələri olmuşdur. Azərbaycan dövlətçiliyinin 5 minillik tarixi vardır. Hələ e.ə. IV minillikdə Cənubi Azərbaycanın Zaqros dağlıq bölgəsində yaşayan türkdilli soylardan, ehtimal ki, kutilərin sosial təbəqəsi olan sümərlər (hərbçilər) Mesopotamiya məskunlaşdırılan zaman oraya gedərək ilk şəhər dövlətlərindən biri olan Uruk şəhərini salmışlar. Hökmdar en Merkarın dövründə Uruk şəhəri Cənubi Mesopotamiyanın digər şəhərlərini özünə tabe edərək qüdrətli Sümər dövlətini yaratmışdır. Görkəmli şərqşünas, böyük amerikan alimi Samuel

Kramer Sümər dövlətini (rus dilli ədəbiyyatda "Sumer" adlandırılır) dünyanın ilk dövləti hesab edilir. Azərbaycan xalqı fəxr edə bitlər ki, dünyanın ilk dövlətini onun əcdadları yaratmışlar.

Dövlətçilik ənənələrimizin belə qədimdən başlanmasıın nəticəsidir ki, böyük tarixi dövrdə Azərbaycan ərazisində 41 dövlət mövcud olmuşdur. Azərbaycan xalqı qədim dövrdə Aratta, Lullubi, Kuti, Mana, Oğuz (Skif), Mada, Atropaten və Alban dövlətlərini yaratmışdır. Orta əsrlərdə Azərbaycanın dövlətçilik tarixi daha zəngin olmuşdur. Orta
əsrlərin müxtəlif dövrlərində Azərbaycan ərazisində Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər, Elxanilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Quba xanlığı, Şəki xanlığı, Talış xanlığı, Dərbənd xanlığı, Bakı xanlığı, Qarabağ xanlığı, Şamaxı xanlığı, Naxçıvan xanlığı, Gəncə xanlığı, İrəvan xanlığı, Cavad xanlığı, Salyan xanlığı, Təbriz xanlığı, Ərdəbil xanlığı, Qaradağ xanlığı, Marağa xanlığı, Urmu xanlığı, Maku xanlığı və Xoy xanlığı kimi dövlətlər mövcud olmuşdur. XX əsrdə müsəlman Şərqinin və Türk dünyasının ilk demokratik respublikası olan Azərbaycan Cümhuriyyətinin yaranması ilə Azərbaycan dövlətçiliyi bərpa edilmişdir. Tarixin ən yeni dövründə Azərbaycan Sovet Respublikası və Naxçıvan Sovet Respublikasının yaranması ilə dövlətçilik tariximiz davam etmişdir. Bu dövlətlər Sovet İttifaqı imperiyasının tərkibinə daxil edildikdən sonra Azərbaycan dövlətçilik tarixi faktiki olaraq dayanmışdır.

Azərbaycan xalqı çoxəsrli tarixi dövrdə öz dövlət müstəqilliyini faktiki olaraq itirmiş və müxtəlif zamanlarda Haxamanişilər imperiyası, Makedoniyalı Aleksandırn imperiyası, Sasanilər imperiyası, İraq Türk Səlcuq Sultanlığı, Hülaku imperiyası, Əmir Teymurun imperiyası, Rusiya imperiyası, iran və Sovet İttifaqı kimi fövqəldövlətlərin tərkibində yaşamağa məcbur olmuşdur. Azərbaycan dövlətləri qədim və orta əsrlərdə 3 dəfə başqa dövlətləri özünə tabe edə





bilmiş və Mada, Ağqoyunlu və Səfəvilər dövlətləri kimi imperiyalar yarada bilmişlər.

XX əsrin sonunda müstəqil Azərbaycan Respublikasının yaradılması ilə xalqımızın dövlətçilik tarixi, dövlətçilik ənənəsi bərpa edilmişdir. Azərbaycan Respublikası yenilməzdir, uğurla inkişaf edir və əbədi olacaqdır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi və əbədi edilməsində böyük dövlət xadimi, görkəmli siyasətçi Heydər Əliyevin misilsiz xidməti olmuşdur.

Azərbaycan bütün Türk dünyasında və müsəlman Şərqində ilk respublika tipli dövlət qurduğu kimi, müsəlman Şərqində ilk respublika tipli dövlət konstitusiyası da 1921-ci il mayın 19-da qəbul edilmiş Azərbaycanın birinci Konstitusiyası olmuşdur.

Azərbaycanın müstəqillik uğrunda mübarizə tarixində Cavanşir, Babək, Şəmsəddin Eldəgəz, Məhəmməd Cahan Pəhləvan, Uzun Həsən, Şah İsmayıl, Cavad xan, Səttarxan, Məmmədəmin Rəsulzadə, Fətəlixan Xoyski, Nəriman Nərimanov, Mircəfər Bağırov, İman Mustafayev və b. görkəmli şəxsiyyətlərin böyük xidmətləri olmuşdur.

Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsində ulu öndərimiz Heydər Əliyevin isə xüsusi yeri vardır. Onun fenominal dühası və yorulmaq bilməyən fəaliyyəti nəticəsində Azərbaycan Respublikası tanınmış dövlətə çevrildi və dünya dövlətləri sırasında öz layiqli yerini tutdu. Hazırda onun işini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. İlzam Əliyevin fəaliyyəti sayəsində Azərbaycan Respublikası müasir dövrdə dünyada iqtisadi cəhətən ən sürətlə inkişaf edən bir dövlətə çevrilmişdir. Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsidir ki, Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Müxtəlif beynəlxalq ictimai təşkilatlar Prezident İlham Əliyevin daxili və xarici siyasətini

yüksək qiymətləndirərək onu "İlin adamı" və "İlin dövlət xadimi" fəxri adlarına layiq görülmüşlər.

Müasir dövrdə Azərbaycan Respublikası dünya dövlətləri arasınlda öz dəsti-xətti ilə tanınır və iqtisadi tərəqqi ilə yanaşı beynəlxalq səviyyədə dünya xalqlarının mədəniyyətlərinin əlaqələndirilməsi işində fəal iştirak edir. Azərbaycan xalqı əsrlər boyu dünya xalqlarının mədəniyyətlərinə verdiyi qiymətli töhfələri ilə bəşər mədəniyyətini zənginləşdirmişdir. Müasir dövrdə Azərbaycan Respublikası Heydər Əliyev Fondunun dəstəyi ilə Şərq və Qərb mədəniyyətlərinin əlaqələndirilməsi, dünya xalqları arasında mədəni əlaqələrin inkişaf etdirilməsi sahəsində aparıcı rol oynayır. Bu işdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri böyükdür.

Zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya poeziyasına Nizami, Nəsimi və Füzuli kimi dahi şairlər vermişdir. Yeni dövrdə Vaqif, Sabir, Hüseyn Cavid, Səməd Vurğun kimi istedadlı şairlər öz sələflərinin ənənələrini davam etdərərək Azərbaycan poeziyasını yeni zirvələrə yüksəltmişlər. Azərbaycan mədəniyyətinin inkişafında qadın şairlər də mühüm rol oynamışlar. Azərbaycan hələ XII əsrdə bəşəriyyətə Məshəti Gəncəvi kimi görkəmli qadın şair vermişdir. XIX əsrdə azərbaycanlı qadın Xurşidbanu Natəvan istedadlı şair və rəssam kimi tanınmışdı. Azərbaycanda qadınların cəmiyyətin həyatında tarix boyu fəal iştirakının nəticəsidir ki, hələ 1918-ci ildə Azərbaycanda, hətta ABŞ və Kanada kimi demokratik ölkələrdən öncə, qadınlar seçki hüququ qazanmışlar.

Azərbaycan ədəbiyyatı tarixində Mirzə Fətəli Axundzadənin xüsusi yeri vardır. O, yazdığı dram əsərləri ilə bütün Türk dünyasında və müsəlman Şərqində dramaturgiya janrının əsasını qoymuşdur. M.F.Axundzadənin "Lənkəran xanının vəziri" dramının 1873-cü ildə Bakıda tamaşaya qoyulması isə bütün Türk dünyasında və müsəlman Şərqində





ilk teatr tamaşası hesab edilir. XX əsrdə Axundzadə ənənələrini davam etdərərək Hüseyn Cavid və Cəfər Cabbarlı Azərbaycan dramaturgiyasını yüksək zirvəyə qaldırmışlar. Təsadüfi deyil ki, bütün şərqdə ilk teatr texnikumu 1923-cü ildə Bakıda açılmışdır.

Bütün Türk dünyasında və müsəlman Şərqində professional musinqi sənətinin yaranması da Azərbaycanla bağlıdır. Dünyanın ən böyük bəstəkarlarından biri olan dahi Üzeyir Hacıbəyli tərəfindən yazılmış və 1908-ci il yanvarın 12-də bakıda tamaşaya qoyulmuş "Leyli və Məcnun" operası bütün Türk dünyasında və müsəlman Şərqində ilk opera musiqisi hesab edilir. 1940-ci ildə isə bəstəkar Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baleti ilə bütün Türk dünyasında və müsəlman Şərqində ilk balet səhnəsinin əsası qoyulmuşdur. 1921-ci ildə Bakıda açılmış Azərbaycan Konservatoriyası da bütün müsəlman Şərqində ilk musiqi akademiyası hesab edilir.

Müasir dövrdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanın bir çox şəhərlərində, o cümlədən Bakı, Naxçıvan Gəncə, Şəki və Qəbələdə təşkil edilən beynəlxalq musiqi festivalları, rəssamlıq sərgiləri və b. tədbirlər sübut edir ki, Azərbaycpan xalqı bütün Türk dünyasının tarixən mədəni lideri olmuş və hazırda da lider rolunu yerinə yetirməkdə davam edir.

## Kitabın içindəkilər:

**Giriş** .......................................................................... .3
**I FƏSIL.** Azərbaycan ərazisində ibtidai cəmiyyət ........... 14
1.1. Azərbaycan ərazisində Daş dövrü.............................. 14
1.2. Azərbaycanda Eneolit dövrü, Erkən və Orta Tunc dövrü mədəniyyəti........................................................... 17
1.3. Azərbaycanda Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətləri. İbtidai icma quruluşunun dağılması......... 19

**II FƏSIL**. Azərbaycan ərazisində ən qədim dövlətlər ...... 22
2.1. Azərbaycan ərazisində yaşayan qədim soylar............ 22
2.2. Azərbaycan ərazisində erkən dövlət qurumları........... 25
2.3. Mana və Oğuz (Skif) dövlətləri ................................ 27

**III FƏSIL**. Azərbaycan Ön Asiyanın fövqəldövlətlərinin tərkibində ........................................................................ 32
3.1. Azərbaycan Mada imperiyasının tərkibində .............. 32
3.2. Azərbaycan Haxamanişilər Madası fövqəldövlətinin tərkibində .............................................. 36
3.3. Azərbaycan Makedoniyalı Aleksandrın (İskəndərin) imperiyasının tərkibində.............................. 38

**IV FƏSIL.** Atropaten dövləti ........................................... 42
4.1.Atropaten dövlətinin yaranması. «Atropaten» dövlət və «Azərbaycan» ölkə adlarının mənşəyi haqqında 42
4.2. Atropaten ellinist dövlətləri sistemində. Atropaten-Parfiya-Roma münasibətləri ............................ 46
4.3. Atropatenin təsərrüfat və mədəniyyəti....................... 53

**V FƏSIL.** Alban dövləti .................................................. 60
5.1. Alban dövlətinin yaranması və sərhədləri.................. 60





5.2. Albaniya əhalisinin etnik tərkibi ................................ 64
5.3. Albaniyanın təsərrüfat həyatı və ictimai münasibətləri........................................................ 67

**VI FƏSIL.** Azərbaycanda xristianlığın yayılması............ 72
6.1. Azərbaycanda xristianlığın yayılmasının birinci mərhələsi............................................................. 72
6.2. Azərbaycanda xristianlığın yayılmasının ikinci mərhələsi və Alban kilsəsinin yaranması................ 78
6.3. Alban xristian kilsəsinin inkişafı və tənəzzülü .......... 86

**VII FƏSIL.** Azərbaycan xalqının İslamı qəbul etməsi ..... 93
7.1. Azərbaycan Sasanilər imperiyasının tərkibində......... 93
7.2. Azərbaycanın Xilafət tərəfindən işğalı ...................... 96
7.3. Azərbaycan xalqının müsəlmanlığı qəbul etməsi ....... 101

**VIII FƏSIL**. Babəkin başçılığı altında Azərbaycan xalqının azadlıq müharibəsi ............................................. 105
8.1. Xürrəmilər hərəkatı .................................................. 105
8.2. Babəkin başçılığı altında Azərbaycan xalqının azadlıq müharibəsi .......................................................... 107
8.3. Xürrəmilər hərəkatının tarixi əhəmiyyəti................... 113

**IX FƏSIL**. IX-XI əsrlərdə Azərbaycanın müstəqil feodal dövlətləri................................................ 115
9.1. Şirvanşahlar dövləti................................................... 115
9.2. Sacilər dövləti .......................................................... 119
9.3. Salarilər dövləti ........................................................ 121
9.4. Rəvvadilər dövləti .................................................... 124
9.5. Şəddadilər dövləti ..................................................... 105

**X FƏSIL**. Azərbaycan Atabəylər dövləti ......................... 134
10.1. Səlcuq oğuz türkləri və onların Azərbaycana gəlmələri..................................................................... 134

10.2. Azərbaycan İraq Türk Səlcuq Sultanlığının tərkibində ........ 139
10.3. Eldəgəzlərin Atabəylər dövləti ........ 148

**XI FƏSIL.** Azərbaycan XIII-XV əsrlərdə ........ 158
11.1. Monqolların və Cəlaləddinin Azərbaycana yürüşləri və Azərbaycan Atabəylər dövlətinin süqutu ........ 158
11.2. Azərbaycan Elxanilər dövlətinin tərkibində ........ 161
11.3. Şirvanşahlar (Dərbəndilər) dövləti ........ 164
11.4. Qaraqoyunlu dövləti ........ 165
11.5. Ağqoyunlu dövləti ........ 167

**XII FƏSIL.** Azərbaycan Səfəvilər dövləti ........ 173
12.1. Səfəvilərin Ərdəbil hakimiyyəti ........ 173
12.2. Azərbaycan Səfəvilər dövlətinin yaranması və genişlənməsi ........ 179
12.3. Səfəvi-Osmanlı müharibələri. Azərbaycan Səfəvilər dövlətinin zəifləməsi və tənəzzülü ........ 188

**XIII FƏSIL.** Azərbaycan xanlıqları ........ 196
13.1. Səfəvilər dövlətinin süqutu və Azərbaycan ərazisində xanlıqlar adlı kiçik feodal dövlətlərinin yaranması ........ 196
13.2. Şimali Azərbaycanın əsas xanlıqları ........ 201
13.3. Xanlıqlar dövründə Azərbaycanın ictimai-iqtisadi həyatı ........ 212

**XIV FƏSIL.** Orta əsrlər Azərbaycan mədəniyyəti ........ 216
14.1. XI-XVIII əsrlərdə Azərbaycanda maarif, elm və fəlsəfə ........ 216
14.2. Orta əsrlər Azərbaycan ədəbiyyatı ........ 223
14.3. XI-XVIII əsrlərdə Azərbaycanda incəsənət və memarlıq ........ 231





**XV FƏSIL.** Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi ........ 240
15.1. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başlanması. Gülüstan müqaviləsi ........ 240
15.2. Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi. Türkmənçay müqaviləsi ........ 244
15.3. Ermənilərin Cənubi Azərbaycan xanlıqlarından köçürülüb İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının torpaqlarında yerləşdirilməsi ........ 247
15.4. İstiladan sonra Şimali Azərbaycanın inzibati-ərazi və idarə sistemi. Çarizmin müstəmləkəçilik siyasətinə qarşı xalq üsyanları ........ 249

**XVI FƏSIL.** Şimali Azərbaycanda kapitalizmin təşəkkülü və inkişafı ........ 253
16.1. XIX əsrdə Şimali Azərbaycanda əmtəə-ticarət təsərrüfatlarının inkişaf edib əmtəə-kapitalist təsərrüfatlarına çevrilməsi və kapitalizm genezisi ........ 253
16.2. Şimali Azərbaycanda ilk iri sənaye müəssisələrinin yaradılması ........ 261
16.3. Şimali Azərbaycanın milli sərvətlərinin istismarının başlanması və milli burjuaziyanın təşəkkülü ........ 265

**XVII FƏSIL.** XX əsrin əvvəllərində Şimali Azərbaycanda sosial-siyasi durum ........ 271
17.1. Bakı proletariatının 1904-ci il Dekabr tətili ........ 271
17.2. 1917-ci il Rusiya inqilablarından sonra Azərbaycanda ictimai-siyasi həyat və Bakı Sovetinin hakimiyyəti ələ alması ........ 274
17.3. Bakıda azərbaycanlıların 1918-ci il Mart soyqırımı . 281
17.4. Bakı XKS və onun ermənipərəst, antiazərbaycan siyasəti ........ 285

**XVIII FƏSIL**. XX əsrin əvvəllərində Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı ................................ 288
18.1. Səttarxan hərəkatı.................................................... 288
18.2. Cənubi Azərbaycanda 1917-1920-ci illərdə demokratik və milli-azadlıq hərəkatının genişlənməsi ...... 292
18.3. Təbriz üsyanı və Azərbaycan (Azadistan) Milli hökuməti................................................................ 294
18.4. Cənubi Azərbaycanda 1917-1920-ci illər milli-azadlıq hərəkatının tarixi əhəmiyyəti....................... 296

**XIX FƏSIL**. Azərbaycan Cümhuriyyəti.......................... 298
19.1. Azərbaycan Cümhuriyyətinin yaranması................. 298
19.2. Azərbaycan Cümhuriyyətinin daxili və xarici siyasəti................................................................... 306
19.3. Azərbaycan Cümhuriyyətində mədəni quruculuq..... 317
19.4. Azərbaycan Cümhuriyyətinin tarixi əhəmiyyəti....... 318

**XX FƏSIL**. Şimali Azərbaycanda XIX-XX əsrin əvvəllərində mədəniyyət .................................................. 321
20.1. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda təhsil və elm ............................................. 321
20.2. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda ədəbiyyat .................................................. 331
20.3. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Şimali Azərbaycanda mədəni-maarif işi və mətbuat ......... 337
20.4. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda teatr, incəsənət və memarlıq..................... 340

**XXI FƏSIL**. Azərbaycan SSR XX əsrin 20-30-cu illərdə 350
21.1. Azərbaycan SSR-in yaraması və Azərbaycanın ilk Konstitusiyasının qəbulu............................................ 350
21.2. Azərbaycan SSR-də sosializm quruculuğu prosesi... 354
21.3. Azərbaycan SSR-də inzibati-amirlik sisteminin acı nəticələri və kütləvi-siyasi repressiyalar ..................... 362





**XXII FƏSIL.** Azərbaycan İkinci Dünya müharibəsi illərində ........................................................................ 366
22.1. Azərbaycan döyüşçülərinin İkinci Dünya müharibəsi cəbhələrində fərdi və kütləvi qəhrəmanlıqları. 366
22.2. Azərbaycanın mərd oğullarının partizan hərəkatında və Avropada antifaşist Müqavimət hərəkatında iştirakı......................................................... 371
22.3. Azərbaycan mühacirləri müharibə illərində............. 379
22.4. Azərbaycan zəhmətkeşlərinin, elm və mədəniyyət xidmətlərinin arxa cəbhədə fədakarlığı. Bakı neftinin faşist Almaniyası üzərində qələbədə rolu .... 380

**XXIII FƏSIL**. Azərbaycan SSR İkinci Dünya müharibəsindən sonrakı quruculuq illərində..................... 386
23.1. Müharibədən sonrakı ilk illərdə Azərbaycan SSR-də yeni sənaye mərkəzlərinin yaradılması................ 386
23.2. Müharibədən sonrakı illərdə siyasi rejimin mülayimləşdirilməsi şəraitində Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında dəyişikliklər.............. 390
23.3. XX əsrin 60-cı illərinin sonu – 80-ci illərinin əvvəllərində Azərbaycan SSR-də rəhbərliyin möhkəmləndirilməsi və respublikada yeni mütərəqqi sənaye sahələrinin yaradılması, iqtisadi və sosial yüksəliş.............................................................. 392

**XXIV FƏSIL**. Cənubi Azərbaycan İkinci Dünya müharibəsindən sonrakı illərdə........................................ 397
24.1. 1941-1945-ci illərdə Cənubi Azərbaycanda siyasi durum ............................................................................. 397
24.2. Cənubi Azərbaycan Milli hökumətinin yaranması və fəaliyyəti.................................................................... 402

24.3. Milli hökumətin fəaliyyəti dövründə Cənubi və Şimali Azərbaycan əhalisinin bir-birinə yenidən yaxınlaşmasının təməlinin qoyulması və onun İran İslam inqilabından sonrakı illərdə milli hərəkata təsiri.................................... 410

**XXV FƏSIL**. Sovet Azərbaycanın mədəniyyəti ............... 418
25.1. Sovet Azərbaycanda təhsil və elm ............................ 418
25.2. Azərbaycan sovet ədəbiyyatı .................................... 427
25.3. Sovet Azərbaycanda incəsənət................................. 432
25.4. Azərbaycan SSR-də XX əsrin ortaları və ikinci Yarısında mədəni-maarif işi və KİV.................................. 443

**XXVI FƏSIL**. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ...................................................... 448
26.1. "Yenidənqurma" siyasəti və Azərbaycanda uydurma «Dağlıq Qarabağ problemi»................................ 448
26.2. Azərbaycanda öz torpaqlarını qorumaq və milli müstəqillik uğrunda xalq hərəkatının başlanması 1990-cı il Qanlı Yanvar hadisələrindən sonra Azərbaycanda siyasi durum ...................................................................... 455
26.3. SSRİ-nin süqutu və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası........................................... 464

**XXVII FƏSIL**. Qarabağ müharibəsi və Azərbaycan Respublikasında sosial-siyasi durum ................................ 467
27.1. Elan olunmamış Qarabağ müharibəsinin başlanması və Xocalı soyqırımı........................................................... 467
27.2. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi və onun uğursuz daxili və xarici siyasəti.............. 471
27.3. Azərbaycanın dövlət müstəqilliyi üçün təhlükəli vəziyyətin yaranması. Qurtuluş hərəkatı və Heydər Əliyevin hakimiyyətə qayıtması ...................................................... 478
27.4. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi və siyasi sabitlik uğrunda mübarizə................................................. 483





**XXVIII FƏSIL**. Azərbaycan Respublikası inkişaf yollarında ......................................................................... 487
28.1. Müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası və hüquqi, demokratik dövlət quruculuğu . 487
28.2. Azərbaycan Respublikasının xarici siyasətinin uğurları.......................................................... 496
28.3. Azərbaycan Respublikasında iqtisadi inkişaf və Sosial siyasətin uğurları .................................................... 504

**XXIX FƏSIL**. Müstəqil Azərbaycan Respublikasının mədəniyyəti........................................................................ 515
29.1 Müstəqil Azərbaycan Respublikasında təhsil və elmi 515
29.2. Müstəqil Azərbaycan Respublikasında ədəbiyyat və incəsənət............................................................................. 524

**NƏTİCƏ**........................................................................... 530

## QƏZƏNFƏR RƏCƏBLİ

# AZƏRBAYCAN TARÌXÌ

*OÇERKLƏR*





**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Dizayn: ***Zahid Məmmədov***
Texniki redaktor: ***Rövşanə Nizamiqızı***

Yığılmağa verilmiş **14.10.2013**
Çapa imzalanmış **01.11.2013**
Şərti çap vərəqi **34.** Sifariş № **587**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail: *nurlan1959@gmail.com***
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.